**Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası**

**"Konstitusiya" Araşdırmalar Fondu**

Kitab Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə dəstəyi ilə "Azərbaycanın və Şərqin böyük mütəfəkkirlərindən olan Şəmsəddin Təbrizinin "Məqalat" əsərinin Azərbaycan dilinə tərcüməsi və nəşri" adlı layihə çərçivəsində hazırlanmışdır.

**Layihənin rəhbəri:**
**Əlimamməd Nuriyev**
*"Konstitusiya" Araşdırmalar Fondunun prezidenti*

**Tərcüməçi və redaktor:**
**Rəsul Mirhəşimli**

*Şəmsəddin Təbrizinin "Məqalat" əsəri təsəvvüf irsində qiymətli xəzinələrdən sayılır. Əsər Şəmsin xütbələri və söhbətlərindən toplanıb. İrfan aləmində Cəlaləddin Ruminin müəllimi kimi mühüm yer tutan Şəmsəddin Təbrizinin bu əsəri təsəvvüf barədə geniş məlumatlar verir və Qurani- Kərimin bəzi ayələrini təfsir edir. Əsər Şərqin bir çox övliyaları və mütə- fəkkirləri barədə də məlumatlarla zəngindir. Kitab mütəxəssislər və geniş oxucu kütləsi üçün nəzərdə tutulub.*



**Əliməmməd Nuriyev**
*“Konstitusiya” Araşdırmalar Fondunun prezidenti*

Şərqin böyük mütəfəkkirlərindən sayılan Mövlana Cəlaləddin Rumi tərəfindən əsası Anadoluda qoyulan mövləvilik təriqəti Şərq xalqlarının dini-fəlsəfi və poetik düşüncə tərzinin inkişafına böyük təkan vermişdir. Müasir Türkiyə dövləti Cəlaləddin Ruminin şəxsiyyətini, yaradıcılığını və dini-mistik dünyagörüşü ilə bağlı fikirlərini dünyaya tanıda bilib. Qeyd etmək yerinə düşər ki, Mövlana Cəlaləddin Ruminin özünə mürşid saydığı Şəmsəddin Təbrizi Azərbaycanın qədim mədəniyyət mərkəzi Təbriz şəhərindəndir. Bizim üzərimizə düşən vəzifə bu böyük şəxsiyyəti dünyaya Şəmsəddin Təbriziyə yaraşan şəkildə təqdim etməkdir.

Rəsul Mirhəşimlinin Azərbaycan dilinə tərcümə etdiyi Şəmsəddin Təbrizinin “Məqalat” əsəri bu böyük mütəfəkkirin söylədiklərini doğma dilimizdə oxuya bilmək üçün bir vasitə sayıla bilər. Şəmsəddin Təbrizinin “Məqalat” əsəri onun özü tərəfindən yazılmayıb, bu söhbətlər müridlər tərəfindən sonradan toplanaraq çap edilib.

“Məqalat” təsəvvüf fəlsəfəsində çox samballı və ciddi əsərlərdən sayılır. Əsərdə sufizmdə böyük əhəmiyyət kəsb edən vəhdəti-vücud nəzəriyyəsinə, təsəvvüf dünyagörüşü baxımından maraqla qarşılanan bəzi sirlərin açılışına rast gəlmək mümkündür. Bundan əlavə, əsərdə Şəmsəddin Təbrizinin yaşadığı dövrdə və ondan əvvəl yaşamış bir çox sufilər barədə ətraflı məlumat verilir. Əsərdə Quranı-Kərimin bir çox ayələri barədə təfsirə də rast gəlmək olar.

Ümid edirik ki, əsər Azərbaycanda Şəmsəddin Təbrizinin yalnız adını eşidən, lakin onun haqqında heç bir məlumatı olmayan oxucular üçün də onu qismən də olsa tanımaq üçün mühüm bir vasitə olacaq. Bizim haqqımız Azərbaycanın dahi şəxsiyyətlərini tanımaq, vəzifəmiz isə onları ölkəmizdə və dünyada tanıtmaqdır.

# Ön söz

## ÖZÜNÜZÜ TANIMAQ FÜRSƏTİ

**(Şəms Təbrizi və "Məqalat"ı haqqında düşüncə)**



**Rafael HÜSEYNOV**
*Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, filologiya elmləri doktoru, professor*

Biz hamımız ölüb gedəcəyik. Bu sözlərsə ölməyəcək, daim qalacaq, müdam diri olacaq, həmişə dirilərlə olacaq.

"Elmsiz vücud susuz şəhər kimidir".

"Nə xoşbəxtdir gözü yatsa da, könlü uyumayan kəslər. Vay o kəslərin halına ki, könlü yatmış, gözü oyaq olmuş ola!"

"Tamahkar yüksəlməz, qənaət edən alçalmaz".

"İnsanın ruzisi insandan qaçmaz".

Hər biri qızıla bərabər, hər biri atalar sözü kimi sərrast.

Əslində bu kəlamları elə ən böyük azərbaycanlılardan, ən ulu Atalarımızdan biri deyib.

Müəllimlər müəllimi Mövlana Cəlaləddin Ruminin müəllimi olmuş Şəms Təbrizi.

***

Qəlb ağrısı ilə yazıram - Azərbaycan Şəms Təbrizini tanımır.

Adını bilmək hələ tanımaq deyil.

Haqqında rəvayət, nağıl kimi bir təsəvvürə malik olmaq bunca böyük vətən övladının şəxsiyyətinə, irsinə bələdlik üçün bəs etməz.

Bütün dünyanın etiraf etdiyi, bəşəriyyətin söz qiblələrindən birinə çevrilmiş Cəlaləddin Ruminin baş əydiyi Şəms Təbrizi kimdir?

Səkkiz yüz il boyunca diri olan bu dahinin qapısını nədən az açmışıq, sərgüzəştli ömrünün hikmət və dərs dolu günlərindən niyə yetərincə xəbərdar deyilik?

Cəlaləddin Rumi ötkün bir alimin oğlu idi, Mövlananın da atası kimi "Sultan ül-üləma" - "Alimlər padşahı" olacağına ətrafında onu tanıyanların hamısı ümid bəsləyir və inanırdı.

Orta əsr müəllifləri də, artıq XX yüzildə Mövlana haqqında araşdır-

malar aparmış, kitablar bağlamış - iranlı professor Bədiüzzaman Foruzanfər də, görkəmli türk ədəbiyyatşünası Əbdülbaqi Gölpinarlı da, Rumi haqqında sanballı tədqiqatın yazarı Şefiq Can da, Mövlana və Şəmsin ülfətini ayrıca incələmiş Bayram Ali Çətinqaya da bütün öyrəndiklərini öyrənəndən sonra bu nəticəyə gəlmişlər ki, Cəlaləddin Ruminin ömrünə Şəms Təbrizi nəsimi əsməsəydi, tanıdığımız Mövlana da pərvəriş tapmazdı.

Ən yaxşı halda elə atasının yoluyla gedən daha bir "Sultan ül-üləma" yaranardı.

Doğrudan da, Şəmsə rast gələnəcən, 1244-cü il noyabr ayının 29-dək Cəlaləddin Ruminin həyatı məlum axarıyla cərəyan edirdi: o, elmə qurşanmışdı, ibadət edirdi, şəhərindəki dörd məşhur mədrəsədə dərs verirdi.

Həmin il, həmin gün 60 yaşlı Şəms gəlib çıxdı Konyaya və o, artıq mənzil başına yetişməmişdən xəbərdar idi ki, bu şəhərə niyə gəlib, bilirdi ki, Cəlaləddin Rumiylə görüşməlidir, bilirdi ki, Cəlaləddin Rumidən işıq alıb ona işıq verməlidir (məxəzlər Şəms Təbrizinin dilindən çıxmış sözləri hifz edib: "Onun Allahın vəlisi olduğu haqda gerçək (!) bilgim vardı. Mən indi Mövlananın dostuyam. Tanrının dostunun dostu").

Onu sanki Allah o şəhərə bir mələk kimi ezam etmişdi.

* * *

Konyaya gəlib çıxanadək Şəms bir müddət Ərzrumda dərs demişdi, 1241-ci ildə Bağdadda filosoflarla mükalimələrdə bulunmuşdu.

Şəmslə qovuşanadək Cəlaləddin Rumi heç bir misra şeir də yazmamışdı.

Görüşdülər, dost oldular, qardaş oldular, iki bədəndə bir can oldular və Cəlaləddin Rumi MÖVLANAya çevrildi, Sözə hökm edən ŞAİRə döndü.

* * *

Ay gözəldir, onun gecələrin bağrına aydınlıq çiləyən çöhrəsi nə munisdir!

Amma Günəş olmasa, Ay nur səpərdimi?

* * *

Şəms elə bir Şəms kimi - Günəş kimi Cəlaləddin Ruminin ömrünə və taleyinə doğdu, öz nuruyla ondakı işığı da coşdurdu.

Mövlana o əsrdən buçağacan par-par parlamaqda ikən onun gur işığında Şəms elə bil itən sayaqdır.

Hər halda soydaşları üçün belədir.

Cəlaləddin Ruminin "Təbrizin fəxri" dediyi Şəmsi indi heç Təbrizdə də Cəlaləddin Rumi qədər mükəmməl və yaxından tanımırlar, onda qalmış Bakıda ola, yurdumuzun ucqarlarında ola.

Cəlaləddin Rumi Şəmsin hikmətdən başqa kimya elmində tayı-bərabəri olmadığını, riyaziyyatda, nücumda, məntiqdə, ilahiyyatda, bir sözlə, dövrünün mühüm elm sahələrinin hər birində əlçatmazlığını, dünyada ona tay bir nəfəri görmədiyini qürurlu məftunluqla dilə gətirirdi.

Şəmsə bəslədiyi tükənməyən heyrət və vurğunluğunu isə cərgə-cərgə misralarının dolablarına, rəflərinə düzüb.

Bizsə o vurğunluq və heyrətlər ünvanı babamıza ögey qohum qədər aşinayıq.

Rəvadırmı?

* * *

Şəms isə Mövlananı belə öyürdü: "Bu saat onun dünyanın heç bir yerində tayı yoxdur. Bütün fənlərdə, din bilgisində, qrammatika, sintaksis, məntiq elmində ən böyük alimlərdən də qüvvətlidir. Onlardan daha üstün, onlardan daha qüvvətli, daha gözəldir. Mən ağıl yönündən bilinməsi gərək olan bu bəhslərdə yüz il çalışsam, ondakı elm və hünərin onda birini əldə edə bilmərəm. O isə özünü bilməyən sayır. Hüzurumda ikən, məni dinlərkən özünü atasının qarşısında oturmuş 2 yaşlı bir uşaq kimi aparır, bir mətləbi izah etmək istəyəndə utana-utana: "Eyibdir, Sizin qarşınızda necə danışım?" - deyir".

Şəmsin təvazö ilə bəzənmiş bu sözlərində hər halda yenə Mövlananın onun qabağında özünü kiçik tutması, Şəmsi ustad qəbul edərək onun müqabilində fikir söyləməyə ehtiyatlanması diqqəti çəkir.

Bizsə kiçiklik göstərərək (artıq bu yerdə "cılızlıq" anlamında) o nəhənglikdə ərənimizə diqqətimizi əsirgəmişik, əsirgəməkdə davam edirik.

* * *

Babanızla tanış olun - Şəmsəddin ibn Məhəmməd ibn Məlikdad 1185-ci ildə Təbrizdə doğulub, 1247-ci ildə Konyada dünyadan uçub.

Şairanə səslənsin deyə "uçub" yazmıram. Şəmsə nə "vəfat edib", nə də "dünyadan köçüb" deyimləri yapışır. Çünki o, adi insanlar kimi vəfat etməyib, həmişə insanlarla qalmaq alnına yazıldığından dünyadan da heç yerə köç etməyib.

Uçub, qeyb olub, Cəlaləddin Ruminin "Məsnəvi"sindəki deyişlərinə söykənsək - pəri kimi insanların gözündən çəkilib…

* * *

Şəmsin yeganə iri əsərinin yadigar qaldığı təsdiqlənir. Düşüncələrini, təhlillərini, ayrı-ayrı müasirlərinə və zəmanəsinin gerçəklərinə baxışlarını əks etdirən "Məqalat" əsəri.

Elə təkcə həmin əsəri oxumaq bəs edər ki, Şəmsin kim olduğu, hansı üstün zəkanı daşıdığı anlaşılsın.

Bu kitabı vərəq-vərəq çevirdikcə Şəmsin "İxvan üs-səfa" mütəfəkkirlərinin, Əbu Əli ibn Sinanın, Hippokratın, Sokratın, Platonun əsərlərinə dərindən vaqif olması üzə çıxır.

Bəs şeirləri necə, olmayıbmı?

Necə olur ki, onunla görüşənə qədər bir misra belə doğurmamış Cəlaləddin Rumi 25031 beytlik "Məsnəvi"ni yaradır, həcmcə bundan ikiqat artıq "Divan-i kəbir" - "Böyük divan"ı ortaya çıxır?

Və Şəmslə ilk dəfə rastlaşanda Mövlananın yaşı 36 idi.

Cəlaləddin Rumi həmin "Divan"ı "Divan-i Şəms Təbrizi" kimi təqdim edərmiş.

Bir sıra əlyazmalarda sərlövhə elə belə də gedir.

Ayaq tutmuş inam ondan ibarətdir ki, bu şeirlərin hamısı Mövlananın özününküdür, sadəcə, Şəmsə olan sevgisindən, sayğısından qəzəllərinin məqtəsində - son beytində öz təxəllüsünü deyil, onun adını yazıb.

(Doğrudur, qədim tarixlərdə bunun oxşarı olan hadisələr keçir - Sokratın heç nə yazmadığı, dünyaya kitab olaraq özünü təqdim etdiyi halda altında imzası olan əsərləri də var. Platon öz qələminin məhsullarını dostu Sokratın adına çıxmış, sirdaş yolunda beynin və qəlbin bəhrələrini də fəda etməyin xoş bir timsalını icad etmişdir).

Bir qayda olaraq Şəmsin şair olmadığı təkrarlanıb.

Amma "Divan-i Şəms"in iç qatlarına nüfuz etdikcə ciddidən-ciddi şübhələr və tərəddüdlər baş qaldırır.

Bir çox qəzəllərin Mövlana tərəfindən könüllü olaraq Şəmsə şamil edilməsindən daha artıq elə gerçəkdən Şəmsə məxsus olması, Mövlana tərəfindən götürülərək onlara silsilə cavablar yazılması mülahizəsi ortaya çıxır.

"Divan"dakı Şəms Təbrizi təxəllüslü şeirlərin həqiqətdə Şəmsə məxsus olmasını inkar edən heç bir dəlil olmadığı kimi, həmin şeirlərin Mövlana tərəfindən yazıldığını təsdiq edəcək inkaredilməz dəlil və sübutlar da yoxdur.

Düzdür ki, bu iki dahi, bu ayrılmaz qoşa özlərini bir-birlərindən kənarda tutmağı ağıllarına sığışdırmırdılar.

Olsun!

Amma həqiqət hətta onların hansı hissiyyatlarla yaşamalarından da vacibdir.

Ona görə də Mövlana və Şəmsin şeirləri məsələsi nəinki qapanmış sayılmamalı, əksinə, hələ bundan sonra daha qətiyyətlə ortaya qoyulmalı və ədalətli, insaflı, doğruçu cavablandırılması üçün incədən-incə saf-çürük edilməlidir.

Bu, qəliz sual və mürəkkəb işdir, amma ona başlamazdan öncə gərək Şəmsin özünü gərəyincə tanıyaq.

Tanıyaq və tanıdaq!

Tanımasaq, hamıya tanıtmasaq, necə sevə bilərik, necə əziz tuta bilərik onu?

Onun haqqında danışacaq canlı şahidsə var.

Onüçüncü yüzilin ikinci yarısında doğulmuş, 1360-cı il iyun ayının 15-də ömür möhləti sona çatmış, deməli, vaxtca Şəmsə də, Mövlanaya da çox yaxın, eləcə də Cəlaləddin Ruminin oğlu Sultan Vələdlə sıx münasibətləri olmuş, həm Mövlananı, həm Şəmsi yaxından tanıyan çox şəxslə oturub-durmuş Əflaki Dədə.

Mükəmməl savad görmüş Əflaki Dədə fəlsəfi çalışmalarından savayı şairlik ilhamından məhrum olmayan bişkin qələm sahibiymiş, türkcə qədərincə ahəngdar olan dörd qəzəli və iki rübaisi də bəllidir.

Təxəllüsünü isə nücum elmiylə məşğul olduğu üçün götürdüyü fərz edilir.

Əflaki Dədənin baş əsəri isə “Mənaqib ül-arifin və Məratib ül-kaşifin”dir.

Bu kitab 36 ilə yazılıb.

1318-ci ildə Cəlaləddin Ruminin, Şəms Təbrizinin, çılğın mövləvi dərvişlərinin başına gələnləri yazıya almağa başlayan Əflaki Dədə həmin qiymətli mərifət salnaməsini 1353-cü ildə başa vurur.

“Mənqəbə” ərəb sözüdür. Mənası - “bir insanın ləyaqətləri”, “tərifəlayiq sifətləri”, “vəsf edilməli xidmətləri”dir.

Və özü də bir alim olan, dərin təfəkkürə malik Əflaki Dədə ömür həsr edərək doğurduğu bu əvəzsiz kitabla - bu gözəlləməylə, öygünaməylə əslində mövləviliyin şəxsiyyətlər dünyasına dikəlməkçün bir nərdivan yaradıb, Mövlana və Şəms haqqında həmişə üz tutulacaq etibarlıdan-etibarlı qaynaq vücuda gətirib.

Həm də elə yazıb ki, bu təzkirə bir dastan qədər şirindir.

Əflaki Dədənin “Ariflərin mənqəbələri” kitabının ayrıca bir fəsli Şəms Təbriziyə həsr edilib. O fəsildə əks olunanlar Şəmsin başına gələnlərdir, söylədiyi kəlamlardır, yolladığı məktublardır, onu lap yaxından

tanıyanların dilindən yazıya köçürülmüş təəssüratlardır.

Həmin fəsli oxumayan Şəmsi tanımaz.

İndiyədək də Şəmsdən söz açan hər alim mütləq Əflaki Dədənin o söz dəfinəsinə baş vurmalı olub.

* * *

Müdam dilində dualar, alxışlar, nəsihətlər qönçələnən Şəms Təbrizinin bir qarğışı da varmış.

Əflaki Dədə Mövlanaya istinadən yazır ki, Şəms Təbrizi tövsiyə edərmiş: "Birisindən bərk inciyəndə ona uzun ömür və çoxlu var-dövlət arzulayın".

Əslində Şəmsin özünün də mal-dövləti saysız-qədərsiz idi. Amma onun sərvəti hürküsüylə insanın ömrünü çürüdən dünya malı deyildi. Onun inciləri, gövhərləri elm idi, bilik idi, onun qızılı-gümüşü zəkasından süzülüb gələn düşüncələr idi.

Dünya malı arta-arta insan həyatından anları, saatları, günləri qəlpə-qəlpə qoparırsa, bilik çoxaldıqca insan ömrünə an-an, saat-saat, gün-gün ölməzlik, əbədiyyət əlavə edir.

"Kamil Təbrizi". Şəmsin bu ləqəbini də Əflaki Dədə xəbər verir.

Kamilliyin zirvəsinə yetişmiş bir müdrik olmasaydı, Mövlana kimi qüdrət ona tapınardımı?

Əflaki Dədənin xəbərlərinə görə, Şəms Təbrizi qara bir keçəyə bürünər, tez-tez səfərlərə çıxar, son dərəcə qənaətlə yaşarmış. O qədər qənaətlə ki, illik məsrəfi bircə dinarmış. 7 gündə bir yarım çörəyi kəllə-paça suyuna doğrayıb aclığını yatırarmış.

Günlərin birində Şəmsin bu adətini sezən aşpaz guya savab, xeyirxahlıq naminə Şəmsə verdiyi kəllə-paça suyunun içərisinə bir parça yağlı ət atır.

O gündən etibarən Şəms daha həmin dükanın qarşısından belə keçmir…

Şəms kimi nadir düşüncə və ağıl gücünə sahib kişilərin bir çoxunda qeyri-adi təlqin, başqalarını iradəsinə tabe etmək qüdrəti də olub.

Görünür ki, peyğəmbərlərin, ayrı-ayrı müqəddəslərin möcüzələr göstərmək qabiliyyəti ilə bağlı rəvayətləri uydurma yox, elə həqiqət kimi qavramaq lazımdır. Lakin bu, heç də səmadan gələn izahsız bir sehr deyil.

Zənnimcə, həmin keyfiyyət onlardakı hipnoz, təlqin, məsafədən təsir edə bilmək istedadı, varlıqlarındakı aşıb-daşan bioenerjiylə əlaqədardır.

Bu möcüzəlilik Şəms Təbrizidə də olub və Əflaki Dədə həmin fikrin təsdiqi üçün neçə-neçə şahidin yaddaşından dənlədiyi, doğruluğuna şəkk

gətirmədiyi əhvalatları çatdırır.
Mövlana Siracəddin Tatarinin Cəlaləddin Rumidən eişitdiyi söhbəti verir Əflaki Dədə.
Əflaki Dədənin özü də, istinad etdiyi şəxslər də dövrlərinin alimləri, dillərinə qəlp söz gəlməyən haqpərəst şəxsiyyətlərdir. Bilgin simalar olduğundan onların sözlərinə sadəlövh söz kimi də yanaşmaq olmaz.
Sərt keçən qışın ortalarıymış. Şəms ariflər məclisində yenə dürlər saçırmış. Dinləyənlərdən biri, necə olursa, bu çovğunlu-sazaqlı qış günündə bir dəstə təzə qızılgül görməyi arzulayır. Elə sözgəlişi dilə gətirilmiş bu istəyi eşidincə Şəms qalxıb otaqdan çıxır və dübarə yığnağa qayıdanda bir çiçək dəstəsini o əzizin qarşısına qoyur.
Hamının təəccübdən şaşırdığını görən Şəms "Yox, bu, kəramət deyil, dostların diliylə, niyyətiylə oldu. Uca Tanrı arzunuzu yerinə yetirməkçün qaibdən bu gül dəmətini göndərdi".

Bəlkə əslində otaqdan çıxıb geri qayıdan Şəmsin əlində heç nə yoxmuş?
Bu, təlqin imiş, oturanlar hamısı da elə zənn edirmiş ki, qarşılarına bir gül dəstəsi qoyuldu?!
Şihabəddin Yəhya Sührəvərdinin belə kütləvi təlqin və hipnozetmələri dolayısıyla orta əsrlərin qaynaqlarında hekayətlər bəs deyincədir.
Bir başqa bənzər olmuşu isə Əflaki Dədə Sultan Vələdin təbiriylə anladır. Ona da ən mötəbər mənbə - atası Cəlaləddin Rumi danışıbmış.
Şəmsin Kimya adında arvadı varmış və ona çox bağlı olduğundan da Mövlana xəbərdarmış.
Bir gün Şəmsin çox əsəbi halda Məram bağlarına tərəf irəlilədiyini görəndə o, mədrəsədəki qadınlara buyurur ki, təcili Kimya xanımı tapın, Şəmsin qanı qaradır, Kimya xanım gələrsə, ovundurar mürşidi.
Mövlana özü də Şəmsin çadırına yaxınlaşır ki, xanım gələnə qədər Şəms tək dayanmasın.
Amma içəri daxil olanda mat qalır.
Mövlananın Kimya xanımın ardınca göndərdiyi mədrəsə qadınları heç bu tapşırığı yerinə yetirməyə macal tapmamış Kimya xanım haradansa peyda olub çadırda Şəmslə yanaşı oturmuşdu, Şəmsin də eyni açılmışdı, xanımıyla deyib-gülürdü.
Mane olmamaqçün Mövlana çadırdan çıxır və ətrafda var-gəl etməyə başlayır.
Amma dərhal da Şəmsin onu çağırdığını eşidib yenidən çadıra daxil olur.
Şəmsi yalqız görüncə: "Bəs Kimya xanım hara getdi?" - soruşur.

Şəms gülümsünür: “Tanrı məni o qədər sevir ki, istədiyim qiyafədə yanıma gəlir. Sən görən anda Kimya şəklində gəlmişdi…”

Mövlanaya istinadən Əflaki Dədənin Şəms haqqında çatdırdığı daha bir ağlasığmaz, cadu, tilsim sayılası məqam: “Kamil Təbrizi istədiyi vaxt sultanların, əmirlərin otaqlarına girə bilirdi. Sarayın keşikçiləri, nökərnaibi onu görməzdi. O keçib səltənət taxtında oturardı, onların məclislərində olardı, sonra da həmin məclisdən nəsə bir əşya götürüb aparardı, heç kimsənin ona bir söz söyləməyə gücü çatmazdı”.

* * *

Volf Messinqin Stalinin qəbuluna getməsiylə bağlı əhvalatı xatırlayın.

Stalin gözbağlayıcılığa, təlqinə, ekstrasenslərə istehza ilə yanaşırmış.

Və Messinq onun kabinetinə gələrək öz xidmətlərini təklif edəndə, qabiliyyətlərinin dövlət üçün də fayda verə biləcəyini söyləyəndə Stalin üz göstərmir: “Mən belə şeylərə inanmıram”.

Messinq Stalini diksindirən və həmin andan bu barədəki mövqeyini büsbütün dəyişməyə vadar edən bircə cümlə deyir: “Bəs mən sizin kabinetə necə gəlib çıxmışam?”

Stalin göstəriş verir, araşdırırlar. Məlum olur ki, Kremlin bütün yoxlama məntəqələrindən keçərək birbaşa onun kabinetinə gəlib çatmış Volf Messinqin adı heç bir dəftər-kitabda, qeydiyyatda yoxdur. Sadəcə, o, adladığı yoxlama məntəqələrinin hər birində nəzarətçilərə özünün Stalinin sağ əli, daxili işlər naziri Lavrenti Beriya olduğunu təlqin edirmiş, onlar da farağat dayanaraq “Buyurun, keçin” deyirmişlər…

* * *

Amma ayrı bir gücü də olub Şəmsin.

O, sidq-ürəkdən birinə qəzəblənəndə, nifrəti aşıb-daşanda qarşısındakını görünməz dalğasıyla vura da bilirmiş.

Əflaki Dədə bu yerdə də ifadələrinə bel bağlamamaq mümkünsüz olan şahidlərə əsaslanaraq örnəklər sadalayır.

Mən bunlara da inanıram.

Adamdan adama fərq var, bu adamın o birinə nisbətən saçdığı dalğanın təfavütü var, bir insanın gözlərinin başqa insanın baxışlarındakı təsirdən seçilən yumşaqlığı, ya sərtliyi var.

Gözdəymə də xurafat deyil, gözdən saçılan mənfi şüaların nəticəsidir.

Zəhmli bir şəxsin qarşısında sıxılma, büzüşüb balacalaşma, qorxuya, vahiməyə düşmə də həmin vücuddan axan görmədiyimiz dalğaların ucbatındandır.

Şəmsdə bu fövqəlinsani qüdrət də varmış.

Rasputinin tarixcə uzaq olmayan nümunəsi ki tanışdır.
Elə Şəmsin qətli də Rasputinin qətlinə oxşartəhərdir...

* * *

Əflaki Dədə insanı üşəndirən gerçəkləri açır, yazır ki, bəzi ayıq düşüncəli böyüklər Şəms Təbriziyə "Seyfullah" - "Allahın qılıncı" deyirdilər.

"Çünki o, kimdən incisə, onu öldürər, ya da ruhunda yaralar açardı".

Şəms bir gün Qeysəridən Ağsaraya gəlir, bir məscidə girərək orada gecələmək istəyir. Ancaq namaz bitincə müəzzin bu nabələd şəxsə sarı qanrılaraq: "Məscidi tərk elə, get qalmağa başqa yer axtar", - deyir.

Şəms yalvarır: "Məni məzur tut, qərib adamam, başqa bir umacağım da yoxdur, icazə ver yatım, yorğunluğumu alım".

Müəzzinsə onu qaba sözlərlə yamanlayaraq dərhal kənarlaşmasını tələb edir.

Şəms: "Dilin şişsin!" - deyir.

Deyir və məsciddən çıxaraq üz qoyur Konyaya tərəf.

Müəzzinin dili söz Şəmsin dilindən çıxan dəqiqə şişir.

Başlayır nəfəsi daralmağa. Nə illah edirlər, əlac tapa bilmirlər. Məscidin imamı gəlib çıxınca müəzzin onu göndərir ki, bayaq qovduğu dərvişi tapsın.

Çay kənarında Şəmsi haqlayan imam dil tökür, üzr istəyir, müəzzinin təqsirindən keçməyi rica edir.

Şəms: "İş işdən sovuşub, artıq hökm çıxıb, bir şey edə bilmərəm. Yalnız onun imanla ölməsi, axirət əzabı görməməsi üçün dua edərəm", - deyir.

İki gün keçməmiş müəzzin həlak olur.

Bağdadda olduğu vaxtlarda Şəms qarşısından keçdiyi saraydan musiqi səsi eşidir, dinləməkçün ayaq saxlayır, içəriyə doğru bir neçə addım atır.

Sarayın sahibi nökərlərindən birinə əmr edir: "Vur o dərvişi, qovla getsin".

Kölə əlini qaldırmaq istəyincə qolu quruyur.

Sahib digər köləsinə göz edir, o da yaxınlaşmağa cəhd edincə elə yerində qıc olur.

Şəms saraydan aralanır.

Kölələrdən heç biri ona çata bilmir.

İki gün keçməmişsə sarayın sahibi keçinir…

* * *

Şəmslə bağlı bu şəhadətlər bir neçə onil öncə nağıl kimi gələrdi. Amma indi daxili gücün, iradənin, sözün maddiləşdirilə bilməsi haqqında elmi anlayışlarla tanış olandan, çoxdan bəri onları fantastik filmlərdə seyr eləyəndən sonra daha təəccüblənmirsən.

Ən azı "ola da bilər" düşünürsən (əslində, "boşqabdagələnlər" - yadplanetlilər barəsindəki filmlərin əksəri məqsədli şəkildə çəkilir və yayılır, dövlətlərin dərin qatlarında lap çoxdan bəlli olan başqa ulduzlardakı başqa həyatlarla bağlı gerçəklərə insanları yavaş-yavaş alışdırmaq məqsədi güdülür).

* * *

Əflaki Dədənin Şəmsdəki qeyri-adiliklər, ipə-sapa yatmaz enerji ilə bağlı daha bir çatdırması.

Şəmsin nikahlı arvadı Kimya xanımın çox gözəl və namuslu əyal olduğunu yazan salnaməçi bir gün qadınların onu Şəmsdən icazə almadan Sultan Vələdin nənəsiylə birgə bağa gəzməyə aparmalarını, bu arada evə gəlib həyat yoldaşını tapmayan Şəmsin çox hirsləndiyini rəvayət edir.

Şəmsin qəzəbi ildırım sürətilə maddiləşir.

Evə qayıdınca Kimya xanımın boynu keyləşir, zavallı qadın quru bir odun kimi hərəkətsiz düşüb qalır.

3 gün ağrı və sancı içərisində fəryad edərək çığıra-çığıra canını tapşırır…

Əflaki Dədə hətta möcüzənin dəqiq tarixini də açıqlayır - 1246-cı ilin dekabrı.

(Kimya xanımla Şəms Təbrizini onun Konyaya ikinci gəlişindən sonra Mövlana özü evləndirmişdi. Amma bəzi məxəzlərdə belə qeybətvari işarələr də dolaşır var ki, Mövlananın ikinci oğlu Əlaəddin Çələbi Şəmsin evinə tez-tez icazəsiz girib-çıxarmış və bu da Şəmsi narazı salar, lakin narahatlığını Mövlanaya sezdirməməkçün daxili əzablara tablaşmağa məcbur olarmış. Kimya xanımı Şəmsin Əlaəddinə qısqanması, Şəmsi aradan götürmək istəyən qüvvələrin başında da Əlaəddinin dayanması barədə də xəbərlər bir para məxəzlərdən sızmaqdadır.

Qaynaqlar Şəmsin qeyzinə tuş gələrək iztirablar içində can verən Kimya xanım kimi, Əlaəddinin də tezliklə xəstələnərək öldüyünü pıçıldayır.

Dərhal həqiqət kimi qəbul etməsək də, gərək bu söyləntiləri də nəzərdə saxlayaq.

Dünyadır, insandır, nələr olmur ki!).

* * *

İlk görüşlərində Şəms onun qarşısına çıxaraq: "Bu qədər elm oxumaqda nə fayda güdürsən?" soruşanda Mövlana: "Məgər elmdən üstün nəsə varmı?" cavabını vermişdi.

Şəmsin bu suala çoxdan hazırmış təki söylədiyi bir atmaca onun içərisini silkələmişdi: "Elm səni məlum olana doğru aparır".

Şəms isə gəlmişdi ki, Cəlaləddin Rumiyə elmin açmağa qadir olmadığı naməlumlar darvazasını göstərsin, idrakın bəlli üfüqlərini yırtaraq onu ayrı fəzalara qanadlandırsın.

* * *

Mövlana ilə Şəmsin - bu əkiz ruhların nümunəsi əsl dostluğun, təmənnasız sədaqət və məhəbbətin parlaq örnəyidir.

Əflaki Dədə Şəmsin bir hədis kimi qalmış və dostluğun tərifi, qızıl qaydası sanıla biləsi sözlərini də tapıb: "Gerçək dost Allah kimi məhrəm olmalıdır. Dostun çirkinliklərinə və xoşa gəlməyən cəhətlərinə dözmək, onun xətalarından inciməmək lazımdır. Dost dostdan üz çevirməməli, onun sözünü yerə salmamalıdır. Mərhəməti bol olan Allah eyiblərinə, günahlarına, nöqsanlarına görə bəndələrindən üz döndərmədiyi, şahanə bir şəfqətlə onların nazını çəkdiyi kimi, dost da dosta eyni münasibəti bəsləməlidir. Əvəz gözləmədən, heç bir təmənna güdmədən edilən dostluq belə olur".

* * *

Eşqdən Məcnuna dönərək səhralara sığınmış Qeysin atasıyla görüşü yada düşür.

Nizami də yazıb, Əmir Xosrov da, Nəvai də, "Leyli-Məcnun"çuların hamısında var o səhnə.

Füzulidən oxuyaq.

Bədbəxt ata biyabanda bir dəri, bir sümük olan oğlunu tapınca ürəyindən qara qanlar axsa da, onunla vüsalına şadlanır. Amma Qeys bu şadlığı da dərhal onun burnundan tökür. Tanımır atasını.

Məcnun dedi: "Ey mənə verən pənd,
Dana-yi süxənvər ü xirədmənd!
Kimsən, nədürür bu güftgulər,
Bifaidə batil arizulər?

Get, dərdimə sən dəva degilsən,
Biganəsən, aşina degilsən!

* * *

İndi görün Şəms özü nələri xatırlayır: "Uşaqlıq çağlarımda məndə qəribə bir hal yaranmışdı. Kimsə bu halımdan baş çıxara bilmirdi. Atam da bunun nə olduğunu başa düşə bilmirdi. Mənə deyirdi ki, sən dəli olmağına dəli deyilsən, amma bu halətin də nə halətdir, anlaya bilmirəm.

Mən atama dedim ki, səninlə mən bir durumdayıq ki, həmin hal kürt yatan toyuğun altına qaz yumurtasının qoyulmasına bənzəyir.

Yumurtadan qaz çıxmış, bir az pərvazlanınca suya cummuşdur.

Ana toyuq özünü ora-bura çırpır, amma suya girə bilmir.

Əziz ata! Mən üzə biləcəyim bir dəniz görürəm, mənim məskənim o dənizdir, halım da dəniz quşlarının halı kimidir. Sən də məndənsənsə, gəl. Bu dərya içində mən səndən deyiləmsə, get torpaq üstündə gəzən quşlara qarış"…

* * *

Bir dəfə atası Cəlaləddin Rumi Sultan Vələdə Şəms haqqında, onun fəzilətləri barədə o qədər könül dolusu danışır ki, həyəcana gələn gənc qalxaraq dabanqırma yollanır Şəmsin hücrəsinə. Təzim edir: "Atam bu gün Sizin uca xislətləriniz barədə çox yüksək təriflər söylədi".

Şəms köks ötürür: "Allaha and olsun ki, haqqımda söylədiyindən min qat artıq olsam da, mən sənin atanın ucalıq dəryasında bir damla da deyiləm".

Sultan Vələd Əflaki Dədəyə bu qəziyyənin davamını da nəql edib: "Yenidən qayıtdım atamın yanına, Şəmsin dediyini sözbəsöz təkrarladım.

Atam: "Şəms öz nurunu da tərif etdi, böyüklüyünü də göstərdi. Həqiqətdə söyləmiş olduqlarından da yüz kərə artıqdır", - dedi".

* * *

Mövlananın Şəmsə eşqi və pərəstişi elə nəhayətsizmiş ki, onu itirincə dünya başına dar gəlir.

Şəms 1245-ci il martın 12-də Konyaya qəfildən gəldiyi kimi, qəfildən də səssiz-səmirsiz aralanıb gedir.

Düz 16 ay ondan xəbər-ətər gəlmir.

Yaxın könül həmdəmini, fikir, əqidə, məslək ortağını itirmiş Mövlana bu acı hicranı olmazın sarsıntıyla yaşayır.

O, Şəmsin harada olması barədə ona hər hansı xəbəri gətirənə bu müjdənin doğruluğunu-yalanlığını yoxlamadan sovqat verərmiş.

Günlərin birində düz yolun yolçusu olmayan birisi təşrif gətirir ki, bəs Şəmsi Şamda gördüm.

Mövlana Cəlaləddin Ruminin parası yoxdu ki, muştuluqçuya pul verə.

Başından sarığını, belindən qurşağını, ayağından çəkməsini çıxarıb ona bağışlayır.

Həmin adam aralanınca yanındakılar Mövlanaya irad tuturlar ki, axı niyə belə etdin, o şəxs heç Şəmsin üzünü görməyib, dediyi də yalandır.

"Doğru deyirsiniz, bu adamın gətirdiyi yalan xəbərə mən sarığımla qurşağımı verdimsə, doğru xəbər gətirənə paltarımı yox, canımı verərdim, özümü ona qurban edərdim".

* * *

Şəmsin necə sədaqətli olması, onun vəfa barədə hansı düşüncəyə sahib olmasını isə Əflaki Dədə Mövlananın oğlu Sultan Vələddən eşitdiklərinə əsasən bəyan edir: "Bir gün Şəms Təbrizi fikir və əqidə dostlarıyla həsb-hal edərkən belə söylədi: "Bir nəfər haqqımızda bircə dəfə vəfa göstərərsə, sonra ondan min cəfa gəlsə belə biz həmin bircə vəfanın xatirinə yetirmiş olduğu digər cəfalara bənd olmarıq. Vəfanın haqqını bilən cəfaya baxmaz!"

Bu əhvalatı isə Əflaki Dədə Şəmsin müridlərindən eşidib.

Şəms Təbrizi mədrəsənin qapısı ağzında oturar, hücrədə əyləşmiş Cəlaləddin Rumini soruşanlara: "Mövlananı sənə göstərməyimçün nə gətirmisən?" - deyərmiş.

Biri də bu sualın müqabilində qayıdır ki, bəs sən özün nə gətirmisən ki, bizdən də bir şey tələb edirsən?

"Mən özümü gətirdim, başımı onun yolunda fəda etdim", - deyir Şəms.

* * *

Şəms Təbrizinin Konyada məzarı var. O türbənin ziyarətinə bu gün də axın-axın insanlar gəlir, o Şəms evinin qapısı hər gələnin üzünə açıqdır. Getmişəm, görmüşəm…

Amma oradakı həqiqətənmi Şəmsin məzarıdır?

Bu sualın cavabı müəmmalara qarışır.

O türbənin Şəmsin qətlə yetirildiyi məkanın üzərindəcə ucaldıldığı da ehtimaldır.

Əflaki Dədə sisə-çənə bürünmüş mətləbə çıraq tutmağa çalışır: "Şey-

ximiz, ariflərin sultanı Arif Çələbi həzrətləri anası Fatma xanım həzrətlərindən eşitdiyini danışırdı ki, Şəms həzrətləri şəhid olunca qafil alçaqlar onu bir quyuya atmışlar.

Sultan Vələd həzrətləri bir gecə Şəmsi röyada gördü. Şəms "filan yerdə uyuyuram", - dedi. Sultan Vələd gecə yarısı müridlərindən bir dəstə topladı. Gedib Şəmsin mübarək vücudunu çölə çıxartdılar, gülabla, müşklə, ənbərlə pak edərək Mövlananın mədrəsəsində, binanın memarı Əmir Bədrəddin Təbrizlinin yanında gömdülər. Bu, heç kəsin bilmədiyi bir sirdir".

Hansı dürüstdür bu fərziyyələrin?

Yəqin ki, daha heç vaxt bu suala cavab tapılmayacaq.

Şəms kimi heç bir çərçivəyə sığmayan insanın əslində sonu da, məzarı da hər kəsin görə, anlaya, təsəvvür edə biləcəyi biçimdə olmamalıydı.

Bəlkə bu cür sonluğu da özü istəmişdi, ürəyindən keçənlər gerçəkləşə bildiyindən, bu niyyəti də çin olmuşdu.

(Lakin türkiyəli araşdırıcılar Mehmet Nuri Gəncosman və Asim Əfəndinin tədqiqləri məzarı bir ayrı yerdə aramağa yönəldir. Onların qənaətincə, Şəms Konyadan yenidən Şama dönmüş, oradan isə Təbrizə qayıtmışdır. Guya elə Təbrizdə də vəfat edərək Kəcil qəbiristanlığında dəfn edilmişdir.

Bu da bir məzar).

Di gəl, Şəmsin son saatı, son yuvası barədə Əflaki Dədə daha inandırıcı görünən sənəd çıxarır.

O: "Sultan Vələd bunu ən doğru olaraq rəvayət etmişdir", - deyə Şəmsin axırıncı diri dəqiqələrinin ayrıntılarını əyan edir: "Axşamlardan birində Mövlanayla Şəms bahəm oturub dərdləşirmişlər. Bayırdan bir nəfər Şəmsə işarə edir ki, dışarı çıxsın.

Şəms sadə adam deyildi ki, niyə çağırıldığını duymasın, onda ki o bəsirət vardı, başına nə gələcəklərindən irəlicədən agah idi.

Mövlanaya: "Məni öldürməyə çağırırlar", - söyləyir.

Mövlana xeyli fikrə gedir, Allah bilənin məsləhət olduğunu deyərək "Quran"dan bir ayəni misal çəkir: "Qalx və əmr Onundur".

Mövlana bilsəydi ki, canından artıq sevdiyi Şəmsi bir an sonra elə həqiqətən ölüm gözləyir, onu saxlamazdımı?

"Hekayət edirlər ki, yeddi paxıl və alçaq adam sözü bir yerə qoyaraq pusqu qurmuşdular. Şəms çıxınca fürsət tapıb bıçağı saplayırlar köksünə.

Şəms elə bir nərə çəkir ki, bu səsin dəhşətindən o yeddi nəfərin yeddisi də bayılır. Özlərinə gələndə bir neçə damla qandan başqa bir şey görmürlər.

Həmin gün səhərdən-axşamadək axtarılsa da, Məna Sultanından bir iz əldə edilmədi”.

Bu, Şəmsin son möcüzələrindən biri idi.

Möcüzələrsə hələ xeyli davam edəcək.

Adı var olduqca, sözü qaldıqca, kitabı oxunduqca izahsız bir şəkildə Şəms qayıdacaq, yenə əfsunlarıyla valeh edəcək.

O vaxt, ölümündən az sonra onu tanıyanları, bilənləri, yüzillər keçəndən sonra bizləri, bizdən sonrakıları…

* * *

Əflaki Dədə: “Biri Şəms Təbriziyə “Mən ağlabatan möcüzəni möcüzə hesab edirəm”, - dedi.

Şəms etiraz etdi: “O, möcüzə olmaz. Möcüzə ağlın dərk etməkdə aciz qaldığı şeydir”.

Şəmsə etiraz etmirəm, amma söz də möcüzədir və o, məhz dərk olunanda, qəlbə, düşüncəyə yol tapması asanlaşanda möcüzələşir.

Lakin Şəmsin bu əsnada sözünün qabağına söz çıxarmağına qarşılıq olaraq nə deyəcəyini də təsəvvür edirəm: sözün möcüzəliliyi onun yoxluq aləmindən zühur etməsidir, olmaya-olmaya var olmasıdır, olmaya-olmaya insanın bütün varlığını, dünyanın özünü məhvərindən oynada bilməsidir.

* * *

Mayasın ağıldan almasa kəlmə,
Sən o sözü nə yaz, nə də ki söylə!

Bu, Şəmsin yaşı 8 əsrə çatan sözlərindən, onun qoca və qocalmaz “Məqalat” kitabındandır.

Onüçüncü əsrdə nəsihət verirdi, üçüncü minillikdir - vəsiyyəti, sözü yenə təzədir.

Bu onun hər mənada böyük olan kitabından vur-tut bircə yarpaqdır: “Hər kim sənə “filankəs səni tərifləyirdi” desə, söylə ki, məni öyən sənsən.

Kim sənə “filankəs səni söydü” desə, ona da söylə ki, məni söyən sənsən, onu bəhanə edirsən”.

Əlbəttə ki haqlıdır bütün dünyanın Müəllim deyə qəbul etdiyi Cəlaləddin Ruminin Müəllimi olan Şəms Təbrizi.

Sənə gətirilib çatdırılan hər sözün içərisində o sözü çatdıranın özü də var.

Yoxsa ki, niyə başqa sözü yox, məhz o sözü gətirib gəlib?..

* * *

Babamızdır danışan - Təbrizli Şəms. Qulaq asın nə deyir: “Dostunu ifrat dərəcədə sevmə. Bir gün ona kin bəsləyəcəyini də hesaba al. Düşməninlə də çox ağır və sərt davranma. Ola bilər ki, günlərin birində dostlaşarsınız”.

Bu öyüd verən də odur - Şəmsəddin Təbrizli - Kamil Təbrizi, Şəmsi Pərəndə - Uçan Şəms, Şəms ül-Həqq.

Hətta paxıllıq kimi ən rəzil insan mərəzində də bir məqbul damarı tuta bilmiş Ustadlar Ustadı: “Paxıllığın, qibtənin bir növü var ki, insanı cənnətə aparar. Xeyir işdə başqalarından geri qalmamaqçün çalışanların, mən niyə fəzilətdə ondan geridə olum deyib də alın təri tökənlərin, zəhmətə qatlaşanların həsədi…”

Bütün paxıllar belə paxıl olsaydı, yaşamağa nə vardı?!.

* * *

…Konyaya qədəm basdığı ilk günlərdə Şəms Təbrizi Şəkərfuruşan - Şirniçilər məhəlləsində bir otaq kirələmiş, gendən baxanlar onu zəngin tacir hesab etsinlər deyə hücrəsinin qapısından iki-üç dinar qiymətində iri və bahalı bir qıfıl asıbmış.

Şəms Təbrizinin şirin sözü, dərin sözü bu gün də o kəlmələrə, o kəlmələrdəki fəlsəfələrə dalanlara zəngindən-zəngin xəzinəylə üz-üzə dayandığını anladır.

Amma nə heyif ki, Şəms Təbrizinin qapısından asılmış iri qıfıl da o vaxtdan bəri yerindədir.

Rumini Rumi edən O oldu.

Bəs Onun özünü O edən nələr idi?

Nə qədər ki köhnə qıfıl yerindəcə asılıdır, bilməyəcəyik.

Qapılarımız açılsın!..

* * *

Üzdən adam olan min-min iblis var,
Amma yalnız üzdən adamdır onlar.

Bu sətirlər də Şəms Təbrizinin qiymətli saxlanclarındandır və onun gözləri kimi iti, mahiyyəti görməyi bacaran gözlər gərəkdir ki, üzdən bir-birinə qoşa almatək oxşar olan saysız şeytanlarla insanların fərqini duya.

Ancaq qıfılın ardındakı qapıdan içəri keçincə, Şəmsin düşüncə və söz dünyasına dalınca Ulu Ustad ən azı iki düyünü daim bizimçün açacaq.

Adamkən adam olaraq qalmağın gizlincini, bir də adam kimi göründüyü halda iblis olanları seçə bilməyin sirrini.

Azdır məgər?!

***

Aqillər "Yazıya pozu yoxdur" söyləmişlər. Yalnız yazıya deyil, elə şifahi söylənmiş ağıllı, kəsərli, müdrik sözə də pozu yoxmuş.

Orta çağın çeşidli qaynaqları və nəsil-nəsil ötürülən rəvayətlər belə iddia edir ki, Şəms Təbrizinin qələmindən çıxmış bircə sətir belə qalmayıb.

Amma "Məqalat" kimi böyük bir kitabı ortadadır. Söylədiyi, ardıcıllarının kağıza köçürdükləri, itib-batmağa qoymadıqları kitabı.

O yaşayan kitab əsrlər adlayaraq görüşünüzə gəlib.

Oxuyun ki Şəms Təbrizi babanızı yaxından tanıyasınız!

Oxuyun ki, özünüzü yaxşı tanıyasınız!

# “HƏR ŞEYİN ZAMANA EHTİYACI VAR!”

“Məqalat” və ya “Xirqeyi Şəms” adı ilə tanınan əsər Azərbaycanın və Şərqin böyük mütəfəkkirlərindən olan Şəmsəddin Təbrizinin əsəridir. Şəmsəddin Təbrizinin xütbələrindən və söhbətlərindən toplanmış bu dəyərli irfan bələdçisi XIII əsrdə yazıya alınmış ərəb və farsca qarışıq bir əlyazmadır. Əsərdən aydın olur ki, Şəmsəddin Təbrizi xüsusi ola- raq hər hansı əsəri yazmağa məşğul olmamış, bu söhbətləri onun yoxa çıxmasından sonra əqidə dostları tərəfindən bir yerə yığılmışdır. Əsər çox dəyərli və heyrətləndirici təsəvvüf mövzularını özündə əks el- ətdirməklə yanaşı, o dövrün görkəmli şəxsiyyətləri, zəmanənin elm ad- amları haqqında müfəssəl bilgilər verir. “Məqalat” Mövlana Cəlaləddin Ruminin qaranlıqda qalan bəzi cəhətlərinin işıqlandırılması baxımından da əvəzsiz bir xəzinədir.

Əsər Şəmsəddin Təbrizinin şəxsiyyətini tanımaqda, Konyaya gəlməsinin səbəblərini, təsəvvüf yolunun çətin məqamlarını anlamaqda, yeri gəldikcə Quran-Kərimin bir çox ayələrinin təfsirində yaxından bələdçilik edir. “Məqalat”la yaxından tanış olmazdan əvvəl Şəmsəddin Təbrizinin şəxsiyyəti və irfanda yeri haqqında bəzi məlumatları öyrənmək də, zən- nimizcə, dəyərli oxucular üçün çox maraqlı olar.

* * *

Böyük arif Məhəmməd ibn Əli ibn Məlikdad - Şəmsəddin Təbrizi Azər- baycanın qədim paytaxt şəhəri və elm, irfan mərkəzi Təbrizdə anadan olub. Şəmsəddin Təbrizi bu ilahi eşq yolçusunun nisbəsidir. “Şəmsəddin Təbrizi ruh qədər incə idi. O, dinin və həqiqətin günəşi idi. Bu, irfan yolçu- sunun özünə nisbə kimi götürdüyü ad Dinin Günəşi anlamına gəlir. Eşq yolunda yanan ürəklərə işıq salan bu övliya Həqiqətin günəşində bişib- kamilləşmək istəyənləri Günəş kimi yandırıb qovurmuşdur”.

On ikinci əsrdə dünyaya gələn Şəmsəddin Təbrizinin dəqiq doğum tarixi barədə tədqiqatçılar yekdil rəyə gələ bilməyiblər. Yalnız onun 1247-ci ildə şəhid edildiyi ehtimal edilir. Lakin ölümü barədə də müxtəlif fərziyələr irəli sürülür. Bəziləri onun yoxa çıxdığını, başqa tədqiqatçılar isə Şəmsin Konya yaxınlığında qətlə yetirilərək bir quyuya atıldğı fikrini irəli sürürlər.

Şəms, özünün söylədiklərinə görə, təsəvvüf aləmində ilk təlimini Təb-

rizdə, Əbubəkir Səllabaf adlı bir mürşiddən almışdır. Əflakinin Sultan Vələddən nəql etdiyinə görə, bütün övliyalıq məqamlarını bu mürşiddən öyrənmişdir. Lakin özündə və şeyxində görə bilmədiyi və heç kimin fərqində olmadığı bir şey vardı ki, onu ancaq Mövlana Cəllaləddin Rumi görə bilmişdi. Yenə Şəmsin Sultan Vələdə danışdıqlarına görə, gənclik çağlarında ona bəzi sirlər açılırmış ki, bunu mürşidənə deyən Şəmsə Şeyx Əbubəkir gördüklərini başqalarına söyləməsini qadağan edibmiş. Bu hal dərvişin sirr verməməsi baxımından əhəmiyyətli məqamdır.

"Yüksək erudisiyasına, hazırcavablığına və müəllimlik bacarığına görə Şəms hələ gənc yaşlarından "mürşidi-kamil" adını almışdır. O, qeyri-adi fiziki gözəlliyi və mənəvi təmizliyi ilə seçilmişdir."

"Məqalat"dan aydın olur ki, Şəms hicri tarixi ilə 642-ci ildə Konyaya getmişdir. Şəmsin Konyaya gəlişi Cəlaləddin Ruminin irfan aləmindəki dünaysını alt-üst edir. Bu təvazökar mürşid özü bunu heç zaman etiraf etməsə də, Mövlana Şəmsi özünə müəllim sayır, ilahi eşqin təcəllasını Şəmsdə tapdığını bəyan edir. Çünki Şəmsin Konyaya səfərinə qədər Rumi sadəcə, müəllimlik edir və elm aləmində çaılşmalarını aparırdı. "Şəms Təbrizinin Mövlana ilə qarşılaşdıqları gün aralarında qəribə mükalimə olur. Şəms Rumidən soruşur: "Məhəmməd Peyğəmbər (s), yoxsa Bəyazid Bistami böyükdür?" "Əlbəttə, Məhəmməd Peyğəmbər (s)! Bütün məxluqat və Bəyazid Bistami də Onun xatirinə yaradıldı." Şəms yenə sualına davam edir: "Onda niyə Bistami "Ləysə fi cübbəti sivallah" (Cübbəmin altında Allahdan qeyrisi yoxdur) deyib?" Mövlana cavab verir ki, onu anlaya bilməyiblər. Şəms sorğu atəşindən yenə əl çəkmir: "Həzrət Məhəmməd (s) deyir ki, biz Səni layiqincə dərk edə bilmədik, ya Rəbbi! Ancaq Bəyazid Bistami "Sübhana, mənim şanım nə ucadır"" söyləyir." Rumi bu sualı belə aydınlaşdırır: "Peyğəmbərimizin (s) qəlbi elə bir dəyra idi ki, onda nə qədər mərifət, ilahi eşq təcəlla etsə, nə qədər məhəbbət, Allah sevgisi dolsa, onu içinə alardı. Hətta artığını istəyərdi. Bəyazid Bistaminin qəlbi o qədər geniş olmadığı üçün kiçik bir təcəlladan aşıb-daşırdı". Əflakinin yazdığına görə, Mövlana, Şəmsin ilk sualını eşi- dəndə elə bil yeddi qat göylərin bir-birindən ayrılaraq yerə yıxıldığını, beynində böyük bir atəşin alovlandığını hiss etmişdir. Dərvişlərin dediyi və yaşadığı hal Mövlananı vücudundan ayırmış, ruhunu ondan alıb aparmışdır. Ruhunu Şəmsdə tapan Rumi bu dostluğu ömrünün sonuna qədər daşımış, sonra müridlərinə əmanət qoyub dünyadan köçmüşdür.

Mövlananın Şəmslə görüşməsi ona sanki itirdiyi qiymətli cəvahiratı Şəmsin mənəvi mənliyində, onun övliyalıq xəzinəsində yenidən tapmasına fürsət vermişdir. O, Şəmsin eşq qüdrəti qarşısında elə məst olmuşdu ki, bütün işlərini, müftilik, müdərrislik, vaizlik kimi məşğuliyyətlərini bir

kə- nara ataraq Şəmsin pərvanəsi olmuşdur. Kənar aləmlə əlaqəsini kəsib, artıq başqa bir aləmə dalmışdı. Gözü-qulağı Şəmsin söhbət və irşadında, həmişə onunla göz-gözə və diz-dizə idi.

Bu əsərdə Şəms Rumi ilə qarşılacağının bəzi əlamətlərinin olduğunu göstərir. "Yuxuda gördüm ki, mənə deyirlər, səni Anadoluda bir övliyaya dost edəcəyik. Bu görüşün nə zaman gerçəkləşəcəyini soruşdum. Dedilər, hər şeyin zamana ehtiyacı var!"

Şəmsin Mövlana ilə qarşılasması Ruminin həyat tərzini tamamilə dəyişir. Dostuna çox yaxından bağlanan Mövlana onun şəninə bir çox şeirlər yazmışdır. ("Səndən başqa başım varsa, yox olsun. Sənsiz yaşasam, varlığımı yandır. Kəbədə də sevgilim sənsən, kilsədə də. Eşqimin atəşi ərşi də keçdi, fərşi də. Bu atəş içində Şəmsəddinin üzünü gizləyə bilmirəm.")

Şəmsəddin Təbrizi ilə Rumi arasında olan yaxınlıq Konyadakı mürid- ləri qısqandırırdı. Şəmsəddin Təbrizi Ruminin müridlərinin ona qarşı olan bu münasibətindən bezərək, Konyanı tərk edərək Şama gedir. Dostunun ayrılığına dözməyən atasının halını görən Sultan Vələd Şama gedir və uzun xahişlərdən sonra Şəmsəddin Təbrizini geri dönməsinə razı sala bilir.

"Mövlana Şəmsin geri dönməysiylə ona daha çox bağlandı. Mövlana kiçik oğlu Əlaəddin Çələbinin aşiq olduğu bir qızı Şəms ilə evləndirdikdən sonra oğlunu daha da qəzəbləndirdi. Çələbi bir gecə dostları ilə birlikdə Şəmsi öldürdü. Hadisəni öyrənən Sultan Vələd Şəmsin cəsədini quyudan çıxarıb bir baxçada dəfn elədi."

Şəmsin öldürülmədiyi, ortada dolaşan bəzi söz-söhbətlərə görə, Anadolunu tərk edib haralarasa qeyb olduğu barədə də fikirlər mövcuddur.

* * *

Bu tərcüməyə qaynaq olan əsas əlyazma Mövlana Cəlaləddin Ru- minin nəslindən olan professor Fərudin Nafiz Uzluq tərəfindən mühafizə olunan bir nüsxədir. Bu mətn 27\21 ölçüsündə və 326 səhifədir. Bundan əlavə Konyada Mövlana Kitabxanasında 2144 və 2145 saylı iki əlyazma

ilə qarşılıqlı şəkildə tutuşdurulub. Başqa bir əlyazma Tehranda çap olunub və yenə də F.N.Uzluq tərəfindən hədiyyə edilib. Bu əlyazmanın üzərində iranlı alim Əhməd Xoşnuvis bəzi düzəlişlər aparıb. Həmin əlyazmanı tanınmış alim Mehmed Nuri Gençosman Türkiyə türkcəsinə çevirib.

Əsərin Şəmsəddin Təbriziyə məxsus olması barədə İranın məşhur alimi Furuzan Fər belə yazır: "Məqalat" Şəmsəddin Təbrizinin bəzi məclislərdəki xütbələri zamanı, Mövlana ilə söhbət edərkən aralarında baş

verən mükalimələrdən, müridlər və münkirlərin suallarına verdiyi cavablardan toplanmış bir əsərdir. Əsər Mövlananın şəxsi həyatını, onun ömür yolunu anladan bir çox gizli məqamları da aydınlığa çıxarmaqdadır.’’

Əsər, bəzi aydın olmayan məqamlarına baxmayaraq təsəvvüf ədəbiyyatı və dini-fəlsəfi təliminin öyrənilməsi baxımından qiymətli mənəvi xəzi- nə saymaq olar. Dünyanın qəbul elədiyi, hətta böyük alman mütəfəkkiri Hötenin yaradıcılığına təsir eləmiş Cəlaləddin Rumiyə müəllimlik etmiş övliya olaraq Şəmsəddin Təbrizi ilə öyünə bilmək hər bir azərbaycanlının haqqıdır.

***Rəsul Mirhəşimli***

## İSTİFADƏ OLUNAN ƏDƏBİYYAT


*1. Tərbiyət M.Ə. Daneşməndi - Azərbaycan, Bakı 1987*
*2. Çingiz Qacar. Qədim və orta əsrlər Azərbaycanın görkəmli şəxsiyyətləri. Bakı, 1997*
*3. Rəsul Mirhəşimli. Allah dostları. Bakı, “Qanun’’, 2005*
*4. Mevlana’dan altın öğüdler. Derleyen: Ziya Elitez, İstanbul*

# BİRİNCİ FƏSİL

Rəhman və Rəhim Allahın adı ilə başlayıb və Ondan yardım di- ləyirəm!

Bu kitab sevimli ərənlər sultanı Şəmsəddin Təbrizinin sözlərindən toplanmışdır. Allah bərəkətini üzərimizdən əskik eləməsin.

Təndən keçərsən, cana yetişərsən, yəni sonradan yaradılmış varlığa qovuşarsan. Haqq əvvəldir, başlanğıcı olmayan varlıqdır. Hadis* əvvəli harda tapar? Onu necə anlaya bilər? Torpaq harda, hər şeyi yaradan Allah-təala hardadır?

Səndə olan o qüdrət ki var, sən onunla hərəkət edər, onunla qurtuluşa yetişərsən - candır. Amma canı qoltuğuna vurduğun zaman nə edəcəksən?

Şeir:

Aşiqlərin sənə can ərmağanı gətirsələr belə

Başın üçün, hamısı da Kirmana zirə gətirmiş olurlar.

Kirmana zirə gətirməyin nə dəyəri var? Nə üz ağardar, nə qazancı bir quruş eləyər. Bu gün ora elə uca saraydır ki, niyazsızdır. Heç kəsdən bir şey gözləməz. Amma sən ona dua apar ki, niyazsız olan o dərgah niyazı sevər; sən də duaya görə bu hadisələr içində fırlanıb yaxanı qurtararsan. Əvvəldən sənə bir şey yetişər. Bax, o, Eşqdir. Eşqin tələsi gələr və səni yaxalayar. Necə ki, Quranda buyurulub: “Onlar Allahı sevərlər, Allah da onları sevər” (əl-Maidə surəsi, 54) məqamı bax, bu sevginin təsirinə işarədir. Ayə bütövlükdə belədir: “Ey iman gətirənlər! Sizdən dinindən dönənlərin yerinə Allah elə bir toplum gətirəcəkdir ki, onlar Allahı sevəcəklər, Allah da onları sevəcək. Onlar möminlərə qarşı mülayim, kafirlərə qarşı isə sərt olar, Allah yolunda vuruşar və hər kəsin tənəsindən qorxmazlar. Bu, Allahın lütfüdür, onu istədiyinə verər” (Maidə surəsi, 54). O, əvvəldən əvvəli görərsən. “O, gözləri dərk edər” (əl-Ənam surəsi, 103). Ayə bütövlükdə belədir: “Gözlər Onu dərk etməz. O, gözləri

dərk edər. O, lətifdir, xəbərdardır» (əl-Ənam surəsi, 103). O ayədəki məqam da buna işarədir.

Qiyamətə qədər sonu gəlməyən və gəlməyəcək sözün tamamı budur. Mənə övliya deyirlər. Dedim ki, yaxşı, elə olsun. Amma mən bununla qürurlanmaram. Bəlkə mən bununla öyünsəm, çox çirkin görünər. Ancaq

Mövlana, Qurani-Kərim və hədisdə yazılı keyfiyyətlərdən anlaşıldığına görə övliyadır. Mən də vəlinin vəlisi, dostunun dostuyam, bu baxımdan daha sağlamam.

Aynaya yüz dəfə səcdə etsən, heç yerindən tərpənməz. Onda əgər sonradan yaranmış bir çirkinlik varsa, qüsuru özündə bil, aynanı pisləmə. Onun üzündə gördüyün bu tək qüsuru ondan gizlə, çünki o mənim dostumdur. O, hal diliylə deyir ki, "bu, əlbəttə, olmaz".

Dedi ki, indi, ey dost, aynanı əlimə ver, bir baxım, deyirsən! Buna bir bəhanə tapa bilmirəm, sözünü yerə salmaq istəmirəm. Amma ürəkdən bir bəhanə tapaq ki, aynanı sənə verməyim, deyirəm. Çünki "sənin üzündə bir qüsurun var", desəm, bəlkə ehtimal etməzsən. Əgər "aynanın üzü qüsurludur" desən, daha betər olar. Sevgi imkan verməz ki, bir bəhanə tapım. İndi deyirəm ki, aynanı sənə verim, ancaq aynanın üzündə bir qüsur görsən, onu aynadan bilmə, aynada sonradan yarandığını bil. Onu öz xəyalın bil, yaxud qüsuru özündə bil. Barı mənim yanımda aynaya baxma. Şərt odur ki, aynanın üzündə qüsur tapmayasan. Əgər özündə qüsur bilmirsənsə, barı o qüsuru məndə bil ki, aynanın sahibiyəm. Aynanı pisləmə.

"Qəbul etdim, and içdim" - dedi, "aynanı gətir, artıq səbrim qalmadı". Yenə ürəyincə olmadı, "Ey ustad," - dedi "təkrar bir bəhanə tapım ki, bu şərtdən vaz keçəsən". Ayna işi incə bir şeydir. Yenə aradakı sevgi buna icazə vermədi. "İndi o şərti bir daha təzələyək" - dedi. O da bu cavabı verdi: "Şərt və sözləşmə budur, hər qüsurunu gördükcə aynanı yerə vurmayacaq, onun cövhərini qırmayacaqsan! Cövhəri qırılmağa əlverişli olmasa belə, bunu etməyəcəksən." "Əsla", - dedi, "belə fikrə düşmərəm və bunu düşünmərəm belə. Ayna haqqında heç bir qüsur düşünmərəm".

"İndi aynanı mənə ver ki, məndəki ədəbi, məndəki vəfanı görərsən". Dedi ki, əgər sındırsan, onun cövhəri bu qədər, bədəli bu qədərdir. Buna şahidlər, dəlillər göstərdi.

İndi bu sözlərdən sonra aynanı əlinə verincə, özü qaçdı. O birisi özözünə, "əgər bu ayna yaxşıdırsa, o nə üçün atıb qaçdı", deyirdi. O an sındırmağı düşündü, üzünə tutduğu zaman üzündə çox çirkin bir xəyal gördü; istədi ki, yerə vursun. Amma bunu edə bilmədi. Dedi ki, onun üzündən ciyərim qan oldu. Bu suç və ziyan qarşılığı ödəyəcəyi pullar, bu iş üçün tutulan şahidlər, sözləşmələr xatirinə gəldi. "Kaş ki, o şərtlər, o şahidlər, o cərimələr olmayaydı. Mən də könlümü xoş edər, nə etmək is- tədiyimi ona göstərərdim" - dedi.

O bunu söyləyərkən ayna da hal diliylə ona belə cavab verirdi: "Görürsən, mən sənə nə etdim? Sən mənə nə edirsən? İndi o özünü sevir, bəhanəni aynada tapır. Çünki özünü sevən kimsə nəfsinə sayğı göstərir.

Aynanı sevən də hər ikisindən vaz keçər".

Bu ayna Haqqın özüdür. O hesab edir ki, ayna Ondan başqasıdır. Bununla bərabər aynaya dönənlərə ayna əvəzini verər. Aynanın ona, onun da aynaya dözümü vardır. O, əksinə olaraq aynanı sındırsaydı, məni qırardı. "Mən könlü qırıqların yanındayam" buyrulmadımı? Sözün qısası, aynanın özü-özünə əyilməsi və ehtiyat göstərməsi imkansızdır. O, bir məhək daşı və tərəzi kimidir, əyilməsi də haqqa tərəfdir.

Bir dəfə ona desən ki, "Ey tərəzi! Bu ağırlıq azdır, düzgün çəkmirsən! Düzgün göstər!" O ancaq haqq olan şeyi göstərər, iki yüz il səhman versən, qarşısında iki yüz dəfə səcdə etsən də faydasızdır."

Mövlana sizə çox təşəkkür edirdi. Onu dinləmək və dinləməkdəki zövq, sizinlə yanına gedəndə göstərdiyi lütf və iltifatlar o qədər xoşumuza gəldi ki, ondan ayrılmaq istəmədik. Bunu yadında saxla, bu xalq ilə açıq üzlə danışarsan, xoşlarına gedər, sən də onların sözlərini dinləyərsən, xoş qarşılayarlar. Yoxsa, başqa cür danışsan, sıxılarlar. Bu gün onlar bi- zimlə yaxşı hərəkət etməsələr belə, yenə doğru hərəkət etmək lazımdır. Ona və dostlarına qarşı daim doğru davranmaq yaraşır. Necə ki, Allah- təala Peyğəmbərinə (s) "Əmr olunduğu kimi, düz ol!" (Hud surəsi, 112; əş- Şura surəsi, 15) buyurur. Sən ki, düzgünsən, düzgün qal! Düzgünlük göstər. Əyriyə nə qədər düz desəm, düzəlməz.

Bir nəfər padşaha nədim* olmuşdu. Bu adamın həqiqi dostluğu padşahın xoşuna gəldi. Ona daim qayğı göstərdi. Padşahın işləri bu yeni nədimin vaxtında düzəlməyə başladı. Ən çətin işlər asanlaşdı. O zamanın igidləri isə bu yolda təqlidə başladılar və işi təqlidin son həd- dinə çatdırdılar. Bu iş və bu mövzuda düşüncəmiz budur ki, bütün bu sözlər böyüklər tərəfindən söylənmişdir. Rəmzlər, işarələrlə bu sözlərin yozumları təqliddir.

O nə uca dövlətlidir ki, qazı olmuşdur. Özümüzə bir neçə yol seçirik və o yollarla gedirik. Amma onun evinin qapısının önündən keçmək istə- mirik. Çəkinirik, çox böyük dövlət sahibidir o.

etiraf edən təlimlərin ümumi adı - R.M ) elmini və bu mövzuları qələndər də yaxşı bilir, zındıq da. O, bu gün bütün günahları etmişdir, qəlbim ona laqeyd qala bilmir. Allahın işləri həmişə səbəbsizdir. Bununla bərabər əgər günahlarını ona desən dərisini üzər. Sənin nə işin var ki, bunu ba- carmırsan, deyər. Madam ki, birinin gəldiyini gördün, nə üçün pişva- zına çıxmırsan? Həşəmət və səltənət sahibi olanlara incitmək yaraşır. Onları hər zaman iş-gücsüz qoyarsan. Ancaq bir təməl üzərində yerimək gərəkdir. "Sözü bu gün söyləməlidir", - deyə zarafat etdiyin üçün incidi. Bir gün deyərəm ki, bu sözü və aynanı sındıraq. Biri, düzdür, deyir: "Mən Mövlananın sənin qapında bir şey olacağına inanırdım, halbuki, indi sən ona inanırsan. Elə isə, sən də, Mövlana da hər ikiniz bir

şey deyilsiniz!" Bu çətin görünən söz münafiq sözü deyil. Doğru sözdür. Bu sözü təkrarlamaq yenə eyni sözdür. Bu eynən Cüneyd Bağdadiyə göndərilən zındıq mü- əllimin əhvalatına bənzəyir. Uzun yolçuluqdan sonra Zındıq Cüneydin oturduğu yerə çatdı, ona dedi ki: "Ey Cüneyd, məndən ayrıldığın gündən bəri qalıb-getdiyin hər yerdə sənin bütün hallarını bilirəm. Amma burda olduğum gündən bəri sənə söyləyə biləcəyim bir şey tapa bilmirəm". Necə ki, şeyx bir sufiyə dedi ki, "Sən Musaya yaxın deyilsən. Necə ola bilər ki, sənə sirlərdən söhbət açım? Mənə bir sirr söylə deyirsən, sənə necə sirr söyləyim? Açıq-aydın söyləyirəm, anlamırsan, gizli söyləsəm, onu necə anlayacaqsan?"

Astadan danışılır, eşidir, ancaq danışdığını deyil, başqa bir söz eşidir. Ona yetişmək üçün çalışaq və "başqa şeylər istəyirsən, deyirəm", amma ona sirr söyləsəm, buna necə tab gətirə bilər? Cüneydin şeyxi olan o kəslə yaxınlığı yoxdu. Şeyxlərin gücü başqa-başqa olur. Onlar, küfr və islam bizim məqamımızda birdir, deyərlər. Bununla bərabər, bütün güclər iki qiyafədə görünür. Dedi ki, səninlə danışmağa dəyməz, ey aləmin barmaqla göstərilən adamı, bu dünyanın məsxərəsinə dönmüsən. Bir zaman Cüneyd Bağdadi o qədər üzüm yemişdi ki, gəyirməkdən mədəsi dağılırdı. Sıxıntısını keçirmək üçün ayaqyoluna getdi. O üzümdən ki, qaz hasil olur və o yana-bu yana dağılan qazlar, filankəs kimi yüz min xeyirsizdən daha xeyirli idi. Sən kimsən, sənin sözün nədir? Cüneydin sözü Haqqın sözüdür və bir hikmət baxımından söylənmişdir. Bu başqa deyim də böyüklərə işarətdir. Bəli, o da var, səninki hansıdır? Mən öz halımdan bir söz söyləyirəm, heç bunlarla maraqlanmıram da. Sənin də sözün varsa, mənə söylə, anlat onları. Bir arada incə bir söz açılarsa, nümunə göstərmək üçün onu açıqla. Bu sözlərə Mövlanam buyurduğu kimi, Qurani-Kərim və hədislərdən möhür vurmalıdır ki, mənası açıqlanmış

olsun. Məqsədlə uyğunluq yaratsın. Biri dedi ki, onun gözəl və qorxunc sifətləri də vardır. Gözəl sifətləri arasında utancaqlıq, qorxunc sifətləri arasında qisas almaq sifətləridir. Amma qorxunc tərəfi gözəllik tərəfindən üstündür. Yalnız sənin bir xasiyyətin var ki, kin saxlayan deyilsən. Bu sifət minlərcə sifətdən daha yaxşıdır. O, bir neçə gün səninlə danışmadığım vaxtlarda nə üçün qorxu və ürkü içərisində qaldın? Demək ki, Allah qor- xusu duydun. Bax, bu, gözəl əlamətdir. Bir ara mən sənə "danış" dediyim zaman məqsədim bu idi: Məna pələng xasiyyətlidir, hər an bayıra çıxmaz, sözə gücüm yetər. Bunu istər mənim qüvvətim zənn et, istərsə də ilahi qüvvətin əsəri fərz elə. Gah bir hiylə ilə onu bayıra dartaq, gah da o söz kimi heç çıxmaz olar. Sən danışdığın zaman sanki mənim sözlərimi danışırsan. Amma o dərvişə danışarkən nə qədər məna qoydun ortalığa. Qapılar açıldı, gözəl söz, geniş meydan göründü.

Mənim üçün deyirdin ki, o son dərəcə acizliyi üzündən göndərdiyim dostu satdı, xərclədi. Onun heç bir şeyi, heç bir işi yoxdur. Bəlkə cavanlıq elədi, yaxud gənclərin qarşısında yıxılıb-qalxdı deyə xatırlanar, lakin belə düşünmək doğru deyil. Çünki günahlar, suçlar var ki, bunlar insanda gəlib-keçən şeylərdir. Ola bilər ki, ağır bir günah da etsin. İndi ki, buna inanmışdır və bu gün çox bağlıdır, gərəkdir ki, dərvişin sözü qəbul edilsin. Gərəkdir ki, onun xatirinə əngəl olan bu işi bir zəhmət saymasınlar. Mən bilirəm ki, onda nə var, nə yoxdur. Mənim bunlarla bir alış-verişim olmaz. Ancaq bir az un, odun, ət verib, yardım edilsin.

Qış səni üşütməsin deyə, paltardan-zaddan bir şey göndərilsin. Sultan Əlaəddinin qardaşıdır, amma Sultan İzzəddinin də bir himməti yoxdur. Əlaəddin də yaman simic idi. Onun ancaq hünəri vardı. Ancaq onun himməti buna əngəldir. İki hünərdən biri şahmat oynamaq, o biri ox at- maqdır. Başqa bir işi yoxdur onun.

İndi söylədiyin sözdən və araçılıq etdiyin xeyirin müqabilində biri sənə, o biri də edənə məxsus iki xeyir meydana gəlir. Hədisdə "Xeyirxahlığa vasitəçilik edən onu eləyən kimidir" buyrulmuşdur. Bu, o deməkdir ki, vasitəçilik etdiyin xeyirdən meydana gələn iki savabın bir sənə, ikincisi də onu edənə yetişər.

İncimə, mən ikiüzlülük etməməyə söz verdim. Buna görə dostlarımla doğru danışacağam. Çünki söyləmək istədiyim sözü gözləmədiyin üçün söz əldən getdi. Başqa söz də yadıma düşmür. Nə söyləsən və söyləmək istəsən, onu sonraya saxlayırsan, sözü tamamlayım deyə. Halbuki, dərviş sözü incədir, indi əldən getdimi, söyləyəcəyim söz artıq o sözdən fərqli söz olur. Allah dostlarında bu təcəlla və görünüş, yəni ilahi əlamət və

varlıq aləmlərinin xaricinə çıxanlardır. Səma onları aləmlərdən aləmlərə aparır, Haqqa qovuşdurur. Hərçənd bir Səma da var ki, o haramdır və yasaqdır. Amma Allah dostlarının etdiyi bu Səma haramdır demək, bö- yük bir təhqirdir. O, ilahi çoşqunluqla hərəkətə keçməyən əl, əlbəttə, cə- hənnəmdə yanacaqdır. Səmada yüksələn əllər isə, əlbəttə, cənnətə va- racaqdır.

(Bir Səma da var ki, mübahdır*.) Bu səma riyazət* və pəhrizlə yaşayan sufilərlə zahidlərin Səmasıdır ki, onlara göz yaşı, incəqəlblilik gətirir. Şübhə yox ki, bunlar da cənnətə girəcəklər.

Bir başqa Səma da edilməsi vacib olan Səmadır. Bu da hal əhli ər- ənlərinin Səmasıdır. Biri də fərzi-ayn (edilməsi Allah tərəfindən əmr olunan) Səmadır. Beş vaxt namaz, Ramazan orucu necə fərz isə, aclıq və susuzluq vaxtı yemək və su nə qədər lazımdırsa, o Səma da hal əhli olanlara o qədər gərəklidir. Çünki onların həyat eşqinin zövqünü artırar. Səma əhli olan ərənlərdən biri Məşriqdə Səmaya başlasa, o biri də o tərəfdə - Məğribdə hərəkətə gələr. Bunların bir-birilərinin hallarından xə-

bərləri var.

Biri dedi ki, Mövlana həm lütfdür, gözəllik və yaxşılıq keyfiyyətləri ilə bəzədilmişdir. Mövlana Şəmsəddində isə həm lütf və qəhr sifətləri vardır, amma onun zatı gözəldir. Başqa biri dedi ki, hər kəsdə belədir. Mənim sözüm ortaya atılanda o zaman gəlib deyər ki, "mənim məqsədim onun sözünü rədd etməkdir, sizdə qüsur axtarmaq deyil." Ey axmaq, mən nədən danışdım, sən necə yozursan! Nə üzr istəyə bilərsən? O məni Allah sifətləri ilə vəsf edir və "Allah kimi, həm lütfü, həm də qəhri var" - deyir. Bu onun sözü deyildi. Ancaq mənim sözümdür; nə Qurandır, nə də hədis. Bu mənim sözümdür ki, onun dilindən çıxmışdır. Sən hardan anladın ki, mənimlə bağlı olan hər kəsdə lütf və qəhr vardır? Amma bu keyfiyyətlər hər kəsdə necə ola bilər? İndi rəvadırmı, onlar bu ağıl və ədəb ilə bir neçə günün içində Bəyazidə, Cüneydə, Şibliyə (Bəyazid Bistami, Cüneyd Bağdadi və Şibli Bağdadi nəzərdə tutulur-R.M) yetişsinlər və onlarla eyni kasadan nemət yesinlər? Əgər onun yanında o şeyxlərin hərəkətlərini başa salsalar, onların elədiklərini eləmədən yalnız eşitməklə ağılları başlarından gedər. Bununla belə, hamısı Allahdan utanar.

Bir dərviş onun məzarı üstünə getdi, dedi ki, bu adamın Allah ilə arasında bir pərdə qalmışdı. Bu pərdə də o dərvişin kərəmi idi. Bunu başqa bir dərvişdən soruş. Mövlananın üzü gözəldir. Bizim də həm gö- zəl, həm də çirkin tərəfimiz var. Mövlana bizim gözəl tərəfimizi görmüş,

çirkinliyimizi görməmişdi. Bu səfər ikiüzlülük etmirəm, çirkinliyimi göstəri- rəm ki, məni olduğum kimi görsün. Həm gözəllik tərəfimi, həm də çirkinlik tərəfimi anlasın.

Mənim məclisimə yol tapan şəxsdə görünən ilk təsir başqalarının söhbətindən soyuması, xoşlanmamasıdır. Hətta yalnız soyumaqla da qalmaz, bəlkə heç onlarla danışmaz, söhbətlərinə qatılmaz. Bizim bəzi dostlarımız anaşa ilə nəşələnirlər. Bu şeytan xəyalıdır, burada mələyi xə- yala gətirməyin mənası yoxdur. Şeytanın xəyalı necə olur? Bizim dostla- rımız nə üçün bizim o təmiz və sonsuz aləmimizdən zövq duymasınlar? Bu aləm onları heç fərqinə varmadan sarar, məst edər. Bu aləmin mübah olduğu haqqında xalqın sövdələşməsi var. Halbuki, şərab haramdır.

Bir nəfər, "şərabın haram olduğu Quranda yazılıb, amma nəşənin haram olması barədə Quranda heç bir şey yoxdur", - deyə şübhəli danışdı. Dedim ki, Qurani-kərimdə buyurulan hər ayənin bir səbəbi vardır. O, səbəbdən ötrü endirilmişdir. Bu anaşanı Həzrət Peyğəmbər (s) dövründə çəkmirdilər. Əgər əshabələr ondan istifadə etsəydi, onların öldürülməsini əmr edərdilər. Hər ayə ehtiyaca görə enər, ayələrin nazil olması bir səbəbə bağlıdır. Necə ki, Allah Rəsulunun (s) yanında Quranı çox uca səslə oxuduqları üçün Peyğəmbərin (s) mübarək xatiri pərişan olardı. Bun-

dan ötrü: “Ey iman gətirən müsəlmanlar, səslərinizi Peyğəmbərin sə- sindən daha artıq yüksəltməyin.” (Hücurat surəsi, 2) anlamında ayə nazil oldu. Bütün peyğəmbərlər bir-birini tanımışdılar. İsa (s) deyir ki: “Ey nəs- ranilər! (Xristianlar) Musanı (ə) yaxşı tanımırsınız, gəlin məni görün ki, Musanı anlaya biləsiniz.” Həzrət Məhəmməd (s) də buyururdu: “Ey xristianlar! Ey rahiblər! Musa ilə İsanı yaxşı anlamırsınız, gəlin məni görün ki, onları yaxşı tanıya biləsiniz.” Peyğəmbərlər bir-birini tanıyan, tanıdan, gerçəkləyən şəxslərdir. Onların sözləri də bir-birini tamamlayan, açıqlayan sözlərdir. Bundan sonra dostlar dedilər ki, “ey Allah elçisi, hər peyğəmbər özündən əvvəl gələni tanıyıb, özündən sonra gələnlərin isə müjdəsini verib. Sən də sonuncu Peyğəmbərsən, bəs səni kim tanıda- caq?” Peyğəmbər (s) buyurdu: “Nəfsini tanıyan, şübhə yox ki, Allahını da tanıyar.” Buna görə, mənim nəfsimi tanıyan mənim Rəbbimi də tanıyar. Bu mövzuda kim daha fəzilətli, istəyindən daha çox fikri incə və yetkin olsa da, o daha uzaqdadır.

2. Çingiz Qaçar. Qədim və orta əsrlər Azərbaycanın görkəmli
şəxsiyyətləri. Bakı, 1997
3. Rəsul Mirhəşimli. Allah dostları. Bakı, “Qanun”, 2005
4. Mevlana'dan altın öğüdler. Derleyen: Ziya Elitez, İstanbul

Şeir:

Bu könül işidir, qafa işi deyil.

yəsinə bənzəyir. Həmin qaydalarda belə yazılmışdı: “Filan qapıdan bayıra çıxarsan, bir qübbə var, arxanı o qübbəyə, üzünü qibləyə çevirəcəksən, bir ox atacaqsan, oxun düşdüyü yerdə xəzinə gizlədilib.”

Vaiz öyüd verər, axtarılan sevgilinin nişanəsini bildirər, onu axtarmağın yolunu göstərər. Bu yolda yürüyənlərin keyfiyyətlərindən söz açar. Bunu anlatmaq və nişanəsini göstərmək baxımından hələ ki, yetkinləşməmiş şeyxlə şair də şeirlər söyləyər. Amma bunlar elmli bir insanın qarşısında biabır olarlar. Necə ki, biri balıqdan danışarkən başqa biri “sən sus”, dedi. “Balıqdan nə bilirsən? Bilmədiyin bu mövzuda necə da- nışa bilərsən?” Bu adam, “Mənmi balığı tanımıram?” dedi. O birisi “Bəli, tanımazsan sən, tanıyırsan, balığın nişanəsini anlat!” dedi.

“Balığın iki ayağı var, dəvəyə bənzəyər.” O birisi başqa cür bir qəhqəhə ilə “Mən sənin yalnız balığı tanımadığını sanmışdım. Halbuki, indi sən öküz ilə dəvəni də bir-birindən ayıra bilmirsən,” dedi.

Şeir:

BİRİNCİ FƏSİL

Əgər lalə çaşqın halda gülməsəydi,

İçindəki qaranlığı kim görərdi?
Onun bu qədər öz qanına bulanması
Qəlbinin qara olmasının cəzasıdır.

Bəli, bütün bu sözlər o yerə işarədir. “Xalq ilə danışarkən, onların səviyyəsini nəzərə alıb danışın” buyurulmadımı? Deməli, onların bu çatışmayan anlayışları onlar üçün min bəladır.

Şeir:

Ağıl adamların bağıdır, eşq bağları çözər
Ağıl deyər ki, ifrata varma! Eşq də təklifsiz davran deyər!

Uşaqlıq çağlarımda mənə qəribə bir hal gəlmişdi. Kimsə bu halımı başa düşmürdü. Atam belə nə olduğunu bilmirdi. Mənə deyirdi ki, sən divanə deyilsən, bilmirəm ki, bu gərdişin səbəbi nədir? “Səndə bu yola getmək üçün gərəkli olan nə tərbiyə var, nə riyazət var, nə də başqa bir şey.” Atama dedim ki, bu sözü məndən dinlə! Sən və mən elə bir haldayıq ki, sanki bir qaz yumurtasını toyuğun altına qoyublar, bu yumurtadan qaz balası çıxmışdır. Bir az böyüyüncə, su kənarına gələn qaz balası o saat suya atılar. Toyuq suyun qırağında çırpınar, amma o hin quşudur, onun

suya girməyə imkanı yoxdur. Bax səninlə mən beləyik. Ata, mən onda üzə biləcəyim bir dəniz görürəm. Mənim yurdum o dənizdir. Halım da dəniz quşlarının halı kimidir. Əgər sən də mənim kimisənsə, gəl. Əgər bu dərya içində səndən deyiləmsə, get hin quşlarına qarış. Bu sözlərim sənə ərmağan olsun!

Misra:
Dosta belə edirsənsə, gör düşmənə nə edərsən?

Bəli, bir zümrə şübhə içində qaldı, bir zümrə də şübhənin yaxın mərtəbəsində. Bu, bir cəmiyyətin mərtəbəsidir, deyirsən. Mənsur Həllac şübhə içində getdi, bir zümrə də şübhə və ona yaxın arasında qaldı.

Şəhidlərin ruhu yaşıl quşun, möminlərin ruhları ağ quşun, uşaqlarınkı

sərçələrin, kafirlərin ruhları da qara quşun qursağındadır.

Allahın xas qulları üçün Səma halaldır, çünki onların qəlbləri təmizdir. Allah rizası üçün sevər, Allah əzmi ilə kin bəsləyərlər. Əgər mənim söyüb-söylənməm yüz yaşındakı kafirin qulağına dəysə, imana gələr.

Möminin qulağına toxunsa, övliya olar, Cənnətə gedər. Əvvəlcə röyamda sənə demişdim ki, mənim köksümlə onun köksü birləşdiyi zaman bu onun məqamı olar. O bundan öncə bir çox röyalar görmüşdür, axırda müsəlman gedər, salamat gedər. Həzrət Məhəmmədin (s) ümməti haqqındakı duasında olduğu kimi, yəni, "Ya Rəbbim! Ümmətimə doğru yolu göstər, onlar bunu bilməzlər". Necə olur ki, Əbucəhl qarını  o seçilmiş Peyğəmbərin (s) belinə atdı, necə olur ki, onun əlləri qurumadı və ya şişib çatlamadı? Nəhayət, o Peyğəmbər (s) ki, onların yolunda yürüyən tək bir atlıdır. Bu mütləqdir ki, ona qarşı ədəbsizlik edən şəxsə dərhal bir bəla yetişər. Elə bir insan ki, onun qarşısında bütün insanlar və mələklər nərdivanlarını yerə uzadar, onun ucalığının seyrinə dalarlar. Sözlərinə heyran olarlar. Möcüzələrini görənlərin qəlbi yerindən oynar. Hələ onu qara bir aslana minmiş, aslanı tənbəl bir eşşəyi qamçılar kimi sürdüyünü görənlər onu necə unuda bilərlər.

Bu unutqanlıq iki cürdür. Biri dünya yönündən olur. Necə ki, dünyaya qapılanlar, axirəti xatırlamağı unudarlar, ikinci unutqanlıq səbəbi də axirət işləridir. İnsana özünü belə unutdurar. Dünya ona görə pişiyin əlindəki siçan kimidir. Allah qulunun yoldaşlığı ilə ona elə bir hal gəlmişdir ki, otuz il səccadədə oturan şeyx belə bu mərtəbəyə yetişə bilməz.

Unutqanlığın ikinci səbəbi Allah sevgisidir. O sevgiyə tutulan dünyanı

da, axirəti də unudar. "Dünya axirət dostlarına, axirət də dünya dostlarına

haramdır. Dünya ilə axirətin hər ikisi Allah dostlarına haramdır" sözü də bu mənadadır. Mənə görə, sevgidə sərxoşluq da var, ayıqlıq da. Yəni sevən bəzən unudar. Amma Mövlanaya görə, sevgidə məstlik varsa da, ayıqlıq yoxdur. Mənim üçün məstlik halında unutqanlıq olmaz.

Dünyanın nə dəyəri var ki, mənə pərdə olsun, yaxud məndən giz- lənsin? Məndən ötrü, yalnız var olan odur ki, o, dünyadan əl çəkmişdir. "Mövlana Şəmsəddin Təbrizi bu halları birləşdirmişdir" dediyiniz üçün hamınız günahkarsınız. Bu nə xoş əzab, bu nə gözəl yoxsulluq! Əgər bu adam paxıllıq  etməsəydi, Allahdan soruşarıq. O bu sözü söylədimi, söyləmədimi? Bundan sonra Allah ona "paxıllıq edirsən" deyər, yaxud da onu tutub deyə bilərsən. O deyər ki, "necə olar ki, sən öz diləyini mənim diləyimin içində olduğunu söyləyə bilərsən?" O deyər ki, Mənim tərəfimdən yüzlərcə belə mübahisə uzanıb getmişdir. Əgər bağışlayarsan, bir daha təkrarlanmaz.  Başqa cür heç xoşbəxtlik üzü görməzlər, qiyamətdə də məni tapa bilməzlər, cənnətdə də.

Demək olar ki, əgər bir neçə quruş olmasaydı, mən çılpaq və ayaqyalın çıxıb gedərdim. Amma sizin halınız nəyə yarayardı? Mənim üçün

əsla bir daha dönmək ümidi yoxdur.

Şeyx dedi ki, xəlifə Səmanı qadağan etdi. Bu yasaq dərvişin içində bir düyün oldu. Xəstələndi, onu çox bilikli bir həkimin yanına apardılar. Nəbzini tutdu, ondakı xəstəliyin səbəblərini araşdırdı. Oxuduğu və bildiyi xəstəliklərdən heç birinə bənzəmirdi. Onda heç bir şey görə bilmədi. Dərviş öldü, həkim dərvişin qəbrini açdı, sinəsini yardı, içindəki düyünü bayıra çıxardı, eynən əqiq daşı kimi olmuşdu. Həkim bu əqiqi yoxsul bir çağında satmışdı. Əldən-ələ dolaşdıqdan sonra Xəlifəyə qədər gəlib çıxdı. Xəlifə onu üzük daşı düzəltdirdi. Bir gün bir Səma aləmində aşağı baxarkən paltarının qan içində olduğunu gördü. Özünü yoxladı, heç bir yanında yara izi görmədi. Əlini üzüyünə apardı, üzüyün qaşı əriyib ax- mışdı. Üzüyü satanları axtardılar, bir-bir həkimə qədər gedib-çıxdılar. Həkim də keçmiş hekayəti anlatdı.

Şeir:

Bir yerdə damla-damla sızmış qanlar görərsən, Bil ki, o qanlar mənim gözümdən axmışdır.

Səma nə eləyər? Cisimlə bağlı olan Səma yeyib-içməkdir. Onun azuqəsi nəfs ilə olar. Həmişə yeyilib-içiləcək şeylərdən ibarətdir. Necə ki, "Kafirlər yeyərlər və faydalanarlar, eyni heyvanların yeyib-içmələri kimi" (Məhəmməd surəsi, 12) buyurulmuşdur.

Biri dedi ki, heç Allahla danışırsan? O biri "bəli, danışıram"", dedi. Dedim, yalan indi bu saat meydana çıxacaq. Onu sıxışdırdım, dedim ki, indi O, sənə cavab versin. "Bu, çətin işdir". Dedim ki, bu əvvəl də çətin idi, amma sən "asandır"" dedin. Sənə əvvəldən bunu söyləmək lazım idi. Necə ki, bir din alimi Həccac bin Yusif ilə mübahisəsində aciz qalmışdı. Həccac ona "bu aciz halını əvvəl niyə göstərmədin" dedi. Boğulacağını anlayan "inandım", deyən Firon kimi, ön sırada getmək istəyənlər daim işin sonunu əvvəlcədən hesablamalıdırlar. Necə ki, Şeyxin üzü başqa rəngə girdi, çirkin göründü. Niyazdan, haqqa yalvarışdan, gecə yarısında gizli-gizli inləmədən başqa bir şey edə bilmirdi. "Ey ulu Allahım! Bu halı bizdən uzaqlaşdır, bu pərdəni bizim gözümüzün önündən qaldır", -deyə yalvarırdı. Nəhayət, o, halı gördü. Sənə yetişən o şənlik və aydınlıq da bir pərdə idi ki, başqa rəngdə görünmüşdü.

Ağlı olan hər alim bu dönən fələklərin bir döndərəni olduğunu bilir. İndi madam ki, bu pərdə açılmışdır, dua alovu lazımdır ki, onu yandıra bilsin. Ta ki, bizdən heç bir şeydə, heç bir kimsə havayı faydalanmasın.

Nə din, nə dünya ilə bağlı işlərdə hesab-kitab soruşmasın. Onun suallarına ca- vab verə bilərsənmi?

Buyurursan ki, Mövlananın qüdrəti, nuru və ucalığı var. Nəhayət, o ki əsilsiz şeylərə, batilə inanır, onun arxasınca yeriyər və ona uyar, belə bir insanda necə qüdrət və nur ola bilər?

Yenə buyurursan ki, əlli nəfər Allah dostunun Mövlananın arxasınca ayaqyalın yeriməsi lazımdır. Nəhayət, o, bir kor insanın arxasınca necə yürüsün? İnsan aciz qalanda, o acizlikdən ya bir nur, ya da bir zülmət peyda olar. İblis də acizliyinin ucbatından zülmətdə qaldı. Mələklər isə zəiflikləri ilə əlaqədar aydınlığa çıxdılar. Möcüzə də belə edər. Haqqın ayələri də belə olar. Aciz qalanda səcdəyə qapanarlar.

"Mən insanı ilk görüşdə tanıyıram","" deyən şəxs böyük xəta içindədir. O və onun kimiləri nə tapıblar ki, ona güvəniblər, onunla sevinən və məst olublar? Bu atəşlə bağlı və atəşdən bir baxışdır. Sən öz iç aləmində yeriməklə ondan da irəli keçməyə çalış ki, o, əslində, havadan ibarətdir. Mənim bu aləmdə biliksiz xalq ilə bir işim yoxdur, onlar üçün gəlmədim. Aləmdə Haqqa yol göstərən bu insanların üzərinə baş barmağımı basaram.

Kəlam alimi Şahab Hərivə Şamda bütün məntiq biliciləri arasında sayılırdı. Amma qadın və şəhvət düşkünü olduğu üçün zəif düşmüşdü və deyirdi ki, "ağlın fətvası budur." Məhəmməd Quyani ona demişdi ki, "fət- vada ağıl heç xəta etməz." Deyirdi ki, "xeyir, ağıl fətvada xətaya düşməz, ancaq xətaya düşən başqa bir şeydir." Dedim ki, imanın zövqü gəlib-

getməsində deyil. Zeynəddin Sədəqanı qaçan gördüm, üzünü çöllərə tutmuş, bir at kimi çaparaq yoxluğa qarışmışdır. Bu İmad heç olmazsa, ondan yaxşıdır. Nəhvi (sintaksis) başa düşər.

Şihabəddin Sührəverdinin nəvəsi mənə "şübhə sevməkdir"," dedi. "Ey bacısı fahişə", dedim, "axı səninki elə deyil." Yəhya Peyğəmbəri (ə) Quranda övliya deyə oxuyub, çox ağlamışdı. Mən olsaydım, onun gözlə- rini silərdim. Çünki o, günahsız idi. Ağlamağı lazım bilən şey ancaq gü- nahlarıdır. Bu övliya kimdir? Gəl söylə! Peyğəmbər (s) haqqında Quranda əsla övliya deyilməmişdir. Orasını Allah bilir.

Mənim halımdan xəbəri olmayanlar deyirlər ki, gözlə, Şamdan karvan gəlsin, yolların vəziyyətindən xəbər versin. Ondan sonra gedərsən. Əgər mənim sözlərim şeyx sözləri; hədis və Quranın təfsirləri və ya mükamilə və mübahisə yolu ilə olsaydı, nə bu sözləri eşidə bilər, nə də faydalana bilərdilər. Əgər dua ilə, aydınlatma yolu ilə olsaydı ki (bu gəlmək və dinləmək niyaz sərmayəsidir), ona faydalı olacaqdı. Yoxsa bir gün deyil, bəlkə yüz il danışsa, biz əlimizi çənəmizə dayayıb dinləyirdik.

Bir cövhəri çirkli bir qab içinə qoyaraq, qara bir yaylıqla sarısalar, on qat örtük içərisində gizləsələr, üstünə bez-dəri örtsələr ki, görünməsin. Bunda qeyri-adi bir şey yoxdur. Necə ki, Peybəmbərə (s) ruhun qoxusu və ruhun gözəlliyi yetişdiyi zaman hələ ki, öz ruhunu görməmişdi.

Ruhun gözəlliyinə yetişmək, ruhu görə bilmək üzaq bir mərtəbədir. Ruhu gördükdən sonra da Allah yoluna getmək gərəklidir ki, Allah gözlə görülə bilsin. "Bu həyatda və bu dünyada ikən" görməyi demirəm. Dünya- dakı cövhərlərin nə qədər pərdəsi varsa, hər cövhərin də bir işığı var ki, kənara vurar. Yetkin dünyagörüşü olanlar kənara vuran bu işığı görürlər. Amma kənara vurmayan işığı görüb tanımamaqlarına da çaşırlar. Yoxsa, Sokratın, Bokratın (Hippokrat), yunan filosoflarının söz və fikirləri Həzrət Məhəmmədlə (s), onun əhli-beyti, ona inanmış şəxslərin sözlərinə bən- zəməz. Bunlar "Allah əvvəli və axırı olmayandır", deyərlər.

Həzrət Ömər (r.a) bir gün Tövratdan bir parça oxuyurdu. Həzrət Məhəmməd (s) Ömərin əlindəki kağızı çəkdi. "Tövrat, ona endirilmiş olan zat (Musa) sağ olsaydı, mənim izimlə yürüyərdi", buyurdu.

İbrahim Əthəm Bəlx sultanlığından əl çəkmədən öncə, bu həvəslə bəxşişlər verər, vücudunu müxtəlif ibadətlə yorurdu. "Nə edək", deyirdi. "Nə etmək lazımdır ki, özümə bir könül açıqlığı tapım." Bir gecə taxt üzə- rində yatmışdı. Fəqət qəlbi oyaq, təkcə gözləri yuxuda idi. Gözətçilər da- vulları döyür, neylər çalınır, səs-küy salırdılar. İbrahim Əthəm öz-özünə dedi ki, siz hansı düşməni uzaqlaşdırmaq istəyirsiniz. "Düşmən mənimlə

birlikdə uyumaqdadır. Biz Allahın mərhəmət nəzərlərinə möhtac zaval- lılarıq. Siz təhlükəsizliyimizi necə qoruya bilərsiniz? Bizə Onun lütfünın sığınacağından başqa yerdə qurtuluş yoxdur." Qəlbi bu düşüncələrə dal- mış, başını yastıqdan qaldırmış, təkrar yatmışdı.

Şeir:

Təəccübəm, sevən insan necə uyuyar? Aşiqə hər cürə uyğu haramdır.

Qəflətən sarayın tavanından möhkəm ayaq səsləri eşitdi. Sanki damda böyük bir qələbəlik yürüş keçirirdi. Ayaq səsləri sarayın hər tərəfindən eşidilirdi. Şah öz-özünə "bu gözətçilərə nə oldu? Harda qaldılar?" dedi. "Görmürlərmi ki, bu qələbəlik dam üstündə qaçışır?" Sonra bu gurultu və ayaq səsləri onu təkrar çaşdırdı, dəhşətə saldı. Sanki özündən keçmiş, düşündüyü şeyləri unutmuşdu. Çığıra bilmir, silahlı gözətçiləri

çağırmağa gücü yetmirdi. Bu arada biri sarayın damından başını aşağı uzatdı. "Ey taxt üstündə oturan, sən kimsən?" İbrahim Əthəm cavab verdi: "Mən şaham. Dam üstündə gəzən sizlər kimsiniz?" "Biz iki-üç sürü dəvə itirmişik, bu sarayın damında axtarırıq." İbrahim Əthəm: "Dəlisiniz, siz?" Adam cavab verdi: "Divanə sənsən, İbrahim Əthəm!" "Dəvə karvanını sarayın damında itirmisiniz? Burada dəvə axtararlar?" Adam belə cavab verdi: "Allahı şah taxt-tacındamı axtararlar? Sən Allahı buradamı axtarırsan?"

Bax, o saatdan sonra İbrahim Əthəmi kimsə görə bilmədi. O getdi, canlar da onun ardınca getdi. Ondan bir xəbər çıxmadı. Bütövlükdə bu, çox çətin görünür. O, özünü tamamilə bir şeyə versəydi, çətinlikdə qalmazdı.

Vəliliyin mənası nədir? Əsgərləri, tacı-taxtı olan şəxsdə Allah dostluğu yoxdur. Bəlkə nəfsində vəlilik olan kimsə vəlidir. Sözündə, susmasında qəhr yerində qəhr, lütf yerində lütf göstərməsində hədəf olan şəxs vəlidir. Ariflər, "biz aciz kimsələrik, O, qüdrətlidir", deməzlər. Gərək, sən qüdrət sahibi olasan, hər sifətdə qüvvətli olasan, susmalı olan yerdə susasan, cavab verəcək yerdə cavab verəsən, qəhr və şiddət zamanında sərtlik göstərəsən, yaxşılıq və yumşaqlıq lazım olan yerdə yaxşılıq edəsən. Yoxsa, elə bir insanın özünə bəla, əzab gələr, insan məhkum olmazsa, hakim olar.

Saxta filosoflardan biri ölümdən sonrakı qəbir əzabını şərh edir. Bunu ağlasığan bir şəkildə izah edirdi. Deyirdi ki, can buraya özünü yetkinləşdirmək üçün gəlir, yetkinlik sərmayəsini bu aləmdən toplamağa ça- lışır. Bu aləmdən getdikdən sonra da artıq onun bir həsrəti qalmaz. İndi

gərəkdir ki, surətdən mənaya gələk. Tən can ilə qovuşduqdan sonra su- rətlə məşğul olar. Can tənlə qovuşarsa, bəlaya düşər. Canın o genişlik və büsat tərəfi qalmaz. O tərəfdə mal görər, saygı görər, bəri tərəfdə cana yaxın qadınlar, dostlar əldə edər. Hər cürə zövqlər tapar. Bu halda, bu tərəfə dönər, yanında ölümdən danışmaq onun üçün min ölüm deməkdir. O, niyyətlərini o biri aləmdən gözləsəydi, oraya getmək üçün çırpınardı. Bu gediş onun üçün ölüm deyil, bəlkə həyat olardı. Həzrəti Mustafa (s) buyurur ki, "möminlər ölməzlər, bu aləmdən başqa bir aləmə köçərlər." Bu hala görə, köçmə başqa, ölüm başqadır.

İnsan darısqal və qaranlıq bir evdə istədiyi kimi gəzə, belə bir yerdə rahatlıq və büsat görə bilməz. Hətta, sərbəst şəkildə ayağını uzadıb oturmaz. Amma o darısqal evdən geniş bir evə, böyük saraya köçər. O sarayın içində bağçalar, şirin bulaqlar vardır. Bax, o köçməyə ölüm de- yilməz. Bu söz ayna kimi təmizdir. Səndə zövq və qəlbində nur varsa, ölü-

mə aşiq olarsan. Allah səni məsud etsin, duanda bizi də yaddan çı- xarma! Əgər səndə belə bir nur və zövq yoxsa, o halda hazırlıqlı ol, çalış! Əgər belə bir halı axtarırsansa, tapacaqsan. Necə ki, Allah Quranda xəbər verir: "Əgər bütün insanlardan fərqli olaraq, özünüzün Allahın dostları olduğunuzu iddia edirsinizsə, (və bunu) doğru deyirsinizsə, onda (Allahdan) ölüm diləyin!" (əl-Cumuə surəsi, 6) Bu var ki, həqiqi Allah dost- larından, imanlı kişilərdən ölümü axtaranlar olduğu kimi, həqiqi inanclı, kamil imanlı qadınlardan da ölümü axtaranlar az deyil. Bu parlaq bir ay- nadır ki, halının açıq ifadəsini onda taparsan. Hər halında və hər işində ölümü soruşarsan, o iş gözəl işdir. Bu halda, tərəddüddə olduğun iki iş arasından birini seçmək üçün aynaya baxarsan. O iki işdən hansı ölüm tərəfinə yaxın isə onu seçərsən. Lazımdır ki, ölümə hazır, saf bir nur kimi onu gözləysən. Müctəhid ictihadında bu hala yetişincə, sanarsan ki, o, öz işindən ləzzət almış, dünyaya həsrəti daha azalmışdır. Düzünə qal- sa, onun dünya həsrəti daha çox artmışdır. Çünki bu aləm ilə daha çox qovuşmuşdur. Necə ki, qəbir əzabı mövzusundan danışarkən Surət və Misal cəhətindən irəli sürülən müddəaları söyləmişdik.

Sultan Mahmud Qəznəvi pərdəçiyə bir daş-qaş vermişdi. Pərdəçi vəzirin vəkilidir. Padşahdan vəziri haqqında çox xoş sözlər, razılıq etdyini eşitmişdi. Pərdəçi soruşar, ona bir daş-qaş göstərər: "Bu, yaxşı bir daş-qaşdır?" "Gözəl demək də sözdür? Bu mövzuda söz söyləmək belə ədəbdən kənar olar. Yüz min dəfə gözəl bir daş-qaşdır! Necə ki, şahımız haqqında, sadəcə, yaxşıdır, demək onun ucalığını izah etməyə yetməz. Ədəbdən kənar bir söz olar. Şah əmr edər: "Eləsə, onda sındır bu daş-qaşı!"

"Necə qırım bunu?! Vəzir deyir ki, Şahın bütün mülkü bu daş-qaşın dörddə birinə belə dəyməz. Bu, indi xəzinəyə yaraşır." Sultan, "neynək, qoy onda xəzinəyə yaraşsın", dedi və pərdəçiyə qaftan-qaftan üstünə geydirərək, könlünü aldı. Bu elə imtahandır ki, əgər sarayda belə dü- şünən başqa bir kimsə varsa, anlaşılsın deyə edilir və iş Ayaza qədər gedib çıxırdı. Şah ürəyində, "birdən üstündə əsdiyim Ayaz da belə söy- ləyər", deyirdi. Təzədən deyirdi ki, işdi-şayəd o da o birilər kimi etsə, onda nə edək. "Düşündüyü kimi söylər." Daş-qaş bəriyə gəldi, bu tərəf Ayazın tapıldığı tərəfdi. Yanına kimsənin yaxınlaşmadığı üçün bir pərdə ilə ayrılmışdı. Padşah daş-qaşı almaq üçün Ayaza işarə edərkən, "ol- maya bu da o birilər kimi söyləyəcək", deyə qorxub-titrəyirdi. Ayaz pad- şaha baxaraq, "nə üçün titrəyirsən", deyirmiş kimi onu süzür, "Şahın heybətindən titrəmək Ayaza yaraşır", demək istəyirdi. Onun sarayında yetişmiş, ədəb-tərbiyə öyrənmiş, həqiqətdə könlü Sultanın sevgisi ilə dolmuşdu. Sultan Ayaza dönərək, adətinin əksinə olaraq, "Ey sultan, bu daş-qaşı

al'', dedi, amma, "ey kölə, al bunu'', deməmədi. Halbuki, bu "kölə" sözündə, Ayaza görə, min kərə "Sultan" deməkdən daha səmimi bir iltifat gizlənirdi. Bu ona min kərə daha xoş gəlirdi. Sultan sözündən inciyərdi.

Ayaz ləli aldı. Padşah, "necədi, gözəldimi?" - soruşdu. Ayaz heç bir kəlmə artırmadan, "gözəldir'', cavabını verdi. Sultan, "o halda qır bunu'', dedi. Ayaz daha öncə röyasında gördüyü bir hadisə üçün iki daş hazır- lamış, paltarının qolunun içində gizləmişdi. Vuran kimi ləli parça-parça etdi. Hər tərəfdən ahlar, fəryadlar yüksəldi. "Ahın, fəryadın nə mənası var?" dedi. "Belə bir qiymətli ləli parçaladın" dedilər. Ayaz bu cavabı verdi: "Şahın əmri bu cövhərdən daha dəyərlidir''. Bu cavabı eşidən kimi məclisdəkilərin hamısı başını aşağı saldı. Bu dəfə də içlərindən min fər- yad yüksəldi. "Gör bir nə etdik?"- deyə ədəbsizliklərini anladılar. Şah xid- mətçilərinə əmr etdi: "Cəlladı çağırın, bunların yaxalarından yapışsın! Hər yana dolmuş bu axmaqları təmizləsin!" Ayaz araya girdi, "ey yumşaq xasiyyətli Sultan, ən gözəl hərəkət bağışlamaqdır", - dedi.

Şeir:

Bir gün xəyalımda səni gördüm, vüsalının şərabıyla məst oldum. Uzun bir gecə sübhədək sarılıb yatdıq, səhərin üzü parlayınca ayrıldıq.

Bütün varlığım sənin varlığına fəda olmuş, mənliyim sənin mənliyinlə

dolmuşdur.

Allahı aramağa o zaman buraxılarsan. O Allah ki, içində ağlın, xəyalın qeyb olduğu bu könülləri yaratdı. Bir ulduzu belə anlamaq mümkün olmur.

Bu mövzuda filosoflar, nücum elmi ilə məşğul olanlar, təbiət alimləri nə desələrsə-desinlər, iş onların dediyi kimi deyildir. O ulduz indi elə bir aləmdən var olmuşdur ki, bütün bu varlıqlar o aləmdən gəlmişdir. O, necə bir aləmdir?

Gübrə içində qımıldayan bir böcək belə, gərək, Allahı görsün və tanısın. Bu yolda başları dönmüş, ciyərləri parça-parça oluncaya qədər canlarını fəda edənlər, o aləmdən aşağı enmişlər. O aləm də beləcə onları seyr etməkdədir. Bunlar istəyərlər, ölüm çağına yetişsinlər ki, Allah onlara təzə bir həyat versin. Bəzilərinin qarnına sancı dolar; Allah onları bu aləmdə öldürüncə mülki-mal, can və bütün varlıqlardan vaz keçər, Bəlx şəhərinin hakimi İbrahim Əthəm kimi başqa bir həyata qovuşarlar.

Mövlana haqq yolunu axtarırdı. Bir kişi bir qadına və ya bir qadın bir gəncə aşiq olarsa, bir gün dükanını tərk edər, işini-gücünü buraxar.

Elə bir insana “səni asacaqlar” desələr, “əslində mən də Onu axtarıram, asın məni,” deyər. Aşiqdə can qorxusu yoxdur. O, bəqası olmayan fani bir sevgili üçün ölər, hər ikisi birlikdə torpağın altına gedərlər. Bu halda, başlanğıcı və sonu olmayan hər cür əyər-əskikliklərdən arınmış, tərtəmiz Allah-təalanın aşiqi olun, Onu sevin ki, O, ölümsüzdür.

İbrahim Əthəm çox var-dövlət xərclədi. Sevgilisinə qovuşmaq üçün gördüyü dərvişlərə canını bağışlayardı. Paltarının altından cod parçalar geyərdi. Gündüzlər gizlicə oruc tutar, gizlicə xəlvətlərdə ilahi söhbətlər edərdi. Sonra könlü daralar, könlü açılmadığından sıxılardı. Dərvişə xalqın qaş-qabağını sallamasından bir ziyan gəlməz. Bütün dünyanı su bassa, dənizllər daşsa, qazın nə vecinə! Nə üçün övliyalar, “Ey Allahım, məni bəslə və mənə uğurlar nəsib et”, deyərlər. Nəbilər, “inandıq və hə- qiqətə yetişdik”, deməklə kifayətlənərlər. Burada incə mənalar var. Peyğəmbərlər bir dilək diləmədilər, ancaq, “inandıq,” dedilər. Amma övliyalar Haqdan bir istəkdə bulundular. “Məni bəslə və mənə uğurlar nəsib et!”’

- deyə yalvardılar. Bax, bunu söyləmək peyğəmbərlərin işi deyil. Bəli, “məni bəslə və mənə uğurlar nəsib eylə”, yolundakı dua insan üçün ay- ıbdır. Bəzən insanda bir ayıb olar ki, min hünərini örtər. Halbuki, bir hünər gərək min ayıbı örtsün.

Bir insan da var, heç çatışmayan tərəfi yoxdur, amma kin bəsləyəndir. Bu hal bütün hünərlərini örtər. Sonda “sənə lənət olsun” xitabına haqq qazanar. Yaxşı adamın gözü ayıbı görməz. Bir Şeyx leşin yanından keçərkən orada toplanan camaatın burnunu tutub, üzünü yana çevirdiklərini, oradan tez-tez keçdiklərini görür. Şeyx nə burnunu tutar, nə üzünü çevirər, nə də addımlarını yeyinləşdirər. Ona “nə baxırsan” soru-

şanlara da “baxın necə ağappaq, sədəf kimi dişləri var!” deyə təriflməyə başlayar. Leş ona hal diliylə belə deyər: “Sizin əməl dəftəriniz dəyişikdir. Bu dəyişiklik də cəbr yönündəndir, yəni alın yazınız belədir.”

Dəyişik, rəng-rəng yazılar yazmamağa məşğul ol. Nəhayət, bu Cəbriyyəni (Determinizm dünyagörüşünə görə, qul hərəkətində, işində məcburdur. Yaratdığı şeylər əvvəldən təsbit edilmiş olan bir plana bağlıdır, alın yazısıdır və dəyişməz - Tərcüməçidən) bu tayfa yaxşı tanıyar. Əgəp sən bu Cəbriyə düşüncəsiylə görərsən, çox şeylər itirərsən. Zaman-zaman bir kəndə gedər, yatarıq; baxaq Allah nə buyurur, deyə gözləyərik. Yaxşı adam heç kimdən şikayətçi olmaz, gözü eyib və qüsur axtarmaz. Şikayət edən neçə qat pis adamdır. Boğazından sıxarsan, qüsurun özündə olduğunu açıb deyər. O, bir tərəfdən şikayət edər, bu, o biri tərəfdən. Hər iki tərəf də öz düşüncəsiylə bir cür düşünər. Qədərə görə, qul etdiyi işin yaradıcısıdır. Hərəkətləri heç bir məcburiyyətə bağlı deyil, sərbəstdir.

Dostu tərəfinə gəlincə, Cəbriyyədən olur. Cəbriyyə inancının iç üzünü bu tayfa (sufilər tayfası) bilər. Başqaları nə anlayar? Cəbriyyədə bir həqiqi Cəbriyyə, bir də təqlidçi Cəbriyyə var. Təqlid olana niyə baxarsan? Həqiqi tərəfinə nə üçün baxmırsan? Sən bizə xidməti artır ki, biz də duanı artıraq. Necə ki, əməli ağır gələnlər qurtuluşa yetmişlərdir.

Şeir:

Səndən ayrıldığımdan bəri gözlərim qaraldı
Gözlərimin buludlarından sel kimi yaşlar axdı.

Aşiqlərin söhbətində bu baxımdan bir qorxu var ki, insan, "görəsən, məndəki öz-özünü qınayan nəfsimin həqiqətinə inanmış bir hala gəlməsi üçün göstərdiyi inkişaf artdımı; peyda olmaq başladımı?""" - deyə dü- şünür. Gerçək eşq üçün söyləyirəm, yenə həqiqi araşdırmadan bəhs edirəm. O anma və araşdırma ki, bir diləkdən ibarətdir. Səndən Haqqı arama xüsusunda yüksəlmiş bir səs deyil. Yəni, "Kaş olsaydı, yaxud haradadır o?" kimi, sadəcə, bir anmadan ibarət olar. Həqiqi bir eşqin köhnə başmaqlarının tozunu bu zəmanə şeyxlərinin, aşiqlərinin başına dəyişmərəm. Gecə oyunçuları kimi pərdə arxasında xəyallar göstərənlər, o saxtakarlardan daha yaxşıdırlar. Çünki onların hamısı hoqqabazlıq etdiklərini söyləyər, oyunlarının yalan olduğunu gizləməzlər. Bir tikə çörək qazanmaq üçün, kasıbçılıqlarından bu işi etdiklərini açıq şəkildə söyləyərlər. Bu baxımdan bu oyunçular o birilərdən (saxtakar şeyxlər nəzərdə tutulur-R.M.) üstündürlər. Ona bir yol ilə bir söz söylədim ki, bunu başqalarına söyləsəm inciyərdilər. O istəyir ki, həvaü həvəs* özünü

yuxarıdan və aşağıdan, hər tərəfindən ağuşuna alsın, bax o zaman ondakı parlaqlıq və sözlərindəki gözəllik nəvadan gəlmişdir. Ondan ayrılan hər hava dalğası yenə özünə dönər. Bu söz ona yetişəndə məmnun olar. O, hava təkrar alçalınca onu da alçaldır. O bu sözdən də məmnun olar, işinə gedər, öz sözü özünə sənət olar. Gərəkdir ki, mədrəsədən bir qismət ol- sun, sevgisi və muradı yerinə gəlsin. O artıq hər kəslə zarafatlaşar, üstü- başı təzələnər. Dərvişlərə hörmət göstərməz. "Məndən ağıllı kim var? Mən Siracəddindən bilik öyrəndim, mənə kim ağıl öyrədə bilər? Allahı axtarmaq yükünü başında daşıya biləcək məndən daha səlahiyyətli kim ola bilər?" - deyə xəyallara qapılar. Öndə gedən şeyxlərdən bizə yetişənlərə qədər gəlib-keçənlər bir neçə sinfə ayrılırlar. İşə əvvəldən başlamaq lazımdır. Həvaü həvəs bəhsində qalmışdıq. Buna "müxtəlifdir" deyilməz. Sənai başqa, Seyid başqa, "o başqadır", demək mümkün

de- yil. Bunu bir dəli belə söyləməz. Bir il bu xasiyyətini tərk et, yalvarış və dualarla çiyninə bir xirqə keçir, səni gənc bir erməni köləsi kimi satarlar. O havadan əl çəkməyi tərk et. Sən həvaü həvəs üçün yaradılmadın. Bu öyüdü yadında saxla. Nəbadə bunu artıq-əskik sözlərlə xalqa söyləyib, onları incidəsən!

Sevgilisinə qovuşan aşiq naz edər. Amma dilbərə qovuşmadan əvvəlki naz xoşa gəlməz.

Yuxarıda haqqında danışılan vəzir, "bu ləli necə qırım?" dedi. Şah, "doğru söyləyirsən", - dedi, "necə sındıra bilərsən?". Gözündən öpdü. İndi bu hərəkətiylə, yəni vəzirin gözünü öpməklə, axtardığı qafil adamı tapdığını göstərirdi. Halbuki, bu sınaqla ağıllı bir adam axtarırdı. Biri məclisdə həmişə qonaqlar üçün əldən-ayaqan gedən adamların birindən nəzakətlə soruşdu: "Öz-özünüzə həmişə alıb-verirsiniz. Bu qədər qay- ğıya ehtiyac varmı?" Dedim ki, hərəkət iki cürdür. Biri işgəncə verilən adamın çırpınması, yəni dəyənək zərbələrindən qıvrılmaq kimidir. O biri gül bağçalarında, reyhanlar, yabanı çiçəklər arasında göstərilən canlı hərəkətlərdir. Sən də hər hərəkətin arxasınca düşmə.

Şeir:

Şamın arxasınca düşən pərvanə də bu sevdadan getdi, O nurun dalınca düşdü, amma atəşə düşdü.

İndi ki, o, bir atəşdir, onun çırpınması da alovdan irəli gəlir. Allah dostları haqqında da belə düşünmək lazımdır.

Şeir:

Nərgiz gözlərimə pis baxışlarla baxırdı, Onu öz varlığının çevrəsindən görürdü.

Bilmir ki, bu iş tərsinədir. Atəşə gedər amma nura düşər. Özünü xatırladan dosta o nəzərlə baxma.

Rübai:
Buraxmıram ki, könüldə düşüncə olasan,
İstəmirəm ki, gözlərdə dəyərsiz qalasan,
Səni canımda gizləyirəm, gözümdə-könlümdə deyil

Ta ki son nəfəsimə qədər mənə yar olasan!

Qəhr öz gözüylə lütfə baxarsa, həmişə qəhr görər. Bir kafirə dedim ki, sən də Allahın qulusan, mən də. Fəqət sən qəhr sifətindən, mən isə lütf sifətindən yaradılmışıq. Lütf sifəti, qəhr sifətindən üstün gələr. Qəhrdən vaz keç, lütfə bağlan, onun ləzzəti daha çoxdur.

Peyğəmbər (s) ümmətinə əvəzi olmayan bir şey qoyub getdi. Bəlkə o vardı, önünə bir pərdə çəkilmişdi. Cadu edərlər, çalışarlar ki, bu pərdəni qaldırsınlar. Bütün peyğəmbərlərin öyüdlərinin məzmunu budur. Özünə bir ayna axtar! İndi cavab verəcəksən, münasib bildiyini söylə, yəni ki, iki taylı qapının hər iki tayı sıx bağlanarsa, biri-birindən nə əskik, nə də artıq gələrsə, sən də eləcə soruşulana uyğun davran.

Padşah deyər ki, yanıma gələn kimsənin mən danışmayınca sözə başlamasını istəmirəm. Mənim soruşduqlarıma cavab versin, ondan ar- tıq danışmasın. Onun qəbuluna gələnlərin birindən soruşdu: "Arvadın varmı?" "Arvadım və üç uşağım var", - dedi. Şah heç iltifat göstərmədi, "bunu yola salın getsin", dedi. Ziyarətçi şaha bir kağız yazdı və dedi ki, Allah Musa Peyğəmbərdən (ə) "əlindəki nədir?" - deyə soruşdu. O da, "bu əsamdır, ona söykənib gəzirəm, bununla qoyunlarımı otarıram", - deyə sözü uzatmadımı? Şah kağızın altına belə bir cavab yazdı. "Musanın (s) sözü uzatmasında başqa hikmət var idi. Amma ağıllı adam suala uyğun cavab verəndir."

Birindən soruşdum: "Sən harda olursan?" "Hamam tiyanlarında"," dedi. Bu, yalandır, həqiqətə uyğun deyil. Qaldığı yer, sadəcə, hamam tiyanından başqa bir şey deyil. Bir yerin, eyni zamanda, iki nəfər tərəfindən işğalı mümkünsüzdür.

Bu varlıq aləmi böyüklər və yetkin insanlar üçün var olmuşdur. Onlar üçün də bir pərdə var. Buna görədir ki, bunlar zaman-zaman sirlərdən söz

açarlar. Allah ilə birlikdə olar, çaşqınlıq və iztiraba düşməzlər. Başqa bir vaxtda pərdə yoxdur. Sirlərdən bəhs edirəm, söz söyləmirəm. Görəsən, necə olar ki, bu böyüklər sözə yer verərlər? Bunlar arasında Bəyazid (Bəyazid Bistami nəzərdə tutulur-R.M.) o şəxslərdən deyil. Halbuki, pey- ğəmbərlər, kitab göndərilən Rəsullar bunlardandır. Hərçənd, sözdən məst oldular, uzaqdan bu hallarını gizlədə bilmədilər, yaza bilmədilər. Yüz min küp dolu şərab Allah sözünün verdiyi nəşəni verməz. Quranı bilənlər çox darısqal bir yerdədirlər. Öncə sözü anlayan və bilənlər Qurandan bir çarə tapar, dar yerdə qalmazlar. Çünki daha əvvəl Qurandan aldıqları nəşə və ilham ilə Quranın mənasını açıqlaya bilərlər. Necə ki, şair belə de- mişdir:

Şeir:

Gecəyə dedim ki, uzan, uzana bildiyin qədər.
İndi o bədirlənmiş ay yuxudadır.

Yəni gecə hər ikisi ilə başqaları arasında pərdə olduğu üçün, yaxud bir utanacağı şey varsa, özü ilə sevgilisinin arasını pərdələdiyi üçün gecəyə belə xitab etmişdir.

Biri dedi ki, ey Allahın Peyğəmbəri (s), mən o qaranlıq və soyuq üzlü ərəbə sənin peyğəmbərliyinə yaraşan sifətləri necə söyləyə bilərəm. Həzrət Peyğəmbər (s) belə buyurdu: "Lazımdır ki, sənə bütün ərəblər pərdə olmasın. Bu ərəb sənə pərdəmi oldu?" "Amma, ey Allah Rəsulu, o münkir və düşməndir", - dedi. Həzrəti Peyğəmbər (s) bu dəfə belə ca- vab verdi: "Sənin bu pisləməyənin ona nə faydası var? Ancaq haqq sözü ilə onun başını ucalda bilər, ona bir sevgi aşılaya bilərsən. Bəlkə həqiqi sözün bir faydası olsun." Gecəyə, uzan, dedim…

Bizim o şagirdlərimiz, o yarımçıqlar, bax onun pərdəsidir, onun gecəsidir. Aranızdakı qısqançlıqların inadına Allaha əfv diləklərimizi uçuru- ruq. Allaha şükürlər olsun, madam ki, uçurursunuz, gedər. Gücün çatırsa, düşməninə güzəşt elə, sevgi ilə bax! Bir kimsənin qapısına məhəbbətlə gedərsən, ona xoş gələr. İstər o dost olsun, istər düşmən. Çünki o səndən ancaq kin və qəzəb umarkən, sevgi görərsə, xoşuna gələr.

Biri dedi ki, ey Allah Elçisi! Hər kəsi mənim üstümə göndərirsən, bu arada səhabənin işlərini nə üçün buyurmursan?

"Bəli"," buyurdu, "Sən etibarlı adamsan, sənin inanılan insan olduğun aydındır. Mən bu xalqı qiyamət gününün əzabından uzaqlaşdırmaq istə- yirəm."

Səhabə sizin təqlid etməyinizi göz önünə almış və sizi xüsusi sə- viyyədə görmüşdür. Əlbəttə, sizə qiyamət işlərindən bir şey bildirmişdir. Başqa insanlar üçün bu xəbərləri eşitmə və hekayə yoluyla öyrənməyə imkan yoxdur. Çünki sən o insan deyilsən ki, bu zəmanədə sənə tay ta- pılsın. Sənin zamanından bir şey açıqlanarsa, o sirri hər kəsə bildirmək baxımından çox çəkinirlər, bəlkə də söylədikləri şeylərdə yanlışlığa və şübhələrə düşərlər deyə çəkinərlər. Bəlkə o tək və şəriksiz Varlıq səninlə xəlvət olmağı arzular.

Şeir:

Qonaq sahibi hər kəsə ziyafət verdi
Aləmlərə rəhmət olsun deyə cahanı doyurdu.

Çox dadlı yeməklər ən samballı qonaqlar üçün saxlanar. Allahın "(Qiyamət günü Allah-təala mömin kimsəyə belə buyuracaqdır:) Ey (öz imanından, əmələindən və Allahın vədindən) xatircəm olan kəs! (Və ya: "Ey arxayın nəfs!") Dön Rəbbinə sən, Ondan razı olarıq, O da səndən!" (əl-Fəcr surəsi,27-28) xitabıyla işarə etdiyi kimi, sən bu ilahi nemətə yad olan kimsələrdən deyilsən.

Şeyx Məhəmməd dedi ki, söz meydanı çox uzun və genişdir, hər kəs istədiyi kimi danışar. Mən də dedim ki, söz meydanı çox dardır, amma məna meydanı genişdir. Sözdən daha qabağa keç ki, genişlik görəsən. Bu meydanı seyr edəsən. Bir bax ki, sən necə uzaqsan, yaxud uzaq olan bir yaxınsan.

"Sizi yaxşı bilirsiniz"", dedi. "Bizim söz ilə işimiz yoxdur", dedim. Sən nə isən, osan, ancaq surət baxımından daha irəli bax ki, "cəmiyyət rəh- mətdir". Əgər səninlə danışmağa gəlməzlərsə, bundan hürkmə və uzaq durma, çünki surət arxasından danışarlar. Mənimlə təriqət sirləri haqqın- da bir şey danışmazlar. Çünki həm içəridə, həm də bayırda yad- lar var. Sən ancaq yalnız qaldığın vaxt gəl! Gözəl xasiyyətlisənsə, səndə kin, xainlik, oğurluq yoxsa. Amma bu insan vücudunda gizli xəyanət və oğ- urluqlar da var. Necə ki, Davud Peyğəmbərin (ə) zamanında ədalət zən- ciri göylərə qalxmışdı. Bu heç kimin bilmədiyi gizli oğurluqlardan irəli gəl- mişdi. Amma zəncirin aradan qalxdığını görüncə, hər kəs bildi ki, buna bir səbəb var. Ədalət olmazsa, dünyada könül açıqlığından, zövqü-səfadan nə varsa, aradan qalxar ki, bu da səbəbsiz deyildir. «(Kafirlərə verilən) bu əzab ona görədir ki, bir qövm (camaat) nəfslərində olanları (gözəl əxlaqi məziyyətləri) dəyişməyincə, Allah da onlara əta etdiyi neməti dəyişən

(pisliyə çevirən) deyildir. (Bir millət tövrünü dəyişmədikcə, Allah da ona verdiyi neməti dəyişməz).» (əl-Ənfal surəsi, 53)

Əgər sən öz təmizliyini, yaxşılığını qoruyur, o gizli xainliklərdən içini təmizləyirsənsə, səndəki gözəllik və təmizlik daha da irəli gedər. Ey haqq yolunun həqiqi yolçusu, könlünü xoş tut! Çünki könüllər oxşayan o ulu Tanrı sənin işini düzəltməklə məşğul olar. «O hər gün (hər an) bir işdədir (birini öldürər, birini dirildər; acizə kömək, zalıma zülm edər; birinin duasını qəbul edər; birinə mərhəmət əta edib, digərinə cəza verər. Bir işlə məşğul olmaq Onu digərindən yayındırmaz).» (ər-Rəhman surəsi, 29) O, ya axtaranın, ya axtarılanın işiylə məşğuldur. Bu ikisindən başqa hər kim nə deyərsə, axmaqlıq etmiş olar. Elə bir kimsə öz axmaqlığını gör-

məz, ancaq ilahi düşüncəyə və hər şeyə Allah əmriylə baxan ərənlərdir ki, hünərin və incə düşüncənin nə olduğunu anlar və bilər. İlahi görüşlərdən uzaqda qalan gözlərdə ancaq axmaqlıq və pərdə vardır.

İndi ey həqiqi dost! Allah-təala sənin işini yoluna qoymaq və düzəltməklə məşğuldur. Görünən və görünməz aləmdə sizinlə məşğuldur. Sizi heç başına buraxmaz. "Siz ancaq Allah diləyərsə, istəyə bilərsiniz", yəni Onun iradəsi olmazsa, bir şey istəyə bilməzsiniz; Bir ayədə buyurur ki: "Həqiqətən, Allah hər şeyi bilən və qadirdir." (ən-Nəhl surəsi, 70) Yəni, ey Mustafa (s), sən nə istəyərsən, o, bizim istəyimizdir! Nəfsi-həva deyildir. Bəzi şəxslər də deyərlər ki, buradakı "istəyə bilməzsiniz" sözü səhabələrə və ümmətə ünvanlanmışdır. Yəni siz istəyə bilməzsiniz, doğru yolun axtarılmasını da bilməzsiniz. Mən ki Allah elçisiyəm, mən istəyərəm.

Beyt:
Əsrar xəzinəsinin düyününü çözmək üçün,
Məhəmmədin (s) əlindən və könlündən başqa bir açar yoxdur.

Allaha and içirəm ki, xəlvətə çəkilmiş haqq dostlarının bu sözün təsirindən belə başları dönər. Bəs bu sözün mənası harada qalar?

Deyək ki, mənim bir şeirim, əsərim yoxdur ki, bundan nəşələnim. Özümdən-sözümdən zövq və həyəcan duyum. Elə bir şaircik hələ dünyaya gəlməyib. O halda mən kiməm ki? Allah məni tək yaratmış, təkbaşına çölə atmış, tək-tənha bir dağ başına buraxmışdır. Anam-atam öldüyü üçün qurd-quşlar məni bəsləyib-böyütmüşdür. Söz meydanı ge- nişdir, amma o geniş meydanda məna daralar. Bu qısılan məna meyda- nının o yanında başqa məna olmadıqca yazı və söz meydanının genişliyi də qalmaz. Yazının qələmə gəlməyən səsi məhdudlaşar, hərflər silinər. O zaman susmaq məna əskikliyindən deyil, bəlkə də mənanın parlaqlı-

ğındandır. Bu, eynilə Dişayil adında şeyxciyin cövhər və yun çuvalı ara- sındakı mübahisəni bəyənməməsinə, onu pisləməyinə bənzəyir. Mən bu sözlərimlə yunu cövhərə qarışdırmaq istəmirəm ki, iylənmiş və bulaşıq yunlarla onu yola gətirim. Mənim sözümü onun sözünün tərəfinə sürük- ləmək və onu öz sözü ilə bağlamaq istəmirəm.

İsa peyğəmbər (ə) anadan olan kimi danışmağa başladı. Həzrət Məhəmməd (s) də qırx il sonra sözə başladı. Bu onun kamil olmamağı ilə bağlı deyil, bəlkə yetkin olduğundandır. Çünki Həzrəti Məhəmməd (s) Allahın dostuydu. Quldan, "sən kimsən," deyə soruşarlarsa, "mən Allahın quluyam", deyər. Amma Sultandan, "sən kimsən", deyə soruşmazlar. O ağıldankəm cahil ancaq öz məktubunu oxuyar. Dostunun məktubunu oxuya bilməz. Əgər bir sətir belə oxuya bilsəydi, bu sözləri heç söy-

ləyə bilməzdi. O, tək və hələ də o məktubu oxuyar. Halbuki, onun köhnə mək- tubundakı əyri-üyrü sətirlər, qaranlıq və batil sözlər onun öz vəhmləri və xəyallarıdır. Necə ki, öz əlləriylə düzəltdiyi bütə qul olar, onun gözətçisinə, xidmətçisinə dönər. Bu zəmanədə bəzi qadın təbiətli kişilər də eynilə o bütlər kimi danışarlar. Ey özlərindən bixəbər insanlar! Siz bizdə mübarək bir şey axtarırsınız, halbuki biz də eyni şeyi aramaqdayıq. Sizin bizə bax- mağınızı istəyirik ki, günün günlüyü, saatın saatlığı, cansız varlıqların cansızlıqları qalmasın, həmişə bir olsun.

Aşıq olmayan aşıq, dərdli olmayan ağıçı dinləyənləri süstləşdirər. Halbuki, saz və sözdə məqsəd başqalarını coşdurmaqdır. Hələ məclisin pozulmağı, dostluğun dağılması, həmişə bir-birlərini gözləməməkdən irəli gəlir. Bir-birləri ilə elə qaynayıb-qarışmalıdırlar ki, ayrılmaz bir vücud kimi olsunlar. Allah "Mənim vəlilərim, dostlarım qübbələrim altındadır. Onları Məndən başqası tanımaz" (Səhih hədis) buyurur. Bu "Məndən başqası tanımaz" sözünün iki mənası var. Biri həqiqi məna, o biri də bu "başqa" sözüylə "yadlar" demək istədiyi mənadır.

Məna aləmindən bir Əlif zahirə çıxdı. O Əlifi anlayanlar hər şeyi anladılar. Onu anlamayanlar da heç bir şey anlamadılar. Haqq yolunun yolçuları söyüd budağı kimi titrəyərlər ki, o Əlifi anlasınlar. Hərçənd, bu yolçular üçün çox sözlər söyləndi. Haqq ilə xalq arasında, yeddi üzü parlaq, yeddi üzü də zülmət olan müxtəlif pərdələr mövzusunda çox təfsirlər verildi. Amma heç biri həqiqətə yol göstərə bilmədi. Ancaq bir icmanın yolunu kəsdilər və onları bu pərdələrin o tərəfinə necə keçəcək- siniz, deyə ümidsizliyə məcbur etdilər. Bütün bu pərdələr tək bir pərdədir. Bu pərdədən başqası da yoxdur. O pərdə isə bu varlıqdır. Öz-özümə, yaxud özündə öz mənliyimi gördüyüm hər kəslə danışa bilərəm. Sən

sənin düşmənin idi. Sən o olmadığın üçün onu incitdin. Nəhayət, mən səni necə incidə bilərəm? Ayağından öpüm desəm, qorxaram ki, kirpiklərimin tikanı ayağına batar və səni narahat edər.

Deyirlər ki, Mövlana (Cəlaləddin) dünyadan əl çəkmişdir. Şəmsəddin Təbrizi isə bunu etməmişdir. Mövlana da onlara sual verib: "Siz Şəmsəd- dini sevmirsiniz. Əgər sevsəydiniz, sizə elə sevilməyən və çirkin görün- məzdi."

Şeir:
Dözüm, gözü eyibləri görməkdən korlaşdırır
Aydın nəzərlər hər pisliyi açıq-aydın görər.

Bir şeyi sevən, ona qarşı kor və kar olar. Yəni sevilənlərin çatışmayan tərəfi görünməz və eşidilməz. Sevgisini itirən kəs o an qüsur axtarmağa başlayar. Görmürsənmi, ana körpəsini çox sevdiyi üçün övladının yata-

ğını batırmasından belə xoşlanar.

Şəmsəddin buyurur ki, bu cavabı əvvəlcə Mövlana söyləmişdi. İndi də məndən dinlə. Bir axsaq ulağı tövləyə çəkər, iki gün, iki gecə yem verər. Eşşək durmadan sahibini pisləyər, bu başqa məsələdir. O biri də ərəb atına minmişdir. At onu hər cür təhlükə və bəlalardan, yol kəsən həramilərdən qurtarmışdır. Bax bu misal o sirrin qüvvətini göstərməkdədir. Nəhayət, insanı daşıyan miniyin haqqı da ortadadır.

Bizi heç bir istək heç yana aparmaz. Ancaq dualar duası, yalvarışı bizə yoldaş olmalıdır. "Şübhə yox ki, sədəqələr yoxsullar üçündür", buyurulmuşdur. Bizə də ancaq yalnızlıq surətinin yalvarışı gərəkdir. Ancaq surət və məna onun elə bir niyazıdır ki, qaş-qabaqlı və üz-gözünü turşutmuş şeyxin yanında olmaz. "Ey üz-gözünü turşutmuş insan! Sən bizimlə cəng edirsən deyə bizə qarşı çıxmısan", dedim. "Xeyr," dedi, "insan qüsuru elə birinə qarşı göstərər ki, ondan incimişdir. Başqa biriylə də xoş keçinər, gülüşər." Yəni əvvəlkini görər, surətini turşudar, bunu görə gülümsər və bundan heç bir sıxıntı görməyincə həmişə xoşlanar. Əgər bir cəfa və ziyan görərsə, bu da nəfsinə aid bir savaşıdır. Üzünü öz tərəfinə çevirər, qaş-qabağını sallayar. Üzünü dost tərəfə çevirəndə də gülməyə başlayar. Bunu tanımaq bir yetkinlikdir. Bunu tanımamaq da yetkinliyn yetkinliyidir.

Bir kimsənin davasını onun mənası üçün, bir kimsənin mənasını da davası üçün öyrənmək istəyərəm.

Şaha dedilər ki, mehtər sənin atına minib. Şah da bu cavabı verdi: "Əgər mən atın üstündə olsaydım, o, təpəmdə oturacaqdı. Ancaq indi atdan enmiş haldayam. Təkrar minsəm, mehtər bilər, tez-tələsik tövləyə qaçar. Bu gün mən arvadımı boşasam belə, yenə o bilər." Dedi ki, sizin məclisinizdə tapılacaq dəyərdə olmadığımız üçün xidmətdə qüsu- rumuz var. Bu şəxslər ki, böyüklərin yanına qəflət içində gedərlər, bun- ların onlardan xəbərləri yoxdur. Çünki onların yanına hazırlıqsız get- mişdilər. Yol gedən bir adam bir çaya rast gələr. Həmişə gur axan bir suya girsə, dərindir, boğulacaq. Üstündən atlanıb keçmək istəsə, enlidir, suya yıxılacaq. O halda bu çətinliyi aradan qaldırmaq lazımdır. Qur- anda "Nəfsinizi öldürün" (əl-Bəqərə surəsi, 54) (Bu ayə Qurani-Kərimin bəzi məallarında "Özünüzü (buzovu tanrı bilən adamlarınızı) öldürün" Bünya- dov, V. Məmmədəliyev. Qurani-Kərim məalı. Bakı, "Qismət", 2006. kimi açıqlanır - R.M.) buyurulmadımı?

Həzrət İbrahim (ə) o dörd quşu öldürdü, o saat dördü də birdən dirildi. Amma burada o dörd quş o an dirilməz, ancaq başqa yöndən dirilər. Çünki övliyaların iç üzü də bu dörd quş kimidir. O dörd quş ölmüşdü, amma başqa yöndən dirildilər. Necə ki, nəfsiylə yaşayanlar başqa, qəl-

biylə yaşayanlar başqadır. Qəlbiylə yaşayanlarla, Rəbbiylə yaşayanlar da başqa olar. Çarə yoxdur, çünki yol budur.

Quranda "Allah yolunda gözəl (könül xoşluğu ilə) bir borc verin" (əl-Muzzəmmil surəsi, 20) buyurulur. Allahın nə ehtiyacı olur ki, ona borc ve- rilsin. Yenə Allah Musaya (ə) buyurdu ki, "Ey Musa, acdım. Məni do- yurmazsanmı? Qapına gəlsəm, məni necə qarşılayarsan?" Musa, "Ey Allahım, sən belə şeylərdən arisən", dedi. Allah yenə təkrar etdi: "Ey Musa, əgər qapına gəlsəm?" Nə qədər Musa Allahın bu cilvəsinə qar- şı,"necə ola bilər", deyə düşünürdü, amma Allah da onun əvəzində, "əgər gələrsəm, nə edərsə", deyirdi. Nəhayət, dedi ki, çox acdım, müba- hisəni burax, get yemək hazırla, sabah yenə gələcəm. Sübhdən durub yemək hazırladı, baxdı ki, süfrədə hər şey yerindədi, təkcə su çatışmır. Bu zaman bir dərviş gəldi. "Allah rizası üçün mənə bir az yemək ver" dedi. Musa dərvişə, "xoş gəldin", deyib su qabını ona verdi ki, gedib su gətirsin. Dərviş "baş üstə" deyib, gedib suyu gətirdi. Musa da çörəyi dərvişə uzatdı. Dərviş saygı və təşəkkürlə ayrıldı. İndi Musanın (ə) Allah yo- lunda bu çətinliklərə düşməsi necə olar? Musa kimya elmini gözəl bilirdi. Çünki ona "Tövratı qızıl suyu ilə yaz" əmri verilmişdi. Vaxt keçdi, Musa hazırladığı yeməkləri qonşularına payladı. "Fəqət bu ilahi cilvənin sirri nədir?" - deyə düşünürdü. Görəsən, bunun sirri, bu icmaya bir rahatlıq vermək, yaxud anlatdığım şəkildə ürəkdən qulluq etməkmiş.

amma gəlmədin!" Allah buyurdu ki, gəldim, ey Musa! Gəldim, amma sən mənə bir bardaq su daşıtmadan, necə oldu, yemək vermədin?

İki alim bir-birləriylə qürurlanıb və mübahisə edərək danışırdılar. Mə- rifət sirlərindən, ariflərin məclislərindən və söhbətlərindən söz açmışdılar. Biri deyirdi ki, ulağa minmiş halda yanıma gəlməkdə olan Tanrıdır. O biri isə, xeyr, mən hesab edirəm ki, hər şey tərsinədir, deyirdi. Vəhdəti-vücud tərəfdarlarına görə, Allahdan kənarda ayrı bir varlıq yoxdur. Dərvişlərin danışması bu nöqtəyə işarədir. Yəni hər varlıq Allahdan bir görünüş, bir əsərdir, amma Allahın özü deyil, həm də Ondan ayrı da deyildir. Çünki o zaman vücud ikiləşmiş olar. Nəhayət, bunlar bu sözləriylə məcburi dünyagörüşün çuxuruna düşmüşdülər.

Bəyazid və başqaları kimi böyük ariflərin sözlərindən məlum olur ki, onların sözlərində başqa bir məna vardır. Bu sözlərlə məşğul olmaq bir pərdədir. Bu gediş başqa bir gedişdir. Dedilər ki, bu, nə üçün başqa bir şey olsun? Mən cavab verdim: "Deyək ki, sən bizim sözümüzü dinlərkən ürəyinə üşütmə düşdü. Bax, o, belə bir şeyə pərdə olar." Onlar hülul inancına yaxın bir yoldadırlar. Ruh (Cəbərut) aləminə mənsub ərənlərin sözləri canlara işləyər, həvaü həvəslə dolu olan sən, necə anlaya bilərsən? Bu şəhvət həvəsindən danışmaq istəyirəm. Nəhayət, bundan öncə də həva mövzusundan danışmışdım. Həva şəhvəti və arzuları yox edər

demişdim. Eşq və sevgi elə bir şeydir ki, qımıldandığı zaman qarşına yüz huri gətirsələr, sənə divar kərpici kimi cansız görünər. Nə zaman bir hikmətli söz eşidər və ya bir düşüncəyə qatılarsan, o eşq və sevgi hərəkətə gələr. Nəhayət, nur pərdələrinin işığı olan eşq "Allahın nurdan yetmiş pərdəsi vardır" anlamındakı hədis ilə işarə edilən qat-qat pərdə- lərin nurudur. İndi sən eşqə batmış olduğun halda, nurun işığından necə söz aça bilərsən? Əgər söz açarsan, o bütövlükdə həva olar.

O sufi İmad sərxoş olar, başını aşağı dikər. O başını aşağı sallama həva olar. Həva harda, Allah nurunun parlaqlığı harda? Zaman-zaman bizdən "necəsən?" - deyə soruş. Mən sizin qulunuzam. O Allah qulları var- dövlət baxımından bir xidmətdə bulunursa, bir məhəbbət oyanar. Onların işləri o məhəbbətlə dirçələr. Fəqət həqiqi dostun verəcəyi bir quruş, yad olanın vərəcəyi yüz min dinardan dəyərlidir. Bu dost yardımını hər kim qəbul edərsə, ona bağlanmış olar. Çünki o bağlı qapını dost vergisi açar. Şeyxin bu gözəl surət və gözəl sözləriylə fel və hərəkətlərinə əsla razılıq verməyin! Çünki onların arxasında bir şey gizlənib. Onu istəyin.

Onun iki sözü var. Birini ikiüzlülüklə, o birini isə doğru söylər. Amma ikiüzlülüklə söylənmiş sözün bütün vəlilərin canları, ruhları həsrətini çəkməkdə və bunu istəməkdədir. Mövlana Şəmsəddin Təbrizini tapmaq və onunla söhbət etmək arzusundadır. Halbuki, o doğru və nifaqsız sözü peyğəmbərlərin ruhları belə arzulamaqdadır. "Kaş ki, onun zamanında olaydıq, onun söhbətinə yetişəydik, onun sözlərini eşidəydik" deyərlər. İndi barı siz bu fürsəti qaçırmayın və bu gözlə baxmayın. Ona elə bir gözlə baxın ki, peyğəmbərlərin ruhları da eyni nəzərlə baxmaqda, ona həsrət nəğmələrini yollamaqdadır.

Bir gün Harun-ər Rəşid, "Bu Leylini gətirin bir görüm. Məcnun onun eşqi ilə bütün bəlalara düşmüşdür. Şərqdən Qərbə qədər onun eşq dastanlarını aşiqlər özlərinə nümunə götürmüşlər", dedi. Bir xeyli xərc çəkib, bir az da hiyləgərlik edib, kələk qurub Leylini gətirdilər. Xəlifənin sara- yında xəlvət bir yerə saldılar. Xəlifə sübh tezdən şamları yandırdı, onu diqqətlə gözdən keçirdi. Saatlarla başını aşağı salıb düşündü. Öz-özünə, "bu dəfə də onu danışdırım, bəlkə danışanda çöhrəsi parlayıb üzünü gö- zəlləşdirər", dedi. Harun üzünü Leyliyə tutub soruşdu: "Leyli sənsən?" "Bəli, Leyli mənəm. Amma sən Məcnun deyilsən. Məcnunun düşündüyü o gözəl sənin  başında yoxdur."

Şeir:

Başqalarına baxdığın gözlə Leylini necə görə bilərsən? Onu göz yaşlarınla tərtəmiz yumayınca!

"Mənə Məcnunun gözüylə bax, sevgiliyə sevən gözlərlə baxılmalıdır." "Allah onları sevər" buyurulmuşdur. Fəqət buradakı çatışmazlıq onların Allaha sevgi gözləriylə baxmamasındandır. Onlar Allaha elm yönündən baxarlar, irfan və fəlsəfə yönündən baxarlar. Amma sevgi yönündən baxmaq başqa bir işdir.

Biri gəldi, "mənə bir sirr söylə", dedi. Cavab verdim: "Mən sənə sirr açmaram. Mən sirri elə birinə söylərəm ki, onu öz mənliyində deyil, özümü onun mənliyində görüm. Öz sirrimi özümə söyləmiş olaram onda. Amma mən səndə özümü görə bilmirəm. Səndə başqalarını görürəm. Bir şəxsin yanına gələn başqa bir şəxs üç ehtimalın xaricində deyil. Ya müriddir, ya dostluq üçün gəlmişdir, yaxud da özü ucalığını göstərmək istəyər. Sən bu üç cür ziyarətçidən hansısan? Nəhayət, filankəsin yanına getməyəcəksən? "Mənim necə insan olduğum, sizcə, bəllidir?" - dedi. "Bəli, məlumdur, onu səndə görürəm. O səndədir, amma mən səndə de- yiləm, çünki səndəki mənlik mən deyiləm", dedim. Mənə dedi ki, mərd

odur ki, içində nə varsa, zahiri də elə görünsün. Mənim batinim kimi za- hirim də həmişə bir rəngdədir. Bu cəhət əgər zahirə çıxa və məndə dost- luq və hikmətlər olduğu bilinərsə, bütün cahan vahid rəngdə olar, qılınca ehtiyac duyulmaz, qəhr və zülm olmazdı. Amma aləmin belə olması Al- lahın qanunu deyildir. Uzun söz burada qısaldı. Bu sözün mənası budur: Mənim zahiri sifətim, batin sifətimin zahirə vuran rəngidir. Bu hala görə bu aləm var olmasaydı, yerində başqa bir aləm olardı.

Bəyazid xəlvət hekayəsini anlatmağa başladı. "Bu, Məhəmmədin (s) dinində uydurma bir şeydir. Yalançıların sözünü burax", dedim. Mənə qazıdan nümunə gətirdi. O, şikəst hökmləri, düşüncələri təkrar edərdi. Onunla Toqatda etdiyimiz mübahisələrdəki hökmləri və araşdırmaları danışdı. Əvəzində artıq başqa heç bir şey demədim. "Qalx get! Bir daha belə şeylər etmə! Başqalarını dinləyirsən, bir sürü nümayəndənin şikəst və yanlış xəbərlərini Allah qullarına gətirirsən", dedim.

Bəziləri daha irəliyə sıçramaq üçün dal-dalı çəkilirlər ki, suyun o biri tərəfinə tullansınlar. Bunların geri getmələri irəliyə atlanmaq üçün olarsa, yaxşıdır. Əgər başqa bir niyyətlə saxlayırlarsa, sonu düşkünlükdür. Şübhə yox ki, bu irmağın suyu keçiləcəkdir. Kafər, müsəlman, yəhudi bunu keçəcəkdir. Bundan geri qalarsan, quldurlar səni zəbun edərlər. Suyun o biri tərəfində quldurlar sənə hücum etməzlər. O biri tərəfində sənə qüvvət gələr, yardım və rahatlıqlar görərsən. Bu gun suyun o biri tə-

rəfinə atlanmaq üçün daha çox geri çəkilərsən, az keçməz yorularsan. Ancaq elə sıçramalısan ki, iki ayağın birdən qarşı tərəfə düşsün. Əgər ayağının biri suya düşüb və su də sürətlə axarsa, o biri ayağın da büdrəyər, suya yıxılarsan.

Biri deyirdi ki, sən əgər fiqh alimi olsaydın, hansı incə məqamları tapardın. O biri xristian da dedi ki, əgər sən xristian olsaydın, dinin işığı olardın. Xristianlığa parlaqlıq verərdin. Yəhudi də bundan daha gözəlini söylədi: "Əgər bütün müsəlmanlar belə olsaydı, Məhəmmədin (s) dini nə xoşbəxt din olardı." Nəhayət, məndən bunu istədi və dedi ki, madam ki, bu qədər yaxşı adamsan, söyləyəcəyimiz xatirəni yazmazsanmı? Onun qulağını doldurmaq gərəkdir. Elm içdən və zahirdən olan bir anlayışdır. Əgər batin aləminə aid olarsa, ona hikmət, fəlsəfə deyərlər. Dedi ki, bir kərə düşün, bu hara sığar. Ev doludur, iynə qoymağa yer də yoxdur.

Deyirdi ki, səbr edərsən, cəfadan şikayət etməzsən. O düşüncə hara sığışar? Könül evində necə yer tapar ki, bu ev iynə sığmayacaq dərəcədə dopdoludur. Bir hamamçı ocağının anbarına gətirmiş, "buraya yerləşdir" deyir. Hara yerləşdirim? Yer qalmadı. Dünyada Allahı aldatmaq necə ola

bilər? Bu, bayağı bir  şeydir. Bəli, Allah qulu nəfsindən necə ümidsizliyə düşə bilər? Bir sədəf içində bir inci var ki, bütün aləmi dolaşardı, bir çox incisiz sədəflərlə qarşılaşdı. Ona sədəf və cövhər hekayəsini söylədilər. O da onlara sədəf hekayəsini söylədi. O birilər dedi ki, bizim onda tapıldığını eşitdiyimiz o sədəflər, səndəki inci və sədəflərin hekayəsidirmi? Dedi ki, vallah, mən də sənin eşitdiyin qədər eşitdim. Ey cibgir! O səndədir, amma bizi aldatmaq istəyirsən, dedilər. Cavab verdi ki, xeyr, and içirəm ki, o sədəf məndə deyil. O elə bir uca aləmə getdi ki, bir gün tayı-bərabəri olmayan bir inci tapsın. Nə söylədisə, söylədi. Quranda "O, Allahın quluna bildirdyi şeyi bilirdi" "Sonra (Cəbrail Allahın) Öz bəndəsinə (Məhəmmədə) vəhy buyurduğunu vəhy etdi" (ən-Nəcm surəsi, 10) buyurulmadımı?

Onə sədəf desən belə,  buna sədəf demə! Bir sədəf ki, içində Allah sularının öz cövhəri coşub-kükrəməyə başlamışdır, o biri saxsı qırıntı- larına necə tay tuta bilərsən? Hər kim sənin yanında yaxşılıqdan bəhs edər, yaxud səndən bir kimsənin yaxşılıqlarını soruşarsa, sənin yaxşılıq haqqında düşüncəni öyrənmək istəyir demək. Beləcə, bir şəxsin əleyhinə danışılarsa, bil ki, Haqq səni xeyirxahlıq və bədxahlıq yönündən imtahana çəkəcəkdir. Sən də bu xüsusda (kiminsə arxasınca hökm verməkdən) çəkin.

Nişapur şəhərində bir uşağı doğruluğa alışdırmaq, tərbiyə etmək is-

tədilər. Əvvəlcə ondan soruşdular: "Filan uşaq haqqında nə bilirsən? Bizə xoş görünür. Gözəl xasiyyətli bir uşaqdırmı?" Əgər, bəli, gözəl xa- siyyətlidir, pis deyil desə, özü də elədir. Əgər o uşaq bu əxlaqdan uzaqdır desə, o halda, indi sən özün necəsən, deyə soruşulacaqdı. Bəziləri var ki, öyüd dinləyərkən içləri müsəlmandır, fəqət vaiz məclisindən çıxanda atəşdən çıxmış qalay kimi donub qalarlar. Bəziləri də var ki, çətin alətlərlə və bəzən də daha təsirli bir şeylə yumşadılır. Necə ki, görünüşdə hər şeyi yumşaltmaq üçün bir alət lazım olur. Bizim yaxınımız, Səma zamanı xirqəsini atan və bir daha dönməyən adamdır. O xirqə hər nə qədər cövhər dəyərində olsa belə, o Səmada və o halda aldanmış bu- lunsa belə, bir kərə mən o zövqün o xirqəyə dəydiyini sandım. İndi yenə görürəm ki, aldanmışam. Dəyməz. Bu söz bir zümrəyə acı gəlir. Ancaq o acılığın qarşısında dişlərini sıxarlarsa, feyz peyda olar. Bu halda, çətinlik zamanı gülən kimsə bu səbəbdən gülmüşdür ki, gözləri sonunda gələcək feyzi görməkdədir. Deməli, səbrin mənası, bu baxımdan işin sonunu göz- ləmək, səbrsizliyin mənası da işin sonunu görməyəcək qədər dar düşüncəli olmaqdır. Birinci cərgədə daim işin sonunu gözəl bilənlər olar.

Qatır dəvədən soruşdu: "Nə üçün mən həmişə karvanın önündə gedirəm, sən arxada gəlirsən?" Dəvə dedi ki, mən yoxuşun başına gəl- diyim anda irəli baxır, sonuna qədər görə bilirəm. Çünki ucabaşlı, uca himmətliyəm, parlaq gözlüyəm, bir baxışla yoxuşun sonunu, bir baxışla da ayağımın önünü görürəm." Burada dəvədən məqsəd şeyxdir. Çünki o yetkin dünyagörüşlüdür, ona daha əvvəl yetişən hər kəs onun xasiyyətini götürər. Şübhə yox ki, kiminlə oturub-durarsan onun xasiyyətini götürərsən. Hansı tərəfə baxsan, sənə yetkinlik təlqin edər. Çəmənə, gülə baxsan, sənə incəlik duyğusu gələr. Çünki yoldaşların səni öz aləmlərinə çəkərlər. Bu üzdəndir ki, Quran oxumaq qəlbə səfa verər. Peyğəmbərləri dilə gətirərsən, onların əhvalını öyrənərsən. Onların surətləri sənin ruhunla birləşər, sənə yoldaş olar. Mən o böyük ölümsüz və sonsuz cövhərlə elə sıx və isti bir münasibət qurdum, onunla elə qaynayıb-qarışdım ki, içim onun atəşiylə doldu. O cövhər, həlimliyə və gözəl xasiyyətə başladı. Dedi ki, necə istəyirsən, elə edim. Mən də imkan tapınca, mənə filan cövhər satanın cövhəri lazımdır, deməyə başladım. İstəyirəm ki, diləyimi qəbul edəsən və bunu gecikdirməyəsən. O qəzəbləndi və sərtləşdi. Mən də yumşaq davrandım.

Çünki o mənim çılğınlığımı yatırdı, yumşaltdı. Mən də onun qəzə- bini incə hərəkətimlə qarşıladım. Dedim ki, hələ mübahisəni tərk et- dim, heç bir şey istəmirəm, hökm sənindir. Təkrar təkid etdi: "Sənə nə lazımdır?" dedi. "Özün bilərsən", dedim. "Xeyr, söylə", dedi. Dedim ki, səbəb aydındır, əgər barışmaq istəyirsən, barışdım. "Xeyr, açıq söylə, söz nədir?" - dedi. "Bu dəfə də iş sözdən daha xeyirlidir, mən dedim, sən bu-

raxmadın" dedim. Təkrar etdi: "Sənin sözün bizim üçün səndən daha yaxşıdır, edəcəyin işi söylə." "Bildiyin kimi deyil," dedim. Onu vur- madıqca bir faydası olmaz, sənə təslim olmuşdur. Sənə dünya əhlinin söhbəti atəşdir, deyərlər. İbrahim (ə) lazımdır ki, atəş onu yandırmasın. Nəmrud bayırda bir atəş yandırdı, İbrahim (ə) də birini. "Görəcəksən od kimi yandıracaq," dedi. "Ey Nəmrud! Sən qəhrdən doğulmusan, mən də rəhmətdən yaradılmışam, görək kim kimi yandırır." Allah, "Rəhmətim qəzəbimi keçdi", - deyə buyurmadımı?

İbrahim (ə) dedi ki, dərs meydanda, imtahana nə lüzum var? O biri, xeyr, xeyr, ancaq iş gərəkdir, dedi. İbrahim (ə) "Bismillah" dedi. Rəhmətin ayağı qəhri əzər, bu təqdirdə rəhmət qəhri və qəzəbi yox edər. Rəhmətin ayağı belə olar. Bəli, dostları sınamaq gərəkdir. İbrahim (ə) dostdur. Necə ki, dosta belə edərsən, düşmənə nə edərsən, deyərlər. O dostu atəşə atdı getdi, halı nə olacaq deyə sınadı. Onun halını təkcə atəşə atan bilər.

Çalğıçıya dedilər ki, nə nazlanırsan, çal! Yoxsa, xahişimizi iki kərə eşitmək istəyirsən? Belə cavab verdi: "Xatırlayıram, filankəs də belə dua edirdi." Yəni siz də belə edin. O biri daxilən bunu qəbul etmirdi: "Necə olar ki, bir adam bu qədər hünəriylə öyünə bilər? Filankəs mənə belə sayğı göstərdi, rica və niyazda bulundu," deyə bilər. Mən öyünmürəm, yol göstəirəm. Göstərdiyim yol da dua, yalvarış yoludur. Şah isə dua ilə doludur.

Deyirlər ki, ariflərdən biri Bağdadda yüz xiyarın bir qəpiyə satıldığını eşidir. Fəryada başlayır. Özündən keçər və xəstələnər. O arif bizlərdən deyil. Onun sözünü və halını bizə necə nümunə göstərə bilərsən? Bizdə o hal yoxdur. Bizə görə, Haqq yolçusu birdir. Yüz xiyar hardan gəldi? O biri dedi ki, sən Haqq yolçusuna necə deyirsən ki, xiyarı bir qəpiyə satmaq küfr deyil. "Bunu nə üçün söyləyirsən?" - deyə ona qarşı çıxdı. Xeyr, o nə üçün ona qarşı çıxsın? O, onları bu cür şeylərdən qurtarmaq istədi. Bunu bizim sözümüzə nə üçün bənzədirsən, demək istədi. Deyək ki, dənizdə bir burulğan var, dəhşətli bir burulğan. Bütün dənizçilər bundan qaçarlar. Hər hansı birinin təmkinlə burdan keçək, söyləməsi nə deməkdir?

İndi cansız varlıqların danışmasından və onların işlərindən söz açacağıq. Alimlər bunu həqiqət saymazlar. İndi bu gördüyüm şeyləri necə söyləyim? "İnləyən dirək" hekayəsini necə izah edim? Bu, insan öz dilinin altında gizlənmişdir, anlamına gəlir. Həzrət Əli (ə) buyurur: "Bir insan danışarkən onun kim olduğunu o saat anlayaram. Danışmasa, üç günə anlayaram, ancaq yetər ki, halında susmaq olmasın, dinləyənlərin başa düşdüyü kimi danışsın." Yenə Həzrət Əli (ə) buyurur: "Pərdə açılsaydı, yaxın yenə çoxalmayacaqdı." Əgər onun halı elə olsaydı, bu ikinci söz

halına uyğun gəlməzdi.

Böyüklərin məclisinə gəlməyə əngəl olan şey istedad çatışmazlığıdır. İstedad, qabiliyyət, dünya işlərindən imtina etmək gərəkdir ki, böyükləri ziyarətdən bir fayda əldə edə biləsən. Ziyarət edənlər duada, ərmağan etməkdə ağır davransalar belə, yenə ziyarətləri boşa çıxmaz. Amma ən yaxşı vəziyyət içərisində çalışmaq gərəkdir. Bəzilərində yaxşılıq ümidi görə bilmirəm ki, peşmanlıqdan öncə oyanmış olsunlar.

Müştəridən bir az pul xərac alan baqqal davaya düşmüş, qəzəb- lənmişdi. Siniləri təpəsinə vurub, dirhəmləri başına tökmüşdülər. Ca- maat gəlib ayırana qədər əlli dirhəmə yaxın ziyana düşmüşdü. Sonda etdiklərindən çox üzüntü duydu. Amma o saatda qəzəbi ona elə qalib gəlmişdi ki... Bu hal sənin başına gəlsəydi, heç kimlə mübahisədən qorxmaram, deməyinə rəğmən, aman, atəş gəlir, məni qoynuna alacaq, deyərdin. Hərçənd bəzi şəxslərlə mübahisə etdim. Onlarda bir atəş vardır.

O saatda ona elə bir atəş gəlmişdi ki, sənə gəlsəydi, o gün hamama girmişə dönərdin. Sənə nə zaman qəzəb alovu gəlsə, sadəcə, Haqq uğrunda deyil. Bu atəş hər kimə yaxın gəlsə, bil ki, Allah-təala buyurur ki, Mənim tərəfimdən ancaq cəfa qapısını qapamaqdan başqa bir şey sonsuz qalmadı. Bir xidmət etmək lazım gəlir ki, o cəfa unudulsun. Ba- ğışlamağı unutmaq qəfləti unutmaq demək deyil. Bir iş görərkən o cə- fanı xatırlayarsan. Bu elə bir girdabdır ki, bu girdabdan hər kəs qaçar. Ancaq üzücü qaçmaz. O özü belə bu burulğandan keçməkdən çəkinər. Çünki keçəcəyi yol burulğanın içindədir. Ancaq başqalarını da yaxalar, birlikdə keçək deyə, suyun ətrafında toplasa, o biri sanar ki, onu fırladan burulğandır. Dənizdə və burulğanın içində bir damar və arada incə bir yol da var ki, oradan keçilə bilər. Çünki, şübhəsiz, bu girdabın bir yolu olacaqdır. İndi mənə nə üçün deyirsən ki, düşmənə qalib gəlmək üçün mübahisəyə əngəl olmaz, bəlkə xoşuma gedər, qəm çəkmərəm. Madam ki, qəm çəkmirsən, mən dünyaya tapınanlara söylədim, deyirsən. Dünyaya pərəstiş edənlərə mənim sözümü nümunə gətirə bilərsən. Dindar insanlar belə bu nöqtələr içinə sığmaz. İndi ki, qəm çəkmirsən.

Bir baqqalın dükanı bir pinəçinin qonşuluğunda idi. Bu baqqal hər gün xurma yeyər, çəyirdəklərini də pinəçiyə atardı. Çəkməçi bu xurma çəyirdəklərini topladı. Onu daş kimi incidən çəyirdəkləri bir qaba yığdı. O gün öz-özünə dedi ki, Allah, pisliyin cəzası misli ilədir, buyurur. Bu adam bütün bu cəfasıyla bərabər əgər bu gün mənə xurma tumu atmazsa, o birilərini əfv edəcəyəm. O gün baqqal yenə xurma yeməyə, çəyirdəklərini də əvvəlki kimi çəkməçiyə atmağa başladı. Bütün bazar əhlinin bu işdən xəbəri vardı. Deyirdilər ki, əgər bu gün də eyni tərbiyəsizliyi edərsə, onu biabır edək. Şaha da xəbər göndərib, baqqalı dar ağacından asdıraq. Şaha xəbər göndərdilər. Çəkməçi bıçağını götürdüyü kimi əlini

endirdi, ikinci bir zərbəyə ehtiyac qalmadı. Padşah vəzirinə dedi ki, pinəçiyə baş çəkməyə gedək. Vəziri dedi ki, padşahım, onun xeyir-buyur etməyə ehti- yacı yoxdur. Aşağı düş, dükanın qarşısında otur, onun xoş-beş etməsini gözləmə. İltifat göstərməməsi ora yol olmamasından, oranın yasaq ol- masından deyil. Bütün hamamçı tiyanının sakinləri onun hüzuruna yol tapmışlar. Kərəm və comərdlik meydanında doğulan kimi uçar. Şah vəzirin dediyi şəkildə pinəçinin ziyarətinə gəldi. Vəzir, başqa cür zyiarətə imkan yoxdur, demişdi. İkinci bir ədəbsizlik də etmişdi, əlini istəmiş və öpmüşdü. Bir yerdə oturub söhbət etdikdən sonra geri döndü. Bu hekayə hələ aləmə yayılmamışdı. İstər yayılsın, istər yayılmasın, məqsəd öyüd

verməkdir. Cəfaya qarşı tədbir görmək gərəkdir. Biz həm tədbir görürük,

həm də yol göstəririk. O yol da dünyanı qurban verməkdir.

Allah "(Allah tərəfindən) nəfsinin xəsisliyindən (tamahından) qorunub saxlanan kimsələr - məhz onlar nicat tapıb səadətə (Cənnətə) qovuşanlardır!" (əl-Həşr surəsi, 9) buyurur. O cəfaya qarşı tədbir görmək üçün elə çalış ki, irəlidəki ayrılıq gününü qorumaq üçün işə yarasın. "Onu göz önündə tutarsan, ortada bir şey qalmaz", deyəsən. Bax bu insan sıxıntılı günlərində Haqdan üz çevirər. Ruzisi bol olanda da Ona sayğı göstərər.

Sevgili deyər ki, mən xoş danışıram, sən də xoş danışırsanmı? Mən sıxılıram, sən də sıxılırsanmı? Bu o qədər önəmli deyil, əsil işin məz- munu o sıxıntıdadır. Bu sıxıntı şirinlikdir, bu yolun dönüşü bax belədi. Bu qəzəb yumşaqlıqdır. İşin xoş tərəfi mənim zındıqlıqla birləşmiş olmağımdadır. Mənim İslamlıq tərəfimdə o qədər xoşluq yoxdur. Cəfa çəkərkən söylədiyim sözü ayrılıq günlərində, o cəfanın bitdiyi zamanlarda da söyləyərəm. Aynaya baxar, onu qarşıma tutaram. Qəbul edərsən, yazarsan, qrammatikaya uyğunlaşdırarsan. İndi görürsən ki, söz başqaları üçündur. Çünki o sözün, o öyüdün sonucu ondan sonra ona zidd bir halın meydana gəlməməsindədir.

Bu məsələ əlli kərə dünyanın hər tərəfini gəzərək, dənizləri, qurunu dolaşan daş-qaş satan tacirin hekayəsinə bənzəyər. Bu adam bir inci axtarırdı. Gəldiyindən xəbər tutan cəvahirat dəllalları arxasınca düşərdi. Amma axtarılan incinin necə və harada olduğu, tacir ilə dəllallar arasında gizli qalmışdı. Tacir incini röyasında görmüş, o yuxuya inanmış və güvənmişdi. Necə ki, Yusif peyğəmbər (ə) röyaya inandığı və özünə Ayın, Günəşin və ulduzların səcdə etdiyini yuxusunda görərək, bunun yozumunu bildiyi üçün quyuya atıldığı, zindana salındığı günlərdə belə gecələrini xoş keçirirdi.

İndi dalğıc Mövlanadır, cövhər taciri də mən, yəni Şəmsəddin Təbri-

zi

- Allah bərəkətini sonsuzlaşdıran inci də ikimizin arasındadır. Deyirlər ki, inciyə gedən yol sizin aranızdadır. Biz ona yol tapaq. Bəli, dedim, fəqət yol budur, mən sənə bir şey verin demirəm, mən Allah yoluna gəlin deyirəm. Dua yoluyla və hal diliylə biri soruşdu: "Allah yolu hansıdır, söyləyərsən?" Mən, Allah yolu budur, deyirəm. Əlbəttə, Aksaraya gedərkən bir körpüdən keçiləcəkdir. Haqqa gedən yolun körpüsü də Quranın "Ey iman gətirənlər! Sizə nə oldu ki, Allah yolunda döyüşə çıxın!"-deyildikdə yerə yapışıb qaldınız. Yoxsa, axirətdən vaz keçib, dünya həyatına razı oldunuz? Halbuki, dünya malı axirət yanında (axirətlə müqayisədə) yalnız cüzi bir şeydir!" (Tövbə surəsi, 38) ayəsində buyurulduğu kimi, öncə var-dövlətini

səpməkdir. Yəni malları ilə, nəfsləriylə savaşmağı məsləhət görür. Ondan sonra görüləcək işlər çoxdur. Ancaq öncə Aksaraya gediləcəksə, bu yoldan başqa keçid yoxdur. Aksaraydan sonra da (yolda) kimsəsiz yerlərdə yenə yolunu azarsan. Qurdlar, qulyabanilər səni görüncə yayından çıxmış ox kimi ardınca düşər, səni yaxalayıb bir loxma edib aşırarlar. İndi nə etmək istəyirsən? Nə verəcəksən Allah yolunda? Könlündəki nədir? Nə düşünürsən, söylə. Əgər bir əngəlin varsa, mənə anlat ki, o əngələ qarşı yol öyrədim, iş asanlaşsın. Mən səndən daha yaxşı bilirəm. Mən inci hekayəsini anladırdım. Sən bunu bir qəpiyə belə ala bilməzsən. İndi ikiüzlülükmü edək? Yoxsa, dosdoğru danışaq? Bu Mövlana Aydır, mənim varlığımın Günəşinə adi nəzərlər yetişə bilməz. Ancaq Aya yetişə bilər. İşığının və aydınlığının son dərəcə parlaqlığından yana gözlər Günəşə baxa bilməz. Ay Günəşə yetişməz, amma Günəş Aya yetişə bilər. Necə ki, Allah-təala Quranda "Gözlər Onu (görüb) dərk etməz. O, gözləri dərk edər" (əl-Ənam surəsi, 103) buyurur.

Bu ox kimin oxudur? Bu söz kimin ox qabından atılmışdır? Haqqı kamal mərtəbəsiylə tanıyan, onun qüdrətini anlayan kimdir? Bu oxun sonu yoxdur, Quranda "(Ya Rəsulum! Quranda buyurulduğu kimi, sizə çox az elm verilmişdir, söyləyən yəhudilərə) de: "Əgər Rəbbimin sözlərini yazmaq üçün dərya mürəkkəb olsaydı və bir o qədər də ona əlavə etsəydik, yenə də Rəbbimin sözləri tükənmədən öncə onlar tükənərdi!" (əl-Kəhf surəsi,

109) anlamındakı ayə bunu göstərmirmi? Xoşbəxt odur ki, bu ox özünə tuşlanar, onu vurar. Bu ox Haqqı tanıyanlar üçündür. Ox qabında daha incə oxlar var, amma bunları ata bilmirəm. Atdığım və atmaqda olduğum oxlar geriyə dönür. Ox qabında qalanların da başqa vəzifəsi var. Barı harada olursan ol, bizdən üz çevirmə. Bir şeyin yoxsa, qazanmağa giriş və çalış ki, bu məqsədlə başqa dostları da toplaya biləsən!

Azacıq bizi də izlə, sənə vermiş olduğumuz borcun əvəzində bir-iki kəlmə hazırla (ayrılıq xərcləri boş şeydir, insan verdiyi sözə cavabdehdir).

Allaha verilən vəd necə olar? Borcumuzun əvəzində hər şeydən bir parça olsun, gizlətməyə çalışma! Əgər bir kəlmə qədərində olarsa (ki, mən ondan zəngin sayılmaram və onsuz da yoxsul qalmayacağam), ancaq sənin qarşında bir şeylər açılar. Nəhayət, bütün bunlardan əl çəkəcəyin zamana qədər sənə görünməyən aləmdən qəflətən bir doğuluş olacaqdır. Beləcə, biz tərəfi də birdəfəlik unutma! Deyək ki, ağıl bir şey buyurur. Həvaü həvəs onun əksini istəyər. Bu ona bənzəyər ki, ağa, turşu gətir, deyər, uşaq şirniyyat istəyər. Deyər, şirniyyat daha yaxşıdır. Bu, münasib bir şey deyil. Gərəkdir ki, uşaq əvvəlcə ağasının istədiyini gətirmiş olsun. Çünki həqiqətən turşu ağasının istədiyidir. Sonra ağa,

mən filan yerə gedirəm, deyər. Uşaq, Allah köməyin olsun get, mən gəl- mirəm, deyər. Nə üçün gəlmirsən, deyincə, qayıdanda gələrəm, indi üzrlü səbəbdən gələ bilmirəm, deyə cavab verər. Bu, doğru deyil. Bu tərsinə başa düşmək, işin əksini öyrənməkdir. Halbuki, bu yolda söz birliyi, iş birliyi lazımdır. Sən mənə mübahisə öyrət, mən sənə söz birliyi öyrədim! Yəni sən mənə naz öyrət, mən sənə niyaz öyrədim. Necə ki, bir nəfər bir din alimınə belə bir təklif vermişdi. “Sən mənə Yasin öyrət, mən də sənə dalaşmağı öyrədim.” Alim də döyüşçüyə belə dedi: “Sən, elmi mübahisə bilirsən nədir?» Yoxsa, bununla da aran yoxdur? Mübahisə sevdasında deyilsənmi?”

Şeyx Məhəmməd bunların hansındandır? Mənim dediklərimi həqiqət saydı, mübahisə etmədi. Amma mübahisə etsəydi, çox fayda götürərdi. Əgər əshabələri Həzrət Məhəmmədlə (s) qarşılıqlı danışsaydılar, onlar üçün çox faydalı olardı. İndi bu hansı növdəndir ki, bəhs etmirsən? Bu, mənəvi fayda özünə yetişər. Ancaq mübahisə ilə əldə edilən bu fayda nədir? Əgər danışılarsa, siz çox faydalanarsınız. Bax mən sizin haqqı- nızda bunu düşünürəm. Siz də mənə belə edirsiniz. Kədərlisənsə, se- vinmək, yaşlısansa, gəncləşmək gərəkdir. Başınla, qulağınla, ağlınla oy- namağın lazımdır. Həm məna isidəsən, həm yeyəsən. Yəni həm incə mənalar dinləyəsən, həm də başqa bir şey görəsən. İndi bu saat başqa işim var, deyirsən. İki iş bir yerdə necə olar. Gərək ki, iki işi bir arada gö- rəsən. Allah-təalanın mənə elə bir vergisi var ki, bir-birinə zidd yeddi-səkkiz işi birdən üzərimə götürüb, altından çıxa bilərəm. Allah hər şeydən üstündür.

Bəzi övliyalar tələskənlikləri üçün sənə qalib görünürlər, amma o dərəcə qalib deyillər. Bəzi övliyalar da mülayim görünürlər, amma çox cəld və qalib olurlar. Onların dilədikləri bir az gecikər. Döyüşçü döyüşdən vaz keçənə qədər uzanar. Onların əlaməti mərifətlərinin olmamasıdır.

Bu mərifətdən bəhs edilməz. Bizim sözlərimizin arasına söz qatan Şərəf Ləhavəri kimi kimsələr bulanıq suda boğulmuşdur.

Röyasında böyük bir bulanıq suya qərq olduğunu, iki barmağını oynadaraq, "aman, Şəmsəddin Təbrizi əlimi tutsun", deyərək kömək istədiyini görmüşdü. Bu röya ona bəs edəcək qədər bir öyüd olmadı. Təkrar mənim yanımda nəbilərin möcüzələri ilə övliyaların kəramətləri arasındakı fərqi izah etməyə başladı. Nəbilər nə zaman istəsələr, möcüzə göstərə bilirdilər, deyirdi. Övliyaların sözləri hara, sən hara: Sonra bəzi rafizilər (dinin təməl prinsiplərinə zidd olanlar-R.M.) davamlı, bəziləri davamsız, bəziləri də ixtiyarsız olarlar. Bir qismi də ixtiyar sahibi olaraq rafizilik edərlər, deyib dururdu.

O, övliyanı öz vəziyyətinə bənzədib təsvir edirdi. Onun sözlərindən və işindən üz döndərəndə də, məni qısqanır, məndə intiqamı var, deyir. Halbuki, mənim elə xasiyyətim var ki, yəhudilərə belə dua edərəm. Allah hidayət versin, onları doğru yola yönəltsin, deyərəm. Məni söyənlərə də dua edərəm. Ya Rəbbim! Ona bu huyundan daha yaxşı bir huy ver ki, söyüb, yamanladığı yerdə bir təşbeh oxusun, Səni ansın və ilahi aləmlə məşğul olsun, deyərəm.

Onlar mənə hardan çatdılar ki, bu övliyadır və ya övliya deyildir, deyə mübahisəyə başladılar? Mən övliya olum, ya olmayım, sənə nə? Necə ki, Cuhaya (Cuha ərəblərin Molla Nəsrəddini sayılır, kufəlidir - R.M.) dedilər, ora bax, məcməyidə plov aparırlar. Cuha cavab verdi ki, mənə nə? Dedilər, sizə aparırlar. Dedi, sizə nə? Mən də indi, sizə nə, deyəcəyəm. Amma ona görə demirəm ki, xalqdan çəkinirəm.

Daxilən bir çox dahiləri sevirəm. Onlara qarşı məhəbbətim var, amma üzə vurmaram. Bir-iki dəfə açıqladım. Məndə keçmiş həyatımdan bir təcrübə qaldı. Bir sevgi var ki, əsla soyumaz, fəqət bu dostluğun dəyərini kimsə bilməz və təqdir etməz. Halbuki, mənim Mövlanaya bəyan etdiyim sevgi artdı və əksilmədi, doğrusunu söyləyə bilmirəm. Mən həqiqətə başladıqdan sonra məni bayıra atdılar. Əgər tam dürüstlük göstərmiş olsaydım, məni bir həmlədə bütün şəhərlərdən sürgün edər, qapıdan qovardılar.

Az çoxu göstərir. Yəni söz az, məna çox olmalıdır. Deyək ki, ora bir çuval şəkər qoyublar, ondan azca bir nümunə gətiriblər. Bax o acza nümunə o, bir çuval şəkərin dəlilidir. Onu izah etməyə yetər. İnsanın da bir az dürüstlük göstərməsi, onun doğru olduğuna dəlildir. Yəni bir az əyrilik və ikiüzlülük sahibinin əyriliyini göstərər.

Həzrət Peyğəmbərin (s) dövründə həqiqəti sərt şəkildə söyləyən bir kişi vardı. Əshabələrin içində bəziləri bu kişinin sərt həqiqətsevərlyindən və Peyğəmbərin (ə) onu müdafiə etməsindən çox inciyirdilər. Amma ona

bir şey deyə bilmirdilər. Ancaq çox hirslənirdilər.

Könüllərindən, Həzrət Peyğəmbər (s) bu dünyadan köçdükdən sonra bu kişidən qisas alarıq, keçirirdilər. Peyğəmbərin (s) dünyadan köçdüyü günlərdən sonra o kişi həqiqəti deməkdə davam edirdi. Artıq dözə bilmədilər. Ona bir zərbə vuraq, ya da bu şəhərdən qovaq, dedilər. Adamı şəhərdən kənara atarkən, bu hay-küy bir qadının qulağına çatmış, dam üstünə qalxıb, əshabələrə qarşı çıxmağa başlamışdı. Bu adam əz

izlərdəndir, Peyğəmbərin (s) yanında sevilmiş insanlardandır. Onun uca ruhundan utanmırsınız ki, bu insanı şəhərdən sürgün edirsiniz, deyə qış- qırır, onlarla dava edirdi. Adam üzünü yuxarı çevirdi, qadına dedi: "Sən nə üçün öz yanından bunlarla mübarizə edirsən? Allahın lənətini həm özünə, həm də bunlara qazandırırsan!" Qadın öz-özünə dedi: "Bəli, Pey- ğəmbərin (s) dostları yersiz iş görməzlər, şəhərdən sürgün edilməyə layiq olmayanı da çölə atmazlar. Həzrəti Peyğəmbər (ə), ümmətim sapqınlığa görə fikir və söz birliyi etməzlər, buyurmuşdur. Yaxşı edirsiniz. Allah kö- məyiniz olsun". Doğru sözlü adam buna cavab olaraq, bəli, onlar düz edirlər, sən fikir eləmə, dedi.

Cüneydə tövsiyə etdikləri Zındıq Əhmədin hekayəsi də belədir. Ona deyildi ki, filan şəhərdə bir Zındıq Əhməd var. Sənin üzləyşdiyin çətinliklərin düyünü onsuz çözülməz. Sən yüz çilə çıxarmış olsan da, yenə onsuz heç nə edə bilməzsən. Cüneyd Bağdaddan çıxıb o şəhərə yollandı. Öz- özünə, "Zındıq Əhmədin evi hardadır soruşsam, hər halda, ədəbsizlik olar", dedi. Adını dəyişib, Əhmədi-Siddiqin evi hardadır, deyə soruşdu. İçindəki irfan buna əngəl olmuşdu. Ona röyasında sözünü dəyişmədən, dosdoğru bir söz söyləmişdilər. Amma o bunu təvillə, yəni dəyişik şə- kildə eşitmişdi. Bu səbəbdən altmış gün o şəhərdə dərbədər və dilxor halda dolaşır, rast gəldiyi hər kəsdən Əhmədi-Siddiqin evi hardadır, deyə soruşurdu. Özünə dosdoğru öyrədilən bu adı dəyişdirməsinin yaratdığı uğursuzluq üzündən heç cür onu tapa bilmirdi. Nəhayət, ağlına qəfildən bir fikir gəldi. "Hələ bir bu uçuq məscidin qapısının ağzından keçim", dedi və oradan keçib getməyə başladı. Bu vaxt qulağına Quran səsi gəldi. O saat ürəyi yerindən oynadı. Uçuq məsciddən bir cavan oğlan çıxırdı. "Artıq adamı öz adıyla soruşum", dedi və soruşdu. Dəliqanlı, "bu oxunan Quran səsini istəyirsən", dedi. Cüneyd qiyyə çəkərək, özündən getdi və yerə yıxıldı. Dəliqanlı onun ayağına düşdü. Cüneyd doğru danışmağın mükafatını görmüş, diləyinə qovuşmuşdu. Özünə gəldi, uçuq məscidə girdi. Uzaqda bir yerdə oturdu. Nə Cüneyd salam-kəlam verdi, nə də o buna imkan və meydan yaratdı. Uzun müddət bu şəkildə qaldıqdan sonra Zındıq Əhməd mərhəmətə gəldi, ona təkrar baxaraq sözə başladı: "Xoş gəldin Cüneyd!" "Mənim Cüneyd oldğumu necə bil-

din”, deyə düşündü. Əhməd gülümsədi: “Necə bilməyim, məni axtardığın ilk gündən bəri o çətinliklər içində çabalayaraq, bu tapmacanın düyününü çözməyə girişdiyini görür və ətrafında dolaşırdım. Yanıma gələrsə, onunla nə danışım, deyə düşünürdüm. Sənə söyləyəcək bir şey tapa bilmirəm, indi sən danışılacaq bir mövzu varsa, üstünə barmağını qoy ki, danışaq. Bir şey danış, mən qulaq asım.

Səma elədi. Müqəddəs ruhlar ətrafını sarıb, əgər bir də belə Səma eləsən, bu çarxın ipini qoparacaqsan, dedilər. Əhməd qızararaq yerinə oturdu.

Bu əzəldən bəri bir qaydadır. Doğru bir söz söyləyərsən, onu şərh etmək istəyərsən, bir az gülərlər, çox vaxt isə zövq duyarlar. Xoşa gələr o söz, amma şərh etmədən danışarsan, nə kimsə təsirlənər, nə də xoşlanar. Gərəkdir ki, Allahın doğrunu söyləmək üçün yaratdığı seçilmiş insanlar tərəfindən söylənmiş sözlər olsun. Bu məqamda onlara sual vermək lazım olmaz.  Xalq onları necə sual edə bilər ki, bu sözü deyən özü belə çaşqınlıq içərisindədir. Mən nə söyləyirəm, kiminlə danışıram, deyə öz-özünə heyrət edir. Bunlar nə üçün anlamırlar, deyə düşüncələrə qərq olar.

Bir adamın evində biri saz çalırdı. Başqa biri dedi ki, bu evdə kimsə yoxdur, bu çalğını kimə çalırsan? Adam bu cavabı verdi: “Sus, hər kəs Allah üçün təkyələr, karvansaralar tikdirir. Mən də Allah yolunda saz çalıram. Mən bunu Allah üçün edirəm. Sən nə üçün soruşursan? Səninlə biz bilirsənmi nəyə bənzəyirik? Bir nəfər ney çalırmış. O arada biri də o tərəfdə əlini yellədirmiş. Həmin adam neyi ona uzadır: “Əgər sən daha yaxşı çalırsansa, al çal!” Sən öz yolunla getsən, daha yaxşı olar. Yol gedərkən sənin hər şeyə qarışmağın lazım deyil. Öz yolunla get, ey eşşək! Sən nə o körpü keçən eşşəklərdənsən, nə də bir gündə qonaq gedib, geri dönən eşşəklərdən! Sən minlərcə dedi-qoduların və qeybətlərinin sonunda gündə bir qonağın yarısıcan belə gedə bilməzsən.”

Allah-təala buyurur: “Hər hansı bir qövm (toplum) öz tövrünü (nəfsində olanları) dəyişmədikcə (pozmadıqca), Allah da onun tövrünü (onda olanları, onun əhvalını) dəyişməz” (ər-Rəd surəsi, 11). Şikayəti, fəryadı öz nəfsindən et! Allah yenə Peyğəmbərinə (s) «(Ya Rəsulum!) Şübhəsiz ki, sən istədiyini doğru yola yönəldə bilməzsən. Amma Allah dilədiyini doğru yola salar. Doğru yolda olacaq kəsləri (öz əzəli elmi ilə) daha yaxşı O bilir! (Və buna görə də onları haqq yola müvəffəq edir!)” (əl-Qəsəs surəsi,

56) buyurdu. “Mən bilirəm”,” dedi. “Bu halın gerçəkliyi də mənə çox kəskin gəldi.” “Nə söyləyirsən”, dedi. “Mənə səndən fayda gəlməyəcək.” “O halda, hansı niyyətlə bu işin ətrafında gəzirsən”, dedim. “Heç bir niy- yətim yoxdur”, dedi. Mən bu qarışıq işləri çox elədim, doğru sözü

çözüb- çevirdim, şeir söyləməyə başladım. Bundan təsirləndi, ağlamağa başladı. "Ah mənim pis nəfsim", deyirdi. O belə dedi, mən elə dedim kimi dedi- qoduların indi izahını dinlə: "Padşahın şəxsi mülkündə kimsə bir loxma tapıb yeyər, ac qalmaz. İndi belə bir adam harda, köpəklər üçün küçəyə

atılan çörək qırıntıları və sümük parçaları ilə dolananlar harda? "Yer və göylərim məni qavraya bilmədi, amma bir mömin qulunun könlünə sığdım", anlamındakı Allah kəlamının təfsirini anlat, dedim. Bu məntiq "Biz əmanəti (Allaha itaət və ibadəti, şəri hökmləri yerinə yetirməyi) göylərə, yerlərə, dağlara təklif etdik. Onlar ona yüklənməkdən (götürüb özləri ilə daşımaqdan) qorxub çəkindilər. Ona insan yükləndi. Həqiqətən, o, çox zalım, çox cahildir. (İnsan bu ağır əmanəti götürməklə, özünə zülm etdi və cahilliyi üzündən onun çətinliyini, ağır nəticəsini bilmədi)" (əl- Əhzab surəsi, 72) anlamında olan ayə ilə eyni mənadadır, dedi. Yəni Allah bilgisidir, bu bilgi də dərəcələrə ayırlmışdır.

Yuxarıdakı səhih hədisin mənası bununla bağlıdır. Sizcə, bu hədisin mənası haqqında başqa cür deyiləcək bir şey varmı, deyə buyurdu. Buna həqiqətən güc çatmaz, dedilər və susmadılar. Bu danışılacaq bir mövzudur, dedilər. Amma bu məqamdan qaçırlar. Əgər bu cəhət danışılarsa, faydası çox olar. Dünya fanidir, amma bu, dünyanın nə olduğunu bilməyən kimsələrə görə deyil. O, dünyanın nə olduğunu necə bilsin? Onun dünyası yox ki, amma o, dünya nədir, deyə soruşar. O biri, "axirətdən o birisi aləmdir", deyir. Yaxşı, axirət nədir? O biri, "sabah" cavabını verər. Olsun, amma sabah nədir? Xülasə, söz çox daralmış, dil daralmışdır. Bütün bu din döyüşçülərinin lap dar olan dil bağından qurtulmaması bu səbəbdəndir. Onlar sifətlər aləminə gedərlər. Allahın mübarək sifətləri üçün, görəsən, nə deyirlər? Təfsirçilər, sifətlər Allahın zatı ilə eyni, yoxsa ondan ayrıdırmı, deyə mübahisə edirlər. Bu məqam ətrafında ortaq fikrə gələ bilirlərmi? Xeyr, gələ bilməzlər. Çünki aləm min bir rəngə boyanmışdır, müxtəlifdir. Söz ancaq bir tonda danışılmaz. Necə ki, Hakim Sənayini ziyarətə gələn dərvişdən biri soruşdu: "O sözünə dönük çıxan nə söylədi sənə?" Dərviş başını aşağı dikərək, dünya əhlinin sözünü danışır, dedi. Məgər bu dönüklərdən özünü qurtarmış olan kimsə yavaş-yavaş evinin yolunu doğru yönələr, uzaqlara getməz. Yoxsa, bu dünya çox etibarsızdır. Biri yəhudidir, o biri ulduzlara tapınar, bəriki atəşə sitayiş edər.

Mutəzilə tərəfdarları (Mutəzilə, əhlü-sünnədən ayrılan və Vasil Binətənin yoluna düşənlərdir. Bunlar Həsən Bəsrinin qənaət və ictihadının ziddinə hərəkət etdiklərindən bu adı almışlar. Lüğəti mənası "məclisdən (təkyədən) ayrılmış kimsələr" deməkdir. Bunlar Əşari və Maturidi məz-

həblərinə qarşı çıxdıqları üçün əhli-sünnənin nəzərində yolundan azmış bir zümrə olaraq tanınmışlar - R.M.) deyirlər, madam ki, Allah kəlamının başlanğıcı yoxdur, o halda bu aləmin də başlanğıcı ola bilməz. Bu yol Mutəzilə yolu deyil. Bu yol qəlb sınıqlığı, üzüntü və çarəsizlik yolu, qıs-

qanclığı və düşmənliyi tərk etmək yoludur. Sənə bir sirr açıldısa, gərək bu sirrə görə şükr edəsən. İndi bu şükrün anlamını ikiüzlülük baxımından, yoxsa, həqiqət olaraq söyləyim? Allaha şükürlər olsun. Ümidsiz olma! Üzün saf aya, təmiz işığa dönmüşdür. Həqiqətə, rahatlığa qovuşdun. Qaranlıq, bulanıq günlər keçib-getdi. İnsanların xeyirlisi xalqa faydalı olanıdır. Qəhrin nə olduğunu bilməyən necə xeyir işlər görə bilər? İlin nə olduğunu bilməyənlər, ömrün nə olduğunu anlamayanlar bir-birlərinə necə uzun ömür arzulaya bilərlər? Bir könül əhlinin əlinə keçən bir axça, bir nəfs əhlinin əlinə düşən bir axçadan xeyirlidir. Bunu sənə açıqlaya bilmərəm. Çünki sənin nəfsin diridir, ayaqlanmışdır. Əgər bunu sənə söy- ləsəm, sən də min söz danışsan, aramıza ayrılıq düşər. Bəllidir ki, pirlərin düşüncələri xalq arasında yayılar. Minbərlərdə, məscidlərdə onların söz- ləri dolaşır. Bir də Allahın gizli qulları var ki, o şöhrətli pirlərdən daha yet- kin, daha sevilmiş şəxslərdir.

Bəzən də xalq arasında bunlardan daha şöhrətli kişilər olar. Çünki onların dilini xalq yaxşı anlayır. Mövlana hesab edir ki, o insan mənəm. Amma mənim inancım elə deyil. Mən axtarılan və sevilən kimsə olmasam belə, axtaranlardanam. Axtaranın məqsədi də axtarılanlar arasından baş qaldırar. Mənə görə axtaran Allahdır. Fəqət o axtarılan sevgilinin hekayəsi heç bir kitabda məşhur olmadı. Təriqətlərin izah etdikləri şeylər arasında da bunlar yoxdur. Bu sözlər həmişə yolu anlatmaq üçündür. Bunu yalnız bir adamdan eşidir, başqa kimsədən eşitmirik. O gün Cüneydin, on xiyar bir qəpiyə satılır, biz neçəyə satılacağıq, dediyini söyləmişdim. O bu haldaydı. Necə ki, on xəstə belə bu sözdən ötəri onun yetkinlik və kamillik dərəcəsinə yetişə bilməz. Bu, bizə görə küfrdür.

Ona dedim ki, o dəyirmanı satma, həm də təşkilat qurma! O, iki min dirhəmi mənə ver ki, sənin hesabına döndürüm. Elə fırladım və elələrinə verim ki, tərifə sığmaz. Görürsən ki, bir xəstə nə edər! Yüz riyazət belə bunu arzusu ilə edə bilməz. Mənə dedi ki, bununla alçaq könüllülük məqamına yetişər və əlavə etdi, o, alçaq könüllükdən bəhs etmirəm. Bəlkə bir yolda kafirin biri daşıyar, onun da suya ehtiyacı var. Su ona çatdırılanda heç dönüb baxmaz, ancaq onun içi o sudan rahatlaşar. O kafir qiyamətdə yüz min müsəlmanın əlindən tutar. Allahın işi səbəbsizdir. Bir adam var ki, dərvişlər üçün iki yüz dirhəm sərf edər, heç bir təsiri olmaz. Başqa birinin verdiyi beş dirhəm daha faydalı olar. Bu mənaları öyrən-

məklə, mübahisələrlə anlamaq mümkün olsaydı, aləmin torpağını başında daşımaq yaraşardı. Bəziləri deyir ki, müqayisə edilsə, Bəyazid ilə Cüneydin yüz dəfə Fəxri Razidən təcrübəsiz olmaları üzə çıxardı. Bəzən təfsirdə, bəzən Quranın izahında ona yetişməyə həsrət çəkərdilər.

Deyirlər ki, Fəxri Razi təfsir və Quran elmində min top kağız sərf etmişdir. Bəziləri də beş yüz top kağız qaralamış olduğnu söyləyərlər. Halbuki, yüz min Fəxri Razi Bəyazidin ayağının tozuna belə çatmaz. Cəftə qapıdan asılar, amma o qapı da evin içini görüb anlaya bilməz. Cəftə qapının çölündədir, evin içinin özünəməxsusluğu isə başqadır. Evin içində sultan məşhurları ilə xüsusi xəlvətdə yaşamaqdadır. O qapının cəftəsi deyil, pəncərənin belə cəftəsi bayırdadır. Bu çabalama və mübahisə buna bənzəyər ki, sən bunu elm yolu ilə öyrənmək istəyirsən. Halbuki, bu yolda çalışmaq və savaşmaq gərəkdir. Deyək ki, yüz il Hələb və Şam yolundan söz açmısan. Hələb mallarını əsla buraya gətirə bilməzsən. Ta ki, yolun əziyyətinə qatlaşacaqsan, malını quldurlar əlindən almaq təhlükəsi ilə üzləşəcəksən ki, bu işi görə biləsən. Alim öncə mübahisə yolunu tutmalıdırmı ki, o zaman o yolda addımlamaq asanlaşsın, deyə soruşdu. Cavab verdim sənə Aksaraya getmək hekayəsini söyləyim və məlumat verim. Getməzdən əvvəl o tərəfin əhvalını soruşarsan. Mən də deyirəm ki, ora qədər get, mən səninlə bərabərəm. Bundan sonra diqqət et ki, hansı tərəf təhlükəsizdir; oğrudan, qurddan, quldurdan və başqa təhlükələrdən hansı tərəf daha qorxusuzdur. Malatya yolu, ya Əlbistan yolu necədir?

Var-dövlət bəzi şəxslərin qibləsidir. Yolçular onu qurban verdilər. Dünyaya tapınanlara görə, bir qəpik pul əziz canlarından daha xeyirlidir. Elə bil, onların canı yoxdur. Əgər canları olsaydı, nəzərlərində var-döv- lət canlarından daha qiymətli olmazdı. Allaha and içirəm ki, dünyaya ta- pınanların qibləsi puldur. İbrahimin (ə) bəlaya düşməsi haqqında heka- yəsi mələklərin əzmindəndir, qısqanclıq və inkar üzündən deyil. Əgər elə olsaydı, İblis olardı. Bəlkə buna heyrət etdilər və dedilər ki, biz nur çevrəsiyik, necə olar ki, cismdən ibarət olan bir ayaq Allah sevgisində bizdən irəlidə gedə bilər? Dedi ki, bunlar sevdadan vaz keçdilər. Ona dedilər ki, övliyalar üçün var-dövlətdən, sürüdən vaz keçmək və bir çox arzulara qapılmağın öz səbəbləri vardır. O isə bundan vaz keçmiş və təmiz qalmışdır. Bəli, inandıq və həqiqət saydıq, dedilər. Fəqət, bu heyrət ediləcək bir şeydir, imtahan edin, dedilər. Bu imtahanda başqa bir sirr də açılar. Hansı səbəbə görə sizdən irəli getməsinin səbəbi. “Mən sizin bil- mədiyinizi bilirəm”, dedi Allah. “Sizə kiçik bir sirr də açıqlanar, ey Cəbrail! Sən bir daşın arxasında gizlən və Sübbu, Quddus deyə təsbih oxu!” - buyurdu, İbrahim Xəlilullah (ə) bunu eşidəndə ətrafına baxdı,

heç kimi görmədi. “Bir daha söylə”, dedi. “Bunu bütün qoyunlar sənə təkrar etsin.” Cəbrail daşın arxasından çıxıb özünü göstərdi. Mən Cəbrailəm, dedi. Mənim qoyunlara ehtiyacım yoxdur, Xəlilullah dedi. Mən elə bir sufiyəm

ki, öncə hardan gəldimsə, yenə ora gedərəm, dedi. Bəzi mələklər bu hə- rəkətdən Xəlilullahın halını anladılar və dedilər: “Az çoxa dəlalət edər.” Bəziləri də hələ ki, anlaya bilmədilər. Dedilər ki, var-dövlət işi asandır, bir dəfə oğulları ilə sınayaq.

Bəhlul qarıya bir daş atdı. Nə üçün vurursan, dedilər. Çünki qarı yalan danışır, dedi. Bu sözdən şəhərə bir fitnə düşdü. Xəlifə Bəhlulu ya- nına çağırdı. Mən onun əlindən danışıram, sözündən deyil, dedi. Xəlifə soruşdu: “Bu necə sözdür? Onun sözü üzündən necə ayrı olar?” Bəhlul cavab verdi: “Əgər sən xəlifəsən, əmr ver və yaz ki, filan yerin cavanları bu fərmanı eşidincə hazır olsunlar, vaxt keçirmədən gəlsinlər.” Ulaqla bu fərmanı oraya apararlar, oxuyar və hər gün oxuyarlar, amma gəlməzlər.

Oxumaq baxımından həqiqidirlər. Eşitdik, itaət etdik, deməklə də yenə düzgünlük göstərərlər. “Sayı əlli min il olan bir gündə” buyurulduğu kimi, Quran işarələrini anlamırsan. Nə edək, əgər bu əlli min ilin zahiri ifa- dəsinə uyarsan, ora cənnət qoxusu apararsan. Əgər nəbilər aləmi hansı, övliyalar aləmi necə olduğu mövzunu düşünərsən başın fırlanar, gicəllənib yıxılarsan. Ancaq o yolda yeriyən ayaqlara əl vur. Məni bir addım keçdi, dediyim zaman addımdan addıma, qarışdan qarışa, dizdən dizə fərq vardır, iki addım sonra yetişir, deyərsən, amma Həzrət Məhəmmədə (s) yaraşan addım səndə yoxdur. Səndə Firon baş qaldırdı, sonra Musa (ə) gəldi, o getdi. Sonra yenidən Firon gəlincə, Musa (ə) getdi. Bu dönüklüyə dəlalət edən vəziyyətlər nə zamana qədər davam edəcək? Musanı (ə) da beləcə fərz et. Firon bir daha gəlməzsə, bu dönüklük sayılmır. Quranda, “O kimsələrdir ki, Rəbbimiz Allahdır deyərlər, sonra düzgünlük göstərərlər”, buyurulduğu kimi, onlar bu aləmdə belə söylədilər, o tərəfdə qafillər desə ki, “bizim Allahımız yoxdur”, onlar heç tövrlərini dəyişmədən sözlərinin üstündə durarlar.

Onları qiyamət gününə gətirdikləri vaxt, məzarlarının yanına aparıldıqları kimi yüz min nur-işıq görərlər. Ölüm mələyi nə gəzər, onlar üçün həyat mələyi vardır. Məzar hardadır? Onlara görə qurtuluş - məzardan və zindandan qurtuluş vardır.

Dünya mömінin zindanıdır. Birinə desələr ki, bu zindandan bayıra çıxsan Sultan olacaqsan, onun yanında, onunla birlikdə taxt üstünə otura- caqsan. O adam gəlib boğazımdan yapışar. Bu zindandan qurtulacağam deyə boğazımı sıxar. Əgər həqiqi möminlərdənsinizsə, ölümü arzulayın. Onları məhşər meydanına gətirsələr, qiyamət nə hala dönər. O gün

gizli işlərin zahirə çıxdığı gündür. Onların gizli sirləri haqdır, haqq isə zahirə çıxar. Qiyamət harada qalar? Onları nurdan olan zəncirlə bağlayarlar ki,

məhşər meydanına gəlməsinlər. Hər nə edərlərsə, bunlarla edərlər. Cən- nətlik olanları cənnətə, cəhənnəmlik olanları cəhənnəmə apararlar. Onlar zəncirlərini qopararlar ki, məhşər meydanına gəlsinlər. Fəqət nurdan başqa ayrı zəncirlə bağlanarlar, ən son vaxta qədər düyünləri açılmaz.

Söz- iş, əməl üçündür, əməl söz üçün deyil. Bilirsənmi, yaxşı do- lanmaq dərvişlər məclisindəndir. Dəstəmaz üstündən dəstəmaz nur üzərindən nurdur. Kamilləşənlər bəzi zahiri qiyafədən xilas olarlar. Bir zümrə onları təqdir edər, bir zümrə də etməz. Başqa bir zümrə də dəstə- maz üzərindən dəstəmaz nur üzərindən nurdur, deyər. Onlar rəhbərliyə yaraşmazlar, amma bunlar aləmin və dünya əhlinin sığındığı və güvəndiyi kəslərdir. Şübhə yox ki, çirkabı təmizləmək gərəkdir, iç aləmimizdəki çirkabın bir zərrəsi zahirdəki çirkabdan yüz min dəfə daha bərbad və pisdir. Batindəki o çirkabı hansı su təmizləyər? Ancaq bir neçə damla göz yaşı. Amma hər göz yaşı da ola bilməz o. Bəlkə bir şey görə bilən həqiqi bir gözün axıtdığı saf və təmiz gözyaşı silə bilər onu. Bundan sonra o kəsə etimad və qurtuluş yetişər, artıq uyğudan oyanar. Onda uyğu başqa cür olar. Amma duasız göz yaşı, duasız namaz bir məzarın başından irəli getməz, qəbir üstündən geri dönənlərlə birlikdə geri dönər. Amma dua və yalvarış ilə qılınan namaz məzara onu qılan kəslə birlikdə girər. Qiyamətdə də sahibiylə birlikdə olar. Beləcə, ta cənnətə və haqqın uca qatına qədər gedər. Əgər belə bir könül ayıqlığı əldə etmişsə, uyuya bilməz. Əgər könlü yuxuda isə, sel yatağında belə yatsa, yenə işi asandır. Biri yanına gələn kimi oyanar. Uzaqdan gələn seli göstərəndə də qorxudan ürpəşər. Dərdlərini unudar, onun ayağına düşər, təşəkkür edər. Amma bir də çox dərin uyğuda olanlar vardır ki, düşmən gəlib boğazını yarıyadək kəssə belə, gözünü aça bilməz. Gözünü açanda da boğazının qalan yeri kəsilmiş olar. Zarafat edirəm. Mövlana haqq əhlidir. Onun təkyəsində gözəl söz danışmaq yaraşar. Görmürsənmi ki, indiyə qədər həmişə sevgiyə aid sözlər danışırıq. Dünya əhlinin qarşısında dəhşətli sözlər də söylənməlidir ki, bir az oyansınlar. Belə bir hekayə danışırlar. İki dost olur. Bunlardan birinin yanında altun vardır. O biri də onu oyadaraq öldürmək və var-dövlətini götürmək sevdası ilə fürsət gözləyir. Qızılı olan yoldaşı sayıq yatap. Çünki dostunun niyyətini anlayıb. Həmişə oyaq qalmaq məcburiyyətindədir. Yoxsa özünü qorumaq işi çətinləşər. Bunlar beləcə, bir yerdən başqa yerə gedirdilər. Pis niyyətli dostu artıq bu işdən ümidini kəsdi. “Bu adam həmişə oyaqdır” dedi. “Əgər bu oyaq

vəziyyətində ona hücum etsəm, bir çarə tapar. Bəlkə bu işi ondan gizlədim bir az." Üzünü dostuna tutub dedi ki, niyə yatmırsan? Dostu cavab verdi: "Niyə yatım, necə yatım? Bir şey gələr başımıza."

"Yat ki, başına bir daş salıim, başını əzib səni öldürüm, bu qızılları götürüm." Ürəyində belə deyir, amma dostuna onun keşiyni çəkəcəyini bildirir. Qızıl sahibi, "dostum, düz deyirsən, bax indi ürəyi rahat halda yata bilərəm", dedi. İndi biri yolda, biri təhlükə içində uyumuşdur. Allah qullarının biri gəlib onu oyandırır. Fəqət, o uyuyan adam, ona görə yenə uyğudadır. Əgər bu uyuyan adamın vəziyyətini sənə anlatsam, özündən ümidini kəsərsən. Barı söyləməyim ki, öz nəfsindən ümidsizliyə düşməyəsən. Ümidsiz olma ki, ümid hələ çoxdur. İnsan yaşa dolanda uşaqlaşar. Amma bu sözüm hamıya aid deyil. Nəbilər və övliyalar bundan ayrıdır. Böyük Mövlanamaz da bu kimilərindən deyildi. Sultanul üləma Məhəmməd Bahəddin Vələd səksəndən artıq yaşadığı halda, hər gün daha yetkin, daha bilikli görünürdü. Heç bayağılaşmadı. Bu sözü yalan demirəm, hələ açmaq istəyirəm. Sevən kəs necə yuxuya gedə bilər, bu çaşdırır məni. Bil ki, aləm fəqirin gözü önündəki pərdədir. Fəqir isə eşq cövhəridir. (Mövlana Cəlaləddin buyurur ki, fəqr cövhərdir. Fəqr şəfa, fəqrdən başqa hər şey mərəzdir. Bütün aləm baş ağrısından və aldanışdan başqa bir şey deyil. Fəqr isə aləmdən gözlənilən sirr və qərəzdir. Yəni aləmin məqsədi və qayəsi fəqr mərtəbəsindədir (Tərcüməçidən.) Eşq cövhəri əzəldən bəri var. Aləm isə dünənki varlıqdır. Hər kəs öz pirindən söz açar. Bizə Həzrət Peyğəmbər (s) röyada bir xirqə verdi. Fəqət bu iki gündən sonra köhnəlib yırtılan, ocağa atılan və ya bulaşıb-yuyulan xirqələrdən deyil. Bəlkə söhbət və yoldaşlıq xirqəsidir. Ağıllara sığmayan bir söhbət deyil; dünəni, bu günü, sabahı olmayan bir söhbət. Eşqin zövqü ilə bu günün və sabahın nə əlaqəsi var. Biri desə ki, Cənab Peyğəmbər (s) uyğudan uzaqdır və ya aşiq deyil, bu sözdən yəhudilər gizli iş görmək yolu tapar, ümidə qapılarlar. Bu söz ona yaraşmaz. Məndən, "Həzrət Peyğəmbər(s) aşiqdirmi", deyə soruşsalar, xeyr, deyərəm. O, məşuq və sevgili idi. Amma ağıl sevgisini sevgiliyə anlatmaqda və onu qavramaqda çaşar, başı fırlanar. Bu halda ona aşiq desəm, bu məşuq, yəni sevilən mənasındadır.

Alicənab bir nəfər birindən soruşdu: "Sən yəhudisən?" "Xeyr, din alimiyəm", dedi. "Kaş ki, yəhudi olyadın", dedi. O biri, "nə üçün belə deyirsən?" soruşdu. "Mənə kibrit lazım idi, onun üçün", dedi. O məmləkətdə yəhudilər özlərinə əziyyət etməyi savab sayan müsəlmanlaın verəcəyi zəhmətdən qorxaraq, vaxtlı-vaxtsız küçəyə çıxmazmışlar. Əksinə, kibrit və buna bənzər şeyləri də bunlar satarmış.

Yəni zamanın hərəkətinə görə sürət və sürətə bağlı olan şeylər dəyişir.

Bəziləri deyərlər ki, böyüklər mənaya baxarlar. Küpə, içində olanı süzər. İndi o pirin təkyəsində sorğu-sual olmaz. Sanki ağacın meyvəsini

tökmək üçün onu əyər, zaman olar ki, ağacı əyməkdən vaz keçər və məclisə gəlməz. Hər zaman üçün gəlməz. Görüləcək şey ancaq sükut və təslim olmaqdır. Amma hər ağac bu şəkildə deyil. Burada heç başqa yol yoxdur. Ancaq susmaq və təslim olmaq vardır. "Quran oxunan zaman onu dinləyin və susun ki, (onun sayəsində) sizə rəhm olunsun!" (əl-Əraf surəsi, 204) buyurulmuşdur. Deyək ki, danışan bir nəfər sözə başladı və ona nöqtə qoymaq istəyir. Buna heç etiraz edilməz, ta ki, o nöqtənin arxası gəlsin. Sözü başdan axıra qədər anlayıb toparladıqdan sonra ondan bəhs edə bilərsən. Əgər qəlbində bir şübhə varsa, onu açıqlaya bilərsən. Ancaq yarımçıq dərk etməklə o nöqtədən bəhs etmək adət deyil, yanlış bir hərəkətdir. O adət düzgün olmaz. Yetkinlik bunu lazım bilir. Yetkinlik odur ki, min dəfə də desələr, fikrin heç dəyişməsin. Tutaq ki, o yetkinlik görünüşdə başqa bir surətdədir. Yenə yetkinlik odur ki, dərk etməyin çatışmazlığını özündə biləsən və tam anlaya, mövzunu qavraya bilmədim, deyəsən. Bu xüsusda sual verməkdə də xeyir var. Amma ilk sözün zövqünü qaçırmış olarsan. Necə ki, fəqirdən soruşulan, məclislərin bərəkəti nə üçün qaçdı, məqamında işarə edilən ilk sözün bərəkəti qaçar.

Rübai:

Ürəyim eşq atəşindən kabab olmuşdur. Çöhrəmin rəngi ciyər qanındandır.

Yarın dodağının suyu şərabımdır.

Artıq məni qınamayın; mənə ağıl öyrətməyin nə yeri var?

Burada fayda ancaq bir loxma yeyə bilməkdir. Nə qədər səbrli olarsan, o loxmanın faydasını görər, sonra başqa bir tikə də yeyə bilərsən. Hikmət budur. Amma dərdi və iztirabı olan bir insan vardır ki, tez-tez yemək istər, o başqa məsələdir. O tanıyar, amma bizim yeməyimizi sınamaz. Əgər ilahi müdriklik bu zahir elmlərini öyrənmyə başlasaydı, bir dərs oxumadan başqa bir dərsə başlamazdı. Məsələn, bu bəhsi bir neçə dəfə oxuyanda, bu məqamı anlamaqda, Mövlananın buyurduğu kimi, çətinlik çəkməz və çox danışmazdı. Çünki bu fikirlə yoğrulmadıqca, bütün faydaları və çətinlikləri adət halına gətirə bilərdi. Lazımdır ki, sabah əsla başqa bir dərsə başlamasın və eyni dərsi təkrar etsin. Bir nəfər bir məsələni yaxşıca qurdalasa, yaxşı bir sonluğa yetişmək onun haqqıdır. Onun ardınca da min məsələ çıxar. Bəzisi gələrkən, bəzisi də gedərkən könül açıqlığı verər. Diqqət et və yaxşı bax ki, səndəki bu könül açıqlığı

gedərkən, yoxsa, gələrkən ayıdnlaşır?

Şeir:
Diqqət et ki, onun vüsləti hər kəsin əlinə düşməz
Şəriət qədəhindən sərxoşlara süd verməzlər.
Orada dünya həvəslərindən keçmiş ərənlər dəm çəkər
Özünü tapanlara bir qurtum belə verməzlər.

Bir zaman İmad ağlayırdı, çünki Nəsrəddinin məktubunu oxuyurdu. İstədim ki, mənə baxasan, görəsən ki, nə söyləyirəm deyə anlayıb-din- ləyəsən. Görünür ki, o, mərhəmət və ürəyiyuxalığından, bəlkə də mövqe və məqam təsiriylə ağlayır. Mən danışarkən söz arasında şeir söylədiyim zaman, mövzunu yaxşı izah edir və onun mənasındakı sirri açıram. Sən də vəzin sonunda sözdən kəsilərsən. Bu gün bəziləri var ki, danışarkən məna qələbə çalar və dilləri tutular. Mövlanada belə bir hal yoxdur. Onda bu hal harada olsun? Hələ heç məndə yoxdur. Məna qələbəsi və bəzən də məna qıtlığı! Məndə bunlardan heç biri yoxdur. Bu xalq mənim sözlərimə uymamaqda haqlıdır. Bütün sözlərim kibriyalıq yönündən gəlməkdədir. Hər kəs iddia edir ki, Quran və Həzrət Məhəmmədin (s) kəlamları hə- mişə dua, yəni dilək yolu ilədir. Şübhə yox ki, hər mənada görünür, söz dinlərlər, amma dilək və istək yolu ilə deyil. Baxsaq, papağı başından salana qədər yetişməz bir yüksəklikdən dinləyərlər. Fəqət, bu ucalıq Allah haqqında utancverici bir şey deyil. Necə ki, Allah Mütəkəbbirdir* deyərlər. Doğru deyərlər, burda çaşdırıcı nə vardır?

Nəhayət, sənə bir neçə söz söyləyim. Bu xalq nifaq yolu ilə danışmaqdan, ikiüzlülükdən xoşlanır. Doğru sözdən sıxılar. Birinə desəm ki, sən dövrümüzün ən böyük adamı, ən şərəfli insansan, şübhə yox ki, xoşuna gələr. Əllərimdən yapışar, sizi çox gözlətmişəm, qüsurum çox- dur, deyib iltifat göstərər. Halbuki, onunla ötən il doğru danışmışdım, mənə düşmən oldu. Bu, adamı çaşdıracaq bir şey deyildir. Çünki xalq ikiüzlülük yönündə dolanmaq istəyər. Ta ki, onlarla birlikdə xoşluqla vaxt keçirəsən. Amma beləcə həqiqət yolunu tutdumsa, dağlara, düzlərə qaçmaq gərəkdir. Əgər o sözü qəbul edərsən, sənə o gün bir mərhəmət üz verər. Sənə bir çox dövlət və səadətlər nəsib olar. Çünki dua və yalvarış yolu ilə dinləyərsən, bu məclis xoşuna gələr. Dərvişin xəyalına bu təkyə xoş görünər. Hər vaxt onu xatırlayar. Könlü ona yönələr və o məclisdən ürkməz, könül rahatlığına qovuşar.

Sənin sual vermək və danışmaqda məqsədin həm könüllərin onu qəbul etməsi, həm də sənin könüllərdə şirin görünməyin üçündür. Amma iş tərsinə də olub, bundan ürəklərə bir üzüntü gəlincə və bu üzüntünün iztirabı da sənə əziyyət verincə, könül buna razı olmur. Necə ki, Həzrət

Məhəmməd (s), "Qiraət olmadan namaz olmaz və yenə qəlb rahatlığı olmadan namaz olmaz", buyurmuşdur. Bir zümrə sandı ki, zahirdə könül xoşluğuna yetişənlərin artıq namaza ehtiyacları yoxdur. Ona dedilər ki, məqsəd hasil olduqdan sonra artıq ona yetişmək üçün səbəb axtarmaq yersizdir. Onların hesab etdikləri kimi, bunu bir an üçün doğru fərz edək. Deyək ki, onlara həqiqət tamlığı üz göstərmiş və onlarda övliyalıq, könül xoşluğu, qəlb rahatlığı baş qaldırmışdır. Bütün bunlarla bərabər, namazın zahirdə tərk edilməsi onlar üçün əskiklikdir. Sənə gələn bu kamillik və yetkinlik halı öncə Allah Rəsulu Həzrəti Məhəmmədə(s) də gəlmişdi. Hər kəs, belə deyil, desə, onun boynunu vurar, öldürərlər. "Bəli, bu könül xoşluğu vəziyyəti Həzrət Peyğəmbərdə (s) də hasil oldu", deyəndən soruşaq: "O halda, nə üçün Peyğəmbərə(s) iqtida etmirsən? O, böyük kərəm sahibi, müjdələyici və qorxudan, bərabəri olmayan Peyğəmbərin (s) o parlaq həqiqət işığının izi ilə nə üçün getmirsən?"

Əgər burada övliyalardan biri olsaydı, onun övliyalığı heç şübhə yaratmaz şəkildə dürüst olardı. Bu Filanəddin ki, onun övliyalığı heç açıqlanmamışdır, o xarici görünüşü, zahiri qoruyur. Mən o Filanəddinin dalın- camı gedim? Buna salam belə vermərəm.

Bundan sonra üzünü Səlahəddin Zərquba çevirdi: "Necə danışıram?" Səlahəddin, hökm sənindir, hər nə söyləyirsən, bizdən bir cavab və etiraz yoxdur, dedi. Bir halət də yoxdur. O köşədə bir karvansarada idim. Ö biri soruşdu: "Təkyəyə gələrsənmi?" "Mən özümü təkyəyə layiq görmürəm", dedim. Təkyə elə isanlar üçün qurulmuşdur ki, onların bişmək və iş görmək cəsarəti yoxdur. Onların zamanları dəyərlidir. Amma ona yetiş- məzlər. Mən onlardan deyiləm. Yaxşı, bəs mədrəsəyə gəlməzsənmi, de- dilər. Mən mübahisəyə girişəcək insanlardan deyiləm. Sözarası onları anlaya bilsəm də, bəhsə və mübahisəyə girişmək mənə yaraşmaz. Çünki öz dilimlə danışaramsa, mənə gülərlər, kafirdir, deyərlər, məni küfrlə damğalayarlar. Mən qəribəm. Qəribin də yeri karvansaradır.

Qapını açmaq üçün açar istəyirsən. Açarı oğrular verməlidirlər? Oğrulara etibar etməyin xoş olacağına inanırsanmı? Özünə güvənən evi oğrulara tapşırar. İgidcəsinə və ayıq davranar, ancaq evi qoruyar. Zındıqlarla yoldaşlıq xoşdur. Çünki onlar zındıq olduqlarını bilirlər. Mə- həmməd Quyani mömin adamdır. Onun qəlbi iman ilə doludur. Amma məndəki imtina onda yoxdur. Əgər söz ona qalarsa, bütün ömrü boyu və qiyamətə qədər ona yetər. Hətta qiyamətdə, Sirat körpüsündə də, ta Haqqa qovuşancaya qədər... Əgər bu, onda qalmazsa, onun sözü öz əslinə dönər. Bu söz də öz yerinə düşər.

Bir adamı keşikçilər yaxalayıblar. O adam da öz-özünə deyər ki, əgər məni döysələr, buna dözə bilmərəm. Bir şeyimi alarlarsa, iş daha bərbad

olar. Dərvişdən bir qəpik almaq onu öldürmək deməkdir. O adam keşikçilərə deyər ki, məni əlli nəfərin toplandığı bir məclisə aparın, istə- diyinizi onlardan istəyin. Keşikçilər də deyərlər ki, bu adam doğru da- nışır, dərvişdən bizə nə xeyir gələ bilər? Sonra, gəl göstər o adamlar hardadılar, deyərlər. O ana qədər keşikçilərin dustağı olan dərviş bu dəfə onları düstaq edər. Əvvəlcə onlarla dost olar, evinin qapısına qədər apa- rar. "Siz burada oturun, mən gedim onlarla görüşüm, amma heç bir şey danışmayın. Əgər səsiniz çıxsa, onlar şübhələnərlər, görəsən, nə danı- şırlar, deyə ürkərlər", deyər. O adam içəri girər, bütün pəncərələri və qa- pını bağladıqdan sonra dama çıxıb oturar orda. Baxar ki, keşikçilər hələ də oturub aşağıda gözləyirlər. Aşağıya üzünü tutub çağırar: "Dediyim adamları tapa bilmədim." Keşikçilər əsəbi şəkildə, alçaq adam, bizə elədiyini elədin, biz də sənə nə edəcəyimizi bilirik, deyərlər. Adam cavab verər ki, indi başınızı divara vurun, mən öz evimə gəldim. "İstəyirsiniz o tərəfə gedin, istəyirsiniz bu tərəfə!"

Söz dinləməyə qabiliyyətli bir şəxs tapılmazsa, o söz gəldiyi yerə gedər, başını sırsıra kimi damdan aşağı sallayan o dərvişin dediyi kimi olar. Sözü dinləyən başqalarının sözünü də dinləməyə qabiliyyəti olduğunu deyərsə, o, söz söyləməkdə də, dinləməkdə də acizdir. Acizlərin sözü bizim sözümüzə uymaz.

Xalqa qurtuluş və müjdə sözləri boş gələr. Onlara cəhənnəmliklərin sözü daha şirin görünər. Onda qurtuluş müjdəsi olan bir söz var ki, onların xoşuna gəlmir. Halbuki, qurtuluş həqiqətdədir. Şübhəsiz ki, bizə cəhənnəmi elə başa salırlar ki, eşidənlərin qorxudan ürəyi partlasın.

Bir nəfər hər güləşdiyi pəhləvana məğlub olardı. Bir yəhudi belə onu qaldırıb yerə vurardı. Bir gün Allahdan olacaq kimi, o bir zavallının kürəyini yerə vurdu. Bu, biçarənin biriydi. Bir təsadüf nəticəsində ordan keçirdi. Ömründə heç kimlə güləşməmişdi. Yalançı pəhləvan bu za- vallının kürəyini yerə vurunca özünü saxlaya bilmədi. O saat yerindən sıçradı, o adamın qırtlağından yapışdı. "Mən onu öldürəcəyəm", dedi. Soruşdular ki, bu adam sənə nə etdi? Və əlavə etdilər ki, harda güləş- dinsə, bütün cahan səni məğlub etdi. O zavallı çarəsiz qaldı deyə onu nə üçün öldürürsən? "Xeyr, öldürəcəyəm", dedi. Soruşdular ki, axı nə üçün öldürürsən o adamı? Mən bütün ömrüm boyu ancaq bir nəfərin kürəyini yerə vurdum, onu nə üçün öldürməyim, dedi. Nəhayət, padşahın yanına şikayətə getdilər. Allah eşqinə bu miskinin əlindən bu zavallını qurtar,

dedilər. Padşah, onu yanıma gətirin, dedi. Adamı saraya gətirdilər. Pad-

şah dedi ki, yıxdığın adamdan yüz dinar al, onu burax. Pəhləvan cavab verdi ki, bu adamın hər əzası min dinara dəyər. "Bu gün onun neçə əzası var", dedilər. O, cavab verdi: "Ömrünü dua etməklə keçirənin də-

yəri bəlli olmaz.” Çünki insan oğlunda iki sifət vardır. Biri duadır ki, bu sifətə ümidini bağlamalısan. Gözlə ki, muradın çöhrəsi sənə görünsün. İkinci sifət də duasızlıqdır. Duasızlıqdan nə umursan? Duanın sonu nədir? Duasızlığı tapmaq. Axtaranın sonu nədir? Axtarılana yetişmək. Axtarılanın sonu nədir? Axtaranı anlamaq. Biri dedi ki, mən kafirəm, sən müsəlman. Müsəlmanlıq kafirdə də var. Amma aləmdə kafir hardadır? Sənə səcdə edərəm. Mən kafirəm de ki, sənin yanağından öpüm. Bunlar səni tanımır. Bu halda bu aləmdə kimə tapınrlar. Mənə sübut göstər, deyirsən. Məndən sübut və dəlil istəyirlər. Sübutla Haqqı arayırlar, amma Haqdan sübut istəmirlər. Sən necəsən? Bu söz xoşuna gəldimi? Məmnunam, deyirsən, daim məmnun qal! Mərdlik odur ki, başqalarının könlünü xoş etsin. Bir adam da var ki, öz nəfsini məmnun edər. Bəli, Allah qulları həmişə özlərini məmnun edə bilərlər. Amma başqalarını məmnun etmək Allahın işidir.

Deyirlər ki, bizə Şəmsəddin Təbrizindən könül açıqlığı gəlmir. Məndən könül açıqlığı istəyən ancaq bir Məcusidir. O, məni tapır və məndə könül xoşluğu axtarar. Sən o Məcusi deyilsən. Müsəlmansan, möminsən. Müsəlman insanı incitməz, eyibləri örtər. Məsələn, bir keşiş bir müsəlmanı öldürsə, sənin evinə sığınaraq, onu axtaranlardan qaçdığını söyləsə və mən ancaq sığınacaq yer kimi sənin evini bildim, məni qoru, desə, ona müsəlman müsəlmanı öldürsə belə, aman verilməz, deməzsən. Ancaq onu qoruyarsan. Elə olar ki, o, müsəlmanlığa həvəs göstərər. Sən həqiqətən müsəlmansan, fəqət bu qədərlə kifayətlənmə, daha artıq mü- səlman ol. Hər müsəlmanın bir zındığı, hər zındığın da bir müsəlmanı olması lazımdır. Müsəlmanlıqda nə ləzzət var? Ləzzət küfrdədir. Bəzən müsəlmandan heç bir müsəlmanlıq nişanı və yolu tapmazsan. Amma bir zındıqdan müsəlmanlıq yolu taparsan. Axtarılanın son mərhələsi axtarandır, deyiblər. Amma ondan daha yüksək bir söz söyləmək gərəkdir. Ancaq onlar bizim danışmaq tərzimizi bilməzlər. Başları fırlanar.

Bütün bu söylədiklərimizlə bərabər, mürid, yəni haqq yolunun yolçusu yetkinləşmədikcə, həvayi-nəfsinə uymaqdan qurtula bilməz. Şeyxin gözündən uzaq olmaq onun üçün münasib olmaz. Çünki soyuq bir nəfs onu həmin andaca soyudar. Bir əjdahanın nəfəsi kimi öldürücü bir zəhər olar. Hər nəyə dəyərsə qaraldar. Amma mürid bir dəfə yetkinləşdimi, onun şeyxindən ayrı düşməsi zərər verməz.

“Uzun gecələrdə Allahı təsbih et”, buyuruldu. Yəni mürid ilə mürşid arasına pərdə girincə, o, gecə deməkdir. Madam ki, qaranlıq başlamışdır, lazım gələn bu zamanlarda onu ciddi olaraq anasan və o pərdənin aradan qalxması üçün çalışasan. Nə zaman qaranlıq artar və mürşid sənə çirkin görünərsə, ona yaxınlaşmağa daha çox çalış. Qəm çəkmə,

ümidsizliyə düşmə. Qaranlığın uzanmasından, uzun gecələrdən sonra aydın günlər başlayar. Bir adam dinini qüvvətləndirərsə, bəlası da artar. Dinini azaldan, zəiflədən adamın da bəlası xəfifləşər, deyərlər. Necə ki, Əmir Kabus da, ucalıqlar ancaq çəkilən zəhmətlərin əvəzində qazanılar, demişdir. Hicab və pərdə olmadığı zamanlarda o zövq və nur özü-özlüyündə hərəkətə keçər. Hər nə taparsa, Allah-təalanın müqəddəs Kitabında buyurduğu, "Ona ruhumdan üflədim", məntiqinin aydınlığı ilə tapar. Yəni ona pərdələnmək və yabançılıq üzündən elə bir hal gələr ki, haldan xəbərsiz olar və nəfsini idarə etmək yolunu tutar. Hər nə qədər nəfsini başqa cür göstərmək istəsə də, o sevgidən və işıqlı aləmdən söz açmaz. Sən özünü abdal yerinə qoy, çünki "Cənnətlik qulların bir çoxu qafillərdəndir", buyurulmuşdur. Cəhənnəmlik insanların bir çoxu da bu filosoflar və alimlərdəndir. Çünki onların çox ayıq və ağıllı olmaları özlərinə bir pərdə olmuşdur. O bilgi və düşüncə ərlərinin hər xəyalından on xəyal doğar. Onlar Yəcus nəsli kimi, ya yol yoxdur, deyərlər, yaxud da bu yolun uzaq olduğunu söyləyərlər. Bəli, yol uzaqdır, amma bir kərə yürüməyə başladınmı, son dərəcə coşqu və nəşə içində yolun uzaqlığı görünməz olar. Necə ki, "Cənnət pisliklərdən qorunmuşdur" buyuruldu. Cənnət bağçasının ətrafı tikanlıqdır. Amma burnumuza dəyən cənnət qoxusu sevgilinin xəbərini aşiqə ulaşdırınca, o tikanlıq çox xoş görünər. Cəhənnəmin ətrafındakı tikanlığı həmişə gül və reyhan qoxar, amma burunlara atəş qoxusu gələr.

O lətif yol münasib görünməz. Əgər bu yolun ləzzətini təfsir etsəm, parlaq görünməz.

Bir kişi bir ətək qızıl verib, ilan saxlayandan bir ilan satın alır. Amma elə zəhərsiz ilanlardan deyil, zəhər saçan bir dağ ilanı olur aldığı. Qazı- lıqdan və mənsəbdən, mövqedən qaçan kimsə Allah üçün qaçar. Başqa səbəbdən deyil, iman nurundan ötəri qaçar. İlanı anlayan dostu onu ta- nıyar.

Şeir:

Həzrət Quranın gəlini, ancaq iman ölkəsinin savaşdan
Qorunmuş olduğunu görərsə, üz örtüyünü açar.

Allah kəlamıdır. Allah kəlamı da tam və kamil olar. Lakin yetişmiş üzü- mü günəşlə bulud arasında qorumaq gərəkdir. O vaxta qədər ki, qov- rulmasın. Amma yetişincə ona günəşin heç bir zərəri dəyməz. O ki var şirinləşənə qədər qoruqçu onu qışdan qoruyar. Amma yaxşıca yetişdimi, qar altında belə bəslənər. Bu kamal mərtəbəsinə yetişən kimsə də

Allah nuruna boyanmış, Haqqın ləzzəti ilə məst olmuşdur. Ona rəhbərlik gərək olmaz. Çünki sərxoşdur, başqalarını necə ayılda bilər? Fəqət, bu sər- xoşluğun o yanında biri var. Necə ki, əvvəl də anlatmışdıq. Bu ayıqlığa yetişən kimsələrin lütfü qəhrdən üstün olar. Amma məst olub o ayıqlığa yetişməyənlərin lütfü qəhriylə bərabərdir. Fəqət onun mənliyi həmişə yaxşılıqla dolu olanda, bu təqdirdə lütfü qalib olar.

Peyğəmbərə Cəbrail vasitəsiylə də vəhy gəlirdi, qəlb yoluyla da. Övliyalara ancaq bir yoldan gəlir. Necə ki, Həzrət Peyğəmbər (s) bu vəhy sırasında, "Aramıza nə bir kitab sahibi peyğəmbər, nə də yaxın mələklər- dən bir girə bilər", buyurmuşdur.

Mən bu yolda söz söyləmərəm. O erməni deyirdi ki, həmişə səninlə bir yerdə olan kəs nə xoşbəxtdir. Başqa bir gün də başqa bir kafir deyirdi ki, bu sənin söylədiyin sözə görə bütün bu xalq və bizlər həmişə öküz, eşşək kimi dörd ayaqlı heyvanlardan sayılırıq. Həzrət Ömərin (r.a) söylədiyi kimi, dənizə düşən şəxs üzməyi bilməzsə, əl-qol atmazsa, aslan olsa belə, dəniz onun qüvvətini qırar və öldürər. Dəryanın adəti diriləri batırmaq və öldürməkdir. Amma boğulub öldükdən sonra də onu üstünə çıxarır və ona hamballıq edər. İndi öncə onu öldürməsində və sonra da su üstünə çıxarmasında bu məqama işarət var. Yer üzündə yürüyən bir ölünü görmək istəyən varsa, Əbubəkirə (r.a) baxsın. Qara torpaqdan boy atmış, gözəl, cana can verən bir su ilə bəslənmişdir. O dəniz, Allahın qullarından bir quldur. Əgər bütün bunlar sənin üçün olacaq şeylər deyilsə, bəziləri, səncə, olacaq şeylərdir. Bu gün, bu saatda olmasa belə, gələcək zamanların birində olacaqdır. Mənim vücudum elə bir kimyadır ki, mis üzərinə  tökməyə hacət yoxdur. Misin qarşısında mənimlə bərabərdir, həmişə altun olar. Kimyanın kamalı da belə olmalıdır.

Allahın elə qulları vardır ki, bir kimsəninin yaxşı tərəfə yönəldiyini gö- rüncə onun yaxşı olacağını hökm edərlər. Birinin çiynində xirqə, başında külah* görüncə onun yoldan çıxdığına qərar verərlər. Başqa bir zümrə də var ki, onlar Allahın cəlal sifətinin nuru ilə baxar. Bədr savaşından qa- çanlar rəng və qoxularını itirmişlərdir.

O birinin xirqəsini soyundurarsan, cəhənnəmə yaraşar. Cəhənnəm ondan utanc duymaz. Sonra əba altında gizlənmiş bir adam var ki, əbası- nı çıxarsaq, cənnətə layiq bir adam görərsən. Əgər bir kəs mehrabda na- maza durmuş, fəqət qafası dünya işləri ilə məşğul isə, meyxanada zina edən adamın gördüyü işlə onun heç fərqi yoxdur. Zina edənləri şallaqla cəzalandırarlar. Bunlar tövbə edərlərsə, "Allah onların pis əməllərini yax- şı əməllərə çevirər" (əl-Furqan surəsi, 70). Amma qeybət edən kəs riyazatla xəfifləşərək havada uçsa belə, qurtula bilməz. Əgər bir şəxsdə həm gö- zəllik libası, həm də mənəvi kamillik olarsa, o zaman nur

üstünə nur qonar.

Sənin könlündə özümü əvvəlcə gördüyüm kimi görə bilmirəm. Dua edək, Allah könlündə bizi şirin göstərsin. Dostlara da tövsiyə edək ki, dua etsinlər. Bundan sonra işimiz bu olacaqdır. Öyüd vermək mümkün olmasa, əlimizi dua etmək üçün açaq. "Sənə salam olsun! Mən Rəbbimdən sənin bağışlanmağını diləyəcəyəm" (Məryəm surəsi, 47), buyurulmadımı? Həzrət İbrahim (ə)-in atası oğlunu danladı. "Ya İbrahim! Sən mənim tapındığım tanrılardan üzmü çevirirsən? Əgər (onlara qarşı pis hərəkətlərinə) son qoymasan, səni mütləq daş-qalaq edəcəyəm (yaxud səni təhqir edib, acı sözlər deyəcəyəm)" (Məryəm surəsi, 46).

Ariflərin sözünü söylədim. O dərviş deyir ki, biz hər vaxt ariflərə aşiqik. O halda, mərufi* məşuq kimdir, dedim. Bu gün məşuq sənsən, dedi. O zaman məşuq üzərinə hökm yetişməz, dedim. Sən necə hökm edirsən? Cavab verdi: "Mən hökmü sənə vermədim." Elədir, amma bir gün sən demirdinmi ki, mən onun saçının bir tükü belə deyiləm, dedim. Bəli, orası elədir. Amma bu daim məni sorğuya çəkir, dedi. Hər kim bizim dostumuz olursa, gərək əvvəl etdiyindən daha artıq ibadət etsin. Amma söhbət üçün söyləmirəm. Sədəqənin ən məqbulu başqaları görmədən veriləndir. Ən az sədəqə də başqalarının görə bildiyi şəkildə ediləndir. Çünki sədəqə verən dərhal onu qısqanar. Şeyxin gördüyü iş sayılmış qoz kimi hesablanar. Əlbəttə, fayda verər və özünü itirməz. Bəziləri də bu işi edər, amma bir faydasını görməzlər və qüsurunu şeyxə yüklədərlər. Öz yanlarından bir iş görərlər, elə hesab edərlər ki, özlərinə həvalə edilən işi daha yaxşı bacararlar. Halbuki, o tez bacarılan işi yüz fərsax uzaqlaşdırmış olarlar. Yavaş davranış və heç nəyi vecinə almamaq o işin başlanğıcında göstəriləcək bir səhlənkarlıq yüz fürsətin əldən getməsinə səbəb olar. Uşaq uşaqlıq etdiyini bilsəydi, bunu əsla eləməzdi.

Şeir:

Madam ki, nəfsini tanımaqda hər kəs qafil, Nə olaydı bilsəydim kimlərdir cahil!

Şeir:

Deyək ki, şübhədən qurtuldun nəhayət, Tapındığın şübhə bütü yerində durmaqdadır!

Özünü başqalarından üstün bilən, bundan zövq alan kəs, eynilə, ölən

filan qadın mürdəşir taxtasında gülürdü, deyən zavallıya bənzəyər. O filan qadının özünə güldüyünə hökm edər, amma bilməz ki, ora gülünən yer deyil. Mən bir əmr verdim, nə üçün eləmədin, deyə soruşdum. Mənə dedi ki, üzürlü səbəbini söylədim. Mən o üzürü qəbul etmədim, ikiüzlülük etdim. İçimdən gələn bir səs mənə deyirdi ki, mən söylədiyim şeyləri eləsəydin, iztirabdan qurtarardın. Hərçənd, biz səni bu aləmdə o aləmlərdən qurtarsaydıq, xoşuna gələrdi. Amma o biri aləmə sabah zövq və nəşə ilə getməyinə necə yardım edə bilərik? Hər kəs orada öz iztirabı ilə qapıda qalar.

Şeyx vəz edərkən biri deyirdi ki, bu nə nəsihətlərdir? "Minbərdə bir az nəğmə oxuyar, bir az hay-küy salar, amma öz nəfsinə heç tərbiyə verməz. Nə üçün öz uşaqlarına bunu başa salmır? Belə etsəydi, onda onlar da belə olmazdı." Şeyxlik imtinadır. Vaiz də Haqq əhli olanların şəfaəti üçün işarət etməlidir. O zaman şeyxin xütbədə söylədiyi sözlər daşa belə təsir edər. Həkimə desələr ki, indi bu xəstəni müalicə edirsən, amma bir az əvvəl ölən atanı və oğlunu müalicə edə bilmədin.

Həzrət Məhəmmədə (s) dedilər ki, nə üçün əmin Əbuləhəbi o sapqınlıq zindanından işıqlığa çıxarmadın? Peyğəmbər(s) belə buyurdu: "Elə xəstəliklər var ki, onun müalicəsi mümkün deyildir. Həkimin belə bir xəstəylə boşuna vaxt keçirməsi cəhalət olar. Xəstəliklər də var ki, onun dərmanı və çarəsi var. Onu müalicə etməmək mərhəmətsizlikdir."

Bir cütçü torpağa toxum əkirdi. Ona, nə üçün evinin qənşərindəki torpağı əkmirsən, dedilər. Ora şoranlıqdır, əkin əkilməyə yaramaz, dedi. Mənim sözlərimin də heç zaman ziyanı olmaz, hələ faydası olar. Amma o nə faydadır? Bu aləmdə ki, bir zümrə ondan məhrum deyil. Nil çayının suyu bir gün birinə qan görünərsə, burda Nil çayının nə günahı var? Davud Peyğəmbərin (ə) məlahətli səsi onu anlamayanın xoşuna getməyib, ona pis gələrsə, bundan o səsin dəyərinə bir əskiklik gələrmi?

Şeir:

Günəşin işığına bir zərər gələrmi heç! Görməzsə, nə çıxar kor yəhudinin gözü?

Əgər bu gün mənim sözlərim xoşuna gəlmirsə, bu vəziyyətdən çəkin, sözlərimə sayğı göstər ki, sən də sayğı görəsən! İman və iqtidadan özündə bulunduğunu iddia etdiyin şeyləri qüvvətləndirmiş olarsan. Özünün və babalarının dünyagörüşünə şahidlik etmiş olarsan. Öncə görmüş olduğun xidmətlər, göstərmiş olduğun sayğılar həmişə korluqdandı. Başqalarını da yoldan çıxarardın, əksinə olaraq ədəbsizlik edirdin.

Onun üçün bu qədər yüksəldirlər. Mən ondan qorxuram ki, bu saat-

da sən ayrılıq dərdindən qafil, şəfqət kölgəsində rahat uyumaqdasan. Elə hərəkət edirsən ki, şəfqət sona yetsin. Sonra da bu halı röyada görərsən, amma Şeyxi görmürsən. Çünki Şeyxi görmək onun istəyi olmadan mümkün deyil. Nə röyada, nə də oyaq olarkən onu görməzsən. Nəhayət, çürük bir ümid qalar sənə. Yəni bütün umulan şeylərdən uzaq boş bir ümid. Necə ki, bir adam Allahdan ona bir övlad verməsini istəyər. Çünki gənc bir kişidir, qadını da gəncdir. Amma sən o ümidi bu ümidlə necə müqayisə edə bilərsən? Bu, birinci zavallının ümidsizliyi, Şeyxin özünə bəslədiyi şəfqətin arasının kəsilməsindən ortaya çıxmışdır. Yazıq o xəstənin halına ki, işi Yasinə qalmışdır. Yəni o, Şeyxdən ancaq özüylə nifaq həddində olmasından, ikiüzlü danışmasından, mülayim və şirin sözlər söyləməsindən zövq alar. Halbuki, qorxunun bu məqamda olduğunu bilməz. Amma padşahın hiddət və qəzəblə ona sərt sözlər söyləməsindən qorxusu yoxdur. Əgər belə sözlər söyləyərsə, o şahlığa yaraşan bir danışma tərzidir.

Şeir:

Aslanın dişlərini açıq gördüyün zaman
Gülür, nəbadə sanma, o, qorxunc aslandır.

Sən şahlardan ancaq onların mükafatlarını gördüyün zaman qorx. Röyada bir söz danışıram. Şeyx onları bir-bir mənə başa salır. Yenə də Şeyxi gerçək saymırlar. Nə sözündə, nə də işində ona inanmaq istəmirlər. Səbəb aydındır - şəfqətin kəsilməsidir.

Cörəsən, nə məqsədlə onu həqiqi saymırlar? O məqsədi bir ovcunun içinə qoysan, Şeyxdən umduğu şeyi də o biri ovcunun içinə qoyarsan. Sonra bir bənzətmə aparsın. Hansı hansından daha dəyərlidir? Şeyxin

zövq dolu bir aləmi var. O daim məşğuldur. Müridin son halıyla məşğul olmazmı? Belə bir həyat içində bu uyğunluqdan, bu şəfqətdən artıq daha nə edilə bilər? Bu eynilə aralarından biri bir Məcusi* qızına aşiq olan sufinin hekayətinə bənzəyər. Aşiq bütün gününü sevgilisinin ətrafında dolanaraq keçirər, məbəddə, hər yerdə onun ardınca gəzərdi. Məcusi qızı bir gün soruşdu: “Sən mənim ətrafımda nə üçün dolanırsan?” Aşiq halını anlatdı. Sevgilisi dedi ki, biz öz millətmizdən olmayanları bir əjdaha kimi təsəvvür edirik, onlardan daim qaçırıq. “Mənim sənə layiq

olacağıma necə ümid edirsən?" Aşiq çarəsiz qaldı. Tez-tələsik dostlarının yanına getdi. Onlarla vidalaşacaqdı. Xeyirdir, inşəallah, bu nə haldı, dedilər. Dərviş başına gələnləri danışdı. Artıq gedirəm, dedi. "Bir zünnar alıb, boynumdan asacağam." Dostları, hamısı birdən, biz də bunu məsləhət görürük, hamımız zünnar taxaq, deyə dilləndilər. "Nəhayət, bizlər ayrı- ayrı vücudlarda bir ruh deyilikmi?" Məcusi qızı bunları görəndə bir yerdə gəlmələrinin səbəbini soruşdu. Bunlar da əhvalatı qıza danışdılar və dedilər ki, bizim aramızda vəhdət və bərabərlik vardır. Məcusi qızının qəlbini bir atəş yandırdı, öz zünnarını qoparıb yerə atdı. Öz qövmünə bildirdi ki, mən o icmanın quluyam. "Çünki aralarında belə bir vəfa və sədaqət var. Mən bu vəfanı heç bir millətdə görmədim." Qızın atası və qohumları yığışdılar, onu qınamağa başladılar. Sən o sufilərin cadusuna qapılıb niyə öz dinindən imtina edirsən, dedilər. Qız cavab verdi: "Mənim gördüyümü gərək siz də görəydiniz! İnsan bunlara necə aşiq olmaz axı?"

Hər kimin zatında səadət varsa, öyüd onu cilalandırar, işıqlandırar. Hər kimdə bədbəxtlik varsa, öyüd vermək onları qaraldar. Aynasındakı pasları artırar. O elə aynalardandır ki, cilalandıqca pası artar. Ancaq onun zənn etdyinə görə:

Şeir:

Ey can, mənə bir görün, tükənmədən son nəfəsim,
İşimi tez bitir, artıq kəsilsin səsim!

Bir eşq gərəkdir ki, bu sirri onunla bərabər öyrənək. O deyirdi ki, o gün quyuya bir daş atdım. Aksaray yolunun başına, o karvansaranın yanına getdik. Xatırlayırsanmı? Mən çox yaxşı xatırlayıram. Söylədiklərini onlara halal etdim. Məqsəd sən idin, mənim onlarla nə işim var?

Müsafirə iki dəfə qonaqlıq vermək lazımdır, ikinci dəfə getmək ərəfəsində. Yəni bu sonuncu qonaqlığın, əvvəl etdyinin bundan sonra da

davam edəcəyini göstərir. Tövbə edərsən, amma, görəsən, sənin hər gün tövbə etmək adətin varmı?

Qardaşı əxlaqsız olan adamın hekayəti qəribədir. Bu adamı hər gün pis bir iş üstündə yaxalayar, şəhərin ətrafını gəzdirər, qardaşının eş- şəyinin yükünü boşaldıb, onu eşşəyə tərs mindirərlərmiş. Nəhayət, qar- daşı özünü saxlaya bilmir. Bir gün, qardaşım, madam ki, sən daim bu pislikləri etməkdə adətkarsan, sənə bir eşşək satın almaq lazımdır, deyib. İndi bizimlə böyüklər arasında fərq budur ki, bizim batinimiz nədirsə,

za- hirimiz də odur. Allah mənə yadlarla dolanmaq üçün səbr və dözüm ver- mişdir. Amma dost ilə oturub-durmaq daha münasib olar. Bir şəxs məlum bir yoldan bir qazanc əldə edərsə, o yola möhkəm sarılar. İşində çaşan şəxsin də bir ipin ucundan yapışması gözəl olar. Yəni həmin sınanılmış yolu tutar və yoldaşlarıyla doğru-dürüst keçinər. Yoldaşlarını elmsiz və avam bilməz. Elə bir zəndə düşməz.

"Rahab" ustadı Əbubəkir Cuhanın şöhrətini eşitmişdi. Bir gün ikisi də bir-birini gördü, amma heç biri o birini tanıya bilmədi. Hər ikisi də bir adamın eşşəyini, paltarını və pul kisəsini oğurlamışdı. Malı oğurlanan adam dərddən boynuna bir taxta lövhə asdı. Məni soydular, deyə sızladı. Bu taxta lövhəni də oğurladılar. Belə, hər ikisi bir-birinə yoldaş oldu. Sənətlərini qarşılıqlı olaraq bir-birlərinə göstərdilər. Nə zaman biri əldən zirəkliyini göstərirdisə, o biri də bunu edir və yoldaşının hünərinə üstün gəldiyini nümayiş etdirirdi. Nəhayət, bir günü biri o birindən soruşdu: "Sən kimsən? Bu qədər zirəkliyi hardan öyrənmisən?" Mən Cuhayam, dedi. O biri, onda doğru deyirsən, deyə dilləndi.

Beləcə, könül əhli iki dərviş yoldaş olurlar. Bunlardan hər biri o birinə saygı göstərər. Çünki əməlləriylə bu yola yetişmişlər. O biri onun nə söylədiyini bilər və ona çox cəfa verər. Çünki səadət yolunun cəfaya tab gətirmək olduğunu bilir. O, səadət yolunu Günəşin yuvarlaq olduğundan daha aydın görür. Cəfadan qaçan insan bir kor sərf-nəhvçiyə* bənzəyər. Kor sərf-nəhvçi bir gün bir çirkab çuxuruna düşər. Biri yanına gələr, ver əlini, deyə çağırar. Bu xitab, sərf-nəhv qaydalarına uyğun olmadığı üçün, o hirslənər, keç, deyər."Sən bizlərdən deyilsən." Başqa biri gələr, o da eyni şəkildə, əlini uzat, deyər. Alim onu da eyni şəkildə qovar. Beləcə, bir sözcükdəki sərf-nəhv səhvlərini o qədər diqqətlə görən adam, düşdüyü çirkab çuxurunu görə bilməz. Bütün gecə sübhə qədər o bərbad yerdə, zibilliyin içində gözlər, amma heç kimin əlindən yapışmaz. Gündüz biri qarşısına çıxar. Ey Əba Ömər, sən çirkab içinə düşmüsən, deyər. Alim, elə isə tut əlimdən, sən bizlərdənsən, deyər. Amma adamın gücü

çatmaz. O birinin əlindən tutanda hər ikisi birdən quyunun dibinə düşər. Üçüncü bir şəxs o səsə qulaq verər. Bu səs filankəsin səsinə oxşayır, deyər. Həqiqətdə onun səsini tanımaz. O biri də anlaşmaq yolunu tutar, amma anlaşmanın nə olduğunu bilməz. Necə ki, yenə bir sərf-nəhvçi bir nəğmə dinləyər, paltarını cırar. Xalq ətrafına toplanar. Orada olan adamlarla bərabər qazı da bu vəziyyətə heyrət edər. Bu adam belə insanlardan deyil, deyərlər. Zavallı xanəndə də zənn edək ki, səsi bu adamın xoşuna gəlir. Nəğməsini təkrar edər. Sərf-nəhvçi yenə başını yırğalayıb, xalqa işarə edir. Dinləyin, ey müsəlmanlar, deyər. Xalq, ona

qeyb aləmindən səda gəlir, bizə onu anlatmaq, bizi oyandırmaq istəyir, deyə düşünər. Gecədən keçənə qədər bu halı seyr elədilər. Alim yaxasını cırmış, o yanı bu yana qatmış, çılın-çılpaq bir haldadır. Hər kəs ətrafına toplanır, üstünə su səpərlər. Bir az sakitləşində Qazı onun əlindən tutar, xəlvətə çəkər, ondan soruşar: "Canım, başım haqqı, doğru söyləyərsən. Sənə bu eşq və nəşə halı hardan gəldi?" Adam cavab verər: "Necə ağlım başımdan getməsin? Nuh (ə) dövründən, İbrahim peyğəmbər (ə) zamanından, Həzrət Məhəmmədin (s) cağına qədər fel, ədat, isimlər yığılar, sırayla oxunar. Halbuki, bu müğənni hərfi-cərdən sonra gələn kəl- məni o birilərdən üstün oxudu." İndi hər kəs çürük bir məqsədə görə bu qədər səy göstərməkdənsə, var-qüvvəsini əbədiyyət diyarını qazanmaq uğrunda, həqiqət yolunda xərcləsə, onun zövqü nə böyük olar. O qüvvət bir sərmayədir. Necə ki, bir nəfər möhtac olmadığı bir şeyi satın alar- sa, sonda möhtac olduğu şeyləri satmaq məcburiyyətində qalar. Birinin gözü bir az sulanırdı, toz düşmüşdü gözünə. Aman gözümə bir əlac edin, deyirdi. Hər kəs, bizim işimiz var, köhnə başmaqlara pambıq tıxa- yacağıqmı, deyib keçib-gedirdilər. Ey xoca! O köhnə yırtıq başmaqları bir zaman hamamda geyərdim, mənim dilədiyim budur. Demirlər ki, o niyyət aşkardır.

Vaiz xalqa öyüd verərkən, subayları evlənməyə təşviq edər, bu ba- rədə bir neçə hədis də danışardı. Qadınlara da minbərin önünə gedərək ər istəmələri üçün onları ayrıca təşviq eləyir, hətta evli-eşikliləri ara düzəltməyə dəvət edər. Bu barədə də xeyli hədislər danışar. Qələbəlik arasından bir nəfər çıxdı: "Sufi vaxta bağlı bir insandır, mən qərib adamam. Mənə bir qadın lazımdır ki, evlənim." Vaiz üzünü qadınlara tərəf çevirdi: "Ey arvadlar, aranızda bu adama ərə getmək istəyən varmı?» Vardır, dedilər. Qadının biri ayağa qalxdı. Mən istəyirəm, dedi. O halda irəli çıx, bura gəl, dedi. Qadın minbərin önünə gəldi. Vaiz, o halda aç üzünü, çünki evlənmədən öncə bir kərə üzünü görmək Reyğəmbərin sünnətidir, dedi. Qadın üzünü açdı. Vaiz kişiyə tərəf dönüb, bax üzünə, dəliqanlı,

dedi. Gənc, bəli, gördüm, dedi. "Necədir, bəyəndinmi?" - deyə soruşdu. "Bəyəndim!" Vaiz yenidən üzünü qadına tutdu: "Ey qadın, var-dövlətdən nəyin var?" Qadın cavab verdi: "Bir ulağım var, su daşıyır. Dəyirmana buğda aparır, odun yüklənir. Mən də ondan aldığım qəpik-quruşla do- lanaram." Vaiz, amma bu dəliqanlı kişi bir gəncə bənzəyir. Qürurludur. Eşşək minməyi boynuna götürməz, dedi. Təkrar qadınlara tərəf döndü: "Yenə ərə getmək istəyən varmı?" Var, dedilər. Yenə biri əvvəlki kimi irəli çıxdı, üzünü açdı. Həmin cavan, bəyəndim, dedi. "Bəs sənin nəyin var?" Qadın, bir öküzüm var, gah su daşıyar, gah cüt sürər, gah çarx çevirər, onun qazancıyla dolanıram, dedi. Vaiz, bu dəliqanlı qürur-

ludur, oküz otarmaq ona yaraşmaz, dedi və davam etdi: “Daha kim istəyir ərə get- məyi?” Üçüncü bir qadın göründü. Bir bağım var, dedi. Vaiz üzünü cavan oğlana tutdu: “Artıq bunlardan birini seçmək sənin öz işindir. Hansı sənə münasibdirsə, onu qəbul et.” Dəliqanlı qulağının dibini qaşımağa başladı. Vaiz, amma tez qərarını ver, hansını istəyirsən, dedi. Cavan belə cavab verdi: “Mən istəyirəm ki,  eşşəyi minəm, öküzü qabağıma qatam, bağa gedəm.” Bəli, doğrudur, amma sən də o qədər nazənin bir şey deyilsən ki, hər üçünü birdən qəfəsə qoyasan, dedi vaiz.

Haqq yolunun yolçusu olan bir dərviş illər uzunu əziyyətlər çəkir, şeyxinə və başqalarına xidmət edir. Fəqət ümid buludunun yağış vaxtı hələ gəlməmişdir.

Şeir:

Hər işin müəyyən vaxtı gəlib çatmadıqca,
Dostların sənə yar olmasından bir fayda görməzsən!

Qocalıq və ümidsizlik günləri gəlib çatdıqdan sonra bir gün qəbirstan- lıqdan bayıra çıxmışdı. Köhnə ümidlərini xatırladı və çox ağladı. Başının altına bir kərpic qoyaraq, yuxuya getdi. O uyğuda dərvişin işi tamama yetmiş, muradına çatmışdı. O an qalxdı, kərpici öpüb gözünün üstünə qoydu. Hara getdisə, kərpici də özüylə apardı. Qonaqlıqda, məsciddə, ayaqyolunda, hamamda, çöldə-düzdə, səma ayinində, bazarda, xülasə, hər yerdə yanından o yana qoymadı. O lətif və arıq dərviş bütün gün o kərpici saxlayardı. Soruşdular, bunu nə üçün bir yana qoymayıb, ya- nında saxlayırsan? Sufi bu cavabı verdi: “Bu məzarda da mənimlə bə- rabər qalacaq. Çünki mən bir şey itirmişdim. İllər boyu ümidsiz qalıb, gözləmişdim. Yenidən ümidlərimə qovuşmuş, fəqət təkrar ümidsizliyə uğramış və bir yerdə qərar tuta bilməyib, beləcə çırpınmışdım. Bir gün başımı bu kərpicin üstünə qoydum və gözlədiyimi tapdım.

Həzrət Peyğəmbər (s), “Hər kimin ona ümid verən nəyisə varsa, onu özündən ayırmasın”, buyurmuşdur. “Məni arada bir ziyarət et ki, sevgi artsın” anlamında bir hədis vardır. Amma bilirik ki, bu hədis Əba Hüreyrə haqqında və onun kimilər üçün buyurulmuşdur. Çünki bunlar Peyğəmbərin (s) söhbətində ədəbdən kənar həddə çıxmışdı, onların baxışları Həzrəti Peyğəmbəri (s) bezdirəcək bir hala gətirmişdi. Amma bu hədis xüsusilə Həzrəti Əbubəkir (r.a) haqqında buyurulmadı. Çünki onu hətta qəzada belə yanından ayırmaq, onun qəzalarla məşğul olmasını istəməzdi.

Bir gün bir döyüş zamanı kafir qoşunundan bir pəhləvan meydana atıldı. Müsəlmanlar onunla döyüşmək istəmədilər. Heç kim onunla döyüşə cəsarət edə bilmirdi. Soruşdular, səbəb nədir? Ayədə buyurulduğu kimi: "Lay divarlara bənzəyən islam fədailəri başlarından keçdilər, ölümü arzulayanlar harada qaldı?" Şairlər qafiyəni, xəstə dərmanı, məhbus az- adlığı və məktəb uşaqları şirin günlərini axtardığı kimi, şərəfli ölüm ax- taran o fədailər hardadır? Bu qorxu və çəkinmənin səbəbi nədir? Bunlar kimdən çəkinirlər? Cavab verdilər ki, bu can qorxusundan deyil, amma o meydanda var-gəl edən o pəhləvan Əbu Bəkirin (r.a) oğludur. Müsəl- man döyüşçülər onun qarşısına çıxmaqdan utanırlar. Bu sözu Əbu Bə- kirə çatdıranda o, Peyğəmbərin (s) yanında idi. Bayırdakı hay-küyün səbəbini soruşdular. Əbu Bəkirə dedilər ki, oğlun üstümüzə hücuma keçmişdir. Əbu Bəkir dərhal yerindən qalxdı və meydana tərəf yüyürdü. Oğlu atasının üzünü görən kimi geri çəkildi. Həzrəti Əbu Bəkir də geri döndü. Həzrət Peyğəmbər (s) mübarək əlini Əbubəkirin çiyninə qoydu və buyurdu: "Ya Siddiq! Nəfsini bizim üçün saxla!" Yəni sənin nəfsinin sənə görə dəyəri yoxdur, amma bizim üçün böyük qiyməti vardır. Onu sən bizim üçün qoru. Sən heç zaman döyüşə atılma, qəzada bayıra çıxma, bizim söhbətimizdən ayrılma. Həzrəti Peyğəmbər (s) necə olar ki, Əbu Bəkirə, məni aradabir ziyarət et, deyər. Qəza o biri möminlər üçün fərzdir, amma Əbu Bəkir haqqında günahdır. Əbrar* üçün gözəllik sayılan əməllər mukərrəbin, yəni Allaha yaxın dostlar üçün günah sayılır. Qala bir asinin əlinə keçməsin deyə onu uçurmaq vacibdir. Uçuranlara da qaftan geydirmək gərəkdir. O qalanı təmir etmək (o zaman) xəyanət və günah olar. Fəqət qala düşməndən alınıb, üzərinə padşahın bayraqları sancılanda, artıq qalanı uçurmaq və xarab etmək üçün səbəb qalmaz. O zaman belə bir hərəkət xəyanət olar, hətta qalanı əvvəldən axıradək təmir eləmək vacibdir. Bir növ ibadət və vətənə xidmət sayılır.

Şeir:

Zəbt etməyin sahman təşbih ilə, din ilə, məbədlədir. Zünnar, küfr və meyxanə də eşqin sağlamlığını göstərər. İman küfr, küfr də iman olmadıqca,

Haqqın bir qulu haqqıyla müsəlman olmaz.

Söz ustadlarının yanında söz söyləmək ədəbsizlikdir. Ancaq mü- əyyən bir düşüncəni izah etmək üçün olarsa, bir şey olmaz. Necə ki, pulu sərrafa apararlar, qəlp axça varsa, onları ayır, deyərlər. Amma əgər sərraf aşiqsə, danışanın dostu və ya müridi isə (dostun çətinlikləri gözəl göründüyü üçün) qəlp pullar saxta görünməz. Sevənin gözü kor, qulağı kar

olar, deyərlər. Beləcə, dost da danışanın şirin sözlərinə aşiq olar. Buna cavab olaraq deyərik ki, bütün aşiqlər belə olmazlar. Hər aşiq çirkini gözəl görməz. Aşiq var ki, hər şeyi olduğu kimi görər. Çünki onlar Haqqın nuru ilə görürlər. Necə ki, "Möminlər Allahın nuru ilə baxarlar", buyurulmuşdur. O xoşbəxt aşiqlər əsla başqa aşiqləri qınamazlar. Necə ki, Həzrət İbrahim (ə), "mən batan, qeyb olan şeyləri sevmirəm", demişdi.

Şeir

Gəlib-keçən gözəlliklərə ərənlərin könül bağlaması mümkünsüzdür.

Aləmdə görünən hər xarablıq həmişə xalqın bir-birini təqlid edib, inanmasından, yaxud təqlid və inkar etməsindən doğar. Bir əzizə bir ələm yetişər. Bilməz ki, o ancaq təqlid yoluyla əziz olmuşdur. Onu təqdir etməklə bir an üçün lap hərarətli, bir anda da lap soyuqdur.

Misra:

Təqlid əhlini müsəlman saymaq necə olar?

Necə olur ki, ona bir ələm və iztirab yetişir? O öz nəfsində əzizin əzizidir. Aləmin viran olmasına səbəb olar. Necə ki, Quranda, "Onlar Rəbbinin peyğəmbərinə asi olmuş, O da onları şiddəti getdikcə artan bir əzabla yaxalamışdı" (əl-Haqqə surəsi, 10), buyurulmuşdur. Bu yaxşıdır, amma bu da var ki, bir kəs əvvəl inanmış olsa belə, onu şübhə pərdəsinə aparar. Nəhayət, pərdəni qaldırar, o, etiqaddan vaz keçənə qədər pərdələr çoxalar və o etiqadı öldürər. Amma nə üçün öldüyünü açıq söyləməz ki, xalqın öz barəsində zənni dəyişməsin. Onun yetərli olmasına qarşı bəslədiyi etimad əskilməsin. Dedi ki, əgər bunu açıqlamazsa, bu, xalqı sapqınlığa salar. Yenə dedi ki, necə açıqlaya bilər? Onun özünə etimadı

qalmamışdır. İxlas əhli odur ki, etiqadımı öldürdüm deyib, işi açıqlasa da bunu şərh edər, açıqlamasa da.

Dərvişin biri belə dedi: "Görürsən ki, keçən keçdi. Madam ki, məclisdə sözə başlayırsan, bu nə gəvələməkdir? Görürsən ki, salehlik, dürüstlük ancaq sənin zahirindədir, içində deyil. Əgər bu məqama baş qoysaydın, mənim dostum olardın. Bu məqam elə bir Allah dostunun məqamıdır ki, onun qövmü və onun yolu bütün millətlərin və yolların ən gözəlidir."

Yəhudidən soruşsan ki, xristian yaxşıdır, yoxsa məsləman? Mütləq, müsəlman yaxşıdır, deyər. Bu sualı xristiana versən, o da eyni cavabı verər. Bunları öyrənmək bu səbəbdən lazımdır ki, sənin doğru inanclı mil-

lət haqqındakı etiqadını artırar. Bu da onun üçün yaxşı bir talehdir. Quranda "Hər kəs öz çeşməsini tanıdı" (əl-Bəqərə surəsi, 60) deyilmişdir.

Şeir:

Dosta yetişmək üçün dayanmadan gedirəm, Ömrüm sona yetişdi, mən hələ uyğudayam. Deyək ki, qovuşdum nəhayət sevgiliyə

Bəs o keçən günləri mən hardan tapım?

Haqqa gedən yol bu iki ehtimalın xaricində deyil. Bu da ya iç aləmini inkişaf etdirmək yoludur ki, nəbilərlə övliyalar bu yolla gediblər. Yaxud da elm və təhsil yoludur. Bu yol da mücahidə* və təsviyə*, yəni cəhalətlə savaş, pisliklərdən içini təmizləmə yoludur. Bu iki yoldan geri qalanların yeri cəhənnəmdən başqa hara ola bilər?

Quranda, "(Ey insanlar!) Sizi (yoxdan) yaratmaq və (qiyamət günü) diriltmək (Allah üçün) ancaq bir nəfəri yaratmaq və diriltmək kimidir. Allah (hər şeyi) eşidəndir, görəndir!" (Loğman surəsi, 28), buyurulmuşdur.

Peyğəmbərlərin ümmətləri haqq yoluna çağırmaları onlara qarşı, "Ey yad adam! Surətdə sən məndən bir parçasan, bundan nə üçün xəbərin yoxdur? Ey mənim bir parçam, gəl, bütündən xəbərsiz yaşama! Bunu anla və mənə yaxınlaş, məni tanı, deməkdir. Amma onlar deyərlər ki, xeyir, özümü öldürərəm, amma yenə sənə yaxınlaşmaram, səninlə qaynayıb-qarışmaram. Xülasə, o gizlində və açıqda nə qədər irəli getsə, xəyal gücü o qədər artar, bir çox xəyallar görər. Öndə oturar. Bu uyğunluq yolunda nə qədər irəli gedərlərsə, həqiqət həqiqət üstünə, təcəlla təcəlla üstünə gələr. Soruşdular, tələvvün* budurmu ki, bir saat ibadətlə məş- ğuluq, bir saat da yeyib-içməklə? O, nəfsin riyazətidir*, bu da nəfsin tərbiyəsi. Xeyr, bu nəbilər və övliyalar üçündür, dedi. Yerindən qalxdı və dedi

ki, nəbilər və övliyalar yemək yeyərkən də ibadət halında ruhlarını tərbiyə edərlər, nəfslərini deyil. Necə ki, döyüşdə geri çəkilmək irəli atılmaq üç- ündür, deyərlər. Bunda bir mütənasibsizlik yoxdur. Sən onların pislikləri haqqında nahaqdan bədgüman olma. Çünki onlarda naqislik olsaydı, əm- əldə və ibadətdə, hal və kəşf xüsusunda bir fənalıqları görünərdi. İnsaf et ki, insaf səni bir mərtəbəyə yetişdirsin. Sağlamlığı qorumaq, sağlamlıq axtarmaqdan, günahdan qorunmaq da tövbə istəməkdən daha asandır.

Bir xəstəliyə mübtəla olduğun zaman, pəhrizi tərk etdikdən sonra

səbr yolunu tutarsan. Nə üçün bir azca səbr etmədim, deyə öz-özünə gileylənərsən. O zaman bir azca səbrin nəyə yarayar? Bizə səfər etmək gərək deyil, deyə bilərsən, bu öz işin və öz məsləhətin üçündür. O iş etdiyimiz bu yolçuluq məsələsinə varınca xoş olar. Çünki mən sənə bu yolçuluğu buyurmaq niyyətində deyildim. Bunu öz-özümə edim, sizin işinizi yoluna qoymaq üçün yola çıxaq, dedim. Çünki ayrılıq hicran içində bişər, yəni deyilə bilər ki, bu qədər əmrlər, qadağalar nə olar? Nə üçün etmədin, bu hicran məşəqqəti qarşısında o asan işi nə üçün düşünmədin? Dediyim sözlərdə nifaq, ikiüzlülük edirdim. Hər iki tərəfin də xatirlərini qoruyur, müəmma söyləyirdim. Halbuki, açıq danışmaq gərəkdir. Bu işin nə dəyəri var? Mən sənin işin üçün əlli səfər yolçuluq elədim. Edəcəyim yolçuluqlar də sırf sənin işini yoluna qoymaq üçündür. Yoxsa mənim üçün nə fərqi var? Rum ölkəsindən Şama gedək, yaxud Kəbədə və ya İstanbulda olaq, eyni şeydir. Ancaq bu var ki, ayrılıq insanı bişirir, düzəldir. Bu gün düzəlmiş və bişmiş olaraq qovuşmaq daha yaxşıdır, yoxsa hə- mişə ayrılıqda bişməkmi? Vüslət* halında bişmiş olan kimsə gözünü ha- raya açar? Hər yerdə bayırda qalan kimsə artıq pərdəyə necə yol tapa bilər? O daim pərdə içində oturanlara bənzəyərmi? Söylədiyim şeylərdən aşiqin tərifini və şahidliyini dinləməzlər. Çünki eşqin özünəməxsusluğu burdadır ki, eşq qarşısında eyiblər hünər kimi görünər. Sevənin gözü kor, qulağı kar olar, deyərlər. Bu mümkündürmü ki, insan həm aşiq olsun, həm də onda vüsal və hicran gücü yerində qalsın? Dedilər ki, biz eşqdən bunu istəmirik ki, insan tamamilə özündən keçmiş və məğlub olsun. Mən də dedim ki, imkana qarşı çıxmaq mümkün deyil. Bu məsələdə metod- çuların fikirlərini söyləyək ki, bunlar iki qəziyyə* və üç bölümdür. Biri va- cibdir ki, Haqqın öz aləmi və sifətləridir. İkincisi, mühal*, yəni qeyri-müm- kün olandır. İki bir-birinə zidd olanın birləşməməsi kimi. Üçüncüsü, caiz* yəni icazə verilmiş haldır ki, hər iki tərəfə yönələ bilər. Ola bilər də, ola bilməz də. Bu üçüncü bölümə girən hər kəs qurtuluşa yetər. Necə ki, Adəmin (s) bayıra atıldığı cənnət yüksəklərdə, dağların başında və yerin

üzərindəydi. Amma bu cənnət möminlərə vəd olunan və fələklərin ən yüksək nöqtəsindən nişan verən cənnət deyil.

Ona dedim ki, sən mənə həmişə fəlsəfədən bəhs etdiyini söyləyirsən. Həmişə fəlsəfəyə başlayan sənsən.

Bir kəndçi tarlada cüt sürürdü. Cütün dəmiri nəyəsə ilişdi. Öküzlər yeriyə bilməyəndə, öküzü döyməyə başladı. Amma yeritmək mümkün olmadı. Öküzlər üzüüstə düşdülər. Qamçı yarasından yaman hala düşmüşdülər. Cütçü kotanın ilişdiyi yeri bir daha yoxladı. Yerdən bir daş çıxarınca dəmiri gördü. Cütün dəmiri böyük bir küpün qulpuna ilişmişdi.

Dəmirin ucundan tutdu. Amma heç cür yerindən çıxara bilmədi. Nə qədər onu yerindən qaldırmaq və tərpətmək istədisə bunu heç cürə bacara bil- mədi. Həmin adama dedim ki, madam ki, dəmiri yerindən çıxara bilmir- sən, barı bir yol tap başını qopar. Hər nə qədər çabaladısa, bir şey etmək mümkün olmadı. Görəsən, bu bir talandırmı, yoxsa içində gümüş pullar gizlədilmiş xəzinəmi, düşünüb-deyinirdi. Amma adamın xəyalı qızıl yö- nünə heç işləmirdi. Çünki kəndli idi. Nəhayət, dəmiri qopardı. Küpün içi qızılla dolu idi. Bir ovuc qızıl çıxardı. Sevinclə ovcunda tutaraq baxdı. Vallah, qızıldır, dedi.

Kəndçi o zamana qədər sadə bir həyat yaşayırdı. Cütünü sürür, başqa işlər görürdü. Amma o saatdan sonra aləmin xəyalları, sevdaları başında cəmləşdi. "Necə edim ki, bu işi bacarım", deyə düşünməyə başladı. Filan yerəmi, yoxsa düz padşahamı aparım, deyə bir az vəhmlə məşğul olar- kən, o vaxt uzaqda lap sıxıntı içində ovdan dönməkdə olan padşahı gör- dü. Pulları təhvil vermək üçün çığırmağa başladı. Bu səsi eşidən iki ça- vuş qaçaraq gəldiyi zaman kəndli bir az əvvəl verdyii qərardan peşman olmuşdu. Adamlar, "bizi nə üçün çaığırdın", deyə soruşdular. Barı bir az su ver içək, dedilər. Kəndli, şəhərin yolunu soruşmaq üçün sizi çağırdım, dedi. Çünki onlar gələnə qədər əvvəlki fikrindən vaz keçmişdi. Sıxıntısını onlara açıqlaya bilməmişdi. Adamlar gülərək dedilər: "Şəhərin yolunu bizdən soruşursan, bax bu tərəfdədir". Yolu nişan verdikdən sonra çıxıb getdilər. Çavuşlar uzaqlaşandan sonra kəndli yenə peşman oldu. Yenə çağırdı onları. Çavuşlar, nə istəyirsən, deyə yenidən qayıtdılar. Fəqət, kəndli yenə peşman olmuşdu. "Göstərdiyiniz yolu yadımdan çıxardım, təkrar soruşum dedim. Bu tərəfdədir, yoxsa bu tərəfdə?"

Çavuşlardan biri kəndlini döymək istədi, o biri mane oldu buna. Yenidən dönüb padşahın yanına getdilər. Fəqət, bir-birlərinə baxaraq gülür- dülər. Kəndlinin mənasız sözlərindən bir şey anlaya bilməmişdilər. Halbu- ki, padşah çox qəzəbli idi. Çavuşların hər ikisinin boynunun vurulmasını

əmr etdi. Çavuşlardan mülayim xasiyyətli olanı padşahdan aman dilədi: "Ey qibleyi-aləm! Fərman ver ki, gülməyimizin səbəbini soruşsunlar. Al- lah eşqinə bizi dinləyin!" Hekayəti olduğu kimi danışdılar. Padşah, əgər doğrudursa, gedin kəndlini bura gətirin, dedi. Çavuşlar qaçaraq getdilər, kəndli bunları görəndə qorxdu. Vallah, bunlar mənə tərəf gəlirlər, dedi. Çavuşlar, padşah səni çağırır, dedilər. Kəndli öz-özünə deyindi yenə: "Pulun olmaz bir dərd, olar bir dərd." Amma altuna qovuşub, dərdli olmaq daha yaxşıdır, dedi.

Məncə, pulsuzluq dərdi daha yaxşıdır, çünki can qorxusu yoxdur. Bu

söz bir hekayətdən meydana çıxdı. Bu insanlarla zarafatla danışmaq, ciddi danışmaqdan daha məqsədəuyğundur. Əgər bir insanın böyüklüyü bəllidirsə, özünə görə bir aləmi və övliyalılığı var.

Şeir:

Dürüstlük bir şəhərdir, mən də o şəhərin sultanıyam, Orda özüm yaşayım, özüm ölüm, özüm qorunum.

Belə bir adam zarafat edərsə, tanışları onun zarafatından dəhşətə gələrlər. Amma ciddi sözdən o qədərə dəhşət yaranmaz. Şübhə yox ki, zarafatda o dərəcə sərtlik və qorxutma olmazsa, daha xoş olar.

Bir kəndli ilə lağlağıya başladılar. Həmin adamı çıl-çılpaq soyundurdular ki, paltarlarını satsınlar. Onu axmaq yerinə qoyaraq, paltarlarını ortalığa atdılar. Fütüvvət* əhlinin (burada söhbət səxa əhlindən gedir

- R.M.) mürşidlərinin hər birinin Adəm Peyğəmbərə (s) yetişənə qədər fütüvvətləri necə oldu, deyə soruşdular. "Fütüvvət Adəmə (ə), İbrahimə (ə), Əmirəlmöminin Həzrət Əliyə (ə) gəlincə necə oldu?" Hər biri öz bildiyi qədərində bir şey söylədi. Növbə mənə çatanda nə qədər israr etdilərsə, bir şey söyləmədim. Deyə bilmirdim. Orada bir dərviş vardı. Başını aşağı saldı. Heç danışmırdı. İçimdən onunla danışmaq istəyi gəldi mənə. Dedim ki, Adəmoğlu gərəkdir, ömründə bir dəfə günah eləsin və bütün ömrü boyu da onun peşmançılığını çəksin. Atasının ənənəsinə uyaraq, Allahdan məğfirət* diləsin. Atasına bənzəyən zülm etməz, dedim və Adəmin (s) günahını və onun əfv diləyərək tövbə etməsini anlatdım. Məndən soruşdular: "İnna fətəhna" surəsinin endirilməsinin səbəbi nə idi?". Dedim ki, onlar indiki vaxtda "Mənimlə və sizinlə nə edəcəklərini bilmərəm" anlamındakı ayənin zahiri mənasından başqa bir mənasının olduğunu anlaya bilmədilər. Bu baxımdan deyinməyə başladılar. Dedilər ki, "Üzünüzü elə birinə çevirin ki, o özünün və qövmünün nəyə yaradığını bilmiş olsun. Bunun üzərinə Fəth surəsi endirildi." Yenə soruşdular: "Bu

onlara necə bir cavab oldu?" Sözün gəlişi belə olar, dedim. Sözü gedən ayədə "bilmirəm" sözündə cəhalət və çaşqınlıq yoxdur. Bəlkə bu mənanı verir: Görəsən, mənə padşah nə qaftan geydirəcək və ya hansı mülkü bağışlayacaq? Bir daha soruşdular: "Bu sözə də bir şübhəmiz var." "Onun kimi bir zatın özünə necə bir xələt geydiriləcəyini bilməməsi nöqsan deyilmi? Madam ki, ona bəzi qaftanlar, ehsanlar verilmişdir, necə olar ki, qalanını bilməz? Çünki az çoxu göstərər." Bu, elmsizlik deyil, de-

dim. Bəlkə o ehsanın böyüklüyünü və sonsuzluğunu aydınlatmaq üçündür. Necə ki, başqa bir yerdə də "Sən nə bilirsən (hardan bilirsən) ki, əqəbə nədir?!" (əl-Bələd surəsi, 12) və başqa bir ayədə "Bilirsənmi din günü (Qiyamət günü) nədir?" buyurulmuşdur. Bu sözün həqiqəti onlara yetişməz, ancaq mənası yetişər ki, onların rəngləri dəyişmişdir. İnsanın dəyişməsinə bir səbəb var. Hər nə zaman onlara anlatmaq üçün sözü təkrarlasan, haqqında yaxşı düşünməzlər. Tükəndiyindən sözlərini təkrar edib durur, dedilər. Onlara dedim ki, sizin tükəndiyinizdəndir, yoxsa mənim sözlərim çox gözəldir, amma sizə anlatmaq çətindir. Yüz dəfə də söyləsəm, hər dəfəsində başqa bir məna anlaşılar və əsl məna beləcə əl dəyməmiş bir məna olar. Bax bu deyridi ki, söz meydanı çox genişdir. Ona cavab vermək istədim və dedim ki, bəlkə məna aləmi çox genişdir, amma söz meydanı çox dardır. Onunla ancaq nifaq yönündən danışıram. Bu səbəblə ki, nifaqı da bilmədiyini anlasın! Ona, bu sözü başqa bir qulaqla dinlə, dedim. Şeyxlərin sözünü eşitmiş olan qulaqla dinləmə! Bu sözün danışıldığı yerdə Bəyazid Bistaminin və onun "Özümü təqdis* edirəm, şanım nə ucadır" sözlərinin nə yeri var?

Müsəlman bir kafir qızına könül verdi, yalvarıb-yaxardı. Kafir qızı, mən kafirəm, sən müsəlman, belə olmaz, mənim dinimi qəbul elə, dedi. Həmin adam kafir oldu, bundan sonra ona kafir, yaxud müsəlman kafir dedilər. Bunun əksinə olaraq bir kafir də ay kimi gözəl bir müsəlman qızına aşiq olmuşdu. Qız, əgər mənimlə evlənmək istəyirsən, müsəlman ol, dedi. Həmin adam da müsəlman oldu. Ona hər kim, müsəlman deyil, deyərsə, kafir, yəni ona, "bu kafirdir", deyən kafir olar. Ondan nə üçün danışar?

Bu gün dünya gözəl bir dilbərdir. Kafir Allahı görüncə aşiq oldu, müsəlman oldu, axirət oldu. Şeytanı müsəlman etdi. "Xeyirli mal xeyirli insana yaraşar" sözü həqiqətə döndü. Nəfs, yavaş-yavaş müsəlman olaq, deyər, artıq yaxşı insan olaq, deyər. Bu, dərdin və hicran yolunu axtarmağın tam özüdür. O arıqlamışdır, başqa çarəsi yoxdur, artıq yal- taqlanmağa başlamışdır. Necə ki hədisdə Nəfsi-Mütmainnənin, yəni hə- qiqəti anlamış nəfsin Nəfsi-Ləvvamədən, yəni özünü qınayan nəfsdən

daha xeyirli və daha əziz olduğu buyurulmuşdur. Bu halda Allah nə üçün Nəfsi-Ləvvaməyə and içər? Və "And içirəm (günah etdiyi üçün, yaxud yaxşı əməllər azdır deyə) özünü qınayan nəfsə!" (əl-Qiyamə (Qiyamət) surəsi, 2) buyurur Uca Yaradan. Niyə Nəfsi-Mütmainnəyə and içmir? Onun müzakirə mövzusu etmək istəmir, son dərəcə gizli saxlayır. Necə ki, biri belə deyər: "Ey şah, ayağının torpağı üçün!" Əgər onun canı əziz isə başqa bir cavab söylənər. Necə ki, bu "O, pislik edənlərə əməllərinin cəzasını verəcək, yaxşılıq edənləri isə ən gözəl mükafatla müka-

fatlandıracaqdır!" (ən-Nəcm surəsi, 12) anlamındakı ayənin təfsirində o Şeyx Təbrizdə deyirdi ki, bunu cənazənin önündə niyə söyləyirlər?

"Mən ölməyən o diri Allahı təbrik edərəm. Onlar zənn edərlər ki, Allah-təalanın adından söyləyirlər. Halbuki, Allah elə bir Allahdır ki, onun adını ölümlə birlikdə anarlar və ölüyə xitab edərlər." Yəni elə diri yaşayın və elə diri olun ki, bir də ölməyəsiniz! Gün işığı parıldayan zaman ara- mızı birləşdirər. Hansı nemət var ki, zəmanə onu bulandırmasın? Şeyx deyirdi ki, müsəlmanlıq lazımdır, müsəlmanlıq! Halbuki, özünün heç müsəlmanlıqdan xəbəri yoxdur. Müsəlmanlığın zahirini belə bilmirdi. Deyirlər ki, filankəsin sözü sərtdir. Bir ay, iki ay dalbadal onun sözlərini dinləyərlər, amma bir qoxu almazlar. Hələ bir hər addımbaşı boş sözlər də söyləyər o. Allah mənə elə böyük bir şey vermişdir, Allahdan elə bö- yük bir şey tapmışam ki, bunu bilmirlər. Nə əvvəl gələnlər, nə də sonun- cular bunu anlaya bildilər. Halbuki, biz deyirik ki, Allah bizə lap az bir şey vermişdir. Mənə dəlil də göstərirsiniz. Mövlana deyir ki, mən səni sevirəm. Başqalarını da sənin xatirinə sevirəm. Buna Məcnunun bu şeirini misal gətirir:

Şeir:

Onu sevdiyim üçün bütün qaraları sevirəm, Onun sevgisi ilə qara köpəkləri belə sevirəm.

Bunu Şəmsəddin Təbrizidən başqaları üçünmü söyləyirsən? Əgər məni onun üçün sevirsən, çox yaxşı olar, mənim də xoşuma gələr. Onu mənim üçün sevirsənsə, nə üçün, sevilənlərin yanında sevilməyənlər də xoşa gələr, deyirsən? Bu belədir. Sevgili razı olduqdan sonra başqalarını da onunla birlikdə sevərlər.

Dedi ki, dərvişin birisinin bir xirqəsi vardı. Bu xirqə özüylə danışırdı. O da xirqəsiylə məşvərətlər edər, ona suallar verərdi. O, Allahın ilahi qanunudur, deyərlərsə, insandan başqalarını da danışdırar. Peyğəm- bərlərin möcüzələri təvatürlə* sabitləşir. İndi sən ki insan oğlusan, necə

olur danışmazsan, dilə gəlməzsən? Ancaq bütün sözlərin bəzi nənələrin söylədiyi hekayələri, ərəb şeirləri! Həmişə bunlar! Bəs sənin öz sözlərin harada qaldı?

Bu fəqirlik* yanaşmasıdır, dedi. Fəqirdən üstün bir Şeyx vardır, Şeyxdən üstün Qütb (sufi rütbəsi, Əbdülqadir Gilani-bu mərtəbəyə çatmış övliyalardan olub-R.M.), Qütbdən öncə də filan şey. Bunları söyləmək istədim. Sən bu fəqirlikdən kiməsə bir şey başa saldınmı? Bu fəqirlik mərtəbəsi üçün o qafil şeylərdən bir xəbər gətirdinmi? Dünaynın

ən böyüyü, aləmin və Adəmin ulusu Cənab Peyğəmbər (s), "Adəm və başqaları mənim bayrağımın arxasınca yürüyürlər. Mən ərəb və əcəmin ən doğru danışan insanı olmağımla fəxr edirəm. Fəqirlik mərtəbəsinin mənim üçün bir öyünmək yeri olması ilə də öyünərəm", buyurmuşdur. Sən bu fəqirlik mərtəbəsindən nə gözləyirsən ki, onu bir şeyxdən daha arxaya atırsan? Amma heç bir şey demədim, onun cavabı da sadəcə, susmaq oldu. Sonra dedi ki, əgər onlar tikan kimi oldularsa, içlərini atəşdə əritmək lazımdır. Nuha (ə) iqtida edəcəksən, yoxsa Mustafaya (s), dedim. Çünki Nuh Peyğəmbər (s), "Ey Rəbbim! Yer üzündə bir nəfər belə kafir qoyma!" (Nuh surəsi, 26), - deyə yalvardı. Həzrət Mustafa (s) isə "Allahım ümmətimi doğru yola yönəlt! Çünki onlar anlamırlar", buyurdu. Bu çiləyə* (dərvişlərin xəlvətə çəkilməsi, çilə qırx gün sürür, Musanın (ə) qırx gün çiləyə çəkilməsi ilə məşhur olub. Sözün etimologiyası da qırx anlamına gəlir-R.M) çəkilənlər Musaya (ə) bağlananlardır. Çünki onlar Həzrəti Məhəmmədə (s) bağlanmaqdan bir zövq duymazlar. Bəlkə də Məhəmmədə (s) bağlanmağı şərt saymazlar. Amma Musaya (ə) bağ- lanmaqdan həmişə az zövq duyarlar və onun yolunu tutarlar. Deyirsən ki, övliya da bir insandır, daim onların gözü dünyadadır. Yəni onunla hər kəs bərabər addımlayar, arxasında-önündə gəzişərlər. Necə ki, bəziləri padşahın qapısını bəyənər. Amma ən əsası başının məqamını daha uca sayarlar. Çünki önündə və arxasında dəyənək vuranları var.

sin)
Şəmsəddin Təbrizinin (Allah bərəkətini üzərindən əskik eləmə-

Hicri 642-ci ilə Cəmadiussani ayının iyirmi altısı, bazar günü səhər Konyaya gəlişi

Öncə öz-özünə qərarlaşdırdığın fikirdən bir az ayrılsan, bu, sənin daim qərarlarından döndüyünü göstərməz. Qaranlıq gecədə qələbəlik bir yerdən bayıra çıxmaq istəyər. Ayağına başqasının başmağı keçər və bu başmağın bir tərəfi yırtılar. İndi onun səhvən tapdığı başmağı geyib

getməsi lazım deyil. Burada üzr istəmək lazımdır. Çünki qaranlıqdır. Amma hər kəs belə bir vaxtda öz başmağını qorumalıdır. Kəndlilər dürüst insanlardır. Sufilərin adətləri üzrə hər kəs öz yeməyini ayrıca yeyər. Yemək yeyərkən aralarında bir haqsızlıq olmasın, utandığından kimsə ac qalmasın deyə, həmişə tək-tək yeyərlər.

Bir gün yolçuluq zamanı yemək vaxtı çatmışdı. Hər kəs öz azuqəsini

açıb yeməyə başladı. Bu arada qəflətən bir Türk atlı gəlib çıxdı. Türk- lər cəsur, qonaqsevər və qaynayıb-qarışan insanlardır. Bunlardan biri soruşdu: "Nə üçün ayrı yeyirsininz? Nə üçün yeməyinizi bir yerdə yemirsiniz?" Adamlar, "bizim kəndin əzəldən adəti belədir", dedilər. Atlı qam- çısını qaldırdı: "İndi bu adəti qoyanın canını yandırım, onu qəbul edənin də!" "Tez yeməklərinizi bir yerə yığın, birlikdə yeyin", dedi. Yolçular qor- xularından onun dediyi kimi eləyib, yola düzəldilər. Kəndin ağsaqqalı on- ların diliylə, əgər yeməyinizi birlikdə yedinizsə, Allah öz yeməyini seçib yeyəni əfv etsin, o biriləri yox, deyirdi.

Bir zümrə var ki, seçilmiş, qafiyəli sözlərə dəyər verər. Həmişə elə danışarlar. Bir zümrə də həmişə şeir söyləyər. Bir başqası da daim nağıl danışar. Bunlardan hər biri kəlamın bir parçasını, bir budağını seçər. Allah kəlamı isə küllidir, bütövdür. Əlini bütövə uzat ki, bütün tikələr sənin olsun. Başqa bir şey istəyib, tikəyə əl uzatma ki, o zaman bütövün əldən getməsi təhlükəsi var.

Birinin evinin qapısında bir ağac peyda oldu, böyüdü. Gərəkdir ki, ev sahibi ağacı bütövlükdə qorusun. Bütün budaqları da onun olsun, gövdə- si də. Amma əgər əlini tək bir budağa atarsa, ağacın gövdəsi artıq əldən çıxar. O budağın qırılması təhlükəsi də var. Budaq əldən gedərsə, kök də gedər.

Dedi ki, İblisin mənası hadis*, yəni sonradan meydana gəlmiş deyil. İblisin surəti nə qədər hadisdirsə, mənası qədimdir. O dedi ki, bu, küfrdür. O biri, xeyr, küfr deyil, əksinə islamdır. Çünki mən, İblisin mənası qədim- dir, sözünün qarşısında nə söyləyə bilərəm? Bunu demək istəyirəm ki, İblisin varlığı ilahi elmdə mövcuddur, dedi. O dedi ki, xeyr, ilahi elmdə sənin vücudun da mövcud deyildi. İlahi elmdə ancaq onun bir gün var olacağı məlum idi. Hər halda, İblisin mənası onun yaradılmasından daha öncə, onun surətindən əvvəl var idi. Adəm övladlarının ruhları da onların surətlərindən əvvəl yaradılmışdır. Ruhlar səfərbər edilmiş ordularıdr. Allah ruhlara xibabən, "Mən sizin Rəbbiniz deyiləmmi?" (əl-Əraf surəsi, 172), dedi. Bu macəra hələ ruhların bir-bir qəlibə girmələrindən əvvəl idi. İndi Həzrət Mustafa (s) nə buyurur? "İblis Adəm övladlarının damarlarında

gəzir. O, damarlarda axan qan kimidir." " İblis surəti" deyə çəkdikləri o çirkin rəsm insanın damarlarında necə dolaşır? İblisin insan oğlunun damarına girməsi rəva deyil. O, dərvişin sözünə görə gəlməz. Amma danışan dərviş deyil. Bu, məhv olmuş bir dərvişdir. Söz o başdan gəlir. Necə ki, keçi dərisindən tulum* düzəldərsən, ağzına qoyub üfləyərsən, ondan çıxan hər səs artıq sənin səsindir, keçinin səsi deyil. Düzdür, səs keçi dərisindən çıxar, amma burada keçi aradan çıxmış, fani olmuşdur.

Keçidən çıxardığın səsin də mənası fani olmuşdur. Beləcə, o dəridən nağara da düzəldərsən. Nağara çalarsan, yenə səs çıxar. Halbuki, heyvan sağ ikən bu dərini vursaydın, ondan ancaq keçi səsi eşidərdin.

Beyt:
Bunu ancaq ağıllı insan bilər,
Bu səsdən o səsə qədər neçə il keçmişdir?

Bu misal zərurətdən söyləndi. Çünki kamilliyə yetişmiş dərviş Haqqın dili ilə danışar. Bu gün dərviş sözünə necə etiraz olunar. O dedi ki, sualı eşitməmək və sualdan üzüntü duymaq çatışmazlıq olar. Ona dedim ki, dərin düşüncəyə sahib olan şəxs bilir ki, bu kamilliyə Allah yönündən əskiklik gəlməz. Çatışmazlıq onun səbrsizliyindən irəli gələr. Nəhayət, bu "Ləntərani!*" (Məni görməyəcəksən) nəğməsi Musanın (ə) səbrsizliyindən səsləndi. Bir az möhkəm və səbrli davransaydı, həm sualına cavab alar, həm də cavab verəni tapardı. Cavabı dinləməsən və cavab gəlməzsə, məna kimə gələr? Səbr dinləyənə qüvvət verər. Sənin elminə başqa bir elm də yardım edər ki, hər çətin sualın cavabını verə biləsən. Bundan sonra yüz cavab söyləyər, o məclis də xoşhal olar. Dərvişin sözü önündə o məclisin xəyalı xoş keçmişdir. Onun o icmaya qarşı marağı oyanar. O maraq da öz təsirini göstərər. Nəhayət, dərviş bu tərəfdən bir şey öyrənmədi, onun öyrənməyi o biri tərəfdən imiş. Allahın lütfü ilə o biri yandan öyrədilməsi bu tərəfə düşdü. Bu tərəfin sözü ilə ona hansı çətin məqam ifadə edilə bilər? Allah, "Onu gözlər dərk edə bilməz", buyurdu ki, bu, ümidsizlik tərəfidir. Sonra da, "O, gözləri dərk edər", buyurdu. Bu da tam ümid yönüdür. Görüşün həqiqəti Musaya (ə) üz tutunca, o, bu dünyagörüşün içində boğuldu. "Özünü mənə göstər", dedi və Allahdan cavab aldı: "Məni görə bilməzsən!" Yəni, belə (dünya gözü ilə) görmək istəyirsən, əsla görə bilməzsən! Bu ifadə inkarda mübaliğə və heyrətdir. Çünki sən əslində məni görməkdən boğulmuş bir haldasan. Daha necə deyirsən ki, mənə görün, sənə baxım? Yoxsa birisi Musanın (s) barəsində necə şübhəyə düşə bilər? Allahın sevimlisi, onunla danışdığı

peyğəmbərdir ki, Qurani-Kərimin bir qismi onun zikriylə doludur. Necə ki, bir nəfər bir şeyi sevərsə, onu çox xatırlayar, deyərlər. Allah da Musaya (ə), "Məni görə bilməyəcəksən, dedikdən sonra, "Dağa bax!" söylədi. O dağ Musanın (ə) mənliyidir ki, ucalığı və sarsılmaz səbatına görə, Allah ona "Dağ" dedi. Bu, sən öz nəfsinə baxsan, Məni görərsən, deməkdir. Bu, "Nəfsini tanıyan Rəbbini tanıyar", məqamına da yaxın bir sözdür. Necə ki, Musa (ə) da özünə baxdı, Allahını gördü, Onun varlığı aydınlaşınca, özü arada heçləşmiş oldu. Yoxsa, necə rəva görə bilər-

sən ki, Allah Musa (ə) kimi Onunla danışan bir peyğəmbərin duasını rədd etsin və ona cansız bir dağı göstərsin? Musa (ə) ondan sonra, “Ya Rəbb! Sənə tövbə etdim”, dedi. Yəni Səni görüm deyərkən, içində boğulduğum günahlardan və Səni görmək istəyimdən tövbə etdim, demək istədi.

Allah dostlarının yuxusu yuxu deyil. Bəlkə də oyanıqlığın tamamilə özüdür. Çünki elə şeylər var ki, oyanıqlıqla insana göstərilməz. İncəliyi və zəifliyi üzündən ancaq röyada göstərilər ki, ona tab gətirə bilsin. İnsan kamil olanda, ona artıq pərdəsiz göstərərlər. Biri soruşdu ki, quldan Allaha gedən yol nə qədərdir? Dedim ki, Allahdan qula gedən yol qədər. Buna otuz min il də deyilsə, yenə düzgün olmaz. Çünki sonu, ölçüsü yoxdur. Ölçünü bir şeyin ölçüsü ilə ifadə etmək, sonsuz bir şeyin sonundan bəhs etmək qeyri-mümkündür. Sonsuz bir şeyin sonu məlum olan şeydən daha uzaq olduğu sözün surət yönüdür, sonsuzluqla bağlılığı yoxdur. Harda söz varsa, orada Allah var. Söz bilinən o müəyyən günə qədər uzanıb gedəcəkdir. Dərviş sözə başlayanda etiraz lazım deyil ona. Mədrəsədə söylənilən hər sözün, mədrəsədə öyrənilən hər düşüncənin mövzuya da, mübahisəyə də faydası çoxdur. Amma o söz bu faydadan, bu mövzudan uzaqdır, bu mövzuyla əlaqəsi yoxdur.

Bir nəfər dostlarından birinə hind qılıncı gətirmişdi. Ona, bu, hind qılıncıdır, dedi. Dostu soruşdu: “Hind qılıncı necə olur?” Bu biri cavab verdi: “Üzərinə endirilən hər şeyi iki parça edər.” Həmin adam da ona cavabında dedi ki, sufi vaxtını əldən verməz, təcrübə üçün bu daşa bir vuraq görək. Həmin adam qılıncı gətirib daşa vurdu. Amma əksinə, qılınc iki parça oldu. Dostuna təfər dönüb belə dedi: “Hanı bəs, sən bu hind qılıncının özünəməxsusluğu, vurduğu hər şeyi iki parça etməkdir, deyirdin?” Dostu, bəli, qılınc hind qılıncı olmağına hind qılıncı idi, amma daş ondan daha hünərli imiş, dedi.

Həzrət Məhəmməd (s) “Ah qardaşlarımın nə qədər həsrətini çəkdim!” buyurdu. Əshabəsi, “Ey Allah Rəsulu! Biz qardaşlarınımı arzuladın?” “Xeyr, siz mənim dostlarımsınız”, buyurdu. “Amma sənin qardaşların

(səndən əvvəl) gəlib-getmiş peyğəmbərlərdir ki, onlar indi dünaydan kö- çüblər”, dedilər. Həzrət Peyğəmbər (s) “Xeyr, o qardaşlarımı da istə- mirəm. Ancaq məndən sonra gələcək nazənin qulların (övliyaların) həs- rətini çəkdim”, buyurdu.

Yetkinlik çağına yetmək üzrə idim, amma tamamilə yetkinləşməmişdim. Bu eşqin üstündən otuz-qırx gün keçdiyi halda, heç bir şey yemək istəmirdim. Bir nəfər Həmədan şəhərində vaizlik edirdi. Hər kəs Allahı yaradılmışlardan birinə bənzədir, deyə tənqid etməyə girişmişdi. Şəhərin

vaizi gəlib, minbərə çıxdı və təşbih* ilə bağlı ayələri saymağa başladı. “Rəhman ərşi yaradıb hökmü altına almışdır (ərşə hakimdir)” (Taha surəsi,

5); sonra yenə “(Ey insanlar) Göydə olanın (Allahın) yer hərəkətə gəlib çalxandığı zaman sizi onun dibinə batırmayacağına arxayınsınızmı?!” (əl-Mülk surəsi, 16); daha sonra “Rəbbinin əmri gəlib mələklər səf-səf du- racağı” (əl-Fəcr surəsi, 22); və yenə “Onlar öz (başlarının) üstündə olan Rəbbindən qorxar…” (ən-Nəhl surəsi, 50) kimi ayələri minbərin önündə oxumağa başladılar. Vaiz də təşbih inancının yolundan uzaqlaşmış kim- sələrdəndi. Bu ayələrin mənalarını təşbih yönündən söyləməyə başla- mışdı. Hədislər də danışırdı: “Rəbbinizi gecə bədirlənmiş ayı seyr edər- miş kimi görəcəksiniz”, “Allah Adəmi öz surətinə bənzədərək xəlq etdi”, “Rəbbimi qırmızı bir libas içində gördüm” kimi müxtəlif mənalar daşıyan hədisləri maraqla danışır, təşbih istiqamətində mənalarını söyləyirdi. Vay o kəslərə ki, Allahı bu sifətlərlə təşbih etməz və bu surətlərlə tanımazlar! Onlar ibadət etsələr belə, yenə cəhənnəmlik olarlar. Onların ibadətləri qəbul olunmaz, deyirdi. Bu mövzu ilə bağlı ayə və hədisləri izah edərkən dinləyənlərin bir qismi, Allahın mütləq varlığını, onun məkansızlığını irə- li sürərək, suallar verdilər. Vaizin sözlərinə etiraz etdilər. “Harada olur- sunuzsa olun, O sizinlə bir yerdədir”, “Ona bənzər bir şey yoxdur” an- lamındakı ayələri də müqayisə edərək təfsir etdi və bütün bunları təşbih məqamında birləşdirdi. Tənzih* mövzusundan isə ehtiyatla danışdı. Ca- maat evlərinə dağılışdı. Bunları arvad-uşaqlarına danışdılar və hamısına belə tövsiyə etdilər: “Allahı ərş üzərində bilin, olduqca gözəl bir surətdə iki ayağını aşağı sallamış bir halda kürsüyə oturmuş, şəhər vaizinin de- diyi kimi, mələklər də ərşin ətrafını dövrəyə alıblar. Hər kim “Onda belə sifətlər yoxdur” desə, onun imanı yoxdur. Vay onun ölüsünə, vay onun məzarına, vay onun son halına!” Bir həftə sonra qərib bir sünni vaiz gəldi. Hafizlərə tənzih ayələrini oxudu. “Ona bənzər bir şey yoxdur, doğ- madı, doğulmadı, səmalar Onun əliylə saxlanılır” məalındakı ayələrin təfsirinə başladı. Təşbihçilərin dərisini soymaq gərəkdir, söylədi. Hər kim təşbihdən bəhs edərsə, kafir olar, hər kim surətdən söz açarsa, cə-

hənnəmdən qurtula bilməz. Allaha məkan göstərənin vay dininə, vay məzarına, dedi. Təşbihə bənzəyən ayələri də təfsir etdi, bir-bir izahını verdi. O qədər cəhənnəm əzabı ilə qorxutdu ki, hər kim surətdən bəhs edərsə, onun ibadəti ibadət, imanı iman deyil, deyilən söhbətin üstünə gətirib çıxardı. Allahın məkana möhtac olduğunu söyləyən zavallının vay halına! Vay onun sözlərini dinləyənlərə, dedi.

Sünni vaizin bu sözlərini eşidənlər çox qorxdular, pəjmürdə şəkildə

evlərinə döndülər. Bunlardan biri evinə gəldiyi zaman iftar belə etmədi. Evin bir küncünə çəkilərək başını dizlərinin arasına aldı. Uşaq kimi ağlamağa başladı. Çoluq-cocuq ətrafına toplaşdı. Onları yanından qovdu, çığırıb tərslik etdi. Uşaqlar analarının yanına qaçdılar. Qadın ərinin yanında oturdu: "Kişi, xeyirdir, inşəallah, xörək soyuyur, yeməyəcəksən? Uşaqları döyürsən, məni qovursan, nədir bu halın? Uşaqlar ağlaşırlar." Kişi, çıx get gözümün qabağından! Artıq mənə ilahi səslər gəlmir, içimi alov yandırdı, dedi. Arvadı yenə soruşdu: "Ona ümidini bağladığın Allahı bir tərəfə atırsanmı? Bu nə vəziyyətdir? Sən səbrli bir insansan. İndiyə qədər başına nə qədər ağır işlər gəldi, hamısına səbrlə dözdün və asanlıqla keçdin bu çətinliklərdən. Allaha bel bağladın. Allah da bütün çətinliklərdən səni qurtardı. Könlünü xoşhal etdi. Sənə verilən nemətlərə şükr elə, bügünkü sıxıntılarını da yenə Allaha həvalə et. Bu işə də baş qoşma ki, Allah üzərinə rəhmət yağdırsın." Bu sözlərdən sonra kişinin ürəyi yumşaldı. Nə edim, məni aciz hala gətirib çıxardılar, canımız boğazımıza yığıldı. Keçən həftə alimin biri, Allahı ərş üzərində biləcəksiniz, onu ərş üzərində bilməyən kafirdir, ölərsə, kafir kimi ölər, dedi. Bu həftə də başqa bir alim gəldi, minbərə çıxdı, hər kim Allahı ərş üzərində bilir və belə bir şeyi könlündən keçirərsə, yəni onu səmada təsəvvür edərsə, onun əməli və ibadəti qəbul olunmaz. Çünki Allah məkandan kənardır, dedi. İndi bir-birinə uyğun gəlməyən sözlər qarşısında biz hansı tərəfə üstünlük verək? Necə yaşayaq? Necə ölək? Çarəsiz qaldıq. Qadın dedi ki, heç acizlik göstərmə, çaşqınlıq etmə. "Allah istər ərş üzərində olsun, istər ərşdən uzaq olsun, istər bir yerdə otursun, istər məkansız olsun, harda olursa-olsun, yetər ki, dövləti sonsuz olsun. Sən öz dərvişliyini düşün, dərvişlik vəzifəni yerinə yetir."

Ərəb dilində and içmək üçün istifadə edilən hərflər üçdür: Vav, Be, Te. Hər üç hərf ilə and içərik ki, "vallahı", "billahı", "tallahı", bu mədrəsələrdə təhsil görənlər həmişə, "bir mənsəb sahibi olaq, bir mədrəsə əldə edək," deyərlər. Gözəl duyğularla hərəkət etmək gərək olarsa, bunlar o məclislərdə yer tutmaq üçün çabalayarlar. Halbuki, bunlardan soru- şulmalıdır ki, dünyanın loxması üçün nə deyib elm, təhsil dalınca qaçır-

san? Bu ip insanı o quyudan çıxarmaq üçündür. Yoxsa, yapışıb başqa quyulara enmək üçün deyil. Sən daim, görəsən, mən kiməm, deyə düşün. Hansı cövhərdənəm, nə üçün gəldim, haraya gedirəm? Əslim hardandır, bu anda hardayam, üzümü hara çevirim? Mövcud olmayanı anmaq qeybət etmək deməkdir. Var olanı anmaq da yad olmaqdandır. İndi zikr edən, Allahı anan kimsə bu halın kənarında deyil. Ya mövcuddur, ya qaib. Əgər qaib isə onu anan kimsə qeybət etmiş olar, mövcud-

dursa, ona yadlıq qarışdırar. Necə ki, Sultanın önündə oturan şəxs, Sultan belə buyurdu və ya Sultan belə elədi, deyə bilər. Amma qeybət edərsə, böyük günahlardandır. Yəni qeybət, çirkab olmaqla yanaşı, böyük günahlar içərisində sadalanan dörd günahdan biridir. Sözü gedən dörd günahın başında qeybət gələr. İkinci böhtan (iftira), üçüncüsü adam öldürmək, dördüncüsü isə zülmdür. Bunları düşmən tərəfi halal etmədikcə, əzabdan qurtulmaq əlacı yoxdur. Padşahın gizli sirlər söylədiyi şəxsə bu iltifat cismin qidası sayılar. Ruh da bizim qismətimiz hələ yetişmədi, deyə gözləyər. Bu, bizim qismətimiz deyil, bu, bizi tərk etməz, boğazımızdan yapışar. Biz hara gedək, necə xilas olaq? Bir ayranın içinə düşmüşük, amma elə bir ayran ki, ucu-bucağı yoxdur. Bir kasa içində deyil ki, bir kənarı olsun. Ayrandan xilas olar, başqasına düşər. O, baldır, deyər. Nə qədər xilas olmaq üçün qanad çalarsa, o qədər dərinə gedər.

Əbu Nəcib (Allah ruhunu şad eləsin!) bir müşkül işinə görə çiləyə girmişdi. Bir neçə dəfə yuxusunda bu çətin işin o olmasa, bacarmaya- cağını, yəni filan şeyxi görməsinin lazım olduğunu dedilər. Onu ziyarətə gəldim, amma onu hardan tapacağam, dedi. Bir səs gəldi: "Sən onu görə bilməzsən!" "O halda nə edim?" Cavab gəldi: "Çilədən çıx, məs- cidə gəl, cərgələrin arası ilə dua və yalvarışla dolaş! Ola bilər ki, o səni görsün, onun gözünə sataşarsan." İndi Əbu Nəcibin halı belə olanda, mən şeyxsiz qalsam belə, qalmamış olaram. Etdiyim o müxalifət başqa bir etimad ilə oldu, başqa bir şeyxi öyrənmiş oldum.

Bir nəfər ölmüşdü. Novhə deyən gətirmişdilər. Ölü sahiblərindən soruşdu: "Mərhumun keyfiyyətlərini söyləyin. Elmi var idimi?" Xeyr, dedilər. "Zahid və ya abid deyildi ki?" "Xeyr." Novhə deyən üzünü qibləyə tutub yenidən soruşdu: "Fəqir-füqəraya əl tuturdumu?" Yenə, xeyr, dedilər. Xülasə, nə soruşdusa, "xeyr"dən başqa bir cavab ala bilmədi. Soruş- duğu şeylərdən bir nişan tapa bilmədi. Belə bir nəğmə ilə ağlamağa baş- ladı: "Ey çaşqın gəlib, çaşqın gedən, zavallı!"

Bir gün dərvişlər təkyədə Səmanı heç cür uyğunlaşdıra bilmirdilər.

Şeyx dedi ki, diqqət edin, bizim dərvişlərin arasında bir yad adam var. Ət-

rafı yoxladılar, xeyr, yad adam yoxdur, dedilər. Şeyx təkrar etdi: "O halda başmaqlarınızı yoxlayın." Bəli, özgəsinin başmağı var içəridə, dedilər. "Elə isə o özgənin başmaqlarını dərgahdan çölə atın!" Başmağı bayıra atdılar. Dərhal Səma ayini qaydasına düşdü. Ağıl dərgaha qədər yol tapar, amma evin içindəki yoldan baş çıxara bilməz. Orada ağıl, könül, sirr pərdədir.

Bir nəfər bərbərə, bığımdakı bu ağ tükləri maqqaşla seç çıxar, deyirdi. Bərbər adamın bığlarında ağ tüklərin qaradan çox olduğunu gördü.

Əvvəl saqqalını qayçı ilə dibindən kəsib müştərinin əlinə verdi və al özün seç, çünki mənim işim var, dedi.

Sən əsli olandan yapış. Libas, yemək, düşməndən qorunduğun üçün seçdiyin şeylər nədir? Necə, məni xor görürlər, yaxud filankəs mənə yad gəlir, deyərsən. Sən budağı, yarpağı burax, əsl və kök üçün ağla. Əsli düşünərək üzüntü duymağa çalış! İnlə, fəryad et ki, o qol-bu- dağın pöhrələndiyini, ayağına sərildiyini görəsən. Bütün ucalıqlar, ulu- luqlar, öndərliklər, hər fəndə öndə gedən ustadlar sənin önündə baş- larını yerə qoysunlar. Sən onlara heç dönüb baxma! O zaman onları yanından qovsan belə, artıq getməzlər. Amma sən bu qol-budaqlardan yapışarsan, zoğu və kökü əldən qaçırarsan. Budaqlardan da bir şey əldə edə bilməzsən.

İstəyirəm ki, öyüd verim. Amma neçə dəfə nəsihət verdim, bəziləri bundan xoşhal oldu, bəziləri incidi. Onların incimələri mənə də sirayət etdi və məni də təsirləndirdi. Dedim ki, bir yerdəki nəsihət yerinə düşməz, gərək təkbir* çəkənlər, acizlər üçün duaya başlayım. Ta ki, səs çıxarmadan mənə yanaşsınlar. Hər budağın arxasınca ağlayırsan. Necə ki, ayağıma qapanan bir dəliqanlı, mən filankəsin ardınca gəzib bütün varlığımı itirdim, hər işdən əl çəkdim, dedi və əlavə etdi: "Artıq ümidim sənin bir salamınadır. Bunu söylə, təzədən evimə dönüm. Yaxud beləcə bizə bir nəzər eylə." Ona dedim ki, mən sənin söylədiyin şeylərin heç birini etmərəm. Nə üçün onun kimi min dənəsi sənin xidmət kəmərini belinə bağlamısın. O halda nə edim, dedi. Mən bu cavabı verdim: "Əsllə bəra- bər olmalısan, hər kəsin axtardığı əsli tapmalısan. Bütün əsllərin əslini, bütün ustadların ustadını axtarmalısan! Amma bir gün çürük budaq kimi əlində qalacaq əsli deyil. Onu axtarmaqda bütün gücünlə çalışmalısan ki, qəlbinə zəhmət verən, səni qayədən uzaqlaşdıran hər şeyi əhəmiyyətli hesaba qatasan. Əgər bunu əldə etməyi asan sayırsan, mahiyyət sənin nəzərində xor görünər." Ayədə "Kora günah gəlməz, topala-şilə günah gəlməz..." (əl-Fəth surəsi, 17) buyurulur. Bunları istəyərsə, nəsihət imanlı

kəslər üçündür. Çünki onunla müqayisədə hamısı kor və topaldır. Çünki görən odur və xeyirə yüyürən də odur ki, Cəbrail onun addımına yetişə bilməz. Cəbrailə, "gəl", deyər. O da, xeyr, gələ bilmərəm, əgər bir addım da yaxınlaşsam, yanaram, cavabını verər. (Peyğəmbərin (s) Meracından söhbət gedir. Kavseyndən sonra Ədna mərtəbəsində Cəbrail Həzrəti Məhəmmədi (s) tək buraxmış, daha irəli gedə bilmərəm, çünki qanadlarım yanar, demişdi -Tərcüməçidən.) Həqiqətən sağlam olan da odur. Düzgün rəng və düzgün məcaz ordadır. Buna görə özü danışar özü dinləyər, heç kimlə bir yerdə deyil.

Bu şərh necədir? Bizim cəhənnəmimizdə həmişə ariflər, alimlər yanar.

Bizim cəhənnəmimiz belədir. Biri var ki, cəhənnəm ondan fəryad edər, “O, cəhənnəmə gəldi” deyə inlər. Cəhənnəm də onu görəndə, cəhənnəmə gəldi, deyə fəryad edər. Cəhənnəm möminləri arzular və ona, keç, ey mömin, nurun atəşimi söndürəcək, deyər. Nağıl edirlər ki, midriklərdən biri bir əziz adamının qəbri üstünə gəlir. Onun dünyadan gizlənmiş olduğunu görür. Qırx gün oturub məzarın başında gözləyir. Ta ki, işi tamam olsun. İndi gəl və söylə: “Bu günün doğması, fələklərin fırlanması sənin düşüncənə görə necədir?” Münəccimlərin izah etdiklər şeylər Quranın zahirindən necə başa düşülür? Gəl araşdıraq. (Mömin araşdırıcı olar.) Bu gün ulduzlar haqqında elmindən ağla uyğun gələnləri qəbul etmək gərəkdir. Deyək ki, mən Şafii məzhəbindənəm, Hənəfi məzhəbindən bir şey tapdım, işim onunla daha yaxşı yoluna düşər. Bunu qəbul etməzsəm, inadkarlıq olar. Bu arif mənim halımı həmişə bilər, eşitdiyi hər sözə gülər və bunun hansı məqamdan söyləndiyini də anlayar. O kəsi və hər birinin məqamlarını görər və şükr edər ki, Allah onu o məqama bağlamamışdır. Ondan keçmişdir və onun bir çox qulu var. Hər birindən bir məna və hikmət istəmişlər, o biri arif isə hər kəsin halını bilər və onlar da ona məlumdur. Bu arifi tanıyan başqaları da onu görər və onda Allahdan başqa heç kimi görməzlər.

Dedi ki, dünən anasının qarnından çıxıb, “Mən Allaham!”, deyir. O filankəsdən doğulmuş olan Allahdan çox üzgünəm. Allah Allahdır. Deyirdi ki, filankəs uzun bir yolçuluqla filan şeyxin şöhrətinin dalınca qaçar. Ona yetişəndə Şeyx soruşar ki, niyə gəldin? “Allahı axtarmağa”. Mən, hətərən danışmış, küfr etmişdir, dedim. O zaman mən də tənəli sözlərlə danışıb və söyüb-qovmağa başladım. Amma nə Nəcməddin Kübranı, nə Xarəzmi, nə də Rey şəhərini xilas edə bilmədim. Niyə üzülək!

Allah-təala öz sirrini bu qulundan əsirgəmədi. Hansı sirri əsirgəyər ki? Amma dünya sirlərini gizli olaraq söyləyər. Ona görə qorxu yoxdur.

Bax bu səbəbə görə Həzrəti Məhəmmədə (s), “Hər kəs səhər nə kəsb edəcəyini (savab, yaxud günah qazanacağını), heç kəs harada öləcəyini bilməz. Allah isə, şübhəsiz ki, (hər şeyi) biləndir, (hər şeydən) xəbərdardır” (Loğman surəsi, 34) (Əvvəlcədən bilinməsi mümkün olmayan şeylər bun- lardır: 1. Qiyamət günü 2. Yağışın nə vaxt yağacağı 3. Ana bətnində körpənin cinsi 4. İnsanın başına sabah nə gələcəyi 5. İnsanın harda öləcəyi.) buyurmuşdur.

Onun da bir səbəbi var, bunun da. Bir insan sabah qazanacağı şeyi əvvəldən bilə bilməz, buyurulmuşdur.

O şeyx deyirdi ki, filan şeyxin gözəl ətri Allah qoxusundan da üstündür. Dedim ki, bu ətir bəlkə sənin arvadından və onun oynaşından gəlir.

Bu nə qədər eşşəkdir ki, eşşəkliyi ucbatından belə sözlər danışır. Bir başqası da belə dedi: "Bir gəmidə idim. Günəş kimi bir cövhər parıldadı. O saat dənizə baxdım. Hardasa gözümün işığını aparacaqdı. İki əlimlə gözlərimi qapadım." Daha sonra tamaşalardan, dənizin qəribə vəziyyətindən bəhs edirdi. Ona belə dedim: "Tamaşaya getmək istəyirsən? Tamaşa arzu edirsənmi? Gəl mənim aləmimi, mənim batinimi seyr elə." O biri də elə hesab etmişdi ki, bizim halımızda bir çatışmazlıq başlayıb. Deyirdi ki, bizə düşmən olan dostlarımızı görürsənmi, himmətimizi necə qırdılar?

Ey üzü qara! Himmətin nə olduğunu sən nə bilirsən? Get dəstəmaz al, namaz qıl, tövbə et! Dedi ki, kafir idim, imana gəldim. Küfrdən vaz keçdim. Get otur yerində! Pambığını əyirməyinlə məşğul ol! Sən kimsən axı? Kişilərin arasında mərd olanlar istəyirlər ki, qapıma ovuclarını dol- durub su daşısınlar. Qurani-Kərimdən üstün kitab yoxdur. Allah kəlamından üstün söz yoxdur. Amma bu Quran ki, cəmiyyət üçün gəlmişdir, əmrlər və yasaqlarla, xalqa yol göstərən ayələrində başqa bir zövq var. Allah dostlarına açıqlanan ayələrində də başqa bir zövq görünər. Ən doğrusunu Allah bilir!

# İKİNCİ FƏSİL

Pir Məhəmməddən soruşdular ki, Kamili-Təbrizinin xirqəsinin önündə nə hala düşürsən? Eynilə qızılquşun pəncəsinə düşmüş bir sərçəyə dönür, sonra da deyirsən ki, qızılquşu öldür, onun caynağından qurtulaq. Çünki o öz hesabına yaşayır.

Bu, zənbil sözünün şərhi nədir, deyə soruşdu. O da bu cavabı verdi: "İstəyirəm ki, müdriklərin sözlərini toplayım, söylədiyim hörmətli sözlər həmişə onların sözləri olsun." Necə ki, bəzi şəxslər gündüz dilənər, gecə köpəklərə ziyafət verərlər. Bundan sonra da vəziyyət belə olanda bunu dərvişlərin qabağına qoyarlar. Özləri yeməzlər, iş bu mərtəbəyə yetişəndə özləri də yeyərlər. Bu ancaq işin düz üzüdür. Bunun astarı budur:

Biri bir şeyxə, bir mürşidə könüldən bağlanar. Yaxud bir dost bir gün gəlib-keçmişlərdən və ya yaşayanlardan, könül sahibi olduğunu san- dığı birisindən bir şey diləyər. Bundan sonra öz nəfsini də yaddan çı- xarmaz. Üzünü könül tərəfinə çevirər, orada bir köşəyə çəkilər. Gecə yarısı qadınlardan, çoluq-cocuqdan ayrılaraq evin küncünə sığınar, hıç- qıra-hıçqıra ağlayar. Vaxtı gələnə qədər, yəni könül səmtindən bir işıq peyda olana qədər gözləyər. Qəfildən əvvəlcə həsrət çəkdiyi könül sə- fasını anaraq, ağlayaraq səcdəyə gedər. Allah onun dilədiyi zat ilə olan münasibətini təkrar şirinləşdirər. Buna qabiliyyəti olmayan şəxsdən isə hər kəs ümidini üzmüşdür.

Mənim insanları islah, yəni onları yola gətirmə xüsusundakı arzum isə daim mümkün olmayan bir şeyi mümkün etməkdir. Necə ki, ayədə buyurulduğu kimi, eynilə Həzrət İsa (ə) kimi müalicə ümidi qalmamış korların gözünü açmaq istəyirəm. Üzümü dostluq istiqamətinə çevirim. Dostların üzünü də yoldaşlıq tərəfə yönəldim. Sən də bax belə yürü!

İndi övliyaların, sevənlərin, sevgililərin halı belə olanda, son nədir, sualına Cüneydin verdiyi cavab bu olmuşdur: "Son başlanğıca dönməkdir." Bu sözün zahiri mənalarından biri budur: Salik, mürid, necə ki, baş- lanğıcda açıq-aydın ibadət, təşbih və dua edər, bunları pərdə arxasında eləmirdi. Bundan sonra özünə bir heyranlıq yarandığı üçün artıq o iba- dətləri ixtiyarsız edə bilməz.

Allah dostlarının gözəl əməlləri ona yaxın ərənlərin işləri dərəcəsindədir. Hər kim bizim dostumuzsa, əvvəl etdiyindən daha çox ibadət etmə- lidir. Ancaq dostlara, dünən danışdığımız sözlərin Bəyazidin, Cüneydin, hətta o rüsvalıq ustadı Həllacın sözləri ilə nə əlaqəsi var, deməm. Siz ibadət barədə dediyim sözlərimdən yapışın! Çünki yuxarıda adı çəkilən kəslər Həzrət Məhəmmədin (s) tənində bir tük belə ola bilməzlər.

Əbu Səid (Əbu Səid Əbül-Xeyr nəzərdə tutulur. 978-ci ildə Təbriz yaxınlığındakı Miyana şəhərində anadan olub və 1061-ci ildə bu şəhərdə də vəfat edib. Böyük sufi mürşidlərindən sayılır - R.M.) və o, on iki il ot kökü ilə qidalanaraq yaşayan sufi Həllacın tutduğu yolda bu sözdən bir qoxu duya bilmədilər. Onunla bu sözü danışarkən, nə deməkdir bu, deyərlər. Madam ki, elədir, onda bu qədər yetər.

Aləmdə bir hay-küy salırsan, sonra isə təvil* üçün fəryad qoparırsan. Sözlərin təvili böyük işdir. Söylədiyinin məqsədini anlaya bilmək də böyük bir irfan mərtəbəsidir.

Həzrət Yusuf (ə) böyük bir peyğəmbərdi. Sözlərin təvilini bildiyi üçün həm iftixar edir, həm də Allaha şükr edirdi. Peyğəmbərlər onun hüzuruna həsrətdirlər. Mən indi deyirəm ki, Mövlananın ondan xoşu gəlir. Mən belə sanıram onu. Əks halda, mən nəfsimdə bir üstünlük görmürəm. Məndən onun xoşuna gələn bir söz çıxarsa, görəsən, hansı səbəbdəndir? Bu mənim halım deyil. Ancaq bir gün sözdən küssəm, mənə hardan gəl- diyini, kimin söylədiyini bilmədiyim bir yöndən gələn sözlərdən birinin yaxasından yapışaram. Haradan söyləyərəm? Allahdan. Haraya, kimə söyləyərəm? Böyük bir insana - bu da Mövlanadır. Bu kimdir ki, mən ortalıqda olduğum halda məni ziyarətə gələr? Mənə başqa bir adamın evindən ziyarətçi gələr. İmad və ya Ərşad, yaxud Zeynəddin Sədəqa. Amma bunlar mənimlə birlikdə olanda, yaxud mənim ziyarətimə gəldik- cə, onların gəlişindən bir saat belə sıxılmaram. Amma qorxuram ki, belə elədiyim üçün mənə bir daha baş çəkməsinlər. Buna görə onları başqa- larından daha üstün tuturam.

Söz sırası Həzrət Mustafaya (s) gələndə bir söz söyləmərəm. Çünki onun məqamı lap ucadır. Şübhə yox ki, Allah onu kərəm dənizinə salıbçıxararkən, mübarək bədənindən səpilən nur damlalarının hər birindən bir nəbi, bir peyğəmbər törəmişdir. Yerdə qalan damlalardan da övliyalar yaradılmışdır. Elə isə onları necə bir-birinə yaxınlaşdıra bilərəm? Ancaq ən sonuncu gələn əvvəlkilərdən daha üstündür, deyərəm. Sonra necə olar ki, başqa bir nəbini Həzrət Məhəmmədlə (s) müqayisə edə bilim? Bu, mənə bir elm öyrənmədən, ağıl və əmək sərf etmədən bildirlidi. Bu hal ona bağlanmağımın bərəkətidir. Onunla birlikdə danışdığım ilk söz də bu idi. Amma Bəyazid Bistami necə oldu ki, ona tamamilə uymamığı lazım bilmədi? Onun kimi, “Ya Rəbb! Sənə, Sənin şəninə uyğun şəkildə qulluq edə bilmədik!” deyə bilmədi.

Mövlana bir sözün yekununu və nəticəsini kamilliyi ilə bilir. Amma bu söz hara qədər gedər? Sonu haraya varar? Mövlana içinin, ruhunun təmizliyindən sərxoşdur. Onun sərxoşluğu tərtəmiz, qarışıqsız bir sərxoşluqdur. Mən bu sözün zövq və ləzzətini bildim. Onun sərxoşluq içində söyləndiyini anladım. Amma bu sözün yüksək zövqündən qafil və

xəbərsizdim. Bu söz, sadəcə olaraq, mənim sözümdür, halım deyil. Əgər halım olsaydı, bundan daha aşağı və daha uca olmazdı. Bu söz də belə qərarlaşdı. Amma sözüm bir zamanda da başqa birinədir.

Haqq zamana bağlı deyil. Haqq ölməz. Zamanın nə dəxli var? Bəli, zamanla Haqq ölməz. Amma sən bir isim daşıyan varlıqsan. O isim sənə səndənmi gəlmişdir? Müridə gərəkli olan ustadına qarşı çox sayğılı olmaqdır. "Onu müridindən soruş", demək buna görədir.

Bir müriddən soruşdular: "Cənin mürşidin daha yaxşıdır, yoxsa Bəyazid Bistami?" "Mürşidim daha yaxşıdır", dedi. "Yaxşı, mürşidin daha yaxşıdır, yoxsa Həzrət Peyğəmbər (s)?" "Mürşidim." "Ustadın yaxşıdır, yoxsa Allah?" "Mürşidim", dedi. "Çünki mən birlik və tovhidin* sirrini on- dan başqasında tanımıram." Bax, təşbih dərəcəsində qalanlar üçün bu tovhid anlayışı belədir. Yüksək bir seçim və təşbih sənətini əks etdirən bu anlamdakı beyti oxuyaq:

Beyt:
Mən sevgilim, sevgilim də mən olmuşuq
İkimiz bir bədən içinə girmiş iki ruh olmuşuq.

Bu, bir təşbihdir, bənzətmədir. Amma sözü gedən müridin təşbihindən daha uzaqdır. Aralarında bir bağlantı vardır ki, tovhid aləminə qədər gedər.

Mənə yaraşan odur ki, zahirdə bizim həyatımızdakı dostluq və qardaşlıq hansı yolda isə onu qorumalıyam. Yoxsa, şeyxlik, müridlik kimi əlaqələr xoşuma gəlməz. Ustadları da, şagirdləri də yerə girsin, deyərlər. Bizə bir söz söyləmək istəyən kəs də bizim kimi olmalıdır. Belə açıq söyləməlidir. Bizim övliyalığımız bəhsində bundan inciyərlər. Onlara eşşək deyən zavalı təqlidçi eşşəkdir. İndi mənə özündən bir fəzilət, bir üstünlük verirsən. Mən bunu söyləmirəm. Mənim qarşımda bu belədir. Sözü yozumsuz və açıq söyləyirəm. Aramızdakı fərqin bir səbəbi varsa, budur ancaq. Amma o zaman sən məni anlamırsan! Halbuki, mən buraya bəzi şeyləri öyrətmək üçün gəldim.

Şama getmək xoşdur, bir nazdır. Sevgilin naz edər, onun nazını çəkmək gərəkdir. Gizlicə ən çətin şərtlər içində mənimlə ola bilərsənmi? Şama getmək xoşdur, nazlanmaqdır, amma mən münasibət və əməl is- təyirəm. Mən əmələ baxıram. Deyək ki, mən üzümü turşutdum. Sən də elə turşumuş üzlü ola bilərsənmi? Mən gülsəm, sən də gülərsənmi? Mə- nim salam verdiyimə sən də salam verməzsənmi? Mənə elə gəlir ki, sə- nin üçün bizim aləmimizdən ayrı bir aləmin var. Elə vaxt olur ki, bizim yazılarımızı başqalarının yazılarıyla qarışdırırsan! Mən sənin məktublarını yaxınlarımın məktubları ilə qarışdırmaram. Çünki sən onlardan üstün

ol- duğunu iddia edirsən. Amma mən o davada deyiləm.

Həzrət Əlidən (ə) rəvayət edirlər: O Həzrət buyurub ki, Bəqi qəbristanlığında cənazə namazındaydıq. Həzrəti Peyğəmbər (s) yanımıza gəldi və belə buyurdu: "Heç bir kişi və qadın yoxdur ki, gedəcəyi yerin cənnət və cəhənnəm olduğu Allah tərəfindən yazılmış olmasın." Oradakıların biri soruşdu: "Bəs onda alın yazılarımızı dəyişdirə bilərikmi?" Peyğəmbər (s) buyurdu: "Çalışın yaxşı əməllər eləyin. Hər kəs hansı iş üçün yaradılıbsa, o işi asanlaşdırar. Cənnət üçün yaradılmışlar cənnət əhli olanların, cəhənnəm üçün yaradılmışlar da cəhənnəm əhli olan şəxslərin işlərini asanlaşdırar." Həzrəti Peyğəmbər (s) sonra əl-Leyl surəsindən bu anlamı verən ayələri oxudu: "Kim (malını Allah yolunda) versə, (Allahdan) qorxsa və ən gözəl sözü (la ilahə ilallah kəlməsini) təsdiq etsə, Biz ona ən asan olanı (Cənnəti) müəyəssər edəcəyik!" (əl-Leyl surəsi, 5,6,7.) Pey- ğəmbər (s) gedərkən, o nə gözəl insandır ki, özündə bir qüsur olduğu halda, lətifəni sevər, Allah onu gündə yetmiş dəfə güldürər, buyurdu.

Həzrət Əli (ə) bir şahiddən soruşdu: "Bu zina məsələsində necə şahidlik edərsən?" O adam belə dedi: "Evə girdim, arxası üstə yatmış bir qadın gördüm. Üstündə uzanmış bir kişi ilə hərəkət vəziyyətində idilər, nəfəs-nəfəsə. Ayaqlarının bir cüt eşşək qulağı kimi birlikdə hərəkət etdiyini gördüm. Bundan artıq bir şey görmədim."

Sən bir kimsədən bir şey öyrəndinmi? Məsələn, hər kim yaxşı da- nışırsa, ona sayğı göstərirsən. Axtardığını tapmaqdan, gözlədiyin şeyi əldən qaçırmaqdan qorxursan. Allah bunu sənə verdi. Bununla vəziyyət dəyişdi. Əgər iş belə nəğd olmasaydı, ona sayğı göstərməkdən bu məna çıxmazdı. Ancaq başqaları ilə olan münasibətlərə uyğun ikinci bir inama yol açardı. Amma müxtəlif məsələlərdə mən sizdə bir üstünlük gördüyüm zaman sizinlə könül alçaqlığı edərək bir yerdə qalmaq istəyirəm.

Şeyx Əbubəkr (Şəmsin ilk mürşidi - R.M.) yanındakı fəqir dərvişlərlə oturarkən vəzirin adamlarından və xalqın arasından bir neçə nəfər içəri girdi. Şeyxin bunlara qarşı göstərdiyi sayğı dərvişlərə göstərdiyi sayğının yüzdə biri qədər deyildi. O kənar adamlar içəri girməmişdən öncə dər- vişlərdən kimi ayaq üstə, kimi oturduğu yerdə ədəblə yerləşmişdilər. Qo- naqlardan hər biri içəri girdikcə Şeyx onlarla məşğul olmasına maneçilik yaradır. Buna görə Şeyxlik əzmi onların araya girməsiylə sönərdi.

Əgər, bir sevgiliyə varmaq istəyirəm, gərəkdir ki, xalq bu sualı məndən soruşsun və desin: "Onlarda həqiqətən bir elm var, amma nədən haldan-hala düşərlər?" Bilirsənmi, bu işlərin iç aləmlə əlaqəsi yoxdur. Çünki qəlbin ölümü halı baş qaxıncı edər. "Əl çək, mən görürəm", deyər və heç kimin sözünü dinləməz.

Bu mərifət sözü, dərviş deyimi hər kəsin də dilində dolaşar. Amma

onlar eşidəndə bunu anlayarlar: "Ey xoca, adını hər tərəfə tanıtdırmaq, şöhrətə çatmaq gərəkdir. Yoxsa, mərifət başqa şeylə əldə edilə bilməz, deyərlər."

Şeir:

Minlərcə qurbanın kəsildiyi toyda
Zavallı davulçuların nə yeri var?

Bu açıq-saçıq şeyləri təmir etməyə çalışmağın nə lüzumu var? Bir zaman tam bir inanc və həqiqi bir arzu ilə gəlmişdi. Dörd dəfə ayağıma yıxıldı və ağladı. Mövlanadan eşitmiş, yaxud bizdən ayrı düşən Mövlananın halını görmək ədəbdən sayılmaz. Dəyərsizdi. Gözün qaraldı sənin, orada yatma ki, qaranlıqda qalmayasan! Həvaü həvəslərinə uymuş şəxslərlə oturub-durma ki, səni qaraltmasınlar. Gərəkdir ki, özünü yoxlasın, ta ki, səndə bir dəyişiklik olmasın.

Xirqənin* başlanğıcından sonuna qədər davamlı bir bəsirəti yoxdur. Mən təmiz qaldım. Özlərindən zövq almadığım o həvaü həvəs dostunun da təmiz qalmasını istəyirəm. Özünü daim təzələ ki, sonda Həzrət Peyğəmbərin (s) Əbu Hüreyrəyə buyurduğu, "məni zaman-zaman ziyarət et ki, məhəbbət artsın!" xitabına uğramayasan! Əgər ondan hal diliylə bu müraciət eşidərsən, bir xəlvətə çəkilər, hıçqıra-hıçqıra ağlayarsan! "Mənə nə oldu, ortada nə işlər baş verdi ki, bu xitaba uğradım?" Bu xitab həqiqi dostlar üçün deyil. Başqa dostlar arasında da ola bilməz, deyərsən. Bu vəziyyətinə göz yaşı tökərsən. Bəlkə bir zövq və rahatlığa qovuşarsan. "Məni zaman-zaman ziyarət et", sözü, diqqət eləsən də, eləməsən də bir kərə ağızdan çıxmışdır. Bu görüşmə haqqındakı mübarək xitabın səbəbi budur: Əbu Hüreyrə Həzrət Mustafanın (s) başmaqlarını daşıyırdı. Üzünə-gözünə sürtərdi, sonra başına qoyardı. Bu səfər də onun ayaq- qablarını cütlədi. Demədilər ki, bunda bir sirr vardır. Barı mən açıqlayım: Həzrət Məhəmməd (s) daxilən gözəl dedi. Öncə başmaqları başı-gözü üzərinə qoyardı. Mən də Allaha fəryad edərdim. "Ya Rəbb! Başmaqlarım o qədərmi dəyərsiz oldu ki, onun başı və gözü üzərinə qondu?" İndi sən qaraldığın üçün mən də sənin gözündə qaralmış göründüm. Mənə qa- ralmış gözlərlə baxma!

Bu, ziyarət məsələsində məqsəddir. Mənə elə bir gözlə bax ki, səni usandırmış olmayım. Məni daim təzə və yeni olaraq gör. Çünki mən əsla köhnəlmərəm. Sən də köhnəlmə. Əgər nəzərində köhnəlik duyğusu var- sa, "görəsən, bunun səbəbi nədir", - deyə düşüncəni düzəltməyə çalış, deməkdir.

Görəsən, həvaü həvəslə yoldaşlıq edənlə oturdumsa, nə oldu, deyə qüsuru özündə ara. Məni aradabir ziyarət et, demək, get, cəld məndəki

həqiqəti gör, deməkdir. Bu düşüncə sənə xeyirli və faydalıdır.

Sən özünü təzələ. Mən yepyeniyəm. Sən özünü sübut elə. Bax mən sabit və qərarlıyam. Məni səbatlı görmürsənsə, bu sənin səbatsız- lığındandır. Mən əgər sənin məni səbatlı qılmağın sayəsində sabit olur- amsa, bu, mənim üçün çox qüvvətli səbat olar. Mənə deyirsən ki, məni sabit qılsan, mələklər ayağa qalxar. Allah sənə ömür versin! Allah var, deməyinin, onu isbata çalışmağının Allah varlığına nə faydası var? Sən özünü var etməyə çalış ki, mələklər bütün gecəni səni tərifləsinlər. (Sənin üçün) Allah varlığını gerçəklədi, desinlər. Həzrət Məhəmməd (s) "Məni görən nə xoşbəxtdir. O nə xoşbəxt insandır ki, məni görəni görmüşdür" buyurdu. Bunu yüz dəfə də söyləsə yerinə düşər. "Hər kim məni mənim onu gördüyüm kimi görərsə, o halda, o mənim kimi olar." Bu, söz deyən söz söyləyər, razılaşmasına diqqət edər. Çaşdırmaz insanı. Sözümün başlanğıcı nədirsə, sonu da odur.

Misra:

Hər şərab içən gec-tez sərxoş olar.

Şərabı küp içində saxlayarlarsa, məzacı daha qüvvətli olar. Sözü anlaya bildinsə, təlaşa düşərsən, məhv olarsan. Çünki məni görərsən. Mən də Mövlananı görərəm. Elə bir hala gələrsən ki, Mövlananı görəndə, nə xoşbəxtdir məni görən, deyərsən. Mən bəlkə yüz dəfə söyləmişəm. Məndə Mövlananı görə biləcək qüvvət yoxdur. Mövlana da mənim üçün

belə deyər. Amma mənə görə, dostluq Mövlananı gördükdən sonra nəfsini öldürməkdir. Ta ki, onu bir daha tapa bilmədik, öldü, desinlər.

Bu gün bu dostlar məclisini bir qənimət, mübarək bir fürsət sayın. Necə ki, o (dəliqanlı), mən istəyirəm ki, eşşəyə minim, öküzü qabağıma qatıb bağa gedim, demişdi.

Mənə dedi ki, sən o nazənin deyilsən. Elm var, elmdə müxtəlif də- yişikliklər var. Bu, çox çətin, amma açıq bir məsələdir. Açıqlıqda da dəyişikliklər vardır. Hər nə qədər burada o parlaqlıq və aydınlıq varsa, bu aydınlıqdakı dəyişikliklər də keçib təkrar meydana gələr. İnsan getdikcə Mütmainnə, yəni həqiqətə inanmış və anlamış hala gəlir. Bundan sonra yetkinlikdən, müntəzəm iman və vicdan rahatlığından səndə bir əsər qalar. Artıq həqiqətə yetişdin, demək.

Allah-təala Fəcr surəsində Mütmainnə olan nəfsə müraciətlə, "Ey xatircəm olan kəs! (Və ya: "Ey arxayın nəfs!") (Əməlisaleh) bəndələrimin zümrəsinə daxil ol!" dedikdən sonra bu iltifatını daha da qüvvətləndirərək, "Cənnətimə daxil ol!" buyurmasına bəlkə lüzum yoxdur, deyə düşünənlər ola bilər. Yəni həqiqətən and içilməsi gərək olan nəfsi-Ləvvamə,

yəni özü- özünü qınayan nəfsdir. Mütmainnə olan nəfs deyil. Ancaq Mütmainnə Ləvvamədən daha əziz və dəyərli olduğu üçün yalnız ona and içilmişdir. Necə ki, Allah bütün mələkləri hüzuruna topladı. Onların bu əmrdən boyun qaçırması mümkün deyildi. Bizim də hər hansı birinin könlünə yerləşdirdiyimiz ilhamı Allah vermişdir. Onu o könüldə yaradan ancaq Allahdır. Başqaları necə o qulun Allahı ola bilər. İstər İblis olsun.

Biri, zikr etmək istəyirəm, dedi. Buyurdu ki, başqaları səni o Məzkurdan*, zikr etdiyin Allahdan ayırmasın. O zaman zikr könül zikri olar. Sadəcə, dil zikri nöqsan sayılar.

Bəyazid Bistami könüllə zikr edərdi. Nə üçün onu dil ilə söyləmək istəmədi. Çünki o, mənada sərxoş idi. Məni ucaldın, şanım nə ucadır, deyirdi. Bu sərxoşluq halında Həzrəti Mustafaya (s) diqqət yetirə bilməzdi. Bəyazid o cəhətdən elə bir sərxoş idi ki, ayıqlara bağlanması mümkün deyildi. "Məni ucaldın", sözü bir xəbərdir. Hər kəs xəbər xüsusunda aşağı düşmüşdür.

Qurani-Kərimi öyrədən alimin hekayəsi məlumdur. Yeddi cürə oxuma tərzi öyrədirdi. Hər ayə üçün bir dinar istəyirdi. Öyrənənlərlə belə söz- ləşirdilər. Alimin sözü bu idi: "Surətlər dəyişkəndir, amma məna birdir." Mövlanadan eşitdiyim bu təmsili on ildir yadigar olaraq saxlayıram. Bu- yurmuşdu ki, xalq üzüm salxımına bənzəyir. Bu salxımdakı gilələrin sayı surət yönündədir. Necə ki, bu salxımı bir kasa içində əzib sıxsaq, artıq

dənələrdən və sayından əsər-əlamət qalmaz. Bu söz münasibət həyatında hər kəsin işinə yarayar. Bax Nəfsi-Əmmarə* o arzular salxımını könül aləmindəki gözəlliyi görməsi qədər heç bir tamaşa göstərə bilməz. O, camal aləmini görəndə o an içi rahatlanar. Hər kəsi çarəsiz qoyan bir padşaha bənzəyər o Nəfsi-Əmmarə. Ona bir qab içində azacıq bir zəhər verilsə, əl-ayağı rahatlanar, bütün öldürücü sərtliyi o anda məhv olar.

Padşaha altun, mal-mülk əskikliyi bir ziyan verməz. Ancaq iki şey zərər verər. Biri, heç kimə bir mis pul belə verməməsi, ikincisi də qiymətli daş-qaşlarını öz xəzinəsindən belə gizləməsi. Bir ara lap yaxınlarına onlardan bir işıq gəlsə belə, sonra yenə qısqanclıqla geri dönər, onun öz mis puluna belə işığı düşməz.

Padşaha aftafa daşıyan bir fəllahın* hekayəsi var. Fəllah aftafanı padşaha verir, padşah da onu asdırır. Əgər aftafanı əvvəl olduğu kimi vermiş olsaydı, padşah da onu asdırmazdı.

Həzrət Məhəmmədin (s) işığı bir könülə düşərsə, həm səni yandırar, həm də inandığın mürşidi. Cövhər nur saçar, istər aşağı, istər yuxarı, hər tərəfi birdən işıqlanar. Sən kimsən ki, o məkkəli kərəm sahibi kimi ola-

san? Əgər bir şəxsə bir işıq görünüb, təkrar görünməz olmuşsa, onu inkar etməz, onun imkan yetən tərəfindən yapışar. Bu, bir ahəngin yadigarı, bir xatirədir, deyər. Kimsə Həzrəti Mustafadan (s) üstün ola bilərmi? O, göydəki ayı iki yerə bölər.

Mən Qurani-kərimi, sadəcə, Allah buyurmuş, Peyğəmbərin (s) dili ilə ifadə edildiyi üçün böyük görmürəm. İndi ki, bir kimsəni görmədin, onda necə dəyişə bilərsən? Gərək bir az köməyi olsun sənə!

Yuxarıda adı çəkilən fəllah aftafanın yan tərəfindəki möhürü sökmüş, içindəki sirri öyrənmək istəmişdi. Aftafa da ağır, ağzına qədər dolu! Fəllah, aftafanın içindəki qurğuşun, yoxsa, qalaymı, deyə düşünmüşdü. İçi qızıldır, deyə ağlından belə keçirmirdi. Çünki fəllah idi. Onun bütün təxmin və düşüncələri aşağı səviyyəli idi.

Bu sözü yeddi cürə mənasıyla xatırlayın. Bu, sirr deyil. Sirr başqa şeydir. Çünki sirr ancaq kənar adamlar üçündür. Necə ki, Əlif hərfi çoxdur, amma başqaları üçündür. Bax ki, söz neçə hərifdir? İkinci söz birincini dartar və örtər, üçüncü söz də ikincini çəkər və örtər. Amma yenidən açıqlamağa başlayar, dönüb-dolaşar, ilk sözə gələr. Başqa biri də onun ətəyindən asılar. Bu yüz min cür dəyişikliyə uğraması, rəngdən-rəngə girməsi deməkdir. Sənə hər nə söyləsələr, cəld cavabını ver. Çünki "Nemət verənə şükr etmək vacibdir', buyurulmuşdur.

Ruhum bundan öncə heç yüksəlmədiyi bir məqama yetişdi. Artıq bundan daha uca məqam ola bilməz, deyirdim. O, mənim ruhumda dəyişdi, elə yüksəldi ki, ta lütf və rəhmət məqamına yetişdi. Gərəkdir ki, orada başqaları ilə danışarkən məqsədinin nə olduğunu biləsən, sənə layiq olan bir şeydə nə düşündüyümü anlayasan.

"Dində rahiblik yoxdur!" buyurulmuşdur. Bu, həmişə xalq ilə bir yer- də otur demək, deyil. Uzaqdan xalqı seyr et, ancaq onlara haqq sözü söylə, xoş və lətif bir dillə danış. Əgər bir zaman biri gəlib, sözün sirri başqadır, deyərsə, ondan (bəşər kəlamı ilə) özündə hərf və səs olmayan kəlamın fərqini soruşarsan. Əgər doğru cavab verərsə, onun ayağına sərilərsən. Yox, əgər bu kəlamın sirri nə ola bilər, o da kənar adamlar üçündür, deyər və dəlillər göstərərsə, bu xüsusda səni inandırarsa, onda vahimə, müdriklik və Allah qüdrəti görünərsə, o da bizim kiçik qardaşımız olar. Ancaq o elə mərd olmalıdır ki, özündə bir dərd, bir eşq olsun, hər cür keyfiyyət, xəyal və tərəddüdləri yandırsın, şübhə pərlərini yırtsın.

"Mənim Allahla elə vaxtlarım olur ki, aramıza nə bir kitab sahibi peyğəmbər, nə də Allaha yaxın olan bir mələk girə bilər", anlamındakı səhih hədis də bir dəvətdir, hal deyil. Yəni belə bir şey edin ki, bu, sizin halınız olsun, deməkdir. Bunlar həmişə dünyadır, dünyaya bərabər yaşamaqdır. Necə ki, o gün onun lap qəlbi qırıq halda oturduğunu gör-

düm. Çünki o artıq sultanın naibi deyildi. Vəzifəsindən uzaqlaşdırılmışdı. Amma bu gün necə oturur? Yeni qaftanlar geyinib! Bəli, (keçənlər unudulur).

Sən o kafir deyilsənmi ki, mən əzm və iradə ilə ona Allah qorxusunu göstərmək üçün gedəndə onun bütün halının alt-üst olduğunu gördüm. Onun o təcəlla qarşısında nə coşqunluğunu, nə də nəzarəti qalar. Halı da, sözü də həmişə talan olar. O artıq bu sözlərdən başqa bir şey söyləyə bilmədi: "Ey günəş, artıq nur saçma ki, yarasaların könlü inciməsin!" Amma günəşin işi-gücü budur, əlbəttə, nur saçacaq. Yarasanın gözü inciyər deyə, işığını tərk edərmi? Yenə dedi ki, hərçənd yarasadan, yaxud zəif gözlülərdən günəşə şam yoxdur. O həmişə nur saçar. Ondan ancaq günəşə tapınanlara qorxu var. Olsun ki, günəş kədərlənərək (bir buludun arxasında gizlənərək), özlərinə bir yaramazlıq edər, bu üzdən günəş nurundan uzaq qalarlar, deyə düşünürlər.

Yenə dedi ki, günəşə tapınan bir insan üçün günəş haqqına inanmaq gərəkdir. Çünki heç kimin günəşə qarşı saygısızlıq göstərməyə həddi yoxdur. İnanan kəslərin, əlbəttə, inanclarının qüvvətli olması lazımdır ki, dağdan aşa bilsin. Yeddi başlı aslanı görsün, qulağından yapışsın, inanc qüvvəti və gün işığı eşqi ilə qəm çəkməsin.

Yuxarıda sözügedən səhih hədisdəki məna, yəni Peyğəmbər (s) ilə Allah arasındakı bağlılıq, bir dəvətdir. Yoxsa yuxarıda söylədiyimiz kimi hal olsaydı, o hal içində "mənim" sözünə yer olardımı? Bərabərlik haradadır? Yaxınlar, mələklər, kitabla göndərilmiş (mürsəl) peyğəmbərlər kimi dörd ayrı varlığın nə yeri olardı? Bu sözlər söz olaraq deyilmişdir, bir-bir dəvətdir, amma heç ümidsizlik yoxdur. Bu hal əgər iki zaman içində əbədi qalsaydı, ilk zaman içindəki ümid olardı. İkinci zaman içində bir dövrə vurub keçərsən. Elə bir dövrə vurarsan ki, içində ümidlər və gülüşlər olsun.

Burada bir gülüş, bir sevinc, hər halda, bir qəmdən irəli getməz. Hər şeydən üstün sevinclər də belədir. Hər kəsin bir sevinci var. Zahidin, abidin, alimin, övliyanın, nəbinin öz sevinci olur. Nəhayət, bu sözün sirri o əzəldən bəri qədimdirsə, sözdəki sirrin sirri daha qədimdir. Bu baxımdan söz qılıncına boyun əyərlər. Bir söz də var ki, gözəldir, amma uzanıb gedər, ümidsizlik gətirər. (Sözün ən xeyirlisi qısa, fəqət geniş mənası olan sözdür). Həzrət Mustafanın (s) sözlərindəki gözəllik buna görə deyilmi?

Allah zatını örtən nə qədər zülmət və nur pərdələri var ki, bu minlərcə əngəl ümid kəndirini qoparar. Bir insan min il kitab oxusa belə, əsla Həzrət Mustafa (s) xarakterində ola bilməz və o oxumağın ona heç bir faydası dəyməz. Eşşəyə yük edilən bir çuval kitabın heyvana nə faydası olar?

Sənin yeni xarakterdə dediyin kəs də səni aldatmırsa, onda o zövqü

dada biləcək bir xarakter yoxdur. Halbuki, o zövqü duya biləcək bir xarakter istər. Sən onun sözlərinin yozumunu öz şəxsi anlayışına, yaxud fəlsəfi bilgilərinə görə verərsən, deməkdir. Bundan hansı könül rahatlığı olar? Birlikdə yaşamış neçə insan var ki, onun halından heç xəbəri olmayıb. Bu halda, onların nədən xəbərləri var? Ondan bir nəsib almaq üçün hansı yolla getsələr, bir şey əldə edə bilməzlər. Ancaq könül alçaqlığı ilə, ona aşkar bağlanmaqla, onun yolundan ayrılmamaq gərəkdir.

Görürsən ki, onun hüzurunda yersiz bir hərəkətdə bulunan da, bu mövzuda heç bir şey söyləməz. Biri söhbəti kəsib, yenidən söhbət eləməyə çaılşarsa, bundan çox məmnun olarsan.

Xilaf (Mübahisə) Mövzusu

Mübahisə eləməyi öyrən! Doğrudan-gerçəkdən usandınsa, xilaf elminin təhsilinə başla.

Xilaf fərqli söz və fikirlərin qarşılaşdırılmasıdır. Birinin sözü yalansa, bunun mübahisəsinə lüzum yoxdur. Bütün sözləri doğrudursa, yenə ortada anlaşılmazlıq və ziddiyyət olmadığı üçün mübahisə mövzusu ola bilməz. Daim, bu belədir, deyərsən və əsla əksinə bir iddiada bu- lunmazsan. Əgər məsələdə doğruluq olduğu açıq-aydın anlaşılırsa, bu həqiqət öz nəfsindən zühur etməz. Bunu sən nəfsinə görə iddia edərsən (isbata çalışarsan), istər həqiqət, istər yalan olsun. Mübahisə və inad etmənin, yersiz münaqişənin sənə bir faydası olmaz. Əgər iddia doğ- rudursa, əksinə düşündüyünə görə, Allah səni məsul tutar. Xilaf ilə məş- ğul olan insan övliya olsa belə!

Zuha Surəsinin Yeddinci Ayəsinin Mənası

Zuha surəsinin yeddinci ayəsində, “Səni şaşqın vəziyyətdə tapıb sığınacaq vermədimi?” deyilmişdir. Bunun mənası nədir? Bu, o deməkdir ki, Ya Məhəmməd (s), Allah səni şaşqın halda tapdı və sənə həqiqət yolunu göstərdi. Bunu hər kəs belə təfsir etdi. Haqq onu şaşqın vəziyyətdə tapdı, dedilər. Bəlkə Həzrəti Məhəmməd (s) nəfsini itirmişdi. Yəni itirdiyi nəfsini yenə öz nəfsiylə tapdı. Burada nəfs anlamına gələn söz müənnəs* edil- məz-zərifləd ilməz. Çünki bu, varlığın özü olan zatdır.

Ömərin (r.a) Məqamı

Həzrət Məhəmməd (s) Cəbraildən soruşdu: “Ömərin Allah qatındakı məqamı necədir?” Cəbrail bu cavabı verdi: “Nuh peyğəmbərə (s) verilən ömürdən dörd dəfə artıq ömrüm olsaydı da, sənə onun fəzilətlərindən söz

açsaydım, yenə sayıb qurtara bilməzdim.” (M.62) Həzrəti Peyğəmbər (s) yenə soruşdu: “Bəs Əbu Bəkir haqqında nə deyirsən?” Cəbrail bu cavabı verdi: “Ömər bütün üstün cəhətləri ilə birlikdə Əbu Bəkirin gözəl xasiyyətlərindən yalnız bir nümunədir.”

Dedi ki, bir qazanc ilə məşğul olursan, o bizim üçündür. Çünki günün birində bizə bir şey lazım olarsa, verərsən. İndi gərək çox qazanasan. “Filankəsin nə xoş halı var”, dedi. “Kaş mənim halım da belə olaydı!” Mən də ona dedim, sən madam ki, mənim dostum olduğunu iddia edirsən, üzümə qarşı bu sözləri söyləməkdən utanmırsanmı?

Dedi ki, yəni o, uca bir məqam deyilmi? Bəli, o yüksək bir məqamdır. Hal da yüksəkdir. Amma mənim dostum olanlar ondan razı qalmazlar. Sən bu sözünlə mənim qarşımda belə bir vəziyyətə düşdün. Məsələn, sən mənə, ən yaxın bir vəzirdən daha yüksəksən, gözəl danışar, gözəl

dinləyər, sirrimi anlayansan, amma kaş ki, Konya darğası olaydım, çünki

vəzir onu çox sevir, ona çox güvənir və inanır, deyirsən.

Sultan naibi olan vəzir yüksək himmətlə ona əmr versə və mən ancaq quru bir ünvan və isimdən ibarət bir insanam. “Hər işdə hökm və qərar sənindir”, desə, o zaman Konya darğası yenə yüz cürə əllaməliklər, yer öpmələr və yaltaqlanmalarla onun hüzuruna çıxmağa cəsarət edə bilməz.

Gərəkdir ki, zaman-zaman nəfs aradan çıxsın, səfa üz göstərsin, onda bir parlaqlıq müəyyənləşsin. Nəfs daha irəli gedə bilməyəcəyi son bir nöqtəyə yetişsin. O aydınlıq onda müvəqqəti olsaydı, nəfsdən gəl- məzdi. Amma sən onun yolunda olarsan, o bir gələr, səndə qərar tutar. Bu sözlərimizi işləri daha artıq gecikdirməmək üçün söylədik. Şairin,

Deyək ki, sevgilinin vüsalına yetəcəyik,

mənasındakı misra ilə işarə etdiyi kimi, bu beytdə zəiflik görünür. Amma hala münasibliyi baxımından çox qüvvətlidir, çınki o zəiflikdən vüslət qoxusu gəlir.

Mən yuxudayam, amma bu ayıqlıqdır,
Uyuyanlar mənim oyanıq olduğumu nə bilsinlər?

Dedi ki, əgər tikan varsa, ona bir atəş vermək gərəkdir. Dedim ki, O, Nuh peyğəmbərə (s) bağlanmaqdır, Mustafaya (s) deyil. Nuh peyğəmbər () “Ya Rəbb! Qövmümü doğru yola yönəlt’, duasıyla sözün zahiri tərəfini açıqlamaq istəmədi. Bu çiləyə çəkilənlər də Musaya (s) bağlandılar. Çünki onda bir az ləzzət duydular. Bu gün elə olmaq asandır. Belə

olsan, mənim də işim asanlaşar.

Mən iki yönlü bir adamam. Bir daşdan bir daşa əl ataraq, şahı öz yerindən qaçırıb mat olmaqdan qorxaram. Şah öz yerindən kənarda mat olmadan yenidən yerinə gələr. Bu şah isə heç mat olmaz, amma mat olan başqa şahlarla müqayisə edilər. Lakin elə evlərdə saxlanan mat olmuş şahlardan ayrıdır. O, bu sözləri söylədi, amma sən heç bir şey demirsən. Haqqı açıqlamaq üçün bir neçə söz söyləmək və hər sözə yüzlərcə qəti dəlil gətirmək mümkündür. Dedi ki, Allah qulluq əsasını korların əlinə verdi. Çünki onlar qulluğun həqiqi mənasına yetişə bilmədilər. Ola bilər ki, o əsanın köməyi ilə dua və namazdan bir qoxu ala bilsinlər. Bu, nə üçün belə olur?

Həzrəti Peyğəmbəri (s) bütün yetkinliyi ilə göz önünə gətir. Əgər bir kəs bütün xalqı oxudub yetişdirəcəyinə inanırsa, o hər şeydən xəbərsiz

bir kafirdir. Elə bir insanın heç bir səlahiyyəti, heç bir şeydən bilgisi yoxdur. Bəlkə eşq cəhətindən buna inanırsa, onda bir irfan var, deməli.

Həzrət Peyğəmbər (s) ayaqları şişənə qədər namaz qılar, "Allahu Əkbər!" deyərdi. O halda ikən dünyanın xaricinə çıxardı. Özü də elə çıxardı ki, istər yanındakı buğda tayları və yüz dəvə yağmalanıb aparılsın! O sidq-ürəkdən dediyi ilk təkbiri əldən verməzdi. Həzrəti Mustafa (s) bir gün olduğu məqamda Ümmu Məktumun salam verdiyini görmədi. O, üzünü turşutdu, o da üzrxahlıq elədi. Peyğəmbərin belə üzünü turşutmasına görə Allah da ona üzünü turşutdu. Çünki Allah onu cənnətlə müjdələnmişlər arasına ucaltmışdı. Üzr dilədikdən sonra, "Tövbə etdim', dedi. O zaman, "Bu Allahın xoşuna gələcək bir iş deyil. İki yüz dəvə göndər buğda gətir- sinlər, onu xalqa bağışla!" buyurdu.

Həşr* cəsədlərlədir, yoxsa ruhlarla?

Fəlsəfəyə görə, ruhlar həşr olunur. O, axmaqdır, ancaq öz yazdığı və öz bildiyini oxuyur. Yəni şər nəyi bilməzsə, onu mümkün olmayacaq sayır. Ona görə öz inancından kənar olan şeylər fəlakətdir. Bəyazid Bistami onun yüyənini tutsa belə, elədir.

Bəzi vaxtlarda könlüm çox daralır. Zaman olur ki, cavab verməli olduğun yerdə susursan. Bütün bu qeyri-münasib işlər buradan gəlir. Hər kəs bir şey söyləyir, sən cavab vermirsən, həmişə susarsan.

Nəhayət, sən evdə mənim nə qədər təhlükəsiz olduğumu görürsən, halımı bilirsən. Kənardan biri söz desə, mən bunu açıq-aydın görürəm, demirsən. Hətta günəşdən daha parlaq şəkildə gözlərimlə görməkdəyəm.

Dedi ki, əgər yanlış bir söz söyləsəm, yaxud xətalı bir iş görsəm, Şeyxinin surətini başqalaşmış görərsən. Sənə çirkin görünməyə başlayar. O

zaman xalqdan gizli olaraq, gecə yarısı Haqdan yaxşı əməllər diləmək-dən, Ona yalvarıb-yaxarmaqdan başqa çarə yoxdur. Allahım! Bu halı bizdən apar, gözümüzün önüdəki pərdələri uzaqlaşdır, deyərsən. Nəha-yət, gözlədiyin rahatlığı tapar və könül xoşluğuna qovuşarsan. Çünki o keçən hal başqa rəngdə görünən bir pərdə idi. İndi yalvarmaq gərəkdir ki, o pərdə yansın və heç kim bizdən bir fayda əldə edə bilməsin. Heç bir şey; nə dində, nə dünyaya aid işlərdə, nə hesab-kitabda bir şey əldə edə bilməsin!

Onun sözlərinə cavab verə və deyə bilərsən, madam ki, onda bir qüd-rət, bir nur və məhəbbət var, o, necə batil şeylərə inanar? Bu necə bir qüdrət və nurdur? Buyurursan ki, Əfrad zümrəsindən Allah dostunun

əllisi onun cilovunu çəkməyə layiqdir. Amma bir korun arxasınca kim gedər?

Deyirsən ki, Allah dostlarının nişanələri var. Sən övliyaların zatında-kı nişanəni bilməzsənmi? Övliyalar çarəsiz qalanda o gücsüzlüklərinə gö-rə onlarda ya könül açıqlığı hasil olur, yaxud ruhlarına bir bulanıqlıq gə-lər. Necə ki, İblis gücsüzlüyü üzündən zülmətdə qaldı, mələklər də eyni səbəbdən işıqlığa qovuşdular. Möcüzə belə olur. Haqqın ayəti də belə-dir. Aciz qalanda dərhal səcdəyə qapanarlar.

O, insanı ilk dəfə görən kimi tanıyıram, deyirdi. Böyük bir xəta için-dədir. Əvvəl qazı ilə bir şey danışmaz, vəzir ilə də bir şey eləməz. Sən əv-vəl yola gəl və otur. Əgər, "səndən başqasını da sənin üçün sevirəm" de-yərsə, sən bundan başqasını söylə. De ki, "Şəmsəddini istəyirsən, o za-man ürəyim yerinə gələr". Məni ona görə sevirsən, deyərəm. O hər nə de-sə, cavab ver, söyləməzsə, sən danışmağa başla. Səninlə birlikdə qor-xunc, sıxıntılı bir yerdəyik. O, filan yerdə otuz hərami öldürdü, otuz nə-fəri də əsir götürdü. Gördüyün bu adam başı yarılmış, qan içindədir. Mən isə dünyanı olduqca sakit, təhlükəsiz istəyirəm. Könlümü açan şey-lər oxu- yuram. Heç bir şeydən qorxum yoxdur. Məndən soruşur: "Sə-nin nədən xoşun gəlir? Otuz kişi gəlib ananın boğazından yapışsa, get, sənin də boğazından yapışsınlar ki, ruhun parıldasın, deyərsənmi? Xeyr, necə ge- dim, deyərsən." O halda getmə, otur. Bu İmad mənə hansı sə-nəti öyrət- di? Nəfsimlə bağlı işlərdə nə edə bilərəm? (Onu) aldı və saq-qalını bir-bir yoldu. Artıq tüklər danışa bilmir.

Mənə əmr gəlmədən öncə, məni döyərsənmi, dedi. Müridlər zərərli bir iş elədikləri zaman döyün, hətta hər saatda cəzaya hazır olardım. Çünki onun elədiyi işlərdə mənə ziyan gəldiyinə əmin oldum. İstər o mənim ru-hum olsun. Çünki nəfsim onu düşünmədən əldə etmişdir. Allah məni hansı şey üçün yaratdı? Söyləyəcəyim budur ki, məndən sonra girov is-təmə! Əmanət doğru çıxdı. O sözləri danışdığım zaman üzüm bu aləm-

dəydi. Bu təqdirdə əgər, o aləm daha xoşdur, deyərlərsə, doğru söyləmişlər. Bu halda o aləm haradadır? Elə isə sən nə üçün birlikdə bayıra çıxmırsan, deyirəm.

Bir icma ilə birlikdə otururduq. Orada bir nəfər də ərəb var idi. Mən çölə çıxdım. Allaha əmanət olun, dedim. Soruşdu: "Mənə xoş gəldin, səfa gəldinmi, deyirsən?" "Gözəl", dedim. "Mənim də məqsədim sizinlə birlikdə bayıra çıxmaq və danışmaqdı." Yolda ona, gözlərim dolmuş bu- lud kimi islandı, anlamına gələn bir misra oxudum. Nə üçün bayıra çıx- mazsan ki, birlikdə söhbət edək, deyirdim.

Şahab xoşxasiyyətli bir kafirdi. Nişapur ləhcəsi ilə danışırdı. Deyirdi ki, bir iş görərsən, özünü üzmə. Çünki sən erkəkdən də, dişidən də əl çəkmisən! Amma bizim Məhəmmədimiz məcusidir. Öz zatı ilə varlığı vacibdir. Bir daha qurdalayasan, Allah deyərsən. "Ona nə ad vermişlər",

- deyə gülərsən. Ondan iynənin ucu qədər bir nöqtə qalmadı ki, açıq-aydın görmüş olmayaq. Onun bu aşkar inancı, xoş halı zaman-zaman nədəndir? Nədən belə gəvələyir, dedim. Heç bir şey anlaya bilmədim. Xeyli araşdırdım. Onun bəzi qırıntılarını satan bir şagirdi ki, heç kimə iltifat etməzdi, mənə yaxınlıq göstərdi. Xeyirdir, inşəallah, dedim. Şagird məndən soruşdu: "Sən nə edirsən ki, bunların belə inanc və ittifaqını təmin edirsən?"

Mövlanaya, "Məhəmməd (s) Allahın Rəsuludur", deyirəm. Gecə yanıma gələndə üzülürəm. O, mənə, sus, deyir. Maraqlı bir şəxs var. Deyək ki, Məhəmmədi axtaran bir cahildir o. Mövlanaya, barı nə etdin, dedi. Dedim ki, mənim aləmdə bu cahillərlə bir alış-verişim yoxdur. Mən onlar üçün gəlmədim. O aləmdə haqqı ilə yol göstərənləri barmaqla sayaram.

Qadın və şəhvətlə məşğul olmaq, əlbəttə, zəif yaradılmışların işidir. Ağlın fətvası budur, deyirsən. Məhəmməd ona, bu ağıl fətva xüsusunda heç xəta etməz, demişdi. Xeyr, ağıl xəta etməz, xəta ancaq başqa şey- lərdir, dedi.

İmanda şirinlik gəlib-getməsində deyil.

Zeynəddin Sədəqanı gördüm, boş söhbətlər edirdi. Başı boş bir at üstündə vəhşi heyvanların dalınca çapan, yolunu azmış bir süvari kimiydi. Bu İmad isə min dəfə ondan yaxşıdır. Nəhvdən (Sintaksis), lüğətdən anlayışı var. Gedib-gəlmək sevgini artırar, deyərlər. Bu sənin işin deyil, ey bacısı fahişə! Sən kimsən ki, Yəhyaya övliya dediyin üçün o çox ağlamışdı. Əgər (sənin yerində) mən olsaydım, onun gözlərini silərdim. Çünki o günahsızdı. Ağlamağa məcbur edən də ancaq günahdır. Bu övliya kimdir? Qurani-Kərimdə nəbilərə əsla övliya deyilməmişdir. Onların mənim halımdan xəbərləri yoxdur. Onlar, Şamdan karvan gəlsin, yoldan bir xə-

bər gətirsin, gözlə, deyərlər. Sözlərimi belə dinləyəcəklərsə, yəni yalnız mübahisə və qarşılıqlı söhbət yoluyla məni dinləyərlərsə, onlar şeyxlərin sözlərindən, hədisdən, Qurandan bir şey anlaya bilməzlər. Məndən də məmnun qalmalarına imkan yoxdur. Amma əgər məndən faydalanmaq və ya feyz almaq yolunu seçərlərsə, bu yol duaların sərma- yəsidir, özləri üçün faydalı olar. Yoxsa nə bir gün, nə on gün, bəlkə yüz il belə söyləsələr, biz əlimizi çənəmizə dayayıb dinləyərik, deyərlər.

Saxlanması lazım olan bir daş-qaşı olduqca qalın bir qutunun içinə qoyaraq, qara bir yaylıqla sarımaqda və bunu on qat bir boxça içində giz- ləməkdə, dərilər içinə sarımaqda heyrət ediləsi bir şey yoxdur. Necə ki, Peyğəmbər Əfəndimizə (s) ruh qoxusu və ruhun gözəlliyi aydınlaşdığı vaxt öz ruhunu görmüş deyildi. Ruhun gözəlliyindən ona bir xəbər yetişməsi və onun ruhu görməsi uzaq bir mərtəbədir. Allah yolunda buradan getmək lazımdır ki, onu gözlə görə bilmək mümkün olsun. Həm bu həyatda, həm də dünyada Allahı görə bilmək mümkündür, deyirəm. Yuxarıda sözü gedən daş-qaş hər nə qədər o pərdələrlə gizlənmiş olsa belə, onda elə bir nur var ki, işığını kənara vurar. Dünyagörüşü mükəmməl olan kəslər onu kənara vurmadan da görə bilərlər. Amma o işıq kənara saçmadan bilməyənlərə, görməyənlərə heyrət edilməz. Əsl heyrət ediləcək məqam budur ki, işığı açığa çıxarar, əlinin içinə qoyarsan, yenə görməz. O, nə Sokratın sözünü, nə yunan fəlsəfəsini, Həzrət Məhəmmədlə (s) onun övladını, candan-könüldən sevdiyi əhli-beytinin əhvalını bilər. Elə bir insan torpağın və suyun övladı və Allahın qulu sayılmaz.

Həzrət Ömər (r.a) bir gün Töratdan bir parça oxuyurdu. Həzrət Məhəmməd (s) kitabı Ömərin əlindən aldı. “Bunu at”, dedi. “Gər bunun sahibi, yəni Tövrat onun üçün endirilmiş olan Musa (s) sağ olsaydı, mənim də ona üz çevirməyim lazım idi. Bir qəhrəman gəlib. Bütün işləri alt-üst edib, özü qurduğu dinin nemət süfrəsini açmışdır. Heç kim onun yolunda ruzisiz və nəsibsiz qalmamışdır. Necə olar ki, Məhəmmədin dövründə Musadan söz açılsın.” Burda məqsəd budur: Allahın yol göstərdiyi, ona ruzi və nemət verdiyi bir kəs hələ Allahı görmək xüsusunda bir şübhəsi olanlara korluqlarını göstərsin, ta ki, Allahı da tanısınlar, qullarını da! Bir rus belə bu qapıdan girər, bizi görər, iman gətirərsə, bizə üzünü çevirərsə, şübhə yox ki, bu şeylərdən çox, bizdən faydalanar. Çünki o, özlüyündən doymuşdur. Onun kimilərin sərmayəsi dua, yalvarışdır. Zəmanədən bir rüzgar əsmiş, onları dağıtmışdır.

Şeyx Məhəmməd seyid və dostlarının halına gülür və deyirdi ki, bütün vücudum Allahla dolmuşdur, sözü nə sözdür? Mən də gülürdüm. O, zənn etdi ki, onu dəstəklədiyim üçün gülürəm. Halbuki, mən onun halına gülürdüm. Sən öz-özünü görə bilməzsən. O, röyada idi, yuxu görmüş-

dü, deyirdin. Nişapurlu Şahab dostların arasındaydı. Bu Şahabın Şeyx Şəhabəddindən üstün cəhəti var. Şeyx Nəcibin mürididir. O Həllac onun Şeyx Şəhabəddinin müridi olduğunu boş yerə söyləmişdimi?

Şahab bir gün röyasında bir dağ başına doğru qaçır. Bir qadın da arxadan onu qovur. Dağın başına gələndə oradan aşağı qaçmağa başlayır.

Qadın barmaqlarını dodaqlarına apararaq, "o öldü", deyir. Mədrəsəyə gəlir, sərəh-səhər qapını döyür. Şeyx Şəhabəddin ölüb, deyə onlar işi böyütdülər. Şeyx Məhəmməd gizləndi. Bu, şeytandı, dedilər. Gündüz olanda gəlib gördü ki, kitabların arasında başını əlinin üstünə qoyub, gülümsəyərək can verib. Şeyx Məhəmməd onun gözlərini və saqqalını öpərək, vida etdi və getdi. Məclisdəkilər, xeyr, o ya Xızır idi, yaxud da bir mələk! Geçib getdi, dedilər. Zəmanənin işarələrini daşıyırdısa, bundan çaşmamalıdır.

Quran Tilavətçiləri

Elə tilavətçilər var ki, Quran onlara lənət edər, buyurulmuşdur. Amma bu, bütün tilavətçilər üçün deyil. Bu halda başqa tilavətçilər, hafizlər də var ki, bunlar Quran oxumağın alimləridirlər. Allahın xas qulları ki, Qurani-Kərimin yeddi cürə mənasına aşinadırlar. Çünki Quranın yeddiyə qədər sayılan-zahiri, batini, hətta batinin batini mənası var. Amma bu yeddi məna lazım deyil. Bunlardan hər biri xalqın adət və anlayışına görə dəyişir. Xalq bunlardan başqasını və daha o biri tərəfdəki mənaları da bilir. Bu, onun işidir. Quranın yeddi cür mənasını və ya yüz min cür mənasını bilmək başqa bir haqq vergisidir, bir lütfdür. Haqqı axtaran, Onun xas qulu olan şəxslər, sevgiliyə vaxtında necə naz edər? Bu mərtəbənin üstündə elə bir mərtəbə də var ki, ən seçilmiş qulların mərtəbəsidir. Quranda onların haqqında söz açılmaz, amma işarə var. Onun kimilərin, adı çəkilən Quran tilavətçiləri ilə bir əlaqəsi yoxdur. Onlar nə o bölgüdən, nə də bu bölgüdəndir. Allahın xüsusi və seçilmiş qullarıdır onlar. Bundan öncə onlardan söz açmışdım. Sənə görə də bu məna belədir, elə deyilmi, dedim. Sən zəhmət çəkmə, burada bir məcburiyyət yoxdur. Mənə suya getmək çətin gəlir, dedi. Damlar qarla örtülüdür. Görəsən, su lazım olarmı? Buyurdu ki, hər nə olursa-olsun, insan oğlu əvvəlcədən edəcəyi işi düşünməli və axıra qədər bunu eləməyə qərar verməlidir. O zaman çətinlik qalmaz, hər şey asanlaşar. Bu, köhnə bir qanundur. Qış, bəli, baharın yerinə qış gəlsəydi, vay, vay, bu nə vəziyyətdir, deyərdin. Mən belə düşünməmişdim. Bu, qanun deyil. Atadan-babadan qalma adətə görə, yay mövsümündən sonra payız gələr, payızdan sonra qış.

Qadın Hamamına Girən Kişi

Bir kişi qadın hamamına gedib lüt soyunur. Öz-özünə belə fikirləşir: “Olsa-olsa qadınlar başımı və saqqalımı yolacaqlar, məni dişləyib, das və daraqlarla döyüb-söydükdən sonra darğaya təhvil verib gedəcəklər.”

Amma heç düşünməmişdi ki, cinsiyyət orqanını kəssinlər. Şübhəsiz, o uğursuz saata qədər susmuşdu. O saat gəlib çatanda fəryad qopardı, belə dedi: “Mən elə fikirləşirdim ki, mənə etibar edib, xatirimi istəyirsiniz. Bəlkə qadınlar mənə qarşı şəfqətli davranarlar, könlümü alarlar.’ Bu gün belə olacağını düşünsəydim, bu işə heç yaxınlaşmaz, belə bir hərəkətə qərar verməzdim.” Məni dörd dəfə qadının qarşısına çıxarsalar belə, mənə çox ağır gəlməzdi. Mən ora getməyə bilərdim, məni oraya apar- maq üçün bəlkə də tapa bilməzdilər. Əgər o zaman başqa hiyləgərlik yollarına düşsəydim, mövsüm qışa dönər, bahar olmazdı, şəhərdə giz- lənər, səsimi çıxarmadan, məndən ancaq iki ay sonra xəbər alardınız. Çünki qış bir-birindən ayrı düşmüş dostların bir araya gəlmələri üçün yaxşı bir fürsətdir. Artıq, mən su kənarında dolaşmağa gedirəm, deyə bə- hanə uydura bilməzsən. Bayıra çıxdığın zaman baxarsan ki, bahar qışa dönmüşdür. Amma bir kəs məni yaxşı tanıyarsa, qışı bahara dönər. Mənə qarşı hər kim doğru və dürüst davranarsa, məndən ona çox rahatlıq və xoşbəxtlik yetişər. Məndən daha qüvvətli yaşayar. Nəhayət, mənim xati- rimə gəlməyən şeylər onun xatirinə gələr.

Bu bəhsdə yüzlərlə Əbubəkirə, Çuhaya şagirdlik etmək lazımdır. Amma bunların qüvvətlərinin dərəcəsinin nə olduğunu, işi haraya aparıb çıxaracaqlarını anlamadan nə üçün görək bu işi?

Allah-təala öz xas qullarından belə gizlədiyi sirlər xəzinəsindən saçdığı parlaq nuru ilə sizi işıqlandırsın.

Neçə Cür Sərxoşluq Var?

Sərxoşluq dörd cürdür, deyərlər. Sərxoşları bu dörd qrup içərisinə toplayarlar. Deyək ki, sən İmadsan, sənin davan Allahı görmək bəhsidir. Sən şalban qoltuğunda zavalı dustaqsan. Necə layiq görərsən ki, bir dərviş bu babdakı ayəni təfsir etsin, Musa (ə) Allahı gördü, deyə bilsin? Yəni Musa (ə) özündən keçmiş halda bəlkə Allahı görə bilmədi, amma Quranda, “mütləq görə bilmədi”, demir. Yəni Musa (ə) o durumda səndən ayrı yetərsizdi. Bu hal necə olur? Və mən deyə bilərəm ki, Musa (ə), özündən keçmiş halıyla Allahı gördü. O nə üçün sənə gəlsin, sən nə üçün ona gələsən. O, alimdir, vaizdir, tədqiqatçıdır. Mən isə şeyxəm, kamil in-

sanam. Onun biliyi onun üçün lap əlçatmaz bir hünərdir. O, doğrudan doğruya Haqqı axtarmaqdır. Sən isə saxtakarıqda şeyxsən. Dünyanı istəyən, təkyəni gözləyən, ərmağan qəbul edən bir insansan. Halbuki, o bütün bunlardın əl çəkmişdir. Hələ bu saatda sən İmad sayılırsan. Çünki ondan sözlər axtarırsan.

Sən soruş ki, mən də cavab verim. Hələ başqa nə söyləyirsən, gəl

söylə. Mən ondan söz axtarsam, mən mən deyiləm demək. İndi söylə, başqa nə axtarırsan? Nə dinə, nə də dünyaya yarayan soyuq və donuq şeylər. Bir az gəzəcəyəm, deyərsən.

Xəlvətdə sənə onlardan uzaqlaşmaq düşər, yoxsa onlara səndən ayrılmaq yaraşar? Siz bizdənsiniz, biz də sizdənik. Halbuki, onlar bizdən, biz də onlardan deyilik Allah üçün! Onların saçı-saqqalı var, mənim hələ ki saqqalım yoxdur. Bax burada Mövlana ilə son görüşümüz belə oldu. Mövlana bizdən çəkinirdi. Yalnız qaldığımız zaman ona iki-üç gün üst- üstə xəlvətdə görüşmək lazım oduğunu söylədim. Mənə qəti olaraq söz versən, bunun necə olacağını başa salım, dedim.

Günəş bütün aləmi işıqlandırar. Mənim ağzımdan çıxan sözlər ilə lap parlaq görünməklə bərabər qara pərdələr altındadır. Bu günəş onların arxasında qalmışdır. Üzü göylərə dönmüşdür. Halbuki, yerlərin də, göylərin də işığı ondandır.

Günəşin üzü Mövlanaya tərəfdir. Çünki Mövlananı da üzü günəşə

qarşıdır.

Quranda Allah-təala, “Bizim uğrumuzda cihad edənləri öz yollarımıza (Bizə tərəf gətirib çıxaran behişt yollarına) qovuşduracağıq,” (ən-Ənkəbut surəsi, 69) buyurmuşdur. Bax, bu ayə bu məqama işarədir. Yuxarıda adı çəkilən ayənin əvvəli və sonu bu səbəbdən bir-biriylə əlaqədardır. Məqlubdur*.

Əvvəl sualda məqsədin nə olduğunu anla, ona görə də cavab ver! Müxtəlif və çox asan suallar əvvəl çətin görünər, amma sonra xatırlamağa kömək edər. Sənin söylədiyin, “Ondan başqa ilah yoxdur”, sözündəki o kimdir? Kimə işarədir? Biri deyir ki, bu, məsciddə bir minbərdir, başqa biri bu sözü bu çılpaqlığı ilə söyləmir. Həzrəti Məhəmməd (s) müxtəlif işarəli sözlər söyləmişdir. Amma bu qədər çılpaq və açıq danışmamışdır. Bu, əsla söylənməz də. Çünki sözləri anlaya bilən xalqdan biri də mənəm. Xalq içinə girib, onlarla qaynayıb-qarışmış qaydalar sünnət ola bilməz. Əgər məndən sonra mənim qardaşım gəlib desə, bu, növbələşmə mər- təbəsində ən kiçiyi gəlir, deməli. Bir gün növbə sırası gələndə həmişə se- vinc, nəşə və məmnunluq olar. O gün rəqs, hərəkət və gülmək günüdür. Əgər bu gün, növbə yoxdur, deyərlərsə, vaz keçək. Dağdaşı dəlib keçən bizim sözümüzdəki o çalxantıdan mürşidimiz necə məhrum olsun? O Şeyx Əbubəkir (Səllədaf) sizin beş nəsihətinizi dinləsəydi,

bir daha sizi dinləməyə tab gətirə bilməzdi. Bir dəfə onunla eyni cinsdən olmaq la- zımdır. Bu gün lap aşağı səviyyədə gördüyün bu şəxslər bir gün gələcək

ki, gözəllikdə şimşək kimi gözlərinin önündən keçəcək. Sən bu görüntü qarşısında, bizə də baxın ki, nurunuzdan biz də işıqlanaq, deyəcəksən. Amma heç faydası olmayacaq sizə, artıq geri qayıdın, deyəcəklər.

Dağdakı Zahid

Dağda bir Zahid yaşayırdı. Amma o artıq iman gətirən Zahid deyil, bəlkə dağ adamı olmuşdu. İnsanlıq dəyəri olsaydı, fəhmi və dəyəri olan Allahın yaratdığı qabiliyyətli insanlar arasında yaşayardı. Dağda nə edərdi bu? O, bir torpaq idi ki, daşa doğru yönəldi. İnsan oğlunun daş ilə nə işi, nə əlaqəsi var?

İnsanların arasında yaşa, amma tənha olanda daim Allah ilə xəlvətdə ol. Həmişə təkbaşına qal. Amma Həzrət Peyğəmbərin (s), "İslamda ra- hiblik yoxdur", buyurduğunu unutma! Bu, bir baxışla rahibliyi qadağan edən tövsiyədir.

Dağdan ayrılıb insanların arasına qarışanları xalq, barmaqla göstərilən bir elm və mərifət adamı sayar. Sözü gedən hədisin başqa bir mənası da evlənməyin, qadından ayrı bir həyat sürməyin müsəlmana yasaq olmasıdır. Hələ qadın al, subay yaşa, bu necə olar? Yəni könüldə olan, xoşa gələn hər şeydən uzaq yaşamaq nə deməkdir?

Hər il bütün şəhər camaatı və padşah dağdakı Zahidin görüşünə gedər, o da xalqın ona belə sevgi və mərhəmət göstərməsindən məmnun olardı. Elə bir vəziyyətə düşərdi ki, artıq başqa heç bir şeyə istəyi və arzusu qalmazdı. Yemək-içməkdən büsbütün vaz keçmişdi. Bir gün qərib bir dərviş oradan keçirdi. Ondan soruşdu: "Bayram deyil, Novruz deyil, bu yığıncaq nədir?" Zahid cavab verdi: "Divanəsənmi, Məcnunsanmı?"

Şeir:

Anlamaz Leyla yazıq, avarə Məcnun halını, Halını Məcnunun ancaq, sadəcə Məcnun bilər.

"Sən divanəsənmi", deyəndə, dərviş, "belə demə", xahiş elədi. Zahid, onda tövbə etdim, haqqını mənə halal et, deyərək dərvişin ayağına yıxıldı. Dərviş öz-özünə, "sənin bu sözündən mənə bir zövq qoxusu gəldi",

dedi. Bu tövbənin, könül alçaqlığının bərəkətindən hasil olan bir zövq idi. Zahid "bu dağda bir Allah adamı var, onun ziyarətinə gəlirlər", dedi. Mövlananın buyurduğu kimi, əgər sözü qüdrətimizin kamalı ilə söyləsək, bu insanın daha çox xoşuna gələr. Ürəklə, ruhla, məna ilə, ibrətlə söylənilən sözlər daha xoşdur. Amma bəzən də aldadıcı olur. Yoxsa, sussaq daha yaxşıdır!

Cavab verdi: "Əgər sussan, dediklərin daha aydın olar. Çünki sükutda

həm səssizliyin işığı, həm də danışmağın faydası gizlənir."

Yüz min rəhmət sənin xatirinə olsun ki, bütün aləm əsla, o xatirdən keçməz, heç bir tərəfə iltifat etməz. Bu saat mənim aləmimdə onun xatiri belədir. Mənim düşüncəmə görə, zahirdə işimin doğruluğunu anlayaram.

Ey Şah! Xalq içində olduğun halda, bir saat da olsa xalqı özündən uzaqlaşdır. O vaxtacan ki, şah dərvişin ziyarətinə getdi, desinlər. Həm də elə bir evə gedək ki, orada şah hansı, dərviş hansıdır, bilinməsin.

Bu, bir hekayə deyil. Bu, sözdür, amma onu əsla səninlə danışmaq istəmirəm. Ancaq sən çox mərhəmətlisən. Hanı bəs, o gün mənə, "səndən bir şey istədiyimə peşmanam", demişdin. Səninlə qəzil keçənin üstündə oturmaq belə xoşdur. Amma bu, bir borc deyil. O keçən günlər bir şey deyil. Bir-birinə uyğun gəlməyən şeylərdə ya bu biri tərəf yalançıdır, ya o biri tərəf. Əgər o tərəf yalansa, bu halda mənim tərəfimi tutarsan. Bəzən o aləmdən, bəzən o biri aləmdən qəribə sözlər deyərlər. Ariflərdən, aqillərdən bir şey nağıl edərlər. Bu aləmdən bir şey eşidir, heyrət edərlər. Yəni bu aləm xalqı işi həmişə bu aşağı səviyyənin və elmsizliyin ucbatındandır. Heç zəif sözləri öyüd yoluyla söyləyərlərmi? Yoxsa, "sən hələ bu məqamda qalmısan, burada qalma", deyərlər. Bu saat tamam oldu, nə desin? Hər kim olursa-olsun, minbərin üzərində verilən bu əmrlərin qarşısında cavab verilməkdə aciz qalar. Keçmişi xatırlamaq istəmirəm, deyirsən. Onlara faydalı olan filan məsələ haqqında danışıram, yoxsa məcburi bir iş deyil. Zaman-zaman əmri tərk edirsən. Məcburiyyət olmazsa, o başqa! Bu gün məcburiyyət olanda qazı belə məhkəmə qapısından geri dönür. Allah peyğəmbərlərə, övliyalara göstərmədiyi çətinlikləri mənə göstərdi, deyib şikayət etmə! Sən əmri yerinə yetirməkdə qüsurlusan. Sən istəyirsən ki, ömrü boyu belə olsun. Halbuki, əmrlər yerinə yetirilməsi mümkün və sənin də onu yerinə yetirməyə münasib olduğun üçün verilmişdir. Amma bu gün sən əmri yerinə yetirəcək gücə sahib deyilsən, necə əmrə uya bilərsən? Həzrət Peyğəmbər (s) belə əmrin ağırlığı qarşısında, "Hud surəsi və buna uyğun əmrlər məni qocaltdı", buyurmuşdur. Əgər "o əmrləri yerinə yetirmək Peyğəmbərə (s) çox fayda verirdi" deyirsən, "sənə də heç bir zərəri yoxdur." Çünki, "sənə yazığım gəlir", de-

yirsən. Amma o heyfslənmə öyünməkdən daha aşağı bir boşboğazlıqdır.

O, comərd, yeni müsəlman üçün, "Tövbə etmişdir", deməyə könlüm razı olmur. O dərəcə düşkünlük, özünü aşağı səviyyəli görmək lazım deyildi ona. Onların hamısını cansız bir kəsək parçası sayırsan. Mənim

qarşımda da o qorxunu duymazlar, mənimlə bir yerdə olduqları zaman da. Ancaq onları yola gətirmək məqsədi ilə yeddibaşlı aslanın nağılını necə danışım?

Dərviş padşahın hüzuruna gəldi, salam verdi. Mənə qulaq as, dedi. Padşah dərvişin şirin danışmasından atının yüyənini çəkdi, qəlbi duruldu, atından endi, öz-özünə dedi ki, bu dərviş nə istəsə verəcəm. "Malmülk, hətta ən gözəl qızımı istəsə belə, yolunda fəda edərəm." Sonra dərviş- dən soruşdu: "Ey dərviş, məndən nə diləyin var? Hər nə istəyirsən de, o an verim. Çox dadlı bir nəfəsin var." Bəli, dedi dərviş, xoş nəfəs dərvişli- yin dəyəridir. "Sən mənimlə bir neçə söz danışdın. Mənim sözüm sənin sözünlə elə şirinləşdi ki, səni atından endirdi və eləcə mənə boyun əydin! Əgər məni dinləmək şərəfini əsirgəməzsən, söz sənin varlığnla tamam olar."

O sözlər kimin qədərini dəyişdirməyə yarayar? Canını vahimə və qorxu alar. "Aman, o mən olmayım", deyərsən. "Xeyr, sən deyilsən", deyirəm. Məndən və səndən sonra həqiqi bir istəkli gərəkdir ki, o öyüdlərin təsiri bilinsin. Bu gün nə qədər bu əmrlər başqalarnıa çətin görünsə belə, ən müvafiq olan cəhət bir əmrin sənə çətin gəlməməsidir. Bəyazid mənim söhbətimə tab gətirə bilməz. Nə bir gün, nə beş gün. Amma bir kəsə ki, quşum qonmuş, söhbəti xoşuma gəlmişdir, onunla nəsihət barəsində danışaram. Bir şeydə ki, kök və təməl var, yaxşı baxsan, asanlıqla görə bilərsən. Sənə xoş gələr o tamaşa. Bunun səbəbi budur: Əgər siz geniş mənada bu dünyaya layiq insan olsaydınız, sizə başqalarının yardımı lazım olmazdı. Ancaq belə deyilsiniz, bu yardım gərəkli olur. Bu saatda Peyğəmbərin (s) şəfaətindəki sirri anlaya bilərsiniz.

Gecə yarısından sonra üzümü ona tərəf çevirdim. Umduğuna qovuşmuş bir naümid kimi məndə bir ümid meydana gəldi. Amma sən, sənin yanında danışmaq mənə haramdır, demişdin. Bəli, bizim yanımızda çox haramdır, amma icazəsiz olsa. Əgər mənim icazəmlə olsa, o zaman danışmaq halaldır.

Ayaz Sultan Mahmudu (Sultan Mahmud Qəznəvidən söhbət gedir, Ayaz da onun köləsi olub-R.M.) bir dəfə söymüşdü. Amma Sultan onu öldürmədi. Çünki Sultan həmişə, hardadır o qurban ki, Ayazın ayaqları altında kəsim, dəyərdi. Bunlar kimi min dənəsi belə onun yolunda ölməyə layiq deyil. Sultan Mahmud Ayazın ayağını kəsdi. Bu, imanın sirridir, ruhun azuqəsidir. Ancaq onun nəsibi olan sevgidəki hərarətin, on-

dakı zöv- qün arası kəsildi. Kəzərvəni, Xocəndidən daha gözəl vəz edərdi. Daha şirin və mehriban danışardı. Məsələn, hər hansı biri üçün, mən ona inanıram, deyərdi. Bu yetkin bir gəncdir, belə deməz, belə düşünməz: O, Mövlananın susduğu kimi susmaz, bəlkə ona uyğun cavab verərdi. Allah haqqı üçün onun kimi min dənəsi Mövlananın bir telinə belə dəyməz. Bütün fənlərdə, Allaha and içərəm ki, Həzrət Musa (ə) belə onun tayı ola bilməz. Mövlana yaradılandan hazırcavabdır. Qarşısındakını susdurar, bütün bu olub-keçən şeylər sənə mənim tərəfimdən və həmişə sənin susmağın üzündən olmuşdur. Nə gözəl bir iftiradır bu! İşıqlandırıcı min doğru sözdən daha parlaq, daha xoş, daha mübarəkdir. İmad sözümü dinləmədi, tələsdi. Əslində çox vaxt inanıb dinləsə də, soyuq davranardı. Bax onda ilk dəfə görünən bu güc, ömrünə bir gün qalsa belə, hər hansı bir şeyi anlaya bilmək üçün onu təfsir etməsində, yozumunu vermək istəməsindədir.

Ondan bir gün soruşdum: Təbrizdən nə zaman çıxdın? O zahir əhli insanlardan, yəni təhqiq* əhli olmayan zahir alimlərindən kimisə gördün- mü? Bunları soruşmaqda məqsədim, o zahir əhli olan insanlar bir gün suyu azalar deyə dənizə susayarlar. Onun hansı dəniz olduğunu anla! Ona cavab verərsən. Çünki sən ona inanırsan. Bu cavabda onun ucalığı səni sarar. Amma sənin cavabın onları doydurmaz və təsir etməz. Çünki sən yüksəliş və ucalma yolunda məni xatırlaya bilməzsən. Hər hansı bir şey haqqında bu sözü örtülü şəkildə söyləmək lazımdır. Bu söz tulumdan sızan su kimi axıb gedər, deyərsən.

Batin mövzusu bütün bunların xaricindədir. Mən öz halımda davam edib getməkdəyəm. Əsla, bu haldan daha irəli keçmərəm. Mən necə olar ki, sənin məni düşündüyün kimi zaman-zaman səninlə birlikdə ke- çirdiyim o aləmi xatırlamayım? Sən də bilirsən ki, hər ikimiz də eyni şə- hərdənik. Mənə dedi ki, sən şübhəsiz, Haqdan sərxoş olaraq gəldin, amma şərabdan sərxoş olanlar kimi deyil. Bəli, mən həqiqətən içdim. Lakin xalqın arasında iki qədəh içib sərxoş olanlar da var, minlərlə qə- dəh boşaltdığı halda, üzü qıpqırmızı olana qədər içib, ayıq qalan, ətra- fındakıları tanıyan, ağlı başında olan insanlar da var, dedim və öz-özü- mə, ən yaxşısı, bu bəhsdə, “xeyr” demədən sən də etirazı yığışdır, “bəli” söylə, deyə düşündüm.

Ən yaxşısı, bu mindiyimiz eşşək bizə bağlı qaldıqca, ona bir şey lazımdır, dedim. Onlar üçün təkbaşına qalmaqdansa, bir yad adamla bir yerdə olmaq daha xeyirli görünür. Xalqın yad olanı sanar ki, bu qənaətlər tamahkarlıqdandır. And içərəm ki, qardaşlarım məni tanısaydılar, çox gözəl olardı.

Həzrət Əli (ə) buyurmuşdur ki, kişilik üç yerdə bəlli olar: 1. Döyüşdə. 2. Qadın qoynunda yatında. 3. Aldanmamaq üçün alış-veriş edəndə. Halbuki, Həzrət Əlinin (ə) comərdliyi qarşısında xəzinələrin beş qəpiklik dəyəri də yoxdur. Fəqət, o, bunu öyüd olaraq deyib keçmişdir. Mən də sözün məzmununu göstərmək üçün söyləyib gedərəm. Açıq danışaram və dünyadan köçmüş dahilərin ruhlarını həsrətlə yad edərəm.

Sizinlə bir sirdən danışıram ki, bunu nə Mövlana, nə də əvvəllər gəlib-keçmiş dahilər eşitmişdir. Çünki son yetişənlər arasında Həzrət Məhəmməd (s) dünyadan köçəndən sonra Allaha da iftira atanlar, Allahın və peyğəmbərin demədiklərini söyləyənlər var. Bu halda eşitmədiyin şeyi danışma. Öncə sözə başlayıb, bu söz açıqlandığı halda və nəticədə filankəsin bunun əleyhinə olacağı meydana çıxacaqdır. Əgər əvvəldən belə vaizlik etməsəydi, səni heç kim tanımayacaqdı. Amma işin sonunda, o, böyük alimdir, üstün bir zatdır, deyəcəkdilər.

Mövlana hərarətli danışmadığı zaman da onu sevərlər. Fəqət onda fəsahət* nəşəsi yoxdur, deyərlər. Amma daha mülayim danışmağa başladımı, o vaxt onun həqiqi dəyəri anlaşılar. Sözlərindəki şirinliyə, gənclər də, ahıllar da aşiq olar. Onu sevərlər. Onun mənimlə bərabər olduğunu bilərlər. Mənim onların inandığına inanmadığı yolundakı sözümün məna- sını da anlayarlar.

Mövlana da bu dərəcəyə enmişdir. Lakin bilmirəm ki, məndə də bir hal var. Mən buna baxa bilmirəm və bizi qınayanları da əsla vecimə almaram. Bu, xudbinlikdir. Şübhəsiz, mən bunu söyləyəndə, sən eyni şeyi deyirsən, ikimiz də bu mövzuda birləşirik. Amma mənə gəlincə, söyləməydiyim şeylər ikiqat artıqdır. Bu məqamda qüsurlarım sonsuzdur. Buna görə sözdə daha çox məzmun axtarıram. Mövzudan kənara çıxa bilmirəm. Bəzən vaz keçirəm, sözə yalvarıram. Məni şübhəli vəziyyətə salma, deyirəm. Allahı axtaranların içində bir nəfər də yoxdur ki, axtardığı yolda yetkinləşmiş olmasın. İstəyən niyyətində kamilliyə çatmış, axtarılan sevgilini sevmək bəhsində hələ yetkinləşməmiş isə, demək o qərarsızdır. Amma sevgili sevilmək mövzusunda yetkin hala gəlmişsə, hər ikisi bir- biri ilə anlaşmış və qaynayıb-qarışıb demək. Bu baxışa görə, arifdən üstün bir şey yoxdur. Amma (digər dünyagörüşə görə) ondan üstün bir məqam var.

Deyək ki, bir vəzir var. Sultanın xarakterindən xəbərdardır. Huyunu, xasiyyətini, qəzəbləndiyi və xoşladığı hər şeyi bilər. Bunu heç kimdən soruşmadan qavramışdır. Amma o vəzirin bütün bu yaxınlığı ilə bərabər həyatı üçün təminatı yoxdur. Çünki neçə vəzirin boynu vurulmuşdur.

Ayazın canı güvəndə idi, rahatdı, heç bir şeydən qorxusu yox idi. Günah etdiyi, hər hansı bir şeyi qırıb-tökdüyü, yaxud üst-başını islatdığı, libasına yemək töküb çirkləndirdiyi anlarda belə günahkarlığına rəğmən Sultanın başını qatar, onu bütün günü nəşələndirər, əyləndirədi. Sultana onun bütün ziyanlı işləri xoş görünərdi. Çünki Ayaz çox sevimli bir uşaq idi. Vəzir onun bütün bu zərərli hərəkətlərini bildiyi halda, necə olardı ki, ona gözünün ucu ilə baxsın? Sünki Sultan minlərlə kəlləni onun yolunda fəda edərdi.

Sultan vəzirə bir əmanət etdiyi zaman onu heç kimə açıqlamamasını tənbeh etməyə belə lüzum görməz, vəzir də bu sirri saxlamaqda çox diqqətli davranar, onu qəbrə qədər heç kimə açmamağı gərəkli bilərdi.

Həzrət Məhəmmədlə (s) birlikdə oturarkən Musanı (ə) görmək is- təsən aldanarsan. İsanı (ə) görmək də belədir. O, ovların ən böyüyünü ovladı. Amma Musanı (ə) görsəydin, onu Həzrət Məhəmməddən (s) tapardın. Nə zaman onun adı ilə bağlı sənə bir şey söyləyib və onun şücaətindən bəhs edərlərsə, bil ki, onu Həzrət Məhəmməd (s) söyləmişdir. Əgər Tövratı oxuyub, onun keyfiyyətini o kitabdan dinləyər və Həzrət Məhəmməddən (s) istəyərsən, Həzrət Musa (ə) min kərə, "Ya Rəbb! Nə olaydı, o peyğəmbərliyi mənə verməsəydin, yaxud bir zaman yerimdə oturub, onun xarici görünüşünü görə bilmək üçün bir az gecikdirsəydin!" dediyini görərdin. O halda gəl sən və mən altı ay o Həzrətlə bir yerdə oturub, ah və fəryad edək. Dünyada könül açan Yasin surəsini dinlə. Dünyadan danışanları dinləmə. Mən sadiq olduğum şəhərdən ayrıldım. Öz-özümə, "Yeri, öz aləmində ol", dedim.

Məndən soruşdular, nə iş görürsən? Bu aləmdən xəbərin varmı? Bunu gördünmü? Əlbəttə, gedib görərəm, dedim. Bu yola gəldiyim za- man, budur sənin aləmin, dedilər. Bu aləmdən nə anladın? Sənə bir mə- lumat vermədilərmi? Yenə dedi ki, siz o aləmə layiq deyilsiniz, o hamam tiyanından əl çəkin. Amma burada sənin mənə təriflədiyin bir ölkə ol- duğunu gördüm. Orada nə işin var, başa sal bizə, dedi. Bu aləmi sən tanımırsanmı, dedim. Niyə tanımıram, sən də tanıyırsan, dedi. O halda gəzək ki, gözün, könlün açılsın. Burada nə gözləyirik? Hər cəmiyyət bu qəbrin yanından keçər. Şübhə yox ki, dünya ətrafında atəş yanan bir qə- birdir, içindəkiləri yaxşı yana bilməsi üçün yumşaldar.

Kəzərvani dedi ki, Allahın bir qulu var, başına bir hal gəldiyi vaxt qəbirlərin üzərinə üzüüstə yıxılıar və kimsə gəlib başını yerdən qaldırmasa, beləcə qalar. Bu adam bir bəlaya düşdüyü vaxt, bu adam zəifdir, gücsüz və biçarədir, deyərsən. Amma necə deyə bilərsən ki, bu adam Həzrət

Məhəmmədə (s) ümmət olmaqdan vaz keçib, Nuh peyğəmbərin (s) ümməti oldu. Dedi ki, hərçənd peyğəmbərlərə bağlanmaq vacibdir. Bir

dəfə düşün, dedim. Bu, caiz olarmı? Sonra, mənim cavabım bu deyil, deyərsən. Soruşduğun sualları fikirləş bir kərə. Mənim cavabımı düşünmə, qorxuncdur, dedim. Güldün və dedin ki, cavabını fikirləşdim, onun üçün məndə bir qorxu hissi yarandı.

Bunu mənim xamlığıma görə edirsən. Çox danışmaq istəyi ancaq sözü mənalı və düzgün söyləyəndə xoşa gələr. Çünki istək artıq olanda sözə pərdə olar. Bu həmişə belədir.

Bir kağız haqqında fikirləş. Hesab elə ki, kağızın bir üzü sənə, o biri üzü sevgilinə tərəfdir. Yaxud hər üzü bir başqasına çevrilmişdir. Kağızın sənə çevrilmiş üzünü oxuya bilərsən. Amma əsil dosta və sevgilinə tərəf çevrilmiş yönünü oxumaq gərəkdir.

Hər bişirdiyini yemə. Turşuyub, soyuqdur, mədəni ağrıdar. Sənin üçün şirinlik turşumuşdan daha yaxşıdır. "Ah, ah, ah!" deyib ağlayan xoş ağlar, amma "ha, ha, ha!" deyib gülən elə gülməz. Artıq nə qədər "ha, ha, ha!" deyib-güləcəksən? Elə gülmək sənə göz ağrısı gətirər. Üç dəfə, "Haykanko Kokor" (bu sözün hansı dildə olduğu və mənasını öyrənə bilmədik - Tərcüməçidən)" de. Sənə danışmaq lazımdırsa, belə edərsən, amma bizim o yetim pişiklərimizə bunun nə fayadası olar? Hələbdəki xalqın arasında yazıla biləcək bir şey, yəni xəbər yoxdurmu? Sənin üçün düşünüb, üzüləcək nə səbəb var ki? Orada mənim yerimdə, mənim kimi min nəfəri taparsan.

Mənim indi Əbu Səid Əbül-Xeyrdən bu mənanı verən bir beytini söyləməyim gərəkdir:

Beyt:

Çox utanmaz, açıq-saçıq insanlardı, həmişə belə idilər.
Adlarını desələr, rəzil olarlar, böyüklərini də rəzil edərdilər.
Bu yol çox qəribə və gizli yoldur. Budur darğalar sizə, yol bu yol deyil,
əsla burdan keçməyin, deyərlər.

Altı tərəf də Allahın nuru ilə işıqlanıb. Zavallı filosof yeddi fələyin çölündə qalıb. Uzaqda boşluq içində görünən hər şeyin, əlbəttə, bir həqiqəti, həqiqi bir tərəfi var. Necə ki, Quranda, "Məgər Biz yeri döşək etmədikmi?! Dağları da dirək?!" (ən-Nəbə surəsi, 6-7) buyurulmuşdur. Bu ayədə adı çəkilən dirəklər, nə dağlar, nə də daşlardır. Ancaq bunlar bir-bir zikr edilmişdir. Görmürsənmi ki, bu dağlar yerlərində durarkən səma

ona çadır kimi qurulmuşdur. Amma əgər bunlar yerin dirəkləri olsaydı, o çadır havada necə qurulardı?

Mən, Allah-təala Mövlanaya uzun ömür versin, deyim, sən də "Amin!" de. Allah onu bizə, bizi də ona çox görməsin. Hamımıza da uzun ömür versin! Amin!

Hər kim üçün, Allah uzun ömür versin, deyə dua edərlərsə, sən də "Amin!" de.

Allahım, dünyanın gündoğanından günbatanına qədər, o kuzə su ilə dolmuşdur. Dedilər ki, duaçı ilə bu dua haraya sığar? Bir qab su ilə dopdolu ikən, O su göndərmişdir. Məni anladınmı? And içərəm ki, sən məni anlaya bilmədin. Əgər anlasaydın, bütün vücudundakı əzaların tit- rəyər, qəlbin çırpınar, sarsılarsan, içindən gələn bir səs sənə: "Bu, övli- yadır! Bu, yeri-göyü, onların arasındakı bütün varlıqları yaradan Allah-təala dostlarının ən güclüsüdür!" deyə hayqırardı və "bax, bu hazır bir övliyadır" deyərdi.

Bu sevimli dost budur, burada oturan insandır. Şübhə yox ki, ha- radasa sevən də oradadır. Amma bu qəflətdə bir səbəb var. Lakin bu dərəcədə deyil. Mən səndən daha qorxuncam. Bundan öncə mənimlə bir yerdə olduğun zaman elədiyin xidmətlərdən utanardım. İndi isə heç çəkinmirəm. Çünki arifə tapılmaq boş şeydir. O bərabərlik mənlik davasından uzaqdır.

Həzrət Peyğəmbər (s), "Ya Rəbb! Biz sənə sənin böyüklüyünə yaraşan şəkildə qulluq edə bilmədik", buyurdu. Bəyazid Bistami isə, "Nə xoş- bəxtəm ki, nə uca şöhrətim var!" deyə öyündü. Hər çağda tək bir həqiqət var. Lakin şeyxin həqiqi müridi daim özü ilə birlikdə olandır. Yuxarı tərəfi rüzgarla gələn, əsən külək ilə sovrulan tozlar kimidir. Amma sən üzülmə! O bircə dost sən ol! Çünki o günahkarlardan minlərlə həqiqi dost arasında ancaq bir nəfər tapılar ki, özgə sayılmaz. Pərdə arxasına götürülə bilər. Yolçuluq bitdiyi zaman o işıqlı ağlının nuru ilə qanadı dünyanı yaxan bir mələk kimidir. Amma haradadır o həqiqi dost?

Bu şəhvətlər çirkabında yaxşını-pisi seçə bilən o igid hardadır? Bığlarını yolsan belə dodağını tərpətməz. Danışılmağa, zarafat edilməyə layiq bir insandır o. Xalq arasında onun sözləri, bu, filankəsin sözüdür, deyə söylənər. Çox vaxt ondan faydalanarlar, onunla çox vaxt doğru yolu taparlar. Onların sözündə haqq aləmindən bir qoxu var. Elə bir zatın nə- fəsi, şübhəsiz, cənnət nəfəsidir. Bəlkə də Haqq nəfəsidir. İstəyirsiniz, ona xalqın ən əziz adamı deyin. Ey Haqqa yaxın qardaşlar! Bu ərənlərə sayğı göstərin!

Məclisdəkilərdən biri, "bəli", dedi. O biri yerindən atıldı: "Bəli, nə deməkdir? "Baş üstə" de, "elədir", cavabını ver."

Biz Allahın göndərdiyi o bircə dost olmaq davasında deyilik. Sevilən,

üstə-üstə xeyir verənlərdən də deyilik.

Mövlana dedi ki, üç şeyə məna verilməz. Bunlardan biri könül xoşluğundakı qorxu, ikincisi, dinclik aləmindəki qorxu, üçüncüsü də lazım olan mənfəət əskikliyidir.

Həqiqi Allah adamı qapısından keçən köpəyə belə cavab verməkdə saygı göstərər. Təkəbbür, böyüklük mövzusuna gələndə məndəki iradə möhkəmliyi təkəbbürə üstün gələr. İkincisi, düşüncəli, ayıq başla hərəkət edər. Hər iki tərəfi də qoruyar. Uyğun olmayan yerdə, oradakılar da qabiliyyətsiz olanda, o yerdə danışmaq zülümdür! Kitablarda bu barədə bir şey yazılmaz. Bəlkə də yazılar. Lakin o da bu mövzuda danışmaz. Ancaq mənim vaxtımda və zamanımda bir çoxları yalanlarını üzə çıxarar. Biri mənim yanımda nəşə çəkməyə, yalan danışmağa tövbə etdi, amma indi unutdu.

Dünən mənim yanıma qonşu cariyələri gətirdilər. Üzümü onlardan gizlədərək dedim ki, əgər "N" ilə birlikdə gətirsəydiniz, biz də Allaha yaxın mələklərin savaşmaq istədikləri noxud dənələri səpərdik. O dənələri sənə şəfaət diləmək üçün gətirdilər. Bizə o varlıqdan bir bilgi ver, deyərlər. Özlərinə Allah qatından bilgi verilmiş olanlar, başqa sözlə, Elmülləddin dostları iki yerə bölünürlər. Biri o elmdə pərişandır, bir sel kimi axıb ge- dər. Onlar elm yolçularıdır. Bu toplum içində ancaq bir neçə adama söz deyilə bilər. "Səndə surət və məna baxımından düzgün bir hal var", deyirlər. Özlərində müəyyən bir hal görməydiyim və əvvəlki bölümün qarşı cəhətində yer alan bir bölüm var ki, bütün Allah dostları, övliyalar, peyğəmbərlər bunlarla görüşmək, üzlərini görmək arzusundadırlar. Bir kimsə ki, bu məqamda yüz övliyanın belə peyğəmbərin ayağının tozuna dəyişilməyəcəyi inamında dayanmışdır, ümid edilir ki, o, başlanğıcda da elədir. Bir kəsin ki, son inamı bu məqama gəlib çıxmışdır, onun sonu hara gedib çıxar?

Bir şəxs ki, Quranın Allah kəlamı, hədisin Peyğəmbər (s) sözü olduğuna qəlbən inanmışdır, ondan nə umular? Bağlanğıcı belə olarsa, onun son dayanacağı haraya varar? Gərəkdir ki, o bunları kiçik yaşdaykən öy- rənmiş olsun. Amma o, bu darısqal yerdəmi qaldı? Haqq aləmi çox geniş bir meydandır. Bəzilərinə görə, bu mövzu son dərəcə sadə və bəsitdir. Amma çox müşkül və çətindir. Bəzilərinə görə də çox asandır, amma o

qədər asandır ki, bu asanlıqdan ötrü heyrətdə qalıblar. Bu barədə söz söyləyənlər bu məqamda dayanmışlardır.

Hədisdə, "Quranın yeddiyə qədər zahiri, batini, batininin batini məna- ları vardır", buyurulmuşdur. Bu mənalardan zahiri mənanı alimlər, batini mənanı övliyalar, batini içindəki gizli mənanı da peyğəmbərlər bi-

lərlər. Amma o üçüncü dərəcədəki mənanı Allahdan başqa heç kim bilə bilməz. O halda, insan oğlu bundan necə faydalana bilər? Hədisdəki sirlər də Quranda olduğu kimi çoxdur. Necə ki, Allah-təala (ən-Nəcm surəsinin 11-ci ayəsində), "Qəlb (Peyğəmbərin qəlbi) gördüyünü yalan saymadı", buyur- muşdur. "Qulaqlar eşitmədi, gözlər görmədi", məqamındakı məna da şübhəli qalmışdır. Əgər Qurani-Kərimdə sirr olsaydı, nədən o hər gün Qurandakı qəti hökmləri oxuduğu halda özündən getmirdi? Halbuki, o, əsrapa dair bircə kəlmə eşitsəydi, özündən gedərdi və o fitnələr də aydın olardı. Buna görədir ki, Bəyazid Bistami, belə məlum olur ki, bir neçə gizli sözləri ilə öz sirlərini söyləmək istəmişdir.

Həzrət Peyğəmbər (s) gizlin söz danışmazdı. Səhabələrdən nəql edilən nəsihətlərdə də açıqlamağı gərəkli edən gizlin bir söz yoxdur. Necə ki, ən yetkin insanlar da onların hallarına dair bir şey söyləyə bilməmişlər. Onlar özlərini açıq-aydın göstərmişlər, bu surətlə tanıtmışlar. Allah dostu həqiqi övliya isə bağlı və gizli qalmışdır. Həzrəti Məhəmməd (s) onları görmək arzusu ilə alışıb-yandı. Amma onları görmək fürsəti ələ düşmədi. Ancaq onların həsrətini tərənnüm etdi. Bəyazidin bunlardan xəbəri olsaydı, əsla "mən" sözünü dilinə gətirməzdi. Necə ki, o, son anda zünnar istəmişdi. Hakim Sənainin son günləri Seyyid Bürhanəddindən, Seyyid Bürhanəddinin son günləri Mövlanadan daha yaxşı idimi? Sənainin xoş bir halı, Bürhanəddinin geniş bilgisi vardı. Bunları görürsən, İmad və başqaları kimi gəlib-keçmişlərin yüzünü göz önünə gətir. Necə ki, buğda çuvalından alınacaq bir ovuc nümunə çuvalın içindəki minlərlə buğda dənəsinin necəliyini göstərər. Nəhayət, onların hamısı da bu cinsdəndir.

Üzündə yüz min il səfa və övliyalıq nuru parlayan bir vəli, sözü gedən ərənlərdən birini bir çölün ortasında görsə və içindən o tanıdığı övliyanın bu olduğunu sezmiş olsa, dərhal başı arada gedər, həlak olar. Bütün halı alt-üst olar, damdan düşüb ayağı qırılar. Amma o toplu anlayışının mənası ondan uzaqlaşar, imanı donuq bir hal alar. İstər, o övliyanın istədiyi şəxs olsun! Çünki o şəxs artıq Allahın da istədiyi xas qullardan biri deməkdir. Soruşursan: "Şeytan o məqama yetişərmi?" "Bəli, yetişər." Çünki Şeytan Allah ilə danışmaq mərtəbəsinə yetişmiş Musanın (s) halına yetişdi ki, ona görə Xızır Musaya, sən mənimlə bir yerdə olmağa səbr edə bilməzsən,

Həzrəti Məhəmmədin (s) yüz minlərlə təbliğatçısı var. İsa (s) bütün

dedi. Çünki Musa (ə) sual verməkdə tələsdi. Tələsmək isə şeytan işidir. Amma başqa yöndən onun məqamına əsla yetişə bilməz. Çünki onun kimi yüzlərcəsi Musanın (ə) ayağının tozuna belə yetişə bilməzdi.

Mövlana izn verməz ki, mən işimi görüm. Mənə bütün aləmdə elə bir dost gərəkdir ki, onu bütün istəklərindən məhrum edim. Onu dinləyim,

amma istəyini yerinə yetirməyim.

Siz mənim dostum deyilsiniz. Siz harda, mənim dostluğum hardadır? Bu ancaq Mövlananın bərəkətiylədir. Məndən bir söz eşidən hər kəs, zaman-zaman məni dinləyənlər də bir şey danışdığım vaxt diqqətlə qulaq asmalıdır.

Sən bir İbrahimsən ki, kitabla gəldin. Amma məni müəllim olaraq gö- rürsən. Bir nəfər tanımadığı yad bir qapıda da xidmət edər. Bu, yad qapı hansıdır, deyəcəksən. Xalq ilə danışdığım vaxtda diqqətlə dinləyərsən, anlayarsan ki, onların sözləri həmişə gizlin sözlərdir, əsrarla doludur. Xalq ilə danışmaqdan məni çəkindirmək istəyənlər bu açıq sözdən, "asandır" deyənlər məndən və mənim sözlərimdən heç bir şey anlaya bilməyiblər. Onların qismətinə məndən heç bir şey düşməz. Çünki sirlərin çoxu o toplum içərisində danışılan sözlərdə gizlənmişdir.

Böyük bir sirr var ki, əzm baxımından ancaq bir lətifənin içinə qa- tışdırılıb söyləmək olar. Səni başqaları göndərmədən əvvəl öz arzunla ziyarətə gəlmək yaraşır. Eşq belə olur. Əgər bu səfər getsəm, məni tapa bilərsənmi? "Əgər" deyirəm, mən qəti şəkildə söyləmirəm. Bu şərtə görə "əgər"dən danışmaq dosta çox çətin gəlir. "Əgər-məgər", "kaş ki", "zənn edirəm" kimi sözlər həmişə belədir.

Fəxrəddin Razi bir şagirdi ölərkən bu anlamdakı beyti söyləmişdi:

Beyt:
Ağlın varacağı son mənzil ayaq bağıdır.
Alimlərin çox çalışmalarının sonucu da sapqınlıqdır.
Sonra bu məna verən misrada da:
Ruhlarımız bədənlərimizdən ürkməkdədir,
deyilir.

Nəfsdən və nəfsin istəklərindən uzaq qaçanlara o anda bir sirr açılar. Onlar sirdən məhrum olmazlar. Bu mənadakı beytə də baxın:

Beyt:
Necə yüksək dağlar var ki, təpələri üca və sivri minarələrdir,
O təpələr, zaman-zaman aşınar, amma dağ yenə dağ olaraq qalar.

Bu sözdən aləmin başlanğıcı olmadığı mənası sezilməkdədir. Yəni ki, bu dağlarda məqsəd Allah qulları olsun. Amma məqsəd bu deyil. O bundan uzaqdır. O, bu işin adamı deyil.

Mövlanaya gəldikdə isə onun bu saat dünyanın heç bir yerində tayı və bənzəri yoxdur. Bütün fənlərdə, fundamental elmlərdə, din bilgisində, qrammatika, sintaksis, məntiq elmlərində ən böyük alimlərlə cəsarətlə danışar, mübahisə edər. Onlardan daha üstün, onlardan daha zövqlü,

mövzunun maraqsızlığı buna səbəb olmazsa, hamıdan daha mükəmməl danışar. Mən ağıl baxımından bilinməsi vacib olan bu mövzularda yüz il çalışsam, ondakı elm və hünərin onda birini əldə edə bilmərəm. O özünü bilməyən sanır və elə zənn edir. Mənim önümdə məni dinləyərkən, necə izah edim, ayıbdır, deməsi, atasının qarşısında oturmuş iki yaşında uşaq, yaxud müsəlmanlığa dair heç bir şey eşitməmiş dönmə bir müsəlman kimi elə utancaq vəziyyət alır.

Bir səhər erkəndən o məna aləmindən danışırdım. Dedi ki, bu qulaq qulaq olandan bu məqamı eşitməmişdir. Çox təsirlənmişdi.

Bir kərə də Pir Mövlananın yanında idi. Ona Seyyid Bürhanəddinin höccətini anlatdı. Ona, Mövlanaya və mənə höccət dəlil ola bilməz, dedi. Mənim məqsədim armud istəmək deyil. Biri mənim xasiyyətimi bilsəydi, nə yaxşı olardı. Bu gün qurd nağılı kimi sözlərin, yaşıl, qırmızı xəyalların dəbi keçmişdir. Bu gün bunlar nə işə yarayar? Bunlar bir hiylədir. Bunu necə bilməyim? Bunlar ancaq nəfs və nəzarət sakitliyinə qovuşdurmaq üçündür. Bunların başqa bir işə yaramadığınımı sanırsan? Düşünürəm də elə deyil!

Ev boşdur, amma kimsə gəlmir. Düşünsəm, mənə nə xidmətlər et- dilər. Yuxudan oyanarkən gül şərbəti yastığımın üzərinə qonardı. Dostum yanımdadır, amma susmuşdur. Söz söylərkən də havadan, sudan danışmaz. Bütün izahlarında böyük adamdır o. Əgər səndə eşq və sevda qalibdirsə, ona baxdığın zaman sənə bambaşqa bir dəniz görünər. Səndə eşq galibdirsə, Allahın da qalib olduğunu anlayarsan. Dağ kimi böyük bir adamdır. Sənin haqqında mən gözəl bir deyim bilirəm.

Həzrət Əbubəkir (r.a) söz yozardı. Bu sadə yozum deyil, söylədiyi hər şey yozduğu sözün anlamına uymasa belə, Allah onu doğruya çıxarardı. Həzrət Məhəmməd (s) həm sözləri şərh edərdi, həm də Həzrəti İsa (s) kimi korları və xəstələri müailicə etmək qüdrətinə sahib idi.

Həzrət Məhəmmədin (ə) yüz minlərlə təblişatçısı var. İsa (ə) bütün qabların duzunu əvvəldən atmışdı. Amma Həzrəti Məhəmməd (s) duzu sonradan qatmışdır və peyğəmbərlərin sonuncusudur. Başqa bir deyimlə peyğəmbərlik qapısını qapayan, onu möhürləyən zatdır. Duz dadızdıran (ləzzət verən) biri lazımdır. Amma Misir duzu kimi olmamalıdır o duz. Sən məni sərbəst burax ki, özüm söyləyim. Ondan soruşma, sənə mən söyləyərəm. Başqa bir vaxt daha yaxşı söyləyər, daha şirin danışaram. Çünki bu söhbət o günahı qazanmaqdan maraqsız olar. Amma o halın niyyəti ilə deyirəm ki, heyf, eşq ayrılıq günündə də bədənimi çox islatdı. Yalnız alçaq könüllü olanlar mənimlə dostluq edə bilərlər. Gərəkdir ki, o alçaq könüllülük və o qulluq duyğusu günah işləməmək dözümünü artırsın. Bu günə qədər haradan pəhriz saxlayırsan, bundan sonra halaldan da pəhriz yaraşır sənə. Amma bu tutum sənə yorğanı satdıra-

caq dərəcəyə qədər gələrsə, xoş olmaz. Onlar elə edərlər ki, onu məndən soyutsunlar, istəyərlər ki, bu gedişlə məndən bir şey qoparsınlar. Yaxud, ona verdiyin dəyər ağlasığmazdır, baha desəydin daha yaxşı olardı, deyərək, bunu məndən başqasının hökm verməsini istəyərlər. Onlara dedim ki, ondan xoşum gəlir. O, nə bu cahandan, nə də o cahandandır. Bu könül xoşluğu və sevinc ancaq sənin varlığınladır. Dedi ki, o, bu dünya xalqından fərqlidir. Ancaq bunlardan o cahana utanc gələr. Amma özündə heç xəcalət hissi olmayan şəxsə görə, o cahan bu cahana gələr. Elə bir insan üçün altı tərəfin hamısı Allah nurudur. Amma gizli deyil ki, elə bir şəxsdə də könül xoşluğu yoxdur.

Mənim heç kimdən dünya ilə bağlı bir istəyim yoxdur. Məndə ancaq Həzrət Peyğəmbərin (s) ərmağan qəbul etməsi adətinə uyğun davranışda bulunmaq arzusu var. Sənin üçün altun dolu bu qalada yüz minlərlə altun və gümüşün olsa da, onları başına saçsan, mən aşağıdan sənin üzünə baxaram. Əgər alnında bir nur, köksündə bir dua işığı görməsəm, o altun və gümüşlər mənə görə bir peyin yığınından başqa bir şey deyil.

Məndə bir tamah varsa, sadəcə, Mövlana yetər mənə. Unutmayın ki, siz həmişə öz məktubunuzu oxudunuz, indi də dostun məktubundan bir şey oxuyun. Sizə bu daha faydalı olar. Bütün bu sıxıntılarınız sizin öz məktubunuzu oxuyub, sevgilinin naməsini oxumamağınızdan irəli gəlir. O xəyal elmdən, mərifətdən doğur. O xəyaldan sonra başqa bir elm və mərifət var. O elm və mərifətin də başqa geniş xəyalları var. Bunlardan başqa daha qısa bir yol da var ki, heç bunlara bənzəməz. Amma o kəsə yolun da adını pisə çıxardılar. Ona başqa bir ada vermək gərəkdir. Yaxşı bir qanun qoyulub. Bir gün yanar, bir gün yanmaz. Amma ən yaxşı qanun heç kimdən bir qəpik istəməməkdir ki, meydanın xəttini dünya tərəfinə

çəkməsin. O tərəfə dönüb baxmasın. Ancaq indi mənim peşmanlıq duyduğum bir məqam var: Kaş ki, minlərlə altunum olaydı, onun uğrunda fəda edərdim, deyirəm. Bu, eynilə sənə bənzəyir. Bir kimsənin evlər, anbarlar dolusu küpəsi olsa da, bunlardan biri əskik olsa, nə lazım gələr? Sahibinin könlündə bunları məsrəf etməkdən başqa nə arzu ola bilər? Bunun kimi bəlkə yüz dəfə sayıqlayanlar olmuşdur. Amma heyf, indi Əmir sağ olsaydı, bizə nə böyük bəxşişlər hədiyyə edərdi! O həmişə ondan istədiyim şeyi vermək istəyərdi, deyə həsrət çəkənlər var.

Dünən dedi ki, Bədiuddin Allah camalıdır. Ondan bir görüntüdür. Bu söz onu yaratmaq yönündən doğru görünər.

Mövlana dedi ki, mən Bədiuddini bu günə qədər sevirdim, amma bu gün gördüm ki, o da duaya bir dəstə istəklə qapılmışdır. Allah haqqı üçün ona inanırdım. İndi sanki qiyamət qopmuş, gizli aləm aşkara çıx-

mışdı. Bəli, and içirəm ki, gizli aləm aşkardır, pərdə aralanmışdır. Amma bu gözləri açıq olanlara görədir. Bundan sonra mənə qazanc haramdır. "Bunu ancaq onun ayaqları altına saçmaq üçün istəyirəm", deyən o adama dedim ki, elə isə sənin onunla görüləcək bir işin var. Mənə bu xüsusda "xeyr" deməklə sözümü qəbul etmirsən. Əgər sənin məqsədin onu ucaltmaqdırsa, onu ucaltmaq mənim sözlərimi qəbul etməməklə olmaz. Gərəkdir ki, əmrimi qırmayasan. Sənin bu elədiyin əvvəlcə sənə anlatdığım "Ayaz və qədəh" hekayəsini xatırladar. O zaman unutdum, buraya qədər mənimlə bir yerdə gəlmişdir. Əlbəttə, mən çılpağam, tapdığım hər cür libası mənə geydir, deyirdi. İmad dedi ki, o söylədiyi söz sintaksis baxımından doğru deyil. Sintaksis alimi Sibəveyh də bu barədə lap az məlumata sahibdir. Mən o qədər demirəm. Ancaq bunu soruşuram: Bu hal Həzrət Məhəmmədə (s) bağlanmaq xüsusunda, "Ya Rəbb! Məni Əhmədin ümmətindən elə!" deyə dua etməklə, "Ya Rəbb! Məni Həzrət Məhəmmədin (s) ümmətindən elə!" demək arasında məna baxımından bərabər olmayacağını anladır. Çünki burada fərqli bir məna var. Bu duanı edən şəxs onun məqam və mərtəbəsini istəyir, onun camalının həsrətini çəkir, demək. Yəni başqa bir deyimlə, bu sözdə heç cəhənnəm arzusu yoxdur. Onun ən kiçik işarəsi budur. Bu dəyişiklik nisbətə görədir. Sən bu əsli qırmaqla məşğul ol ki, sənə heç bir çətinlik olmasın. O salon yüksəkdir deyildiyi zaman bu yüksəklik tavana görə deyil, dabana görədir.

Mövlanaya açıq söylədim, mən onların qarşısında danışarkən sözlərimi onlara başa sala bilməsəm, barı sən izah et. Mənim Allah-təaladan bir fərmanım var ki, o aşağı səviyyəli uydurma şeyləri onlara anladım.

Mən işin əslindən, təməlindən bəhs edirəm, onlara çətin gəlir. Halbuki, ona bənzər başqa bir əsldən bəhs edərkən, sözün üstünü örtdükcə örtərəm, qapalı danışaram. Ta ki, axırda hər söz başqa sözün üstünü qapasın.

Haqq bəhsində Mövlana heç gizlin olmaz. Çünki onunla çox dərinlərə daldım, ona hər şeyi açıqdan-açığa anlatdım. Bu necə olar? Mövlana danışmağa başlayanda qəbul edərlər, üzr istəyərlər, dərviş kimi başlarını əyib gedərlər.

"İndi fəqr mərtəbəsinə yetişən ancaq Allahdır", kimi minlərlə bihudə sözlərə gələk. Yəni, fəqr yetişəndə Allah üz göstərər, onu tapar və görərsən, sözündə küfr yoxsa, bu sözün mənası o deyilsə, səninlə xristian arasında nə fərq var? Nəhayət, Həzrəti İsa (s) Həllac Mənsurdan da, Bəyaziddən də, o birilərdən də daha lətif bir zat idi. Bu halda, xristianı, "İsa Allahdır və ya Allahın oğludur", dediyi üçün qınamaq nədəndir? Halbuki, sən də eyni şeyi söyləyirsən. Bu halda, "fəqr yetişəndə Allahı

taparsan" sözünün mənası, "hər kimin nəfsi ölərsə, Şeytanı da ölər, pis xasiyyətlərdən təmizlənərək Allaha qovuşar" sözündəki məna kimidir. Amma bu qovuşma, uzaq olsun, Allahın zatına qovuşmaq deyil, bəlkə yoluna girməkdir. Qul Allahın özünə qovuşmadığını, ancaq Allah yoluna girdiyini anlar. Əks halda, Allah yolundan sapmış olar. Sonra onun nəfsi də dirilər, Şeytanı da! Allah yolunun nuru ilə Allahın zatının ruhunu ayır- mayan daim qaranlıqdadır və korlaşmışdır.

Allah-təalanın nurdan yeddi yüz pərdəsi, yaxud nurdan yeddi yüz örtüyü var. Bunlardan biri açılsa, həm dünyanı, həm içindəkilərini yandırar, deyildiyi vaxt o hansı pərdədir ki, yavaş-yavaş qalxanda zatın nuruna varıla bilər. Zatdan parlayan ruha yetişə bilər, sualı xatirə gələr.

Dəstəmaz üstündən dəstəmaz almaq doğuluşdan, yaradılışdan təmiz və dəstəmazlı olanın üzərinə nur üstünə nur endirər. O, iki dəfə dəstəmaz almışdır, demək deyil. O, mənim oxumadığım bir məsələdən söz açdı. İzzəddin onu qəbul etmədi, yalan hesab elədi. Necə olar, bəli, mən oxudum, deyə bilər? Mövlanadan bir işarət aldım, hesab elədim ki, Möv- lana da bunu anlatmaq istəyir. (Öz-özümə) Bu gün Mövlana da o cür söz- lər söyləyir ki, mən indiyə qədər əsla onlardan danışmadım, dedim. Sənə güvənərək söylədim ki, sən həm qazıdan, həm də məhkəmədən müdafiə olunasan. O demişdir ki, əgər məndən bir şey götürməz və gəlməzsə, onun qüvvət və qüdrətini heçə endirərəm. Bu eynən sənə bənzəyir: Bir kölə varmı ki, Sultana qarşı? Sən ki, padşahsan, məclisə gəl, səni görüm, deyə bilərsən. Bu necə olar? Biz bunu nə Aksaraydan, nə də Qaymaz

karvansarayından gətirdik. Əgər sən bu fikirdəsənsə, Hələbdə oturub, bir ölkədən başqa bir ölkəni seyr edirsən, demək.

Zavallı qoca! Başında bu təslim daşı və aramızda bu yaxınlıq olmayaydı. Hələ sənin, on beş ildən bəri səndə bu səbr nədir, deməyin yoxmu, bunda azacıq bir səmimiyyət qoxusu olmaqla bərabər daşanda yüz min misli artar. Bu hal və sözlər bir sual soruşmaq məqsədi ilə deyil. Ancaq bu da həqiqətdə bir sual ola bilər. Yəni iş belə olanda həmən cavab verim. Yaxşı fikir verin ki, sual daim cavab cinsindən olar. Mövlana ona layiqdir. Mənə dost olan bir qul onun bütün sifətləri ilə bəzənmiş olar. Bu təqdirdə onun qəhri də, səbri qədər sonsuz olar. Sən onun səbrini başqalarının səbri ilə müqayisə etdiyin üçün ondakı bu səbr sənə çox görünər. Amma onun səbrini Allahın səbri ilə də müqayisə et. On beş il çox qısa gələr. Nə on beş il, nə min il!

Allahın müşkü-ənbər qoxusunu andıran, hər zaman nəfəsi təravətləndirən bir qoxusu var. Amma heç müşkü-ənbər qoxusuna bənzəyərmi o. Allah təcəlla etmək, yəni özünü quluna göstərmək istəyəndə o qoxu

əvvəlcədən duyular. İnsanı məst edər, bayğın hala gətirər. Beləcə, o sözün ardı kəsilməz. Həzrət Məhəmməd (s) buyurur ki, "Ey xristian! Sən İsanı tanıya bilmədin, barı məni tanı. Əgər onu tanısaydın, məni daha çox tanıyardın!" Bu gün Həzərt Peyğəmbəri (s) bütün peyğəmbərlərin sonuncusu olaraq anladırlar. Deyirlər ki, onun "Hər kim mənim nəfsimi tanıdısa, Rəbbimi də tanıdı" və yaxud "Öz nəfsini tanıyan Allahı da ta- nıyar!" buyurması xəcalətdənmi irəli gəldi? Onun "Hər kim nəfsini tanıdısa" sözünü hər kəs nəfsindən xəbərsizliklə təfsir etdi. Ağıllı insanlar öz-özlərinə dedilər ki, bu alçaq, murdar, azğın və qaranlıq nəfsimizi tanıyırıq, amma bundan Allahı tanımaq mərifəti əldə edilə bilirmi? Sirrə yetənlər onun nə dediyini anladılar. Öz-özümə dedim ki, mənim üçün yeməyin, içməyin, yatmağın nə mənası var? Allah-təala məni bu iş üçünmü yaratdı? Mənimlə heç bir vasitəçi olmadan danışmazmı? Mən ondan bir şey soruşa bilmərəm. O da bu yeməyin, yatmağın nə olduğunu söyləməz. Görəsən, mən kor-koranə yeyib-içmək üçünmü gəldim bu aləmə? Əgər iş belə olsa və mən onunla qabaq-qabağa danışıb anlaşa bilsəydim, bu yeyib-içdiyimə görə bura necə gəldiymi, hara gedəcəyimi, məni qurtaracaq varlığın kim olduğunu, sonumun haraya varacağını anlayar və qayğısız yaşayardım. Bu, ağıl baxımından necə olar, dedim. Üzümü ona çevirdim. Necə ki, bir ananın dünyada tək bir övladı var. Çox gözəl, yaraşıqlı bir körpədir! Əlini yanan atəşə soxmuşdur. Bunu görən ana necə yerindən sıçrayar və körpəsini necə alarsa, Haqq qoxusu da məni eləcə atəşdən aldı.

Qazı Şəmsəddinin dediyi kimi, necə olur, Yusufun (s) o cahanı işıqlandıran gözəlliyinə kölgə düşər, onun gül rəngi, yanaqları solar? Bu elm qızmadıqca, o elmlərdəki soyuqluq anlaşılmaz. Hərarət soyuqluğa, soyuqluq hərarətə qarışar. Bu sözümüz də Mövlanaya deyil. O bu cür insanlardan deyil. Quranda "Məgər görmürsənmi ki, Allah buludları qovar, sonra onları bir araya toplayar, sonra da üst-üstə yığıb topa halına salar. Və görürsən ki, (o buludların) arasından yağmur çıxar, sonra Allah göydən dağlar kimi (çox və böyük) dolu yağdırar, sonra da onunla istədiyini bəlaya düçar edər, istədiyindən də onu sovuşdurar." (ən-Nur surəsi, 43) buyurulmuşdur. Qurani-Kərimdə tapdığımız bir deyimdir bu. Başqalarının başına gələn hər pislik yozularkən, Allah yolunun yolçuları haqqında yaxşılıq olaraq izah edilər.

Allahın gözəl adlarından biri də Müriddir. Nəhayət, bu müridin bir Muradı olacaq. Onun bir adı da Talib olanda, bir Mətlub* olmaq gərəkdir. Biri soruşdu: "Bu, hər kəs üçündürmü? Nəhayət, mən də əvvəl talib idim." Dedim ki, hər kəs talib deyil, o talibdən dünya xalqı üzərinə bir işıq düşsə, heç kim tab gətirməz, hamısı yanar, məhv olub gedər. Bu taliblərdən biri Musa peyğəmbərdir. Dağda, Allahdan bir iz aradı, özün-

dən getdi, geri döndü. Bu halda rast gəlinən hər insan necə mətlub, yəni aranan insan ola bilər? Mənası lap lətif olan bu beytdəki məqama əsla etirazın yeri yoxdur. Şair:

Bizi şəhərimizdən qovsalar, nə çıxar?
Şəhər kənarındakı damlar bizimdir,
demişdir.

Allah qismət eləsə, mən də elə bir yerə gedəcəyəm ki, heç bir səs- səda gəlməsin oraya. Müxtəlif səmtlərdən əsən ruzgarlar bir-birini qo- valasın. Mən bir şey oxuyum, onların qulaqlarına üfürüm, sən də oraya qulaqlarını tutasan.

Sənədi-söykənəcəyi olan insanın qəlbi genişdir, arxası qüvvətlidir, heç bir şeydən qəm yeməz.

Şeyx İbrahim burada olaydı, dedim, mənə iftixarla qulluq göstərər, könül xoşluğu ilə yoldaşlıq edərdi. Deyirdilər ki, biz xidmət üçün qalmışdıq, amma sən özündən getmiş, unutmusan.

İndi bir gizlin sirri açıqlayıram. Deyirdim ki, siz qonaqsınız, irəlidə gedin, mən də arxadan gəlim. Onlar bundan başqa mənalar çıxararaq, sən bizimlə bir yerdə olmaqdan narahat olursanmı, deyə başqa yerə yozardılar sözümü. Mən öz-özümə, siz hər vaxt özünüzlə vuruşursunuz, nəfsləriniz dipdiridir. Yol işidir bu, dedim. Dedilər ki, əgər bunu etmək kimi sözlər sizə ağır gəlirsə, bu, bundan-buna danışmaq nədir? O qə- dər dualarımızı da boş söz sanırsınız? Ancaq mən israr edirdim: "Mən sizin arxanızca gəlsəm, arada bir qonaq fərqlənər. Həm əcəmi heyvan sahibi məni nə tanıyar? Ona mən təklifsiz hökm edər, onunla istədiyim kimi bazarlıq edərəm. Bu işləri bir o bilər, bir də heyvanı. Mən heyvandan enər, bir küncdə dincələrəm." Heç belə şey olar, dedilər. Biz bir mənzil irəli gedək, sən də on mənzil geri qalasan. O zaman gözümün narahatlığından söhbət açım. İndi bu mənim əlimdə deyil, bu, qeyb aləmindən gələn bir maneədir. Siz gedin! Mənə yalnız Mövlananın məktubu kifayətdir. Yanıma göndərdiyi oğlu (Sultan Vələd-R.M.) dedi ki, o zaman Mövlana mənə nə deyər? "Mənə, ay axmaq, ay eşşək, ay ağılsız! Mən səni göndərdim ki, o zatı gətirəsən. Madam ki, sən də getdin, onu tapdın, sənə gözünün ağrıdığını söylədi, o zaman sənə yaraşan orada gözləmək, ona xidmət etmək, sağalıb yaxşılaşıncaya qədər orada qalmaqdı, deməzmi?" Dəliqanlının bu sözlərindən anladım ki, o gözəl bəhanələri ona Mövlanadan öyrənmişdir. O sözləri, o alçaq könüllülüyü Mövlana öyrətmişdir. O sözlər, o incəlik, o lətif cavablar həmişə Mövlananın öyrətməsi ilə olmalıdır ki, mənə bu baxımdan yüksək bir iltifat göstərdi. Bundan daha üstün bir sözün misalını söyləsəm, avam xalqın başına girməz. O anladı ki, öz sözünü hələ zövcəsini belə qavraya bilmədiyi kimi, oğlu da anlaya bilməz! Nə gözəl sifətlərdir ki, heç biri o biri ilə

ziddiyətə girməz, bu onunla, o da bununla uyğunlaşmaq vəziyyətindədir. O sifət bu sifəti artıranda, bu da o birini artırar. Bir ara bir sifət o birindən irəli keçsə belə, yenə aralarında səhman və ədalət tapılır.

İndi sən deyirsən ki, bu qaranlıq sözlərdən mənim soruşduğum şeylərə bir əvəz gəlmədi. Onun qapısında qaranlıq nədir? O eyni zamanda nəfsin tələ qurduğu bir yerdir. Necə ki, Əttar buyurdu: "Yüz il gecə-gündüz çilə çıxarsan, pərhiz saxlasan belə, səndən o gündə nə bu çiləni, nə də bu xəlvəti soruşarlar. Sən irəlini düşün, ora bax! Bu istəyir ki, o düyünləri özünə əngəl saymayasan. Bir halda ki, əngəl olur, o zaman bu ayrılığın səbəbi nədir?"

Bir gün gələcək ki, xəbər gözlə görmək kimi deyil məqamı açıqla- nacaq. O, gözlə görmək sənə görədir. Onlara dedi ki, bu işin səninlə əla- qəsi yoxdursa, burax onu. Yolçuluqda sənə yük olar, ölüm qorxusu var onda. Çünki bu yolçuluqda bir çox pərdələr qapanar.

Sənə desələr ki, əlində olan yüz altunu mənə ver, ya da qazının yanına gedək. Sənə o yüz altunu mənə vermək xoş gələr, yoxsa, xeyr, bu mənə

lazımdır, deyərsən? Bax, əsl məqsəd budur. Əgər, "xeyr, mənə lazım

deyil" desən, o da deyər ki, sən bizim aradığımız, bizim mətlubumuzsan. Sizin gəlməyinizdə əsas ümidimiz bizə yardım etməyiniz, diləyimizin yerinə yetirilməsində bizə yararlı olmağınızdır. Bax, bu söz heç bir izaha sığmaz.

Biri deyir ki, filankəsin oğlu təbrizli bir yad adamın arxasınca nə üçün getsin? Xorasan torpağı Təbriz torpağına bərabərdirmi? O, sufilik və səfa əhli olmaq davasındadır. Onda bu qədər düşüncə yoxdur ki, torpağa etibar olmadığını anlasın.

Bir istanbullu, "Məkkə bu aləmdən - maddi aləmdəndir, iman isə o biri aləmdən, yəni məna aləmindəndir", desə, burada məkkəlinin üzərinə düşən vəzifə istanbullu ilə razılaşmaqdır. "Vətəni sevmək imandandır" hədisində Həzrət Məhəmmədin (s) məqsədi necə Məkkə sevgisi ola bilər ki, Məkkə bu aləmdəndir, iman isə bu aləmdən deyil, o biri aləmdəndir. Necə ki, "İslam qərib olaraq başladı, qərib olaraq da geri dönəcəkdir" hədisində də məqsəd aydındır. Madam ki, İslam qəribdir, o başqa aləmdən gəlmişdir, necə Məkkəyə məxsus ola bilər? Bunun, sadəcə, Məkkəyə aid olacağını söyləyənlər sevginin ilk pilləsində qalanlardır.

Bu anlayışdan qurtulmaq da çox çətindir. Bu sevgi sərxoşluğundan qurtulmaq üçün çox yüyürmək gərəkdir. Bundan sonra da ruh aləminin sərxoşluğu gələr. Ruh hələ ki, görünməmişdir, amma sərxoşluğu çox böyükdür. Necə ki, Allah dostları son dərəcə sərxoş olduqlarından ona baxa bilməzlər. Peyğəmbərlər də belədir. Sözə başlayarkən onun xatirinə ayədən, hədisdən başqa heç bir şey gəlməz. Ondan-bundan eşidilmiş söz-

ləri axtarmaq da xəcalət hissi yaradar. İstər xalqa bir mövzunu izah etmək üçün olsun. Eşqin bu ikinci mərtəbəsindən keçmək ağır və çətindir. Ancaq Allah-təala tək yaratdığı sevimli qullarından birini göndərib, ona ruhun iç üzünü göstərərsə, onu haqq yoluna yönəldər, məqsədinə yetişdirər.

Allah yolunun sərxoşluğu üçüncü mərtəbədə də müəyyənləşir. Bunda da böyük sərxoşluq vardır. Amma ayıqlığa yaxındır. Çünki hər nəyi, "odur" sanarsansa, Allah onu o şübhənin xaricinə çıxarar. Bundan sonra dördüncü mərtəbə gəlir. Bu da doğrudan Allahdan sərxoş olmaqdır. Bu mərtəbə kamillik mərtəbəsidir. Bundan sonra isə ayıqlıq və ağıl mərtəbəsi gəlir.

Eşqin izahına gələndə, öncə bilməldilir ki, eşq deyəndə qadın, altun, dünya sevgisi kimi şeylərdən danışmaq istəmirik. Bəlkə bu sevgi sər- xoşluğunun azalacağı qorxusu ilə dünya ətrafında dolaşmaq da gərək deyil. Rahiblərdə də bu eşq sərxoşluğu var. Buna görədir ki, içlərindəki duyğuları büruzə verirlər.

İmad və onun kimilər eşq sərxoşluğunda yetişmiş insanlardır. Onlarda ruh sərxoşluğundan da qoxu var idi, ona yol tapmışdılar. Əhvad Kirmani eşqin son mərtəbəsinə daha yaxın idi. Fironun sehrbazları eşqdə tamam olmuşdular. Şübhə yox ki, onlar ruh qoxusu almışdılar. Amma Firon eşqdə tamam deyildi. O, məntiqçi idi, o yolun adamı idi. Sehrbazlarda bir hünər vardı ki, bu Fironda yoxdu. Seyid Bürhanəddində ruh qoxusu, ruh sərxoşluğu çox idi. Mövlananın da, onun da bilikləri çoxdur. Amma o sərxoşluq heç bir şey ilə əlaqəli deyil.

Şeyx Əbubəkr Səllabafın sərxoşluğu Allaha görədir. Amma o sərxoşluqdan sonra gələn ayıqlıq onda yoxdu. Bu məqam mənə elm yolu ilə bildirildi. Bu qulun öz səadəti də bəlli oldu, amma yaxın və qəti deyildi. Xas qullardan birini göndərdilər ki, ona səadətini yaxın olaraq öyrətsin, onu oxşamalarla tərbiyə etsin. O, azacıq özü haqqında yaraşmayan sözlər söyləyərdi, özünü incidər, amma Allahı necə incidə bilər? Onların ağızlarından belə sözlər necə çıxa bilər? İstər Allahı tanımamış olsun. Necə ki, Hakim Sənai bu mənadakı misrada: "Ey tapındığı "allahlar" Allahı incidən zavallı!" deyir.

Hədisdə, "Mənim Allah ilə elə vaxtlarım olur ki, aramıza nə ən yaxın bir mələk, nə də kitab göndərilmiş bir peyğəmbər girə bilir", buyurulmuşdur. Bu, onun tərtəmiz ruhu, kitab göndərilmiş peyğəmbər isə onun tərtəmiz bədənidir. Madam ki, mələk ilə peyğəmbər araya girmir, bu pərdəni açmağa kimin həddi çatar? Bu Təbrizli oğlundan başqası bu barədə danışmaz.

Bu, Həzrət Məhəmmədin (s) məqam və hal mərtəbəsi deyil, bu dəvətdir. Bu barədə bir çox sözlər deyilib. Sözü gedən hədisdə məna necə hal

deyimi ilə ifadə edilə bilər? Mən də deyirəm ki, bu, onun hal mərtəbəsi deyil.

Bir insan ki, haqqı axtarmaqdadır, tələb davasındadır. Sevgi və həvəsin əhatəsindən kənara çıxar, ruh qoxusuna yetişər. Bu mücadilə edənlərdən bəziləri həqiqətdir, ya deyildir, şübhələnsək, baxarıq. Əgər onun yönü dünyaya tərəfdirsə, sadəcə, quru mücadilədir. Bu söz nə qədər ılıq bir sözdür. Amma mənim açıqlamaq istədiyim sözün istiliyi yanında soyuq və donuq qalar. Bu gün burada biz və siz varıq. Zənn edirik ki, qiya- mət günü gəlimişdir. Dərvişdə, Allah qullarında elə inam var ki, sanki bu saat qiyamət saatıdır, son gündür. Bir gün Bəyazid minbərdə bu sözləri deyirdi: "Mən içində söz danışılan bir məclis istəyirəm. Yoxsa, bu taxta minbərdə danışmaqdan nə çıxar?" O zaman bir qadın ayağa qalxdı və üzünü ona tutdu. Vaiz o an, otur, ay arvad, dedi. Qadın yerindən atıldı, ey şeyx, ey quru mücadilə həvəskarı, bilirsən ki, sənin bu halın ilk dəfə deyil! " Sözün nə qədər doğrudur, amma sən kimsən? Bu sözlər madam ki, sənin deyil, bu iş sənin işin deyil. Qiyamətin əlaməti odur ki, heybət və siyasət ilə kişi ilə qadını ayırmaq mümkün olmasın. Hər ikisi bir-birinə qarışmış olsun." Bəyazid susdu.

Bu aləmə seyr və tamaşa üçün gəlmişdim. Hər hərifsiz, işarəsiz sözü, hər səssiz kəlamı dinləyir, bu tərəfdən də sözlər eşidirdim. Deyir- dim ki, ey hərfsiz söz, sən sözsənsə, söylə, bunlar nədir? Mənə qalsa, bu, oyuncaqdır, dedi. O halda, məni oyuncaq üçünmü göndərdin, dedim. Xeyr, sən istəyirsən ki, hər şey sənin istədiyinə görə olsun. Suda, torpaq- da bir yerin olsun, mən bilməyim və görməyim, dedi.

İndi hər sözü eşidir, ibrətlə hər tərəfə baxır, hər sözün dərəcəsini anlayıram.

Həzrət Peyğəmbər (s) belə buyurmuşdur: "Bir din alimi bir gün bir küçədən keçsə, o küçədən qırx gün Şeytan keçməz." Burada Peyğəm- bərimiz (s), sadəcə, alim demir, din alimi deyir.

İsaya (ə) "Allahın oğludur" deyənlər onun birləşmə yolu ilə Allahdan qopmuş olduğunu söyləməzlər. Bəlkə o, müxtəlif doğuluş nümunələrindən bir nümunədir. Deyək ki, bu sözü filankəs demişdir. Bu, müəyyən mənada "doğulmuşdur" demək deyil.

Sultanı görməkdən mənə bir zərər gəlməz. Amma onun üçün bu şeyxləri görməkdə və əmrlərlə danışmaqda fayda vardır. Onlar əgər Al- lahın xas quludurlarsa, bir nohurdan və ya irmaqdan demirəm, dənizdən belə keçsələr, ətəkləri islanmaz. Amma bunlar onlardan deyil. Bunların ətəkləri islanmaq deyil, bəlkə başdan-ayağa suya batar. Boğulub gedər- lər, bax bu səbəbdən sultanlara onları görməkdən ancaq ziyan gələr. Çünki onlardakı qabilliyət və iş görmək arzusu, o din vurğunları üzün- dən gizli qalar. Madam ki, bizdə də bir təmayül* var, bu, doğuluşdakı bərabər-

likdir. Necə ki, hər kəsin özü ilə birlikdə doğulan bir Pərisi və ya Şeytanı var, deyərlər, insan onu sevər və artıq sevgisindən bir əsər qa- lar, bir şey qoparar. Bir kimsə var ki, bizdən uzaq qaçar, amma başqa biri də bizimlə söhbətə, dostluğa layiqdir. Bizim məmnunluğumuzu istə- yənlərin arasında fərman sənindir, deyər. Amma onun göstərdiyi bu bağ- lılıqdan bizdən razı olmadığı sezilir. Nə qədər, "fərman sənindir", desə belə, yenə bizdən xoşu gəlmədiyi aydın olur. Bu səbəbdən duruxduğu bilinər. Başqa bir yozum: Aləmə gələn hər kəsin özü ilə birlikdə gələn bir yoldaşı var. Bəzilərinə həvəslər, sevgilər yoldaş olar, bəzilərinə də eşq. Eşq, deyildiyi kimi, əzəldən bəri mövcuddur. Amma ruh haqqında fikir ayrılığı baş qaldırmışdır. Bəzi filosoflar, ruh əzəldəndir, qədimdir, deyirlər. Bəziləri də "sonradan yaradılmışdır" dünyagörüşünü irəli sürürlər. Yəni, əvvəl yox idi, sonradan var oldu. Hələ ruhların icması daha sonradır. Hədisdə "Ruhlar toplanmış ordulardır" buyurulmuşdur. Amma bu icma da müxtəlifdir. Meyxana düşkünlərinin də bir icması var, pozğunların da. Biz ancaq ruhla əlaqəsi olan o icmadan bəhs edəcəyik. "Allah bilgisi hər şeyi gizlətmişdir" dediyimiz zaman bu icmada Allah var. Necə ki, ayədə, "Həqiqətən, Allah Ondan qorxub pis əməllərdən çəkinənlər və yaxşı işlər görənlərlədir!" (ən-Nəhl surəsi, 128) və ayrıca "Allah bizimlə bərabərdir" (ət- Tövbə surəsi, 40) buyurulmuşdur.

Bu vəziyyətə görə tatarlar ilk yaradılanda bizimlə birlikdə (eyni icma içində) tanış olsalar da, bu gün və bu saatda də bizimlə birlik olar, barışıq halında yaşayardılar. Beləcə Allah-təala, "Torpaqdan və Sudan yaratdığım aləmdə bir Xəlifə yaradacağam, sizi də o torpaq və su aləminin Xəlifəsi olan zatın soyu ilə çoxaldacağam', deyə xitab etdi. Onlar "Ya Rəbb! Biz bu icma aləmində Səninlə birlikdə rahat və xoşbəxtik. Qorxuruq ki, sonra dağılaq, bu səadətdən uzaq qalaq!" dedilər. Tanrı buyurdu: "Mən bilirəm ki, siz bu sözü etiraz və ədəbsizlik yönündən söyləmədiniz. Ancaq Mənə sığındığınız üçün cəmiyyətinizin dağılacağından qorxursunuz. Halbuki, Mənim gücüm hər şeyə yetər, Mənim qüdrətimdə əskik bir tərəf yoxdur. Mən sizi yenə toplayaram, bir-birinizlə bir arada, eyni qiyafədə yenidən yaradaram!"

Heç şübhə yoxdur ki, bu aləmin yaradılışında bir məqsəd və səbəb var. Bir xoşbəxt şəxs var ki, bu sarayın içi-çölü onun üçün döşənmişdir. Yerdə qalan nə varsa, onun qulluqçusu, onun köləsidir. Hər şey onun üçündür. Bu kainat onun üçün bina olunmuş, o bu kainat üçün yaradılmamışdır. Necə ki, varlının əziz bir qonaq otağı var, onun şərəfinə gözəl bir qonaq otağı düzəldib, yeri döşəmişdir. Sonra o başqa bir yerə köçmüşdür. Bu, qonaq otağı boş qalarmı heç? Aradığımız Allah yolunun yol- çuları var. Amma onu ağlın gücü ilə axtaranlar, tapmaq istəyənlər, əsla yol tapa bilməzlər. İstər axtardığı zat doğrudan-doğruya ona yolu-

nu gös- tərsin. Bu yolçu, istər bütün aləmi tapdaq etsin, hər yana və hər tərəfə baş vursun, biliyini özünə rəhbər eləsin və özündən daha üstün, daha yetkin və həqiqətə susamış alimlərlə oturub-dursun. O yerdə sevgili özü- nü göstərməsə, şübhəsiz, heç bir şey əldə edə bilməz.

Bir şəxs bu bilgiyə yetişmək üçün yerdə, göydə dayanmadan məşğul olsa belə, əli boş qalar. İstər Allah bilgisinə yetişmiş ərənlərdən birinin ətəyindən yapışsın, onunla birlikdə çalışsın, yenə qaranlıqda itər. Əslində o Allah dostunun arzusu da bu məqsədi gerçəkləşdirmək deyilmi?

Bu gün sizə, "axtardığınız o Allah adamı mənəm", desəm, Mövlana bizdən uzaqda qalarmı? Onun üçün nə səadətdir ki, axtardığını tapmış, ona yetişmişdir. Yoxsa tərslik tərslik üstündən olardı. Bu gün sizə ve- rəcəyim öyüd budur: Qarşımızda bir gün var ki, o günə Teğabün, yəni Qiyamət günü deyərlər. O gün, "ah, biz nə etdik", deməyin xeyri olmaz. Amma Qiyamət bu saat faydalıdır. Həzrəti Peyğəmbər (s) buyurmuşdur: "Sizin yanınıza gələcək o zatın üzünün rəngini yadınızda saxlayın. O, qəmli vaxtımda mənə sevinc verəcək." Bir yerdə olduğunuz cəmiyyət dərin bir yuxuya getmişdir. O evdə səndə xoş və yüksək bir hal vardı, üzün qızarmışdı. Sərxoşluq edirdin. Mən də sənə, indi sərxoşluq etməyin yeridirmi, deyirdim. O sırada ora məni ziyarət üçün başqa camaat gəldi. Mən qarşılarına çıxdım. Gəlməsinlər deyə başlarını qatdım, İmad da onlarla bir yerdə idi.

Sultan o insandır ki, sultan olduğunu bilir. O, nəfsinə uymuş bir sufi- dir, istəyər gələr, istəsə gəlməz. Gecikən vədlər unudular, deyərlər. Aşi- qin halı belə deyil, işə əvvəlcədən başlamaq lazımdır. Bu günün işini sabaha saxlamaq olmaz. İşə başlayarkən də Allahdan yardım diləmək gərəkdir. Artıq bundan daha açıq söz, bundan ağ qatıq olmaz. Qazı işarə ilə demişdir: "Tikan əsla yeyilməz, özün də yeyə bilməzsən."

Şeyx İbrahimə dedim ki, bu maraqsızlıq həmişə sənə görədirmi? Onu özümə həmsöhbət etdim. Əhvalın nə olduğunu əslində bilirdim. O kimdir ki, onun könlünə pərdələr çəkilsin. Ona bizim aləmimizdən bir xəyal, o xəyaldan da başqa bir xəyal doğsun.

Mən bu mənaları elə söyləyirəm ki, Həzrət Peyğəmbər (s) belə bu qədər açıq danışmaz. Hərçənd, bu onun zəifliyindən deyil, bəlkə onun bu sözü çox uzatmaq və araşdırmaq üçün yetərincə vaxtı olmadığındandır. Çünki o, çox məşğuldur. Amma mənim üçün o mənanı olduğu kimi, açıq- aydın söyləməkdə heç bir maneə yoxdur. Mən nə qədər öz başımı sözlə qatsam, mənə o məna bu beytdən gəlir.

Beyt:

Etdiyim günahdan haraya qaçım, bilmirəm, Hər günahın ardından qarşıma ğüfran* gəlir.

Necə ki, Quranda "Rəbbinizin ruzisindən yeyin və Ona şükür edin. (Yurdunuz) gözəl bir diyar, (Rəbbiniz də) bağışlayan bir Rəbbdir!" (Səbə' (Səba) surəsi, 15) və "Ya Məhəmməd! Biz sənin üçün aşkar bir fəth və zəfərin yolunu açdıq, bundan öncə və bu günə qədər gəlib-keçmiş günahlarını bağışlamaq və sənə nemətlərini tamamlamaq üçün Allah səni ən doğru yola yönəltdi" anlamındakı bu ayələr bu ğüfrana işarədir. Peyğəmbər (s) günah etməzdi ki, onun günahı ancaq bu sözdəydi. O buyurdu ki: "Ğüfran səndən daha tərs və bəstəboy deyil. Sən nə zaman diləsən bu günahı eylə və söylə." Bu, Peyğəmbərin (s) dünyagörüşündə bir növ ayrılma və uzaqlaşmadır, deyə bilərsən. Amma onun bu uzaqlığından minlərlə yaxınlıq doğar. Həzrət Peyğəmbər (s) bu məqamı daha maraqlı söyləyə bilərdi. Ancaq bundan artıq açıqlaya bilməzdi. Çünki o açıq bəyanın xalqa bir faydası olmaz. Bəlkə yalnız yüksək düşüncəyə sa- hib olanlara faydalı olardı. Belə olmasaydı, o zaman iş cığırından çı- xar, nəticəsinə tab gətirə bilməzdi. Amma onun dostları bu maraqlı gö- rünməyən qorxuducu sözlərində də, şirin sözlərində də yüz min ləzzət tapar, son dərəcə məmnun qalardılar. Əbubəkr (r.a) məst olar, Ömərə (r.a) bambaşqa bir hal gələr, Əli (ə) iti qılınc qarşısına köksünü gərərdi. Onun o qorxuducu kimi görünən sözlərindən o qədər qüvvət və o dərəcə mənəvi qida alardılar.

Bəzilərinin axtardıqları şey arzularına uyğun olaraq qarşılarına çıxar. Bəzilərinə də ölüm sırasında üz göstərər. Bəziləri də onu axtarma yolunda can verib gedərlər. Amma bu yolda dilədiyinə qovuşma həvəsiylə ölmək də böyük işdir.

Əvvəl sənin bir işin yox idi. Ayağımıza əl uzatdın. İndi ki, gedirsən, heç olmasa, özünə məşğul ola biləcək bir iş tapdın, karın bu oldu.

Həzrət Aişə (r.a) bir yuxu görmüşdü. Onu Həzrət Peyğəmbərə (s) danışmağı unutdu. Əgər o yuxunu Peyğəmbərə (s) danışsaydı, əsla o, evdən bayıra çıxmazdı. Səmadan yüz kərə vəhy gəlsə belə! Bütün pey- ğəmbərlərin və övliyaların həsrət çəkdikləri bir sevgili, qovuşmaq üçün çırpındıqları bir diləkdi bu. Bu elə uca bir Allah Peyğəmbəri, elə ulu bir insan olduğu halda, belə zatların nə üçün həsrətini çəkirdi? "Ah! Qar- daşlarıma bir qovuşa bilsəydim!" deyə yuxuda da belə həmişə onları çağırardı.

Bu bir neçə məsələdən ancaq ən qüdrətli peyğəmbərlərin xəbərləri oldu. Bir gün onları yaxından, yaxud uzaqdan görmək bunlara qismət oldu. Amma yerdə qalanların bir qisminin onlardan xəbərləri olmadı, bir qismi də onları görüb-görüşmək səadətinə yetişə bilmədi. Mövlanaya de- dim ki, bu mövzunu müdafiə edəcək bir neçə söz söylə. Məclisdəkilərin biri getdi, amma yenə gələr, bir şey dinləmək istəyər. Mövlanada hərçənd danışmaq arzusu yox idi, sözünü bitirmişdi. Ancaq əmri yerinə

yetirmək üçün bu bir neçə sözü söyləməyə və bu öyüdləri verməyə başladı:

İblis sizinlə çox savaşar. Bundan sonra elə görünür ki, sizin qəlbinizə vəsvəsə salmaqla çətinlik çəkəcək. Onu görməkdən, sözünü dinləməkdən çox zəhmət çəkəcəksiniz ki, sizə bir ziyan verməsin.

Həzrət Peyğəmbər (s) belə buyurur: "Allah-təala qırx gün sübhdən qalxıb qəlbən ibadət edənlərin qəlbindən hikmət bulaqları qaynadar, bu hikmət onun dodaqlarından süzülər." Bu qırx səhər möminin könlünün açarıdır. Yoxsa yüz min səhərin belə ona faydası ola bilməz.

Şeytan Yəhyaya (s), İsaya (s) gizlin səcdə etdi. Bu nədir? Qorxudan, ümidsizlikdən irəli gələn iman məqbul deyil, deyərlər. O halda, Allaha gerçək iman hansıdır?

Gerçək iman bu cahanın rənglərinə boyanmadan, o cahanın naxışlarını görənlərin və o ilahi aləmin səslərini eşidənlərin imanıdır. O halda, Firon üçün nədən elə olmadı? Onun imanının da qəbul olunması lazım gəlirdi. Madam ki, son nəfəsində bir kəlmə ilə imanlı getmək mümkündür. Firon da elə olmalıydı. Quranda bu barədə üç kərədən başqa güzəşt yoxdur. Necə ki, belə buyurulmuşdur: "(Əvvəlcə) iman gətirib, sonra kafir olan, sonra iman gətirib, yenə kafir olan, sonra da küfrünü artıran kəsləri Allah heç vaxt bağışlayan və doğru yola yönəldən deyildir!" (ən-Nisa surəsi, 137). Allah kafirin küfründə davam və israr etməsini istəməz. Bəlkə iki dəfə imandan uzaqlaşdığı üçün üçüncü dəfə kafir olmuşdur. Onun keçmişdəki küfrü imandan artıq bir dərəcəyə varmış, yəni küfrü imandan üstün gəlmişdir. Küfrün o qədər artıq gəlməsi onun imandan məhrum olması sonucunu doğurmuşdur. Amma əgər işin o biri tərəfini izah etsəm, ortada heç bir şey yoxmuş kimi olar. Qurani-Kərimdəki bu müjdələrdən, qorxutmalardan, ürkütmələrdən hansını istəsən, onu elə. Hansı gedişlə və hansı yolda yürümək istəyirsən yürü. Nəhayət, ömür baxımından, şəriət yönündən iman sözü dilə gələndə, mömin olaraq gedərsən, demək xalqa cəsarət vermək və onu ölümə aparmaq Qurana zidd danışmaqdır. Bu yöndə danışmaq o cəhətdən doğru deyil ki, nəticəsi xalqı yatırmaq, onları qəflətə sürükləmək, işindən-gücündən ayrı qoymaq olar. Əslində,

xalq sözə sığmayacaq qədər tənbəldir. Xalq bu, "nə istəyirsən elə!" sö- zünü eşidəndə, "son nəfəsdə bir kəlmə ilə anadan yeni doğulmuş kimi olarsan, mömin olaraq gedərsən", sözünə güvənər. Bəli, filankəs görü- nüşdə kafir olaraq getmişdir, amma gerçəkdə o, imanla getmiş ola bilər. Hətta o adam üçüncü dəfə dil ilə inkar etsə, kafirdir. Amma həqiqət yönündən o, həqiqi mömin ola bilər. Çünki həqiqətdə ayədə bildirilən, "Küfrünü artıran kəslər" yolundakı açıq ifadənin xaricindədir. Amma,

bu necə şəriətdir ki, xalqın məhvinə səbəb olur, deyilirsə, biz də deyirik ki, onları bu kimi qorxuducu öyüdlərdən təhlükəsiz vəziyyətdə qoymaq yüz min kərə daha qorxuncdur. Bu, onları quyuya atmaqdır. Əgər bu yolda yürüyər, bu yolda savaşar və gecə-gündüz çalışarsan, getdiyin yol doğ- rudur, gerçəkdir. Amma nə üçün başqa birinə bu yolu göstərmirsən, onu dovşan yuxusuna verirsən? Yoxsa, bu işdə təqlidçisənmi? Yoxsa, doğru yol bu deyil? Onunla danışmağın nə yeri var?

Yetmiş illik bir Məcusiyə bu yol üzərində o aranan müqəddəs varlığın nəzəri sataşsa, ona xoşuna gələn yüngülvari bir sevgi göstərsə, o Məcu- sidə məcusilikdən əsər qalmaz. Hər işi müsəlmançılıq olar.

Məclisdəkilərdən biri, "mən, Şəmsəddin övliyadır deyirəm", dedi. Xeyr! Bu, mənə iftiradır, dedim. Şəmsəddini hər kimi söysə, söyülən kim- sə onu eşitmiş olarsa, bax o kəs övliya olar. Bu, çox böyük bir şey deyil. Çünki ayrılmaq istəyir, ayrılacaq. Ancaq bu, bir gün gəzmək üçün bazara çıxdığımız zaman olacaq.

Soruşdum, Şeyxə nə lazımdır? Nə çatışmazlığı var onun? Mənim sufiliyimdə bir nöqsan varmı? Köynəyim belə yoxdu! Bəli, elədir, elə! Sufilərin ədəblərindən, tərbiyə üsullarından bir addım geri qaldımmı? Bu gün əynimdə köynəyim belə yoxdur. Amma sufiyə, səfaya nə əskiklik verir bu? Lap gözəl! Bu, sufi deyil, Dinin ən dürüst danışan adamıdır (Fasihuddin), dedi. Necə istəyirsən, elə hesab elə, dedim. Mən doğru söyləyərəm.

Bir gün bir qapıçı soruşdu ki, sən kimsən? Bu, bir az çətin sualdı, hələ bir fikirləşim, canına zəhmət ver, bir otur, kim olduğumu sənə an- ladaram, dedim. Bundan öncə böyük bir zat gəlib-getmişdi. Adı Adəm idi. Bax, mən onun oğullarındanam. Dostlar, onu biz ayırdıq, gedəndə söyləyərik, dedilər. Soruşdular ki, hansı təkyədən gəlirsən? Mən ondan əvvəl onların nə deyəcəklərini düşünmüşdüm, həmişə onu araşdırırdım içimdə. Biri, gəl bu loxma halaldır sənə, dedi. Biri mənəmsə, bu loxma mənə haramdır, dedim. İkinci gün xirqəmi geyinib şeyxin hüzuruna çıxmışdım, o saatda yaxşı bir sufi idim. Gəl, sufi budur, dedilər. Şeyx soruşdu: "Hardan gəlirsən?" "Pəncərədən," dedim. "Hardan gələcəyəm", so-

ruşdum, "siz Sultanı seyr etmək üçün bayıra çıxmadınızmı?" Biz həqiqət və şəriət sultanının xidmətindəyik.

Sultan Mahmud Qəznəvinin hakimiyyəti zamanındakı Şeyx Əbülhəsən Harrakaninin, o böyük zatın günlərinə yetişə bilmədik, dedilər və Şeyxin hekayətini belə anlatdılar: Sultan Mahmud müdrik və haqsevər bir padşah idi. Bir gün Şeyxin hüzuruna, onu ziyarətə gəldi. Amma Şeyx ona sadə adamlardan artıq iltifat göstərmədi. Sultan dedi ki, Quranda "Allaha, Peyğəmbərə və özünüzdən olan əmr sahiblərinə itaət edin" (ən-

Nisa surəsi,

59) yönümlü öyüdlər Allah fərmanı deyilmi? Şeyx cavab verdi: "Ey islam padşahı! Bizə ilk öncə bu ayədə fərman buyurulan "Allaha itaət edin" müraciəti o qədər zövq və heyranlıq verdi ki, Rəsulullah aləmi vardır, ya yoxdur, hələ anlaya bilməmişik. Üçüncü mərtəbəyə necə keçək?" Sultan Mahmud bu sözləri eşidəndə ağladı, əlləri titrəyərək Şeyxin əlinidən tut- du və öpdü.

Yenə nağıl edirlər ki, Sultan Mahmud havada uçan bir Hüma* quşu görmüşdü. O saat əmr verdi ki, bütün ordu hərəkətə keçsin," bəlkə o sizin üstünüzə qonar və sizin olar" dedi. Hər kəs sağa-sola yüyürməyə başladı. O arada Ayaz gözdən itmişdi. Sultan soruşdu: "Ayaz getmədi- mi? Bəlkə Hümanın kölgəsi onun da üzərinə düşər." Ətrafına baxarkən Ayazın yəhəri boş qalmış atını gördü. Bir inilti eşitdi, səbəbini bilmək üçün atından endi. Bir də nə gördü? Ayaz atının altında, həm də başı- açıq fəryad qoparır. Sultan soruşdu: "Sən nə edirsən orada? Nə üçün Hüma quşunun kölgəsini axtarmağa getmədin?" Ayaz cavabında belə dedi: "Mənim Hüma quşum sənsən, Sultanım! Aradığım kölgə də sənin kölgəndir. Mən Hüma kölgəsini sənin kölgənə yetişmək üçün axtarıram. Necə olar ki, səni tərk edib onu arayım?" Sultan Mahmud Ayazı bağrına basdı. Hər ikisinin kölgəsi bir-birinə qarışdı. Elə qarışdı ki, neçə min Hü- manın kölgəsi onun kölgəsinə yetişə bilmədi.

Sultan Allahın kölgəsidir, deyirlər. Amma Allahın aləmi nur içində nur, ləzzət içində ləzzətdir, qüdrət içində qüdrət, kərəm içində kərəmdir. Bu gördüyümüz kölgə aləmi isə hər zaman dünyadır, həmişə pislik, çirkinlik, fanilik və zövqsüzlük aləmidir. O necə Allah kölgəsi ola bilər? Bəli, əgər ortada bir Şah varsa, onda şahlığın mənası parlamaqda isə, bu, çox yax- şı bir şeydir. Ağaca olan bağlılıq və sevgi, nəhayət, onun meyvəsinə gö- rədir. Meyvəsiz ağac ancaq yandırılmağa yarayar.

Surət çox yaxşı ola bilər, amma məna ilə vəhdət olarsa. Yoxsa, surətdə deyilən sözlərin məna ilə bir əlaqəsi olmazsa, nəyə yarayar? Mövlananın sözlərini anlamaq üçün çox diqqətli olmaq lazımdır. Çünki bun-

larda böyük bir zarafat və lətifə qoxusu var. Bu, bir sehr kimidir. Deyirəm ki, iki nəfər yan-yana oturmuşdur. İkisinin də gözləri açıq və parıltılıdır. Gözlərində nə bir tük, nə də bir zığ və toz var. Bunlardan biri bir şey gö- rür, amma o biri heç nə görmür. Bəli, könül əhli ərənlərin sözləri xoşdur. Bunlar bəlkə öyrətmək üçün danışmazlar, amma o sözlərdən çox şeylər öyrənmək mümkündür. O elm və hikmət ustadı buyurur:

"Öz biliyi və hünəriylə dolu aşıb-daşan bir insan içi, su ilə dolu küzəyə bənzər. Ona, içindəki o acı suyu yerə tök, səni bu şirin və təmiz su ilə dolduraq, deyərlər. O can verən suyun bir damlası belə insanın yanaqlarını qızardar, sağlıq-salamatlıq gətirər. Səndə öd, qara qan, bəl-

ğəm kimi anormal ifrazatlar, başqa cür nə kimi narahatlıq gətiərəcək əlamətlər varsa, bunları aradan qaldırar. Amma o anormal ifrazatların yığıldığı şeyləri tökmək, onu təmizləmək üçün yeddi dəfə təmiz su ilə yaxalamaq gərəkdir. Yoxsa, bulanıq su ilə yaxalayarsan, təmizlənməz. O ancaq adıçəkilən şirin su ilə təmizə çıxar, insan əgər bu kuzəni ya- xalayaıb, şirin su ilə yenidən doldursa, görənlər, "indi onu boşaldarkən gördüyüm halı doldurarkən görə bilmirəm", deyərlər. O kərəm sahibi də, əgər, sən məni kərəm sahib olaraq görürsənsə, doğrudur, mən kərəm sahibiyəm, bağışlayacağam, sözümdə doğruyam, deyər. O halda gərək- dir ki, bu cəhət o kəs tərəfindən əvvəlcədən bilinmiş olsun. Yoxsa, heç dayanmadan içindəkini boşaldana qədər gecikərsə, bu mənaları hələ ki, bilmədiyindən gecikmişdir, demək. Şübhəsiz, o öz mənliyi ilə doludur. Su ilə dolu mədənin yenidən soyuq su içmək üçün necə iştahası olmazsa, ondakı mənlik duyğusu da üzünə və gözünə yüz cür pərdə çəkmişdir. Məni görən şəxsə bu söz necə təsir edər?"

Mövlana deyir ki, sənin ovcunda ağaclar, bağlar, baxçalar görürəm. "Cana can verən dərya kimi geniş şəffaf su görürəm. Elə ağaclar var ki, kökləri çox dərində demirəm, amma budaqları Sidrətül-Müntəhaya uzanmış, kölgələri, yaşıllıqları lap gözəl və gözoxşayandır. Bunu onlar görmürlər."

Eşqdə bir sirr və nəşə var ki, onu ancaq şəhvət düşkünü olanlar arayar. Elə aşiqlər var ki, sirr ilə çox məşğul olmuşlar. Allah buyurur: "Əgər xalq Məni həqiqətdə dərk edə bilib, belə olduğumu bilsəydi, hər tərəfdən Mənə yönələr, Məndən danışar, Məni dinlər və Məndən xoşlanardı." Mən bu sözləri xəsislik baxımından demirəm. Ancaq səni üzrlü göstərmək, sənin təmizliyini anlatmaq üçün söyləyirəm. Bu, mənə bir bəhanədir.

O, onlardan deyildi. İndi peşman oldu, gedir. Onlardan utandığı üçün yenidən gəlir. Onun yönü həmişə sənə məndən daha güclü idi.

Bu elmlərin ən asanı pisliklərdən təmizlənmə (istinca) elmidir. Fiqh, yəni din elminin budaqları (firiuddin) bundan da çətindir. Hələ fiqh bundan da ağırdır. Kəlam elmi isə ondan çətindir.

Deyirlər ki, fəlsəfə və ilahiyyat elmi, əgər qılınc qorxusu olmasa, peyğəmbərlərlə pəncələşməkdir. Bunlar öz yollarının doğruluğunu is- bat etmək üçün mənasız fikirlər iərli sürürlər. Əflatun (Platon) və onun yolunun davamçıları deyirlər ki, əgər hər kəs bizim kimi olsaydı, pey- ğəmbərlərə lüzum qalmazdı. Bu mənasız sözdür. Əflatun eşitdi ki, biri kimyəvi maddələr qatmadan torpaqdan altun çıxarır, sən də onun kimi eləsən, onun qardaşı olursan. Bu gün, madam ki, bunu eləməyə gücü- müz yetməz və onu özündən üstün görərsən, o halda nə üçün ona bağ- lanma-

ğı gərəkli saymırsan?

Bü gün hikmət əhli olan bütün insanlardan, bütün filosoflardan daha elmli insanlar var. Bu kəramət sahibi də onlardan daha üstün filosofdur. Çünki bu cəmiyyətdəkilər o mövzuda boş söhbətlər söyləyər, onu inkar edərlər, onların bunu qavramasına imkan yoxdur.

Möcüzələr kəramətlərdən daha güclüdür. Çünki peyğəmbər nə zaman istəsə, möcüzə göstərər. Kəramət sahibləri isə bunu edə bilməzlər. Hər hansı bir qul əgər bütün peyğəmbərlərin, "Ya Rəbb! Məni Məhəmməd (s) ümmətindən elə!" - deyə həvəsləndikləri o böyük zatın ümmətindən isə, onların hamısından daha aqil və daha üstün filosof sayılır. Bu hal- da, belə bir şəxsin söhbətinə yetişdiniz, ağlınızdan istifadə edib, o ay- ıqlıqdan nə üçün bir fayda götürməyəsiniz? Sonra irəlidə işlərinizdə sizə heç bir peşmançılıq gətirməyən, "kaş, biz də belə edəydik!" deməyinizə meydan verməyən o bilgi sizdə nədən hasil olmasın? Bu halda, sizdən hansınız onun söhbətindən faydalanmaq istəyərsiniz? Bu sözlər ki, onun söhbətindəki ən aşağı səviyyəli öyüdlərdir. Bunlardan heç biri sizi təsirləndirməzsə, daha yüksək bir söhbəti necə umarsınız? (Sultan öncə taxtına oturar, sonra bəzənməyə başlayar.) Halbuki, bütün qüvvət səndədir. Sənin qüvvətindən başqaları da güc alar. Necə "mən acizəm" deyə bilərsən? Bəli, böyüklük odur ki, böyüklüyünün qüvvətinə baxma- yaraq, özünü gücsüz görər. İndi artıq susun! Sən məni öz haqqımda inancsız edə bilməzsən. Mən əgər sizin sandığınız kimiyəmsə, bu hər böyüklükdən daha yaxşıdır. Belə deyiləmsə, heç olmazsa, ağıllıyam. Mənim bu ayıq və ağıllı olmağım ancaq sizin Haqq yolçusu olduğunuza inanmış olduğum üçündür.

Həkimin yanına bir xəstə gəlir. Mənim ciyərimə bir əlac elə, desə, gərək başqa şey istəməsin. Ancaq dərman istəsin. Şirin su axtarmaq üçün susamış bir adamın qabağına çörək, yaxud şirniyyat gətirsələr, o da yesə, adam susuzluq davasında yalançıdır. Necə ki, aclıqdan danışanı sınamaq üçün qabağına su qoysalar, o da bunu içsə, ac deməyi onun yalançılığından xəbər verir.

Siz bu qədər şirin danışırsınız, Sultanın və başqalarının hekayələrini danışırsınız, mən də bir məqama işarə edəcəyəm. Həccacın (Bin Yusuf) hekayəsini danışacağam sizə. Mövlanaya tərəf döndüm və dedim ki, bir gün Həccac istidən tərləmiş bir insan kimi qış günündə bayıra çıxmışdı. Bayırdakı soyuq onu elə kəsmişdi ki, az qala donacaqdı. Mövlanaya işarə elədim, bir söz söylə, dedim. Mövlana bu zaman lap pərişan bir halda idi. Amma sözümü eşitdi və danışmağa başladı. Bu arada Həccacın hekayəsi bitdi. Birdən halı dəyişdi. Qəribədir ki, qəfildən gözlərindən yaş axmağa başladı. Ona "Əmir və daş-qaş" hekayəsini söylədim. Dostlar haqqında duadan başqa bir şeylə məşğul olmadım. "Allahım! Onları qo-

ru ki, Həzrəti Peyğəmbərin (s) əmrlərini yerinə yetirsinlər, ona bağlansınlar!" Necə ki, Quranda "Ya Rəbb! Sən ümmətimi doğru yola yönəlt! Çünki onlar doğru yolu tanımazla," deyə yalvaran ulu Peyğəmbər (s) də Allahdan kömək istəmişdi.

Mövlana səni necə çilədə oturda bilər ki! Ona, ey mürid, röyanda nə gördün? Müridin halından xəbəri olmayan Şeyxi gördünmü? Yəni Şeytan sənə hansı vəhmi verdi? Mən də onun şagirdiyəm, barı beləcə onun işini tamamlayaq deyəndə, ondan elə uzaqlaşarsan ki, bir daha Allah yolunda bərabər yürüyə bilməzsən.

Bu cənnət sonradan yaradılmışdır. Bir yer ki, orada ancaq yaradılmış varlıqların üzləri görünər, o yer yaradılmışlarla bərabərdir. Ancaq bu məqamı anlaya bilmək üçün bir başlanğıc gərəkdir ki, onun çevrəsini qavramaq asanlaşsın. Ona əbədidir deyirəm, amma əzəldir demirəm. Həm əzəli, həm də əbədi olan varsa, o da ancaq Allahdır.

Sənə cənnət əhli olan insanların məqamlarını izah edim. Ayrıca cəhənnəm əhli olanların nişanını da söyləyərəm. Allah-təala yaydan çıxan bir ox kimi bu aləmi yaratdığı gündən bəri hər gün, hər an qapılar açılıb- örtülməkdədir. Bu elə ağlasığmaz bir cəldliklə olmaqdadır ki, insanın ağlı başından çıxar. Hər kəsi gözəl xasiyyətli, gözəl simada görərsən. Açıq gözlü, geniş ürəklidirsə, hər kəsə xeyir-dua edərsə, elə bir insanın söhbətlərində insana könül xoşluğu gələr. Bu aləmin sıxıntılarını, darlığını sənə unutdurar, qəlbin elə açılar ki, söyüş də söysələr gülərsən. Bəlkə

elə bir tövhiddən bəhs edəndə Siracəddin kimi zahirdə göz yaşı tökərsən, amma içindən yüz min nəşə duyar, qəhqəhələrlə gülərsən.

Biri də var ki, qan içər, özündə-sözündə insana sıxıntı verən bir soyuqluq var. Sözlərində elə diksindirici bir ifadə var ki, onda nəşəli insanın danışmağındakı hərarəti görə bilməzsən. Bax, belə bir insan Şeytandır, cəhənnəmlikdir.

İndi hər kim bu sirrə yetişdisə, ona görə davranar. Yüz min şeyxə iltifat göstərməz. Elə bir insan ölümdən nə üçün qorxsun? Sadəcə, başa harada dəyər verələr? Heyvan başı ilə, insan sirri və ağlı ilə diridir. Hər kim ancaq başı ilə (ağılsız kəlləsi) yaşayarsa, ona ölüm olsun. Amma sirri və ağlı ilə yaşayanlar Allahın kərəm sahibi olaraq yaratdığı insanlardır. Nəhayət, sirr deyilən o Allah vergisi bu başa və tiyana necə sığar? Madam ki, burada daldalanmır, mən ona nə edim? Amma sirri mərdliklə qorumaq gərəkdir.

Mövlana dedi ki, biz sizi yalançı saymırıq, ancaq Məhəmməd (s) dinində təqlidçi olmalıyam. Bizə hələ ki, bir şey görünmədi. Bir doğuluş yoxdur.

Siracəddin ağsaqqalların, gənclərin, Zeynəddin Tusinin və başqalarının yanında oldu. O dolaşmağın bərəkətidir ki, özünü bu mövqeyə yüksəltdi.

İndi bizdə də elm var, amma o böyük şəxs bunu qəti şəkildə bilməz. Halbuki, mən indi xalqın başa düşdüyü tərzdə danışa bilərəm.

Təravih namazı üçün, bu, gözəl bir bidətdir, yəni sonradan əlavə edilmiş bir ibadətdir, buyurur. Onun qəlbindəkilərə görə, bu artıq pozulmaz. Halbuki, ibadət ancaq aşiqlərin canını dincəldir. Bu, nə deməkdir?

Bütün yəhudi milləti onu gizlicə çağırdı, xəlvətdə dedi ki, bir daha belə ədəbsizlik etmə. O halda, vergilərinizi artırarıq, dedi. "Olmaz" dedilər. Durub getdi. Deyirlər ki, bundan sonra ustanın üst tərəfində dükan açma. Allahım! Bu savaş və məşğuliyyətlər sənə yetişdikdən sonra buyurursan ki, "Bu aləm bu aynanın arxasındadır." Bəli, mən də o aynadakı Cəlal nurunu görürəm. İndi, artıq məndə qüvvət və qüdrət qalmadı, is- təyirsən sən qüdrət və qüvvət verərsən, ya Rəbb, deyirik. Allah da, "sən heç olmazsa, yerindən qımıldan ki, mən də sənə güc və qüvvət verim", buyurur. Bəli, qımıldanırıq, bu çətin yerdən qurtulmaq üçün hansı müş- küllərdən keçirik. Ey Uca Allahım!

Həcamətçi* kiçik uşaqlardan qan almaq üçün onlara necə qoz, kişmiş

kimi yeməli şeylər verib, əvvəlcə onların başını ovudur və verəcək ağrını

unutdurmaq üçün onları oxşayar, sonra neştərini saplayarsa, ucalardan Uca Allah da qulunu bu cür işlərlə məşğul edərək, öncə camalını göstərər, sonra aynanı qırar. O zaman könül əhli ərənlər, Haqq əhli olarlar, qəribə bir çaşqınlıq içində qalarlar.

Sən o an hökmü dəyişdirilmiş Kafirun (Kafirlərin Həzrət Peyğəmbərə (s) etdikləri "bir həftə sən bizim bütlərimizə ibadət et, bir həftə də biz sənin dinin" təklifinə rəğmən endirilmiş surədir - R.M.) surəsindəki, "Sizin öz dininiz var, mənim də öz dinim (Elə isə sizin dininiz sizə, mənim dinim də mənə)!" mənasını verən ayəni oxuyar. Sən də axı bir din alimisən, nə üçün dəyişmədin? Bir gün belə məndən ayrılmadınmı? Onun yolunun nə olduğunu dərk edə bilmək üçün bir gün şeyxliyi də, böyüklüyü də başdan çıxarmaq lazımdır. O, Həzrət Məhəmmədin (s) candan, könüldən olan övladıdır. O, Uca Allahın bəsləyib yetişdirdiyi bir Şeyx olmuşdur. "Allahım məni ən gözəl ədəblə yetişdirdi" anlamındakı hədisə işarə edən ədəb onun keyfiyyətidir.

Onun seçilmiş övladları da elədir. İndi gəl danışaq! Məndən bir dəfə soruş, mənim əmrimi neçə dəfə dinlədin? Nə üçün yerinə yetirmədin? Söylə ki, anladım. Bu eynilə Quranda işarə edilən mələklərin "Sən pak-

san, müqəddəssən! (Bütün eyib və nöqsanlardan kənarsan!) Sənin bizə öyrətdiklərindən başqa biz heç nə bilmirik. (Hər şeyi) bilən Sən, hikmət sahibi Sənsən!" (əl-Bəqərə surəsi, 32) deməlari kimidir. Bu nə deməkdir? Sən bunu, onun nə söylədiyini anladınmı? Biri anladı, dedi ki, bu anlayışın iki yönü var. Boşboğazın biri səni dinləməyə gələr, söz məndən ürkər və qaçar sanki. Başqa biri də var ki, sözlərimdəki mənaların zövq və ləzzət içində məst və bayılmış bir hala gələr. Hətta o sözləri təkrarladıqca eyni zövqü duyar. Mövlana da neçə dəfə bu mənalara işarə etmədimi? Bu söhbətlərdən hər kəsin başqa bir məna çıxarmasını qabaqlamaq üçün və işləri yubatmamaq üçün bu məqama gəlmişdi. Siracəddinə hal diliylə söylədiyi bir şeirin bu anlamdakı misralarında deyir ki:

Bir gün bəlkə sevgiliyə qovuşacağam,
Amma o keçib gedən ömrü haradan tapacağam?

Amma zaman bütövlükdə keçib getməyib. Gedən getmişdir. Bu saat həsrət içində keçməkdədir. Ancaq burada keçən zaman bir iş uğrunda keçirsə, artıq hər səfəri boşuna keçir, deyə peşmanlıq göstərilməsi lazım deyil. Bu iş hesabı deyil, işsizlik hesabıdır. Madam, işə əvvəldən başlanılıb, elə peşmanlıq lazımdır ki, axırda peşmanlıqdan da tövbə edilsin. Buna görə elə bir iş ilə məşğul olunmalıdır ki, sonucu yetərincə lətif olsun. Onların sözlərindən sənə üşütmə gəlir, o söz sənin çiləni üşüdürsə, nə-

hayət, buradan bayıra tez çıxıb gedərsən. Başlanğıcdakı gedişə görə, çilədən ötrü bu düşüncələrdən qurtararsan. Amma necə olar ki, elə aydın bir gediş belə soyudu, deyə maraqlanarsan. Bunu qəbul etməsən, sonda özün də eyni xəyala dalarsan.

Bəli, beş vaxt namaz vacibdir, bunu aşkar olaraq qılarsan. Yolun ayrı da olsa, onu vacib olduğuna görə açıq-aydın qılarsan. Gecədən keçəndən sonra qadınını yatırıb, oğlunu quru üzümlə ovudub, qızının başı- nı cevizlə qatar, sübhə qədər namaz qıla bilərsən. Bu, halaldır. Həzrət Məhəmmədin (s) dini belədir. Azan verilən yerə də gedər, xəlvətdə də qalarsan. Mənəvi dalğınlığına görə müəzzinin səsini eşitmədinsə, gizlə- nəcək dəlik axtarmaqdansa, Allah kölgəsinə sığınmaq daha münasibdir. O zaman bütün üşütmələrdən, ölümlərdən təhlükəsizlik tapar, Haqqın sifətləriylə bəzənmiş olarsan. Daim varlıqları ayaq üstə saxlayan o Allah- təalanın varlığını anlayarsan, ölüm səni uzaqdan görsə ölər, çünki ilahi bir həyat taparsan. Bu yolda yürümək səssizcə olmalıdır ki, kimsə eşit- məsin.

Bu elm mədərsədə qazanılırmı? Bu, bəlkə altı min ildə, yəni altı dəfə Nuh Peyğəmbərin (ə) ömrü boyunda da əldə edilə bilməz. O yüz minlərlə təhsilin, bəlkə qulun bir gün, bir an üçün Allah hüzurunda olması qə-

dər dəyəri yoxdur. Allah qullarından bir qul, Əflatunun bütün elmini yox edə- rək, onu bomboş bir hala gətirmək gücünə sahibdir, bunu edə bilər. An- caq bir gün onunla yavaş-yavaş danışıb, razılığa gələrsə, bu, böyük bir filosofdur, deyə bilər. Çünki Əflatun həm filosof, həm də alimdir. Nəhayət, peyğəmbərlərlə mübahisə edər. Boş söz deyil bu. Onlar da bu işdə bir ləzzət görüblər. İstəyirlər ki, peyğəmbərlərin vəzifələrini özləri görsünlər. Necə olmaz deyə bilərlər, o bizim qardaşımızdır. “Bizi o tanıyır” deyərlər və bir təpiklə onun ağlını alt-üst edər, onu bomboş bir hala gətirərlər. Bu qeyri-mümkündürmü?

Həzrət Peyğəmbər (s) İblisin surətinin necə olduğunu görmək arzusunu hiss elədi. Amma gördü ki, hamısının üstündə Allah var. Artıq onda necə olar ki, İblisin surətini görmək arzusu qalsın. Bunu belə söyləsəm, başağrısından qurtulursan. Çünki İblis mənəvi bir surətə bürünmək istə- yərsə, səni Allahdan soyudacaq bir surətdə görünər. Könlünü ona qapalı tutduqdan sonra sənə bir daha şeytan sevdası gəlməz. Amma yenə də güvənmə özünə. Birinin qapısından bayıra çıxar, onun surətində qarşına gələ bilər və səni soyudar.

Süleyman Tirmizi dedi ki, barı din adamlarının sözlərini söyləyin. Bun- lar ki, hər zaman minbərlərdə nəsihət verər, səccadə üzərində oturaralar.

Bəyazidin səccadəsində heyət yığılar, Şakik Bəlxinin minbərində danı- şarlar. Kimə nəsihət verirlər? Oradakı camaatamı, camaat hardadır? Qalxıb dövrə vurarsan.

Mövlana ət yeməyini yemir, amma halva yeyə bilir. Gəl sən də üzül buna, birlikdə söhbət edək. Bütün bunlar bir tərəzi, bir müvazinət məsələsidir. Yoxsa, yeməkdən əvvəl bu gün meydana atılan məsələ üzərində danışmaq gərəkdirsə, o işdə məqsəd ya eləmək, ya da eləməməkdir. Yaxud hər keçən zamanın necə keçdiyini düşünmək mövzusudur.

Söhbət sənə ziyan verməz, amma Allahın xas qullarının söhbətini qaçırmaq sənə ziyan vurar, yaxşı olmaz. Bunun bir misalını deyim. De- yək ki, yanımda duran tiyançı mənə bir iynə batırdı, eyni yerə Şeyx də iynə batırdı. Bu, iynə batırılan yerdəki ağrının bir-birinə bənzəməsidir. Yoxsa, iynəni batıranların bir-biri ilə ölçülməsi deyil. Biri dedi ki, bəlkə belə bir padşahın ayağına batırdığı iynələrə əvəz olaraq zəmanənin kə- məndi vurulub boşuna gedərsə, gərəkdir ki, bundan məmnun olsun. Geri dönməyən hər şey keçib-gedər. Sən ancaq özünə gərəkli olan şeyə bax. Belə bir zamanda sənə bu hekayəni anlatmalıyam. Hərçənd, bunu bir neçə dəfə təkrar etmişəm. Hekayə belədir:

Xorasanlı Əbu Müslimin xəlifə taxtına oturtduğu Mənsuru aldatdılar. Dedilər ki, səni bu dəfə o taxta oturdan Əbu Müslim günün birində

istəsə oradan uzaqlaşdıra bilər, bir başqasını oturdar. İndi onu aradan götürmək lazımdır. Bunu eləmək üçün də bir çarə var. Əbu Müslim səni ziyarətə gəl- diyi zaman qılıncını əlinə verər, hərəkətinə diqqət edərsən. Qılıncı əlində oynadarmı? O zaman Xəlifə qarşısında qılınc oynadanın cəzasının nə olduğunu Qazıdan soruşarsan. Qazı da, öldürmək gərəkdir, deyər. Bu sənə cavab və höccət* olar. Yolda onu yaxalayıb, öldürün, deyərsən. Xəlifəyə dedilər ki, qazının o sözü sənin soruşduğun məsələnin cavabı deyildi ki, bunu gerçəkləşdirməyə imkan olsun. Xəlifə, bəli, elədir, amma günün birində Xəlifəni bu məqama mən gətirdim, mən onun məmuru ola bilmədiyim kimi, başqaları da onun məmuru ola bilməzlər, deyə bilər. Nə qədər, "sən bu işdən vaz keç", dedilərsə, xəlifə işi bitirdi. Sonradan peşman olmuşdu, amma iş-işdən keçmişdi.

Burada dostluqdan çox xəlifə qayğısı hakim olmuşdur. O iş ki, gərəklidir, istər mənə aid olsun, istər olmasın, görülməlidir. Çünki bü gün görülməzsə, bəlkə sabah da görülməz. Sənin gecikməyin də məqsədi ayaqlar altına salar. Bunda çətinlik var, desəm, biz bunu təsəlli və aldatma ol- sun deyə söylədik. Demə. İşin həqiqi tərəfi sözü açıq-aşkar söyləməkdir. Buna nə maneə var? O peyğəmbərlərə yaraşan mübahisə kimidir ki,

onlar bunu çox gözəl edərlər. Amma o sözdən doğacaq mənfəət ancaq sənə aiddirsə, sözü söyləməkdənsə heç söyləməmək daha sərfəli olar.

Bir gün bir nəfər mənə dedi ki, mən səndən daha çox Mövlananın nəsihətlərindən faydalanıram. Mən də bunun əvəzində dedim ki, dostları bir araya gətirək, onların anlayacağı bir mövzunun təfsirini verək. Bunda məqsəd camaatı aldatmaq deyil, elmi bir fayda verməkdir. Necə ki, Qur- anda Yusuf Peyğəmbər (ə) Allaha yalvırarkən "Ey Rəbbim! Sən mənə səltənətdən (istədiyimdən də artıq) bir pay verdin. Mənə yuxu yozmağı öyrətdin," (Yusuf surəsi, 101) anlamındakı ayəyə işarə olunan bu yalvarışı ona öyrədən kimdir? "Göylərin və yerin yaradıcısı" buyurulması da ona şəxsi bir yolla öyrədilmişdir.

Ümumi yoldan da yenə ayədə, onun şərhini ancaq Allah və elmdə çox irəli olanlar bilərlər, deyəndən sonra, məni müsəlman kimi öldür, deyir. Qəribədir, deyilmi? Bu açıqlamadan sonra Yusuf (ə) hansı müsəlmanlığı istəyir? Sonra da, məni saleh adamların cəmiyyətinə göndər, deyir. Han- sı salehlərdən söhbət gedir? Hər peyğəmbərdə salehlik var, amma hər salehdə peyğəmbərlik yoxdur. Bu, "Allahım! Məni peyğəmbərlikdən nə- sibsiz etmədin, övliyalardan da nəsibsiz etmə, ruhumu onlara yetişdir!" deməkdir. Əgər belə olmasaydı, həm İslamda, hə də salehlərə qarışmaq yolunda səbatlı olmaq istəyərdimi?

Əmr tərk oluna bilməz. Şübhəsiz, bu fəqirin əmrində də faydalar var. Bu əmrilə mənəviyyat qapıları açılar. Fəqr dünyaya, onun nemətlərinə,

bər-bəzəyinə göz dikməz. O tovsifə* sığmayan bir dövlətdir. Şübhəsiz, varlı uşaqlarından, dünya nemətlərindən faydalananların bir şeyə ehtiyacları yoxdur. Onlar onun arxasınca düşməzlər, amma onlarda mülayimlik və xoş keçinmək istəyi var. Həddi aşarlarsa, o zaman fəsad çıxar. Onlardan nəfslərində üzüntü duyarlar və üstünlüklərinə yaraşmayan bir şey gözləyənlər nəfslərini dünyadan ayırmazlar. Onlar əsla tövbəyə yaxınlaşmazlar. Dünya həvəslərinə qapılarlar. Onların Quranda: "Səni şaş- qın vəziyyətdə tapıb yol göstərmədimi?!" (əz-Zuha surəsi,7) anlamındakı hi- dayətlə də əlaqəsi yoxdur. Hamısı şaşqınların tərəfinə qaçdılar. Şeytan səni yolundan azdıranda, sən özündən hidayət yoluna girə bilərsənmi? O səni azdıranda sənin halın sənə Cəbrailin yetişməsindən daha xoş görünər. Bəlkə, sadəcə, Allah quluna edilən yardım və əzm ilə səni bu yoldan döndərər.

Mənim nəfsim mənə elə üsyan edir ki, önümə yüz min tikə halva və kabab gətirsələr, həqiqi iştaham olsa, başqalarının can atdıqları o yeməklərə qətiyyən dönüb baxmaram. Vaxtında ona verəcəyim arpa çörə- yi, vaxtsız verəcəyim kababdan daha xoşdur. O, gizlin qaldı.

Hikmət əhli olan alimlərə görə, kiçik aləm insanın yaradılışında gizlənib. Böyük aləm də bizi əhatə edən aləmdir. Peyğəmbərlərə görə, zahirdəki bu aləm kiçik aləmdir. Böyük aləm insan oğluna da gizlidir. Bu halda sən də bu aləmdən, insanlıq aləmindən bir nümunəsən. Niyə sən də mənə bir ərmağan vermirsən? Madam, sən bir yadigar alırsan, sən də mənə bir yadigar ver ki, bir vaxt səni xatırlayım. Elə adamları dost tutum ki, onların arzusu ilə yürüyüm. Onlarda o sayğısızlığı görə bilmirəm ki, ona görə hökm verim. Onlar elə dostlar olmalıdır ki, bu, o birilərindən daha qüvvətlidir deyə billəm.

Şeir:

Səni inciyərsən deyə könlümdə saxlaya bilmərəm, Alçalarsan qorxusu ilə gözümdə də tuta bilmərəm, Səni gözümdə, könlümdə deyil, canımda saxlayım ki, Son nəfəsimdə mənə yar olasan.

Sənin eşqində məndən başqa kimsə dözüm göstərə bilməz. Məndən başqa heç kim şoranlığa toxum əkməz. Düşmənə də, dosta da səni pisləmək istəyirəm ki, səni məndən başqa heç kim sevməsin.

Aşiq bir vaxt o pisləməkdən sevgilisinə bir zərər gəlməməsini istəyər. Onu incitməməyi düşünər. Amma ona bir ələm və iztirab gələcəksə, vay onun gününə! Mən Allahdan altun istəyəcəyəm, O da həmin an verəcək.

Bu pul ilə bir kölə alacağam, ona bilik öyrədəcək, başımı qatacağam. Bəli, Allah altunları verər. Yaxud istəməsən də verər. Mənə verirsən və deyirsən ki, bu pul ilə bir dəyirman alacaqsan, onu mənim üçün al, sə- nin hesabına fırladım. Dəyirman daşdan və dəmirdəndir. Bu isə ətdən, dəridən, sinirdən və damardan düzəldilmişdir. Ayrılıqda bunun canı və həyatı var. Əgər sən verməsən, mən özüm dönərəm. Buna görə hər gün mənə bir çoxları etiraz edər. Onun üç-beş quruş qazanması bun- dan daha faydalı idi, deyərlər. Uşaqlığımda mənim iştahımı qaçıran bax, bu söz olmuşdur. Aradan üç-dörd gün keçdiyi halda heç bir şey yemirdim. Sadə xalq sözündən deyil, Haqq sözündən belə ürkürdüm. Səbəb yox ikən yemək-içməkdən kəsilmişdim. Atam "oğul, ye" dedikcə, mən, "bir şey yeyə bilmirəm", deyirdim. Artıq zəifləyirdim, qüvvəm o də- rəcəyə çatmışdı ki, istəsəm pəncərədən quş kim bayıra uçaram, dedim. Bunda kəramət var, amma sənə açıqlamaq istəmir, dedilər. Möcüzəni inkarçılığa qarşı göstərərlər. Sən əgər tam mənası ilə münkir deyilsən, sənə bu açıqlanmaz. İstəyənə açıqlanar. Bu, bir icma içində olur, bir koşədə deyil. Ətrafımızda bir insan cəmiyyəti var. O, tək bir şəxs olsaydı, sözləri quru davadır, deyərdilər. İşin pis tərəfi, Mövlana mənə dünən, Bəhaəddin onlar ilə oturduğu üçün sənin sözünü soyuq qarşıladı, dedi. Mənə könül vermədi ki, Bəhaəddinə, sadəcə, "Bəhaəddin" deyək. "Möv- lana Bəhaəddin" demək dostlar üçün təvəccöh* sayılmaz, bunu könül istəmir. O, ox atmağı bacarmaz, bununla bərabər elmini, üsulunu yaxşı bilər. O istəsə iş başqa cür olar. Əlbəttə, başqa şey istəmişdir. O, Allah- təalanın vətənini, möminin sevgilisi və diləyi olan o müqəddəs yeri (Kə- bəni) istəmişdir. Amma deyilə bilməz ki, mütləq onu istəmişdir. Əgər bir şey istəmişsə, bunu istəmişdir, deyərlər.

İndi Mövlananın "İncidim" dediyi məsələdən söz açaq. Mövlananın sözlərindən Şəms çox faydalanır, deyiblər. Bəli, mənə bu yöndən faydası var ki, bu surətdə bizə yardımçı olur, mənə bəzi işarətlərdə bulunur. Amma o işarətlər sizin üçün deyil, ancaq mənədir. Onun xitabı da sizə deyil. Gö- rürsünüz ki, məni bir qərib olaraq tapdı, necə rahatlığa qovuşdurdu! Bu halda, Mövlana kimin Mövlanasıdır? O, bir kimsəni bir adla çaığrarsa (kimdən yapışarsa), əsla ondan vaz keçməz. Gecə gördüyü hər röya sübh namazından əvvəl çin çıxır, günorta namazına qədər təsiri davam edərdi. Bunun adət halını almaması üçün ürəkdən gələn bir əzmlə çalış- dım. Bu necə şeydir? Bu başqa bir namazmı sayılır?

Bəhaəddin bir ara budağından qoparaq yerə düşən payız yarpağı kimi ayağımı qucaqladı. Bu hal bir kərə, iki kərə deyil, xeyli zaman sürdü. Rəngi torpaq kimi olmuşdu. Bir gün belə çığırdı: "Mövlananın qarşısında oturan Şəmsəddin sənsənmi?" Bəli, mənəm, dedim. Yanımda oturdu. Tapdığımız karvansaranın kiçik bir otağından ona səslər gəlir, "Harda-

san, hardasan?" deyirdilər. İndi bu qədər yetər…

Hər kəs bilir ki, təkyədə cansız bir varlıq belə yeddi aydan artıq mənə dözüm göstərə bilməz. Mədrəsədə məni dinləyənlər divanə olarlar, amma ağıllı kimsələri nə üçün dəli etməliyəm? O zaman onlarla söhbət etməyə imkan olmaz. Ancaq bu var ki, mən sufi olum-olmayım, bu dərgah təmiz insanların yeridir. Onlarda satın almaq, bişirmək qayığsı yoxdur. Cansız varlıqların da ayrılma və birləşmələri var. Ancaq onların iniltiləri duyulmaz. Necə ki, Qurani-Kərimdə, "Elə bir şey yoxdur ki, Allaha tərif deyib Ona şükr etməsin…" (əl-İsra surəsi, 44), buyurulmuşdur. Amma bilirəm ki, mən buraya oturmaq üçün gəlmədim. "Hazırlaşın bir yerdə gedək", dedi Bəhaəddin. Mən, bu gün hazıram, deyirdim, sonra vaz keçirdim.

O, hücrəyə hər gələndə əliboş gəlmirsən, deyirdi. Mən də ona, sən belə şeylər haqqında düşünmə, dedikcə, o, xoşuma gəlmir, deyirdi.

Bir gün də Aksarayda Hacı Əbubəkirdən borc almaq istəyirdi, olmadı. "Əliboş necə gedə bilərəm", dedi. Mən, "vaz keçdim", dedim. O halda, "dostlara himmət* üçün yararlı bir iş gör", dedi. Bəli, üç kərə Salavat çe- virin və "Əllahumməssəli Əla Mühəmmədin və ali Mühəmməd" deyin. Başqa nə yeyərsən? Nə düyü, nə düyü, nə ət, nə ət… Zəhra deyirdi ki, burada dərvişin nələr elədiyi, sənin elədiyin və ağlından keçənlər Möv- lana qatında bilinməkdədir. Dərviş o mərtəbəyə nə ilə gəldi? Onun işi həmişə xeyirdir.

Biri şahmat öyrənmək üçün altı min kərə oynamışdı. Torpağın üstündə oturub bu gün də oynayırdı, öncə atlardan iki dənəsini çıxarır, sonra da piyadaları vurur, beləcə hər gecə bir məğribli ilə üç partiya oynayırdı. Atı və piyadanı çıxarırdı, mən də ayaq üstə tamaşa edər, sonra oturardım.

Ağıllı və insanoğlu olan odur ki, həmişə öz yazdığını oxumasın, arada dostun yazdıqlarını da oxusun. Sənai nə gözəl söyləmişdir, dedi Mövlana:

Hər cür istək çoxluğundan, çirkinlikdən arınmış bir qəlb görəcəksən.

"Bu gözəldir", dedim. Bu cavabım həm Mövlanaya, həm də Sənaiyə idi. Yoxsa, istəsəydi, ayağı yanıq Şərifə də cavab verərdik. O, "Seyrülibad" kitabının sonlarında Sənaiyə verilən bu cavabı soyuq qarşılamışdı. Onun könlündən xəbəri yoxdur. O qəlb, o könül hardadır? O, aşağı sə- viyyəli adama nəsihət veriblər, nəfsini pislikdən, çirkinlikdən, pis vərdiş- lərdən təmizlə ki, cəhənnəmdən qurtulasan, deyiblər, amma qəlb və kön- lün keyfiyyətlərindən söz açmayıblar.

Allah-təala, "Yerlər və göylər məni dərk edə bilmədi, amma mən mö-

min bir qulumun könlünə sığdım” və “Möminin qəlbi Allahın iki barmağı arasındadır” və yenə “O, sizin qəlbinizə baxar” kimi səhih hədislərlə qəlb mərtəbəsinə işarə edilmişdir. Bu halda, “istək çoxluğundan və çirkinliklərdən arınmış bir qəlb görəcəksən”, deyən Sənainin bu sözünün ətrafında çox düşündüm. Yaddaşımı qurdaladım, bu mənanı dərk etmək üçün çalışım, dedim. Mövlana Sənainin bu mənalı beytini də oxudu.

Beyt:
Ey Sənai, gəl bu aləmdə qələndərlər kimi yaşa
O təmizlikdən dəm vuran quru döyüşçünün gözlərinə torpaq saç!

Bax, quru döyüşçülərin məhrumluğu, onun xəbərsizliyi bundandır. Necə ki, Bəyazid ömrünün son günündə zünnar istədi. Şəhadət gətirdi. “Şəhadət edirəm ki, Allahdan başqa ilah yoxdur, şəhadət edirəm ki, Məhəmməd Allahın elçisidir” dedi. İndi burada iki dünyagörüşü var. Bəziləri onun müsəlman olaraq öldüyünü, bəziləri də kafir getdiyini söyləyərlər. Bir kimsə bu saatda iman gətirə bilər və “Ey Uca Allahım,” deyər, “Sən elə bir kərəm sahibisən ki, bir kafir Sənin haqqında yetmiş il yaraşmayan sözlər söyləsə, son anda Sənə dönsə və iman gətirsə, qəbul edərsən”, deyə bilər. Həzrəti Məhəmmədə (s) ümmət olmaq haradadır? Həzrət Məhəmməd (s) haradadır? Ona həm surətdə, həm mənada bağlanmaq haradadır? Yəni harada bir işıq və aydınlıq görərsən, Məhəmməd (s) onun göz nuru olar. Onun gözü də Məhəmmədin (s) gözü olar. Səbr ilə və başqa keyfiyyətlərlə bəzənmiş olar. Şeyx nədir? Müridin varlığı nədir? Ancaq yoxluq deyilmi? Əslində mürid yox olmadıqca mürid ola bilməz.

Hamamda iki nəfər bir-birinə əmanət verir. Bunlardan biri yuyunub çıx- dı, verdiyi çantanı istədi və alıb hamamdan getdi. Bir az sonra dostu çıxdı. Hamamçı, “pulun məndədir, ancaq o dostunu gətir, pulunu al”, dedi.

Mən indi haqq ərənlərdən, xalqdan gizlin yaşayan o icmadan söz açmaq istəmirəm. Onlar belə imkan tapdılar, belə yaşadılar, gəlib-getdilər. Mən də dedim ki, Mövlanadan başqa heç kim ilə danışmayım, yalnız Mövlana ilə söhbət edim. İndi gəl qulağına deyim, mən bir iş görmək istə- yirəm. Amma Allah əngəl olarsa, məni dinləməz. Bizi görən kimsə ya mü- səlmanın müsəlmanı, ya da zındığın zındığı olar. Çünki bizim mənamıza yetişməyənlər ancaq zahiri üzümüzü görərlər. İbadətlərimizdə xarici gö- rünüş baxımından çaıtşmazlıq taparlar. Çünki onun himməti ucadır, bu ibadətə də ehtiyacı qalmamışdır, sanarlar. Aləmlərin həqiqi səbəbi olan ibadətdən uzaqlaşarlar. Bir kərə mənim arzuladığım şey sənin

dediyin kimi deyil. Sən deyirsən ki, arzu edilən həmişə odur, onu incidən bir şey var, amma əli ona yetişməz. Bu sünnilərin məzhəbi tətbiqdə Mütəzilə məz- həbinə daha yaxındır. Mütəzilə məzhəbi də fəlsəfəyə yaxındır. Özgəyə quyu qazan, özü düşər, deyiblər. Bu necə bir inancdır? Mən ki, dərvişlik yönündən gəlirəm, bu yol bütün qorxu və təhlükələrlə dolu olduğu halda, yenə də Allah-təalanın qoruduğunu görərsən.

Bu saat sən bir dərvişə bərabərsən. Bu necə qorxu və pis düşüncədir ki, bu cəmiyyət Allaha, oküz otaran Əhməd, deyər. Onları tərbiyə edən nədir? Şübhəsiz, bu dünayda onlar palazlarını boyunlarına asmış, o faydasız əzab içində, o elmsizlik və cəhalət aləmində məzarlarının kənarına qədər sürüklənib gedərlər, məzar kənarından sonra Allah o qulunu cə-

hənnəmə qədər naz və nemət içində yaşadarmı? Deyək ki, mən bir ara köhnə libas geydim. Bu mənim arzumladır, yoxsa mənim haqqımda Allahın dilədiyi həmişə lütf içində lütfdür, kərəm içində kərəmdir. Ancaq bu var ki, mənim layiq olduğum şey yerinə görə lütf ola bilər, qəhr də. Amma lütfdən üzülürəm mən. Mənə hər dörd gündə bir az mürgüləmə, uyğu- lama halı gəlir. Bir az sonra bu hal keçər. O zaman bir loxma belə uda bilmərəm. “Sənə nə oldu”, deyərlər. Mənə heç bir şey olmadı, elə birinin divanəsiyəm ki, üstümü-başımı cıraram. Sonra gəlsəm, sənin libasını da cıraram. Bir şey yemirsənmi, deyərlər. Xeyr, yemirəm. Bu gün, birisi gün, o biri gün də…

Həmşəri nədir ki, mənim atamın belə məndən xəbəri yoxdur! Öz şəhərimdə belə qəribəm. Atam belə mənə yaddır. Könlüm ondan ürkür. Elə hesab edirəm ki, üstümə aşacaq, mənə gözəl söz söylərkən belə məni döyəcək, evdən qovacaq sanırdım və öz-özümə deyirdim ki, əgər mənim mənəvi varlığım onun mənasından doğulmuş olsaydı, gərəkdi ki, məndəki məna onun balası olsun, onunla uyğunlaşsın, anlaşsın və yet- kinləşsin. Küt toyuğun altına qoyulmuş bir qaz yumurtasıyam sanki. Gözümün yaşı sel kimi gedirdi.

Şeyx hədis danışır. Filan hədis alimləri ki, belə şəxslərin içəridə və çöldə qırx yetişdirməsi var. Bunlar ya divanə, yaxud sevdalıdır, deyirdi. Qulaq verdim, mənim halım o deyildi. Deyirdim ki, sən bizim atamızsan. Necə olur, bizi götürmələrini məsləhət bilirsən? Məni gizlicə divanə edir- sən, ağlımı qarışdırırsan, mən nə edə bilərəm?

Mövlana Cəlaləddin sanki məni bu zövq və istəklər aləmindən atəşə sürükləyir. Ancaq, “məni bağlamaq üçün zəncir gətirən o şəxsə dua üçün necə gedəcəm”, deyə düşünürəm.

İki sevgili arasındakı davranış necə olarsa, mən də sənin yanına elə gəlib boynuna sarılıram. Başqa nə edə bilərəm? Bu, dua ilə qazanılırsa, deməli, Haqqın iradəsi dilədiyimizə görə açıq-aydın müəyyənləşmişdir.

Çünki murad, yəni istək iradədən lap gizlidir. Murad iradəni tanıyır, amma iradə muradı tanımaz. Bu halda, o nə eləyərsə, Allah iradəsi ilə edər. Onun üçün işlərinə heç kimin qarışmayacağı o sevgilinin etdiyi hər şey iradəyə uyğundur. O hər nə edərsə, iradəyə görə edər. Hər nə iş olsa, iradəyə uyğun gələr. Bir kimsəni gördüyü zaman onun doğuluşdakı halını, son durumunu, həyatı boyunca hansı dayanacaqlardan keçəcəyini də görər. Amma əsla o işləri eləməyən, Allahın buyurduqlarına əməl etməyən kəs, necə olar ki, onun əksini edə bilər? O, bir yerdə ümid işığı görərsə, bəl- kə huşyar olar. Necə ki, Şeyxin nəzəri ona yetişmişdir, deyərsən. Elə

bir insanın işi o üzdən tamam olar. O, bu halın Şeyxdən və özündən olduğunu sanar. Belə bir Şeyxin təsiri necə olar? Baxarsanız ki, onda heç bir seyr* və süluk* yoxdur. Şeyx də özünə bir şey söyləməmişdir. Burada Bəyazidə "Xiyar tarlası" hekayəsini danışdılar. Dedilər ki, o adam heç qarpız yemədi. Dedi ki, mən Peyğəmbərin (s) qarpızı necə yediyini bilmədiyim üçün yeyə bilmərəm. Bax, Peyğəmbərə (s) uyğun davranış həm surət, həm də məna yönündəndir. Peyğəmbərə uyğun davranışı surətdə qorumaq gərəkdir. Bu halda, bu uyğunluqda həm surəti, həm də mənanı qorumağı necə ehtimal edə bilərsən? Həzrəti Mustafa (s) belə buyurmuşdur: "Uca Allahım! Bizə sənə sənin ucalığına yaraşan şəkildə qulluq edə bilmədik." Bəyazid isə, "Özümü təbrik edirəm, şanım nə ucadır!" deyir. İş belə olanda heç kim Bəyazidin bu sözünə baxıb, onun halı Həzrət Məhəmmədin (s) halından daha qüvvətli olduğunu hesab edirsə, çox axmaq və elmsiz sayılar. Əgər şəriətin həqiqi tərəfini axtarsan, bəli şəriət var, təriqət də! Şəriətin həqiqəti qəndil kimidir. Qəndilin məqsəd və mənası isə bir yerə getdiyin zaman sənə işıq tutmasıdır.

Ona həqiqətən etibar edə bilərsən. Ona fitil taxarsan, havadan as- arsan, onunla ətrafını görərsən. Amma bir yola getməzsən, onun sənə nə faydası olar? Həmişə yerində duran bir işıqla həqiqətə necə yetişə bilərsən? Gərəkdir ki, həqiqətə yetişəsən! Təriqət yolunda yürüyəsən! Deyək ki, bu bardaq duzlu su ilə doludur. Sənə, "bu, bulaq suyudur", deyirəm. "Ver mənə", deyirsən. Verirəm. Amma, bunun o acı suyunu ta- mamilə boşalt, deyirsən…

Hərarət soyuqluqla, soyuqluq hərarətlə birlikdədir. O işlər soyumadıqca bu iş asanlaşmaz. Bu söz sona yetməyib hələ. Amma yuxunu qaçırmır. Yuxum qaçsın deyə başımı sənə dayadım.

Bu su və torpaq aləminin o yanında, qeyb aləmindəki dağın arxasında Yəcuc və Məcuclar kimi bir-birimizə qaırışmışıq. Qəfildən oradan bizə "enin aşağı!" səsi gəldi. Oradan bu aşağı aləmə endik. Uzaqdan, qaranlıq və heçlik aləmində bir varlıq peyda oldu. Uzaqdan kəndlər, ağac-

lar hələ ki, görünmürdü. Bu aləmi heç görməmiş tifillər kimiydik. Yavaş-yavaş yaxınlaşdıqca, buğda dənəsi və tələnin bəlası yavaş-yavaş gözümüzün önündə peyda olmağa başladı. Taxıl dənəsinə qovuşmanın zövqü tələyə düşməyin çətinliklərinə üstün gəlməsəydi, bu aləm, bu varlıq da meydana gəlməzdi. Deyilənə görə, Adəm uzaqdan bir daş gördü. O daş zərblə ona tərəf gəlirdi. Sevgisi ayaqlandı və ona doğru qaçdı.

Dedim ki, onların ucalığı, sayğısı ancaq əlli insanadır(!) Biri sizin haq- qınızda qazıya və başqasına bir alimentlə bağlı iddia qaldırmışdı. Hətta

adınızı belə söyləməmişdir. Çox vaxt Qazı havadan hökm verər və deyər ki, sözüm onun bacısı üçündür, ona aliment ver. Bu, sənə borc sayılar. Mənim qorxum sizin könlünüzü qırmaqdır. Deyərlər ki, bir şeyi almaqda çirkinlik olduğunu, onun dəyişdirildiyini görərsən, üzülərsən. Şər yolu ilə getmək insanın xoşuna gələr. Bu işdə səbatlı olmaq da ona fərəh verər. Amma Qazının havadan hökm verməsi bilinməz ki! O çox vaxt ancaq şəriət qaydası ilə hökm verər. Fəqət bəzən də havadan, yəni kefinə görə qərar verər. Buna qarşı tədbir görərik. Amma o zamana qədər də iş- işdən keçmiş olar. Bu, həmişə belədir.

Sarayda bir padşah var. Padşaha gedən yol qapıdan keçər. Yəni ona sayğı göstərmək üçün gələnlər çox yüksək sarayın yan divarlarından girə bilməzlər. Allah saxlasın! O divarlardan atılmaq istəyənlər yıxılarlar. Hər şeyi mümkün görən sayğısızlar da ancaq qapıda qalarlar. Bəzilərinin qul- luqda necə duracaqları haqqındakı şübhə böyükdür. Dedim ki, bu, dayaz düşüncədir. Başqa bir cavab da var, amma burada söz təhlükəlidir. Bu sözü çox diqqətlə dinləyin. Qapı dalından gələnlərin Sultan sarayına müt- ləq qapıdan girmələri lazımdır. Amma padşahın bəzi xüsusi qulları da var ki, onlar əslində həmişə içəridədirlər. Bu, çətin bir mövzudur. Burada bö- yük təhlükə var. Həzrəti Məhəmməd (s) əslində xas qullardandır. Qulluq vəzifəsini tamamilə yerinə yetirirdi. Yenə cavab olaraq deyirik ki, Həzrət Peyğəmbər (s) qulluqda tam qüvvət və qüdrət qazandığı zaman belə ondan qulluq mənası əsla əskilməz və daim daha güclü olardı. Qulluğun yüksək zövqünü dadardı. O, qapıda olduğu vaxt özünü içəridə görər, içəridə ikən də özünü yenə içəridə tapardı. Amma başqalarında bu cəhət zəif idi. O məna onlarda yarımçıq qalırdı. Necə ki, Əbu Səid Əbül-Xeyr, Əbu Əli (Sina) üçün bu necə adamdır, demişdi. Bir şeylər etdimi, amma eləməmiş hesab edilir. Mən və Mövlana nə qədər işimiz olsa da, qəsdən olmasa belə, ibadət vaxtını gecikdirmərik. Buna razı deyilik. Bunları giz- lincə qəza edirik. Hələ cümə günləri namaza getməsəm, könlüm dara- lar. Nə üçün onun mənasını bu məna ilə birləşdirə bilmədim, deyə üzü- lürəm. Burada həqiqətən bir

üzüntü olmasa belə, üzülürəm. Amma bir qul ki, ibadət edərkən qəfildən ilahi hidayət onu cəzb etmişdir. Həm ilk öncə bu öyüdü xatırlayım ki, mənim sözlərimdə təkrarlamaq, yenidən anlatmaq yoxdur. Nə desəm, ona bağlanmaq yaraşar. Ona nə oldusa, sözlərimizi təkrar etməkdən oldu. Sözü heç zaman təkrar etməyin. Əgər biri, elə sözlər söylə, qəlbəyatımlı, maraqlı bir şeylər dinləyək, deyə israr edərsə, köhnə danışdıqlarımı təkrar edə bilmərəm. Əgər sənə lazımdır- sa, get dinlə! Mən bilirəm, sözün vaxtı nə zaman gəlir. Amma məsləhət görməsəm, danışmaram.

Ustad Əbubəkir (Səllabaf) bizim pirimizdir. Gəl ki, sənin üzündən öpüm. Əgər bu saat onu Qazının yanına aparsalar, bizim xeyrimizə danışar. Ona bizdən dinlədiklərini izah edər. Ona, nə üçün mənə şahidlik edirsən, deyərlərsə, bu cavabı verər: "Mən Adəm oğluyam. Babam bir yanlışlıq etdi, Şeytan onun yönünü kəsdi. Sən də mənim yoldaşlığımı qəbul etməsən, alçalarsan, lənətə gələrsən. Məgər bizim gözlərimiz kordur?" Bir hədis var. "Allah-təala yaradılmışları, onların keyfiyyətlərini yaratmağı, güzəranlarını, yaşamaq vaxtını müəyyənləşdirməyi tamamladı" anlamındadır. Bu doğrudur, amma Quranda da "O hər gün yeni bir haldadır" anlamına gələn bir ayə var ki, bunun sözügedən hədisə uyğun gəlməsi üçün açıqlanması lazımdır. Burada O hər gün qulunun halıyla maraqlanmaqdadırır, yəni əzəldən əbədiliyə, başlanğıcı olmayan zamandan sonsuzluğa qədər belədir. Necə ki, qul da həmişə onun halındadır. O da beləcə qulunun halından ayrılmaz.

Dünən gecə iki dəfə sizi xatırladım. Ürəyim yuxaldı, mənə bir ağlamaq üz verdi. Xoylu Məhəmməd mənə, Sadəddinin yanındaydım, o, Qur- andakı, "Cinləri və insanları yaratdım ki, Mənə itaət etsinlər" mənasını verən ayəni təfsir edirdi. Ondan soruşdum: Bu Allahın heç bir dua iltiması yoxdurmu? Deyirlər ki, heç dünyaya gəlməsəydim, bu yaradılan varlıq- ların mənə görə bir yad eşşək qədər dəyəri olmazdı. Bu halda, bu necə təmənnasız olar? Ona nə deməlidir? Buna görə də söylədiklərin həqi- qətə uyğun gəlmir. Sadəddin güldü. Ona dedim ki, bu işə gülmək lazım olduğunu bildiyim üçün mən də gülürəm. Mənə "bu gecə bizdə qal" dedi. "Buralarda nə edəcəyəm" dedim. "Beynimi qurudursan, müridləri də boş beyinli yetişdirirsən, sonra nə olacaq" dedim. "Barı, gedim bir şorba içək." "Get" dedi. Qərar verildi. O istəyirdi ki, sənin bir zındıq olduğuna fətva versin. Ona niyə etibar edirsən?

"Nə deyirsən", dedim. Mənə, "sən küfrdəsən," deyənin qarşısında ayağa qalxıb, əl-qolumu bağlamalıyam. O, zahirdə göründüyü kimi deyil. Mən də belə sanır və qorxurdum ki, öncə məni darğanın qabağına çıxarar, asdırarlar. Bu, ondan deyil, bizimlədir. Əgər mənim yanıma gələrsə, qov getsin, dedi. Amma mən, qorxmayan ancaq Allahdır, deyə bil-

mədim. İş elə gətirər anlamaz, soruşar: Allah necədir?

Mövlana Cəlaləddin, "ona, sus, dedim hələ", dedi. Amma mənim dərimi soyalar, onunla danışmaram. O halda "indi danışma" dedi. Dedim ki, bu qədəhi əlinə al, sənə səcdə edim. Onu elə bir vəziyyətdə gördüm və dedim ki, qədəhi mən başıma çəkirəm, sən sus, heç danışma. Xoşuna gəlmədi. Dedi ki, aydınlığı qızıl altında axtararsan, dibi qurğuşun çıxar.

Şəmsəddin deyirdi ki, bu müdriklərin heç bir dəyəri yoxdur. Həmişə "bizik, bizik", deyə bığlarını burub durarlar. Bizim bu Şahab da axmaqdır. O da, "mən eləyəm-beləyəm", deyə bığlarını sığallayar. O şey ki, yoxdur, sən kimsən onda? Nə şirin zındıqsan! Şəmsin sözünü başqalarından is- təyirəm, mənə heç qeyrət gəlmir. Mən bilmirəm. Mən onun baş tərəfini alıram, sənə gəlirəm. "Mövlana Cəlaləddin məndəki böyük qorxunu alt- üst edər", deyə qorxuram. Dua edirdi. Mərdliyin həmişə olsun. Bu, buğa- nın dalı sıxdır. Mən yüz cür çarə axtarıram. "Allahım", deyirəm öz-özü- mə, "üç-dörd günlük vəzirin təkyəsinə gedək barı." Amma böyük ziyan olacaq.

Sultan Mahmud Qəznəvi Hindistan müharibəsinə gedərkən böyük bir çadırı vardı. Onu qurmaq üçün çox güclü səksən nəfərə əmək haqqı verirdi. Günorta namazına yaxın bir nəfər gəldi. Mən bu çadırı təkbaşına qurararam, dedi. Sübh namazından əvvəl çadırı qurdu. Amma padşahın üzü döndü. O gözəl xasiyyətli Sultan Mahmud qəzəbdən yaradılmış bir insan olmuşdu. Vəzir qorxusundan heç bir şey deyə bilmirdi. Ağzını açsa, min kəllə bir qəpiyə gedərdi. (Hekayə aşağıda davam etdiriləcək- R.M.)

Beləcə görülən iş boşuna deyil. Aləmdə bu qədər böyük iş yoxdur. Fəqət bütün bunlar bir əlamət və ya istək uğrunda edilmişdir. Bunda istəkdən heç bir əlamət yoxdur.

Bu dünayda Mənsur Həllac özünü bir şübhəyə saldı. Bəyazid isə əcəli yaxınlaşanda cəsarətsiz davrandı.

Deyirlər, böyüklər ki, ömürlərinin sonunda tam bir inancla ona üz tutdular, o sevgili hardadır? Xalis münkirlər hardadır? Yol o cəhətdən ruha tərəf gedər. Bu cəhət isə saliklərin* getdiyi yoldur. Saliklər o yolla gedərlər.

Bu iş mədrəsəyə gəlməz, başqa tərəfdən də anladıla bilməz. Bu dünyanı görürsən, bir ilin durumu belə onların canına üşütmə salır.

Həzrət İsa (ə) da bu dünyadan siçan pişikdən qaçan kimi qaçdı. İgid gərəkdir ki, yeddibaşlı aslanla vuruşsun, amma qəm yeməsin. O, ticarət karvansarasındakı alış-verişdən əldə etdiyi yetmiş çuval ipək ilə, kölə və cariyələri buraxsın, hər şeydən əl çəksin. Bilmirsənmi ki, onu kim yaratdı? Başqaları da, hər biri bir-bir qurban kəsər, onların o qurbanda ruzi-

ləri yoxdur. Amma mən onların loxmasını yeyərəm.

Ramazan boyu namazdan əvvəl bir-bir qurban kəsərdilər. Biri dedi ki, bir soruşaq, siz qurbanı kimin üçün kəsirsiniz? Mən imamlıq edirəm, amma görmədim. O biri cavab verdi ki, vallah, bir yerdə yeyək deyə, sizi

çağırmağı fikirləşmişdim, amma məni başqa bir nəfər çağırdı, məşğul idim, dedi. Görəsən, onları nə üçün döymədilər?

Xüms yolundan o rəhbər qaçmadı. Hər kəs malını qabağına saldı, həmişə ilk karvanın önündə olanı qarət etmişdilər. Böyük alimlər belə ölü kimi, yatanlar kimi söz danışmaqdan uzaqdırlar. Ancaq röyasında Peyğəmbəri (s) görənlərin halı başqadır.

Beyt:

Dedim ki, tikansız bir gül qoparım, Ya da yar olmayanın yarı olum mən.

Üzünü turşutdu, sözlərimdən incidi. Necə ki, yuxarıda sözügedən Sultan Mahmudun o gözəl xasiyyətinə qəzəb və hiddət hakim kəsilmişdi. Nə vəzirin, nə saray əyanlarından heç kimin danışmağa cəsarəti yox idi. O arada vəzirin gözü Ayaza sataşdı. Onun gülümsədiyini gördü. Həmən yanına qaçdı və soruşdu: “Vəziyyətin nə olduğunu bilirsənmi?” Ayaz, bəli, necə bilməyim, dedi. O halda, bu nə işdir, deyə vəzir soruşdu. Ayaz cavab verdi: “İş Şahın buyurduğu kimidir.” Vəzir dedi ki, bu adam bir iddiada bulundu. İş istədiyindən daha yaxşı oldu. Padşah o adam yox ikən də eyni kərəm sahibi - padşahdır. Adam bu hünəri göstərəndən sonra yenə o, padşahdır. Bu dəyişmə nədəndir? Ayaz, bəli orası elədir, amma şah elə buyurmuşdur. Şaha belə dedi: “Ey qibleyi-aləm! Bu vəziy- yəti görürsən, işin iç üzünü açıqla.” Sultan bu cavabı verdi: “Qul ağaya necə əmr verər? Bu gün onun padşahı odur.”

Könlüm xoş olar. Bilirəm ki, daha Qazının yanına aparmayacaqsan.

İndi ki, belədir, bu qədər yetər.

Amma tez danışmırsan. Deyirsən ki, loxmanı beləcə ağzına qoy, ovcuna da yavaşca kişmiş töküm. Sərxoşam, ovcun doldusa, tökməyəsən yerə. Əlini yaxşı tut! Bu, üç oldu! Hey! Sənə su gətirməyə də kömək edim. Ey Asim! Əgər onlardan bir şey soruşub, onları susdurursan, sən də onlara cavab verə bilməzsən. Sadəddin Həmavi ona nə üçün cavab verə bilmədi. Amma o hardadır, siz haralardasınız? Onun yazılarında mənim sözümün qarşılığında ağlasığan bir cavab varsa və bu, öz beynindən və könlündən doğubsa, yeri var. Amma əgər məni məcbur edirlərsə, həm şeyxlərin sözündən, həm də məndən bir qismət düşməz onun

payına. Əgər heç danışmasa, özünə sərf edə biləcək çox böyük savab qazanar. Bax, sən də belə elə! Ah, necə gözəl olar! Mən onun qulağına pıçıldayanda sən də eşitdin, bir ah çək barı!

Sən əvvəli bu məqam olan o işləri mənə izah etmirsən. Siz bunu arzulayırsınız, heç "xeyir" demirsiniz. Amma həmişə ağzınıza su alıb, bilmirik, deyirsiniz.

Şeyxdən faydalanmaq üçün iki şey soruşdum, səsini çıxarmadı. Görəsən, bizi o verəcəyi cavabın faydasından məhrum elədimi? Yoxsa, onu dərk edəcək qədər mükəmməl olmadığımızı sandı. Yaxud da onu bilmək bizə qismət deyildimi?

Dedi ki, onun adəti deyil, belə sualların cavabını verməz, ancaq vaxtı gələr, ovqatı durularsa, sözə başlayar və danışar. Görürsən ki, danışdıqları həmişə ondan-bundan öyrəndiyi və qondarma şeylərdir. Ya bir hədis, ya hekayə, yaxud bir şairin şeirini söyləyər. Özündən bir söz danışmaz. Öz bildiklərindən bir şey danış, bir cavab söylə, deyirəm! Amma o, hal diliylə danışır. Necə ki, bu divar sənə, məndən nə gözləyirsən, deyər. Sən də bu divardan bir səs çıxacağını gözləyərsənmi?

"Bu mənə aydındır", dedi. Sən nə üçün hücrədə aşkar şeyləri danışmırsan? "Mən qulaqlarımı tutmaq istəyirəm, eşitmək istəmirəm", dedi. Əgər o, sağ olsaydı, mən ondan bir şey dinləməzdim. Çünki onları səndən eşitdi. Burada alimə, kitaba nə ehtiyac var? "Nəfsini öldürdünmü", dedim. Çünki ölmək təkrar zülmətə düşməmək deməkdir. Səndə o zövq davamlı olmalıdır. Əgər davamlı və sonsuz deyilsə, bütün bu hal ilə deyirəm ki, nəfs ölmüşdür, deyək. Amma özü yavaş-yavaş ölər.

İndi bu elə bir şəxsin köməyinə bağlıdır ki, Allah onu da bir səbəbə bağlamışdır. Amma o əvvəldən Allaha tərəf gedibsə, ağla gələn ilk səbəb budur. Bu halda, o şəxs gələr, səninlə onun arasında yerdən göyə qədər çəkilmiş bir divar olsa, o yardımçı o divarı götürər, bir təpiklə o maneəni yıxar. Bundan əvvəlki divarları necə uçurduğunu da öyrədər sənə! İndi sənin işin onun köməyinə belə bağlamaq olanda, bu sona qədər davam edər. Onun bu ilk yardımlarından sonra Allah cazibəsi gələr. Allahın qəzasına boyun əymək sənə nə qazandırar? Onun işlərinə razı olmaq lazımdır. O həmişə nə edər və söyləyərsə, boyun əyərsən. Başqa bir şey edə bilməzsən ki, O da yardımını kəsməsin! Bir şey ki, yardımı artırar, ona olan sayğı və sevgi çoxalar. Biz ölçüb-biçdik, içdik, bardaqlar və kuzələri aşırdıq! O qədər ki, əlimizdən çömçə də, kasa da təngə gəldi! Saqi hər kəsi bezdirdi, amma o saqi də ancaq bir nəfərdən qorxdu, əlində aciz qaldı.

Müntəzəm şərab içmək, şübhəsiz, ağlı qaçırar. On qədəhlə sərxoş olmasan, on iki qədəhlə olarsan. Deyək ki, bir küp dolusu içib-qurtar- dın,

başqa bir küpdən içərsən. Sonra da batmanla içər, evdə nə var-

sa axırına çıxarsan. O zaman şərabçı sənə deyər ki, bu meyxanə boşaldısa, şəhərdə meyxanə çoxdur, oralara get. Bunlar söz müdrikliyi baxımından söylənib? Yoxsa, bir küp dolusu şərabı kim içə bilər? Yüz nəfər belə içə bilməz. Amma bu aləmdə hələ eşidilməyib ki, içki düşkünü olan bir adam şərabını tökdüyü zaman daha ayıqdır. Yaxud hər kim çox sərxoş olar, xirtdəyinə qədər içərsə, daha hüşyardır. Bu belə olanda, kimdir o ağlı başında olan huşyar ki, eyni zamanda bir cahanı və aləmi ağıllandırsın? Bax bu çaşılası bir haldır. O igidi görmürsənmi ki, ilahi şəraba aldanmış olduğu halda, həmişə əlində şərab tutmaqdadır! Varlığı başdan-başa şərab olmuşdur, budur, o igid gəldi. Bax, görmürsənmi, o şərabı başaşağı gətirən Pir gəldi, içimizə yıxıldı! Amma onun yıxılması min kərə qalxmasından daha xeyirlidir.

Allaha and olsun ki, bizim qapıb-qamarladığımız o igidi Allah yenə bizdən alacaqdır. Nəhayət, sənin qarşına yolda pərdələr çəkildi. O Şeytan Allahdan başqasından gəlmişsə, o yoxdur demək. Şeytan sənin qarşına çıxa bilməz. Bunu yaxşı yadında saxla!

Görürsən ki, səni necə qamarladım, dostlarımızdan biri yadıma düşdü. Düşmənlərimizdən danışmıram. Düşmənlərimizdən desəydim, o dostlardan olardı.

Mövlananın sözü yerindədir. Buyurmuşdu ki, o kimi söyərsə, övliya olar. Gərək deyil ki, bizim sözümüzü kəssin. Mən dedim ki, burada o qədər qüvvət var ki, onları tək rəngə boyayaq. İçində qiyam və ruku kimi fərzlər olmasa belə, Allah ilə bir olarsan, canına qüvvət gələr. Tənin aradan gedər, gözün çağlayan suya dönər.

Qəbristanlığa gedəndə ölülərə saygı göstərmək, onlardan bir şey istəmək vacib deyil. Ancaq ölülərin halını soruşmaq dirilərə vacib olar. Qəbristanlıqdan keçərkən, "salam sənə ey möminlər yurdu", deyərsən. Əgər biri desə ki, "sən ölüsənmi, dirilər ölüylə danışmaz, onun səsi bu aləmdə deyil." O başqa bir aləmdən gələn səsdir. Buna görə mənə nə buyurursan, nə edək bu aləmdə? Bunun işlə nə əlaqəsi var? Çox söz eşşək kimidir, deyirlər. Bu, məlumdur, amma sözdən də iş bəlli olar. Amma gərəkdir ki, söz həm öyrədici, həm də aydın olsun. Danışarkən maraqlı, gözəl və zövqlü danışmaq lazımdır. Söz quru və dadsız olma- malıdır. Söz nə qədər aydın olarsa, o qədər aşkar görünər. Zaman-za- man xoşa gələn bir sözün əksini belə söyləsələr, yenə ona zövqsüz bir söz deyə bilmərik. Söz var ki, hər yana çəkib-çevirə bilərsən. Necə ki, "minarədən tullanarkən yarı yolda peşman oldu" dediyin zaman sözünü təkzib etmirəm. Belə, amma mümkün olan şey deyil, demirəm. Səndə bir

qüvvət varsa, söylədiyin sözlər mənə çox cazibədar gəlir, dedi. Ondan soruşdum: “Artıq nə cazibə axtarırsan? Hər nə söyləyirsən dinləyirəm, onu doğru olan tərəfə çəkmirəm, zövq alıram.”

Həzrət Peyğəmbərin (s) “Ya Rəbb! Bizə əşyanı olduğu kimi göstər” anlamındakı duasının iç üzünü anlamayanlar bu daş və kəsək aləmində rahat yaşayarlar. Ancaq gözü açıq olanlar Allah aləmində seyrçi olarlar. Məgər sənin də qulağın və ağlın bu yolda deyilmi? Bəli, bəli, dedi. Ta bu günə qədər yüzlərlə asılqanda qalmış mövzulara deyindik. Burada sənə kim mane oldu? Hər yolda həvəslə sənin söhbətinin dalınca qaçdım. Sənin söhbətinin keyfiyyətini soruşanlara, mən onun məclisinə Qayseridə yetişdim, dedim. Şeyxin lütfü və kəraməti mənə yetişdi. Onun bir işarəsi ilə mənə divanələr bağlandı. Ancaq gəldiyim zaman o məclisə yaraşan keyfiyyətlər məndə hələ ki, çatışmırdı. Sən getdikdən sonra təkcə məni yanına çağırdı, dedi ki, mən ona göstərdiyim könül alçaqlığını sənin üçün göstərdim. Artıq bunu eləməyimə səbəb yoxdur, nə üçün edim? Deyərlər ki, müsəlmanlıq lazımdır. Əgər müsəlmanlıq lazımdırsa, ona səy göstərilməli, yoxsa adamı aldadan ağıldan nə çıxar? Boş sözlər de- yilmi? Bəli, dedim. Müsəlmanlıq da kəskin düşüncədən doğmuşdur, çox yaxşıdır. Allahın seçilmiş bəndələri yoxdurmu ki, müsəlmanlar arasından yetişmiş olmasın və yenə eyni müsəlmanlıqdan onlara bir qorxu gəlməsin? Hamısı kiçik yaşlarından bəri müsəlmanlıqdan başqa bir işə çalışmamışdılar, çalışmazlar da. Nə qədər müsəlmanlıqdan və müsəlman olmaqdan qaçsalar da, müsəlmanlıq onların üzlərindən oxunur.

Başlarını aşağı dikib “bəli, bəli” deyərlər. Mən də başımı aşağı dikərəm, deyərəm ki, belə ifrat davranışların nə dəyəri var? Əgər onu şərab alçaltdısa, şərabın təsiri altında qalar, söz söyləyə bilməz, söyləsə də bəlli olar, heç anlaşılmaz, onun başı da bəlaya düşməz. Ancaq o şəxs ki, susmaq üzündən alçalmışdır, o, şəraba dayana bilməz, onun işığını və qoxusunu dərk edə bilməz. Onun başı özünə görə təhlükədədir. Mənsur Həllac da bunlardandır. Amma budur Həllac buna görə şərabdan üz dön- dərdi. Bunun aləmdə bir əks-sədası yoxdur. Amma aləmdə onun sözünü də heç kim söyləmədi, bax buna görə Həllac qərib insan oldu. Bu aləmə gəldi, gördü və getdi. Amma o birilərdən bəlkə yüz min insan var.

Əvvəl bütün yolları qapadım. Mən indi deyilmiş (gəvələnmiş) sözləri dinləmək isəmirəm. Sənə qulaq asıram, səndən təzə sözlər istəyirəm. Sənin sözlərin hardadır? Bəli, qulağım dincəldi. Amma qulaqları sevinən o icma da buna görə qovğa edir. Əgər burada bir düşmən olsaydı, o an öldürərik, deyərlər. İndi ki, aramızda düşmən yoxdu, bir-birimizlə vuru-

şaq? Amma amansızcasına vuruşmayaq ki, bir yerimiz qırılmasın, kimsə

ölməsin, bir-birimizin üzünü şil-küt etməyək, dedim.

Amma o, “heç inkar etmədi”, dedi. Mən də “etdi” dedim, həm də mənəvi inkarda bulundu. Səmam haqqımı vermədi, onu tamamilə anlamadı, bax bu, inkardır. Yoxsa sən əvvəldən mənə bu sözü dinləməkdən utanc gəlmir, deməmişdinmi?

Böyük Mövlananın (Sultanul-Üləma) sözünü yazıram. Buyurur ki: “Əgər Haqqı görə bilmirsən, necə səcdə edirsən? Allahdan daha bö- yük birisinəmi səcdə edirsən?” Nəhayət, yazılması küfr sayılan bu sözdə bir qeyri-sabitlik varmı? Quranda “De ki, əgər dəniz Allah yarat- dıqlarını yazmaq üçün mürəkkəb olsaydı, yaradılmışların sayı tükən- mədən dənizin suyu tükənərdi, istər dənizə bir yardımçı da gəlsin!” buyurulmuşdur. Bəziləri bu mövzuda qorxmadan çox açıq danışıblar. “Yusuf və Züleyxa” hekayəsində necə gizlilik ola bilər? Ancaq o sirrin sahibi onun açıqlanmasını istəyərsə, açıqlayar. Yoxsa o sirr var olduğu müddətdə sirr olaraq qalar. Bilməyənlərə görə sirr yoxdur, onlara görə hər şey aydındır. Haradadır o insan ki, içində bir sirri olmasın. Bir sirr ki, yəhudilərə və məcusilərə qədər gəlib, oxuyan uşaqlara qədər ulaşmışdır. O, necə sirr ola bilər?

Bəli, sirr olar, amma necə olar? Qurani-Kərimin vacib buyurduğu şey necə sirr olaraq qala bilər? Bəli, sirr olar, amma Quranın açıq-aydın vacib buyurduğu bir şey sirr deyil. O dəyişən rəngdə də ola bilməz. Sirr necə dəyişən rəngdə ola bilər? Hələ sözdəki himmət həmişə davamlı olarsa.

Qurani-Kərimdəki nasix* və mənsux* bəhsinə gəlincə, bunlar necə qədim ola bilər? Və’d ilə Va’id də elə müxtəlif deyilmi? Bu, dərk olunmaq- dakı əskiklikdən irəli gəlir. Nasix-mənsux kimidir. Və’d də Va’id kimidir. O cəhət bu sözlərlə anlaşılmazsa, bunu başqa bir deyimlə buyurdu ki, bu sözü gizlədək.

Hər gün sözümün üstündə durmuram. Necə ki, Sənai o insanın atdığı kərpicləri güclü şeirləri ilə parçaladı, onun ayağına vurdu. O za- man adam, “Hey, hey! Nə edirsən?” dedi. Sənai bu cavabı verdi: “Sənə şeirlərini çürütmək, xarab etmək, deyəsən, çətin gəlir.” O adam so- ruşdu ki, sən nə üçün mənim şeirlərimi dəyərsiz sayırsan? Yoxsa sən Sənaisən, deyib onun ayağına döşəndi. O xilaf, yəni mükalimə alimi olduğundan mübahisəçi olmuşdu. Amma bu sözümdən onda bir mə- həbbət aydınlaşdı. Artıq onun sözünü yerə salmadım, dedi. Sən də öz mənliyindən qurtulduğun zaman ona dön. O sənə dönəndə sən də

dönərsən. Beləcə susarsan. Amma sonra nə edək, dedi. Dedim ki, sən də qalxarsan, alnından on dəfə, yüz dəfə öpərsən, mübahisə belə olar.

Bu sual yalnız Rəşiddədindəndir, yoxsa hər kəsdən? Gəl ey pak ruh! Biz saman altından yeriyən suyuqmu? Necə ki, su samanın altından ya-

vaş-yavaş axar, suyun xəbəri olmaz. Saman qəfildən havada toz- torpaq olar, bir həmlədə uçub gedər. Amma su qalar yerində. Sənin olduğun yerdə dost meydandadır. Aslanı ovlamaq üçün ona qaraqulaq deyilən bir heyvan göstərərlər. Onu görmədən aslan tutula bilməz. Sufi də sürünə-sürünə kamilləşər. Şihabəddin Sührəverdi Allahın zatı və zatdan o tərəfi haqqında fikir söylədi.

Ürəyim Nəsrəddini istəyir. Ziyaya belə demişdi: "Arvadım Allah deyəndən demir." O da, onlar yatmaqdadırlar, yuxulayıblar, gərək biz oya- daq, dedi. Bir kərə Şeyx Əbubəkiri sınamaq üçün dedim ki, ondan məh- rum olduq. Dedi ki, onun müridini görürsən yəqin! Bu sözü eynən Şərəf də, Əbubəkir də nağıl etmişdi. Bir ara, əgər bu yarmanı yemək sizdə qaz əmələ gətirirsə, mən qaz yaradan şeylər yeyirəm. Bunu inkar etmirsən ki, dedim. "Xeyr" dedi. Onda nəyi inkar edirsən? Onu eləməyək, bəs nə edək? Ev birdir, qışı min cür çətinliklə yaşayıram. Zaman-zaman damlara çıxıram, nə qədər gücənsəm, bir səs çıxmır, amma burada qorxudan da- marlarım alt-üst olur. Bağırsaqlarımda qaz yığılır. İstəyirəm ki, o an bir ləyənin arxasına taqqıldadım ki, səs eşidilməsin. İndi də belə fərz et ki, mənə o utandırıcı hal gəlməsin.

And olsun ki, sənin üzünü görmək bizim üçün səadətdir. Həzrət Məhəmmədi (s) görməyi istəyən rahatca getsin Mövlananı görsün. Rüzgarla dalğalanan çəmənlər kimi özünə əziyyət vermədən onun qarşısında əyilsin. Bunun əksinə davranmaq istəyən də istədiyi kimi yaşayar. Mövlananı tapan nə xoşbəxtdir! Mən kiməm? Mən bir kərə tapdım, mən də xoşbəxtəm. Əgər inancında şübhən varsa, o ən kəsə yolla şübhələrini götürər. Biz şübhəmiz üçün bunu istəyirik ki, bir zaman ondan xoşu gəlsin. Bir az da sənin canına üşütmə düşsün. Bu, bir iş hesabı deyil, dostluq hesabı da deyil. Bu yol o tərəfə gedən kəsə yoldur. Mövlanaya qarşı günün xeyirlə keçsin, gecən səadətlə, deməyin mənası nədir?

Bir günü bir nəfər soruşdu: "Ayədəki, "Allahı sübh tezdən, gecə- gündüz təşbih et" deyə buyurulmasının mənası nədir?" Ona bu cavabı verdim: "Yazı öyrənməyə çalışan bir uşaq ancaq sözlərin alt tərəfini an- layar, sən də beləcə sözü altından anlayırsan. Bu halda, burada fərq nədir? İndi ki, bir həqiqətə yetişə bilmirsən, o da öz çalışmağı yönündən bir mərtəbəyə yetişə bilməz. Buradakı fərq görəsən, nə ola bilər?"

Dedi ki, gecə, bu deməkdir ki, bir bulud gələr, qarşına bir pərdə çəkər. Necə olar ki, övliyanın müridi onu yetmiş kərə görə bilsin? Kitab göndərilmiş peyğəmbərlər o mərtəbəyə yetişə bilməmişlər. Dedi, "bütün alimlərə görə, açıq-aşkar bilinməkdədir ki, hər peyğəmbərə bir xüsusiyyət verilmişdir." İbrahimə (ə) dostluq (Həbibullah), Musaya (ə) kəlam (Kəlimullah), Həzrət Məhəmmədə (s) ruyət, yəni Allah cəmalını görmə

və müxtəlif dostlar qazanmaq bacarığı verilmişdir. Amma o kəs ki, özlüyündən övliyalıq və peyğəmbərlik özünü görməkdir, deyərsə, bu ancaq bilgisiz xalqın tərəfini qorumaq üçündür. Bunu ancaq başqa sözlərlə ifadə edərlər. Nurların coşub-daşması, ilahi doğuluşlar və tapıntılardan açıq bəhs etməzlər. Bu gün o, bir həqiqətdir. Bütün alimlərin birləşdikləri bir məqam var: Övliya nəbinin mərtəbəsinə yetişə bilməz, çünki övliyanın, yaxud müridinin gör- düyü şey nəbidən nə üçün gizli qalsın? Ayədə: "Bu dünyada kor olan axirətdə də kordur" buyurulmuşdur. Mövlanananı məktubunda yazdığı bu söz düşündürücü və həyəcan vericidir. Daş olsa belə, o daşlığıyla yerindən qımıldanar, hərəkətə gələr. Həzrət Peyğəmbər (s) buyurdu ki: "Dövrünüzdə sizə Rəbbinizdən gələn qoxular var. Amma siz ondan üz çevirəcəksiniz." Mənə elə gəlir ki, bu hədisi, bu sözü və tərcüməsini xal- qa anladasan, bunun mənasını şərh edəsən! Görünür ki, bu gözəl qoxu- lar Allah yaxınlığına yetişmiş elə bir qulun nəfəsidir ki, səadət iksiri olar. Yoxsa, nə o kitab, nə o iksir, nə o səadət bununla ölçülməz. Bu iksirdən bir zərrə mislə dolu yüz min anbara dəysə hamısı xalis qızıl olar. O halda, o Allah dostunun nəfəsi hardadır, deyə soruşarlarsa!?

Şeir:

Dün gecə röyamda bir pir mənə dedi ki,
Eşq yolunun bəlası həmişə "mən" və "siz" sözünə görədir. Ona dedim ki, o halda "mən" və "biz" hansıdır?
Bütün bu çətinliklərin çarəsi sizdədir.
O şey ki, Haqqın eynisi deyil, həmişə "mən" və "biz" sözlərindən ibarətdir. Xətanın qaynağı odur, dedi.

Kəlam, yəni söz Allahın sifətlərindədir. Çünki Allah Kəlam sifəti ilə görünür, öz zatını gizləyər ki, söz xalqa yetişsin, pərdə arxasında qalmasın. Yoxsa, pərdədə olan Zat sözünü xalqa necə çatdıra bilər? Bu, Onun ixtiyarındadır, istəyərsə, bu pərdəni qarşısına çəkər, istəsə arxasına atar, onları pərdə arxasında gizləməz, deyərlər. Pərdələdiyi şeylərin də hicabını qaldırmaz. Bu sözü bu məqsədlə söyləyirəm: Danışdığım za- man bir neçə dəfə xoşagəlməz vəziyyətlərə düşmüşəm. Allahın zatın-

dan ayrılmaz sifətləri var. Möcüzə və kəramət isə qulun sifətləridir. Al- lahın möcüzəsi olmaz. Çox məqbul qullar var ki, onlara Allah sifətləri yol göstərər. Şeyxin mərtəbəsində olduğun zaman da, başqa şeyxlərin yanında da, çilədə qalmasan belə sənə müntəzəm bir xəlvət halı gə-

lər. Elə bir durumda olarsan ki, həmişə tənha qalmaq istəyərsən. Allahın elə qulları var ki, yanlarına gedən kəs onu daim xəlvətdə tapar. Mənə də indi heç kimin mürid olması lazım deyil! Mən nə üçün ona bəzi şeylər söyləmək qayğısını çəkim ki, o da məndən incisin və yolundan sapsın.

Bəli, hansı gün olduğunu yaxşı xatırlamıram, bir sözə başlamışdım. Mövlanaya lazım idi ki, o sözə görə mənə qəzəblənsin. Çünki mənim onunla aramızdakı dostluğa yaraşan da o mövzuda heç bir söz danışmamaqdı. Mövlana da ürəyiaçıqlıq nümayiş etdirir, xeyr, deyirdi. Mövlana, mənim üzərimdə fərz və vacib olanı mən yerinə yetirərəm, deyə cavab verirdi. Budur, o ürəyiaçıqlıq şeyxlərdən qalma bir qaydadır. Bu onların görəcəkləri bir iş, onlara yaraşan bir fəzilətdir. Bu, qədimdən bu yana belədir. Əzəldən əbədiyə qədər Allah ilə birlikdə ayaqda qalacaqdır. Ancaq bunu qulaqlar eşitməz! Çünki qulaqlar da toz-torpaqla doludur, göz də. O gözəl və böyük Allah kəlamı bu qula buyurdu ki, o barədə bir neçə söz danışaq, onları çağırıb yollarına çıraq tutaq. Ta içimdən gələn bu sözlər heç bir zaman söylənmiş sözlər deyil. Mən bir neçə nümunə ilə kifayətlənim. Bunların məzmununu Qurani-Kərimdən oxuya bilərsən. Sözün dəyişməsi mənanın da dəyişməsinə sübutdur.

Deyirlər ki, Həzrət Məhəmməd (s) Hira dağında xəlvətə girmişdi. Buyurmuşdu ki, bu xəlvət öz qurduğu qanunlara uyğun edilsin. Dedim ki, bunu özü etməmişdi. Mənə, biz sənin sözünə inanmaq istəmirik, dedilər. Xeyr, əsla, amma mən əvvəlcə nəql edilmişlərdən başqa bir şey soruşsam, təfsirdən bir şey söyləmədiyin kimi, öz aşkar dünyagörüşlərindən də açıqlamalar eləmirsən, dedim. Mənim yanımda sözlərimin məzmununu dinlədikdən sonra özümdən bir şey söyləmərəm, dedi. Bu halda, saqqalını, bığını bir-bir yolsam, bu mənim aydın dünyagörüşümün ifadəsi və mənim sözüm olarmı? Bu yolda bu söylədiyin şeylərə çox rast gəlinməz. Mənim əmrim olmadan kimə vəhy gəlməz, mənim əmrimlə gələr, mənim əmrimlə gedər kimi sözlər var. Ah, istədi ki, məndən bir söz eşitsin! Amma onu qabaqladım. Başını gicəlləndirdi, çaşdırdı. Hər şey mənim əmrimə boyun əymiş, mənim hökmüm altındadır, hər şey mənim buyruğuma və fərmanıma bağlıdır. Qəfildən bir ah çəkdi, baş-gözünə vuraraq bayıra atıldı. Ağ saçları bir-bir meydana çıxmamışdı ki, onları yolum. Nə üçün getmirsən, toplamırsan, dedi, istəmirəm, dedi. “Nə üçün”, deyə soruşdu. Bu gün mənim nəfəsimi kəsirsən, bu yemək mənə ziyan verdi. Məqsədin

nə olduğu mənə bəlli deyildi, mənə ziyan yoxdu, dedi. Çıxıb bir az gəzib birlikdə dolaşarıq. Bizimlə elmdən danış. Orada nə gəzib-dolaşacağıq. Əgər bu mərifət altı il əvvəl olsaydı, vaxt keçirməyə yarayardı. Dostlarla da bir yerdə olardıq.

Konyada bir çox Səma alimi, dəvətlər olurmuş. Biz görmədik. Yəni on- larda bir hal və qaldan* bir şey yoxdur. Görəcəksən, dedi. Sizin camalınızı gördüyüm gündən bəri könüldə sizə qarşı bir münasibət və sevgi yerləşdi. Əgər heç yazı yazmağı bacarmırsan, sənə yazmaq öyrədim. Ancaq sən bunu bilirsən. Mən elə birini istəyirəm ki, heç bir şey bilməz, amma öy- rənməyə həvəslidir. Bunu söylədiyim bu anda sən alçaq könüllülük gös- tərirsən, bu münasibət mənə nədən göstərilmədi, deyə üzülürsən. Sən mənim nə söylədiyimi eşitmirsən. O sənin nəfsini nəfsinlə tapdı ki, Pey- ğəmbər (s) haqqında, əstağfürullah, "yolunu  çaşmış" deməyəsən. Nə Allahı qeyb edib, yenidən tapmaqla bağlı sözlərdən, nə də müxtəlif söz yozumlarından başın gicəllənməsin! Bu nə qədər açıqmənalı sözdür, amma buradan Haqq yolçusuna yüz milyon sirr meydana çıxar. Bu mə- nada, Tanrı isimlərinin çevrələdiyi əngəllər ortadan qalxar, bu arada baş- qa divar və maneələrin necə aşılacağını öyrədər.

Məhəmməd Quyani, bu nədir, deyə soruşur və təkrar deyirdi ki, bəli, o onlardan daha bilikli alimdir. Yaraşarmı ki, o, onların qadın kimi nəfs- lərini bir Mövlana Cəlaləddin eləsin? Onlar bilməzlər ki, onların nəfsləri yaradılışda inci kimiydi.

Tusi (Zeynəddin Tusi nəzərdə tutulur. Şəmsəddin Təbrizinin müridi olub - R.M.) o buzovu məndən soruşurdu: "Nə deyirsən bu barədə?" Biri lap aşağı düşdü deyir, o biri bu, zikr baxımından olmalıdır, deyir. Dedim ki, xeyr, bu, Məzkur, yəni Allah tərəfindən olmuşdur. O, minbər üzərində bir neçə dövrə vurar. Bu halda, bilmirsənmi ki, nədir bu? Nə qışqırıb-durur? Qarşısında başqa iki buzovu da oturmuş, amma onları özünə yaxın gör- mür. Onlar da bizi öz vəzifəsində oturdacaq, deyə çabalayır. O, üzr is- təyir, mən onun şəhərinə gəldim, evinə qonaq oldum. Mənə nemətlər verdilər, xidmət etdilər, dedi. Bir bəhanə ilə onları bayıra çıxardı. Məndən suallar soruşdu. Dedim ki, iç aləmlə məşğul olan bir insan Qurani-Kərimi əzbərləməyin tərəfini saxlamaz.

Zeynəddin Tusi mənim müridim idi.  Onun da bir müridi vardı ki, divanə olmuşdu. Onu daha betər bir hala gətirdim. Dedi ki, o kimdir ki, mənim müridim ola bilsin? Mən onun kimiləri heç müridliyə qəbul edərəmmi? Çünki o ancaq öz həyatının qayğısına qaldı. Amma o kəs ki, özünü fəda edər, şübhəsiz, diri qalar. Çünki öz həyatını orada görər və

haraya gedəcəyinin sonunu bilər. Amma öz həyatını görməyən bu həya- tı necə havaya verə bilər? Gərək divanə olsun ki, ölümü həyatdan üstün tutsun. Bu məqamı aydın görən öz həyatını və onunla əlaqəsini yoluna qoyar. Kafirlər və onlara uyanlar əlaqələrini kəsmişlərdir. Ölüdən kimsə namaz gözləyərmi? Biri gəlib ölüyə, "qalx namaz qıl!" desə, bütün ağ- ıllıar, bu adam dəlidir, bunu dəlixanaya götürmək, zəncirləmək, hər

gün dəyənəklə döymək lazımdır ki, ağlı başına gəlsin, deyərlər. Amma yarı dəli olan kimsə bunu eşidərsə, xeyr, deyər. Bu, divanədir, bunu dəlixana- ya götürmək, yaxud öldürmək lazımdır.

Səndəki o müqəddəs quş bədən qəfəsindən uçdumu, artıq oruc düşüncəsindən, namazın utancından qurtulmuşdur. Çünki ruh uçdumu, bədən ölüdür. Kim ölüyə, qalx namaz qıl, deyə bilər? Bu halda, ölüyə belə təklif edilməzsə, deməli, eyni səbəblə yaşayan ölülərə də bir təklif edilməz. Yəni ki, təqlid yolu ilə xatirində bir şey qalsın. Amma şübhə yoxdur ki, buna da bu saatda doğru demək yaraşmaz.

Salam, ey yeganə dostum, xoş gördük səni! Nəfsin məndədir. Könlün də mənim hökmüm altındadır. Gah onun sözünü dinləyər, gah onun sözünü qəbul edərəm. Mənə deyir ki, gəl Yasin oxu, səni hal mərtəbəsinə yüksəldim. Mən deyim ki,  səndə hal mərtəbəsi var, məndə bu yoxdur.

O qadın müəllimə uşaqlara ərəb əlifbasını öyrədərkən, "əlif üstü fəthə, əlif altı kəsrə", deyə zümzümə edib, əl çalırdı. Mənə bir hal gəldi, rəqs etməyə başladım. Dedim ki, mənim üstümdə heç bir şeyim yoxdur, amma əlifin iki fəthəsi var. Mənim bu qış günündə dəri sırıxlım belə yoxdur! Həmişə şeyxlərdən qalma ənənələri xatırlayıram. Deyirdim ki, əgər yolçuluq edərsə, onunla birlikdə gedək. Onlarla demirəm. Bununla bəra- bər, min cür bəhanə tapıram, getməyək deyə, gözlərim ağrıyır, deyirdim. Gələ bilməyəcəyəm. Biz birinə bir şey söyləyirik, onun bu işlə əlaqəsini görə bilmiriksə, uzaqlaş, deyirik. Çünki çətinlik olar. Beləcə qurtararıq. Ancaq onda öz mənliyindən bir şey qalmadığı zamana qədər gözləyirik. Necə ki, bədənin yarası sağalanda üstündəki pambıq qopar. Çiling-ağac oyunu zamanında bir kərə mənə Cüneyd ilə Bəyazid halı gəldi, onlar nə elədilər, deyə düşündüm.

İndi Sultanın oğlu Sultan olar, meydanda top oynayar, topa çomaq vurar. Bu necə olur? Hər kəs bilir ki, çiling-ağac oynamaq harada, dövlət topunu oynamaq haradadır? Yəni meydandan iqbal* topunu qapmaq və onu istədiyinə vermək başqa-başqa şeylərdir. Allah buyursa, görünəcək, görülmüş olacaq.

Mövlana alnımdan öpdu. Mən mənəm, amma indi mən sən oldum. Eynilə elə görmürsənmi? Bu vəhdəti bir qaynayıb-qovuşma fərz et. Qalx gedək. Mənim nə zaman dostum oldun? Mən səninlə hansı məsciddə namaz qıldıq? İndi də ağlamaq zamanıdır. Anlamıram. Ancaq Pərir ağ- layırdı. Çeşmə başında oturdum susdu. Bir Həcc ehramının parçasını verdim. Qulağını bük ağlasın. Sən və mən məmnunuq! Allah məni sənin üçün yaratmışdır. Bütün aləmi sənə satdım!

Gedin, axtarın! O Şəmsi görə bilmədim. Hələbdədirmi, görəsən? O, iradəsini itirmiş müridlərin üzüntüsündən olacaq ki, o da onlar kimidir.

Bir neçə adam gedər, sonra buz kimi soyuyar. Amma əgər məni görsəydi, xidmət edərdi, buraxmazdı ki, gələm. Bu gümüşlər də yanımda qalardı.

Aman, nə yaman baxırsan! Bəli, nə deyirsən? Ya Rəbb! Olmaya ki, bir gün belə könlümdə ona aid saygı və sevgilər azalsın! Allah izn ve- rərsə, qətiyyən getməyi düşünmə. Ta bir həftə onun başını qatdım. Par- laq, aydın və gözəldi. İndi ki, insaflı davranırsan, ondan yüz min nişan tapacaqsan. Gah xəyala qapılar, gah şaşqın dayanarsan, insan oğlunun azuqəsi gecikse, yenə özü önünə gələr, pərdə olar, dedim.

Pis xəyallar pis xəyal deyil. Sənə də təmiz, gözəl və aydın bir xəyal beləcə pərdə oldu. Amma haraya gedər? O, sənindir. Ancaq o azuqə bu gün verilmiş olsaydı, gələn həftə başqa bir şey olardı. O azuqə bu gün də sənə yetişər, çünki sənindir o! Sənin olmasaydı belə yenə sənə yetişərdi. Çünki elə olmasını Allah buyurmuşdur. Allahın işi belədir. Mümkün olmayan şeyləri mümkün edər! Anadangəlmə korların belə gözlərini açar. Gözə bir ağ gələrsə, filosofların ağlı bu gözün artıq görə bilməsini qəbul etməz. Amma bu, peyğəmbərlərin ağlına sığar. Haqqı əlində tutan filosof, bu mənim işim deyil, məndə o qüdrət yoxdur, deyər.

Amma belə desən, özündən müsəlman olarsan. Qul elə bir vəziyyətdə qalar ki, yıxılar, üzüüstə qapanar, amma Allah yardımı onun əlindən tutar- sa, yenə qalxar. Tanrı o qulunu zikrə görə də məsul tutmaz, "icazəsi var", deyər. İnsan sevdiyini çox xatırlayar. Hələ o sevgili Allah olarsa, gör onda nə olar! Amma onu lazımı qədər xatırlamaq kimin əlindən gələr? Biz hə- mişə sizi xatırlamaqdayıq, sizin eşqinizlə coşuruq, istəsən vur onun bar- mağını sındır, mən deyərəm ki, o barmaq əvvəlkindən daha sağlam olar. Lakin sənə əl qaldıran o ədəbsizlərdən səni Allah qoursun. Cəbrailin belə bundan sonra onun ilhamlarını əlindən almağa gücü çatmaz. Bir "Əuzu bəsmələ" çəkərək barmaqlarını tut, eləcə qaldır.

Şirin bir zarafat bir Misir altununa dəyər. Bir Misir altununa dəyməzsə, bir Rey mis puluna dəyər, bir Rey misinə dəyməzsə, bir Rey quruşuna dəyər. Altun, daş-qaş dəyərində ola bilər.

Onlara, mənim qarşımda şərab içməyin, demişdim. O biri də deyirdi ki, bizlər din alimləriyik, mədrəsəmiz, məscidimiz var, qorxumuz yoxdur. Sən özünü üzən bir iş görürsən. Arada bir ziyan olsa nə çıxar? Mənə söy- lədikləri bu sözdən qorxmadım. Küpün içinə girib otursam belə, libasım namazdan geri qalmaz, mənə nə zərəri var? Əslində mənim uşaqlıqdan bəri qorxum yoxdur. Ancaq uzaqdan bir sərxoş görsəm, üstümə yıxılacaq deyə iyrənirəm. İndi pulun varmı? Səndən qan alıb bir fincan şərbət iç- irdək!

Bu gün "La ilahə İlləllah", yəni "İlah yoxdur, ancaq Allah var" deməklə əvvəl Allahı inkar edər, sonra Allahı xatırlamağa başlayarsan. Halbuki, kafirlər onun birliyini isbata ancaq "La ilahə İlləllah" dedikdən sonra baş- layarlar. Ondan sonra da bir dəstə qara və ad-san xəyalları başdan çı- xarar və daha sonra da o xəyallar keçib-gedər. Ən çox aydınlıq bu töv- hiddən sonra başlayar. Əslində işin və düşüncənin təməli də budur. Yox- sa ustadın və alim kimi dolanan şəxsin içdiyi şey bu deyil.

Qazı Xonci ona çox hörmət edir. O məndən daha ad-sanlıdır, sə- lahiyyətli insandır, deyərdi. Onun haqqında nə qədər "onu edir, bunu edər" deyə söyləsələr də, o, vecinə almaz, bunları üzünə vurmazdı. Bir gün deyirdi ki, bizə namusla bu işdən vaz keçməkdən başqa çarə yoxdur. Mənə də deyirdi ki, mənim haqqımda qazı belə söylədi. Mən ut- andım. Güldülər.

Kiçik yaşlarımızdan uşaqlara müəllimlik edirdik. İçirdik. Bu, bizim üçün köhnə bir adət halını almışdı. Bir neçə gün içməsəm, bədənimdə bir əs- məcə başlayar, iflici xatırladan bir narahatlıq olurdu. "Gözəl danışırsan", dedim. Amma yavaş səslə danışırsan. Gərək uca səslə danışasan.

O, həqiqətən bizə bağlıdırsa, mehriyyəni əvvəldən verər. Şəhərdə hansı qadın var ki, başlığını nağd almışdır? Harada o üzsüz qız ki, görümünün haqqını nağd istəyər? Harada o eşşək kürəkən ki, onu məndən üstün görər. Başlığı başqa bir yerə əmanət edib mənə güvənməz. Yaxud yerinə qoyar. Haradadır o mehriyyəsini almamış qadın? Onun nə dəyəri olar! Yoxsa mən onunla necə razılığa gələ bilərəm? Əlini uzatdı. "Əlimi istəyirsən, yoxsa kitabımı", dedim. Əlimi tutdu, dedi ki, budur kitab! Sö- zünə əməl et, iki insan arasında düşmənlik olarsa, hüzrdə barışdırılar. Birləşirlərsə, nə yaxşı! İki Allah bəndəsi dalaşqanlıqda davam edərsə, buna iki nəfər arasındakı anlaşılmazlıq deyərlər. Amma bu düşmənlik

və dalaşqanlıq Allah ilə bəndə arasındadırsa, düzəldilə bilməz. İki insan arasındakı anlaşılmazlıq ikitərəfli düşmənlik deməkdir. O, bizimlə birlikdə hiylə və kələklə yaşayır, bizə inanaraq deyil. Amma hiyləgərliyi də əməlli bacarmır. Halbuki, müsəlman bütün hiylələri bilir. Mən, əgər sağ olsay- dılar, deyərdim ki, məşhur Cuhanın hiyləgərliyini də bilirəm, Əbubəkir Rəbabinin hiyləsini də. Hətta Peyğəmbərimizə hiylə quran Abdullah bin Ümeyyənin mərifətlərini də bilirəm. Onlar mənə bu mövzuda çox şeylər öyrətdilər. Onlardan faydalandım. Buna görə bütün hiyləgərliyi öyrəndim. Hətta bunlar əlacsız olaraq, məndən bir tək şikayətdə belə bulunmadılar. Çünki bu işdə yetkinləşməmişdilər.

Abdullah neçə dəfə həbs olunmadımı? Əgər hiyləgərlikdə yetkinləş-

miş olsaydı, düşmənləri onu həbs edə bilməzdilər. Bəlkə o düşmənlərini həbs edərdi, onların xəbəri belə olmazdı. Bunu bilirəm, amma belə bir davranış göstərmədim. Çünki mən hiyləgərliyin sonunu və dərəcəsini də bilirəm, həqiqi davranışların sonucunu və dərəcəsini, haradan gəlib haraya gedəcyini də anlayıram. Bir qadın istəyir ki, həm hiyləgərlik etsin, həm də kimsə bilməsin! Əgər üzünü və yorğanı hazırlatdırsam, bundan daha xeyirlisi gələrdi. Bunlar özünün oldu. Amma əgər həqiqətən məndən asılı olsaydı, ona heç kimə vermədiyim şeyləri bağışlardım. Neçə kərə mənə zəhmət vermək üçün qazıya baş vurdu. Amma, bacıma yeddi dirhəmin əvəzində aldığı yorğanı gətirin, deyə bilmədi.

Bilirsənmi, sən kimsən, məqamın nədir? Mən sənə deyirəm ki, sən elə uca bir insansan ki, əgər Həzrət Peyğəmbər (s) həyatda olsaydı, səni əshabələrindən seçərdi. O biri peyğəmbərləri demirəm. O sənin yanına gəldi, səninlə birlikdə başqa dost seçə bilmədi, səni xəlvətdə ziyarət etdi. Bununla bərabər, sənin yıxılmaq təhlükən görünür. Amma bu, ağır yıxılmaq deyil. “Ancaq məqsədi qalxmaq olan bir yıxılmaq təhlükəsidir bu”, dedi. Buna görə qəbul etdim, amma aramızda olanları qəbul etmədim. Bu, xəsislikdən deyil. Əgər Allah bəndələrində xəsislik olsaydı, Allah qorusun, sən məni necə bəyənə bilərdin? Çünki mən səninlə birlikdə olsam, daha çox bəyənilirəm. Dedilər ki, bax, sən beləsən, onun səninlə bir yerdə olması xoşuna gəlmirmi? İndi etdiyi kimi sənə bir zəhmət verir? Elə isə bu yaxşılıqdan sonra mülayimləşmək lazım oldu. Xeyr, ancaq bun- da bir ikiüzlülük, bir nifaq var ki, o başqa yöndən gəlir. Şübhəsiz, sən bu gün gözəlsən. Biz Məhəmməd Quyanidən işıqlandıq, sən də pak qəlb- lisən. Ondan söyləmiş olduğun şeyləri dinlədim. Mən artıq zəifəm, sənə döndüm, bu məqamda dayanıb, səni dinləyirəm. Xatirimdən nələr keçir? Aramızda keçən acı xatirələri unudar, yaxud gizlədərsən, mən də bun- ları olmamış sayaram. Ancaq sən harada olsan, yenə əskik sayılırsan.

Sonra, görəsən, mənimlə Mövlana Cəlaləddinin bu uşağı arasında nə var, deyə düşündüm. “Allah bilir”, dedim. “Qəribədir”, dedi. Sənin bundan sonra bu hadisənin üstündə dayanmağına təəccüb edərəm. Şübhəsiz, biz səninlə ilk bir ildə anlaşılmazlıq halındaydıq, amma bunu sənə heç zaman demədim. Bunu gizlədiyim üçün də anlaşılmazlıq gündən-günə artdı. Şübhəsiz, bu sözüm yanan bir atəş kimidir. Mən də birinci il bu atəşlə qovruldum. Bir dəstə hekayələr danışdım. Artıq keçən keçib, mən də bu işdən vaz keçdim. Əslində, ta nə vaxta qədər danışacaqdın bunları? Həmişə əvvəldən bəri mənə danışdığın hekayələrdir. Vaxt var idi çox alovlanırdım. Bu vərdiş məndə o qədər də güclü olmazdı. Çünki məndə sevgi çatışmazlığı olmaqla bərabər bir ikiüzlülük də vardı.

İslam beş təməl üzərində qurulmuşdur, anlamına gələn hədislə böyük bir məsələ üzərində dayandım. Bizdən soruşdular: "Mənə cariyə versələr, bu, şəri bir evlənmək olarmı? Boşanma və evlənmə zamanı mehriyyə vermək lazımdırmı? Ona pula bir şey sata bilərikmi?" Bəli, bax istədiyin kimi sənə təslim oluruq, dedi. Bizim sözümüzə və işimizə razı oldu. Onun işlərindən və özündən ehtiyat edirsənmi, deyə soruşanda "bəli" dedim. Əgər o, "mən sənin məhəbbətini satın almaq istəyirəm, amma Allahdan qorxuram", desə, mən də, "istədiyin hər şey mümkündür", de- yərəm. İndi ki, Allahın adını zikr edib bir şey söylədin, Allah o işdə sənə kömək edər. O mənə bir cariyə verib, mən üzrlü səbəb göstərərəmmi? Bu ərmağanında həqiqi davranmışsa, heç naz edərəm?

Mənə dedi ki, cübbəni satmaqdan peşmanlıq çəkməzsənmi? Bu, inkar vacib edən bir sual, yaxud da anlamaq üçün soruşulmuşdu. Mən inkarla cavab verdim. Dedi ki, "əgər bu ondan deyil, desəm, bu, o mə- nanı azaltmaz." Bu cavab ancaq sənə sədəqə olaraq bir şey verən kim- səyə yaraşar. Sədəqə alan şəxs onu alarkən necə qürurunu sındırıb və alçalaraq alar, "mən fəqirəm, yoxsulam, heç nəyim yoxdur", deyər. Xas qulları bəsləyən o şəxslər üçün demirəm. Bu, Allahın əlində lap əhəmiy- yətsiz bir işdir. Bir şəxs başqa birini həqiqətən sevdiyini iddia edərsə, ondan dəlil istənilir. O dəlil isə mal vermək, ianə paylamaqdır. Necə ki, Mövlana da məni sevdiyini iddia etdi, gəldiyim zaman minlərlə ehsan verdi, məni qorudu. Bunların hamısını Allahın lütfü sayıram.

Musa (ə) dedi ki: "Allahım! Mənə bir dost verərsənmi, mən demədən mənə xidmət etsin." Görəsən, verdimi, vermədimi? Dedim ki, verdiyi bu yoldaş üçün ona müvəffəqiyyət də verdimi? "Hanı", dedi. İkinci dəfə soruşdu, Xızır (s) ona qəzəblə cavab verdi. "Mən sənə sən mənim elə- diklərimə səbr edə bilməzsən demədimmi?" Bu qəzəb, nəfsdən gələn

bir davranış deyildi. Allahın seçilmiş bəndələrində nəfsdən doğan qəzəb necə ola bilər? Allaha sığınırıq. O, ilahi qəzəb idi. Ondan ehtiyat etmək lazımdır.

Musanın (ə) başqa cür istədiyi üzrlərdən söhbət edilməz. "Əgər səndən bir şey soruşam..". dedi. Xızır (ə) əl vurdu, sevindiyindən oynamağa başladı və nəhayət, "tez söylə məni bu işdən qurtar", dedi. Özünə gəl, deyirdi. Allah haradadır? İndi nə verirsiniz ki? Böyüklərdən biri mənə bir şey izah elədi. Mən onu quru sözlərlə izah etdiyim üçün üzülürəm. Əgər Mövlananın istəydiyi odursa, mənə nə lazımdır ki, o yandan üz çevirmişkən Allah təkrar məni o tərəfə yönəltdi.

Musanın (ə) ağlından keçən o halı o, bir daha görə bilmədi. Bu Həzrət Məhəmmədin (s) ağlına gəlmişdi. Çalışın-vuruşun ki, arada heç bir pərdə əngəl olmasın. Sizə gedəcəyiniz yolu öyrətdim. Allaha yalvarın: Ey

Uca Allahım! Bizə bu var-dövləti Sən verdin. Bizim bunu əldə etməyimiz üçün heç bir yolumuz yox idi. Sənin kərəmin bizə işıq tutdu, təkrar kərəm et bizə! Bu var-dövləti əlimizdən alma! Bu barədə sizin yolunuzu kəsən Şeytan deyil. Ancaq Allah Əzimdir. Çünki Onun sizə göstərdiyi kəraməti qoruya bilməsəniz, əzəməti sizin üzərinizdə yar olmaz. Əgər aranıza bir neçə günlük bir ayrılıq girsə, ona yetişmək üçün çalışın. Mənim olduğum yerdə danışılan sözlər arasında bəlkə məndən eşitmisiniz. Araya nə övlad, nə də başqa bir şey əngəl ola bilər. Dilədiyiniz elə hərarətli olar. O diləkdəki şiddət və hərarət hər kimə toxunsa, onu yıxar və o, sizinlə dost olar. Ən soyuq şəxslərdə belə artıq soyuqluq qalmaz. Əgər o hadisədən sizə bir hal yetişərsə, o nə xoşbəxt olardı. Bu hala hər kim mane olsa, bax o, Şeytandır. Əvvəlcə Allah əzminə mane olmaq istəyər, amma indi o, bir iş görərkən Şeytan qarışarsa, sən də ona uydun demək. Xeyr, ağam! "Allahın adını anıb, ona yoldaş olaq", deyirsən. İndi bu sirrə nə üçün, dəyərlidir, deyirsən? Bəli, buna nə versələr dəyər, amma bu da əndazə ilə olar. Siz mənimlə yoldaşlıq etməyəcəksiniz, o başqa məsələ. Mən cəsur adamam. Nə Mövlananın ayrılığından mənə bir əziyyət, nə də ona qovuşmaqdan bir sevinc gələr. Mənim bir şeydən xoşum gəlməsə də, inciməyim də yaradılışımın gərəyidir. İndi mənimlə yaşamaq çətindir. Necə ki, Musa Peyğəmbərin (ə) o üçüncü arzusu Allaha qarşı duyduğu arzu və istək atəşindən, eşqə mübtəla olmağından idi. Yoxsa, Xızırla (ə) görüşmək üçün deyildi. Musanın (ə) bu xüsusdakı aclığı səndən daha azdırmı? O elə bir aşiq idi ki, səkkiz-doqquz gün heç bir şey yeyib-içmədi, buna görə də vəziyyətində bir dəyişiklik də olmadı. Xızıra dedi ki, əgər yolçuluğun haqqını istəsən, ala bilərsən. "Xeyr" dedi Xızır, budur səninlə

mənim ayrılmağımızın zamanı gəlmişdir. Aramıza hicran günü girmişdir. Musa Peyğəmbər (ə) oyandı gördü ki:

Şeir:

Dilbər getmiş, şam sönmüş, saqi mürgüləmiş, Can ver ki, onun vüsləti bir daha ələ gəlməz, Sərməst olanlara şəriət qədəhiylə badə verilməz.

Təcrid əhli olan ərənlərin bir yerdə içdikləri məclisdə, Öz nəfsinə tapınan qafillərə bir damla belə verilməz. Baharda yarın yanağından uzaq olunca,

Bağdan mənə nə, çəmənlikdə nə işim var? Bağdan yaşıllıq yerinə necə tikan qoparasan?

Mənim üçün sizinlə görüşmək daha xoşdur. Lakin Təbrizə getsəm, orada mənə mal, mülk, mövqe və uca məqamlar verərlər. Amma sizinlə bir yerdə qalmaq mənə onlardan daha xoş gəlir. Mənə mal və məqam vəd edənlər sözümü dinləməz və anlaya bilməzlərsə, bundan necə məmnun ola bilərəm? İnsan elə şəxslərdən xoşlanar ki, sözünə dinləyər və xatırlayarlar. İndi arzu etmək, Allah kərəmini axtarmaq elə olmalıdır ki, Musa Peyğəmbərin (ə) elədyiyi kimi, səbrsizliyi ucbatından heç bir əngəl araya girməsin. Necə ki, Musa Peyğəmbər (ə) soruşdu: “Aləmdə məndən üstün alim varmı?” Qardaşı Harun cavab verdi: “Bu dünyada səndən bilikli bir insan var.” Musa (ə) bu cavabdan hirslənmədi, ondan küsmədi. Bu nə sözdür, demədi. Amma, sadəcə, “necə dedin” deyə məlumat istədi. Çünki axtarırdı.

Harun da peyğəmbər idi, amma hökm sahibi deyildi. O vaxt hökm sa- hibliyi Musa Peyğəmbərdə (ə) idi. Bu sözü özümdən söyləyirəm. Mənim də bir axtardığım varsa, “belə edərəm, edə bilərəmmi”, deyə diqqət ed- ərəm ki, arada bir maneə olmasın. Musa (ə) dostuna “illərdir axtarıram” mənasına gələn “ev əmza hukuba” demişdi. Bu hukub, bir ehtimala görə qırx il, başqa bir yozuma görə qırx min il, başqa bir dəyişikliyə görə də səksən il və ya səksən min ildir.

Musanın (ə) bu hekayəsi o qədər maraqlı bir hekayədir ki, atəşindən göylər alışıb yanar. Amma bunu həzin-həzin anladırlar. Musa (ə) ilə dostu iki dənizin birləşdiyi yerə gəldilər. Bura bir ehtimala görə, Hələb ətrafında Antakya yaxınlığındadır. Yaxud da bir təpənin üstündə namaz qılırdı. Başqa bir ehtimalda isə yel atına minmiş Xızır (ə) dənizin üzərindən ke- çərkən uzaqdan onu gördülər.

İndi Allah-təala Xızırı (ə) tərif edərkən onun haqqında “Qullarımızdan bir quldur ki, ona qatımızdan rəhmət verdik” buyurmuşdur. Bu söz başqa bir bəndə haqqında deyilməmişdir. Hələ ona ayrıca “Öz qatımızda elm öy- rətdik” buyurulması da başqa bir iltifatdır. O elm mədrəsədə öyrədilməz, təkyədə, məktəbdə, kitabdan öyrənməklə heç bir Allah bəndəsindən də əldə edilə bilməz.

Harun Musaya (ə) dedi ki, mən Xızırın (ə) işinin incəliyini bilirəm. On- unla yoldaşlıq etməyə gücüm çatmaz. Buna görə bir yerdə gedə bilmə- rəm. Amma sən əgər ondan ayrıldıqdan sonra bir daha görüşmək üçün qardaşlıq etmək istəyirsən, gedə bilərsən. Harun geri döndü. Musa (ə) ilə Xızır (ə) bir yerdə qaldılar. Bir-biriləriylə danışmağa başladılar. Xızır (ə) Musadan (ə) bəzi şeylər soruşdu. “Mənə qulaq asacaqsanmı” dedi. Musa (ə), “hər nə buyursan sənə qulaq asacağam”, deyə cavab verdi. O, Haqqı tapmış, onunla danışmaq şərəfinə yetişən uca Peyğəmbərdəki duaya bax ki, Xızır (ə) ona, “səni başa salacağam, yəni, səni oyan-

dıra- cağam", dedi.

Halbuki, Musa (ə) xalqı oyandıran ulu Peyğəmbərdi. Xızır onu Haqqın həqiqətindən oyandırırdı. İndi hekayənin alt tərəfini anlatmaq mənə borc oldu. Amma başqa bir vaxt başa salacağam.

Xoşbəxt o insandır ki, bir qula rastlaşanda Xızır ilə Musa (ə) hadisəsini könlündə saxlayaraq onu özünə öndər sayar.

Çətin vəziyyətlərdə şəriətdə fətva var. Hər pəhriz saxlayan, bir şey yeyib-içməyən ölər. Çünki o hal müsəlmanlarda görünməkdədir. Bizim şəhərimizdə də belə idi.

Zahidlərdən biri xəstələnmişdi, dərman içməsini tövsiyə etdilər. Sufilik qeyrətinə görə dərmanı içmədi və öldü. Başqa bir zahid onu röyasın- da görmüş və belə demişdi ki, üzünü qiblədən çevirmişdi, yuxuda çon dərəcə bir çaşqınlıqla qaçdım, barmaqlarımla məzarının torpağını qaz- dım. Aşağıya baxırdım, bir az toz-duman çıxmağa başladı. Qorxudan qaçdım. Adam, "sən hələ nə gördün ki, belə qaçırsan", deyirdi. Bu söz- dən yenidən geri döndüm və təzədən baxdım. Gördüm ki, zahid qapqara qaralıb. Bir az da diqqətlə baxdım, üzü də qiblədən çevrilmişdi.

Sultan bir dəfə fərman verərsə, xoşa gəlsə də, gəlməsə də öldürər. O kəs də o fərmanı yerinə yetirməklə müsəlman olaraq ölər. Bu belə olar, indi ki, xəstəlik öldürücü bir sultandır, bu da şəriətdə yazılıdır. Amma bu barədə Seyid Bürhanəddinin dünyagörüşü başqa idi. O, əlac aləmindən geri durmazdı. Bu da onun üçün gərəkliydi. Çünki çox müxtəlif, ağır xəstəliklər keçirirdi. Hələ varlığı xalq arasında çox lazımlı olan elə bir zat

üçün əlac almaq fərz olar. Xəstəliklərdən damağını qorumaq, sağlam bir beyinlə düşünə bilmək ona lazım idi. Ancaq bunu Rəşid eləmiş olsaydı, məcusi və kafir olardı. Onu yəhudilər qəbirstanlığında basdırmaq vacib olardı. Mən bunu onun haqqında fikirləri inkar etmirəm. Ancaq bu, namaz qılmazdı. Mövlana da onu bilirdi. Mənim ilə onun arasındakı fərq nədir, görəsən? Bir az mənə bundan danış! Allaha and olsun ki, namaz qıldığım gün çox nəşəli oluram və öz-özümə deyirəm ki, Həzrəti Peyğəmbər (s) dərvişliyin sonunu belə bir məqamla işarət etmişdir: "Fəqirlik mənim üçün öyünüləcək bir haldır." Bu bəlkə o dərvişə xoş gəlməz, ona, sadəcə, bu tövsiyəyə əməl etmək münasib olmaz. Amma, sadəcə, namaz qılmaq da yetərli deyil. Hətta namaz qılanlara dil uzadarlar, onların halına acıyarlar belə. Nəhayət, Rəşidin onu bayıra çıxarmasının səbəbi buna görə idi. Yenə mənim ondan uzaqlaşmağım o səbəbdəndi, buna görə saçlarını yoldum.

Deyirdim ki, Seyid bir zamanlar mənə söz atar və deyərdi: "Bu namaz qılmaq sənə heç mane olmurmu?" Mən də ona bu cavabı verdim. "Sən zaman-zaman o cariyə ilə birləşmirsənmi?" Bəli, bəli, amma o ma-

ne olmur, dedi. Bu, Allah üçün bir işdir, çirkin bir iş gördüyün üçün üzünü yerə sürtürsən. Müriddən soruşursan, səni yaradan Allah eşqinə söylə. Bundan daha gözəl və şirin, üz-üzə sevişməkdən daha xoş bir şey varmı? İndi ki, iman gətirirsən, o bacıya və kürəkənə, siz kimsiniz ki, onu Qazıya aparasınız, ondan şikayətçi olasınız, de. Onu alıb gətirib, mənə bağışlayın, dedim. "Borc verək", dedim. Mənimlə birlikdədır, amma mən bilmirəm. Əgər ayıb olmasaydı, haralarda olduğunu, kimlərin qabağında gəzdiyni bir-bir söyləyərdim. Günahın dəlillərini də o bilir. Bizə ikiüzlülük edərsə, biz də elə ikiüzlü yaşayarıq.

"Bismillah" dedim. Bunu dikəlt, sənə savab olar. Sənin üçün neçə dəfə "Qulhuvallah" oxudum. On kərə oxusam yetər. İndi onun talesizliyindən mənə mərhəmət gəlir. Deyir ki, bizim həddimiz deyil, sənin xidmətində zəhmətə qatlaşaq. Əmr gələrsə, bağlanmaq eyni ədəbdir. Əmrsiz gəlmək, getmək deməkdir. Əmr almadan gəlmək də, getmək olar. Necə ki, əmrsiz getmək də, gəlmək sayılır. Ancaq içində bir bulanıqlıq və pozuqluq var ki, əmri görə bilmir o.

Ayazın düşüncəsi zay deyildi. Əmri görüncə əmrin şirinliyini anlayardı. Onlar isə o qədər açıqürəkli deyildilər. Əmri görə bilmədilər. Bir zaman Mövlana söz dinləmək istərsə, bilirəm ki, onun və mənim könlümdə danışmaq arzusu oyanmışdır. Amma bir ara Mövlanada bir incəlik gö- rərsəm, anlayaram və hekayə söyləməyə başlayaram. Başqa söz danışmaram. "Məgər qələndərlik edirsən, yəni qonaqlar getmirlər, mən gedirəm", deyirəm öz-özümə. Səndən cübbə istədim. Mənə veriləcək cavabın erkən və çox tez olması lazım idi. Necə ki, biri, "sənə vəsiyyət etmək istəyirəm, amma tez-tələsik söyləmə", demişdir. Buna görə, dostun vəfası var-dövlət bağışlamaqla bəlli olar, deyərlər. Gərəkdir ki, o sirri ölümdən sonra o da söyləsin. Deyək ki, birinin bir narahatlığı var, əlacı da bu şərabdır. Bu ona heç yasaq deyil. Ancaq sizin üçün haramdır. Amma bu adam öləcəkdir, yaxud arxasınca sürüklənən bir dərdi var, qadınlarla çox-çox söhbət etməyi lazımdır. Amma bu deyilməmişdir. Əgər dostları onun ölümündən sonra ona rəhmət oxusalar, bu onun üçün lənət olar, rəhmət olmaz. Bu da onun dostlarına aid olar.

Bizə gərəkli olan gah qılınan, gah da üzr və ya dalğınlıq üzündən çatdırılmayan o zahir namazını bir tərəfə buraxmaqdır. Çox ayıq və ağlı başında olan insan onu edər. Bəzən namaz qıldığını da deməz. Vaxt olar ki, müntəzəm namaz halında olduğunu da söyləyər. Kişisə qadını boşayacağına and içər, qadınsa əlli dəfə Qurani-Kərimə əl basaraq and içər, doğru sözlü olar. Çünki namazın zahiri və batini olanı var. Batinin zahiri olduğu kimi.

Batin namazı qəlb rahatlığıdır. Bu halda doğru and içmişdir o insan.

Hələ mal-mülk paylamaq, sədəqə vermək baxımından heç kimə de- mədən, xatirindən belə keçirmədən, “mən savab iş gördüm”, deyə dü- şünmədən yaxşılıq edən kimsə doğru yoldadır. O şəxs əgər onlardan isə, başqalarına sədəqə verərkən elə zənn edərsən ki, özünə sədəqə verilir. Bunda sədəqə verənin belə fərqində olmadığı bir kibir* gizlidir. Amma, əlbəttə, məqbuldur bu. Ey Zəhra! Allah rizası üçün mövcud olan bir şeyi doğru söyləyək. Məndən soruşdu: “Mən kiməm?” “Sən danışan adamsan”, dedim. Onun üçün bir yer düzəltdik, nə üçün getməz? Bu, o uşaq üçünmü ölür? Dedim ki, mən peyğəmbərlərin üzrlərini bilirəm. Ancaq Allah bunu mənə daha aydın şəkildə göstərmək istədi. İndi bədbəxtsə eləsin, əgər xoşbəxt olsaydı, məni qazıya aparmazdı. İndi ki, bəxtsizdir, hər nə eləsə, daha yaxşı olar. Dost üzlü, hətta sarı bənizli görünər. Bu gün o burada başqa cürə yaşaya bilməz. Qəlbiniz ondan incidisə, bacılarının yanına gedər, əgər ona izn versəniz.

Bu könül əsla yalan söyləmədi. Mən təkrar könlümü həqiqiləşdirmərəm, bu hal da məni yaralamaz. Könül xoşdur, bir az gözəlllik könül üçün rahatlıqdır. Kişiyə əsla ruh sahibi, yaxud ağıllı deməzlər. Ancaq könül sahibi deyərlər. Mənə bir diksinti gəlib, ziyan vurmasın deyə gəlməyimə razı olmurdu. Amma qəlbimin istəyinə bağlana bilmədim. Mənim yarım

mənim kimi olaydı, heç qəm çəkərdimmi? Hələ çox ayıq və ağıllı olsaydı, mənim üçün bir şahlıq və dövlət sayılardı. Hətta yüz min yara və qılınc zərbəsi alsaydım belə, yenə qəm yeməz, ağrı duymazdim.

İndi nə üçün əvvəl gülərüzlə gəlmədin? İlk gəldiyimiz gün nə üçün ayrı düşdük? Biz danışarkən hər biri bizimlə bərabər idi. Hər biri saf altundan söz açar, ən gözəl çövhərlər saçılardı. Bununla bərabər, hamısı da gözəl xasiyyətli idi.

Bu gün söylədiyim sözlərin anlamı bu məqamı xatırladır. Həzrət Əli (ə) heç vaxt bu məqamdan söz açmadı, amma Həzrət Peyğəməbər (s), “Mən elmin şəhəriyəm, Əli də onun qapısıdır” buyurdu. Onu təriflədi.

Başıyla işarə edərək, “bu, bayıra çıxan bir səsdir”, deyirlər. Əgər bu gün onu gördümsə, indi Şəms qalmışdır. Onu da görək”, dedi. Dedim ki, Mövlananı Allah dostları belə görə bilməzlər, sən necə görə bilərsən? İndi mən onu söydüm, sən də söy, baxım. O məlun köpək! Köpəklər onu yalasın, deyə o da söyüşə tutdu. Onun şeyxi də başı ilə işarə edərək məni çağırdı, şahidlik edəcəksən, dedi. Ona baş işarəsiylə, nə dediyini başa düşmədim, dedim. Cavab verdi: “Kafirlər kilsədə başlarıyla belə edərlər. Əlləri ilə, başları ilə işarə edərək danışarlar. Sən də şahidlik edəcəksən, gəl!” Amma mən bu şahidliyi eləməyə səlahiyyətli deyiləm. Çünki deyərlər, şahid o şəxsdir ki, yol ortasında durmaz. Yenə başqa biri yol orta-

sında ona deyər ki, burax onu, sən onunla danışa bilməzsən. Görürsən ki, öncə o baş işarəsi ilə sənə nələr söylədi.

Qadına şeyxlik lazım olmaz, dedim. Bəli, “soyuq düşər”, dedi. Amma bu, “soyuq düşər”, sözünün mənası anlaşılmadı, dedim. Yəni bu o deməkdir ki, bu iş qadına yaraşar, amma kişiyə daha xoş gələr. Halbuki, bu iş qadına əsla lazım deyil. İstər soyuq düşsün, istər isti. Əgər Həzrət Fatimə (s.ə) ilə Aişə (r.a) şeyxlik etsəydilər, mən Həzrət Peyğəmbərə (s) inancımı dəyişdirərdim. Ancaq onlar şeyxlik etmədilər.

Əgər Allah-təala bir qadına səadət qapısını açmaq istəyərsə, onu səssizcə və gizlin edər. Qadına yalnız öz işini görmək, öz yununu əyirmək yaraşır. Mən də öz şəhərimdən ayrıldığım gündən bəri şeyx görmədim. Əgər eləsə, şeyxliyə Mövlana yaraşar. Ancaq xirqə verməz, biri gəlib zorla, bizə bir xirqə ver, deyə dirənər, saqqalımızı qırxdır, deyər. Təkid etsələr, o zaman o da verər. İndi bu baxımdan xirqə vermək başqa, bir də Mövlananın “gəlin mənə mürid olun” deməyi başqadır.

Şeyx Əbubəkr Səlləbafın da xirqə vermək adəti yoxdu. Onun öz şeyxini də görmədim ki, onda varmı, yoxmu, anlayım. Ancaq mən də bu istəklə Təbrizdən çıxdım, amma tapa bilmədim. Hərçənd aləm boş deyil, bəlkə bir şeyx var. Hətta deyirlər ki, filan şeyx xirqə verdiyi müridinin xəbəri olmadan ona xirqə bağışladı, mal-mülk verdi və öldü. Mən şeyximi görmədim, ancaq bu qədər öyrəndim ki, özündən bir söz nəql edənə hirslənirmiş. Ən çox incidiyi şəxslər özündən söz nəql edənlərmiş. Belə bir şəxsi görmədim ki, o məqamda olsun, özündə bu sifət müəyyənləşsin. Sonra şeyxin özü üçün yüz min illik yol olan bir şəxsə də rast gəlmədim. Ancaq Mövlananı bu sifətdə tapdım. İndi Hələbdən yenidən dönüşümdə də o yenə bu sifətdə idi.

Mənə desələr ki, atan sənin həsrətini çox çəkib, məzarından qalxıb Təlbaşir kəndinin bir addımlığında səni görmək üçün gözləyir. Səni görüb təkrar məzarına dönəcək. Gəl! Artıq atanı görməyə gəl! “Xeyir ola, nə edək””, deyərdim. Hələbdən bir addım belə kənara çıxmazdım. Mən ancaq Mövlanaya görə gəldim.

Kəra Xatun dedi ki, dünən gecə yuxumda gördüm ki, ədəbsiz bir vəziyyətdə yatmışam, ayağımı sizə sarı uzatmışam. “O keçdi” dedim. İndi də qulağım ağrıyır, ayağını uzat üzərinə qoyum, dedi. “Vaz keç,” dedim, “bir şey gətirin, yeyim”. “Xeyr, ayağını gətir qulağıma qoy və qulağıma tüpür ki, ağrısı kəssin”, dedi. Daha sonra, bu xirqə Şəmsindir, dedi. Mən də, əgər mənim olsaydı, yanımda olardı, dedim. Onu mənə ver. “Mövlana gəlsin, ələ versin,” dedi. İndi sənin mənə olan inamın bu idimi? Bununla bərabər onda bir mərdlik var. O hara, şübhə eləmək hara? Ondan yüz min fərsəx* uzaqdır. Ancaq onun içində bir duyğu var ki, bunların

qaynağı hər zaman odur.

Görürsən ki, Mövlana bu günə qədər onunla çox məşğul oldu. Hələ nə lazım idi ki, bu xirqəni vermək üçün Mövlananın gəlməyini gözləsin? Pərir, Bəhaəddin necə ki, o gün bir ara sözarası mənim sənə etdiyim kimi, on altun verilsin, demişdi. Onda bir məcburiyyət yoxdur. Əslində, o şəxs ki, məcburiyyət yolu ilə iş görür, köpəklər xilas olar, o olmaz. Əshabi-Kəhfin (Mağara əhli) iti ərşə çıxacaqdır bu səbəbdən. Buna şübhə edilməz. Bu sözü yaxşı dinlə, başqa sözləri tərk et. Nəhayət, beş altun çıxardı, ağlayaraq, bunu qəbul et, deyə yalvardı. Kərə gəldi. Gizlədim, cəhənnəmə getməsin deyə. Mənim üçün nə qəm? Aləmdə həm dünya, həm axirət, həm də Haqq əhli var. Necə ki, Şibli (Şibli Bağdadi nəzərdə tutulur, Mənsur Həllacla bir dövrdə yaşayıb- R.M.) axirət əhli, Mövlana da Haqq əhlidir.

Dünən gecə dostları axtarırdım. Hər birini ayrı-ayrı göz önünə gətirdim. Hər birinin inamına, diləyinə, anlayışına bir başqalaşma gəlmişdir. "Bu nə üçün belə olur", dedim və hallarına acıdım. O bizimdir, belədir,

sən də könül xoşluğu ilə qal ki, bizim olasan, deyirəm. O salamı onun üçün verdim. Mən salam verdiklərimə həmişə belə edərəm. Öncə onun işini nizama salar, sonra hal-əhvalını soruşaram. Bəlkə min dəfə dedim. Hər kimi sevsək, ona cəfa edirik. Amma azacıq düşkünlüyünü görüncə yüz min borc veririk. O birilərini də dağlara qaldırmırıq ki. Hər kimin başını çevirdilərsə, bu özgəlikdən və elmsizlikdəndir. Ona saygı göstərək, xid- mətində duraq. Çünki bizə yad olmuş, bizdən uzaqlaşmışdır. Görmürsən- mi ki, sənin köhnə başmaqlarını belə daşıyacaq dəyəri olmayan birinə saygı göstərməkdə, onu yüksək görməkdə nə qədər irəli gedirik! Neçə kərə onun pis vəziyyətinə göz yummuşuq. Düşünmürsənmi ki, nəbilərin, övliyaların başına gələn bəlalar o səbəbdəndir. Çünki onlar Allahın xas qulları idilər. Dünən könül alçaqlığı göstərdi. Birinin könül açıqlığı mənim xoşuma gələr. Çünki onun halı bütün dostlar, düşmənlər, möminlər və kafirlər üçün rəhmətin son dərəcəsidir. Allahdan onu arzulayıram ki, onlara doğru yolu göstərsin.

Könlüm o köpəyin (nəfsin) üzündən bir aydınlığa yetişə bilmədi. Həmişə onu elə idarə et, belə yaşat ki, kimsə vurub incidilməsin.

Çox ayrı düşdük, biz evdə belə dağılmış haldayıq! Biri o tərəfə o kasanın başına gedər. O biri bu süfrənin başına qaçar. Qəribədir, bu hekayə və bütün bunlar onun xatirinə gəlsə belə, yalnız bizim onu görməyimiz barədəki arzumuzu xatırlamaz. Ona nə deyək ki, ona bu qədər iltifat göstərdiyimiz halda, hələ bizdən uzaq durmaqda, yad olmaqdadır. Bu hekayə uzundur.

Allaha yalvardım: Ya Rəbb! Məni öz dostlarınla tanış et, onlar ilə

yoldaş et, dedim. Röyamda, "səni bir övliya ilə yoldaş edəcəyik", dedilər. Soruşdum: O övliya haradadır? Ertəsi gecə bu övliyanın Rum diyarında (Anadoluda) olduğunu söylədilər. Bir az sonra təkrar gördüyüm röyada, hələ vaxtı gəlməmişdir, hər şeyin zamana ehtiyacı var, dedilər.

Mənim bir adətim var. Yanıma gələnlərdən soruşaram: "Bəyim! Danışacaqsan, yoxsa dinləycəksən?" "Danışacağam" deyərsə, üç gün, üç gecə dalbadal dinləyə bilərəm. Qoy o qaçsın, mən xilas olum. Əgər, mən dinləycəyəm, desə, mən də, o halda bir-birimizlə yola gedərik, deyərəm. Mən sözə başlayaram, o da sözarası danışar.

Sufidən soruşublar: "Nağd bir şapalaq istəyirsən, yoxsa nisyə pulmu?" Vur, keç get, deyib. Bu da bir nemətdir. Keç, deyərkən ağrıdan qorxur, nemətin əldən getməsinə acıyır. Mövlana deyir ki, filankəs dünən gecə rəqs edirdi. Hərçənd başqa vaxt bir növ ədəbdən kənar hərəkət

olması baxımından bu halı xoşuma gəlməzdi. Fəqət dünən gecə bunun nədən irəli gəldiyini bildiyim üçün lap məmnun oldum, rahatlandım.

Mən də duaya bel bağladım. Ağır davransan, ağır davranarlar. Tələssən, tələsərlər. Sən bu Məryəmi sevmirsənmi? Bu körpənin gözəlliyini görmürsən, ona aşiq olmursanmı?

Dərsə başlayan bir uşaq var. O biri yoldaşlarını da özüylə birlikdə dərs oxumağa, Qurani-Kərimi öyrənməyə təşviq edər. Bir başqa uşaq da bunun tamamilə əksidir. Kitabdan, dərsdən qaçar. Amma öz-özünə, mənim bəxtim yoxdur, mənim yaşıdım olan bütün uşaqlar dərsə başlamış, deyə gizlicə ağlayar. Bu uşağa ümid var. Amma üçüncü bir uşaq da var ki, başqa yoldaşlarını da özü ilə birlikdə məktəbdən qaçırar, bax ona heç ümid yoxdur. Bu uşaqların ikisi də biqərar, dönük təbiətlidir. Biri qaçar, özünü qurtarar. Amma o biri orada oturar, biqərarlığı bir həmlədə parçalayar. Bir kərə bu uşaq o birinə yetişə bilməz. Hələ qaldı ki, onu keçə bilsin.

Hələ doşab satırsan, sərf etmirsən. Başqa bir yerdə Haqqa borc vermək bəhsini təfsir etmişdim. Fəqət o yaxşılıqsevən insanın gözü bu cəhətdə deyildi. Bax bunu necə təfsir etdi: Borc verdiyim şey daim ya- dımdan çıxmaz, nə üçün onu düşünüm, nə üçün xatırlayım? Belə adama Allahın verdiyi qida ilə oruc tutmaq haramdır. Bu, o deməkdir ki, bu ağzı üzrlü səbəblə açasan, o biri orucdan tutmuş olasan. Çünki o oruc bağlı bir ağızla tutulmuş olar. Bu orucu açdığın zaman o biri oruc da tutulmuş sayılar.

Səmərqənd nə qədər gözəl bir yerdir! Bu aləmdə olmayan xoş bir aləm o tərəfdədir. Dünaynın xoşluğu o cəhətdəndir. Mövlana buyurur ki, mənim ayrılmağım onun heç xoşuna gəlməz, amma bu, belədir. Mən

yalnızca hər yeri dolaşaram, hər dükanda çömələrəm. O isə vüqarlı insandır. Bir şəhər müftisini elə dükan-dükan, küçəbəküçə gəzdirə, hər tiyanda dolaşdıra bilmərəm ki, mənim səninlə bərabər olduğumu bilsinlər. Səninlə elə yersiz bir şeyxlik söhbəti etmədim. İstəsən də, istəməsən də mən bu tərəfə gedərəm. Əgər mənim olacaqsan, mənimlə birlikdə gələr- sən. Yoxsa, çətin gördüyün hər şey sənə lazım olmaz.

Necə elə əyri oturmusan? Könlünə ürkəklik gəlir. İndi İblisin mənasını bu qədər xoş bir şəkildə eşitdinmi? Baxarsan iblisdə də, İdrisdə (s) də müəyyən bir məna var. Bir zaman bu dərsin mənası gələr, başqa bir vaxt da o dərsin mənası. O, bundan daha xoşdur. İblisə qəzəb edilməsindəki bu məqam lətif və mənəvidir. İdrisdəki (s) məna isə daha mənəvidir, amma

surətdə İdris (s) görünəcəksə, ancaq İdrisdən doğan məna, İblisdən do-

ğan mənaya görə daha lətifdir. Çünki qəzəbdən lütfə doğrudur.

Bəli, öz sözündən, öz şeirindən sənə bir coşqunluq gəlirsə, başqala- rının sözləri və şeirləri də elə gələr. Onlara qarşı da həyəcanın artar. Yaxşıya, gözələ qarşı nə deyilə bilər? Lakin sən deyirsən ki, bir zaman bir xirqə söz söyləyirdi. Nəhayət, sənin halın xirqənin halından daha yaxşı olmalıdır. Sənin öz sözün yoxdurmu? Həmişə başqalarının hekayələri, başqalarının şeirləri!

Xirqə necə danışa bilər? Cansız varlıqlar içində ancaq Samirinin danası danışıb. Başqa cansızlarda belə bir adət görülməmişdir. Fəqət o buzovu, indi ki, Allahlıqdan dəm vurmuşdur, Musanın (ə) peyğəmbərliyini necə qəbul edər? Bax, Musanın (ə), hekayə etdikləri, o halı sənin halındır.

Müridin biri dedi ki, mən hər gün Allahı yetmiş dəfə görürəm. Şeyxi ona bunu söylədi: “Sənin bir dəfə Bəyazid Bistamini görməyin, Allahı yetmiş kərə görməyindən daha xeyirlidir.” Mürid meşəlikdən kənara çıxıb Bəyazidi görən kimi yıxılıb öldü, çünki aşiq idi. Sevgilini axtarmaq yolunda öldü. Yəni nəfsindən ona da bir izafi qalmışdı, o da təmizləndi.

Mürid zəif dünyagörüşü ilə çatışmayan bəsirətiylə ancaq öz təsəvvürünün surətini görər. Allahı Bəyazid qüvvətiylə görə bilməz. İndi yüz min Bəyazid Musanın (ə) başmağının tozuna yetişə bilməz. Həm sən təqlid yoluyla da deyirsən ki, minlərlə övliya peyğəmbərlərin ayağının tozuna çata bilməz. O halda, necə rəva görürsən ki, bir tiyançı onu hər gün min dəfə görsün? Allah ilə danışan Musaya (ə) da, “Onu görə bilmədi” deyirsən. Əgər biri sənin gerçəklədiyin “Allahı görmək var”, anlamındakı Allah kəlamını təfsir etmək istəyərsə, fətva istəmək lazımdır. Söz çəkişmə-

yə əlverişli isə təfsir ilə söylənər. Doğrudursa, təvil lazım deyil.

Ənəlhəqq (Mən Haqqam) sözü kimi çılpaq və uyğunsuz sözlər isə təvil götürmədiyindən, şübhəsiz, söyləyənin başı arada getdi.

Bir divanə o birinə belə deyirdi: Bir çuval yun, necə olar ki, bir çuval daş-qaşa bərabər olar? Yüz kərə boşaltsan, altunla doldursan belə yenə daş-qaşa tay olmaz. Bu elə bir divanəydi ki, ağlının söyləyəcəyi sözü söyləyərdi. Qazı ona tərs-tərs baxdı. Mən də Təbriz şeyxləri ilə Zahidin və kölələrin hekayəsini danışırdım. Dünən gecə dedim ki, sizin söz- lərinizi də Mövlana ilə birlikdə sizin dilinizdən eşidək. Sonra könlüm razı olmadı. "Nə üçün yemək yeyərkən danışılan o sözləri yenə birlikdə ye- mək süfrəsində danışmalıyam", dedim. Yenə gəlsəniz nə olar? Dualar edərik! Arzunuz nədir, axtardığınız nədir?

Yuxarıda adı çəkilən, "Gözlər Onu görə bilməz, amma O gözləri görər", ayəsindəki mənanı anlamaq mövzusunu, indi ki, sən açıqlamırsan, barı doqquz şaftalı ver ki, mən söyləyim. Axtarılanı tapmaq, ona qovuşmaq üçün ən böyük arzunuz nədir? Allah daim doğrunu söyləyər, Onun ilahi varlığına and içərəm ki, bu, doğrudur. Allahın salamı və rəhməti üzəri- nizdə olsun. Mən artıq peysər, qarın yekəltmək düşüncəsindən vaz keç- dim. Dostlar təzələndi, amma mən köhnə bədənimi tapa bilmədim, işin pis tərəfi, sən həmişə öz məktubunu oxuyursan, dostun məktubunu oxumur- san. Nəhayət, bir az da dostun məktubundan bir şey oxu. Kitabda yazılı olan şeylər haqqında onlara bir utanc gəlməz. Bu kimi şeyləri biri kitaba yazar. Necə ki, bir nəfər soruşurdu: "Qadınların örtülü yerinə baxmaq halaldır, yoxsa haram?" "Halal keçdi", dedim. Ona əl yetmir. Ancaq bu sözümdən də heyrətə gəldim. Yüksək səslə, onun ətrafında dolaş, oxşa, nəhayət, vücuddan kənara çıxmaz, dedi. Təkrar soruşdu: "O halda söylə, o məni nə üçün oxşamasın?" Bu ikinci sualın cavabını nə üçün verim. Nə üçün ağzımdan bu söz çıxsın? Ancaq mənim sənə ilk söylədiyim sözü dinlə! Çünki bu ikinci məsələ sənə gövşəklik və arıqlıq gətirər. Bunu nə üçün danışmalıyam? Bundan sənə nə fayda var? Əgər bu məqamda bir yanlışlıq olmuşsa, əzmli ol, mümkün olduğu qədər düzəltməyə çalış! Amma sənə bir fayda qalmaz. Mən bu mövzuda bir şey bilsəm də sənin nəfsinə bir pislik gəlməsin deyə söyləyə bilmərəm sənə.

Mənə bundan sonra mədrəsə ətrafındakı yollardan keçmək yaraşmaz. İndi təbiətini bilmədiyimiz bir insanın qəlbini necə bilə bilərik? Əslində axtarılan da könüldür. Qaldı ki, sənə bu aranılan şeydən söz açmaq da bəlkə xoş gəlməz.

İndi məni ən çox qorxudan məqam kənarda gördüyüm bir çox şeyləri sənə söyləməməkdir. İndi sən söylə, əvvəl mənə sevgi və saygı vardı,

onu sizin söhbətinizi danışarkən dinləmişdim. Xəlvətdə sizi həmişə xeyirlə xatırlayırdı. Bu üzdən duaçınızın sizə bəslədiyi sevgi yüz qat artmışdı.

Röyamda gördüm ki, Mövlana ilə birlikdə Qurani-Kərimdəki bu ayəni oxuyuruq: "Hər şey yox olacaqdır. Ancaq onun təzahürü qalacaqdır". Yəni bu varlıqdan geri qalacaq bir şey varsa, ancaq dostların üzüdür.

Beyt:
Necə sevgili məst, başı gicəllənmiş
Gözləri yaşlı olduğu halda qapıya gəldi.

"Ləntərani!" (Məni görməyəcəksən!) xitabı gözünün önündə, amma görə bilmirsən. Onu belə görmək istəyirsən, bu "ləntərani," o qədər lətifdir ki, gözlə görülməz. Yenə ayədə "Onu gözlər görə bilməz, amma o gözləri görər" buyurulmuşdur. Buradakı məna əvvəlkini mərtəbə-mərtəbə keçər. "Onu görə bilməzsən, ancaq dağa bax!" buyuruluş hikmətə gəlincə, o dağ sənin mənliyindir.

Axırzaman Peyğəmbər Həzrət Məhəmməddən (s) "Nəfsini tanıyan, Rəbbini də tanıdı" məqamını yaxşı dinlə! Buna görə onun Rəbbini görmək istəyi Musadan (ə) başqa oldu. Bu, "Ya Rəbb!" belə bir istəyə düşməyi tövbə etdim, "Mən möminlərin ilkiyəm" sözünün dəlilidir.

Axar su çirkinlikləri yuyub aparar, onları geri çevirməz. Bu halda, özünün həsrətini çəkən, susamış bir şəxsi necə geri çevirər. Su var ki, içindəki çirkinliklərə dayana bilməz, çirklənər deyə içindəkiləri özündən kənara atar. Amma başqa bir su var ki, aləmdəki çirkinləri içinə atsanız, əsla dəyişməz və çirklənməz.

Bu xalq İblisdəki həqiqətdən aciz qalmışdır. Əgər İblis, "insan oğlunun damarlarında dolaşan qan kimi onun bədənini dolaşar", sözündəki surətdə isə, bu ifadə münasib sayılmaz. Bu təqdirdə bu deyim mənəvidir. Bunun başqa bir anlamı da olmalıdır ki, əvvəlkinin xaricində olsun. Deyək ki, sənə qəfildən bir qəzəb gələr, sonra da bir rahatlıq duyarsan. Əvvəlkisi mənəvidir, amma ikincisi daha mənəvidir. Bir zamanlar (Mə- ləklər) İblisdən dərs alırdılar. Deyərsən rəhmətini yenə o apardı. O, fəl- səfə yaratdı, doğrusu, o, bu fəlsəfədən daha şirindir. Allahın uca zatı haqqı üçün deyiblər ki, onun sözü şeyxə yaraşan sözdür. Amma təkrar söyləmək lazım deyil. Nə qədər onu şərh etmək münasib görülsə də, yenə təkrarlamaq yaraşmaz. Bax, bu "Ənəlhəqq" sözü də şərhsiz deyil. O zaman iş şübhəli olar. Çünki, indi ki, "mən"" deyirsən, Haqq kim olur?

Haqq deyirsən, mən sözü çılpaq, alçaq və öldürücü bir quru sözdən başqa nədir?

Zəmanəsinin şeyxləri Həllacın ölümünü istədilər. Təhqiq* əhli müftilərlə şəriət müftiləri də onlara yardım etdilər ki, savabını paylaşsınlar. Bununla bərabər, o həm şübhə, həm də yaxın mərtəbəsində qaldı. "Görəsən, mən varammı", deyə yaxın mərtəbəsinə yetişə bilmədi.

Həqiqət yolçularının yolu yaxın mərtəbəsindən keçər. Onlar ancaq bu mənzildən sonra son dayanacaqlarına yetişirlər. Əsil axtarılan da o mərtəbədir. Aləmin görünüşü qarşısında deyər ki, nəhayət, mən səndə bir aləm görürəm! O da, "bu torpaq aləmində nə edəcəksən" deyəndə, sənin lütfün mənimlə bərabər deyilmi", deyə soruşar. O, "istər olsun, is-

tər olmasın" deyər. Amma ona, "sənə daha çox yardım edə bilmirəm"," deyəndə də mən üzülmürəm. "İçimdən sənə kömək etmək üçün bir əzm gəlir" deyər və o halda, "mənim üçün nə qəm", cavabını alar.

Gedək Mövlananı görək. O, dünyaya nə bir şey istəmək üçün, nə də bu işarəti tamamlamaq üçün gəldi. Aləmdə nişanı olmayan bir sevgilinin halından xəbər verən işarədən onda bir nişan yoxdu.

Görünən hər nişan axtaranın nişanıdır, yoxsa, axtarılanın nişanı deyil. Bu sözlər həmişə arayanın sözləridir. Onda bir şey görünməz. Haqqı axtaran həqiqi yolçu odur ki, axtardığı sevgilidən alnında bir nur yanar. O nur sayəsində hər kimin üzünə baxarsa, onun Said (xoşbəxt) və ya Şaki (bədbəxt) və fəna yaradılışlı olduğunu görər. Haqq yolçusu bir tamaşa aləminə gəlmişdir. Bu arada axtarılan sevgili ilə bir əlaqə quranlar var. Bunlar Haqq yolçularını görərlər, rahatlıqları qaçar, iztirab çəkərlər. Biri deyər ki, bax, bu yetim inci mənəm. Aləm içində axtarılan sevgilini seyr etməyə gəldim. Artıq rahatlığa qovuşduq, indi yerimizdə oturaq. O biri deyər ki, bura oturulası yerdirmi, gedək. Başqa biri də, hələ bir neçə gün tamaşa edək, deyər. İndi hər gün mənim işığımla tamaşa edirik alə- mi. Yenə hər gün mənim nurumla cahanı seyr edək. İndi ki, həm dost, həm də Haqq yolçusu olduq. Haqqı arayan, coşqunluqda İsa (s) kimi erkən danışmağa başlar, amma aranılan sevgili ona ya qırx gün sonra söz söyləməyə səlahiyyət verər, ya on altı il keçdikdən sonra axtardığı dostun üzünü görə bilər. On beş il sonra onu danışdırar.

Bütün bunlarla bərabər deyirəm ki, onun başmağının tozuna şübhə qarışmışdır. Yaxın və yaxında şübhə Allah yolunun başıdır. Bunlardan yüz min dənəsinin belə o məqama yetişməməsi daha yaxşıdır. Hələ şeyxliyə və rəhbərliyə yaraşmaz ki, o saç-saqqalı ilə qapıda qalsın. Bu kimilər özlərini əsla şübhədən qurtara bilməzlər. Amma lap azı təqlid- çilikdən uzaq düşərlər. Əslində təqlidçi nə onun şeirindən, nə də Allah kəlamından bir şey anlayar. Allah qorusun, o yolundan sapmış olar. Yəni o

ancaq yaxın və himmət yolu ilə Haqqı qəbul edər, təqlid yolu ilə de- yil. Quranın daxili üzünü, batini mənasını ki, ona, batinin batini pərdə çəkmişdir, təqlid yolu ilə deyil, ancaq təhqiq yolu ilə anlar. Başqa birinin şeirimi daha təsirli olar, yoxsa sənin sözün, sənin araşdırma işığınmı? Səndəki qüdrət böyük bir çuvaldakı yun kimidir. Amma cövhərlə iddiaya girişib, mən daha dəyərliyəm, yoxsa pambıq çuvalımı, deyərsə, cövhər ona deyər ki, bunu bir kərə divanələrdən soruşaq, ağıllılardan deyil. Bunu eşidən divanələr də bu cavabı verərlər: "Bir cövhər var ki, çuvallar dolusu altun belə onun qədər dəyərli deyil. Cövhərin qiyməti özündədir. Ağıllıya

gəlincə, o da belə dyeər: Siz onun sözünə baxmayın, o divanədir, yetim inciyə əsla dəyər biçilməz. Hümaməddinin sözləri bütün aləmdə sənət sayılır. Bundan sonra da mən danışacağam, ona ayaqqabı olacağam.

Mövlana bir gün lap duyğulanmışdı, deyirdi ki, "sən bir gün mənə Hüməmddini sevirəm", deməmişdinmi? Amma bu bir yerdə yaşadığımız xalq durarkən karvansaraya getməyə haqqım yoxdur. Özgələrlə söhbət daha yaxşıdır, yoxsa bunlarla razılaşım? O yəhudinin bir tək bütü var, bu- nun yüz min. Bir bütlə məşğül olmaq daha yaxşı deyilmi? O, mənə yum- ruq atar, amma mən ona ata bilmərəm. Çünki bu məqamda bir rəhmət var. Beləcə, mənimlə birlikdə yoldaşlıq edərsən. Bütün aləmdə bütün sözlər talibləri* arayanlarındır. Bəs axtarılanın nişanı nədir? Dinləyirəm, dinləyirsən.

Axtarılan həqiqətin Allahla müqayisə edilməsi yolu ilə o aləmə yetə bilməyin vaxtını gözləmək lazımdır. Nəhayət, haraya gedirsən? Mənim nazənin dostum! Bu mübahisədən sonra daha nə söyləyim. Allah sənin yanında olsun, deyirəm. Amma bu ayrılıq arzusu deyil, ancaq Allah lütfü- nün, inayətinin, Mövla dostluğunun və sirləri bilən Haqqın səni qorumağı üçün bir duadır.

"Dur, ey Dəvəm! Sevinc son mənzilinə gəldi, iş bitdi, yol kəsildi. Yer üzü gözəl bir cənnətə döndü. Bayram geriyə döndü, işlər düzəldi."

Biri dedi ki, təkyənin işi nədir? Hansı niyyətlə iş görər? O, yedizdirər, istirahət etdirər, yoxsulun biri ondan bir şey istəsə, bütün qəlbi ilə deyər ki, sən məndən şəxsi bir istəkdə bulunmadın, bəlkə ümumi sırasında bir şey istədin. Sən də o ümumi istəklər arasındasan. Görəsən, məndən gecikdiyinimi soruşur? Mənim şəriət yönünə meylimi bilsələr, mənə hər gün səhərlər külləmə tikələr yedizdirərdilər. Hər cür bişmiş ət qaz yaradar, amma bunda lap az qaz var. Sən mənim qızardılmış ət tikələrini sevdiyimi necə bildin? Bunlar məsələnin mahiyyətini bilirlər. Şübhəsiz, sən mənim istəyimə uyğun hərəkət etdin, insanın niyyəti oynanmaq olduqdan sonra, istər yatmış olsun, istərsə də ölmüş tapılsın, ona İsa (ə) nəfə-

si gərəkdir. Amma ona İsa Peyğəmbər (ə) nəfəs verər və ürəkdən dirilməsini istəyərsə, o oyanar. Lakin onu yalnız silkələyib oyandırmaq niyyətində olmazsa, o zaman nə olar. O zaman o şəxs müqavimət göstərməyə başlayar. Necə ki, Həzrət Peyğəmbərə xitabən Allah-təala, "Sən sevdiyin kimsəni doğru yola gətirə bilməzsən!", buyurmuşdur. Mənə dedi ki, mən hər zaman Bədrəddinin evinə gedərkən həmişə səni çağırıram. Sən nə üçün dəstəmaz almağa gedərkən məni çağırmadın? "Yoldanmı", dedim. "Yoldan", dedi. Mən səni çağırdım. Əgər aramızda məhəbbət və hörmət

olmasaydı, başqa nə edə bilərdim? Bu arada məsələni öyrənmək üçün özümü çətinliyə salırdım. Çünki anlaşmaq və birləşmək istəyirdim. Mövlananın sevgisi olmasaydı, Allah haqqı üçün öz atam belə olsaydı, mənə onların elədiyini edərdimmi? İstər kitab göndərilmiş peyğəmbər olsun, onun şan və şöhrətini tapdalayıb, alt-üst edərdim. Dedi ki, görürsən, iş nə qədər ağırdır. İgidlər gərəkdir ki, bu dağları dibindən uçursunlar. Dində və əməldə geri qalanlardır. Həzrət Məhəmməd (s) ona gələn qəti əmrlərdən necə inlədi. Quranda "Əmr olunduğun kimi düzgün yürü!" buyuruldu və buna işarə ilə, "Hud surəsi və ona bənzəyənlər məni qocaltdı", deyə gileyləndi. Bu, bir fəryaddır. Amma Ayaz üçün çətin bir iş yoxdur. Həmişə asandır. Mən bunun əvəzində dedim ki, nəhayət, Ayazın himməti və əzmi işləri asanlaşdırır. "Bəli" dedi. O Ayaz ki, köpəklərə qarşı belə sevgi və şəfqət bəsləyər, öz gözünün nuruna qarşı necə sevgi bəsləməz? İndii bizim sözümüzü üzülərək təkrar söyləyər və ondan faydalanar.

Ömründə hamam üzü görməmiş, vücudu tər və kir qoxuyan ədəb- siz bir adamı Sultan Mahmud Qəznəvi hüzuruna qəbul etmədi. Həzrət Məhəmməd (s) ki, lap çox uca bir mərtəbədir, Sultan Mahmud mübaliğə baxımından onun dayaz ifadəsidir, elə adamları necə qəbul edər? Nəhayət, böyük ərənlərin ruhları hazırdır, yaşayanları görər, onlara yardımçı olarlar. Bir şəxs necə ədəbsizlik edib, dərgahına layiq olmadığı halda, Həzrət Məhəmməd (s) haqqında söz söyləyə bilər? Bu o səbəbə görə qeyri-mümkün görünür. Çünki sən həmişə öz yazdıqlarını oxuyursan. O Həzrətin məktubunu oxumursan, yəni ona öz halından qiyas edirsən (Onu öz nəfsinlə müqayisə edirsən). Onun qiyasını öz halına oxşada bilmirsən. Bu barədə belə buyurur: "Mənim xarici görünüşüm (zahir) başqalarının batinlərinin yaradıldığı yerdən yaradılmışdır." Bax bu "başqalarının" sözlərindən aydın olan övliyalarla nəbilərdir. Yəni, "onların qəlbləri və batinləri ilə bildikləri şeylər mənim üçün zahir bilgisi sayılır", deməkdir. Yəni onların batində gördüklərini Həzrət Peyğəmbər zahirdə görür. Özündən söz söyləyən şəxs öz mənliyindən kənara çıxmışdır. O,

öz-özünə deyər ki, bunu düşünə bilmək üçün başımı idarə edən güc- qüvvə öz yuvasından kənara çıxmışdır. "Ey könülləri və gözləri istədiyi tərəfə döndərən Ulu Allah! Qəlbimi dinim üzərində sabit qıl!" Bu dua başqaları üçün bir arzudur. Yəni belə bir hadisəylə qarşı-qarşıya gəlsəniz, Allaha belə yalvarın, deməkdir. Əgər iş belə deyilsə, sən o kitab gön- dərilmiş ən böyük Allah Rəsulu haqqında yanlış düşüncəyə qapılarsan. Halbuki, onun qəlb evinin ətrafında heç bir güc-qüvvət dolaşa bilməz. Zındıq elə bilir ki, onun üçün qorxu yoxdur. Amma o sözü özünə söyləyər. Söz başqa bir yerə getməz. Necə ki, şair "özümlə xoşam, bundan sonra

da mən özüm üçün yaşayacağam" demişdir. Bu məqamda başqa bir sirr

də var ki, Həzrət Peyğəmbər onu Ömərdən (r.a) gizlədi. Amma bu ondan bir şey əsirgədiyi üçün deyildi. Ancaq hələ vaxtı gəlməmişdi. Əgər o zaman bunu Ömərə açıqlasaydı, xəlifəlikdə çaşqın bir vəziyyətə düşərdi. O sözün mənasını qavramaq mümkün olmazdı. Şəriət zahirdədir. Onu aləmdə yaymaq gərəkdir. Mənim sizdən istədiyim içinizdəki coşqunluğu, dərin duyğuları kənara atmağınız, aşkara çıxarmağınızdır. Sərxoşluq da, ayıqlıq da meydana çıxsın. Mənim istədiyim hal səndə varmı? Hardadır? Mən bu işləri onun qarşısında öz-özümə edirəm ki, görüb o sirri açığa vurasan! Səni aftafa kimi gəzdirim, oraya aparıb o geniş xirqə ilə o işləri görəsən ki, batinin də sağlam qalsın.

Əvvəlcə sənə yuvarlaq bir qızmar təndirdə oturmağı öyrədim, birinci gün bir az qıraqda oturarsan, sonra yavaş-yavaş təndirin kənarına gələrsən… Mövlana ilə sizin duanızdan danışırdıq, mən bir neçə kəlmə söyləyirdim. Duanızın yekunundan və içinizin təmizliyindən gözümdən yaşlar axdı. Bəli, Peyğəmbərimiz (s) buyurdu ki: "Bu ədəb üçün bir ustad, bir mürşid gərəkdir." "Mənə ədəbi Rəbbim öyrətdi!" buyurmaqla böyüklük göstərmişdir. O, bu sözləri ilə dərvişi tərifləmişdir. Mənə sizinlə birlikdə bir şey söyləmək lazım deyil, çünki anlaya bilməzlər. Ancaq mənə içindən çıxılması çox çətin olan bir sual verən o tək insanın faydalanması üçün danışacağam. Çünki onun bu sualından bir fayda umular və bu səbəbdən irşad yetişdirən şeyx ilə irşad olunan müridin halı bəlli olar. Müntəzəm olaraq şeyxlik edən şəxs ilə ona müntəzəm surətdə bağlanacaq mürid seçilmiş və anlaşılmış olar. Bu, bambaşqa bir işdir. Dedi ki, Mövlanadan soruşdum, bu aləmdə nələrə tamaşa etdiniz, dedim. Mənə bu cavabı verdi: "Bir insan ki, hər kəslə bir mövzu ətrafında danışır, o ya tamaşa baxımından geri qalmışdır, yaxud tamaşa davasında dil pəhləvanıdır." Amma edəcəyi o tamaşa hər kəslə danışmasına əngəl olarsa, iş başqadır. Deyək ki, qarnım toxdur, amma mənə su lazımdır. Mən necə çörək yeyə bilərəm? Yesəm, vəziyyətim daha pis olar.

Pirlərdə bir şərəf var, xüsusilə alimlərdə. "Hələ onun qaranlığı mənə mane olur" kimi sözlərdən daha çox inciyərəm. Onun qaranlığından verəcək cavaba da gecikdim. Amma o kimdir? Onun qaranlığı nədir ki, sənə pərdə ola bilsin?

O gün şəhərə gəlmədən o şeyxi tanımırdım. Onun halı mənə gizli idi. Hələ qaranlığı mənə heç pərdə olmadı, istər çırpınsın, istər ilan kimi qıvrılsın, mən deyəcəyimi dedim, bitdi.

Yetmiş yaşında olan bir məcusi yolçuluqda yeddi yaşındakı bir uşağa möhtac olar. "Mənə bir az su ver", deyə bilər. Amma mən bu vəziyyətin ona dəlil olmasına razı olmaram. Məcusidəki sevda başqadır. Halbuki, sən onun sözünü nümunə götürürsən. Yaxud ondan daha aşağı səviyyəli, daha bayağı birinin sözünü misal göstərirsən. İstəyirəm ki, təkyəyə gedib, sənin bu sözünü tənqid edim. Bəs deyirdin ki, sənin suç bağışlamağın günah öyrətmək anlamına gəlir ki, daha artıq olmasın. Amma çox ziyan edirsən, çox dəyişikliklər və qarışıqlıqlar olur, başqa bir səfər də söyləmişdim. Əgər Narənc bir günah edərsə, kimə ziyanı var? Heç evini qoyub başqa bir evə gedərmi? Onu bir şeyə bənzədirsən ki, sənə bir faydası yoxdur. Dinə də xeyiri yoxdur. Razı deyildim ki, iş quru bir yekunla nəticələnsin. Necə ki, bəzirganın birinin qüsul vermək heç xoşuna gəlməzdi. Necə dəfə su töksə üşənirdi. Bir dəfə başı şişmiş ağrımağa başlamışdı. Onu hər gün şeytan aldadırdı. Yəni yetkinlik yaşına girmişdi. Onu Gülüstandakı mədrəsəyə apardım. Mədrəsənin müəllimi dedi ki, bəli, ilham bir şeytanın adıdır, deyirlər. Onu İblis bu gəncə müsəllət etmişdir. Bu gəncin namaz və təmizlik niyyətlərini şübhəyə salır. Müəllim özünü bir kənara çəkdi, rəngi saraldı. Sonra ikinci dəfə izah etdi: "Bil ki, vəsvəsə deyilən şey bir köpək, bir məlundur. Onun günahı sənin boynuna yazılar. Qətiyyən ona bir daha qulaq asma!"

Sonra mənim çox yemək haqqındakı sözüm də bu mövzuya dayandı. Sənə Hələbdə nə dualar etdim. Rahat oturduğumuz o karvansarada üzü- mü xalqa göstərmək istəmirdim. Əgər belə etməsəydim, ya bir işlə məşğul olmaq, yaxud da yenidən təkyəyə dönmək məcburiyyətində qalacaqdım. Mənim iyirmi gündə bacardığım işləri sən bir anda alt-üst edərdin. Bütün bunlar hesaba sığmaz. Sonra bütün işlər pozular, üzüntüsü mənə qalardı. Görürsən, sənin tərbiyə və böyümə tərzin sənə nələr gətirdi! Mən artıq bu işə başladım. Allah fəqirlərinin işi boş deyil. Necə ki, o üç gündə nə aydınlıqlar müəyyənləşdiyini gördün. Əgər o nəşə bu ana qədər davam etsəydi, nəticə nə olardı? Bu hala görə o olub-keçənlər həmişə iş hesabı deyildi. Şama getmək sizin işiniz deyil, o mənim işimdir.

Mövlana mənə elə bir qəribə nəzərlə baxdı və dedi ki: "O, Allahı be-

lə bir şəxsdə axtarır.'' Mən ona çox inanıram. Öncə, bu yanlışdır, dedim. Dedi ki, mən Allahı onda axtarmıram, onu Allahdan istəyirəm.

Bu insan oğluna öz gözü qədər heç bir şey ziyan verməz. Yəni özünə çox nəzər dəydirir. Baxsanız, heç kim bunun fərqində deyil. Ancaq bu işi mən bilirəm. Nəzər dəydi, bir qurtum su kimi keçib getdi:

luna getməzdi.

Şeir:

Hayıf ki, ümid günündə eşq vücudumu ümmana qərq etdi.

Əgər sən imanlı insanlarla, namaz və xidmət yolunda olanlara dil uzatmırsan, bunu bu qədər gözəl şəkildə kim ifadə edə bilər. Dəstəmaz alanda bütün bədənin elə parlaq və gözəl görünür, başını səcdəyə qoyduğun vaxt sənə elə bir hal gəlir ki, içki belə ona ziyan verməz. Amma öz- ündə bu məqam yoxsa, bu dənizdə əl-qol atacaq gücü yoxsa, boş şeydir. O, talib (tələb edən) idi, axtarırdı, axtardığının nə olduğunu söyləmək də ona ziyan verməz. Mən qiyamətə qədər bu yanda yatıb-duraram, bu, mənə zərər verməz. Bəlkə hər gün mənə daha gözəl gələr. Bununla bə- rabər məndən ayrıldığın gün üzüldüm. Gecə səhərə qədər sakit olma- dım. Onu tərk etdiyin gün də sevincli və nəşəli oluram. Kəbənin qapısı qiblə olmasaydı, Kəbə xaricindəki dörd tərəf də qiblə olmazdı.

Sən Ərzurumdansan. Rum ölkəsindən gənc olsun, yaşlı olsun, insan Allah evindən bu qədər uzaqlaşarmı heç? Qulağını çəkərəm, gəl süfrənin örtüyünü yığışdır, mənə su ver! Bu gecə əgər məndən ayrı və tək yatsan, mən rahat ola bilmərəm. Əlimi-ayağımı bir tərəfə atıb, çırpınaram. Sən arxamı örtərsən, önüm istər qış olsun. Əgər başqa kiçik biri olsa, kağızı tutar, yağlar və siçanı tutar. Sən bu işləri bizə əmr et! Biz içirik, sənə baxmırıq.

"Sufi ilə dişi eşşək və viranə'' hekayəsi də bir başqa cürdür. Bunu da irəlidə danışaram. Məndən hər hansı biri inciyərsə, onu tez tərk edərəm, amma məndən necə ayrıla bilər? O, peşman olar. İndi onu daha yaxşı olması üçün sıxışdırıram. O bəlkə daha çox zəhmət çəkəcəkdir. Amma bir gün məndən ayrılınca daha gücsüz qalar. Çəkdyii zəhmətlər xatirinə gələr, başqa biriylə dostluq qurar, o dost da ondan qaçar. Amma Mövlananın çaşdırıcı və izah tələb edən sözləri hər mövzuya uyğun gələr. Dedi ki, kilsə lazımlıdır. Çünki ilk öncə müsəlman olan lap az şəxs var. Dedim ki, bu söz ilk dəfə söylənmiş sözlərdəndir. Bu təkyəyə mən gələndən bəri dünən gecə bundan danışıldı. Bu kimin sözüdür, bunu yazmaq la-

zımdır. "Şübhəsiz, Haqq Ömərin dilindən danışır" buyurulmuşdur. İndi ki, səndə öz sözlərindən hansının Allah ilhamı, hansının Şeytan vəsvəsəsi olduğunu ayıra biləcək güc yoxdur, bunu mən sənə söyləyim: Bunlardan Allah ilhamı sonucu olanları yazmaq gərəkdir. Nəhayət, öz qüsurunu anladırdı, deyirdi ki, öncə mənə iman bəhsində bir şeylər olmuşdu. O şeyx məni

özünə çox etibar etdiyi şəxsin yanına apardı. Onunla çox danışdı. O, araya bir söz atırdı, amma şübhəli danışırdı. Biz onu öz tərəfimizə çox çəkirdik. Çünki o söz elə bir şəxsdən gəlirdi ki, onu Həzrət Məhəmmədin (s) yanıda oturtsalar, yaraşardı.

Məndə elə atəşli hal var ki, heç kim bu duruma tab gətirə bilməz. Ancaq mənim sözüm dinləyənə mərhəm olar. Xalq arasında qəbul ed- ildikcə güc tapır. Bir gün o da bu hala düşərsə, sonucuna qatlanar. İş adamının gördüyü işdə kamil oması gərəkdir. Elə insan nə acımaqla, nə qəm çəkməklə özünü yorar və heç üzülməz. Yola düşəndə hər an ayağı büdrəməsin deyə diqqətlə yeriyər. Çünki atadan qalma o xəta bir kərə işlənər. İnsan hər dəfə yanıldımı, dalınca peşman olar. Artıq bir daha yanılmamaq üçün ayıq davranar. Yanılsa belə, ona artıq əhəmiyyət verməz, düşünməz. Çünki zaman keçdikcə üzülməyin və qəm çəkməyin bir faydası olmadığını anlayar. Deyək ki, döyüşdə bir adamın əli yara- lanmışdır. İlk dəfə çox ağrı və üzüntü duyar, ağlayar, amma nə xeyri olar? Ancaq müalicə üçün bir cərrahın, bir həkimin yanına qaçar, yaxud heç ağlayıbsızlamadan bir sınıqçıya pul verərək sarğı ilə bağlatdırar. O sarğının verdiyi rahatlığın sonda yaxşı olduğunu sanar.

Mövlanada nücum elmindən sözlər var. O danışarkən sözlərinin kimsəyə bir faydası olub-olmadığını düşünməz. Amma mənim uşaqlığımdan bəriAllah ilhamı olan bir halım var. Birini sözlə tərbiyə etsəm, öz mənliyindən qurtular. Daha artıq irəliləyər. Bu, şeyx Haqdır. Allah qullarından kimi əməl adamı, kimi də söz pəhləvanıdır. Siz mənim üçün iş adamısınız. İçinizdən söz adamı da çıxaracağam. Ancaq bu daha yenidir. Özündə əməl adamı olmaq gücü tapılan insan danışdığı zaman sözü əməlinin qüvvəti ilə birləşdirər, ona uyğun iş görər. Mən təkyəyə daha çox onu yaxalamaq üçün gedirəm. Əgər ovlaya bilsəm, salam və sayğını son də- rəcəsinə çatdırarsa, başqa bir vaxt yenə gedərəm. Onu ovlamaq üçün yenə yaxalayaram. Mən Haqq yoluna çağırmaqda sərbəstəm. Amma Həzrət Peyğəmbər (s) bu işə məmur olduğu üçün, "Hud surəsi məni qocaltdı", buyurmuşdur. Mən bu mövzuda məcburiyyətli olmadığım üçün Allahın "Əmr olunduğu kimi davran!" fərmanı məni ancaq cavanlaşdırır. Çünki hədisdəki "y" hərfindən bir nöqtə düşəndə kəlmə gənclik anlamına gəlir. Düşən ikinci nöqtə birinci nöqtə ilə yan-yana gələndə bir-

ləşmə meydana çıxar. Amma müstəqillikdən söz açılırsa, birləşməyə nə ehtiyac var deyəcəksiniz. Amma Allahın işlərində heç bir çətinlik yoxdur, ona görə də heç də ağır deyil. Mövlana "Yaradanların ən gözəl olanı - Allah səni mübarək qılsın!" deyə dua edən kişinin əlini öpdü. O, dinindən döndümü? Bilmədi ki, o, Həzrəti Peyğəmbərin nurunun işığı ilə Ömərin

dilindən danışdı. Necə olur, dinindən dönər? Görürsən ki, o söz onun

deyil. Məhəmmədin (s) hesabına Əli (ə) danışmaz, çünki Cənab Haqq həmişə Məhəmmədin (s) diliylə danışmışdır. Bu gün də elə deyilmi? Sənə nə deyim, ona nə söyləyim. Dünya və axirət durduqca, şəhvət duyğularından uzaq bir sevgi var ki, buna heç bir şey əngəl ola bilməz.

Dünən sizi mehribanlıqla xatırlayırdıq. Mən həmişə belə edə bilərəmmi? Bunda əsla günah ola bilməz. İstər inkarlı olsun, istər inkarsız, mən bundan sonra bu məsələ üzərində dayanmıram. Mənə yaramazlıq etməyə başladı. Amma yenə məni sevdi.

Nə olar, bir-bir söyəlyin, nə olar? Dost istəyirsən, yoxsa işıqlı sabahlara yetişdirəcək şammı?

Rübai:

Ey can, bu gün ümidim sənsən!

Başqa sevgilər də var, amma könlümü əslində yandıran sənsən! Dünya-aləm Növruz bayramı ilə sevinc içində,

Bu gün mənim bayramım da, Novruzum da sənsən!

Şeir:

Bahar mövsümündə yarın gül yanağından uzaq düşdüm, Həyat mənim nəyimə gərək, yaşıllıqlardan mənə nə? Bağdan gül yerinə tikan topladıq,

Buluddan damlalar yerinə daş yağdı.

Bir adamın həqiqətən susadığını anlamaq istəyirsən, qarşısına halva-şəkər qoy. Əgər onlara dönüb baxarsa, o həqiqətən susuz deyil. O yol kəsən kürd dedi ki, ey alimlər, əllərinizdə çörəyiniz var, halbuki naşılar acdır. Bunun cavabını mən verim. Get yaxında bir kənd var, bəlkə orda əlinə bir parça çörək verərlər, dedim. Ora uzaqdır, hardadır o kənd? İndi uşaqlar acdır, dedi. Dedim ki, biz də çörək axtarırıq, tapa bilmirik. Gedirik, heç bir yerdə dayanmadan, bir tərəfə baxmadan bu cavabı söyələyirik. Həmən bıçağı çıxardı. Heç olmazsa, onda bıçağı tuta biləcək ürək

və güc ola.

Mən dünən bir az şorba içmişdim, başqa bir şey də yemədim. Əgər pəhriz saxlamasaydım, hər gün xəstələnərdim. Bədənim arıqlayıb. Onu ancaq pəhriz atəşiylə dağlayaram. Allah o günü göstərməsin ki, könlüm pəhriz istəməz. Allah pəhriz deyilən o narahatlığı könlümdə elə şirin göstərir ki, əsla sağalmasını istəmirəm.

Bu mövzuya təkrar dönmək istəmirik. Amma yenə bu bəhsə dönməsək, din zərər görər. Yolda ona bir soyuqluq və tənbəllik gəlmişdi. O gün pul gətirməsi Mövlananın xoşuna gəlməmişdi. Mövlananın bu məmnunsuzluğundan ona da soyuqluq gəldi. Amma o mövzunun xaricində danışmaq bizə də xoş gəlir. Necə ki, bir neçə dəfə bu günlərə yetişdik, bu günlərdə ibadət lazım idi. Allah bu günlərdə bəndələrini başqa günlərdə olduğundan daha çox qoruyar və görər. Bu xalq belə deyər, amma Allah Allah olandan bəri hər şeyi görür, eşidir. Bu halda, "nə üçün Ramazanda görər" deyirsən? Günah eləmə! O, Şaban ayında da görər. Pəhriz saxla! Şəvval ayı girəndə artıq günah və fəsadla məşğul ol, hal diliylə, artıq Ra- mazan getdi, Allah gələn Ramazana qədər təkrar etdiklərimizi görəcək və biləcək deyil, hə? Gətir bu əyləncə və şərab qədəhlərini artıq içək, deyərsən. Bu söz qəribə hədislər arasında rəvayət edilmişdir, amma çox yayılmayıb xalq arasında. Deyirlər ki: "O kəs ki, müəyyən günə qədər gü- nahlarından tövbə edər, təkrar tövbəsini pozarsa, iblisin məsxərəsi olar." Onun xidmət etdiyi darğa əgər sultan kölələrindən birinin hüzuruna ədəb- siz bir vəziyyətdə çıxsa, kölə onu iki parça edər. Sultan da saraynın içində və çölündə darğadır. Yəni uzaqdır, lənət də uzaq düşməkdən ibarətdir. Şeyx İbrahimin bizim aramızdakı birlikdən xəbəri var. Mən danışarkən, söz Mövlananın sözüdür, deyərəm. Hər ikimiz də, şübhəsiz, eyni sözü söyləyirik. Sonra heç xatirimə gəlməz ki, Mövlana başqa bir söz söyləsin. Buna görə daxilimdə bir üzüntü yoxdur. Dedi ki, müridləindən bir icma gördüm. O kimə baş əyirdi? Sonra sən də, "söyləmə", deyə kimə işarə edirdin? "Xeyr", dedim. "Amma o işarədən o mürid nə etmək mənasını anladı", dedi. Biz də əslində bu etmək işarəsindən bunu anlayırıq. Söylə, söylə, dedim. Yenə dedi ki, üzr istəyirlər və deyirlər ki, Mövlana bizimlə birlikdə olduğu zaman gülər, bizi heç günahlandırmaz, "bu işi tez elə və ya bir iş gör", deyə məcbur etməz, səsini yüksəltməz, heç bir şeyə qəti qərar verməz və bizi hədələməz. Əgər Şəmsəddin də belə eləsəydi, o, bizim gəlməyimizə mane olmazdı.

Biz bu qədər böyük fədakarlıqlar edərkən deyir ki, belə bir sufi sözü var: Əgər bir şey tapsam, sən xilas oldun, yoxsa əlimdəsən. Mən bu fikirdəyəm və bu məqsədlə gəldim. Əgər müridlərdə vəfa varsa, bu olar, yoxsa olmaz.

Mövlana, madam ki, əldədir, onu Aksaraya gətirən adam, görəsən, daha artıq gətirə bilərdimi? Könlün bunu istəmir, amma bu səfər istəyən kimi görünür. Nəhayət, mən Murad, yəni arzu edilən insanam. Mövlana isə Muradın Muradı olmuşdur.

O, mənim sözlərimi ən xoş bir şəkildə söyləyir. O, mənim ona eləmədiyim yaxşılıqları mənə etmişdir.

Mövlana əvvəlki işlərdən danışır, yağmurdan, palçıqdan söz açır. Mən namazı bitirdiym zaman dəftərini yerə vurar, kimsə oxumasın deyə bir şey yazmaz.

Həzz (sevinc) üç cürdür. Deyək ki, biri o birindən, "nə oldu ki, mənə bir cariyə bağışladın", deyə soruşar. Bu adam bundan artıq cariyə sahibi isə, heç səsini çıxarmaz, ona bir şey söyləməz. Zamanı gələndə onun doğru danışması əlinə keçən nemətin kefindən və sevincindəndir. Yaxud da, insan bir dərmanı içməkdən kef və sevinc duyar. Amma bu dərmanın tapılmadığı zamanda da yenə özündə aşkara çıxan kef və nəşə bundan daha xoş və daha üstün bir zövq deyildirmi? Vəz və daha başqa məclis- lərdəki sevinc və nəşəni ondan necə umarsınız?

Mövlananın kiçik oğlunun məqsədi nə idi ki, mən ayrı-ayrı hər birinə getdim, "nə üçün toplanmırsınız deyə soruşdum", deyir. Səni kim göndərdi bu işə? Məclis sənin sözünləmi olacaq? Onların, ürək istəyərsə, üzlərini yerə sürtər, fəryad qoparарlar. Əbdüləzizin buz anbarından daha soyuq göz yaşı tökərlər.

O, anasının qarnından deyil, burnundan düşmüşdür. İnsan oğlunda olmayan hər çirkinlik onda toplanmışdır. Bütün yaramazlıqlar, təcavüzkar- lıqlar, küfr və zındıqlıq ondadır. Sən əgər bu işdən vaz keçmək davasında təcrübəlisənsə, mənim işim sənə şəfqət göstərməkdir. Onu, indi ki, təkrar oxuyursan, bu halda etdiyin hərəkət vaz keçmək demək deyil. Bir kərə şəfqət şərtlərini yerinə yetirmək lazım deyil. İndi ki, "Haqq, sözün düzü, mənim etdiyim kimidir", deyirsən, belə cavab verirsən. Bu sözdən hələ ki, məni səndən tamam xaric olmadığı anlaşılırmı? Onun əlamətlərini də görə bilmirəm. Bir altundan yarısı geri qaldıqca, yaxud yarım dəng qal- dıqca altun bütöv sayılmaz. Şübhəsiz ki, evə pulsuz girilməz, deyərlər. Yəni öz varlığını ortadan qaldıracaqsan, altunun bütövləşməsi odur. Əgər mən pisəmsə, necə ki, İmad bu da ona artıq etibar etdiyi üçün ona düşkündür, deyirdi. Amma o, o adam deyil. Sən mənim pis tərəfimi görür və susursan. "Biabırçılıq olar", deyə bir şey söyləmirsən. Sənə deyirlər ki, biz də əvvəl ona belə dedik, amma sən bizi dinləmədin.

Biz, budur, gedirik, bu əgər yaxşı olarsa, tamam görərsən. Düşmənlə- rin, münkirlərin gəvələyib durmamaları üçün söz başqa cür söylənir. Mü- ridlərlə də bu cür danışılır. Əvvləcə İmadla bu saatda xəlvətcə danışırdın. Bu elmi əgər qəbul edirsən, gərəkdir ki, hər nə söyləsən, biləsən

ki, o

qapıdandır. O zaman işin rəngi dəyişər. Onların qarşısında sənin o Hü- mamın evinə getməyin, özünü onlardan saymağın xətadır. Sənə o Şə- rəf dedikləri adamı da özünü onlardan göstərəsən deyə göndərdilər. O səsi Bəyazid anlayarsa, yanlışlıq olar. Bir şey olar ki, ondan iki dəfə ar- tığı meydana gələr (Az şeydən çox şey çıxar). Necə ki, söyləmişdim, əgər mən getsəm, sən öz evində Kerra xatundan başqalarına üzünü göstərərsən, məni bir daha görə bilməzsən. Bu gün bu şəkli istəyirəm. Nəhayət, deyirəm ki, o, qeyri-mümkün bir şeyi mümkün etmək istəyir, ona görə də mümkünsüzləşdirmişdir o. Mən onu olmayacağım qüvvətlə isbat edirəm. Bu şeylər əcaibdir. Onlara yol var. Vəz və toplantılar belə olmaz. İndi öncə bizim ayrılmağımız bu Əlaəddinin üzündəndir. Nəhayət, onunla başlamışdır və onunla başlaması heç kimi çaşdırmamalıdır. Kaş ki, o bizim üçün tək alim, bir düşmən olaydı. Ağam! Bizim üçün heç bir əmr-be məruf və nəhy əz-münkər söhbət mövzusu deyil. Bizə onun nə dostluğu, nə də düşmənliyi gərəkdir. Biz ondan xirqə geymişik və ona yüzlərlə səcdə edirik. Hər gün bizim dostluğumuzu, düşmənliyimizi buraxmağımızı söyləyir, istəyirəm ki, onu dəf edib, təkrar özümə tərəf çəkim. Amma nə soyuqdur! Sanki Əbdüləzizin buzluğudur. Vallah, bu saatda yola çıxmaq çətindir, amma istər-istəməz bu olacaq. O (Saroz), xatirə gəlir.

Mənə o qədər ağrılar müsəllət oldu ki, iki ildən bəridir o yol yorğunlu- ğu məndən getmədi. Yolçuluq etdim, təkrar gəldim, elə ağrılar çəkdim ki, bu Konyanı altunla doldursalar, yenə o zəhmətin əvəzini ödəyə bilməzdi. Ancaq sənin sevgin üstün gəldi. Bir uşaq üçün bir Allah adamını tərk et- mək mümkün olmadı. Bütün bu sözlər əvvəlcədən də söylənmişdir. An- caq bu saatda da danışmaq istəyirəm.

Əgər bu üzüntünün uğursuzluğu olmasaydı, bəlkə bizi uyuşdururdu. Amma biz necə bir araya gələ bilərik? Ancaq o getmək qərarındadır. Dedim ki, kaş oraya getməyəydim, yaxud söylənənləri eşitməyəydim. Amma bunun nə faydası olacaqdı? Oraya getdikdən sonra dedi. Yəni demək is- təyir ki, nə bu gün, nə sabah, nə fərqi olardı? Deyək ki, bir şəxs başqa bir şəxsə bir yaxşılıq etmişdir. Görəsən, qaranlıqda edilən yaxşılıq kimin üçündür? Yaxşı görülmüş bir işi bir soyuq nəfəsli uğursuz bir nəfəslə po- zar, alt-üst edər. Onlar da öz aralarında bir-birləriylə, "görəsən, nə edək", deyə danışırlar. Ona nə tədbir düşünək, deyərlər. Bu onlara lap soyuq gəldi.

Sən atasan, onların ədəbli davranmaları üçün hədələyə bilmirsən. Eynüddövlə ana uşağıdır. Elə aldadıcı və onun kimi üzsüz bir kafirdir. Ni-

zamǝddinǝ heç oxşamır. Billah, sıxılma, sǝnǝ xoş bir söz söylǝyim, dinlǝ. Sǝninlǝ söz danışıla bilir. Amma uzun zamandan bǝri dinlǝmǝdiyin üçün sözlǝr arada itib gedir.

Yolçuluq mǝnǝ çox çǝtin gǝlir. Bu sǝfǝr getsǝm qǝtiyyǝn keçǝn dǝfǝki kimi etmǝ! İndi nǝ yola çıxa bilǝrǝm, nǝ dǝ Aksaraya gedǝ bilǝrǝm. Ancaq lazım olarsa, burada mǝnǝ zǝhmǝt vermǝyǝcǝk bir guşǝyǝ çǝkilib otu- raram. İki ildǝn bǝri yolçuluğa dözümüm yoxdur. Çǝkdiyim iztirablardan bezdim. Ancaq üstü örtülü danışıqlar, müvafiq dostların yığıldığı mǝclis olmazsa, bu sǝfǝr yola çıxsam, ǝvvǝlcǝ elǝdiyin kimi qarşı çıxma! Elǝdiyin işlǝrǝ qarşı ǝvvǝlki fikirlǝrǝ düşmǝ! "O, yenǝ birlikdǝ olaq", deyǝ tövbǝ edǝr, bir yerdǝ oturmaq istǝyǝr, yaxud anlamayıb başqa şǝkildǝ izah edǝrsǝ vǝ mǝnim söylǝdiyim kimi edǝrsǝ, onlardan hǝr biri bir-bir mǝlǝk kimi olar. Nǝhayǝt, mǝn bilirǝm, mǝni alim olaraq tanıyırsan, elm adamı bilirsǝn. Necǝ olar ki, bunu söylǝmǝk istǝmǝyim! Bu saatda bu sözlǝr söylǝnmişdir. Ancaq indi daha başqa bir öyüd vermǝyǝ çalışacağam. O da münasibǝt baxımındandır. Yavaş-yavaş başa salsam, bu işǝ ǝngǝl olmaz. Başqa işlǝrǝ ǝngǝl olsa belǝ, gǝrǝkdir ki, bu işǝ müvafiq olsun.

Ǝmǝl adamı işini möhkǝm tutmalıdır. "Şǝrab içmǝyǝ yol vardırmı", deyǝ soruşdular. "İçmǝ", dedi. Allah Mövlanaya uzun ömürlǝr versin, o qǝdǝr uzun ömürlǝr versin ki, sonsuz vǝ ǝbǝdi anlamına gǝlǝn uzun vǝ xoşbǝxt bir yaşayış olsun hǝyatı.

Zǝncirdǝ belǝ olsan, dostluq et. Elǝ dostluq et ki, Hǝzrǝt Süleymanı (ǝ) sağ bil. Onun eşqi qabaranda bir an, "yaxşı elǝdin", deyǝr, sonra özün- dǝn gedǝr. Ona sevgi verǝn kimdir? Ǝgǝr eşq yolunda irǝlilǝyǝrsǝn, ruh alǝmindǝn qoxu almağa başlayarsan. Haqq alǝminǝ yetişǝrsǝn. Bir-bir müridlǝrin yanına getdim, hǝlǝ ki, şǝhǝrdǝ su içmǝmişdim. Hǝlǝ dincǝl- mǝmişdim. Yuxarıya çıxdım, amma sanma ki, hamısının hücrǝsinǝ gir- dim. Sonra geri döndüm, köhnǝ bazara getdim. Gǝlǝndǝ hamısı burada sübh namazında idi. Bu, mümkünsüzdür. Evi belǝ tanıyırsan. Allah nǝ iş- lǝr elǝyǝr! "Allahdan başqa ilah yoxdur", dedim. Nǝhayǝt, hamısı birdǝn hara getdi?

Bir adam yaxşı yumruq vururdu. Başqaları da var idi belǝ vura bilǝn. Bir yǝhudi belǝ olsaydı belǝ edǝrdi. Bu gün Allah qǝzası birini yerǝ vurdu. Bu bǝla ǝsla onun biçarǝliyinǝ görǝ başına gǝlmǝmişdi. Bǝlkǝ dǝ o ǝsla qovğa vǝ savaş görmǝmişdi. Sıçrayıb qalxdı, başqa birinin boğazını sıxdı. "Bunu öldürmǝk istǝyirǝm", dedi. "Amma nǝ üçün", dedilǝr. O sǝnǝ nǝ etdi? Sǝn bütün cahanımı öldürǝcǝksǝn? Sǝni hǝr kǝsmi döydü ki, bu adama hücum etdin? "Bu biçarǝnimi tapdın, onu nǝ üçün öldürǝcǝksǝn"

dedilər. “Xeyr”, dedi. Əlbəttə, onu öldürəcəyəm, mən nə üçün bütün öm- rüm boyu birini döyməyim, onu öldürməyim? Padşahın yanına getdilər, “onu xəzinə tərəfə aparın”, dedi. ”İndi yüz dinar al, bu adamı burax”, de- dilər. “Xeyr”, dedi. “İnsan əzasından hər biri min dinara dəyər. Onun neçə əzası varsa, o qədər istəyirəm.”

Bir nəfəri bazara apardılar, özünə bir şey al, həm də hansını istəsən, kefin necə istəsə al, dedilər. İnsanın iki sifəti var. Biri niyaz, yəni yalvarma və istəmə, o biri də toxgözlüyüdür. Sən niyazlıqdan, toxgözlükdən nə gözləyirsən? Talibin, sevgilini və doğru yolu axtaranın son arzusu nədir? Mətlub - yəni sevgili. O halda sevgilinin son arzusu nədir? Talib - yəni Eşq. Şeyx Məhəmməd bir kafirə, qibləni daraltma, səcdə et, sözü doğru söylə, dedi. Kafir də bu cavabı verdi: “Mənim qibləm sənsən. Amma sənin kim olduğunu mən söyləsəm, məni inkar edərsən. Sonra mən müsəlman ola- ram, sən kafir olarsan.” Müsəlman kafiri axtardı, amma kafir haradadır? Tarpaq, ona səcdə edək, onun üzündən yüz dəfə öpək. İndi sən söylə, “mən kafirəm” deyə”, açıq danış, sənin də üzündən öpüm.

Cəhənnəmlik haradadır? Görəsən, sonunda cəhənnəm sonsuz qa- lacaq, yoxsa cənnət? O halda, haradadır cəhənnəmlik bəndə? Bütün aləmdə tək cəhənnəmlik yoxdur. Bunların cəhənnəmi cənnətdir. Məni ta- nımaz! Bu aləmdə elə isə kimə tapınarlar?

İndi söylə. Mən keçən qış yenə sənin üzündən sıxıntılar çəkdim. “Bu evdə mənə xoş keçmir”, deyirəm. “Dəlil göstər” deyirsən”, mənə. Məndən sübut istəyənlər Haqdan istəsinlər. Haqdan dəlil istəyərlərsə, mənim könlüm xoşdur. Əsl igidlik başqalarının könlünü xoş etməkdir. Yalnız nəf- sini düşünəndə nə igidlik ola bilər? İgid odur ki, sayəsində köləsinin könlü xoş olar. Başqalarının qəmini çəkmək Allah işidir.

O dedi ki, Şəmsəddindən bizə bir könül xoşluğu yoxdur. Halbuki, məndən bir məcusi belə könül xoşluğu istəsə, onu bular. Nəşə və səadət görər. Yetər ki, məni incitmədən, acı sözlər danışmadan bunu istəsin. Əgər bir keşiş bir müsəlmanı öldürüb, mədrəsəyə sığınsa, öz yardım- çılarından qaçmış, sənin yanına gəlmiş və sənə xəlvətcə “Aman məni qurtar!” demişdir.

Müsəlman müsəlmanı öldürsə, o cəzadan qurtarmaz. Amma əgər sən o keşişin yalvarışının əvəzində ona aman verməsən için sıxılar. Üzülərsən. (Bu sətirlərdən sonra gələn yarım səhifəlik farsca mətn biədəb ifadələr və kobud sözlərlə dolu olduğu üçün tərcüməsindən vaz keçilmişdir. Oxucularımızdan üzr istəyirik - Tərcüməçidən)

Hər müsəlmana bir zındıq, hər zındığa da bir müsəlman gərəkdir. Müsəlmanlıqda nə ləzzət var? Ləzzət küfrdədir! Çünki müsəlmanda heç müsəlmanlıq yolunu tapa bilməzsən. Amma baxarsan, bir zındıqdan

müsəlmanlıq yolunu taparsan. “Bu əl kafir əlidir”, deyərsən. Öpərsən, kafirliyi öpmüş olarsan. “Bu, sənin əlin də müsəlman əlidir”, deyərsən, onda müsəlmanlığı öpmüş olarsan. Doğrusu, haqq kimin əlində isə, o, əli öpməkdir.

Allahım! Birinin üç yüz dirhəm pulu var, libası var, ona toxunma, onu biz saxlayırıq. Bu adamın da əlinə bir dənə keçsə onu dağıdar, bu da müsəlmanlıq satmaqdır. Bütün elmlərdə məndən daha üstün olan elə bir öndəri gətirin ki, ona yüz kərə səcdə edim, bir kərə deyil. Əgər mən onun mənsub olduğu icmada minbərə çıxıb tək bir söz söyləsəm, hər kəs mənə gülər. Amma mən sizə gülmərəm, ədəblə susaram. Mən dəliyəm? Nə qədər bunlardan söz açıram, amma siz necə qəbul edirsiniz? O xoşbəxt üzə yüz min kərə rəhmət olsun! Allah mənə onu öpmək fürsətini versin və məni ona layiq bilsin.

Şeyx Məhəmməd Allahı axtarırdı, Allah adamıydı. Mənimlə görüşmək istəyində imiş, amma görüşə bilmədi. Mən də səninlə görüşmək arzusunda idim. Bu, mənə nəsib oldu. Bu halda, sənin mərtəbən harada qalır?

Bəli, dedi ki, mən bir gün atımı peşkeş edim. Dərman içmək üçün sən o bir dirhəm pulu verir və onunla birlikdə gedirdin. Halbuki, sən alimsən, pul sərf edirdin. “Nə səbəbə, nə üçün”, dedim. Çünki o elə bir adamdı ki, xeyr, sən mənim danışmaq tərzimi anlamırsan. İndi ki, vəzir sənin uşağındır, şəriət hakimi neçə quruşluq adamdır! Bu Sultan sənə kölə olmuşdur. Deyirdim ki, Xocəndinin vəzinə gedək, onun məscidinə yetişək. Amma könlüm dedi ki, getmə! O, yerində yoxdur. Sonra gedib Allahın evində oturaq, dedim. Hər kim danışırsa, söylə, söylə, deyək. İkinci böyük qapıya vardım, təkrar geri döndüm. Qəribə bir şey oldu. Ha- cının vəzi onun vəzindən daha yaxşıdır. O zahirdən danışır, xalq onun nəsihətlərinə qulaq asarsa, minlərlə xeyri olar, dedim. Dinlədim. Hacının vəzindən heyrətə düşdüm. Bu kimdir ki, danışır? Kimsəni görə bilmirəm. Ye-iç, bir işin qulpundan yapış. Yaza bilmirsən, barı bir qələm kəs! Onu da edə bilmirsən, bir qələm yon. Hər üçün də xoşa gələn bir yemək kimidir. Biz hansı ilə məşğul olsaq, o biri işi tərk etmiş oluruq. Hər üçü ilə məşğul olmaq ancaq vaizlərin işidir. Onların himməti başqadır. Əzm baxımından yersizdir.

Tanınmış bir ədəbiyyatçı bir şahzadə ilə iki ay məşğul oldu, ona hər

şeyi gözəlliklə anlatdı, sərt danışdı, amma heç bir təsiri olmadı. O həmişə

öz bildiyni çalır, oyuncaqları ilə əylənirdi. İki aydan sonra padşah gəlib, oğlunu görmək istədi. İçəriyə girəndə bir də gördü ki, oğlan başına bir ör- tük örtüb, oyuncaqları ilə oynayır, müəllim də dəcəl şagirdinin

əlində aciz qalıb, sarığını onun başına örtüb yanında oturmuşdu.

Padşah, “müəllim hardadır”, deyə soruşdu. Örtüyün altından gələn bir qadın səsi “mənəm” dedi. Padşah, “bu, nə haldır”, deyəndə müəllim, iki aydan bəridir həmişə onu öz rəngimlə boyamağa, özümə bənzətməyə məşğul oldum, bacarmadım. İndi mən onun rənginə boyandım, artıq özü- mü ona bənzətməyə məcbur qaldım, dedi. Amma müəllim yenə kişi idi, ona nə ziyanı var? Səadət üz verəndə vəzir padşaha, “bu iş bu millətin işi deyil”, deyə bilər.

Sən bundan sonrakı illərində gənc nəslə necə vaizlik edə bilərsən ki, onun vaiz kürsüsünün altında oturursan.

Bir əyrici vəzirin otağına getdi, uzaqda ədəblə oturdu. Vəzir soruşdu: Necəsən? Boş şeylərmi düşünürsən? Əyrici, “nə edim”, dedi. Allah rizası üçün sizin böyüklüyünüzə güvənərək gəldim. Amma bunun Allah rizası üçün olması işin çətin tərəfidir. Sonra vəzir onu çox uzaqdan görəndə o saat padşaha xəbər verdi. Padşah taxtından endi. Bu da yenə Allah rizası üçündü. Nəhayət, iki il sonra, sabah gəl atana vəz elə, dedi. Vəz elədi. Heyrətə düşdülər. Dedi ki, “nəhayət, üç kərə təkrarladım, öyrəndim.” Mü- əllim dedi ki, mən sənə onun qulağında min cüt san var deməmişdim? Onun minbəri altında oturmuşdular. Yeddi yüzə yaxın peyğəmbər hədisi danışdı. Sonra imamlardan soruşdu: Belə bir hədis bilirsinizmi? Bundan sonra sizinlə mənim aramda söz yoxdur. Kor kimi mənim sözlərimi dinlə- diniz. Bunlar həmişə mənim sözlərimdi, siz bunu bir hədis sandınız. Siz bunu necə söyləyirsiniz ki, sən bizə çox yaxşı bir ağasan, amma biz sənə qarşı pis quluq.  Nərə çəkən sərxoşa, “az iç”, deyirsən. Ey xam sufi! Su aşağı doğru axır. Fikir yürüdənlər bir dəm içindədirlər. Ənbər qoxulu təzə başmağı onun qarşısına qoydum. Qəfildən barmağım ayağına dəydi. Alovda qızarmış bir dəmir kimi olmuşdu.

Beyt:<br>
Çox damlalar, çiy dənələr gördüm,<br>
Mən onda Samiri ilə danası kimi qaldım.

Dünya bir oyuncaqdır, dedi. Bu gün əgər onunla keçinə bilmirsən, barı eləmə, açıq-aşkar göstərmə bunu, qarğış eləmə. Allaha tapşırıb onu incitmə. Çünki o zahirən hər şeyə tab gətirər kimi göstərər, amma qəlbində Allaha həvalə edər. Elə olar ki, bizim nəfəsimizi kəsərlər, ağzımızı

yumarlar, yaxud bu gecə arası danışıb bəlkə də öldürərlər. O dedi ki, mən sığınacaq yerimi gördüm. O geniş yolda qandan başqa təcavüzkarlığa qarşı cəsarətli oldum. Onun düşməni kimi və yaşıl torpaq oldum.

Hər planetin o biri planetə qovuşmasından bir bürc doğar. Kişinin

qadınla birləşməsindən necə insan doğularsa, libas ilə insan bədənində necə istilik olarsa, iki birləşmədən də bir şey meydana gələr. Yaydan kirişi çıxarsanız nə iş görər? Ancaq onun qulağını bükərlərsə, o zaman yaralayar. Söz ağızdan çıxar, heç bir iş və əməl yoxdur ki, o, "mən yox- sulların yoxsulu, düşkünlərin düşkünüyəm, Allah mənim nəfsimi sizdən yaxşı tanıyar?" deməsin. Bir şəxs sənə bu sözü söyləyərsə, sən də ona söylə ki, o sənsən, qısqancsan. Qısqanc olduğun üçün belə coşursan. Sən özünə də həsəd aparırsan. Budur hər kim sənə bu cür söz söyləsə, de ki, o sən deyilsənmi? Sən o ilanın başısan!

Biri soruşdu ki, İblis kimdir? Dedim: "Sənsən" iblis!" Əgər "Cəbrail kimdir" deyə soruşsaydı, "o sənsən", deyərdim. Hər kim sənə, "filankəs səni təriflədi" deyərsə, de ki, "xeyr, məni sən tərifləyib, onu bəhanə edirsən."

Ona söylə, sən onun sözündən nə anlaşıldığını haradan biləcəksən? Gəl o sözü özündən soruşaq, görək nə demişdir. Mən bir söz söyləsəm, başqa mənada söyləyərəm. Onun mənası nədir, görəsən, nə məqsədlə söyləmişdir?

Kerra Xatun belə qısqancdır, Mövlana da qısqancdır. Amma insanı cənnətə aparan o qısqanclıqdır. Bütün gün mənim danışdıqlarım da bu qısqanclıq barədədir. Amma o birinin qısqanclığı onu cəhənnəmə aparar. Mən bir xidmət edirəm, ondan ötrü də mənə qısqanclıq edirsən ki, ondan vaz keçim, geri çəkilim.

Ağa, ev sizindir. Siz getməyin, mən gedər və sizə Qaf dağı qədər təşəkkürlərimi yetirərəm. Mövlananın söhbətindən onun şərəfini çiyinlərimdə daşıdığım halda ayrılaq, təkrar təşəkkürlərimi bildirirəm, azad yaşayaq. Məndəki axmaqlıq elə bir dərəcəyə gəldi ki, əgər Musa (ə) gəlib, "Mənim istədiyim o ümməti mənə göstər", desəydi, ona, "bax budur", deyə göstərərdim.

Təkbaşına ayaqda durdum. Əgər bu durumdan qurtarsan, gizli-aşkar nəyim varsa, sədəqə verək. İndi, ey düşmənlər, mənə bir hiylə qurma- yacaqsınız! Mənə quracağınız tələ ilə bu Qaf dağını qaldırıb çiyinlərimə yükləsəniz, buna bir dəfə də əlavə etsəniz və bunları heç qaldırmasanız belə, yenə mənim üçün bir can rahatlığı olacaqdır.

Ömrümüzü hər qadın sevgisinin oyunları ilə keçirdik. Allah kitabını arxamıza atdıq. O ilahi kitabın hesabını necə verəcəyik. İnsan olan şəxs də o kitabın ayəsidir. O ayə içində ayələr var.

Bir yəhudi bəzi Qurani-Kərimin ayələrini əzbərləyirdi. Bağdadda qazılıq edirdi. İllərcə yer altında bir dəstə adam, silahlı insanlar gizləmişdi. Xəlifə bu vəziyyəti xəbər aldı və onu yaxaladı. Qazılıq, elm, fətva və Qurani-Kərim hamısı o yəhudiyədi. Amma o ancaq saxtakar bir köpəkdir.

Qaranlıqda gəzən yolunu azar, deyərlər. Qədr gecəsi "İnna ənzəlna" (Qədr surəsindən söhbət gedir-R.M.) bir neçə ayədə işarə edilmişdir. O, min aydan xeyirlidir. Ayın on dördüncü cecəsindən daha aydındır. Amma aylar arasında gizlənmişdir. Çox parlaq olduğu üçün gizlənmişdir o Qədr gecəsi. Lakin başqa bir ayədə, "Ax, heyf ki, Allah tərəfinə yönəlməkdə, Ona yaxınlaşmaqda tənbəl davrandım!" buyurulmuşdur. Halbuki, elə zaman və məkandan uzaq, elə yönsüz və tərəfsizdir ki! Amma zamanı gəlməsə nə edər. Mən məmnunam, necə məmnun olmayım. İndiyə qədər məni heç kim inkar etmədi ki, arxadan Allaha yaxın yüz minlərlə mələk həqiqi saymasın. Mənə əsla bir kimsə cəfa etmədi, pis söz söyləmədi ki, cəlal və ululuğu ən uca olan Allah o pisliklərə görə məni min dəfə tərifləmiş olmasın. Sonra məndən ayrılmayan, mənə biganə qalmayan bir kimsə yoxdur ki, onu Allah-təala minlərlə yaxınlıq göstərmiş olmasın. Hər kimə öyüd yoluyla bir söz söylədimsə, mənə o sözün əvəzini verdi. Yüz min həqiqi Allah dostuyla Haqqa yaxın ərənlərin canları önümə gəlib baş qoydu, məni təbrik etdilər.

Mənə "Dünya möminin zindanıdır" anlamındakı hədis bir az qəribə gəlir. Mən zindan görmədim. Ancaq həmişə könül xoşluğu və saygı gördüm. Həmişə var-dövlətə çatdım. Bir kafir əlimə su töksəydi, Allah onu mükafatlandırar, məqbul insanlardan olardı. Mən nə üçün özümü o qədər aşağı səviyyəli görüm? Bir neçə dəfə özümü tanıdım. Nə yaman izzət, ucalıq var məndə. Mən sanki bir inciyəm, çirkab içinə düşmüş bir daşqaş kimiyəm. İndi hesab edirəm ki, o vəziyyətdən qurtuldum. Amma, xeyr, bir müsəlman qardaşının əlini sıxırsan, qımıldandıqca günahların tökülür. O halda, indi durmadan qımıldanmaq, hərəkət etmək lazım gəlir. Ey müsəlmanlar, hərəkətə keçin, qımıldayın ki, biz də qımıldanaq…

Xeyr, bu yanlış deyil, Allah belə buyurdu. Hər dildən cürbəcür hünər və mərifətləri mənim əlimə verdi. Əllərini qulağına qədər qaldırdı. "Allah- dan başqa Allah yoxdur", dedi. Mən sənə nə dedim, mən o gün gedib, bir qəlyan çəkərəm. Sonra cübbə geyər və bunu yaylığa bükərəm. Səni bağda çağırırlar, nə üçün görəsən! Gəl qulağına deyim.

Şeir:

Nədir bu qanlı yaşlar, nədən, deyirsən mənə.
İndi ki, soruşursan, gəl anladım mən sənə!

İndi anladınmı? Bunu həmişə sənin üçün söyləyirəm. Olmaya ki, kimsə eşitsin, sənin üçün söylədiyimi anlasın, zəmanə fənadır.

Bir dəliqanlı vardı, ona "Zeynəb" hekayəsini sonuna qədər danışdım. Onun işinə çox önəm vermişdi, istəyirdi ki, bir neçə gün orada o sözü so-

nuna qədər təkrar edib dursun. “Anladın”, sualına “xeyr”, dedim. O halda, “bütün bunları sənin üçün söylədiyimə nədən inanıb, anlamaq istəmirsən” dedi. “Bəli”, dedim. Anladım. “Təkrar söylə”, dedi. “Onu Möv- lanaya deyim, sənə təkrarlasın”, dedim.

Amma nə üçün mənim sənə başa saldığım bir şeyi təkrar Mövlanaya söyləyirsən? Nə üçün təkrarlayırsan ona? Deyək ki, siz bunu məndən istədiniz, amma başqalarının bunu sizdən necə dinləyəcəklərinə etibar edə bilərəmmi? “Allahın məğfirətinə uğramış bir şəxs ilə birlikdə yemək yeyən də bağışlanmış olar’ buyurulmuşdur. Amma bundan anlaşılan çörək və yemək deyil, bu, onun yediyi mənəvi qidadan yeyənlər deməkdir. Yoxsa minlərlə münafiq və yəhudi Həzrət Peyğəmbərlə birlikdə yemək yemədimi?

“Allah ərş üzərində hökm sürməkdədir” anlamındakı ayənin yozumunda nə deyilmişdir? Bunun açıq mənasından başqa müxtəlif təfsir- çilər cürbəcür yozumlar vermişlər. “Bir kişi İraqa hakim oldu” sözü də buna bənzəyir. Bu sözü də Əşariyyə məzhəbinin banisi Əbül-Həsən söy- ləmişdir. Onun sözünün qarşılığında bir araşdırma aparmadan beləcə inanmaq lazımdırmı? Bu sözdən nə anlaşılır? Bu “Taha” (Qurani-Kərimdə bəzi surələr hərflərlə başlayır, lakin bunun gerçək anlamını bilmək y alnız Allaha məxsusdur. Çünki Peyğəmbərimiz (s) bu işarələrin həqiqi məna- larını heç kəsə söyləməmişdir. Burada adı çəkilən ifadə də Ta və He hər“flərindən ibarətdir-R.M.) sözü üzərində də nələr söylənmişdir. Təfsirdə açıqlandığına görə, “Taha” Məhəmmədin (s) ismidir, yaxud “Ey insan!” mənasını verir. Nöqtəli, hərəkəli hərflər, hələ astronomların rəqəmləri Ta hərfində aşkar imiş, bu gün bilinməkdədir ki, bunun yozumunu Lövhi- Məhfuzdan oxumaq lazım gəlir və o, Lövhə üzərindədir.

Allah rəhmət eləsin, Əhməd Qəzzali ilə iki qardaşı təmiz bir soydan idilər. Hər bir elmin budaqlarında bərabəri olmayan insanlardı. Məhəm- məd Qəzzalinin xüsusilə bir çox elmlərdə misli yox idi. Yazdığı əsərlər gü- nəşdən daha paplaqdır. Bunu Mövlana da bilir. Qardaşı, Əhməd Qəzzali elmlərdə, mərifət və irfan mövzusunda barmaqla göstərilənlərin sultanı

olmuşdu. Qulağı yaxşı eşitməyən fəqir belə mənim sözümə heyrət edər. Hər insan mənim sözümü necə izah edə, başqalarına necə çatdıra bilər?

Allah-təalanın zatına and içirəm ki, Mövlana əgər mənim sözümü başqalarına çatdırmaq istəyərsə, məndən daha yaxşı çatdırar. Bunu daha gözəl məqamlar və mənalarla bəzəyər. Amma Mövlana yenə də mənim sözümü nəql etmiş olmaz. Üçüncü qardaş Ömər Qəzzaliyə gəlincə, o da zəngin və böyük bir ticarət adamıydı. Hələ comərdlikdə, səxavətdə

heç kim ona çata bilməzdi.

Məhəmməd Qəzzaliyə bir nəfər dedi ki, bunu sənin qardaşın Əhməd haqqıda deyirlər, o söz söyləyir, amma heç bir elmdən xəbəri yoxdur. Məhəmməd Qəzzali də "Zahirə" adlı kitabını qardaşına göndərdi və apa- ran adamı tənbeh etdi ki, get ədəblə yanına gir, hansı hərəkətdə bulunsa, diqqət elə. Gülümsəmə, baş və əl hərəkətləri kimi nə eləsə, gözdən qaçırma! Gözün onun gözünə baxdığı anda çox diqqətli ol, onun bütün tövr və hərəkətlərini izləməyə çalış, ayaq barmaqlarına çatana qədər diqqət et.

Kitabı gətirən adam içəri girəndə gördü ki, o, təkyəsində nəşəli bir halda oturub. Qəfildən gözü gözünə sataşanda ustad təbəssüm etdi və soruşdu: "Bizə kitabmı gətirdin?" Kişinin bədəninə bir titrəmə düşdü. Sonra sözə başladı, ustad deyirdi ki: "Mən ümmiyəm. Amma ümmi başqa, ami başqadır. O, ami, yəni qara cahil, əslində kordur. Ümmi isə yazı yazmayandır." Sonra, "lap yaxşı", dedi. "İndi sən, oxu o kitabı, mən də dinləyim." Gələn adam titrəyə-titrəyə kitabın hər yerindən bir şey oxudu. O halda, "o kitabın əvvəlinə indi sənə oxuyacağım bu beyti yaz", dedi.

Beyt:

Zahirə namə lazımdır, kibabı nə edim mən, Yarın ləbləri varıykən şərabı nə edim mən.

İblis bir bəhanə, Adəm nişanədir. İblis - qaranlıq, Adəm - işıqdır. İblis alçaq, Adəm yüksəkdir. Bu tərzdə danışırdım. Dünən həm öz-özümə de- yinir, həm də xəndəyin ətrafını dolaşırdım. Sözün sonu gəlmiş, yeniliyə uğramışdım sanki. Sözün altında qalmışdım. Yeniliyin verdiyi gücsüz- lüklə nə edim, deyirdim. Əgər minbərdə də söz mənə belə üstün gəlib, məni yıxarsa, artıq minbərə çıxmaram. Ağam, yalan gərəkdirsə, yalan söyləyim, vəz etmirəm ki.

Söz mənim üçündür. Hər kim məndən söz dinləmək istəyərsə, mənim iç aləmimə gələr. Ancaq orada bir qapıçı oturmuşdur. (Ona baş vurar.)

Qorxaq bir kəndçi bir çox qorxmaz və cəsur şəxslərlə dost oldu. O qorxmazlığına görə də dostlarının heç birisi ondan "sən kimsən" deyə soruşmadı. "Mən kiməm", deməsinə fürsət vermirdi. Nəhayət, "biri mən filankəsin oğlu filankəsin dostuyam", - deyə gəldi, elə bir zərbə vurdu ki, onu iki parça etdi.

Mən bilmirəm. Bunlardan bir şikayət hekayəsi anladırlar. Əmirə deyir- lər ki, o kişi onu elədi, bunu elədi. Əmir görmədən bu hadisəyə əl bulamaq istəməzdi. Çünki qapıçı çox sevdyi bir insandır. Hadisəni əvvəlcə ona gə- tirirlər, onun hüzuruna çıxarar və deyərlər ki, bu hadisə nədir?

Bir bax. Qapıçı deyər ki, mən baxıram, amma oxuya bilmirəm. O əslində lazımsız bir iş görməz, sonra xəlvətə çəkiləndə qapıçıdan soruşarlar ki, nə üçün belə elədin? Nəhayət, o, bir dost idi mənə. "Bir daha eləmərəm, deyə söz verdi, çox ədəbli və niyazlı bir halda getdi", deyər. İndi bu kişi bundan sonra o qapıçıdan vaz keçərmi? Bəli. Başqa qapılar, başqa qapıçılar da var, yol üstündə başqaları da var. Amma o, başqadır.

Uzun sürən işlər könül aləminə dayananda onu könül aləminə apararlar. İçində bir sirr saxlayan adamı sərxoş edərlər ki, o sirri açıqlasın, sərxoşluqla hər şeyi anlatsın deyə. Amma lazımdır ki, onu dinləyən şəxs o sərxoş sözləri arasındakı açıqlamalardan hansının sirr olduğunu anlaya bilsin. Heç söyləməmiş olduğun xəfif-xəfif şeylər var ki, bu sözlərdən bəziləri ağızdan çıxmış, təkrar üstü örtülmüşdür. Mövlana Allah nuruyla yazar, bir şey tapar, yaxud tapmaz. Bunu gözdən keçirək ki, anlaşılsın. Görürsən ki, mən həmişə Allah məni təsərrüf əhli etsin deyə düşündüm. "Halımı düzəldib hər şeyə açıq bir gözlə baxım", dedim. O namaz qılan insanı da beləcə görə bilmirdim. Allahın verdiyi o təsərrüf (bəzən) qalmır, məndə bir qəzəb baş qaldırır, yoxluqdan təkrar varlığa dönürəm. Bu işdən çaşır və özümə gülürəm. Bu dəyişən hallar içində düşünmək lazım gəlir. Çünki qəribə şeylər görürsən, bir an içində hal belə ikən, bir müddət sonra başqa cür olur. Gözünü yuxarı qaldıranda durum belə ikən, aşağı baxanda elə olur.

İnsanoğlu bütün müvəqqəti varlıqlardan və yaradılmışlardan üstündür. Çünki onun dünyagörüşü bütün ərşi-kürsü, yeri və göyü və hər ikisi arasında bulunan yaradılmışları əhatə edən bir genişlikdədir. Allaha aid sifətlərə ortaq olan bu yaradılmışın dünyagörüşü bütün düşüncələrdən daha ucadır. Nə qəribədir ki, Allah-təala bütün sifətləri ilə bu yaradılmışdan müəyyən olar. "Harda olsanız, O sizinlə bərabərdir" məalındakı ayənin hikməti anlaşılır. Necə ki, bu bəsirət, dünyagörüş sayəsində Allah hər kəsə bir yön, bir meydan göstərmişdir. Başqa tərəfi görməsinlər və sap-

masınlar deyə. Birinə zərgərlikdə alimlik yolunu göstərmişdir. O birinə mücövhərlik və kimya elminin incəliklərini, sehr, bəhanə, cadugərlik fən- lərini öyrətmişdir. Bir başqası isə məntiq, mükalimə yolunda məşğul olar, fiqh, üsuliddin bilər. Daha başqası o biri aləmin rahat və səfası ilə dolu olaraq nuru və Allahı görər. Biri də şəhvət, gözəllik, eşq ilə məşğul olar, komediya və məsxərələrdən xoşlanar. Yenə başqa biri də mələkləri, huriləri, ərşi və kürsü tanıyar, bunlardan zövq alar. Bunlardan hər birinə bu köşkə bir görüntü pəncərəsi açılmışdır. Aləmi başqa bir eyvandan seyr etməkdədir. Bunun halından o birinin xəbəri yoxdur, o biri də onun halından və işindən bir şey anlamaz.

Yüz minlərlə, sonsuz sayda cansız varlıqlar, heyvanlar, böcəklər, mələklər və başqaları üçün eyvanlar açılmışdır. Təbib, astronom, bun- lardan başqa hər kim daha yüksəkdən yürüyərsə, daha çox eyvanların açıldığını görər.

O, məşhur insanlardan deyildi. Amma Əhməd Qəzzalinin çətin bir işi vardı ki, həmişə özünə pərdə olardı. Heç kimə qarşı o pərdə qalxmırdı. O öz-özünə çox igidlik etdi.

Bir insan ki, gözünü göylərə çevirib mələklər tərəfə baxsa, ayədəki "Onu yerlə bir etdi" anlamındakı hikməti və "Göy yaradıldığı zaman" an- lamına gələn o biri ayənin ilahi qavrayışını görər və oxuyardı. Elə gizli çilələr çəkirdi ki, xalq heç anlamırdı. Amma onun bu çilə və riyazatlarından hər nə izah edirlərsə, hamısı yalandır. Çünki o, bu çilə və xəlvətlərdə heç oturmamışdır. O, bir bidətdir, sonradan uydurulmuş bir adətdir. Mə- həmməd (s) dinində belə bir şey yoxdur. Həzrət Peyğəmbər (s) çilədə oturmadı.

Musa (ə) qissəsində: "Biz Musaya söz verdik", deyə başlayan ayədəki hikməti oxu və düşün. Bu kor gözlülər Musanın (ə) bu qədər ucalıqla, Allah yaxınlığı ilə bərabər, "Ya Rəbb! Məni Məhəmməd ümmətindən elə!" - deyə yalvardığını görə bilməzlər, anlaya bilməzlər. Bu, "Ey Allahım! Məni camalını görən qullarından et!" deməkdir. Bu sözün incəliyi buradadır. Yoxsa Musanın (ə) arzuladığı sənin-mənim istəklərim kimi olsaydı, əsası qoltuğunda keçib-gedərdi. Məqsəd ya bu sirr idi, ya o biri. Bu həm də Musanı (ə) qınamaq və mübahisə yeri oldu, amma Allah camalını görəcək ümmətlər arasında bircə Həzrət Məhəmmədin (s) ümməti olduğunu Musa Peyğəmbər bilirdi.

Əhməd Qəzzali sözügedən pərdənin qaldırılması üçün məşğul olarkən ona bir səs gəldi, yaxud könlündə ilham işığı parladı. "Sənin gözündəki pərdəni Zəncanlı şeyx qaldıracaqdır", deyildi. Qəzzali o saat qalxdı

və getdi. Gedər-getməz də eyni gün şeyxin ziyarətində oldu. Onu səma edərkən tapdı və səma zamanı artıq istədiyi yerini tapmışdı. Oradan Təbrizə gəldi. Təbrizlilər həmişə bir ağızdan, "bu kişi filan gözəl dəliqanlını görməyə gəlmişdir", dedilər. Bir qoca qarıya pul verərək, onun keçəcəyi yolun üzərində oturmasını, lakin qəmli və kədərli bir əda ilə qarşılamasını başa saldılar. Əhməd Qəzzali qadını bu halda görəndə soruşdu: "Sənə nə oldu ki, belə qəmlisən?" Qadın bu cavabı verdi: "Mən necə üzülməyim ki! Ciyərimin parası, gözümün nuru bir oğlum vardı. Allah sənə ömür versin, ömrünü sizə bağışladı. Ona görə də ağlayıram." Qəzzali yol yoldaşlarına tərəf üzünü tutub, ey karvan yoldaşlarım, dedi, məni burada bir saat gözləyə bilərsinizmi? Aşağı enin və bir az gözləyin. Bu

qadın, görəsən, doğru söyləyirmi? Bunu bir araşdıraq! Yoldaşları razılaşdı. Atdan endilər, bir saata qədər başlarını çiyinlərinə əyib gözlədilər. Ertəsi günü günəş doğana qədər nəzarət elədi. Nəhayət," bu qadın yalan söyləyir" dedi. Çünki Adəm Peyğəmbərin zamanından bu saata qədər qəlbindən ayrılmış və dünyadan köçmüş olan yaradılmışların ruhunu yoxladım. Bu qadının uşağının ruhu bunların arasında yoxdur. Artıq gedək! Təbrizə gəldiyi zaman yenə bütün şəhər əhalisi bir-birinə dəydi.

Deyilməsi yaxşı deyil, amma Əhmədin gözəl üzlərə qarşı həddindən artıq bir rəğbəti vardı. Amma şəhvət baxımından deyildi. Çünki onun gör- düyü şeyləri başqalarının gözü görə bilmirdi. Onu parça-parça etsələr, bir şəhvət zərrəsi belə yoxdu onda. Münasibəti bəzi şəxslərin xoşuna gəlir, onu durmadan tənqid edirdi. Təbrizdə olduğu zaman bir kişi vardı ki, onu yüz dəfə sınayıb bəyəndikdən sonra təkrar yüz kərə inkar edirdi. Nəhayət, bir gün işi Təbriz Atabəyinə başa saldılar. Bizə inanın, yoxsa buyurun hamam pəncərəsindən onun halını bir görün, dedilər. Əhməd hamam pəncərəsinin önündə yatmış, ayaqları oğlanın qucağında, man- qala ənbər qoxusu səpmişdilər, hər tərəf tüstü içərisində idi. Atabəy bu ara gəldi, hamam pəncərəsindən və tiyanın bir küncündən içəriyə gizlicə baxdı. Pəjmürdə geri dönəndə içəridən bir səs ucaldı: "Ey Türk oğlu! İçərini tamamilə gör, ondan sonra get!'' Atabəy geri dönüb bir daha içə- riyə baxdı, birdən nə görsə yaxşıdır? Şeyx bir ayağını qaldırıb atəş dolu manqalın içində dayanıb. Bu halı görən Atabəy çaşdı. İlk dəfə yanlış gör- düyü üçün üzr istədi, ağlayaraq geri döndü.

Onun bir də alim, fəzilətli, hər fənnə aşina və dərs deyən bir müridi var idi. Bu adam Şeyxin qulu-köləsi olmuşdu. Bu gözəl oğlan danışanda neçə dəfə onu xoş görmüş, sonra inkar etmişdi. Çox vaxt şeyxin atının yüyənini çiyninə salır, onun qarşısında piyada yeriyirdi. Oğlan isə Şeyxin tərkinə yapışmış yürüyərkən yolda şeyx uşaqla bir şey danışır, gizli işa-

rələr edərdi. Dərs verən yüyən boynunda evə gəlmədən onu on kərə inkar edər, yüyəni boynundan atıb qaçmaq istəyərdi. Sonra təkrar şeyxin kəramətinə inanırdı. Başını açaraq onun ayağına qapanmaq beynində düyümlənən vəsvəsə və xəyallardan qurtulmaq üçün çarə axtarardı. Şeyx bu halı da bilirdi. O fəzilətli müdərris* Şeyxin əlində bir saat ağlayan, sonra bir saat gülən oyuncaq bir körpə kimiydi.

Bir gün Mövlana dərvişlərə nəsihət verdi. Onlara bizim keyfiyyətlərimizdən söz açdı. Dostlar bu sözlərdən çox mütəəssir oldular. Mövlana buyurdu ki, "Allah ucalığını artırsın! Xudavənd Şəmsəddin Təbriziyə qarşı yüngül bir məmnunsuzluq və cəfa əsəri göstərsəniz, mənim sizə verdiyim öyüdlərlə, sizin ifrat həssaslığınız sizin üçün gizli qalacaqdır. Şey-

tan sizin bu iç duyğularınıza qarşı gözlərinizə kül üfürəcək, yəni sizi yenə çaşdıracaqdır.” Dostlar öz-özlərinə “xeyr”, dedilər. “Gedək ondan əfv diləyək, suçumuzu bağışlasın, artıq bundan sonra da Mövlana Şəmsəddinə qarşı tərbiyəsiz bir davranış göstərməyək”, dedilər. Evin qapısına qədər gəldilər, amma içəriyə girməyə yol tapa bilmədilər. Buna görə onların bütün duyğuları dəyişdi. Yol verməməyimizin səbəbi bu idi: mən öz-özümə deyirdim ki, bura donuz ağılı deyil ki, azacıq peşmanlıq du- yan, azacıq qəlbi sıxılan hər kəs kənara atılıb buraya qaçsın. Nəhayət, o qədər ucalığı aşkar olan Əhməd Qəzzaliyə qarşı pis düşünənlərin yer- siz düşüncələrini və eyib tutmaqlarını çürütmək üçün ona kitab göndər- diklərini, “bir vaxt bu kitabdan sözlər nəql edərsən, haqqında yanlış dü- şünənlərin ağzını bağlamış olarsan, ”dedikləri üçün qardaşının belə öz təkyəsinə gəlməsinə yol vermədiyi söylənilir. Bir deyimə görə yeddi il, başqa bir deyimə görə isə on beş il həmişə səfərdə və yolçuluqda dolaşdı. Münkirlərə deyərdi ki, bura donuz ağılıdırmı ki, başına bir iş gələn zaman bura qaçırsan? Nəhayət, bu dostların heç birisindən bir şey gözləmirəm. Öncə sizdən elm öyrənə bilmərəm. Bəlkə o zaman mənim sözlərimi anlayar, özünü yaxşı-yaxşı dualara hazırlayarsınız. Siz öz biliyinizdən, öz xəyalınızdan ötrü mənim sözlərimi anlaya bilməzsiniz. Elə deyil. Necə ki, bizim filan dostumuzu bizdən soruşarlar. O, fəqihdirmi, yoxsa fəqirmi? Dedi ki, həm fəqihdir, həm də fəqir. Amma necə olar ki, bütün sözləri fiqh barəsindədir? Cavab verdi və dedi ki, onun fəqirliyi o soyuq davranışlı insanların fəqirliyinə bənzəməz. Bunu o tayfaya söyləmək lazım deyil. Ona bu xalq ilə danışmaq hayıf olar.

Sözü elm yolu ilə söyləyərlər, sirləri də işarə yolu ilə anladarlar. Onun sözləri deyilmiş olar, dünyalıq söz olar. Mövlana bilir ki, bu şəhərdə böyüklərdən biri var. O həmişə bizi görmək arzusundadır. Həm bu gün gecəyə qədər ona hökm etsəm, ondan mənə o qədər faydalı söhbət fürsəti

yetişər ki, sizdən çox güclü, bu məclisdə oturanlardan çox kamil insandır. Bu gün, indi ki, sizdə nə elm öyrənmək arzusu, nə mərifət dinləmək is- təyi, hətta dünyaya aid bir istək var. O halda, sizə hər nə etməyinizi əmr eləsəm, yalnız sizin faydalanmağınız üçündür.

Bir nəfər sizə dərvişlərin söhbətindən söz açarsa, inancla onu din- ləyin. İndi ki, dinlədiniz, müxtəlif yollardan onu inkara qalxmayın və madam ki, eşitdiniz, bu əfv diləmək rəsmi bir adətdir, heç bir dəyəri yoxdur. Min cür pis səbəblərlə pozular. Dəstəmazı pozan qarnından çıxan yel kimi keçib-gedər. O zaman, “Ya Rəbb! Nəfsimizə zülm etdik, qəlbimizi təmizlədik”, deyərsən.

Bir gün Mövlana Şəmsəddini oxusun deyə bir şeyxin risaləsini gə- tirdilər. Onu nəğmə ilə, muğam üstündə oxuyarkən laqlağı ilə durğu və ləh-

cələrini də ehtimal etmirdi və deyirdi ki, mən bunları bilmərəm. O nə uca Mustafadır ki, şəfa qaynağında bütün xəyallarından uzaqlaşmış, özünü bütün xəyallardan qurtarmışdır. Xəyal haqqında eyni sözü üç kərə təkrarlayır və deyirdi ki, ey xəyal, get məndən! Əgər getməzsən, mən gedim.

O dirək üstündə yeriyən kəndirbaz iki gözü bağlanmış, ayaqlarında ağac səndəli, başında un teşti ip üzərində ayaqlarını oynadaraq irəli-geri gedir, təkrar dönür, qəfildən özünü aşağı atır, iki ayağı və qoltuğu ilə ipi tutar, sonra bir barmağı ilə özünü asır, təkrar ip üzərində sıçrayırdı.

O biri yoldaşı da şişmandı, qəfildən aşağı düşdü, yoldaşı ip üzərində həmişə onu çağırır, "sənin filan xocanın adına gətirdim", deyə ağlayıb dururdu. O saat yaylığı-çarşabı tutur, bol bəxşiş alardılar. Bunlar kəndir- bazlığı dəniz sahilində öyrənirlər, ipdən yıxılarlarsa, suyun içinə düşərlər. Bu surətlə uzun məşqlərin sonunda usta bir kəndirbaz olarlar. Ondan sonra da quruya gələrlər. Yavaş-yavaş iplərini daha yüksək dirəklərə bağlayar, ip üzərində durma və yerimə üsullarını öyrənərlər. Necə ki, ay bədirlənənə qədər, dənizə yağan yağış dənələri inci olana qədər səbr lazımdırsa, bunlar da səbr və çalışmaq ilə mükəmməl bir kəndirbaz ol- arlar.

Misra:

Səbr ilə halva bişər, ey qora, səndən.

Mənə nə zaman söyərlərsə, xoşuma gələr. Öydükləri zaman da üz- üntü duyaram. Çünki tərifləmək elə olmalıdır ki, dalınca söymək olmasın. Yoxsa o tərif münafiqlik olar. Nəhayət, münafiq kafirdən də betərdir. Ayədə

də işarə edildyiyi kimi, münafiqlər cəhənnəmin ən dərin yerindədir. Kafir dedi ki, bu səfər də gəl bir yerdə Şama gedək, payız gələr-gəlməz yola çıxaq. Mənim heç əlaqəm yoxdur, bu müridlər axmaq insanlardır. Hər biri birillik qazancını, "bunu al get", - deyə mənə versələr, iki-üç dirhəm mənə qalsaydı, on iki dirhəm edərdi. Mən gizlicə xəbər göndərib, deyərdim ki, ey Mövlana, yaxış pul toplandı, qalx gedək. Onu qaldırardım. Onunla bir müddət xoş günlər keçirər və yenə dönərdik. Bunu deyərkən yadıma məşhur vaiz hekayəsi düşdü:

Bir vaiz söhbətinin ən şirin yerində məclisdə olan həddindən artıq bir xəsis varlını hərəkətə gətirmək üçün, "ey camaat," dedi. "Mənə Allahdan bir ilham gəldi. Bu saat burada əyləşmiş bu ağanın gözəl, incə və zərif xa- tirindən keçir ki, gedib zəmanənin bu vaizi olan alimin başına Allah rizası üçün yüz dinar atım." Xəsis varlı dedi ki, ey vaiz, sizə gələn o ilham sizin könlünüzün səfasından, sizdəki yaxşı niyyət yönündəndir.

“Amma Allah mənə yüz dəfə lənət eləsin, əgər belə bir şey mənim ağlıma gəlibsə!” Bu belə keçdi… Baxaq, hər kəs bu çaydan necə keçəcək?

Şam qazısı Xoylu Şəmsəddinə əgər özümü həsr eləsəydim, ömrü- nün sonuna qədər işi düzələcəkdi. Ancaq ona hiylə qurdum, o da hiyləyə aldandı. Vay o günə ki, mən hiyləyə başlayım. Əslində işim nədir? Hiylədən başqa nə edərəm? Bu gün gedirik deyə bir at alsam nə olar. Getməyi- ni istəmirəm, deyirsən. “Belə olmaz. Sənə bir at alaq, amma yenə burada qal, getmə.” Sənin dediyin bu söz belə bir hiylə və məkrdir. Mənim işim yoxdur. Müsəlmanlıq arzusuna qarşı çıxmaq, nəfsinə uymaqdır. Kafirlik də öz kefinə uymaqdır. Deyək ki, biri imana gəlmişdir. Bunun mənası budur: “Mən artıq istəyimə, nəfsimə uymayacağam, buna söz verdim.” Bir başqası da, bu mənim işim deyil, dedi. Mən bunu edə bilmərəm, an- caq xərac verər, öz kefimə uyğun şəkildə yaşayaram. Peyğəmbər (s) də buna razı oldu, qəbul etdi, kafirə bəraət verdi və buyurdu ki, “Hər kim bir Zimmini, yəni müsəlman olmayan insanı incidərsə, məni incitmiş kimi olar.” Amma başqa biri də deyir ki, mən müsəlmanam, artıq həvaü həvəsdən də yorulmuşam. Amma istəyirəm ki, o nə xərac versin, nə də istəklərindən vaz keçsin. “Möminəm, müsəlmanam” deyir, amma imanı yoxdur. “Dürüst adamam” deyir, amma durust deyil.

Sənə, “dostunam”, deyir, amma belə deyil. “Bəyazam”, deyər, amma qaradır o. “Bülbüləm” deyər, amma qarğadır. Möminə görə şükr etmək gərəkdir, çünki kafir deyil. Kafirə də münafiq olmadığı üçün şükr etmək lazımdır.

Qəribə hadisələr sırasında söyləyirlər. Amma bu çox yayılmış hədislərdən deyil. Cəhənnəm əhli cəhənnəmi boşaltdıqları zaman ən alçaq və dərin yerləri boboş qaldığı, qapıları qapandığı sırada cəhənnəm xaraba bir boş evə dönərkən münafiqlərin fəryadları ehidilər. Onlardan soruşarlar: “Siz necə bir toplumsunuz ki, hər kəs buranı boşaltdığı halda, siz hələ iəçridəsiniz!” “Bizlər münafiq əhliyik, bizim üçün nə qurtuluş ümidi qalmışdır, nə də burada qalmaq imkanı.”

Bu hədisi də Qazı Şəmsəddin Xoyi dərs arasında danışmışdı. Amma çox geniş yaylmamışdır. Ancaq mənaya aşina olan, işin iç üzünü bilən şəxs bundan bir pay götürər. Bu gün bir aydın nifaq var, bir də gizli nifaq. O aydın nifaq bizdən və dostlarımızdan iraq olsun, amma insanoğlunun zatında olan o gizli nifaqı da ondan söküb atmağa çalışmaq lazımdır. Yenə hədisdə, “mömin mömінin aynasıdır”, buyurulmuşdur. Bundan daha əhəmiyyətlisi “Haqq qulun aynasıdır” qul Haqqın anlamına gələn hədislərdir. Kamil söz belə yetkin olar.

Şəmsəddin Xoyinin biri əleyhinə çıxdı və belə bir mübahisə açdı. Onun məqsədi bir din adamını pisləməkdi. Deyirdi ki, filankəs bu qədər

şeir əzbərləmiş, hər fəndən, dövlət və divan işlərindən bir neçə şey öyrənmişdir. O birinin isə heç bir şeydən xəbəri, rəsmi işlərdən bir məlumatı yoxdur. Buyurursunuz ki, nəhayət, onun əzbərində bir şey yoxdur, kitab da yazılmamışdır. Amma söz ustasıdır, təcrübə sahibidir. Görmürsənmi ki, vaxtı gələndə necə danışırlar. O birinin nə qədər ceniş məlumatı olursa- olsun, təcrübəsi yoxsa, görürsən ki, yeri gələndə heç bir şey söyləmir. İndi bunların arasındakı ayrılıq və dərəcə fərqi, zahir bilgisi, duyğu və dünyagörüş baxımındandır. Bu cahanın ağlı və bu cahanın hissi ilədir.

Halbuki, o biri cahanın ağıl mərtəbələrinin necə olduğunu söyləsəm, bu da bir məkr və hiylə olar. Sizə demirəmmi ki, qulağınızdan pambığı çıxarıb quru sözlərin əsiri olmayın. Açıq ikiüzlülüyə qapılmayın. Həmişə görünüşə aldanmayın, gözünüzü-qulağınızı açın ki, iç üzünüzü dərk edə biləsiniz. (Onun iç üzünü ancaq Allah bilər, yaxud Peyğəmbər rizasını qazananlar bilər.) Savaş adamlarına necə olar ki, sirr verə bilərsiniz? Ona, "gəl bu savaşı, qarşıdurmanı tərk et", desən, nə çıxar? O, savaş sevdasındadır. Harda bir qovğa görsə, öz havasına uyub atılar. Sülh istəyən şəxs də ona görə davranar, ona görə danışar, çalışar ki, əgər birinin qulağına çatarsa, o da sülhə gəlsin və desin ki, mən çox utanı- ram, etdiklərimdən və dediklərimdən peşman oldum. O, şeytanın təş- viqi, şeytanın işidir. Ya Rəbb! Nə fəna işlər gördüm! O nə işdi, mən elə- dim. Məgər o, bir xəyal idi ki, məndən bir söz çıxdı, onun qəlbi qırıldı.

Peşmanlıq çəksin. Onun könlündə gözəl sözlər və hərəkətlərlə sülhsevər bir insan olduğu inancını yaradar.

Şeir:

Ustadın aşiqdir sənin, oraya yetişəndə, O sənə hal diliylə anladar incə-incə.

Həzrət Peyğəmbər (s), "Sizə halal olan sehr sənətindən xəbər verim ki, onunla azad olan kimsələri pulsuz-parasız özünüzə kölə edəsiniz", buyurdu. Səhabələr, "Ya Rəsulullah, bizə bildir" dedilər. "Yaxşı davranış, şirin dildir", buyurdu.

O, axmaq bir iş görər, bir söz deyər ki, soyuqluğu açıq-aşkar bəlli olar. O elə bir oğruya bənzəyər ki, işgəncə vermədən, soruşmadan elədiklərini açıq-aydın söyləyər. Ancaq o bir oğrudur ki, içində oğurluq zövqü və məhəbbəti var. Könlü oğurladıqlarına bağlıdır. Onun oğurluğunu anla- yanlar yüz min müqəddəs canı belə bir oğrunun ayağına atar-

lar.

Dedi ki, bu gün Allahın adı ilə bu birinci loxmaya, ikinci loxmaya Cəb- railin, üçüncüyə Mikayılın, dördüncüyə Əzrayılın adı ilə başladım. Çünki yoxsulluq loxmasdır.

Dostluq odurmu ki, dostu yatarkən biri gəlsin, libasının bir kənarını aç- sın, ətəyini çəksin, ədəb yerlərini soyunsun və bunu xalqın gözü önündə eləsin. Nuh Peyğəmbərin (ə) oğlu kimi qara üzünə kişi kimi bir şillə vurar, gizlicə ətəyini çəkərlər. O da o biri kimi gülməz və deyər ki, əgər mən də onun kimi gülməsəm, məni çılpaq soyunduran zavalı inciyər. Bu güzəşt baxımından deyildi, dostluqdan da deyil. Ümid edirəm ki, bizi pisləyənlər, yaxud xəyalla məşğul olanlar arasında bizim haqqımızda danışılarkən bəziləri bərəddüd edərlər. Heyrət ediləcək məqam budur ki, görəsən, bu sözləri dostlar söyəlyir, yoxsa bizə eyib tutanlar? Hansını ələ alım. Onlar bir şey eşitmək üçün qulaqlarını dörd açmışlar. "Bir tərəf bəlkə o biri tə- rəfdən daha üstündür", deyərlər. Ümidvaram ki, sən bunlar arasında ən doğru söz söyləyirsən, yəqin özündən heç bir şey danışmırsan. Əslində, doğru danışmaq lazımdır. Mən onlara dedim ki, sizdən bu səbədən ayrılır və söhbətlərinizi tərk edirəm. Siz dərvişi incidirsiniz. Bu sözlər onlar üçün faydalı oldu, çünki onlar anlamırlar. Sənin pəhrizin, onlardan ayrılmağın bizim dostluğumuza görə olmuşdur. Onlar bu halı yorğunluq, yaxud nə- zakət sanarlar, yaxud başqa səbələrə yozarlar. Əgər xatirə bir gəlib bu sözü söyləsən, filan şeyə bir zərər gəlir düşüncəsi ilə o sözü gizəltmək lazım deyil. Tələm-tələsik dosta anlatmaq və söyləmək lazım gəlir.

Könül ki göylərdən, fələklərdən daha böyük, daha geniş, daha xoş və aydındır, onu lazımsız sözlərlə nə üçün daraltmalıyıq? Lap xoş olan bir aləmi özünə zindan kimi daraltmaq necə münasib ola bilər? Gülüstan kimi olan bir cahanı özünə darısqal zindan etmək, ipəkqurdu kimi darısqal bir yumaq içərisində xəyallar, vəsvəsələr, çirkin niyyətlərlə qurdalanmaq, özünü qaranlıq bir aləmə atmaq, həmişə qafil olub yatmaq nə deməkdir? Biz o kimsələrdənik ki, zindanı özümüzə gülüstan edərik. Bizim zindanımız gülüstan olanda, onda gör gülüstanımız necə olar? Bir seyr et və gör! Həzrət Peyğəmbərin (s) mübarək sözlərinin heç birindən səksənmədim. Ancaq bu, "Dünya mömінin zindanıdır" anlamındakı hədisdən çaşdım. Mən dünyanı heç də zindan görmürəm. "Zindan hardadır", deyirəm. An- caq o Həzrət, "mömінlərin zindanı", deyib, "qulların zindanı" deməyib. Qullar başqa bir toplumdur. Burada öz məqsədini o darısqal düşüncəyə sığışdırmaq gərək deyil. Dost ilə hər nə gəlirsə, "tez-tez əhvalı belədir", deyib keçərsən. Pəhriz bu cəhətdən gərəklidir ki, görəsən, bu bəhsi dost ilə necə danışım? Dost əslində vəziyyəti görür. Əgər

dost olan yoldaşına söyləməzsən, nə qədər axtarsan, bu mövzuda sol yönü tapa bilməzsən, çünki onun hər iki əli sağ əldir. Buna görə ayədə "Allah və Rəsulunun iki əli arasında" buyurulması bəlkə "hər iki əli də açıqdır" anlamına gələr. Necə ki, o gün demişdi ki, Təbbət ayəsi (Məsəd surəsi nəzərdə tutulur, Təbbət kəlməsi ilə başladığı üçün belə deyilib-R.M.) ilə İxlas surəsi arasında heç bir fərq yoxdur. Hər ikisi birdir. Allah kəlamıdır. Mən bir zaman bu cür söz demişdim. Gəl indi izah et baxaq. Necə deyirsən, Təbbət nədir ki? Əbu-Ləhəb ziyan etdi, öldü, Əbu-ləhəbin əlləri qurusun! Alovu atəşə aparılacaq. Gün olar ki, atəş içində heybətli bir dillə danışar. İndi bu İxlas surəsi, yəni "De ki, Allah təkdir" ayəsi ilə Təbbət hər ikisi bir olarmı? Bu İxlas surəsinin anlamı Allah sifətindən başqa deyil. İndi demək lazım gəlir ki, sən müsəlman olaraq öləcəksən, kafir ölməyəcəksən, xilas olacaqsan atəşdən. İndi elə məmnunam, elə məmnunam ki, bu məmnunluqla iki ca- hana sığa bilmirəm.

Qara şalvarlı deyilən şəxs bir din alimi idi. Məliki Adil ona çox inanır- dı. Mindiyi bir eşşəyin sahibi ilə dava eləmişdi. Farsca deyirdi ki, bu eşşək pis yeriyir, hər an üzüstə ağnayır. "Halbuki ötən gün mənə bir eşşək gös- tərdin, sonra yaxşı eşşəkləri başqalarına verdin. Topal eşşəyi mənə gə- tirdin." Ona dedilər ki, bu kişi farsca başa düşməz, onunla ərəbcə danış. Əcəm bir saata qədər düşündü, ərəbcə danışacağı sözləri zehnində ha- zırladı. Eşşək sahibi bir az uzaqlaşmışdı. Şeyx onu səslədi. Beynində ha- zırladığı ərəbcə sözləri unutmamağa çalışarkən eşşək sahibi, "nə deyir-

sən", dedi. Şeyx bu anlamdakı ərəbcə sözləri kəkələdi: "Sabah mən gö- zəl bir eşşək…" Eşşək sahibi soruşdu: "Bu gün də eləsənmi? Ya Şeyx!"

Onu qəbul etməyən qısqanc fiqh alimləri axşam namazını qıldırmaq üçün imam etdilər. Bilirdilər ki, o Fatihə oxumağı belə bacara bilmir. Onu qoruyan Məliki Adil də onun kim olduğunu bu vasitə ilə başa düşsün. Bu razılaşmadan sonra onu söhbətə tutdular ki, namazın vaxtı keçsin. Amma Xoca kələyi başa düşmüşdü. Üzünü Məlik Adilə çevirdi, "Ey həşəmətli Sultan" dedi. "Sən lük-lük yeriməyi bilirsənmi?" Xeyr, dedi sultan. Xoca orada gözüylə işarə edərək "gətir başmaqlarımı" dedi. Başmaqları gey- dikdən sonra yerindən sıçradı. Bir ayağını basır, o birini sürükləyir, arada durur, sonra o biri ayağını da eyni vəchlə təkrar basıb sürükləyərək, axsaqlıq tərzini göstərirdi. Şeyxin məclisində olanlardan biri deyirdi ki, indi məndə nə küfr qaldı, nə iman. Özümdə küfrdən də, imandan da bir şey tapa bilmədim. Sənin hüzuruna gəldim. Yəhudilikdən, məcusilikdən, ana və atadan gəlmə inancdan nə qaldı məndə? Hərçənd bundan öncə də hər nəyə inandım, iman gətirdimsə, yavaş-yavaş o ilk

inanclardan vaz keçdim. Bu yol çox çətindir. Ucu-bucağı bəlli deyil. Əlbəttə, asan olmaz, onun ilk inancları yadına gəlmədiyi kimi, ona yol da tapa bilməz. Bu eynən buna bənzəyər: “Bir kişi çayın kənarında yuyunmaq üçün pal- tarını soyunar və suya atılar. Su gur axır. Onu qoynuna alan kimi çay aşağı sürükləyir. O isə paltarını soyunduğu yerə doğru atılmaqdadır ki, paltarını götürüb geysin. Ancaq nə eləsin ki, gur axan su onu qərq eləyib aparmışdır.”

Məhəmməd Peyğəmbərin (s) ibadəti və əməli istiğraq,* yəni ilahi düşüncəyə dalmaq idi. Öz-özünə, “Əməl könül işidir, xidmət könül xidmətidir, qulluq da könüldən qulluqdur”, buyurdu. Amma o ilahi düşüncə və tama- şa aləminə ancaq Allah-təalaya özünü yox etməklə varıla bilər. O, bilirdi ki, hər kəsə həqiqi əməl və ibadət üçün yol yoxdur. Qullarından lap az şəxslərə istiğraq səadəti verilmişdir. Ümmət üçün bu beş vaxt namaz ilə ildə otuz gün oruc və Həcc ziyarətini əmr etdi ki, onlar da o tamaşadan məhrum olmasınlar, qurtuluşa yetsinlər və başqa ümmətlərdən üstün olduqlarını anlasınlar. Hələ onlara adı çəkilən o istiğraq səadətindən bir qoxu yetişsə, gör nə olar. Əgər belə olmasaydı, orucdakı aclıq harda, Allaha qulluq harada qalar? Dinin bu açıq-aydın dəvətləri və ibadət nəyə yarayardı?

Bu şeyxlərin bir çoxu Məhəmməd (s) dininin yol kəsənləridir. Siçanlar hər şeyi gömirdiyi kimi, bu dinin evini yıxmağa çalışırlar. Amma Allahın əziz bəndələrindən elə pişiklər də var ki, bu siçanları təmizləməyə çalışırlar.

Yüz minlərlə siçan toplaşsa belə, tək bir pişiyə baxmaq cəsarətini göstərə bilməzlər. Çünki pişiyin heybəti onların bir araya toplanmasına imkan verməz. Pişik isə öz nəfsində bir icmadır. Siçanlarda əgər toplanma cə- sarəti olsaydı, birləşə bilsəydilər, içlərindən bir neçə fədai siçan çıxa bil- səydi, pişik, nəhayət, bunlardan birini yaxalayar, onunla məşğul olarkən, o birilər pişiyin gözünü cırmaqlayar, başına atlanar, əlbəttə, onun işini bitirə bilərdi. Heç olmasza, qaçardılar. Bu halda, o deməkdir ki, onlarda- kı qorxu toplanmalarına əngəl olmaqdadır. Siçan dağılmağın, pişik top- luluğun rəmzidir.

Ayədə “Kəbənin içinə girən güvəndə olar” buyurulmuşdur. Heç şübhə yoxdur buna. Sonra başqa bir ayədə “Ətrafında olanlara bağlan” - cəhənnəmdən söz edilir. Könüldən kənarda (xalqın ürəyində vəsvəsə verən) şeytana işarə edilmişdir. Yüz minlərcə vəsvəsə verən Şeytanlar, fəryadlar var. İbrahim Peyğəmbərin (ə) oda atılması Haqqın tərbiyəsindəndir. Musa Peyğəmbərin (ə) böyüməsi və onun düşmən əlində bəslənməsi həmişə Allahın bir cilvəsidir. Bəli, Peyğəmbər Allahın lütf və irşadını bilirdimi ki, “əvvəl yoldaş, sonra yol”, buyurdu.

Üzünə tüpürdüyün zaman səs çıxarmayan kimsə yoxdur. Kərim demişdir ki, biri gəlib bazarda oturmuşdu. Guya bazarı yandıracaqdı. Ona dedim ki, ey axmaq, sən də eyni yanğının içində yanıb gedərsən. Yanmaq ona deyərlər ki, yanasan, səndən də heç bir əsər-əlamət qalmasın. Bəli, övliya zümrəsindən bəzi kimsələr var ki, yanar oda atılarlar, amma əsla yanmazlar. Gizli bir topluluq da var ki, onların hər şeyi gizlidir.

Bəli, o, arxasını Qələndərə söykəyər, ona arxalanar. Mən onun üçün nə qədər qovğalar etdim, dostlarla vuruşdum ki! Həzrət Ömər (r.a) belə heç bir şey üçün bu qədər çalışmamış və bu qədər danışmamışdır.

O, mənə əvəzində bunu eləyər. Mənim şagirdimdir, çox vaxt qarşımda dizini qatlayıb oturmuşdur. Ona çox zəhmət çəkdim. Baxırdım çox yanlış danışır, yanlış oxuyur, əlində aciz qalırdım. Uzadıb əlinə yüz, yaxud min şallaq vururdum. Bir şallaq vuranda, "yaxşı, artıq yüz şallaq oldu", deyirdi. Deyirdilər ki, qarşımda dərs oxuyarkən hələ uşaq idi. Məni belə söyüb- saymazdı. Deyəsən, sevdalı olmuşdur. Artıq aramızdakı məhəbbət kəsil- mişdi. İndi təkrar qarşıma gəlmirsən, ətəyimdən tutmursan. Bu bağa get- məyin təsiridir. Bundan faydalandın. Mən kənardan düşünürdüm ki, onu görən kimi boynuna sarılım. Sən isə gedirsən. Ev mənə çox yad gəlir. "Artıq gedim", dedim. Təkrar o qadının yanına getməyim, bəs nə edim? Gedib tez də geri dönüm. O halda nə üçün getmirsən, tez get!

Ona ya birə deyim, ya da çəyirtkə. Çünki atıla-atıla gedir. Mən dedim ki, o, bu günahsız Kimyadandır. Amma gərəkdir ki, onun mədənləri biz olaq ki, özünü bu dərəcə coşğun görməsin. "Sənin üçün pirinc bişirim, yoxsa turşu istəyirsən", deyə soruşdu. "Ey xoca", dedi, "iki xoruzun yoxdurmu?" "Var", dedilər. Əla ilə Məhəmməd Tacəddin şikayətləndi. "Dayə qadın bizi ac saxlayır", dedi. Ona dedim ki, "dayə qadın səni ac saxlayırsa, anan yerindədir o. Mənim adımı söylə. Necə olar ki, mən sən adını bilirəm, sən mən adımı bilmirsən? Ona söyləndə həmən gəlir, oradadır o. Qorx- ma, o an de, bəli, oradadır. Səndən asqırmaq, sizdən də "sağlam ol" demək yaraşar. Təkrar asqırdınmı, bir daha "sağlam ol" duasını təkrar edərəm. Bəzi şeylər var ki, söyləyə bilmərəm. Ancaq o sözlərin üçdə biri deyilmişdir. Aslan kimi adamsan, qüdrətli bir kişisən. Bir çox xas Allah dostları var ki, kəramətləri gizlidir, sirlərini hər kəsə açıqlamazlar. Necə ki, onlar da gizldir. Bir şəxs bütün lütf olsa belə, yenə əskikdir. Allaha belə həmişə lütf və rəhmət sifəti yaraşmaz, onun əksi olan sifəti də var. Allahın qəhr sifəti içində həm lütf, həm də qəhr var. Ona lütf də yaraşar, qəhr də. Həqiqətdə bunlardan hər biri onda bir-bir müəyyələşməkdədir. Belə bir toplum üçün çox sərt bir insan lazımdır. Necə ki, Həzrət Məhəmmədə (s) nisbətən Həzrət Əli (ə) daha cəngavər

idi. Necə ki, o gün hər biri soruşurdu: "Görəsən, Əbubəkirin (r.a) əlindən qılınc vurmaq gəlməzmi?" Səhabələrdən hər biri Məhəmmədin (s) sifətlərindən biri ilə bəzənmiş idi. Əbubəkir (r.a) Ömərdən (r.a) soruşmuşdu: "Məndən sonra xəlifə olsan nə edərsən?" Ömər dedi ki, "mən ədalət göstərər, haqqı qoruyaram". "Doğru söyəlirsən dedi, səndən ədalət yağır." Necə ki, öz oğlunu elədiyi zinaya görə şallaqlayıb öldürdü. Beləcə, "fəsadı, pozğunluğu cəzalandırdım", dedi. Ömər də Əbubəkirdən soruşdu: "Sən nə edəcəksən?" "Mən edə bilsəm, bir pərdəyə örtülərəm", dedi.

Qəribə şeylər danışırlar. Onun atının yüyənini çəkdiyi halda, inanmır- dı, inkar edir və deyirdi ki, filan şeyx qarşısına çıxdı, salam verdi, almadı. Amma bir az sonra filan cavan salam verdi, ona çox iltifat göstərdi. İn- anmırdı, bir dəli kimiydi. Soruşdu: "Şeyxdən üz çevirdikdən sonra şeyx uzaqdadırmı? "Çoxdan gəldi", dedilər. Şeyxin evinin qapısında rəisin oğlu ilə şahmat oynadığın gördü. Büsbütün inamı sarsıldı və geri dön- dü. O gecə Həzrət Peyğəmbəri (s) röyasında gördü, onu ziyarətə qaçdı. Amma Həzrət Peyğəmbər (s) ondan üz çevirdi. Bu səfər fəryada baş- ladı. Peyğəmbər (s) buyurdu ki," "Bizi nə qədər inkar edəcəksən. Bizə inanmayacaqsan sən?" "Ey Allah elçisi", dedi, "səni nə zaman inkar etdim?" "Amma bizim dostumuzu inkar etdin", buyurdu.

İnsan sevdiyi ilə bərabərdir. Həqiqətdə o, bir dostdur. Möminlər tək bir vücud kimidir. Həqiqətdə onun ətəyində bir ovuc fındıq və quru üzüm vardı. Qaçaraq gəldi və gördü ki, hələ şahmat oynamaqdadır. Quru üzüm ətəyində dayanmışdı. Təkrar inamı pozuldu, istədi ki, geri dönsün, şeyx arxadan çağırdı. "Artıq nə zamana qədər bu imansızlıq olacaq? Barı Seyyiddən utan!" O saat geri döndü və şeyxin ayağına sərildi. "O bir ovuc quru üzümü o tabaq içinə tök ki, o, buradan getməyə qərar vermişdir." Bu saatda o mübahçı (hər şeyi görən şəxs) olmuşdur. Onun halı necə olacaqdır ki, bir həftə hamamda qalmış, bir ayağını o dəliqanlının qucağına, o biri ayağını da rəis oğlunun qucağına qoymuşdur. Manqalda kabab bişirir. Bunlardan da gah birindən, gah da o birindən şaftalı toplayır. Başqa nə qaldı artıq! Minbərin üstünə ilk vaiz çıxdığı vaxt bu anlamdakı rübaini oxumuşdu.

Rübai:

O büt məclisimizin bəzəyi, dilbəriydi.
İndi məclisdə deyil, haralarda sallanır?
Uca bir sərvdir o, lap şümşad kimi boyu var, O , məclisdə olmazsa, qiyamət bizdən qopar.

O arada dəliqanlını gətirən rəisin adamı, başına kül olsun, su tökdü və məclisdən bayıra çıxdı, sonra içəri gəldi, bir yerdə oturdu. Vaiz başladı. Bundan sonra yaxşılaşana qədər belə pəhriz edəcəyəm. Yaxşılaşmasam belə, bu pəhrizi saxlayardım.

Bu göz ağrısı sənə səfa verdi, dediyin günə qədər pəhriz saxladım. İstəyirdim ki, başqa bir səfər daha da sözümü keçirib onları susdurum. Amma içim çox hərarətli idi. İndi bunu təkrar etməsəm, adam çaşar bu işdən. Bu, zövq sahibi olan bir kişidir. Eyni zövq ona da yetişdi. Danışmaq fikrində deyil. Əslində məndə söz qalmadı, tez qalx! Mən başqa birini tapdım. Bu şeyləri dərk eləməz. Amma daha çox onunla danışıram. Məəttəl qalmışdı. Bu gün dost ilə, sevgili ilə də mənim səbrim belədir. Bu yeganə sevgili ilə necə səbr edə bilərəm? Sənə əvvəllər çox qüvvətli bir marağım, sevgim var idi. Ancaq başlanğıcda görürdüm ki, o zaman şəriət yolu ilə söyləmək mümkün deyildi. Əgər söyləsəydim, məni üzrlü saymazdın. O zaman bu hal yox idi. Mənə deyrilər ki, bir icma sənin haqqında "o, bidətçidir, qondarma şeylərlə məşğul olur", deyə məni pisləməyə başlayıb. Mən də, "düz deyirlər", dedim. "Bidətçiyəm, indi sən mənə söylə görüm, bu namazın həqiqəti, iç üzü nədir?" Əvvəl filosoflardan bəziləri "başını yerə qoymaq, bədənini ayaq üstə saxlamaq ayıbdır, əs-

kiklikdir", deyərlər. Üzüstə düşdü ki, mənim də məqsədim bu idi, bunu is- təyirdim əslində. Məqsədim nə idi? Filosoflardan nəql edərək anladım ki, onlar imanlı isanlardan deyillər. İndi icazə ver, bir söz də deyim. Həzrət Məhəmməd (s) belə "imkan ver, nə desə dinləyim" buyurur. Yersiz bir söz söylərsə, onu tanıyarsan. Əsil söz pəhləvanı "mənim məqsədim bu idi" deyə bilən insandır. Bu gün indi ki, o insan sənsən, bu da sənə yaraşır.

Mən heç kim üçün, "o fasiqdir, günahkardır", deyə bilmərəm. Nə kimisə pis işlərlə əlaqəli hesab edirəm, nə də pislik düşünürəm. Mühakimə etməyi də ancaq pis düşüncələrin içimizdən təmizlənməsi üçün Allahdan istəməkdəyəm. Mən deyirəm ki, mərifət qaynağı bu şeytanın gətirdikləridir. Sənin istədiyin və aradığın şeyə də əngəl olar. Sənə içini o mərifətdən boşaltmaq gərəkdir. Elə ki, o mərifətin üzərində heç bir şey olmasın. O, zaman-zaman bizi həqiqi edər, gözündə yaş girdələnər. Zaman-zaman da, "bizə bir eşşək qədər dəyər vermirsən, heç sayırsan", deyər. Biz səni bir alim, bir müfti bilirik. Necə ki, Şahab Hərivə, "mənim bir arzum var", deyir. Bundan sənə gözəl bir yemək bişirim yeyəsən! O zaman məndə necə bir hünər olduğunu görəcəksən. Pəhriz saxlayırsan. Bu günə qədər hələ ki, bir günah eləmədik tövbəmizi yıxsın. Belə bir adam necə başqa bir adamı yaradan saysın? Bir təfsirçi, bir duyğulu adam onun qa-

bağına keçər ki, ona bir söz desin, yaxud bir fikir və tədbir bəyan etsin. Hər za- man belə olar. Əslində onun Allah olması qeyri-mümkündür. Bəlkə aciz və zavalı biridir o.

Məni cənnətin qapısına aparsalar, əvvəlcə qapıdan baxaram. O, oradadırmı? Orada yoxdursa, “haradadır”, deyə soruşum. Xeyr, onu gözümlə görməliyəm. Beləcə birlikdə olaq. Əgər cənnətdə tapa bilmə- səm, cəhənnəmə qaçaram. Cəhənnəm məndən soruşar. Neçə dəfə gö- rüşmüşük? Açıq danışaq: Mənim səninlə işim yoxdur. Onu mənə ver. Sən bilirsən, bundan sonra hər nə deyəcəksə, o bilər. Mənim onunla görüləcək başqa işim yoxdur. Bunu deyən kimi getdi. Onun tərəfindən də belə eləmək lazım idi. İçi boş isə, təkrar içəriyə girər, iman gətirər. O şəxslər ki, içəridən deyil, onlara yüz minlərcə möcüzə göstərsən, iman etməzlər.

Həzrət Əbubəkr (r.a) möcüzə istəmirdi. Deyirdi ki, peyğəmbər (s) nə söylədisə, inandıq və həqiqi saydıq.

Mənə pul verdi. On beş gün sonra yenə gəl, o zaman gedək. Bu gün məni buraxmazlar ki, gedəm. Məni nə üçün sərbəst buraxırsan? Dostlar əldən gedər, xalq da bizim sözümüzü anlamaz, anlamaq da istəməz.

O qocadan, bu kişiyə nə üçün əyri gözlə baxır, deyə soruş. Xalq yəhudilərə belə salam verərkən bu gün bizi soruşmur. Biz onu yüz cür hiyləgərliklə naz və dualarla əldə edirik. Sən onun təvəccöhünə* layiq olduğumuzu sanarsan?

Xalq hər şeyi öz gücünün ölçüsündə görər. Öz-özünə müqayisə edərək, “camaat dağılmışdır”, deyər. Ta məsciddən ona səslənirik: Bu xalqı hansı icma belə dağıtmışdır? Lazımdır ki, yenə o şəxslər toplansınlar. Bu, nə acizlikdir? Gücsüzlüklərindən bir dəstə hiyləgərlərə uyarlar, könül açıqlığı da onlara deyil, başqalarınadır. Mən deyirəm ki, mənə zəhər tiryəkdir. Bunu yediyim üçün sizin babalınız mənim boynuma, şahid olun. Başqalarının günahlarını mənə yükləməyin. Əgər mən günahkaramsa, indi artıq heç günahım yoxdur. Mənim cəhənnəmim, mənim çəkinməyimdə və qorxmağımdadır. Nəhayət, hədisdə buyurulduğu kimi “Keç, ey imanlı insan! Sənin nurun mənim alovumu söndürəcək!” deyə səslənər. Deyirəm ki, mənim sevgilim sənin qarşındadır, onu mənə bağışla, mənim səninlə işim yoxdur, sən bilirsən. Həzrəti Peyğəmbərin (s) buyurduğu kimi, “mən bunun sözünü yerə salım”, dedim, belə söylədim, işimin əksinə hərəkət etdim. Əsər həmən açıq-ayıdn göründü. Görmədinmi? Görmürsənmi ki, bunu başqaları eləsəydi, onları parça-parça edərdilər. O söz bilməz kişi nə üçün boş yerə danışsın. Yersiz, elmsiz sözlər onun sözləri deyil. Bunun dəlili də söz demək qaydalarını bilmədiyi üçün bunu eləyə bilməməsidir. Qrammatika oxumadığı üçün sözün təsirli olmasını da bacara bilməz. Sözü tərsinə söyləyim, yaxud çevirim, başqa mə-

nada deyim, fərqində olmaz. Ağıl qapısından bayıra çıx, pərdə çox uzaqdadırmı? Onların bir addım belə yürüməyə cəsarətləri yoxdur. O dedi ki, sintaksisdən heç xəbəri yoxdur. Sintaksisdən o şəxsin xəbəri var ki, özü sintaksis olmuşdur. Vallah, tamamilə sintaksis olmadıqca, insanın bu elmdən xəbəri olmaz.

Mən bütün cəfanı ancaq sevdiklərimə qarşı elədim. Amma bəzi vaxtlar elədiyim cəfanın yerində olmadığı da olur. Dəvətdə, asanlaşdırmaqda qəhr də var, lütf də. Amma xəlvət aləmində həmişə lütf, həmişə məmnun- luq var. Mənə bundan elə bir xəyal gəldi ki, onun da məqsədi mənim geri dönməyim deyil. Təkrar bağa dönmək də boşunadır. Çünki onu bağda görməyəcək, hətta Çələbidən orada bu sirri açıqlamış olmasından qor- xacaqdır. Onu görmək imkanı da yoxdur.

Orada, "Bədrə getdi", dedilər. "Bədrə nə üçün gedər", dedi. "O halda, mənə də izn ver, söylə ki, gedim. Məni niyə saxlayırsan?" O, "gedək" dedikcə, "xeyr, əsla, əsla", deyirdin. Mənə güldü. O gülüş, "Allah mənə bir nemət verdi", deməkdir. Bunun təşəkkür borcunu necə ödəyəcəyəm?

Sonra o bu mənanı da verirdi: Sən nə deyirsən? Mən sənsiz necə yaşa- yaram? Allah hər şeyi könlüncə versin!

Bu qadın, "mən səni istəmirəm", deyir. Əgər bu səfər keçib-gedərsə, mənim vecimə deyil. Şahid gətirim, o gəlmədən ayağını açım getsin. Əslində məni üzən, əlimi-qolumu bağlayan məqam onun könlünün məndə, gözünün arxada qalmasıdır. Bu, mənə eyib olardı. Çarəsiz bir qadının halını o nə bilər? Bu qadın ki, mənimlə nikaha girmiş, aramızda yaxınlıq hasil olmuşdur. Belə edərsə, o, yaxşı bir qadındır. Ona öz gözü ilə baxmayın. Mənim nəzərim hər kimə ilişdi və tənim hər kimin beninə dəydisə, o özünü əsla əziz saymazdı. Bədrə, "nə edər," dedim. Təfərrüc, yəni gəzintiyə getdi, dedi. Bu millət ilə necə qaynaşa bilər, necə gəzintiyə gedə bilər? Onlarla necə otura bilər? Sanki o sənin ərindir. O pis xasiyyətli kişi məndən izn almadan necə gedə bilər? Bilmirəm, o hansı tərbiyəsiz bir davranışla səninlə bunu edər? Mövlanaya mənim sayğılarımı söylə. Bir anda bir neçə söz danışmaq üçün məşğul olmasını rica et! Zehnim qarışıq olduğu üçün bir araya gələk, dedim. Dostun zehninin qarışıqlığı dostuna da keçər, dedi. Məndən rica etdi. Ona on gün möhlət ver, bir ev tutub getsin. Ona de ki, iki ay otursun, iki il otursun, ömür boyu oturub, bizi incitməsin. Söylə ona rəzalət çıxarmasın və yerində otursun!

Kimsə görmüşdürmü ki, sözü təkrarlayan onu söyləyəndən daha üstün olsun? Hələ ki, bir söz söyləmədim. Hanı, hardadır araşdırıb baxın. Kamal Muarrifə dedik ki, mən bu günə qədər bu şəhərdə danlaq yemədim. Sənə yüz dəfə lənət olsun, əgər yeməzsən, o yeddi yüz məqbul orucun məqbul olmasın. İçəridən heyrətlə ariflər sultanın qapısına baxdı.

Bayıra çıxmadı. Qarnı yırtılır, başını kəsirdilər sanki. Bu zahirdə belə deyildi. İndi sən ona yapışma. İmamlar məqbul saymırlar. Amma imamlar kimdir? Mənim imamlarla nə işim var? Biz özümüz imamlardanıq. Belə danışma, dedi. Sən başqalarının imamlarındansan. Başqaları da sənin imamın. Sən də Allaha yaxın ərənlərdənsən! Bir neçə söz söylə barı, deyirsən. Bir zümrə var ki, xəstənin başının üstündə Ayətül-kürsi oxuyarlar, bəziləri də var ki, özləri Ayətül-kürsi olarlar.

Bir padşah min cür səltənət və dəbdəbə ilə yoldan keçərkən bir tiyançı bayıra atıldı, ona yaraşmayan sözlər dedi, yol üstündə coşub-söydü. Pad- şahın yanına yaxınlaşdı, heç kimlə danışmadı. Əgər danışsa, onu parça- parça edərdilər. Padşah yolunu dəyişdi, "bu tərəfə gedək", dedi. Amma "Şah sağ olsun, nə üçün o tərəfə gedək", - deyə soruşanlara, "ürəyim belə istədi", cavabını verdi. "Padşahların qəhri kimlərədir, bilirsinizmi" dedi. Tiyançılara deyil, onun əsli külhançıdır. Tiyançı tiyançı ilə qovğa

edər. Padşahlar ancaq fərmanına boyun əyməyənləri cəzalandırar. Firon və Nəmrud üçün "Çünki səndən əvvəl açıq möcüzələr, səhifələr və nur saçan kitab peyğəmbərləri də yalançı saymışdılar'' (Ali-İmran surəsi, 184) mənasında ayə də buna dəlildir.

Məhəmməd Əmirici danışırdı: "Bir kişi gəlib deyinib durar. Qaynanama belə dedim, arvadıma belə dedim, cariyəmə bunu danışdım, deyə qarış- dırmadığı kimsəni buraxmaz.'' Bu kişi arvad istəyirsə, on dənə belə alsın. O, təmizürəkli bir kişi mənim də yanıma gələr, öz evində də belə danışar. Kişinin saqqalından tutdum, bir-bir yoldum, ona elə bir şey elədim ki, başqaları da ibrət götürsün. Bunlar qadınların və müsəlman ailələrinin adlarını pisə çıxarmasınlar.

Mən bu evin təmiz adını və uşaqlarınızı düşünərək üzülürəm. Siz necə razı oldunuz? Mənim xəbərim olmadı. Əgər, "danışırsan'', desəm, yenidən söylə. Nə dedim ki, "bəli'', deyirsən, bunun mənası nədir? Mənası bu deməkdir, o qədər. Əgər, "bəli, deməkdə gecikirsən, nə üçün, bəli, demirsən", - deyə soruşursan, bu, etiraz deməkdir. Mən əslində etiraz edirəm. Əgər varsa söylə, o etirazda bir əyrilik varsa, düzəldim.

Bir kişi var ki, başqa bir ustadın işinin qəlibi olar. O şəxs candır. Bunda kədər yoxdur. Allahından üstün şəxs varmı ki, həm qəlib olsun, həm də can olsun? Bu, qeyri-mümkündür. Mən səninlə birlikdə əzab çəkirəm, bunu filankəslə bir yerdə danışdıq. Bu işə görə üzr istəməkdir. Mən ona dedim ki, üzünü görüncəyə qədər bu sözlərlə ovunmaram. Ancaq Mövlana o görüşdüyümüz yerdə üzüldü. Mən qılınc ilə gəzməyin əleyhinəyəm. Məni tanıyarlar. Yoxsa sizin elədiyniz kimi eləmədim. Bəlkə onu sevdiym zamanlarda belə etmədim.

Bir daha xəstəliyin mənə yol tapmasına fürsət vermə. "Eşidər", dedim. "Nə dedim ki, eşitsin", dedi. "Bu aydın sözləri eşidər", dedi. Yəni bir şey eşitməməyim bir söz olmasın. "Bir zamiri (gizli bir sözü) var" dedi. Görürsən ki, gizli sözü anladı. Əgər bu sözün zahiri anlamına arif etiraz edərsə, bundan doğacaq üzüntü mənim əlimdə deyil. O, qeyri-ixtiyari öz-özünə mənə müsəllət olur və yenə qeyri-ixtiyari keçib gedir. "Necə olur", dedi. Ona öz biliyi pərdə oldu. Quranda buyurulduğu kimi, "Onu bir Allah bilər. Bir də bilikdə alim olanlar." "Çünki, bilikdə alim olanlar sözün yozumunu bilərlər", dedi. Bunu sual baxımından söyləmişdi, ona gülmüşdünüz. Bir söz hər iki mənanın xaricində deyil. Söz bina olduğu zaman yuxu gətirər. Necə ki, oyanıq könüllər yuxuda da iş görər.

Səhabələr heç zaman etiraz etməzdilər. Həzrət Mustafaya (s) olan inanclarına görə, Peyğəmbəri dinləyərkən məst olardılar. O gözəl sözlər-

dən Həzrət Əbubəkr (r.a) yeddi hədisdən başqasını nəql eləmədi. Əgər soruşsalar, aldıqları cavabdan çox faydalanar, bir çox gözəl məqamlar açıqlanardı. Bundan bizim sözümüzün qoxusu gəlir. Həllacın "Ənəlhəqq" sözü cəsurluqdur. Bəyazidin "Nə xoşbəxtəm" sözü daha gizlindir, insanlar arasında elə şəxs yoxdur ki, onda az-çox mənlik olmasın. Həzrət Musa (ə), "mən yer üzündə olan insanlardan daha böyük aliməm", deyə bir az mənlik göstərincə, Allah onu Xızır (ə) həvalə etdi ki, bir neçə gün onunla bir yerdə dolaşsın, o mənlik davası ondan getsin.

Həzrət Məhəmməd (s) Həzrət Əliyə (ə) buyurdu ki, "sən nə üçün vüslət orucu tutmaqda mənə qoşulub belə arıq və gücsüz düşdün? Mən hər hansı biriniz kimi deyiləm, Allahımın yanında gecələrəm, O məni yedirər- içirər" buyurdu. Bəzi həqiqi tədqiqatçılar Quranın bu ayəsinin enməsini araşdırıblar və deyiblər ki: "De: "Mən də sizin kimi ancaq bir insanam!.." (əl-Kəhf surəsi, 110) anlamındakı Allah xitabının məzmunu budur: "Ey Rəsu- lum! Sən ilahi təcəlla ilə dolduğun vaxt mənliyi özündən uzaqlaşdır, belə de." Amma Allah-təala sevgili Peyğəmbərinin (s) müqəddəs qəlbini sın- dırmamaq üçün ayənin sonuna bunu əlavə etdi: "Ancaq mənə vəhy gəlir, Allahınız tək Allahdır." Bundan sonra da "Allahına yetişmək istəyində bulunan gözəl əməllərə sahib olsun." Bu da əvvəlki xitabların oxşarıdır. "Mən hansı biriniz kimi deyiləm", deyən Peyğəmbərinə (s) bunu da xatırladır, eyni ayənin sonunda "Rəbbinə etdiyi ibadətə görə heç kəsi şərik qoşmasın!" buyurur ki, bu da onunla eynidir. Lakin yaxşı qullar ca- hanı ibadətlə, ağılla abadlaşdırarlar. İki cahan bu iki şeylə, yəni ağıl və ibadətlə bağlanmışdır. Bütün zamanlar hər iki aləmdə təsərrüfdən qəflət edər. Sənin əlin-ayağın təqlid ilə uzanar, güclənər, bunda məhrum qal- ma qorxusu yoxdur. Amma öncə inkar etdirər, sonra özünə gələndə səni çevik və canlı bir hala gətirər.

Hər kəs bu zəhi (nə gözəldir) kəlməsinə aşiqdir. Bu "nə gözəldir" kəlməsi uğrunda ölərlər. Sənin dünyagörüşün Onun sifətləri ilədir. Öz istəklərindən başqasını istəmə! Sənin istədiyin şey oradadır. Çirkinliklərə, qaranlıqlara, o biri aləmə aid pərdələrə baxmaq və bulanıqlıqlar və çətinliklər içində yaşamaq uşaq oyuncaqları ilə oynamağa bənzəyər. Bəziləri görünüşdə onu yox edərlər, qəflət yuxusundan oyanarlar.

Sabah vəz eləmək lazımdır. Bu, çətindir, amma bir qapı açılmışdır. Çarə yoxdur. Bu qapını qapadınmı, fəryadlar, şikayətlər, eyib tutmalar başlayar. Kaş bunun onlara bir faydası olsun. Söylənməsi gərəkli olan bütün sözlər deyilmişdir. Açıq və gizlin danışılmışdır. Amma sanki heç öyüd dinləməmiş kimi davranırlar. Nə sözün açıq anlamını qavraya bilir,

nə də məqsəd və mənasını anlayarlar. İndi ki, anlamırlar, bu mövzuda necə danışıla bilər. Biliyə söykənməyən əməlin sonu yolundan sapmaqdır. Bunlar görəsən, girdikləri çilələrdən nə əldə edirlər? Orada nə edərlər? "Allahdan başqa ilah yoxdur, ancaq Allah vardır", yönümündəki sözləri dil işi deyil, münasibət işidir. Onu tətbiq etmək istəyər. Bilmirəm, bundan onun əlində qalan qazanc istər dəyişik olsun, istər olmasın. Söz ancaq onun sözüdür. Necə istəyər, o tərəfə yönəldər. Nəhayət, Allahın elə bən- dələri var ki, o halın halı olar. Sənin söz ustadın, bilmirəm, mənəmmi? "Vardır", deyirəm. İndi bizim evimizin karvansarayında bizə cəfa verən o kişi kimdir ki, hər kəs ondan inciyir? Bunlardan biri mənəm. Bu gün sanki bir ildən bəri binanın sənədini mənə veriblər. Amma indi də pislik eləmək istəyirlər, bunu artıra bilirlər də. O zaman o sənədin dəyəri nə olar? Əgər gəlib, "bu karvansaraya mənə lazım deyil" deyirlərsə, mənə olan hörməti artırmış olarlar. "Bu mənə yaraşmaz, geri al", deyərəm. Bu razılaşmanı pozmaq olar. Lakin onun bu işin pozulduğuna şahidlik edəcək kimsəsi yoxdur. Bu söz deyilmişdir, amma necə edər? Nə kimi tədbir tapmaq lazımdır ki, bu razılaşmanı pozsunlar. Bundan bizim sözümüzün qoxusu gəlir. O sözdən də bu beytin qoxusu:

Beyt:

Bəli, günəş bir adamdan uzaqlaşınca, Günəş yerinə çıraq yandırar o zavallı.

Mənim sözümü xatirində saxlamadığını dərk edəndə başqa sözlərlə məşğul olarsan. Sən namaz qılmırsan, bundan əvvəl qılırdın. Namaz və ibadətlə məşğul olmaq səadət nişanəsidir. Sənin fikrin məni qocaltdı. Əgər ayrılığın hər hansı bir şey üzündən olsaydı, bu sıxıntı ona bağlı olardı. Əgər oraya gəlsən, mənim başımı kim tumarlayacaq, məni kim

danlayacaq?

Peyğəmbərlərə belə iftira etdilər. Yaqub oğullarına yaraşmayan sözlər söylədilər. "Bir oğlanı sevir", dedilər. "O, çirkab yuvasıdır", dedilər.

Həzrət Məhəmməd (s) üzünü çevirincə, "Sizi əbəs yerə yaratdığımızı

və hüzurumuza qaytarılmayacağınızı güman edirdiniz?" (əl-Muminun surəsi,

115) anlamındakı ayənin hikməti aşkar olar. Hələ gör onlar Məhəmməd Peyğəmbər (s) haqqında nə hədyanlar dedilər? Amma gördük ki, bu vaiz Davud (ə) ilə başqa peyğəmbərlər haqqında nələr danışır. Ancaq oturan dinləyiciləri təsirləndirdi. "İstəyirlərsə, onlar məclisimizə gəlməsinlər və bunun üçün bu yolu açır, artıq bizdən vəz istəməyəcək", dedi. Hardadı o vaizlər? Bu vaizin oxucuları hardadır? Yaxud hardadır o peyğəmbər

ki, həmişə tək oğlunu axtarsın? Harada o tək övlad ki, eyib tutduğu şeyi o yaratsın. Onlara dedi ki, siz də filankəsin danışdığı kimi vəz edin! Hətta mənim qardaşım və vaizlər nələr söyləyərlər, budur vaiz deyirlər sənə! Əgər insansansa, başını bu mədrəsədən yuxarı qaldırmazsan. İnsanoğlu deyilsən, xeyr, bəlkə mənim kimi danışarsan: Mən Şamda, Rum diyarında qazılar qazısıyam, xəlifənin yaxınlarındanam. Kitabım boynumda, alimlər atımın yüyənini çəkirlər. "Bu, qaranlıqlar içində oldu", deyərsə, o başqa.

Fərhad ilə Xosrov və Şirin hekayəsini Leyli ilə birlikdə söyləyirik. Əgər buraxarlarsa, işlər yaxşı olar. Lalənin hekayəsini birinci gün qadağan etdi, ikinci gün bir neçə altun verdi, şirin sözlərlə yenidən icazə verdi. "Mənə bir iş buyur", dedi. O, bir köşədən gəldi. Kaş ki, bir şey oxuyub, məni bu mədrəsədən qurtaraydı. Allaha şükür ki, bir şey oxumadım. Allaha sığı- nıram, əgər bir şey oxudumsa.

Şahab deyirdi ki, bu uşaq mənə, Şama gedib təhsil alaq, deyir. Dedi ki, Allaha sığınıram! Hələ ki, getmədiyi halda bizi bəzi suallarla aciz qoyur. Mən bütün bu divanəliyimlə neçə ağıllını şərab küpünə soxmu- şam. Dalğınlığımla neçə gözü açığı qoltuğuma vurmuşam. İçimdə bir müjdə sevinci vardı. Elə bil səmalarda uçurdum, yer üzündə deyildim. Təhsil edirsən, amma mənə görə deyil. Hər gün bir sətir oxusan, belə olar. Atanın səni təhsilə göndərməkdə məqsədi bu idi: Zəmanə pisdir, xalq uşaqları yolundan azdırar. Allahdan qorxmazlar. Bu anda Allaha çox şükürlər olsun! Sənin əldə etdiyin biliklər yetərincədir. Yolda müxtəlif fənlərdən söz açmışdım. Deyirdim ki, yol ev kimi deyil. Mən cürbəcür fənlərdə kamil bir alim kimi əhəmiyyətli fənn barəsində danışmırdım. Biz bir çox yazılı əsərlərdən daha üstün gəldik. Amma Mövlana bizdən daha üstündür. Çünki hər nə varsa, ondadır. Sən özünü tamamilə ona vermə-

sən, o da sənin olmaz.

Allah-təala hədisi-qüdsidə belə buyurur: “Mənə bir qarış yaxınlaşan quluma mən min arşın yaxınlaşaram.” Uzaqlıq, böyüklük Mövlanadandır, açıq deyirəm. Bu gün mənə yaxşı baxacaqsanmı? Heç mürüvvətə sığar- mı, səni bu qədər bilgi ilə, üstün məqamlarla yalnız ağlıma sığışdırım? Həzrət Peyğəmbər (s) buyurmuşdur ki: “Qul acanda onun qəlbindən və dilindən hikmət buludları yağış yağdırar.”

Şeir:

Bu gün qibləsi mətbəx olan şəxslərin,
Yaxşı bil ki, sabah yerləri cəhənnəm olacaq.

Ey sənin o qırtlağın ki, Allahın “Yeyin, için!” əmri ilə kəsilmişdir! Bir dəfə soruş və de ki: Ey qırtlaq, söylə, sən xəncərsən, yoxsa qırtlaq?

Az yemək səndəki gücü artırar. Çox yemək hikmət və düşüncə qüdrətini azaldar.

Hər kəs, madam ki, onunla özünü bəzəyər, bu öyüdü dinlə: Burada tapsan da yeməzsən, o biri tərəfdə yeyərsən, “bu, mənə bir başlanğıcdır”, deyərsən. Bunu öyrən ki, könül açıqlığı və savab qazanasan! Axtardığın dilbər tez-tez sənə üz göstərsin. Bunun misalı ona bənzəyər ki, iki kişi oruc tutar, biri heç nə tapmadığı üçün ac qalar, o biri isə bu orucu hər şey tapdığı halda, Allah rizası üçün, sırf savab qazanması üçün tutar. Başqa bir nümunə də deyim: Bir xacə ilə başqa bir dəliqanlı zinadan bezər, yaxud bir xəstə ilə güclü-qüvvətli bir kişi pəhriz saxlayarsa, bunlar heç bir-birilərinə tay olarlarmı? Necə ki, bütün heyvanlar da dişilərini tapmayınca, görməyincə səbr edər. Amma hamısının da zəif bir tərəfi var.

Şeir:

Ey Leylanın vəfalı soydaşları, Allah sizin sayınızı artırsın!
Leyli kimilərdir ki, eşqə susayanlara qarşı cəsurcasına canlarını ba-

ğışlayarlar. Bəli, Xorasanın küçələrində dəvələr gördüm. Bilmirəm ki, üç yüz baş, yoxsa min? Bu necə bir çətin işdir ki, onların hansının er- kək, hansının dişi olduğunu anlamadım. O birilərini də bilmirəm. Barı onun sözü erkək və dişidir. Əgər o biri erkək və dişi olmasaydı, onun sözü də erkək və dişi olmazdı. Hərəkəti də erkək və dişi kimi olmazdı. Hər millətdə erkək və dişi var. Ancaq bir icmada yoxdur. Bu, imtiyazdır, amma haradadır o icma? İndi ki, onu görə bilmirsən, ey dilbər, artıq nə danışırsan? Bizi bir az yalqız burax.  Bizim aşinamız, bizi tanıyan o can kimdir? İndi bu sözü açıq deyirəm. O sözün uğursuzluğunu necə anlaya bilər? Bunu Allah bilər. Əgər məna baxımından söz açsaq, xoş olmaz. Əgər mənadan söz açmasaq, səhih hədisdə buyurulduğu kimi, "Mənə bir qarış yaxınlaşana mən min bir arşın yaxınlaşaram." Söz pəhləvənı olan bir insanın içində dalğalanan neçə söz, məqam var. Ancaq onu dinləyəcək qabiliyyətdə kimisə tapmazsa, nəyə yarayar? Oraya getdi, ot- urdu. Deyilir ki, geridə başqa insanlar da var. Vəzə başlayanda mənim xatirimə bu şeir gəldi.

Şeir:

Xərabət əhli oldum, qəmdən qurtuldum,
Məndə nə zabitəlik qaldı, nə Quran oxumaq qayğısı. O azad ərənlərə xidmət yolunda,
Belimi onun sağlam zünnarı ilə bağladım. Məclisin nəşəsi üç şeylə gəlir, deyərlər.
Məndə həm şərab var, həm gözəl var, həm işıq.

Beyt:
Biz sənə qulluğumuzu göstərdik, nə çarə ki, Sənin çirkin xasiyyətin kölə satın almağı bilmədi!

Kankan (quyuqazan) sudan necə qurtula bilər? Sitəmli sözlərlə öz- lərini arif göstərərlər, həmişə örtünsün deyə çalışarlar. Bir də saçlarını həmişə bayıra çıxarar, sonra gizlədər, minlərlə cilvə, yaramazlıqlar edərlər ki, kimsə onu tanımasın. Ağıllı adam onu tanıyar. O harada, bu hara- da? Bu, birinin elədiyi o birininki kimi doğru ola bilərmi? Beləcə sözə də diqqət edilməlidir. Bir çox şəxslər sözü gizli söyləmək istəyərlər. Nəhayət, özünə insaf eylə bir dəfə. Sənin gözəl bir cariyən olsa, qaynın da onu görsə, ondan, "xoşuna gəlmədimi", deyə soruşsan, o məmnunluq irəlidə nə təsirlər və ziyanlar meydana gətirər. Bir uşaq onu tərifləyən dayısına, "mənim üzüm gözəldirsə, sənin xoşuna getməyən, çirkin üz ki-

min üzü- dür", deyib. O kimdir ki, məni tanıdığını iddia edər? Dünyada heç çir- kin yoxdur, amma bir ölçüyə görə. Küfr belə çirkin deyil. Amma iman ilə müqayisə edəndə çirkin olar. Yoxsa özü nəfsində gözəldir. O, iman qarşısına gələndə pozuq və çirkin olar. Dəmir nəfsində dəmirdir, sərtdir. Amma onda xalq üçün faydalar var, qüvvət yaradar. Lakin misə görə dərəcəsi daha aşağıdır. Çünki mis hər şeyə əlverişlidir, hər qəlibə girər, dəmirdən artıq kimya işində əlverişlidir. Bu keyfiyyətinə görə dəmirdən üstün sayılar. Gümüşə növbə gələnə qədər çox gözəldir, amma altun, daş-qaş, ləl-cəvahirat adlanan dəyərli incilər də növbə ilə bir-birndən üs- tündür.

Yaqutdan bir dəfə soruş: "Niyə elə qıpqırmızı oldun? Yoxsa sənə bu hal günəşdən gəlib? Əgər söz onu kiçik görməkdirsə, dəyərini azaldar və xətrinə dəyərsə, onu başqa bir mənada, başqa bir şəkildə bir-bir seçib göstərərlərsə, nə çıxar. Əgər belə olmasa, onun heç bir bilgisi yoxdur demək. Elə isə ən azından ona, "başmaqlarını al, biz bunu qəbul etmərik, bunu qəbul edənlərə də əngəl olarıq, xainlik edərik", deyərik.

Ondan soruşdum: Nə vaxt məni tanıdın? Nə zaman məni gördün?

Nə zaman ətəyin ətəyimə, qolun qoluma toxundu? Nə zaman mənimlə

oturdun və mənə yoldaşlıq etdin?

Balığın tanınan tərəfi onun suda yaşamasıdır. Əgər hər hansı hey- vanın sudan qaçdığını, su qorxusu ilə öldüyünü görərsən, o, balıq deyil. Ona Allahdan danışılan vaxt üzüntüdən, qorxudan ölər və buna görə sudan çıxmaq istəyər. Amma balığın suda yaşadığının isbatı üçün, davaya, şahidə, sübuta hacət yoxdur. Çünki o suda yaşayar, sudan çıxmaz, arada çıxsa belə, əsil olan onun suda yaşamasıdır.

Deyək ki, xəlifə bir zümrəyə ağ, bir zümrəyə yaşıl, başqa bir zümrəyə isə qırmızı libas geydirmişdir. Hətta bəzilərinin başlarına iri papaqlar qoydurmuşdur. O bununla öyünər. Ancaq onun vəzir və əynaları bəlkə bu qaydanı dəyişdirə bilər. Amma onlar da həmişə bir yerdə o xəlifəyə sığınarlar. Çünki onların xalqı qorumaqdan başqa işləri yoxdur. Başqa məqsədləri də ola bilməz. Xəlifə özü üçün yaxşı olanları bilər, onu əfv edər, nəfsiylə tanıyar. Vəzir əgər ona qarşı düşmənliyə qalxan olarsa, bunu xəbər verər. Onun bundan başqa işi yoxdur. Səhih hədisdə Allah belə buyurur: "Gizli bir xəzinə idim. Özümü tanıtmaq üçün məxluqatı yaratdım ki, Məni tanısınlar!"

Hama ilə Hana arasında Həsənəyə getdim. Mövlana ilə Məcduddin aralarında belə danışdılar: Biz uyğunlaşdıq. Bəli, Şəmsəddin bizi tərk etməkdən xoşlanır, israr etsək, bəli deyər, nə yaxşı olar, yenə gedər. Əgər bizdən ayrılarsa, tədbirli davranmağımız lazımdır. Vaz keçərsə, heç bir şey olmamış kimi daranarıq. O zaman bizə məşhur Cuhanın qolu əlil ol-

duğu vaxt tənburunu çalaraq oxuduğu bu mahnını oxumaq lazımdır.

Şeir:

Mən həmişə sənin kəndində sümük yığırdım ki, Oraya heç bir köpək ayaq basmasın.

Onlar haradadırlar? Onlar kimlərdir? Nəhayət, mən deyirəm ki, onlar mənimkilərdir. Nəhayət, aydın oldu. Dediniz ki, sən həmişə bu misranı zümzümə edərdin:

Şeir:

Ay yüksəldi, biz alçaqlaşdıq.

Beyt:

Sevgilim, bundan sonra bizdən hər nə eşitsən, Artıq əl açma bizə, çünki biz getdik əldən.

Görürəm ki, göylərdən dalğa-dalğa nur yağır. O körpənin üzündən, mənim üzümdən və gözümdən fışqıran nurla ta ciyərimi görürəm. Qurani-Kərimdə, "Ey iman gətirənlər! Nə üçün etmədiyiniz şeyləri danışırsınız" mənasında olan ayənin təfsiri belədir: Bu ayə qəti olaraq möminlər haqqındadır, onları maraqlandırar. Əgər buradakı xüsusiyyət onun haq- qında isə nə deyərsən? "Nə üçün danışırsınız?" ifadəsi qısqanclıq qay- nağından gəlmiş olardı. Onlar öz teştlərinə başqalarının tortasını doldur- mağa heç razı olarlar? O halda, "eləmədiyiniz şeylər", buyurulmasının yeri olardımı? Yetər ki, səbəb olsun. Bunlar bir icmadır ki, onlara iki axça verib, kasanı doldurub götürə bilərsən. Bu nə deməkdir: Qatırın acından sümükləri çıxmışdır. Sözündən başqa halı da dəyişdi. Halı ilə birlikdə nitqi də düzəldi. Artıq bir şey danışmaz. Bu tənə onlar üçündür. Siz nə üçün halınıza uyğun olmayan bu sözləri söylədiniz? Deyərlər ki, xeyr, mən bu hal əhlinin qulu, köləsiyəm. Onların eşitdiklərini eşidənlərdənəm. İş belə olanda, sizə mübarək olsun! Bu çox fəna bir haldır, "özünlə oyun oynayırsan", deməkdir. Kişilik odur ki, düşmənin oyununu görə biləsən.

Sözə başladı və dedi ki, danışdı və danışırıq. Bunun, nəhayət, sə- nin oyunun olduğunu görürsən. O gecə onu cağırmadıqlarına görə in- cimişdi. Məni də evdə zəif biri var deyə çağırmışdılar. "O kimdir" deyə soru-

şarlarsa, “buraya gəlməsini istəmədiyim bir adamdır” deyərsən. Ona bir pəri verdim ki, həqiqi dünaygörüşlü olduğu üçün gəlmədi, uçub getdi, məni xilas elədi. Amma nəhayət, bu qanadı sənə mən verdim. Lazım idi ki, indiyə qədər yerində qalmış olsun.

Allah bizim öz aramızdadır. Bu işarəti dinlə! Görürsən ki, şahidlər, məclisdəkilər məndən uzaqdadır. O gecə onun qəlbində parlayan nurun təsiriydi. İstədim, ondan soruşam ki, “kim nə dedi, ona güldün?” Sərt bir baxışla baxdım. Amma özümü ələ ala bildim-qəzəbim soyusun deyə, çünki xəstəydi. Ötən gün də ona gülərək söz atdım. Əgər bu doğru bir baxış olsaydı, iş asan idi. Bununla bərabər çətindir. Torpaq altındakı na- zəninlərdən bir neçə tayfamız var. Elə nazəninlər ki, qaranlıqdadırlar. O başqa məsələdir. Mənim sultanlığımda bu cür şeylər olur. Bu saatda nə var ki, natiqin qılıncı kimiyəm! Nə kəsərəm, nə bataram. “O bilib sükut etdiyin şeyi bu saatda görərsən” dedi. Ondan soruşdum: Nə deyirsən? Mənim xatirimə ona lazım olan şeyi bir dəfə söyləyə bilməzsənmi? Bəli, mən çağırdım, mən danışdım. Əlaəddinə “kərmə” dedim. Məndən çox

incidilər. Ondan soruşdum. “Sən mənə belə deyirsən: Kiminlə çağırdın?

Necə çağırdın? Səni belə xoş qarşılayanda nə etdim ki, məni təqdir ed- irsən?”

Əxiyə deməmişdin ki, Şəmsəddin sizdən danışır? O bizdən atılmışdır. O, Xacəvi deyilən,  qılı qırx eləyən, fəqr mərtəbəsində tək olan alimdən bir neçə dəfə daha yaxşıdır. Mən məclisə gəldiyiəm zaman əlini ağzına qoyar, “susun, biz nə bilirik”, deyər. İndi dedim ki, bizim aramızda bir mükəmməl bilici lazımdır ki, bu məsələləri kəsib atsın, o ayırd eləsin. Amma o bilici kənardan olmalıdır. O nəyə qərar verərsə, inayətə baş əymək, qərara hörmət eləmək lazımdır. Yoxsa onun azacıq da bir gücü olmaz. Amma burada qərar iş arasında verilə bilər, iş arasında əl çalan- lara, gəmiyə adlayanlara, şahmat oynayanlara, hamısna hökm verən o bilici olmalıdr.

Bir şeyx bir gün əlində bir alma tutmuşdu. Zeynəddin Kəlusidən soruşdu və dedi ki: “Mən Allahı gördüm, Ondan bir alma istədim, mənə verdi. Sən Allahdan nə istəyərsən? Bəyazid Bistami Allahdan Allahı istədi, filankəs filanı istədi.” Zeynəddin də dedi ki, mən də Allahdan Allahı istəyirəm. “Elədirsə, sən Bəyazid mərtəbəsindəsən”, dedi.

Mən uşaq idim, məndən soruşdu. Mən də başımla işarə elədim, “səni istəyirəm”, dedim. Başımı aşağı saldım, artıq heç nə demədim. Bir daha ağzım açılmadı. Amma bütün içim sözlə, deyimlərlə, mənalarla dopdolu idi. Elə əcaib bir hala gəlmişdim ki, bu hal uşaq yaşında çox az şəxslərə nəsib olar. Xorasandan gələn ustadlardan biri tərəfindən mür-

şidə bir qəlb açıqlığı gəlmişdi, ona bir şey açılırdı. Mənə yanıma gəl, "mənim atam ol", deyirdi, məni buna məcbur edirdi. Onun uşaqları üçün oldum, nə edim, onun xətası olmuşdu. Bu saat xəstələrin yanına getsək, onlara rahatlıq gələr. Çünki Allah-təala qarşına nə çıxararsa, onu özünə bir səadət sanarsan.

Bizim nazənin qullarımızdan biri münasib olmayan bir icma içində dustaq düşmüşdür deyə məni göndərdilər. "Ona bir ziyan gələrsə, bədbəxt olar", dedilər. Əgər iki dost bir-birinin yanında, yaxıd üz-üzə oturub danışarlarsa, o məhəbbətin dadı ilə, onu uzaqdan seyr etməyin dadı bir olarmı? Amma o uzaqlıq əgər səndə könül səfasına görə arada maneə olmursa, onun zövqünə görə yaxınlıq zövqü harada qalar? Bir şəxs ki, uzaqdan rahatlıq taparsa, yaxında necə olar? "Filan yerə gedək", deyərlər ona. "Hələ bir soruş", deyər, "Şəmsəddin ordadırmı? Əgər yoxsa, indilik işim var…"

Filan zərgər  dedi ki, sənin haqqında nalayiq sözlər danışdıqlarını eşitdim. Onu tərifləmyə başladı, mən onu tərifəlyəndə, "o necə olar", dedi və əlavə etdi ki, "sən belə deyildin, ancaq onun söhbətinin bərəkəti ilə belə oldun". O səni aşkarda acılayır. Barmağımla toxundum, beləcə əyildi və dedi ki, sən söhbətə layiq bir insansan. Mən o an sıçradım və dedim ki, gər xəlvət olsa, yalnız ikimiz bərabər olsaq, mənə on başmaq vurarsanmı, hər açılışda daha parlaq bir hala gəlim. Sən mürşidlər haqqındakı sözlərinlə söhbətə ən layiq bir zatsan. Ona inanmışdım, eşitmişdim ki, böyük alimdir. Amma bununla deyil. İndi yaxşı söhbət et, istər məsciddə olsanız, oraya gəlsin, sizi görsün və məni də təriflәsin.

Mənə dedi ki, o, yaxşı olar, amma filan zərgər də şeyx olmuşdur, nə deyirsiniz? Hər kəs öz məqamında böyükdür. Amma onunla nə əla- qəsi var? Bu heç kim haqqında yersiz danışmaq deyildi, bizə görə onun Aləmi başqadır. Dərviş xam xəyallar ardınca düşüb. Bir yerdə ki, şeyx dəliqanlıdır, ona kamilləşməsi üçün illər gərəkdir. Necə olar, ərlərə xid- mət edər, gecə-gündüz yanıb-yaxılar? Tavaya atılmış sığır yağı kimi, qoxusu keçdikdən sonra qıpqırmızı olar? Allah dostlarının rəqsi lətif və xəfifdir. Su üzərində yarpaq kimi yeriyərlər. İçəridə dağ kimi, yüz min dağ kimi ağır, bayırda saman çöpü kimidirlər. Haqq mənim əlimdədir, amma mənimlə birlikdə deyil. Xütbədə oxuduğun bütün Allah sifətləri haqqında belə deyilir: "O, elə bir görücüdür ki, heç bir şey onun dünyagörüşündən gizli deyil. Bəli, bütün bu sifətlər, görürəm ki, mənim sifətlərimdir."

Şeir:

İçi fəsad dolu bu köpəklərdən sizə utanc gəlməzmi? Siz bu noxtasız eşşəklərdən heç utanmırsınızmı?

O biri dinin bəzəyidir, amma küfrün də rəngi və qoxusu, O biri mülkün qüruru, amma ölkənin üz qarası, utancı…

Bu halda yüyən gərəkdir ki, diqqətlə çəkəsən, indi başqa bir şair də belə söyləyər:

Beyt:

Alim ilə cahil arasındakı fərq ancaq bu qədərdir:

Birinin yüyənini çəkərsən, o biri başıboş və noxtasızdır.

İndi hardadır o yüyən çəkmə. İndi məni öz halıma burax! Ona ən azı zahir baxımından yemək-içməyi qadağan edərsən. Çox fikirləşirəm, amma lazımdır ki, mənə heç ayaq bağı olmasın, yemək-içmək düşüncəsi, paltar və köynək dərdi olmasın. Yəni sizin qabağınızda olmasın, birlikdə

olaq. Bir vaxt xidmət etsən, bax bu çirkin bir şeydir, şübhəlidir də. Qul üçün bundan daha yaxşı bir sığınacaq varmı ki, əlini Allah dostlarının əllərinə uzadıb qurtuluşa yetişməsin?

"Dərvişin hər iki cahanda üzü qaradır"," buyurulmuşdur. Əgər doğru deyirsən, xalqı nəyə dəvət edirsən? Üzü qaralığamı? Əgər yalan deyirsən, sənin şapalağın bir şey deyil. Başqa biri, "dözümlü ol", deyir. Söz Allah sözüdür, Allah sevgililərinin sözüdür. Əlaəddinə şahmat taxtası alma! Mövlananın dostusansa, bunu eləmə! Çünki onun elm öyrənən vaxtıdır. Onun vaxtı azdır. Gecələr yuxu yatmır. Ancaq gecənin üçdə ikisini, yaxud daha az bir vaxtını yata bilir. Hər gün gərəkdir ki, bir şey oxusun, bir sətir belə olsa da, bu lazımdır. Amma eşidərsə, məndən inciyər. Mənə, "işimi öyrədir", deyər. Bu səbəbdən Haqqı düşmən bilərlər, işlərinə yaramayan doğru sözü dinləməzlər. Onlara bir iş qorxusu gedər, hürkərlər. Bu, çox qəribə işdir. Bəzilərinə vaxt keçirmək xoş gələr. "Qaranlıqda yeriyən yolunu azar", deyiblər. Bütün vücudu dil kəsilmişdi. Sorğuda-cavabda tərbiyəsizcəsinə davrandı. Haqq aləmindən heç xəbəri yoxdu.

Sizdən sonra nə malını satan satış alacaq, nə də mal alan müştəri alacaq mal tapacaqdır. Dərviş Səma zamanı başqalarının geyinmədiyi paltarları geyinər. Namazda da başqa vaxt geyinmədiyini geyinər. Su dağıdılan yerdə mənə bir kövrək səs ilə bunlar ilham olundu. Onunla mənim aramda köhnədən bəri bir həkim var ki, o başqalarına söz verər, sözündən dönərdi. O belə yerdə necə olar? Peyğəmbərlərin, övliyaların aradıq-

ları vəcd (ilahi sərxoşluq) halını onlara başa salsaydım, məst olar, nəşələnərdilər. Haqq onların üzlərində, vücudlarında parlayar, anlarda açıq-aşkar müəyyənləşərdi.

Şiraz dərvişləri bir az insafsızdırlar. "Ancaq işi yaxşı getmədi", deyərlər. Vaxtı gələndə qəzəldən sonra rəqs edəcəksən deyə qərarlaşdırırsan. Bunda da çətinliklər çıxararlar qarşınıza. Nə cür nəfəslər verər, başınızı aşağı salar, deyəndə söz danışmaz, qəzəl oxumaz. "Bu necə rəqsdir", desəniz, "yandım bu iztirabdan, dözə bilmədim", deyərlər. Allah, "Mən sənin tərəfini bu iş üçün tuturam," buyurur. Dərviş də, "Ya Rəbbim! Yandım artıq, bu qulundan nə istəyirsən?" deyir. İndi ki, yanırsan, bu, cövhəri sındırmaq hekayəsinə bənzəyir. Dilbər aşinasından soruşar: "Cövhəri nə üçün sındırdın?" Sevgilisi cavab verər: "Mən cövhəri məndən soruşasan deyə sındırdım." Bu sirr içindəki hikmət buradadır. Rəhmət dəryası daim coşmaq, dalğalanmaq istəyər. Bunun səbəbi də sənin yalvarmağın, ağ- layıb, fəryad etməyindir. Sənin qəminin buludları gəlmədikcə, ilahi biliyi- nin dənizi dalğalanmaz, coşub-köpüklənməz.

Şeir:

Ana körpəsinə süd verərmi, söylə, Körpə ac qalıb ağlamayınca?

İçində və çölündə baş verən dəyişiklikləri görməyən, görməkdə, eş- itməkdə və ağıldakı hikməti anlamayan, aləmin necə idarə edildiyində şübhəsi olan şəxslər, bütün peyğəmbərlərin möcüzələri, övliyaların kəramətləri ilə vəhy və ilham gətirmələrini anladığı halda, hələ də şübhəsi olanlar deyərlər ki, görəsən nədən mənim qismətim gecikdi? Yaxud bu iş nədən belə olur? Özündənmi olur? Allahın istəməyi yetərmi? Sonra əgər Allahın mərhəmətli, alim və güclü olduğunu bir aciz görərsə, işi qəbul edər.

Bir icma Fərat çayının mənbəyini görməyə getdi. Tam iki il yol getdilər. Nəhayət, çayın bir dağın başından çıxdığını gördülər. Biri o an, "nə gözəldir", deyə tullanıb suya atıldı. O biri onun arxasınca atlandı. Bəzilə- rini (onlara nə olduğunu Allah bilər) deyəsən, aşağı çəkdilər. Başqa nə ol- malıdır? Bəziləri də geri dönüb xəbər gətirdi. Dedilər ki, oraya qədər get- dik, amma yoldaşlarımız bizdən əvvəl getmişdilər. Başqa bir şey bilmirik. Dənizə dalan qurbağa kimi səs çıxardılar. Adamların anaları, qardaşları yığıldı, heç cür bu işə razı olmurdular. Necə ki, qaz balaları yumurtadan çıxınca, anaları quruda gəzərkən balaları da anaları ilə birlikdə dolaşar, dənizə girəndə də bərabər girərlər. Su kənarına gələnlərdən bunları gö- rənlər, "vay balalar getdi, boğuldu", deyərlər. Zaman-zaman dostları xa- tırlamaq nə qəribədir. Sən də bu ayıqlıq məqamında məst olub qalma!

Olsun ki, onun məqsədi odur. Yəni istiğraq (ilahi hala dalmaq) mə-

qa- mında qalma, daha üstün bir mərtəbə və məqam istə! Amma, xeyir, bu, onun işi deyil. O, yerində sayar, başqa bir iş görə bilməz. Əgər o yüksək mərtəbəni istəsəydi, o mərtəbə şərabla dolu bir küzə kimidir. Onu boşal- darsan, qədəhə dolar və deyər ki, yenə sənin yanında olum, başqa bir yerə gedə bilmərəm. Halbuki, onun küpü, onun kimi yüzlərlə dolub-bo- şalmışdır. Amma təkcə küp daşın qarşısında aciz qalar. Lap aydın bir həqiqətdir ki, küp daşdan daim çəkinər. Sındırılarsa, əslində qırıqları ye- rində qalar, amma içindəki bərbad olar, ətrafa yayılar və bulaşar. Yəni sirr küpün fitnəsidir, anlara açıq və susdurucu bir cavab vermək lazımdır. Çünki sükutla verilən cavabı anlamazlar. Yəni, "xoş gəldin", "gülə-gülə", "səfa gətirdin", kimi açıq sözləri anlayarlar. Quranda "Görmürsənmi, sə- nin Rəbbin kölgəni necə uzatdı?" anlamındakı ayənin yozumu nədir? Sonra "Allah səmaların və yer üzünün nurudur" anlamındakı ayə nə de- yir bizə?

Misra:
Könlüm elə bir yerə düşdü ki, heç soruşma!

Əgər məndən faydalanmaq istəyirsən, gizlicə alçaq könüllülük göstərib, Firon kimi tək qaldığın zaman "Allahım! Sən mənim Rəbbimsən, mən də Sənin qulunam!" deyib gündüz isə xalqı toplayıb, "Həqiqətən, Mən sizin ən uca Rəbbinizəm!" (ən-Naziat surəsi, 24) demə. Zahirdə də, batində də "xeyr" demək lazımdır. Cavabda bir az düşünüb, o vəzir kimi xətaya düşməyək. Tələsmək şeytan işidir. Tələsənlər naxış və surətdən başqa bir şey görə bilməzlər. Çünki onlar həmişə görünüşə baxar, naxışı və surəti görərlər. Günahlarına görə də məğfirət diləməzlər. Tövbə Adə- min və övladının sifətidir. Xətada, günahda durub inad eləmək də iblisin və onun balalarının sifətidir. Allah ona "and iç" deyəndə, o, "başın haqqı!" deyə and içər.

Sarayın baş aşpazı şahın üstünə yemək dağıdır. Şah, "asın bunu",

- deyə əmr edər. Adam qalan yeməyi də şahın üstünə tökür. Bu səfər xo- şuna gedər və gülməyə başlayar. "Bunu nə üçün elədin", - deyə soruşar. Aşpaz, "madam ki, məni asdıracaqsan, elədiyim xəta əhəmiyyətli bir şey deyildi, barı daha böyük bir iş eləyim ki, asılmağa dəysin", deyər.

Bu gün o aşpaz tövbə etsə belə, gördüyü xəta yenə xoşuna getməzdi. Bu xəcalət verici hal ana və atandandır. Çünki onlar məni bu qədər naznemət içində bəslədilər. Pişik kasanı aşırdı və sındırdı, atam da yanımda idi, heç bir şey demədi. Ancaq gülərək, "oyun oynayırsan, gözəl", deyə bildi. Amma bu, bir qəza idi. Pişik sovuşdurdu. Əgər sənin və mənim, yaxud anamın başına bir qəza gəlsəydi, nə olacaqdı? Allah səni və məni buna görə qorudu, bizə bir cilvə göstərdi.

Şeir:

Oxşaya-oxşaya şəkər qamışından şəkər hazırlayarlar, İpəkqurdundan zaman-zaman atlas düzəldərlər. Elədiyin işi yavaş-yavaş elə, bir az səbrli ol,

Üzüm qorasından bir gün gələr, halva bişirərlər.

Ey səhər yeli! Bir səmtdən xəbərin varmı?

Bir ay üzlünün yanağından nə xəbər gətirdin? Çalıb-çağırdığın, hay-huy etdiyin günlər varmı?

Ey rüzgar! Daha yavaş əs, çünki gözəl ətir saçırsan!

Bu saat aləmdə Qütbi (sufilikdə ən yüksək dərəcələrdən biri - R.M.) odur. Bir gizli həqiqəti açıqlayıram. Aləmin dörd bucağından onun torpa- ğını öpmək arzusunu bəsləyənlər, başlarını onun ətəyinə qoyub, geri dö- nənlər var. Bir Allah dostu bir illik yoldan onu ziyarətə gəlmişdi. Üzü gü- nəşdən yanmış ziyarətçi onun qapısını öpdü, içəriyə girə bilmədi. Başqa biri əziz, uzaq yolu basaraq gəldi, ətəyini öpdü, o an, eyni gündə geri döndü, izn almasına imkan qalmadı. Mən bu adamdan ummazdım ki, danışsın. Mən danışdım. Dedi ki, ona axmaqlıq deməzlər. Bəli, onunla danışarkən, "indi burada bir mən varam, bir də bu divar var", dedim. İndi ki, divarla danışırsan, mənimlə də danışmırsan, o halda kimində danışır- san. Lütfən, başa sal!

Biri mənə deyirdi ki, bu, məntiq alimidir. Gülməyə başladı, sonra qəzəbləndi, tərləməyə başladı, başını aşağı salıb, "bu kişi nə deyir, məntiq alimidirmi", dedi. Bir zaman deyirdim, fərz et ki, mən burda yoxam, bax hər kəsin qovğası da bundan çıxır. Nə üçün olmayasan burada? Yalvardı, "birlikdə gedək ki, uşaqlar sənə alışsınlar", dedi. "Bəli", dedi, "amma mənə nəzakətdən, yaxud pislikdən bir səadət yetişməz". Mənə belə yerlər, pul və rahatlıq lazım deyil. Mən bunlardan qaçdım, usandım bu hücrəyə sığındım ki, məni qapıdan görsünlər. Mən bayıra çıxım, səhər açılana qədər onun tökdüklərini, çirkabını süpürüm, səssizcə orada oturum. Qəfildən bir şey eşidildi. Başlarını əydilər. Üzr diləyərək, "xeyr, xeyr", dedim. Əgər mən yaxşı insanamsa, mənim məqamım bura olar. Gecələr taxta çıxıb oturaram, kimsə mənə, "sən yaxşı iş görmədin, belə elədin, elə elədin", deməz. Ona "yaxşısını verin" tövsiyə etdin, amma mən oradan almadım. Getdim yaman sözlər dedim. Eşitdilər, "görəsən, divanədirmi", deyirdilər.

Ramazan boyu beləcə bizi yüz insan dəvət etdi. Hər biri, "bizimlə bir

gecə iftar edərsənmi", deyirdi. Bəzilərindən imtina edir, evin salamatlıq tərəfinə getməsini tövsiyə edirdim. Əgər sözləşilən vaxtda gəlirlərsə, söyləyin ki, bir başqası götürdü. Sənə gələnə qədər çox namaz qılması lazım olur.

Mən vaxtı ilə ikiüzlülük edərdim. İndi edə bilmirəm. Bax, Əlaəddin (Əlaəddin Keyqubad nəzərdə tutlur - R.M.), sabah da Sədrəddin Səcasi danışacaq. Cəlaləddin də danışacaq. Bu çox ağır bir vəziyyətdir. Əgər söz onun sözü isə, bu nə olar? Əgər söz bunun sözü isə, o biri boş sözdür. Bu sözlər heç kimdə yoxdur. Bütün cahanı qəlbinizdən keçirib, axtarsanız, belə bir mürşidin izini-tozunu tapa bilməzsiniz.

Müəllimlik edirdim. Vəzirlərdən birini də işindən çıxarmışdılar, o da müəllimlik edirdi. Padşaha xəbər verdilər. Ətəyindən yapışdı və soruşdu. Nuh Peyğəmbərin (ə) vaxtında dünya abadlaşmışdı, elə ki, bir şəhərdən bir şəhərə getmək üçün bir gündən daha az yol gedirdilər. Əgər bu yol uzunluğu bir gündən artıq sürsəydi, çox heyrət edirdilər. "Çox uzaqdır", deyirdilər. Nuh Peyğəmbər (ə) qövmünü min ildən əlli il az bir zaman içində imana dəvət edərdi. Hər gün bir neçə istiqamətə gedərdi. "Bu necə olar" deyə izah edirdilər. Min ilə yaxın bir müddət yaşamaq necə olar? Filosoflar deyirlər ki, yüz iyirmi ildən artıq yaşamaq, əlbəttə, mümkün de- yil. "Amma mən açıq şəkildə onların sözlərini qəbul edirəm", demirəm. Min il imana dəvət etdi, hər gün bir səmti beş dəfə dolaşırdı, onu döyüb yaralayırdılar. "Cəbrail qanadını ona sürtən kimi yaraları sağalardı" kimi bir çox təfsirlər verdilər. Nuh (ə), əlbəttə, dəvətdən vaz keçmədi. Bunun əvəzində yetmiş insandan artıq kimsə də onun dininə gəlmədi. Müxtəlif rəvayətlər var. Amma onlardan ən gerçək və doğru olanı budur. Bəli, dəvət doğrudur. Amma mənim üçün onun qəbulundan nə çıxar? Dedi: "Nəhayət, düşünmürsən ki, bu sözə nə üzr tapacaqsan?" Dedi ki, "onun boynunu, əlini, ayağını ustadın dəyənəyinə təslim edək. Bunu düşünməyə, bəhanə axtarmağa nə lüzum var?" Susaq, dözək ona, Əbubəkir Rəbabi kimi səs çıxarmayaq. Ancaq hər kəsin bir xasiyyəti var. Dəvət işində biri var ki, ona qarşı sərt davranmaq lazım deyil, o birinə qarşı da çox təpki və sərtlik göstərmək istəyər.

Bu qadının qəribə bir istəyi var. Əgər o kişi olsaydı, işi tamam olardı. Bu saat onu elə vurdular ki, iki parça etdilər sanarsan. Kətançını bizim üçün öldürmüşdülər. Guya şeyx Əvhadüddin onların qarşısına gəlmiş, səcdəyə qapanmışdır. Amma o bir insan olsaydı, işi tamam olardı. İnsan olmadığı üçün onun qarşısna gəldi. Onun üçün bir maneə yoxdu. Bütün bunlarla bərabər heç bir şey deyildi. Əgər onu söyüb-yamanlamasan, susmaz, səsini kəsməz. Ancaq o söydü, yaman sözlər deyib, keçib getdi. Buna görə mən onun qəhrini uzun zamandır çəkirəm. Bizim gedi-

şimizdən qəzəblənər.

Mənim könlüm heç kimin xəzinəsi deyil. Qəlbim təkcə Haqqın xə- zinəsidir. "Burada dəvəçi qılığından necə yaxa qurtarım", deyər. Bayıra atıram, başqalarının düşüncəsi də başqadır. Buna güc çatdıra bilməzlər. Ancaq şahın xəzinəsini də öz xeyirlərinə xərcləyə bilməzlər. Onlarda o baxımdan bir qüvvət var. Ağılları başlarındadır, bax o hal Həzrət Məhəmməd Mustafanın (s) halıdr. Çünki o Həzrət özlüyündən dalğınlıq aləminə dalmadı. Bəlkə bütün işlər ona müəyyən və açıq-aydın görünərdi. İndi kimsə sanırmı ki, bu oyanıqlıq, o istiğrak, yəni ilahi dalğınlıq ha-

lından daha aşağıdır. O ilahi dalğınlıq bir çoxlarında da var. Hələ bunda başqa bir lətafət var ki, bütün dalğınlıq hallarında bulunar. Sonra təkrar bütün işlərində oyanıq qalarlar. Necə ki, Həzrət Peyğəmbər (s) o hal- dan başqalına bir zərrə damızdırsaydı, əlsiz-ayaqsız qalardılar. Necə ki, Həzrət Əbubəkr (r.a) də ondan yeddi hədisdən başqasını rəvayət etmədi.

Məgər onlara pis ilə yaxşının, kafirlə müsəlmanın kim olduğu açıqlanmaz. Müsəlmanlıq doğru sözdür. Yüz min lənət o cariyəyə olsun ki, onu yüz min altuna alsan belə, yenə birisinə cəfa verər. Mənim yanıma gətirərlər ki, işgəncə versinlər. Buna heç mənim könlüm razı olarmı? Əgər buna gücüm yetsəydi, sonu daha yaxşı olardı.

Şeir:

Bir şəxs ki, gül yerinə tikan və kol əkər,
Ona minbər deyil, dar ağacı yaraşar.

Dünyanın yaradılışında məqsəd üzlərini bir-birinə dayayan iki sevgilinin həvaü-həvəsdən uzaq, yalnız Allah yolunda birləşmələridir. Onların axtardıqları çörək, çörəkçi və qəssab deyil. Necə ki, mən də bu saat Mövlananın yanında rahatam.

Yolunu Azan Bəyazidin Hekayəsi

Bəyazid elə bir şəhərə yetişmişdi ki, yalnız özünü itirib, yolunu azmış deyildi. Həzrət Musa (ə) kimi, ona uzaqdan bir işıq alov şəklində görünmüşdü.

Şeir:

Mömin pərvanəsi, nuru arayım, deyərkən,
İşi pozuldu, nur əvəzinə atəşə düşüb yandı.

Burada iş tərsinədir. Necə ki, şeyx, "xalq kilsədən geri döndümü", demişdi. Yəni onlar əsla məscid üzü görməmişdilər. Onlar hara, məscid hara? Bunun mənadan danışmaqla nə əlaqəsi var? Kağız üzərində bir ad yaz, o adı sonra onun yanına apar. Müsəlmanlardan kənar bir icma ona "kafir" dedi. Məni dəvət etdilər. Onlardan üzr istədim, kilsəyə gedirdim. Orada dostlarımdan bir qrup kafir vardı. Amma zahirdə kafir görünürdülər, iç aləmlərində müsəlman kimi yaşayırdılar. "Bir şey gətirin, yeyək", dedim. Min dəfə təşəkkür etdilər, yedilər, beləcə oruc tutdular.

Ey dəyərli alim Mövlana, səni tərifləməyə lüzum yoxdur! Sən də təriflənməyi tərk et! Bunu ona görə deyirəm ki, Mövlananı tərifləməkdə onun rahatlığı üçün bir səbəb tapılsın. Onun xoşuna gələcək bir vəziyyət olsun, çatışmayan bir şey olmasın. Sakit ol, ona bir şey eləmə ki, xətrinə dəyməsin, inciməsin. Məni incidən hər şey həqiqətən Mövlananın da qəlbini qırar. Onu böyük bir şeyx həmişə ziyarətə gəlirdi. "Bizə qonaq gələrsənmi" deyərdi. "Heç olmasa, bir saatlığa gəl səni görək" deyə bilərəmmi?

Məcduddin ilə danışırdıq. Qarşılıqlı suallar, müxtəlif sözlərlə söhbət edirdik. Sakit ol, qəlbin inciməsin, Mövlana bayıra çıxdı. Səndən incidi. Mövlana belədir, gözləmyə tab gətirməz. Deyirsən ki, bu iş çətindir. Böyüklər nəzakətlidirlər. "Meymun balası ilə tısbağa'' hekayəsini yaxşı xatırlamıram. Amma mən də getdim, könül mənimlə birlikdə gəlmədi. Orada boş sözlər var. Qulağına bunu deyim, onlar eşitməsinlər. Gəl, əgər bir tikə bal gətirərlərsə, bununla dadı qaçar, uzaqdan eşitməzsən bəlkə, qulağına boş sözlər deyim. Bu gün lazım olmasa belə, başa salım:

Bir tənbur çalan tənburunu köynəyindən çıxarır. Hər şeydən əvvəl ye- mək gətirsinlər deyə yanındakılara, "siz çox comərd insanlarsınız", deyir. Mənə bir neçə axça xərclik versəniz, sizə tənbur çalaram. O arada kişinin başmaqlarını oğurlamışdılar. "Aman" deyir, "mən sizin yeməyinizdən vaz keçdim, qonaqsevərliyiniz də siziə qalsın, barı başmaqlarımı verin, çıxım gedim işimə." "Bura məsciddir", dedilər. "Vay, vay", dedi. "Neçə gündür yuyunmuram, tez tənburumu da verin, buradan gedim.''

Sultan Mahmud Qəznəvi və Dəyirmançının Hekayəti

Sultan Mahmud Qəznəvi qoşundan geri qalmışdı. Yol kənarındakı bir dəyirmana girdi, dəyirmançıya salam verdi. Yeməyə bir şey istədi.

Də- yirmançı çığırdı: “Bu adam qəti çörək istəməyə gəlməsin. Bu ağır, zorba adam hardan gəlir?” ”Bu gün bir az artıq çörək var, yeyərsənmi”, - deyə dəyirmançı soruşdu. “Gətir”, dedi. Dəyirmançı gedərkən peşman oldu, geri döndü. Olsaydı, özümüz yeyərdik, çörək qalmayıb. “Çörək yoxdu, un var, yeyərsənmi?” “Bəli, nə var gətir!” Kişi yenə gəldi, öz-özünə “yazıq” dedi, “bu adamın qarnı o qədər acdır ki, unu belə yeyəcək.” Bu dəfə təkrar döndü, “amma dən qarışıqdır”, dedi. Sonra yenə gəldi, “üyüdülən un yetim malıdır”, dedi. Nəhayət, tozlu bir keçi dərisi gətirdi və şahın üstünə atdı. Yeməyə qalan ancaq budur, deyib onu inandırmaq istədi. Sonra dedi: “Mənə elə gəlir ki, gözlərin də yorulub.” Bir çayın kənarına gətirdi onu.” Üzünü yu”, - deyə iki əlindən tutub, onu çayın kənarında

oturtdu. Şah oradan ayırldı. Yolda bir uşağa rast gəldi. “Yeməyə bir şe- yin varmı”, soruşdu. Uşaq, “var, amma əvvəlcə salam ver, sonra da qo- naq istəyirsənmi, deyə soruş”, cavabını verdi. Sultan Mahmud öz-özünə, “vallah, bu uşaq düz deyir”, dedi. Atının yüyənini yavaşca çəkdi, geri döndü. Uşağa “salaməleyküm” dedi. “Əleykümsalam, atdan düş, qo- nağımız ol, sənə çörək, qaymaq, süd, pendir, nə varsa, gətirim”, dedi. Şah bunları yedi. Uşağa, “al bu üzüyü, bundan sonra mən şahın yaxın- larındanam deyərsən. Ola bilər ki, şahdan sənin üçün bir şey alım, əgər verməsə, özüm alıb sənə verərəm”, dedi. Üzüyə baxanda, “vay, vay”, dedi uşaq, niyə mən bir qoyun kəsmədim, nə elədim mən? Nə qədər bu düşüncələrə qapıldısa, işi daha yaxşı getdi. Mərtəbəsi yüksəldi. Şah əs- gərlərinə yetişdikdən sonra arxadan uşaq gəldi, üzüyü onlara göstərdi. Hamısı üzüstə döşəndilər. Onu hörmətlə qarşıladılar. Uşaq onlara baxır, bütün bəylər, vəzirlər sıraya düzülmüş, şah süvari əsgərləri və zabitləri ilə ayaqüstə durmuşdu. Onlarla üz-üzə gələndə hamısı bir ağızdan, “bu hansı mahalın bəyidir”, - deyə aralarında danışdılar. Şahı o geiymdə gö- rəndə çaşdı, bir “Lahəvlə” nidası çəkdi. Təkrar ətrafına baxanda başa düşdü ki, şah budur. Bir ah çəkdi. Şah danışmağa başladı, uşaq ürəyində yenə, “vallah, şah budur”, dedi.

Şah əmr etdi: “Qızıl kəmərli qırx kölə gətirsinlər onun yanına!” Sonra buyurdu ki, həmin dəyirmançını da gətirin, onun da qəlbini sevindirək. Silahlı yüz süvari yola düşdü. Kəndin və dəyirmanın əlamətlərini onlara başa salmışdı. Uzaqdan baxanda bir dağın ətəyində onu gördülər. Birin- dən soruşdular ki, dəyirmançı budur? “Bəli”, dedi. Kişi, “ay aman, gəldi- lər”, deyib qaçdı və qapını bağladı. Qapını döyəndə də səsini çıxarmadı, “öldüm”, dedi. “Sən necə ölüsən ki, danışırsan?” Dəyirmançı dedi:”Bu, nəfəsdən başqa bir şey deyil, artıq o da bitmək üzrə, mən ölüyəm artıq.”

”Qalx”, dedilər. Qalxmadı. Qapını sındırdılar, içəri girərək yenə, “qalx”, dedilər. “Səni şah çağırır.” Dəirmançı yalvarmağa başladı: “Ey böyük və hörmətəlayiq insanlar! Mən hara, şah hara? Mən zavallı bir dəyirmançıyam. Şahın buğdası varsa, buraya gətirər, onu üyüdərəm!” Uzatma, dedilər, qalx, tez ol, səni şah çağırır. “Amma çox yaxşı üyüdərəm.” “Qalx, çox danışma” dedilər. Dəyirmançı, “sizə un verim, sac çörəyi, qaymaq verim, bu günə qədər Sultan belə onu sizə verməyib”, dedi. “Bu gün yüz adamı qonaq edirəm.” “Qalx, sayaqlama, qalx” dedilər. Yenə qalxmadı, boynuna bir ip bağladılar. Çəkə-çəkə apardılar. Kişi ətrafı süzərək, qonaq çağıranı axtardı. Amma onu görə bilmədi. Ancaq Sultana, “əgər yüz kəlləm olsa, birini belə qurtara bilmərəm”, dedi. Sultan “mən səni gətirtdim ki, su quyusuna düşmüş üzüyümü tapasa.” dedi. Gizlicə yanındakılara söylədi

ki, kişini möhkəmcə bağlasınlar, üç gün, üç gecə ipi açmasınlar, aclıq nədir başa düşsün. Dəyirmançı hər gün beş kilo çörək yeyirdi, cəhənnəm kimi qanı vardı. Üç gün çörək tapmayıb, artıq ölümünü gözləyirdi. Üç gün keçdikdən sonra, “onu gətirin”, dedilər. “Qalx, bayıra çıx”, - deyə səslədilər. “Artıq məndən nə istəyirsiniz, bir quru canım qalıb, imkan verin ölüm”, dedi. “Xeyr”, dedilər, “sən elə adamsan ki, bir dəfəyə ölüb qurtula bilməyəcəksən.” Dəyirmançı fəryad eləməyə başladı. Şahın hüzuruna gətirdilər onu. Şah, “de görüm, darını dənə-dənə yeyərsənmi”, - deyə soruşdu. “Elə yeyərəm, əlimə nə keçsə, yeyərəm”, dəyirmançı zarıdı. “Yaxşı quş əti də var, bişirib zirə də qatıblar, şəkər və xurma da olsa, yeyərsənmi?” “Ah, hardadı onlar?” “Südlü sıyıq da var, yeyərsənmi?” “Elə yeyərəm.” “Əlimizə keçsə, biz də yeyərik bunları.” Beləcə bir çox dadlı yeməkləri sadaladılar. Dəyirmançı, “Şah sağ olsun, məni öldür”, - deyə yalvarmağa başlayanda, padşahın mərhəmət hissi baş qaldırdı. O, mərhəmət hissinin təsiri ilə Ömər Xəyyamın bu beytini xatırlatdı.

Beyt:

Mən pislik elədim, sən də pis mükafat verirsən,
Bu halda mənimlə sənin aramızda nə fərq var, söylə!

Şah gülməyə başladı. Min dirhəm bağışlamağı, bir neçə bahalı paltar verməyi, dəyirmançını gülərüzlə yola salmağı əmr etdi. Sonra, “onu geri çağırın”, dedi. Arxasınca çapdılar. “Gəl”, - deyə çağırdılar. “Məni aldatdı, amma bəlkə daha betər bir bəlaya uğradacaq”, dedi. Çağıranlara yal-

varmağa başladı. “Barı bu qızılları alın, canımı bağışlayın.” “Gəl, orada cavabını ver”, dedilər. Şahın hüzuruna gətirdilər. Şah belə buyurdu: “İndi mənimlə bir razılaşma bağlayacaqsan! Bundan sonra öz boğazının ke- finə görə başqasına bir şey verməsən belə, barı o unlu dərini kiminsə üzünə çırpma! Az qalmışdı gözümü kor edəsən.” Dəyirmançı üzü üstə yıxıldı, ağladı və bildirdi ki, ikinci şərti də o demək istəyir. “Heç bir qonağı rahatlamağa tənbəllik edib, bundan bezməyəcəyəm”, dedi.

İndi ki, qulağıma deyirsən, söylə. Əlimi ürəyimin üzərinə qoydum. Madam ki, deyirsən, bir daha söylə! Nə qədər yedim yuxumu qaçırmaq üçün. Gecə yarısına qədər heç yuxum qaçmadı. Elə yedim, qarnım təbilə döndü. Nəhayət, “daha nə qədər yeyəcəksən, bəsdir”, dedilər. “Yuxum qaçsın deyə yeyirəm, yuxumu ver ki, yeməyəim”, dedim.

Pirlərdən biri dedi ki, hələ Mövlananın məclisindəsən. Allaha şükürlər olsun! Amma müridlər sizdən ayrılmaq sevdasındadır. Bu, onların korlu-

ğundan irəli gəlir. Deyirlər ki, bir mələk varmış, bir zaman insan oğulları

bu adamın mələyi olarmış, bir zaman da bu adamın şeytanı.

Üç dəfə bayıra çıxdım. “Gələcəyəm”, dedim. Yenə hücrəyə gedirdim, əvvəlcə bir kişi göstərdim. Yalvardılar, onu qəbul etdim. O biri də özündən qaçırdı. “O, bununla gəlməz”, dedim.

Misra:

Bu işdən vaz keçmək gərək, yaxud ədəbinə qısılmaq.

Nə xəyallar qurursan? Mən nə deyirəm? Əgər bunu söyləməsən, sən söylədiyin şey çox uzaqdır!

Bir kişi xalqın malını yeyirdi. Özünü dəliliyə vurmuşdu. Qazının yanı- na apardılar. “Ham, ham”, eləyib, it kimi hürməyə başladı. Qazı ondan, “ay kişi, səndən şikayətçi var, nə deyirsən”, - deyə soruşdu. Kişi yenə “ham, ham” elədi. Qazı, “bu, dəlidir, bunu dəlixanaya aparın”, dedi. Kişini dəlixanaya saldılar. Dəlixana onu heç sərbəst buraxarmı? Bir az sonra qazının yanına ondan daha yaman, daha sərsəri bir günahkar gətirirlər. Yüz Bağdad çarşabı, yüz top İstanbul atlası, yüz dəst başqa libası mənimsədiyinə görə ondan şikayət etmişdilər. O da “ham” deyir. Qazı, “xeyr”, deyir. “Amma ağamız, hamını təmizə çıxarır, məni əzir, ham, ham.” Qazı deyir ki, bu gün “ham” ona inkar etməyi öyrətmişdir. Qazı yenə soruşur: “Nə deyirsən?” Suçlu, “inkar edirəm”, deyir. “Xeyr”, deyir Qazı, “günahını qəbul edirsən, nə üçün inkar edirsən?” “Müsəlmanların haqqını ver!” Müqəssir, “mənə heç kimi əmanət etibar eləməsin,

qorxuram", deyir. "Amma haraya verdi? Sən deyirsən ki, o, buxaralının qapısındadır. O zaman bütün oğrularla gedib, o evə hücum edərlər. Mallar həyətdəki quyudadır, bəli, ver, deyirsən. Yaxşı, amma mən acından ölsəm, necə olsun? Bəli, ver, deyirsən, Yaxşı danışırsan. Lakin kimə? Mənim ürəyim istəyir ki, sən bundan bir azını pay qoyasan, mən də beləcə baxım. Ye, nuş olsun, üç loxma, on yeddi loxma, yaxud mənim xətrimə yetmiş loxma ye."

Misra:
Mən istəyirəm ki, üz ay kimi bəyaz olsun.
Mən imtina elədim, bütün aləmdən əl çəkdim. İndi sən də deyrsən ki, heç yaxşı deyiləm, içimdə bir narahatlıq var, yaxud bir sıxıntı var məndə. Çünki sən mənim canımın içindəsən, orada yer tutdun. Can için- də təsir edirsən. Ey əfəndi Çələbi! Bu istəklərindən, boynumuza sarılıb öpməsindən, nazımız ilə oynamağından, başqa yollardan, cilvələr gös-

tərməsindən anlayıram ki, məndə Allah tərəfindən mühakimə olunmaq nişanəsi var. O tərəfə düşməyim yaxındır. Günahları bağışlanmış qullar arasında dalıb-gedəcəyəm, bunun əlamətləri var.

Allah-təala Quranda, "Onlara ayələrimizi üfüqlərdə göstərəcəyik" bu- yurur. Bununla nə deyir bizə? Üfüqlərdə ayın iki parça olmasınımı? Yaz fəslimi? Sonra eyni ayənin davamında "..və onların nəfslərində" buyurur. Xəstəlik və ya sağlamlıqmı? Bunlar nə gözəl yozumlardır.

Ey təfsirçilər, başqa bir izaha görə də üfüqlərdəki ayələr, ayın bö- lünməsi və möcüzələrdir! Nəfslərdəki də könül açıqlığıdır. Şübhəsiz ki, o Haqdır. Yəni şübhəsiz, Allah Haqdır, Məhəmməd (s) də Haqdır. Nə gözəl təfsirdir bu! Amma həqiqət yolçuları və Allah dostları üçündür bu. Hər bir ayədə bir müjdə var, bir eşq kitabı kimi! Qurani-Kərimi onlar tanıyır. Quranın gözəlliyi onlarda üz göstərər, onlarla cilvələşər. "Şübhəsiz, o Haqdır", söyləmək, nə deməkdir? Yəni Allahın kim olduğunu hər kəs bilsin deyə "O, Haqdır, şübhəsiz", demək bir yozumdur. Qüdsi var ikən Tusini nə edək. Rəhman surəsində, "Allah Quranı ona öyrətdi" ayəsin- dən anlaşılır ki, Quranın təfsirini yenə Allahdan dinləmək lazımdır. Bunu Haqdan başqasından dinləyə bilməzsən. O şərhçilərin də təfsiri, onların öz halıdır, yoxsa Quranın təfsiri deyil. Quranın hərfi tərcüməsini beş ya- şındakı uşaqlar belə eləyə bilərlər.

Həzrət Mustafa (s) Əbu Hüreyrənin evinə qonaq getmişdi. Onun çox utancaq davrandığını gördü və soruşdu: "Nə üçün belə çəkingən davranırsan, pəhriz saxlayırsan?" "Təmiz deyiləm, ona görə", dedi. Pey- ğəmbər, "mömin pis olmaz", buyurdu. "Zərəri yoxdur, elə üzüqara durma-

ğın nə dəyəri var?"

Deyək ki, yoldan bir qızcığaz keçər, özündə bir hərəkət duyarsan. Bunu başqaları anlasa, səni tənbeh edərlər, anlamasa, sənə işinlə məşğul olmaq lazım olar. Bir rastlaşma sırasında Mahmudun anası oğlunun içkini qadağan etdiyini görür. "Nuş olsun sənə, xoşbəxt ol, oğlum, məni də bəxtiyar etdin", deyir. O, bunu eləməsəydi, inciyərdi, yataqda yuxusu gəlməzdi. Anasını, "görəsən, nə olacaq", - deyə düşünərdi. Ona ürəkdən dua edər və məmnun olar.

Qış gəlir, Şəmsəddinə bir kürk lazımdır. Bəli, çətin işdir bu. Xirqəni cırmalıyam. Bəli, gözəl deyirsən, mənə uymaq gərəkdir. Bu, mənə səndən dilənmək deməkdir. Qonaq üçün onunla daha çox vaxt keçər. İndi bir az düşünmək zamanıdır. Nə qədər piyada getmək qüvvəti var, amma qor- xuram bunu qəbul etməyə! Mən Qaymaz tərəfə gəlsəm, Aksaraya gedib çıxaram. Yolda səni tərk edib və ayrılsam, bu, mənim əlimdə deyil. Səni

evdə uşaqların yanında tərk edim. Əslində, yolda da bunu belə istədim. O zaman bizim aramızda yüz qat daha yaxınlıq olar. Bu gün ayrıldıq, amma bir zaman nələr olacağını bilmirəm. Əgər indi olduğu, kimi araya bir qarışıqlıq girərsə, bu haqqın əzmidir, demə! "Bu nə müsəlmanlıqdır", dedi. "Bunu da müsəlmanlıq say", dedim. O zaman bir şey demədin, bir neçə gün Siracın bağına getdin. O ayaqqabı sənə əziyyət verirdi. Bir söz dedin, bir neçə gün gəzdin, nəhayət, yenidən danışdın. Sonra başdan elədik, "ona and içdik" dedin. Mən elə insanlardan deyiləm ki, bir şəxs ilə bir gün salamlaşım, ona qarşı elə bir davranış göstərim. Bunu münasib saymıram. Əgər yenə bir qarışıqlıq və pozuqluq varsa, zənn etmə ki, aramızda ayrılıq qərarı verilmişdir. Ya mənə səndən bir səy istəyər, ya da sənə qarşı məndən.

Dedi ki, Allah öz iradəsi ilə hökm edər. Onda ixtiyar yoxdur. Bu sözü bütün peyğəmbərlər belə söyləmiş olsa, qəbul edə bilmərəm. "Mən belə bir Allah istəmərəm", deyərəm, istəyirəm ki, Allah öz arzusu ilə iş görsün. Mən elə bir Allahı axtarıram. Cəhənnəmdə də görsəm, bu düşüncədən utanmaram. Ona deyərəm ki, mənim axtardığım Allah sənsən. Deyirsən ki, "mən Allah üçün istədiyi kimi eləməz (yəni faili-muxtar deyil)", demədim. Elə isə sən faili-muxtarsan, istədiyini eləyən sənsən! Onu ortadan qaldır. Ona bir işıq ilə kölgə salmışlar. İstədiyini eləyəndir O. Onu aciz eləyəcək, Ona əngəl olacaq bir varlıq yoxdur. Hər saatda minlərlə cahanı məhv edər.

Bu, çox aciz və gücsüz olan kimdir? Nə iş görər ki, o işdə aciz qalar, o işi görməyə gücü çatmaz. Necə olar ki, onun ixtiyarı yoxdur, deyə bilər, içindən ona "ixtiyarsız" deyə bilərsənmi? Əgər bütün aləm Şahabın

söz- lərini qəbul etsəydi, Firon inciməzdi o sözdən. Amma mən qəbul etmirəm. Sizə uğurlu günlər! Vaxtınız mübarək olsun! Mübarək olan sizlərsiniz.

Gələcək günlər sizə mübarək olsun! Qədr gecəsi bizə qədər hazır- lamışdır. O dost başqa sözləri də bilər. Başqa danışanların sözünə də danışar. Min kəlmə söylədimi, sonra sözü tükənər. Boş oturarmı? Musa Peyğəmbər (ə) Allah ilə danışan bir söz alimi idi. Allah ona, "Məni görmə- yəcəksən", dedi. Musa (s) bir neçə addım geri dönər, sonra yenidən Ona yönələrək bir daha gələr. Ona "başqa vaxt gəl", deyər, danışmaqdan im- tina edər. Günlər bizim aramızdadır. Ayəyə işarə buyurulduğu kimi, dəni- zin suyu tükənər, amma Rəbbimizin sözü bitməz.

"Əlif" hərfinin mənası tamam olmaz. Uca dərgahdan bir əlif sıçradı. Hansı hikmət üçün bayıra atıldı o əlif hərfi. Onun hikmətinin iç üzünü yenə O bilər. "Ağıl yanılmaz", dedi. Amma yanılırdı, yenə də "yanılmaz"

deyir. Sonra "Be" hərfi gəldi, "Əlif" hərfinin yanına düşdü. "Əlif" soruşdu: "Niyə gəldin?" "Səni açıqlamaq üçün. Bir nöqtəm var, o sənin möhürünü canımın içində saxlayıram. Həmin "Əlif"in mənasıyam. Ayrılığın, ayır- manın iç üzünü söyləyirəm." "Te" gəldi. "Başımda iki nöqtəm var" dedi. "Bunları dünya və axirətə ataram." Üç nöqtəli "Se" hərfi də özünü araya soxdu.

"Cim" daha uzaqda idi - Təvriyə sənəti daha çox müəyyənləşsin deyə. Çünki onda Quran mənası var. "Cim" iki yöndən "Əlif"dən üstündür. Amma "Əlif" yolunda belinə kəmər bağlamışdır, "Əlif"ə bağlıdır. "Dal" hərfinə gəlincə, o da iki "Əlif"dir. Bir icma "Dal" hərfini düşmən bilər. Ara- larında bir-birilərinin boğazından yapışıb, davaya çıxarlar. Sən əgər xə- rabət əhlisənsə, "Ha" hərfinin nə günahı var?

Kafir küfründən danışar. O, küfründən başqa nə danışa bilər? Mömin imandan söz açar, kafir də küfrdən.

Misra:

Teşt içində nə varsa, onu sızdırar.

Saf olar, saf küfr olar. Onun kafirliyi saf olar. Vəzdən sonra aşağı enirdi. Minbərin son pilləsində durdu, şəhadət gətirdi. Öz işimizdən çox söz danışdıq. Bu ilahi xəbərdarlıq ilə qarşılaşdıq. Quranda buyurulduğu kimi: "Ey iman gətirənlər! Nə üçün etmədiyiniz şeyləri danışırsınız?" "Ya Rəbb, bizi bağışla" deyən kimi minbər yeriməyə başladı. "Ey minbər! Sənə demirəm", dedi. Minbər ağac olduğu halda, onun həqiqi sözlərindən hə- rəkətə gəlir, yəni ağac belə öz nəfsində öyüd qəbul edir və ye-

riyir demək istəmiş və onu yeritmişdir.

Allah-təalanın, həm sən istədiyini hidayətə yetişdirəsən, həm də sən hidayət verə bilərsən, sözləri arasında ziddiyyət yoxdur. Haqq sözdə buna imkan yoxdur. Sən bir yol göstərirsən, bax, doğru yol budur, deyirsən. Amma daha artığı əlindən gəlməz. “Onu o yoldan çıxaran Mənəm” bu- yurur Allah-təala. Bizə gərəkli olan bunların hər biri arasındakı incəliyi və dərəcə fərqini görə bilməkdir.

“Allaha yaxşılıqla borc verin” anlamındakı ayəyə gəlincə, Həzrət İbrahim (ə) dedi ki, mən Allaha və Rəsuluna dedim, mən hansı yalanı söylədim ki, Allah onu doğru çıxarmadı? Həzrət Peyğəmbərdən soruşdular: “Ey Allah elçisi! Mömin zina edərmi?” Həzrət Peyğəmbər belə buyurdu: “Bəli, zina edər, amma o yenə mömindir. O, imanlıdır.” Əbiddərdanın qoca burnuna rəğmən yenə mömindir. Ancaq mömin yalançı deyil. “Yəni imanla yalan bir yerdə yola getməz.” Allah həqiqi möminin yalanını doğruya çıxarar.

Bir kişi cübbəsini yırtdı. “Əbam yırtıldı, mənə əba verin”, - deyə sızıldadı. Adına fərəci dedilər. Mövlana bu qədər söz danışar, heç bir şey istəməz. “Mənim xasiyyətim budur,” deyər. Bir məzar daşında “ömür bir saatdır” yazısı var idi. Bir saat, üç saat, nəhayət, ömrün bir sonu var. Sufi üçün vaxtın uşağı deyərlər. Yəni vaxtına bağlı insan deməkdir. Bizim də ömürdən nəsibimiz ancaq bu bir saatdır. Çünki Mövlananın məclisindəyik. Ona xidmətdə keçinirik.

Mən onun dərisinə yapışmış bir böcək kimiyəm. Heç düzgün danışmaqdan, fəsahətdən* qismətim yoxdu. Beləcə, deyirdim ki, Mövlanaya Allah xeyirli mükafat versin. Xeyirli bir işə vasitəçilik etdi. Bu gün lazım olan xidmət və vəzifəni mənə işarə edirsən. Sənə izah edim. Cəbrail yuxarıya baxarsa, papağı düşər. “Hara gedim?” deyə soruşdu. İndilik ata-ananın yanına gedəcəksən, nə zaman çağırsam, mənə bir işarə et, yetər. “Süfrəini əyri qoyublar, onu düzgün qoyaq” dedi. Başını qaldırıb yavaşca işarə ilə, “lazım deyil”, dedi.

“Süfrə yataqda tərsinə qurulub” dedim. O an “nə deyirsən, yataqda süfrənin nə işi var” dedi. Nəhayət, işarə elədi ki, “bizim işlərimiz var, mən bir işə, ibadətə gedirəm.” O işdən heç başımı qaldırmadım. Mən həmişə əmrlə gedirəm. Əmr budur!

Şeir:

Bir zaman könül səmtinə doğru yürüdüm, Könül halından bir nişan axtarırdım.

Görəsən, könlümün halı necədir, deyə anlatmaq istəyirdim. Onun üzündən cahanı fəryad və fəğanla dolu görürdüm.

Əgər bu dağarcıq olmasaydı, bu tayfanın ayağının tozunu Cəbrail belə tapa bilməzdi.

Şeir:

Hikmət əhli ərənlərin sözlərini araşdırdım, Onlardan hər vadidə, hər şəhərdə bir dastan var. Hamısı da könül əlindən fəryada gəliblər

Bu sözlərdən şübhəyə düşdüm

Öz ağlımdan keçdim, tələsik könül tərəfinə səfər etdim. Onda da heç boş yer görə bilmədim.

Bu könül arif ilə məruf arasında çox vaxt sözçülük eləyər. Könülün nə olduğunu könül dostları bilər.

Könülün qədrini hər könülsüz və ruhsuz nə bilsin? Könül haqqında Allah Peyğəmbəri dedi ki,

Könüldən daha yaxşı, könüldən daha üstün bir şey var sanma!

Özündə gözəllik olmayan Həzrət Məhəmmədin (s) üzünü öpər, sözə başlayar və deyər ki, Həzrət Məhəmməd (s) və onun əshabələri kimi ol! Sən öz sözünü deyirsən. Bəzilərini anmaq nəzər dəyməmək üçündür. Sən küfr dinlə, o mənim üçün başqa bir anlam daşıyır. Əgər elə deyilsə, mənimlə başqa heç bir işin yoxdur. İndi bir yazı yazmaq onu təkrar oxumaq üçündür. Amma təkrar oxuya bilməzsən, buna ehtiyac yoxdur. Oxu- san, o zaman düşünərsən. Bu, "Te" hərfidir, ya "Ta"dır, yaxud üç nöqtəli "Se"dir və ya sonuncu hərf olan "Ye" hərfidir. Əgər bu hərfləri oxumaq zövqünü özündə tapa bilməsən, bu Allah dostlarının gəlməsi sənə ayıb deyil. Bir hikmət üçündür.

Təklif çətin deyil, amma tələsməyə dəyməz. Nəşəli olduğun vaxt içində kədər qalmaz. Maraqlı xütbələr edərsən. Amma o, nəşəli anlarda olar. O varlıqla dopdolu olanda, vücudu belə olar. Mən hər nə qədər onu qəbul və sözlərini həqiqiləşdirmək istəsəm, sözlərimdən ürkər və mənə tərəf dönərək, "heç gözünü-başını çevirmə", deyər. Tövhid aləmindən sənə nə? Onun, Allahın tək və şəriksiz olmasından sənə nə var? Çünki sən Onu yüz min kimi görürsən. Sənə görə hər hissəsində başqa bir yön, başqa bir aləm var. Amma sən bu hissələri o bir tək varlıqda toplaya bilməzsən! Dərk edə bilməzsən! O öz şəriksizliyini, birliyini tək rəngdə göstərərmi heç? Bu sənə sirr olaraq qalsın və səni sevindirsin.

Elədiyin səcdə, görəsən, qəbuldurmu? Bu gün, indi ki, yolu tapırsan,

bir qonaq gələn zaman ona təkrar söylə ki, ümidsiz qalmasın. "Xoş gəldin, səfa gətirdin", deyərsən. Bizim üçün ən yaxşısı budur.

Birini çalğıçılığa çağırdılar. Ağır tərpəndi. Ona, "gəl", dedilər, istəmir- sənmi?" "Bir az su lazımdır ki, qazanın qabağına qoyum", deyir. Arif alovlu işlərdə həmişə suyu yanıda saxlayar. Su hazır deyilsə, qazan daşar, yağı uçar, içində nə yağ qalar, nə də qazan. Bişmiş ət gedər. Başqa bir qazan lazım olar. Əgər unutsa.

Adəm (ə) unutqandı həmişə, "Ya Rəbb! Biz nəfsimizə zülm etdik. Əgər bizim günahımızı bağışlamazsan, bizim halımıza acımasan, ziyana düşərik, zavallı olarıq", - deyə yalvardı. Daha başqa bir şey demədi, başqa sözlə məşğul olmadı.

Mələklər içərisində təkəbbür edib, Adəmə səcdə etməyən yalnız Şeytan oldu-R.M.) xeyirliyəm", dedi. Bilirdi ki, insaflılar üçün üzr diləmək lazım gəlir. Amma üzrü günahından betərdi. Allahı inkar etdi. Sən bilməzsənmi ki, mən şeytandan daha yaxşı bilirdim. Şeytan "And olsun izzətinə, on- ların hamısını yoldan çıxaracağam, azdıracağam", deyəndə bu peyğəm- bərləri, övliyaları və Allah dostlarını içinə almaqdadır. Çünki o, öz işindən geri qalmaz. Şeytan öz işindən necə imtina edə bilər? Allah-təala inayətini bir tərəfə, şeytanı da bir tərəfə qoydu. "Görəsən, nə edəcək", deyə. "Onu məndən apara bilərsən, amma məni ondan necə ala bilərsən" dedi. Dər- zi dəmirçilik edərsə, saqqalı yanar. O, öz işini görməlidir. Yoxsa bir də- mirçinin yanına gəlib, ey dəmirçi, mənə dəmirçilik öyrət, deyə yalvarar, ondan sənəti öyrənərsə, o zaman nə saqqalı yanar, nə də saçı. Saqqalı yanmayanda, yüz dirhəm xərcləyib orada yeməyinə duz atmazsa, heç bir işə yaramaz, yeyərkən ağızdan tökülər. Ama duzunu bol eləsə, hər nə gətirsə, həmişə duz olar. Ona duz desələr belə, halından və mənasından duz olmadığı anlaşılmadıqca, duz deyilməz. Onun üçün heç bir riyaziyyat, təqva və pəhriz zövqü hasil olmaz, bəlkə daha qaranlıq bir hala düşər. Cövhər kimi olmaz, bəlkə H.A.M. (əsərdə bu hərflərin hansı məna da- şıdığı aydın deyil-R.M.) gəlməz ki, onlar yox ikən bir şey eləsin. Ancaq olanlara xəbər verər ki, nəhayət, səndə də var. Quranda, "Müjdə verən və qorxudan olaraq göndərdik" mənasında olan ayə aydındır. Xalq o öy- üdləri gah bilər, gah bilməz. Ey Uca Allah! Ey kainatın ən uca Sultanı!

Ey bədbəxt və başıboş adam. Sən mənim görünən tərəfimdən belə xəbər verə bilmirsən. Onda mənim içimi, batin tərəfimi nə tanıyırsan? Ondan necə xəbər verə bilərsən? Xeyr, xeyr. Sənə xoş və hərarətli görünən hər inancı qorumaqla məşğul ol! Sənə soyuqluq verən inancdan da uzaq ol! Kişi odur ki, sıxıntılı vaxtlarında da xoş olar. Qəm içində sevinc duyar. Çünki kim bilər ki, sənin muradın o muradsızlıq içində bir-biri ilə

sarılıb- sarmanmışdır. O muradsızlıqda murad ümidi var. Bəlkə o murad içində o muradsızlıq qayğısı gizlənmişdir. O gün mənim malyariya növbəmin gü- nüydü. Ertəsi gün sağlamlığıma qovuşacağam deyə sevinirdim. Sağ və sağlam olduğum gün də yenə malyariya tutacaq deyə üzülürdüm.

Dediyin şeyi əgər dünən yeməsəydim, bu gün belə ağrı çəkməzdim. Özünə bu cəhətdən diqqət etmək gərəkdir. Mərd odur ki, hər kəsi öz başına yetərli bir hala gətirər. Onun kamilliyi bundan məlum olar. O zaman böyük adam olar.

O yaramaz adam eşşəkliyi ucbatından təbrizlilərə "eşşək" deyib. O nə görüb ki? İndi ki, bir şey görməyib, xəbəri də yoxdur, bu sözü nə üçün deyər? Orada - Təbrizdə elə insanlar var ki, mən onların ən zavallısı olaram. Onlar mənim kimilərini bayıra atmışlardır. Sanki geniş torpaqdan bir adaya atılmış kimiyəm. Mən ölüm, onlara nə olub?

Onlardan biri Xərivə idi. Xorasandan gəlmişdi. Ona orada Şahab deyərlər. O Xərivə ki, heç kimə dəyər verməzdi. "Mənim üçün, bax, bu mürşid kamil insandır. Onunla oturmaqdan çox məmnunluq duyaram. Könül xoşluğu taparam onda!" deyərdi. Seyfəddin Cəncani kimdir ki, Fəxrəddin Raziyə dil uzatsın. Onun kimi yüzlərcəsi ola, ya olmaya. Mən onun qəbrini, ağzını… deyərsən. Mənimlə bir şəhərdəndir, amma nə həmşəri, başına kül olsun elə insanların.

İndi gəl bu sözlərə qulaq as: Hər "Cim" "Be" ilə, hər "Be" "Cim" ilə qarşılaşarsa, bundan "Bismillah"ın, Allahın "Cim"i olduğu aydın olar… Nə mənasız sözlərdir! Məntiq bilgisi inkarla, gizlin sözlərlə məşğul olar, halı pərdələr. Məntiq qalmayanda, hal meydana çıxar, imkansızlıq məfhumu qalmaz. O məntiqi də cahan fərz et, çünki qalxar. Bunlar nə dadsız sözlər, nə zövqsüz, mənasız kəlmələrdir! Sözü o qoca qarıdan dinlə, baxaq gö- rək nə deyir: Ey sən! Hər şey sən! Nəhayət, aradakı odur. Qoca qarı nə, təzə dəliqanlı nədir? Kişi nədir? Hardadı Cəbrail, onların tozunu tapa bilməz. Mikailin nə yeri var. O avara ağıl tapmazsa, başqa ağlın nə yeri var? Səni bu iş üçün gətirə bilər. Burada sözün yeri yoxdur. Söz meydanı dardır. Genişlikdən ölər. "Bəli, dardır", dedi. Dar deməyin nə mənası var. Xalq zaman qazanmaqdadır. O vaxt zaman nədir ki? Əgər bilsən, öz oğ- lunu iki parça edərsən, beləcə ciyərini parçalayıb bayıra atarsan.

Sufiyə, "başını qaldırıb "Allahın rəhmətinin əsərlərini seyr et" anlamındakı ayəni düşün," dedilər. Sufi dedi ki, o əsərlərin əsəridir.

Bir adamın yediyi iki nəfərə də yetər. Amma o biri insan kimdir? Əgər o Məhəmmədədirsə (s), onun yeməyi, neməti iki cahana da bəs edər. O şey ki, üzü xeyirə və yaxşılığa dönükdür, o bütün bu şeylərə inanarsa,

xeyirdir. Həzrət Peyğəmbər (s) xalqı ona iman gətirməyə dəvət etdi. Əvvəl buna lüzum görmürdü. İndi də elə oldu ki, o dəvətə kimsə gəlmədi. Harada o sufi ki, qayğısız yemək yesin, balığı balığa versin. Kişi odur ki, yüz nəfər onunla birlikdə yoxluq aləminə getsin. Ucadan danışıram, kimsə qımıldanmır. Çulxanın hekayəsini danışaram, özlərindən gedib nərə çəkərlər. Görəsən, nə əskikliyi var idi ki, cəhənnəmdə qaldı. Amma güclü kafirlik lazımdır ki, Allahın qəhr sifəti olan cəhənnəmdə sonsuzluğa qədər qalsın.

Şeir:
Gözüm hər gəlib keçənə baxmaqda,
Rast gələn hər yerə sıçrayıb durmaqdayam.
Hər kim mənə söyləyərsə, elə olaq. Bundan başqa hər nə söyləyərsə, bu mahnının bir hissəsidir.

Peyğəmbər (s), "Nə xoşbəxtdir məni görən, nə xoşbəxtdir məni görəni görmüş olan" buyurmuşdur. Şeyx mənə dedi ki, əgər o dəftəri tavan- dan aşağı endirsən, daha salamat olar. Aşağı endirdim, məndən gizlətdi, yəni tamamladı.

Yuxarıda qoca qarı yalan söyləmişdi Əhməd Qəzzaliyə. Uzaqdan bütün peyğəmbərlərin ruhlarını gözdən keçirdim, keçib-gedənləri bir-bir çözdüm. Həzrət Məhəmmədin (s) mübarək ruhu onların arasında yox idi. Çünki o ölməyib. Bu baxımdan deyirdi. Kəramət odur ki, bir ağac qırıntısına "yeri" deyəsən, ağac o an yeriməyə başlasın. Minbər də o anda yeriməyə başlayar. Ondan bir parça yerə düşsə, "sənə demirəm, ey minbər, yerində dur" desin.

Dedi ki, ey Şeyx! Məndən nə üçün üz çevirdin? Şeyx cavab verdi: "Sən nə üçün mənim qardaşımdan üz çevirdin?" "Əgər mən ona üz döndərsəm, sən də mənə təkrar iltifat göstərərsənmi?" "Bəli", buyurdu. Ətəyinə bir ovuc quru üzüm tökdü. O hələ Şeyxin hüzurunda ikən təkrar onu inkara başladı. İçəridən şeyx çağırdı: "Gəl." Nəhayət, neçə dəfə çərəz gəldi. Tabağı ona göstərəndə ətəyindəki quru üzüm qeyb olmuş, tabağın içinə dolmuşdu. O da artıq müsəlman olmuşdu.

Şeyx Məhəmmədin ustadının yanındakı işi artıq bitmişdi. O, üç dəfə gözəl uşağı çağırmaq üçün göndərdi, gəlmədi. Çünki içindən bir şey ona əngəl olurdu. Fəqət zahiri görünüşdə onu göndərir və çağırırdı.

İndi ona nə üçün bağlanıb qalırıq? Bir gözəl yaradaq. Amma o sənə bütə tapınmağına səbəb olar! Havaya bir palçıq parçası atdı, gözəl surətlər göründü. "Oh" dedi, "onun yaradılışından Hüseynin (ə) qoxusu gə- lir." O an surətlər meydana çıxanda qovğaya başladılar. İncəsənətdən olduğu üçün soruşdu: "Onun yaradılışında Hüseynin (ə) qoxusu gəlir, amma niyə o an savaşda şəhid oldu. Yaxşı insan odur ki, heç öz var-

lığı ilə məşğul olmasın. Xoşladığı şeyə yetişə bilməz. "Ya Rəbbim! Məni əməlisaleh bəndələrindən et!" deyə dua edər. Amma o, bu əməlisalehlə bərabər olmağı istəyirdi."

Yazışmalar, Məktublar

Mövlanaya məlum olsun ki, bu zəif qul xeyir-dualarıyla məşğuldur. Burada artıq bütün insanlarla əlaqəmi kəsdim. Hər birinin halı sizə də məlumdur. Buradakı dostlar da iltifat göstərirlər. Bunların arasında əziz, genişürəkli bir dərviş var ki, Mövlana əgər onun halını bilsəydi, ona təzim və hörmətdən başqa bir nəzərlə baxmazdı. On ildən bəridir duaçınıq burda. Onun məclisində aşinalıq və dostluq gördüm. Şama getdiyimiz zaman orada də dostluğunu açıq-aydın göstərdi.

Bu il Cəlaləddin oğlu Qazı Şahabəddin də buraya gəlmişdi. Bir guşədə öz aləmində məşğul idi. Şama getdiyim zaman köhnə dostluğumuz xatirinə vidalaşmaq üçün gəlmişdi. Bir neçə gün bir yerdə qaldıq. Başqa bəzi hadisələr oldu. Görüşümüz zamanı rahatlıq və sakitlik və candan gələn məhəbbətin dərin izlərinə şahid olduq. Mən onunla elə qaynayıb-qarışdım ki, əgər o bir tərəfə getsə, mən də gedərəm. Çünki o, yanımda olmadan yaşaya bilmərəm. Yüz cür hiyləgərlik və yalvarışla onu burda qoyduq. Bir münasib qadınla qovuşdurmaq və evləndirmək vədiylə onun burada yerləşməsini təmin etdik.

Dünən Pərir gəldi. Qəribə bir halda idi. Böyük bir mədrəsənin qapısından keçirdim, diksindim, "Toqatda olan bir hadisədən üzüldüm", dedi. Bir icmanın onun haqqında "həqiqətən yalançı və həsəd aparan insandır" dediklərini eşitmişdi. O uca dərgahdan ümidimiz bundan artıq bir şey deyil. Barı könül almaq, füqəranı oxşamaq kimi əldən gəldiyi qədər onun xətrini xoş etməyi buyursunlar ki, o küskünlük tozları xatirindən çıxsın. Dərvişlər və əzizlər arasında belə bir dərviş çox az tapılar. Duaçınıq, təqlidçi deyilik. Bu məclisdəkilər də bu arıq qulun sözlərini eşidiblər. Mən nə qədər hörmətli dərviş gördüm, onlarla söhbət etdim. Yalançı ilə həqiqi dostlar arasındakı fərqi həm sözləri, həm də davranışları baxımından anlayıram. Çox bəyəndiyim və seçilmiş şəxslərlə rastlaşdım. Mənim könlüm hər gördüyünə baş əyməz. Bu könül quşu hər dənəyə əyilməz. Simurğ və Hüma kimi bütün quşları yüksəkdən seyr edər. Onların him- mətsizliklərini görər. Amma Qızılquşda ayrı bir himmət görər. Onda bir cövhər, bir könül saflığı tapar, ona iltifat göstərər, onu bəyənər. Çünki o birilər bir saat uçar, sonra alçaq yerlərə qonarlar. Qızılquşda Simurğu görə biləcək qüvvət olmasa da, Simurğun nəzərinin təsiri ilə özündə bəzi üstün vəzifələr görər.

Bir ovçu aslan ovlayırdı, köpəkləri də qovurdu. Ovçunun göpəklərin hay-küy salıb ürkütməməsi və meşəyə qaçırtmaması üçün onlara çığır-

ması lazım gəlirdi. Siz də indi aslana yaxın gəldiniz, uzaqdan nə baş ağ- rısı verirlər? Bir şilləyə belə layiq deyillər, namazdan əl çəkirlər.

Rəbüyatül Adaviyə dedi: "Könlümü dünyaya göndərdim ki, dünyanı görsün. Sonra yenidən, "məna aləminə get", dedim, bir də mənanı gör. Mənə tərəf bir daha geri dönmədi."

Bilmirəm ki, o sözü onlara necə yetirib, sirlərdən söz açım. Amma söz arasında sən çox duyğulanırdın, sənə qəribə bir hal gəlirdi. Böyüklərin sözlərinə etiraz etdim. Amma Məhəmməd Mustafanın (s) sözlərinə qarşı heç zaman etiraza qalxmadım. Bu, bir dairədir ki, qapısı, ağzı da budur. İçindən dolaşarsan, dairəni bayırdan dolaşmış kimi olarsan. Əgər qaça- caq yerini tapsan, geri dönərsən.

Dairənin çevrəsini öz-özünə dolaşarsan, vaz keçərsən, yolu daha çox uzadarsan. Əgər o qurtuluş nöqtəsindən keçərsən, həmişə çöllərə düşərsən. Yoxluq və ölüm yolunu tutarsan.

Bütün bunları deyirəm ki, bir loxma kimi ağzına qoyasan. Onlar loxmanı qulaqlarının ardından, yaxud boyunlarından ağızlarına qoyaq deyə ətrafda dolanırlar. Amma damarları partlaya bilər, yaxud da bizim bir şey deməyimizi istəyərlər.

Başın qərarlı olsun. Deyirsən k, Həzrət İbrahimin (ə) anası, o yetkin qadın, üzünü göylərə tutub Allaha yalvarmışdır. O, İbrahimin (ə) anası idi. Səndə də xeyirli niyyət varsa, Allah sənin işlərini düzəldər. Yeddi yüz min insandan ancaq bir nəfər sənin məclisində feyz almadan işıq saça bilər. Ancaq əvvəldən adət belədir, fərman belədir. Allah sözü haqdır, dəyişməz qanundur. Bəziləri söz danışarkən özlərini biabır edərlər. Onlar bizi nə qədər çirkin görərlər. Əgər sən düzəlsən, bizdən vaz keç. O, söz danışmağa başlayanda susdurmaq lazımdır. Yoxsa partlayana qədər da- nışar. Çünki əvvəldən onun işi-gücü budur. O, Seydi, "belə dedi," - deyə başa salır. Filankəs və sənin arvadının filan dostu, Seydidən, bütün Bağ- dad əhalisindən ta xəlifəyə qədər Bağdadda nə qədər zənbilli, nə qədər xəlifənin adamı, hətta suya düşmüş varsa, hamısı da səni dinləməyə can atar. Çünki sən danışanda məqsəddən uzaqlaşırsan. Özünü qayədən uzaqlaşdırır, çox uzaqlara qaçırsan. Dilbərin hər gün qarşındadır, sən onu qarşılayacaq yerdə geri dönürsən ki, o da geri dönsün.

Biz Musanın (ə) "Ya Rəbb, Özünü mənə göstər" istəyi haqqındakı sözümüzü başqa bir məsələ ilə əlaqədar söylədik. Yoxsa ayrılıq, "mümkündür", demək üçün deyil. Əgər o aslan ovlayan ovçudursa və insan qoxusu almışdırsa, başqalarından gizlənər. Padşah uşaqarı yalnız olanda nə edərlər? Nə qədər onlar məmləkətin əhalisindən ayrı yaşayarlar, amma

xalq içinə çıxdıqdarı zaman da xalqdan onlara verilmiş o böyüklük

mər- təbəsinin mənası onlara görə daha parlaq şəkildə anlaşılar.

Bir vaxtlar dünya hekayəsi mənə lap maraqsız gəlirdi. Bütün gün xəlifənin hüzurunda pis şeylər danışırdılar. Qəbul etməzdi. Öz-özünə, "bunları bir sınayım, sınaqdan keçirim", dedi. Birindən belə soruşdu: "Quranda buyurulan "Onlar kardır, laldır, kordur" sözlərinin təfsiri kafirlər haqqındadırmı?" "Xeyr", dedi, "o, sənin haqqındadır." Xəlifə incidi, özünü saxlaya bilmədi, "bunu aparıb zindana atın" deyə əmr elədi. Ama o, əl- kimya elmini bilirdi, oradan qaçıb qurtuldu. Sonradan dəllallar xalıqn ara- sına düşüb söz yaymağa başladılar. O adamı kim yaxalasa, min dinar veriləcək. Həmin adam öz dostunu göndərdi. "Mən onun yerini bilirəm", deyərsən. Əslində qaçaq onun evindəydi. Xəlifənin adamlarına xəbər verdi. Evində gizlətdiyi dostu arvad paltarı geyinib saraya getdi. "Mə- nim əlimdən şərbət içərsənmi", - deyə soruşdlar. Kişi, "içmərəm, amma qorxudan ölərəm", dedi. "O halda, xəlvət olsun", söylədi. "Saray əyanla- rından heç kim bizim danışdıqlarımızı eşitməsin, könül xoşluğu ilə onu bu- raya gətirsinlər, mən onunla birlikdə yemək yeyim." Loxmanı onun ağzına qoydu. "Sən mənim arvadım olarsan, o, bizim adamımızdır", dedi. Yavaş- yavaş əlini onun çənəsinin altına apardı. "Bunun əlaməti belə olacaq. Sən mənim arvadım olacaqan, bu saat birlikdə bayıra çıxacağıq", dedi. Bir-biriylə zarafat edə-edə bayıra çıxarkən əlini onun şalvarına uzatdı. Xəlifə yerindən sıçradı. Yumruğunu göyə qaldırdı. O həmin an bu cavabı verdi: "Görürsən ki, kar, lal və kor olan sənsən. Mənim məqsədim səni əsəbləşdirməkdi, yoxsa mən nə edim?"

Üzümün bir vədəsi var, qış ona ziyan vura. Ondan sonra qorxu olmaz. Üzüm salxımı qar altında qalarsa, orda bəslənər. Rum diyarında heç dilənçi yoxdur. Sən yanlış qidalanırsan, həmişə çörək yeyirsən, şübhəsiz, ağırdır deyirsən. Yoxsa o, çox ucuzdur. Əvvəl balıq su tərəfə gedərdi, bu saat harda bir balıq üzərsə, oradan da su axar. Ömrün kölgəsi üzərinə düşdükcə, şeytan qaçar, onun kölgəsində yaşayar. "Sizin himmətinizlə", dedi. "Onda şan var", - deyə Sənayini pisləməyə başladı və dedi ki, o oturub tövhid edir. "Tövhidi kimə edir? Təkrar eyni vaxtda şəhadət gətirdi." Onun sözünə görə, bu yollarda, bu ümidlərdə məqsəd nədir? O naxışdan hansı çirkin, hansı gözəldir, deyirsən? Bunu niyə qə- bul edirsən? Onun sözlərindən bəzisi yaxşıdır, deyirsən! Ətin, şərabın, qarpızın dəyəri bədənin sağlam və xəstə olmasına görə dəyişir. Bədən sağlam isə, bunlar yararlıdır. Xəstədirsə, bəzən zərərlidir. Buna görədir ki, xəstəyə ətdən pəhriz etməsini tövsiyə edərlər. Qızılquşa bundan ötrü baz deyiblər. Şahın yanından murdar tərəfinə getdiyi zaman orda dur-

maz, yenidən Şahın yanına dönər. Əgər o geri dönməyib və rast gəl-

diyi leşin yanında qalarsa, ona baz, yəni Qızılquş deməzlər. Qızılquş burada həyatın və tamaşanın rəmzidir.

"Şan ondandır", dedi. Bizim himmətimiz ya var, ya yoxdur. İslamın gözü üzərindədir. Görürəm ki, Əminüddin Mikail sevimlidir. Sevimlidir, çox sevimli. Dövlət adamlarının onun məqamına gəlişi buna dəlildir ki, o qeyb aləminin mürşidləri, o övliyaların qeyb aləmindəki ruhları birlikdə gəlmir. Bu, ilk işin dəliliydi, amma kamilləşəndə o hal qalmadı. Həm bu tərəfdən gələr, həm o tərəfdən gəlməz. "Namaz qıldınmı", - deyə soruşdu. "Bəli", dedilər, bir ah çəkdi. Oradakı bir Allah dostu "Ah!" dedi, bütün ömrün boyu qıldığım namazları sənə verim, sən o ahı mənə ver. Dedi ki, bax ki, bu nə işarətdir. Onu söyləyən dostdur. Şüb- həsiz ki, dünya ilə axirət bir araya gəlməyən iki şəfqət bacısıdır. Onda şəfqət bacılığı qalmadı, o halını dəyişdirdi. O atalıq kənardan olanda şəfqət bacılığı qalmaz. O hal dəyişməsi ölümdür və o şəfqət bacısını boşamaqdır. Yenə "Xalq yuxudadır, öldükləri zaman oyanarlar" buyurul- muşdur. Belə bir ölüm necə olar?

Həzrət Məhəmmədə (s) iman gətirmək ona deyərlər ki, o, Meraca gedəndə sən də arxasınca yürüyəsən. Çalış ki, könüllərdə bir yurd qurasan. Dünyanı istəyərsən, ziyanlı çıxarsan, bəlkə səbəblərini axtarmış olarsan. Dini də arayarsan, heç ziyanlı çıxmazsan. Haqqı arayar, Allah dostlarına xidmət yolunu tutarsan!

Misra:

Sənə yoldaşlıq edən səndən üstün olmalıdır!

Bəhaəddin Sultan Vələd röyasında bulanıq bir suya düşmüş, mənə "aman, əlimi tut" deyib, tutmamışam. Orada qərq olub gedib. Oyananda öz-özünə deyib ki, əgər mən demədən gördüyüm yuxunu mənə danışıb və yozarsa, bu röya onun məqamındadır. Əgər danışmazsa, mənə aid bir röya sayılar. Ta dilimin ucuna gəldi, amma danışmadım.

Məhəmməd (s) ümməti sınıq könüllü olmalıdır. Daha əvvəl gəlib- keçən ümmətlərin tənləri sınıqdı, sonra könül qırıqlığına yetişdilər.

"Ənəlhəqq" deyən Mənsur Həllac doğru-dürüst özünü xilas edə bilmədi. O, Məhəmmədi idi, könlü qırıq bir müsəlmandı. Amma, Allahu Ək- bər, deməklə kifayətlənmədi. İndi Ayazın çarığından çarıq qalmadı. Onun tikildiyi dəridən dəri də qalmadı. Onun duası həmişə naz oldu. Çünki dil-

bərin qoxusunu aldı. Dilbər isə həm nazənindir, həm nazdır. O, bir dəri qabıqdır, amma keyfiyyəti var.

Əlaəddin, ürəyim istəyir ki, bu sözləri sənə açıqlaym, yozumunu ve-

rim. Beləcə rəmz və işarət yoluyla danışıram mən. Bu elədiyim bəlkə dəbdən kənardır. Sizin qarşınızda bunları yozmaq, ədəbə sığmaz. Amma, madam ki, mənim ədəbsizliyimə bağışlayarsınız. İndi izah edim: Suyun qaynağı birdir. Ayrı-ayrı yollara, arxlara ayrılmışdır. Gah suyun hamısı bu yoldan, gah o biri yoldan axar.

Vaxt olar ki, bu yoldan axan su o biri yolu boşaldar, öz yoluna keçər, gah o yoldan gələn su bu tərəfə axar. Budur, bu yollardan və müxtəlif arxlardan keçib, suyun qaynağına gedənlər ondan içərlər, içinə dalıb is- lanarlar. Onlar artıq o budaqlardan və onların kökündən, qaynağından qurtulmuş olarlar. Ağacın budağına çıxanlar, budağı sındırıb yerə yıxılar, ağacın gövdəsindən yapışanlar isə bütün budaqları əldə etmiş olarlar. Sevgilinin yurdunda, kefləri yerindədir. Yeyib-içərlər, huşdan gedərlər, amma dildarın evinə yol tapa bilməzlər. Dilbərə qovuşa biməzlər. Dərin zəkalı və düşüncəlilər necə olar, istəməzlərmi ki, hər kəsdə bu ağıl tapıl- sın? Biri filosofdur, "mən ağlasığan şəkildə danışıram", deyər. Onun bu ilahi ağıldan xəbəri yoxdur.

Yenidən onun yanına getdim, bəli, dedim, sizin insafınızı, söz ustadı olduğunu, alçaq könüllü davranışlarınızı çox vaxt təriflədim. Onun söz eşitməkdəki ədəbli davranışını, onun gözəl şəkildə qulaq asmasını danışdıqca susdu.

Hamamda daim şeytan var. İndi bu hamamda həmişə mələklər toplanmışdı. Mövlana qibləyə döndü, "bu qiblə əsla hali deyil" buyurdu. Onun işi nədir, qibləyə yolçuluq etməkdən, həccə və Kəbə ziyarətindən başqa nə edər? Siz yanlış qibləyə yönəlmisiniz.

Həzrət Peyğəmbəri (s) on ikinci görüşündən sonra yenə yuxu- sunda gördü və dedi ki: "Ya Rəsulullah! Hər cümə gecəsi özünü mənə göstərirdin, bu müddət ərzində məni susuz qalmış balıq kimi xilas edirdin!" Həzrət Peyğəmbər (s) "təziyə ilə məşğul idim" buyurdu. Soruşdum: "Nə təziyəsi, ya Rəsulullah?" "Ümmətimin təziyəsi ilə", buyurdu o Allah elçisi.

"Bu iki il ərzində yeddi kişi üzünü həqiqi qibləyə çevirib mənə gəliblər. Başqa heç kim yoxdu. Geri qalanların hamısı üzlərini qiblədən döndərənlərdir." İndi bu sözdə gizli bir məna var, bax bu, "halbuki onların yozumunu Allahdan başqa heç kəs bilməz. Elmdə qüvvətli olanlar isə:

"Biz onlara iman gətirdik, onların hamısı Rəbbimizin dərgahındandır" - deyərlər" (Ali-İmran surəsi, 7) anlamındakı ayənin kiçik bir misalıdır.

Bax, Bəyazid də nəfsini arınmış gördü. Ondan, "niyə belə təmizləndin",

- deyə soruşdular. "Müalicəsi mümkün olmayan bir xəstəlik üzün-

dən" dedi. O üzdəndir ki, "xalq gəlib sənin önündə səcdəyə qapanır, sən də özünü o səcdəyə layiq görürsən" deyən adama bu cavabı verdi: "Amma, nəhayət, sən qalibsən, mənim səni məğlub etməyə gücüm yetməz." Bəyazid ölümqabağı zünnar istədi, onda nə sirr olduğunu anlamaq istədi. Həzrət Yusuf (ə) da dua edərkən "Ya Rəbbim! Mənim canımı müsəlman olaraq al və məni əməlisalehlərə qovuşdur!" (Yusuf surəsi, 101) - deyə yalvardı. Sən nədən qorxursan, ondan qorun! Nəfs, yemirsə, həm də istəmirəm deyər. Cəfa görmüşdür. Amma necə bilim, qəbul etmərəm. Amma onu elm və anlaşma yolu ilə əldə etmək lazımdır. Bəsdir artıq açıqladın, açıq- aydın gördün. İndi Mövlananı gör. Əgər uca Peyğəmbərin (s) "Alimlər peyğəmbərlərin varisidir" sözlərindəki mənanı anlamaq istəyirsən, ona dair bir şey açıqlamayacağam. O ibadət zövqünü gördün, sanki öz dəyə- rini tapırsan. Lazım idi ki, sən onu görmədən, tapmadan ilahi aləmə dalıb gedəsən, ondan daha böyük, daha yüksək birini tapasan.

"Allahu Əkbər!" deyəsən! İbadət bundan ibarətdir. Sənin xəyalına gə- lən düşüncələri, vəhmləri qoparıb atmağa çalış! Bunlar sənin düşüncə- lərindir. Gözünü daha yüksək aləmlərə çevir ki, O, bütün ağla gələn, xə- yala gələn nə varsa, onlardan daha ucadır. Nəbilərin, kitab göndərilmiş peyğəmbərlərin də təsəvvürlərinə sığmayacaq qədər böyükdür. Bir ara dedilər ki, hər şey haqdır, xalq yoxdur. Amma əgər xalq olmasaydı, söz hərfsiz, səssiz bir şey olardı. Haqqın olduğu yerdə hərf və səs yoxdur. Adamın sözünə gülməyim gəldi. "Məni üzrlü say, arxam sənə tərəfdir," deyib bir "lahəvla" çəkdi. "O halda, sənin önün də, arxan da eynidir, yəni sökülmüşdür", dedim. Xalqın içindən bəziləri, "Allahdan başqa ilah yox- dur", deyərək bu məsələdə mübahisəyə girişdilər. Hər ikisi, hər iki dü- şüncə sahibi görüşsünlər deyə dərgaha getdi. Amma oraya yüz il də get- sələr, qapı halqası kimi daim bayırda qalarlar. Aciz və zavallı vəziyyətdə geri döndülər. Bu Şəmsəddin elə bil uşaqdır! Özünü uşaq yerinə qoyan kişi başqa, sərsəm insan başqadır. Nəhayət, qiyamətə qədər heç kim sərsəmlik etməməlidir.

Mövlananın heç müridi yoxdu. Ancaq oğulları həm övlad, həm mürid idilər. Əgər başqa bir vaxt, dünən gecə danışdığım hekayəni danışsaydım, bizdən inciyərdin. Amma indi inciməyin nə mənası var? Bu gün aydınlıq içində aydınlıq var.

Deyirəm ki, Mövlana elmdə, fəzilətdə dəryadır. Amma əsl genişürəkli- lik və comərdlik zavallıların sözlərinə qulaq verməkdir. Mən də bilirəm, hər kəs də bilir ki, o, doğru danışması, üstün biliyi ilə dəyərli bir insandır.

Padşah özünə vurğun olanlardan birini xəlifənin yanına göndərdi.

Amma adam doğru danışan, dərrakəli bir insan deyildi. Onu necə göndərər? O ayrı məsələdir. Xəlifə bir an belə zavallının sözünü dinləməz. Dərviş də bir söz söyləməz. İndi nəticədə hüzurda lazım olan şeyləri söylədik. Onları aldatdım, filankəsin ziyarətinə getməyə qərar verdiymi dedim. Mənə, Mövlana gəlir, dedi. Onun kərəmi, comərdliyi hər kəsə açıqdır. Mən gəldim, daha yüz minlərcəsi gəlsə, yenə elədir. Amma bu duaçıya hələ ki, bir şey yetişmədi. O da xirqə sahibiydi, mən də. Necə olar ki, onunla gecələri gündüzlərə yetişdirəsən, amma mənimlə ancaq bir saat oturasan?

Xoş gəldin, ey mürşidi-kamil! Yəni, "bu, sərsəm zahidlərdəndir", deyərdi. Sonra da, "o, alim və səlahiyyətli adamdır", - deyə tərifləyərdi. Mən deyirəm ki, ey Mövlana, bu sizin iltifatınız və kərəminizdir. O, bu xitabın və şöhrətləndirmənin mənim üçün olduğunu bilməz. Bu qədər biliyi və üstün insaniyyətliliyi ilə o, kafir olacaq. Sən də müsəlman. O söz ona zəhərdir. Əgər o söz bir müsəlmanın qulağına çatarsa, ona beş min peyğəmbər hədisi belə fayda verməz. Zikr qəbul etməz. Olar ki, bir insan başqa bir qüvvətlə ona eşitdirsin. İndi Allah-təala bu ay içində hazır və nazir, o bir aylarda da qafil və qaibdirmi? Hansı ay hazır isə, Onu o ay anaq! Nə yaxşı! Bir dəstə axmaq belə düşünər! Amma iman gətirmək lazımdır. Bu da bilinən bir şeydir. İşarət etdi, qalx gəl, dedi. Başını qaldırdı. O, bir sı- xıntı idi. "Haraya?" soruşdu. Allahın cəhənnəminə! Başıyla yeindən işarə elədi, başını aşağı saldı, "gəl", dedi. Qalxdı və getdi. Deyək ki, bir uy- ğunsuzluq oldu, o, mənim sirrimdir. Sən mənim sirrimin darğasısanmı? Hələ bundan çaşıram. Sən nə üçün gəldin? İndi kimyanı mənə verirlər. Kimyanı mənə göndərin, üst tərəfini siz bilərsiniz. Ona zikri öyrətdi, "belə olar" deyə başa saldı. Ona daha necə baxım. Könül sahibi olan şəxs bu gözəl zarafatlardan xoşlanar. Amma o şəxs ki, cahan ona gülər, yəni alə- mə gülünc olmuşdur, o, başqalarına necə gülər, nəyə gülər?

Həzrət Peyğəmbər (s), "Mən şeytanımı müsəlman etdim", demə- dikcə kimsə ona iman etmədi. Şəhər hakimi, ixtiyar sahibi, əvvələcə öz evindən kənara çıxmalıdır ki, başqalarına sözünü qəbul etdirsin. Sən əc- əmilərin abrını apar ki, əcəmilərin abrı olasan, dedi. Bu, iki təmələ da- yanar. Dedi ki, onlar köpəklərdir. O isə Adəm övladıdır, onun bunlarla nə əlaqəsi var?

Dedi ki, Məhəmmədin (s) camalı hörmətinə Allah məni xilas edər. Bilirdim ki, onun yola gəlməsi ondandır. Onu şərabdan vaz keçirmək istədim, qəbul etdi. Ona dedim ki, barı cümə günü içmə. Elə elədi. Cümə gecəsi filankəs onu içməyə dəvət etdi. "Xeyr", dedi, "mənə işarət etdilər." Onun o cavabı, hesab etdik ki, Ramazan ayına rast gəlmişdi. Ona

“bax, Ramazan gəldi”, dedilər. On iki aydan bir gəlir. Mübarəkdir! Sən isə ildə on iki ay içirsən. Bəli, dedi, mən Ramazanın kim olduğunu bilmədiyim üçün sizin aranızdan ayrıldım.

Sevgilini sevgilisindən ayıran şəxsi Allah da özündən və Onu sevənlərdən ayırar.

Məhəmməd Qəzzali Əbu Əli Sinanın “Əl-işarat ət-Tənbihat” adlı əsərini Ömər Xəyyama oxuyurdu. Onu çox üstün yaradılışlı, yetkin bir insan olduğu üçün həmişə pisləmək istəyərlər. Qəzzali isə “İhya ulumuddin” adlı əsərində İbn Sinadan faydalanmışdı. Onu yenidən oxuyar, Xəyyama, “hələ başa düşmədinmi? - deyə işarə edirdi. Üçüncü dəfə oxudu. Mütriblərə, müsiqiçilərə, çalğıçılara səsləndi. Ta ki, Qəzzalinin qarşı- sına gəlsin, çalğılar çalınıb, ona oxuduğu şeyin faydalı olduğunu hər kəs görə bilsin.

Şeir:

O şəxs ki, bütün sözü Ənəlhəqq, yəni mən Haqqamdır,
Şübhəsiz ki, o zavallı bu ip ilə asılar.

Onu elə elmin altına alaq, elə aciz bir hala gətirək ki, beləcə həmişə mənim əlimdə olsun. O, fəsahətdə, söz ustalığında zəmanəsinin məşhur alimi olmuşdur. Heyran olacaq dərəcədə kamil bir natiqdir. Allah dostla- rının qəlbi çox geniş və əngindir. Fələklər qədər ucsuz-bucaqsızdır. Bü- tün fələklər onun könlünün altında dönər.

Bir gün səma ayini zamanı bir mürid Şeyx Şəhabəddindən bir beyt söylədi. Şeyx dərhal danladı, “boynun qırılsın, dilin qurusun”, dedi. Orada heç kimin bir beyt söyləməyə cəsarəti yoxdu. Oradakı Haqq özünü gös- tərmiş və pərdəni atmışdı. Orada hər şey göz qabağındadır. Dilin nə mə- nası var? Hər kimdə belə bir hal peyda olmadan gələrsə, şübhə yox ki, rəzil olar, çirkab yuvası kimi dollar. Gözəllər arasına qarışmış çılpaq zənci kimi biabır olub gedər. Həvaü həvəslərlə, şəhvətlə dolu insanlara orada yer yoxdur. Qəflətən gördüm ki, şamdanın içindən parıldayan günəş kimi parlaqlıq köksümə düşdü. Mən başımı çevirdim. Gördüm ki, sarığım yerə düşüb. O öz sarığından yapışdı. Sanki mən özümə baxıram və o

aydınlıqda bütün qan damarlarımı, sinirlərimi, sümüklərimi və özümdəki mənaları görürdüm. Başqa heç bir şey görə bilmirdim.

Hədis-qüdsidə, “Mən sədaqətli qullarım üçün elə bir şey hazırladım ki, nə gözlər görüb, nə qulaqlar eşidib, nə də insanın qəlbində doğulub,”

anlamına gələn bir müjdə var. Hələ "Qəlb gördüyünü yalan saymadı" (ən-Nəcm surəsi, 11) mənasını verən ayə bundan daha qüvvətlidir. Bundan bir az keçdikdən sonra orada yalançılıqdan bəhs etdiniz. Bir pərdənin dəlilidir bu. O, Quranda, bu da səhih hədisdə işarə olunmuşdur. Quranda sirdən lap az danışılmışdır. Cahanda məşhur bir misradır bu.

Misra:
Gecə dolaşar, cahanı seyr edər, barmaqla göstərilər.

Xatirimdən keçdi, hər bulaqdan su içməməlidir. "Bizim aramızda ayrılıq ola bilməz, necə gedə bilər", dedi. Amma "inşəallah, Allah buyursa," demədiyi üçün xoşuna gəlmədi. Bəli, madam ki, demədi, "sən Şeyx Mə- həmmədə yaraşırsan", deməyimin səbəbi bu idi. Dostluq onun dostluğu idi, amma əsl səbəb başqa idi. Mənim yanıma gəldiyi vaxt bir qədəh doldurdum. Nə içə bilir, nə də tökə bilirdi. Könlüm onu tərk etməyə, keçib- getməyə razı olmurdu. Başqalarına elədiyim kimi edə bilmədim. "Tövbə et, bu xasiyyətdən vaz keçdi", dedim. Məcaz* həqiqətin körpüsü, həqiqət də məcazın körpüsüdür. Əgər bu gecə gəlməsəydin, aramızdan bir şey əskiləcək, yox olacaqdı. Bu halda yadlar girəcəkdi araya. Biz əgər bu haldan kənar gecələr ayrı-ayrı yatsaydıq, qorxusuz yatardıq. Amma bu vəziyyətdə də iş belə olacaqdı. Sən dərviş sözünü yadında saxla. Çünki o sənə səbəbini deməz. Allah yolunda malını və qəlbini bağışlayar. Çünki dünya bir körpüdür. Ancaq körpü bərbad və atəş içində yanarkən, elə bir körpünün üstündə binalar tikən təhlükəsiz olmaz.

Qadınlar haqqında deyilə bilər ki, onlarla danış, amma düşüncələrinə zidd davran. Onlar həqiqətən belə edərlər. İndi bu dünya da qadın cin- sindəndir. Onu bəzəməklə, zinət verməklə niyə məşğul olursan? Lazım olanı al, o qədər bəsdir sənə!

Səmaya başladığın an səndən "başın çox gicəllənirmi", - deyə soruşan oldumu? Məhəmməd "dur", dedi. Onu bir anlığa dayandırdı. Qəfildən bir gurultu eşidildi, yerə yıxıldı və başı yarıldı. Başından fışqıran qan tavana sıçradı. Şeyx dedi ki, əgər bizim övladlarımızdan olmasaydın, başmağını başına keçirərdim. Uşaqlar top və çilik-ağac oynayarkən namaz qılınan yerə də atırdılar onu. O an oradan qaçardılar. Neçə dəfə bunu təcrübə edib, bilirdilər. Bu Məhəmməd də çiliyə vuranda namaz yerinə sıçradı.

Budur, "indi məni öldür", - deyə üzr istəməyə başladı. Gülümsəyirdi, "bunu nə ilə sübut edərsən" deyirdi.

Aşiq olacaqsan, bir gözəl axtar! Tam bir aşiq deyilsən, o gözəldən daha fərqli bir gözəl tap! Hicab altında gizlənmiş gözəllər var.

Misra:

Başqa bir alıcı da var ki, ona qul, kölə olarsan!

Bəli, rahatsan, azadsan, qəmsiz və hürr yaşayırsan. Çörək lazım, libas lazım, amma bu qulun belə bir düşüncəsi yoxdur. Mənim sahibim ruzimi də yetirər, geyəcəyimi də. Onun üçün yemək sevgisi nədir ki? Quranda, "İsrafçılar şeytanın qardaşlarıdır" buyurulmuşdur. İsrafçılar, səliqə-səhmansızlar, adi meyxanəyə gedənlər, orada pullarını israf edənlər deyil. Onun dəyəri var? Əsl israfçılar dəyərli ömürlərini, sonsuz səadət sərmayəsi olan o xəzinəni boş yerə xərclərlər. Bu işdə bir cəza qorxusu olmasa belə, bir cövhəri daş altında qıraraq yox etmək nə deməkdir? Buna ürəyin yanmazmı sənin? Bütün dəlillər günəşin bir gün batacağını sənə söyləyərkən, artıq bu həvaü həvəsə qapılıb, qəflət içində uyumağın nə adı var? Səni uyumaq üçünmü buraya göndərdilər?

İndi anlaşıldı ki, bu cövhər hər kəsdə yoxdur. Ancaq onu öyüdlərlə elə göstərmək lazım gəlir ki, hər kəs inancından başını aşağı salsın. Sən dəvəti, çağırışı hər kəsə edirsən. Bəzilərinin yeriyə bilən ayağı, kiminin də ayaqdan xəbəri yoxdur. Ayaqları uyuşub, amma hamısı birdən qımıldananda ondan bir pay alarlar. Əlbəttə, ona ona uyğun hərəkət edənlər faydalanarlar.

Necə ki, Həzrət Peyğəmbər (s) də belə buyurmuşdur: "Bu nurdan onlara yetişmiş olanlar, şübhəsiz ki, ondan aydınlanarlar. Amma bu bütün bir topluma yetişməz. O kəslər nə xoşbəxtdir ki, mənim yolum ilə gedirlər." Yəni biri burada xidmət elədi, bacarmadı, deyək. O başqa bir yerdə xidmət eləməlidir. O, "xidmətdə dayanmaq da olar", dedi. Dedi ki, vaxt onunla birlikdə tapılar. Çünki vaxt bir dönüşün əsəridir. İstəyirəm ki, hamama tez-tez gedim, amma xeyrini görə bilmək üçün tez çıxmaq və çağırılan yerə getmək lazımdır. Mənə hamamda çox oturmaq gərəkdir ki, iş tamam olsun. Çünki kirlər yumşalır. O zaman evə necə dönər, o kirləri necə təmizləyə bilərəm? Lazımdır ki, bədənin kirini evdən hamama daşıyam. Yoxsa hamamdan kirli çıxmaq nəyə yarayar? Məni sərbəst buraxarsa, belə edərəm. Mənim işim belədir. Bunlardan danışmaq mənə xoş gəlməsə də, bir az işarət yoluyla danışıram.

Bir yəhudi, bir xristian və bir müsəlman yoldaş olmuşdular. Yolda bir az pul tapıb onun hesabına halva bişirdilər. Amma, "indi tezdir", dedilər, "sabah yeyərik halvanı", həm də çox az idi bişirdikləri. "Halvanı ən maraqlı yuxu görən yeyər", - deyə sözləşdilər. Onların məqsədi o idi ki, halvanı müsəlman yeməsin. Amma müsəlman gecə yarısı qalxdı. Yuxu nə gəzirdi onda. "Yuxu nə vaxt olsa gələr" dedi və bütün halvanı ye-

di. Xristian səhərə yaxın qalxdı, İsa (ə) göydən endi, məni göylərə qaldırdı. Yəhudi, Musa (ə) da məni cənnətdə gəzdirdi, oradakı qəribə şeyləri seyr etdirdi, dedi. Müsəlman dedi ki, mənim də yuxuma Həzrət Məhəmməd (s) gəldi və belə dedi: "Zavallı müsəlman! Onların birini İsa səmanın dördüncü qatına çıxardı, o birini Musa cənnətlərdə gəzdirdi, sən də zavallı, məhrumsan, barı qalx halvanı ye!" "O, elə buyuranda, mən də durub halvanı yedim." Yol yoldaşları dedilər ki, vallah, ən yaxşı röyanı sən görmüsən. "Bizimkilər həm xəyal və batil şeylər imiş."

İndi bu hekayədən nə qoxu aldın, bu qissədən nə hissə tapdın? Nəhayət, nə üçün demirsən ki, əsl vaxtıdır, indi ki, siz bağa gedirsiniz, mən də qalxıb bal və dərman içim.

Quranda nə gözəl incəliklər, sirlər var. Haradadır o gözəl Məhəmməd ümməti? Yalan belə söyləsə, Allah onu doğruya çıxarar. "Mömin yalan danışarmı" deyənlərə, Həzrət Peyğəmbər (s) "bəli, yalan söyləyər", buyurdu. Amma yalanın nə mənası var burada? Hamam suyunu bir adamın üstünə töksən, halaldır, insanlıqdan xəbəri olmayan birinin üstünə tökər- sən haram olar. Buna nə hamamçı razı olar, nə də hamamçını yaradan.

Bir neçə axmaq adam haram mal topladı. Biri dedi, "onu mənə ver ki, halal osun!" Allah bilər, amma o biri üçün niyə halal olmasın, "iş Allah bilər," deməklə tamam olar.

Ey düyünlər çözmək uğrunda ölüb gedən zavallı! O hal mənə görə bir zəhərdir, yaxud zəhər cinsindəndir. Bu incəliklərdən hər hansı birinin düyününü çözmək istəyənlər, nəhayət, ölüblər. Bir insan oğlu da bütün cahanla qarşı-qarşıya gəlmişdir. Həzrət Peyğəmbər (s) buyurdu ki: "Əgər Əbubəkirin imanı bütün xalqın imanı ilə müqayisə edilsəydi, yenə onun imanı ağır gələrdi." Nəhayət, o nə idi ki, Həzrət Peyğəmbər (s) özü də ona gətirdi? O, başqa bir hal, daha üstün bir hal idi. Yenə Peyğəmbər (s) "Mənim ümmətim İsrai oğullarının peyğəmbərləri kimidir" buyurdu. Peyğəmbərlərin sığa bilmədiyi bir yerdə ki, o məqamla öyünərlər, o necə sığa bilər? Dindarlıq elə bir şeydir ki, onu Allahın lütfü, bir ehsanı görər və iman gətirərlər. Hələ heç görmədən iman edən daha başqadır. Nəhayət, qibləyə tərəf namaz qılmağı əmr etdi. Çünki hər tərəfdən Kəbəyə doğru

namaz qılmaq lazımdır. Bu yönəlişin vacib olduğu barədə dünyanın hər yerində söz birliyi var. Möminlər Kəbənin ətrafında halqalanıb səcdə edərlər. Kəbəni ortadan qaldırsan, görəsən bunlar bir-birlərinəmi səcdə edərlər? Halbuki, onlar öz könüllərinə səcdə etmiş olarlar.

Təbliğ etdi, bəyan etdi, bildirdi. Gördüm, həmişə onu gördüm. Amma həmişə onu deyil. Üstüörtülü deyim ki, mənsur Həllac kimi olmayım.

Xeyr! Həllac kimi olmağın vaxtı keçdi. Seyyid Xəttatın dediyi kimi, artıq yazı öyrənməyi səndən köçürməyin vaxtı keçdi. O çağlar geridə qaldı. İndi o peyğəmbərlik bunlara yaraşar. Bütün o nöqsanlar Əbuyəzidin bənzərlərindəndir. Zahid Təbrizliyə görə, bu belədir. Bir gün onunla müridləri istirahətə getmişdilər. Çoxlu yemək götürmüşdülər. Heç bir şeyi geridə qoymamışdılar, ikinci mənzildə miniklərindən endikləri zaman kəndlilər ac olan Zahidə qoyun kəsməklə məşğul olarkən Zahid o an evə girdi. Süzmə, qaymaq və başqa yeməklər gətirdilər, qarnını doydurdu, qoyunun kababını gözləmədi. Gecə də ona gətirilən yeməklərin heç birinə dönüb baxmadı. "Çöldəkilərə paylayın bunları", dedi.

Gündüz axşama qədər uyuyarsan ki, gecə sevgilinlə birlikdə oyanıq qalasan. Mən bir vaxt istədim ki, dilbər ilə gecələr xəlvətdə olam. Vüslət gecələri olsun. Gündüz uyumadım onunla. Amma xeyirsiz uyğu gələndə xəyallarım qarışar. Gəzib-dolaşma bəlli olmasın deyə.

Hədisdə buyurulmuşdur: "On ik cür heyvan əvvəlcə insan ikən elədik- ləri günahlar üzündən qiyafələri dəyişilmişdir. (Hədisdə sözü keçən hey- vanlar bunlardır: Meymun, donuz, it, fil, qurd, siçan, kərtənkələ, xərçəng, tısbağa, tülkü, kirpi, ayı!-Tərcüməçidən)" "Görəsən, bu günahlar nə idi", dedilər. Amma xalq onlardan daha böyük və daha çox günah qazanar. Bu hədisin zahiri mənasına fikir verirlər. Heyf ki, bu mənada dərk edirlər.

Bir müəllim dedi ki, nə qədər ətrafımı gözdən keçirirəm, sənə izah edəcək bir şey tapa bilmirəm. Nə söyləyim sənə! Sən Cüneyd Bağdadini bu işlərdə Allahlıq mərtəbəsinə yüksəltmisən. Barı sən bir şey danış! Cüneyd üçün bir şeylər deyincə, həmən dövrə vurdu, rəqs etməyə başladı. Səbəbi aydın olmadı. Ondan sonra dedi ki, sən get öz məqamına çəkil. Əgər oraya yetişsən, anlaya bilərsən. Öz məqamına çəkiləndə əlini əlinə vurdu. "Ah" dedi, "aydın oldu!" Amma keçən keçdi, geri dönməyi mümkün deyil. Titrədim, o sırada aşağı getdi, mümkün olmadı.

Libas qarşılığı üçün nə deyərlər? Zaman-zaman yanlışlıqlar edən, utandığından qıpqırmızı qızaran Sərkəş adında biri var idi. Mənimlə bazara gedər, oradakı artıqlardan yeyərdi. İndi də artıq mal yeyirdi. "Xoş gəldin, səfa gətirdin", demədən elə quru davranırdı. Bəli, mənim o karvansarada

bir otağım var. Əgər buraya gəlməzsə, zarafat və ədəbsizlik edər, o zaman da mən oraya gedərdim. Eyni sufi zarafatlarına başlayardıq. "Əgər başqa birini tapsam, sən əlimdən qurtularsan, yox, tapa bilməsəm, əlimdəsən", deyərdi. Ocaq yananda zəhmət çəkir və tüstü qoxusundan bezir, ocaq yanmayanda da qışdan əziyyət çəkərdik. Mənim yerlimsən. Məndən nə haqq istəyirsən, kimin yanına gedəcəksən? Haraya qa-

çacaqsan? ”Allah ona rəhmət eləsin” de, bu saatdan sabaha qədər burada qal, yaxşı ol- arsan! Vallah, padşahlıqdır bu. Əgər altı nəfər də olsa burada onlara söz deməz. O tərəzini, o məhək daşını və aynanı yaxşı qoysan, əsla bir tərəfə əyilməz və dolaşmaz. Biri tərəzinin qarşısına gəldi, dedi ki, bu yüz dinarı al, buna iki yüz dinar ver ki, sənə əlli dinar verim. Mənə bir nə- zər saldı və uzaqlaşdı. Bir ah çəkib getdi. Ah və fəryad etdi, inlədi. Mən damda idim, sağ-soluma baxdım, “bu, kimdən danışır”, dedim. “Səndən danışıram”, dedi. “Sənin əlindən inləyirəm”, dedi. Yenidən soruşdum: “Mənim üçünmü danışırsan?” “Bəli”, dedi, “sənin üçün.” Xirqəsini çiyninə atıb, sarığını, papağını geymişdi. Onu otağında görməyə gələndə qar- şımda başı kəsik toyuq kimiydi. Oturdum. Məni çağırdılar ki, evimi görüm. Könlümdə bir şey titrədi, xoş bir şey. Günorta da gəlmişdi. Ona “aşiq ola- cağam”, dedim. Bu hadisə meydana gələndə o küpdən eşq şərabını iç- miş kimiydim. “Mən zahidəm”, dedim, “necə olar?” “Nur üstünə nur olar”, dedi. İkitərəfli bir dostluq oldu bu.

“Xosrov və Şirin” dastanı hərçənd əzm baxımından mənə çətin gəlir. Amma dərketmə və məhəbbət baxımından xoşuma gəlir. O, can dostudur. Belə deyilsə, bir şeyi dərk edə bilməzsən.

Günorta vaxtı tez gedirdim. Hər tərəf bomboşdur. Sanki mələklər xalqın başını o qədər qatıb, onlarla elə məşğul olub ki, iki sevgili bir-birinə gizli şeylər pıçıldayır kimi səssizlik var. Mən cəld yerişlə qapıdan getməyə çəkindim. Üzümü binaya tərəf çevirdim. O yuxarıdan məni gördü, pəncərəni açaraq, mənim yolu tanımadığımı başa düşdü. Elə bir dəliqanlı insan idi ki, əlini o divara atsa, divarı titrədərdi. Könlü hər kimi istəyərsə, onun dövlət qapısında bəxtəvər yaşamağa razı idi. Yeddi kitaba and içdi və dedi ki, heç incimərəm de! “Allaha şükür, odur”, dedi. Nəhayət, qan- lı bir sərxoş deyil, iki-üç gündür mənə mürid olub. Böyük bir sevinc və nəşə içindədir. Ancaq bir az üzüntüsü var. Hərçənd, o üzüntü mənim üçün əhəmiyyətsizdir. Amma başqalarının yanında böyük sayılar. Sənin o yaxşılığın, ədəbin və kamilliyin bizə məlumdur. Geri dönmək də artıq mümkün deyil. Orada istəklərimi dinləyər, burada da mənə yalvarardı.

Şamda bir kişi vardı, bizi qəbul etmədi, qaçdı. Başını karvansarada divara vuranda ağlamağa başlamış və məni arzulamışdı. “Tez bu adamı tutun, mənim onsuz yaşamaq imkanım qalmadı, mənim ondan ayrı qalmağım çox çətindir, əgər məndən inciyibsə, bir dəfə də olsa, mənə gə- tirin, hər nəyim varsa, ona vermək istəyirəm”, demişdi. Allah-təala onu mənim qarşıma gətirdi. Əslində mən bu günə qədər o papağı axtarırdım. Buyurdu ki, o külahın kimin başında olduğunu sənə göstərim. Nəhayət, o papaq mənim başıma qoyulsa, başım dincələr. Bizə dil tökdü. Nə olar, açıq söyləmirəm, “onu mənə bağışlayasan”, deməyə utanıram. Qüt- bi

gəldi, başını önünə əydi. Sürmarinin oğluna arvadı, “nə üçün bir şey danışmırsan”, deyəndə, kişi “uşaqlıq etmə”, dedi. “Görmürsənmi, o oturub, burada söz danışmağa imkan var?” Başını yerə qoydu, “bir söz de, bir şey əmr et”, dedi. Onların halını anlamağa başladım. Bir yerdə ki, yoxsulluq, dərvişlik var, orada sözün nə mənası var? Sürmarinin oğlu məni tərifləməyə başladı. Məqsədi bir söz söylətməkdi. Qütbi “axmaqlıq etmə, dedi, kefini çək, burada hazır olduğunu bilmirsənmi?” Bu sözdən ona çaşqınlıq gəldi. Orada olan bir neçə ərəb də, “ey Şəmsəddin, bu nə iş, bu nə haldır”, - deyə mızıldandı.

Musa Peyğəmbər (ə) hələ Haqqın iç üzünü anlaya bilməmişdi. Ona, “üzünü mənə göstər”, dedi. “Allahım, məni Məhəmməd ümmətindən qıl!”

- deyə yalvardı. Bu halda, xalqı nəyə dəvət edirdi?

Allah nuru onu tutmuşdu. Ağ əl möcüzəsi də ondan daha üstün idi. Sultan buyurdu ki, sən də kəndlilərin kimi xərac ver. Amma sən deyirdin ki, hər kim sürüsünü üstün tutarsa, şəhər əhlindən daha gözütox olar. Nə- hayət, o Qızılquş min dinara dəyər. Bu gün bir qoca qarının evinə doğru uçdu. Ayağı bağlı idi. Qara bir tüstü içində qanadı və dimdiyi qapandı, o qədər tüstü uddu. Azadlıq çox xoşdur. Amma qanadlar açıq və boş ol- arsa. İzzəddin bütün mavi boyaları hər kəsə verdi. Bunlardan biri ilə də onun alnını və burnunu işarələdi. O heç vecinə almadı, təqlidçi deyildi. Özünü ona verdi, yenidən ona verdi.

Ağlayırdım! Bəyazidin “Məqamat” adlı əsəri ilə Zadüs Salikin kitabını nə üçün mənə vermirsiniz, deyirdim. Şeyx gülürdü, “sənin məqamın ha- radadır”, deyirdi. Onun elədiyini sən də edirsən. Nəhayət, mən də onun üçün istəyirəm, belə ağlayıram. “Bəli”, dedim, canımdan nələrsə keçdi. Bu yolda sənin yoldaşın, dostun varmı? “Bəli, var”, dedi. Amma onun “bəli” deməsindən aydın olurdu ki, yoxdur. Nə qəribədir ki, bir nazəninə naz edirsən. “Bir nazəninin qarşısında necə naz eləyərsən” deyirdim. Sən başqa bir yerdə nazəninsən. Allahu-Əkbər deyirsən. Ən kiçik olan

hansıdır? Yəni bir şəxs, heç olmazsa, öz-özünə düşünə: “Bir varlıq ki, göylərin yaradıcısıdır, ərşi, kürsü, nurları, Cənnəti yaratmışdır. Sən ondan daha böyüyünü düşünə bilərsənmi? Durma, ondan da irəli keç ki, müdriklik tapasan, haqq ilə birlikdə rahatca yaşayasan”.

Şeir:

Ey bir cahanın gözütoxları vüslətinə susamış sevgili!

Səndən ayrı düşmək qorxusu ilə cahanın qəhrəmanları titrəməkdə, Ceyranlar sənin gözünə baxmaqla nə qazanarlar?

Ey zülfü aslanlara başmaq olan gözəl sevgili!

Olsun ki, bu şeiri tərənnüm edən şəxsin ya bundan xəbəri yoxdur, ya da hal əhli deyil. Bəlkə bir cütçü, yaxud bir kəndçidir o. Nə nəzmi dərk edər, nə də yazıdan başı çıxar. Amma bunları həmişə Həkim Sənayi, Nizami, Xaqani və Əttarmı söyləyər? Onların da o sözlərdə payı var. Pendiri Bars deyilən heyvan da yeyər, o süd də içər. Ürəklər paralar, ciyərləri sökər, qarnını doyurar. Hər kəsin bir ağzı var.

Bu qancıq təbiətli bədbəxti görürsən. Məni söyüb-söylənir, açıq-aşkar cəfalar edir. Düşmənlər arasında ona nə elədim mən? Hər nə qədər üzr istəsə də, ona yaxşılıqla cavab vermək lazım deyil. Filan gün başını örtdü, filan gün də mən belə dedim. Dedi, "kaş ki, burada olaydı, ətəyindən yapışaydım." Bir öküz gətirdilər. Şahzadə içəridə yox idi. Öküzü gördü, amma şahzadəni görə bilmədi. Dərviş qadınlarına bir şey söyləmək, əl qaldırmaq yaraşmaz. Mən nə qədər zahirdə onu vecimə almıram, amma gərək o da zahiri qorusun, namaz qılsın, Allahın hüzurunda təsirlənsin. Nəhayət, səcdə elə bir varlığın qarşısında edilir ki, təriflənməyə dəyər. Bö- yük Həmid, Böyük İzzəddin, Böyük Kamalın hər üçü böyükdür. Bunları çağıraq. Nə var ki, mən Kəriməddini sevirəm. Amma onu dinləmək is- təmirəm. Amma düşməni də sevərəm. Bu halda, həqiqi dost səni qəbul edərsə, o həqiqi dost deyil.

Eşq nə qədər artıq olursa-olsun, dilbər də yetkinliyini və gözəlliyini o qədər xoş göstərər. Aşiqə daha xoş görünər. Bu sözün mənası nədir? Hər kəs sözdən bir şey anlayar, amma hər kəs öz halını anlayar. Söz deyərkən hər kəs öz halına aid sözün yozumunu verər. Yozuma diqqət et ki, onun halının ifadəsidir o sözlər.

Gördüm ki, hamilədir, içi doludur. Gedib əlimi qarnına qoydum, "bu nə hamiləlikdir", dedim. Köpək də bala doğar. Mən bilirəm ki, o, zəhərdir. Daddım, mənə heç ziyanı toxunmadı. Necə ki, Allah Quranda "Yoxsa sizi əbəs yerə yaratdığımızı və hüzurumuza qaytarılmayacağınızı gü-

man edirdiniz?" (əl-Muminun surəsi, 115) buyurmuşdur. Bu o deməkdir ki, sizin yaradılışınız bir təsadüf əsəri, yaxud boşuna deyil, bir dönüş üç- ündür. Əgər sən təriflәyirsən, bu pisləmək ilə nə işin var? Sən hər kəsi pislədikdən sonra, deyək ki, ağzın şəkərlə doludur, bəs sirkənin sənin ağzında nə işi var?

Bir nəfər başqa birisi haqqında pis şeylər düşünürdü. O biri də onun haqqında eyni düşüncədə idi. Arada üçüncü adam vardı ki, həm onun, həm də bunun dostu idi. Dedi ki, indi bu iki düşmən qarşılaşacaq, baxaq

görək nə olacaq? Oradan getdi, onların qarşılaşacağı bir yerdə durdu və gözlədi ki, dostu oradan keçsin. Amma o dost ilə göz-gözə gələndə onun ayağına döşəndi. O biri dost bunları görəndə bıçağını yerə atdı, o da vasitəçilik edən dostun ayağına düşdü. "Sən dostumsan", dedi. Mən indi dostumun dostunu necə öldürə bilərəm? Əlinin düşməni, Əbubəkirin dostu. Mənimi daha çox sevirsən, yoxsa Seyyid Bürhanəddinmi? Məndən əsla söz ala bilməyəcəksən. Necə məni tərk edib, qadınların heyz halı ilə məşğul olarsan?.

"Sən yoxdun", dedi, "mənim yanıma başqa bir nəfər gəldi." Dedi ki, Həzrət Peyğəmbər (s), yəni kainatın elçisi bu duanı kimin üçün buyurmuşdur? "Allahım, məni yoxsul olaraq dirilt, yoxsul olaraq öldür, yoxsullar arasında məhşərə gətir!" Sən nə üçün mənlikdən qurtarmırsan? Əgər o mənlik davasından qurtulsan, daha irəli gedərsən. Mənə açıq deyirdi. Bir gün Həzrət Peyğəmbər (s) yol gedərkən özündən keçmiş bir dərvişin peyğəmbərin arxasınca bu sözləri pıçıldadığını eşitdi: "Allahım, Sən mə- nim qulumsan, mən də sənin kərəm sahibi Rəbbinəm." Bunu eşidən əs- habələr o an həmin adamı öldürmək istədilər.

Quranda "Rəhman ərşi yaradıb hökmü altına almışdır" (Taha surəsi, 5) buyurulmuşdur. O ərş deyilən məqam Həzrəti Məhəmmədin (s) qəlbidir. Ondan əvvəl bu məqam yox idi, onun zamanındamı oldu?

Quranda Taha surəsi Həzrəti Məhəmmədin (s) hekayəsini anladır. "Biz Quranı sənə məşəqqət çəkməyin üçün nazil etmədik!" (Taha surəsi, 2) buyurulmuşdur. Başqa bir ayədə "Göylərdə və yerdə nə varsa Onundur" (əl-Bəqərə surəsi, 255) buyurulmuşdur. Burada göstərilən göylərdə məqsəd onun beyni, işarə olunan yerlərdə isə məqsəd onun vücududur. Həmişə onun hekayəsi, ərş üzərinə hakim olmaqda onun halıdır.

"Qaranlıqda gəzən yolunu azar", buyurulmuşdur. Hər kim o uca Pey- ğəmbərə surət baxımından baxıb, məna yönündən baxmazsa, sapqın- lıqda qalar.

"Şanım nə ucadır" deyən adam Haqdan bəhs edir. Amma Haqq, necə olar ki, heyrətdə qalıb. Haqqa öz mülkündə heyrət və çaşqınlıq isnad etmək necə caiz olar? Bunu deyən bir sufi idi. Allah-təala ondan bu sərxoşluğu əsirgəmədi. Özünə gələn kimi ayıqlıq halında dərhal Allahdan məğfirət diləyərdi.

Mənim üçün lap az ehtiyac var. Amma Mövlana üçün elə deyil. Onun mülayim bir təbiəti var. Əgər yeni bir şey olarsa, belə deyər: "Bir şey görürəm, necədir o? Məsələni açıq anlat. Siz mənə inanırsınızmı? Ona başqa cür baxırsınız. O bu qədər bilməz. Neçə dəfə dedi ki, biz bir köşəyə

çəkilək ki, sizi belə görməyim. Nəfslərinə uymazdılar, ürkərdilər. O halda onlar sənin yolunu necə istəyə bilərlər? Necə olar ki, onlar Bəyazidin içdiyi piyalədən içmək istəyərlər?

Əgər ondan, "ey İbrahim, sən Kərimin nə halda olduğunu nə bilirsən", - deyə soruşsam, özünə kiçik görər, gizlicə sadəlövhlük göstərər.

Mən "Əlif" hərfinin dümdüz olduğunu görəndə belim ikiqat oldu. "Lam" hərfi dedi ki, mən də "Əlif" kimi düzəm. "Qəti" dedi, "söz atma!" Heç elə da- nışma! Sən "Lam"san. Özünü "Lam" bil! Bu xalqı tanımaq Haqqı tanımaqdan daha çətindir. Onu dəlil gətirmək vasitəsi ilə tanıya bilərsən. Yonulmuş bir ağac görərsən, bilərsən ki, hər halda, oun yonan biri var. Öz-özünə yonul- mayıb o. Amma sən bu xalqı görünüşdə  özün kimi sanarsan, fəqət iç üzü bambaşqadır. Sənin düşündüyündən, təxmin etdiyindən çox uzaqdır. İndi bu yonulmuş ağacı tanımaqda çaşılacaq bir şey yoxdur. Amma onu yonan kim- dir? Onun ucalığı hansı mərtəbədədir? Onun sonsuzluğu necədir? İndi ki, sən bu qapını özün açdın, çarə yoxdur. Varsa, de, bu qapını necə bağlaya bilərsən? O qapı öz-özünə bağlanmaz. Bu çətinliyi sən çıxardın!

Bir dəstə var ki, qəlblərinə möhür vurulmuşdur. Həftədə bir dəfə gəl, "Allah belə buyurdu, Allahın Rəsulu belə dedi" deyə yadına düşənləri başa sal. Gecə-gündüz xeyir-duanızla məşğulam. Çünki yolda qəzalar var. Biri gələcək qəza, o biri də o an gəlib çatan qəzadır. Gəlib çatan qəza dua ilə geri dönməz. Amma gələcək olanı dua ilə geri qaytara bilərsən. Bəziləri "bizim Allahımız xoşdur, bizim Allahımız yaxşıdır, amma başqaları üçün deyil," deyərlər. Belə bir həvəs içində bir həvəs taparlar. Bəziləri də öz xəyallarını Allah hesab edərlər. Quranda "Allah öz qullarına çox lütfkardır" (əş-Şura surəsi, 19) buyuruldu. Amma haradadır o qullar?

O qarğaya leş vermə, sonra vərdiş edib, həmişə leş istəyər. Sənə ölü əti lazım deyil, diri əti yaraşar. Bu sözləri məsləhət üçün zarafatla deyərdi, yoxsa xəsisliyindən deyildi. Öyrənməklə əldə edilən zahir elmlərindən qaç- ma. Yoxsa mənə bu yolda yürümək nə qədər çətinləşərdi. Bunun ən çətin

fəryad və şikayətini Bəyazid də eləmişdir. "Bunu söyləmək ancaq Həzrət Peyğəmbərə (s) yaraşar" dedin. Əvvəlcə məzlum və mülayim bir halda gəldi, görürsən ki, bu yol üçün nələr söylədi. "Mən gəldim" dedim, "sən nə elədin?" Mənim üçün iki dirhəm verdin, o da paylayarəkən üç dirhəm verdi. Mövlana buyurdu ki, başqa nəyin var? Varsa, mənə bir qaftan verərsənmi?

Şahab Şamda deyirdi ki, mənim üçün ən ağlabatan düşüncə budur: Allah öz-özünü bağlamışdır. İstədiyi kimi hərəkət etməz. Fəxrəddin Ra-

zi isə, "Sultan Məhəmməd Xarəzm Şahın yağlı tikələri ilə, geyindirdiyi qaftanların, verdiyi qızılların xatirinə ona öz iradəsiylə istədyii kimi hərəkət edər", demişdir.

Dedi, həyat mənim üçün elə bir şeydir ki, ağır bir yük halına gəldimi, ağır bir hambal palanı kimi insanın boynundan asılar, ayağı palçıqda qalar. Əgər yaşlı və arıq bir vəziyyətə düşübsə, bir nəfər lazımdır ki, qəfildən onun ipini kəssin, o ağır yük boynundan düşsün, o da beləcə xilas olsun.

Şahabın yanına getdilər, minlərlə ağıllı söz dinlədilər. Ondan faydalandılar, səcdə etdilər. Bayıra çıxanda dedidlər ki, bu, bir filosofdur. Hər elmdə yetkin bir filosofdur. Mən onları kitabdan sildim. "Hər şeydə alim olan ancaq Allahdır", dedim və belə yazdım: Filosof çox şeydə alimdir. Qiyamətdən danışarkən dedi ki, bir gün fələyin hərəkətini dayandırarsa, qiyamət o zaman qopar. "Aləm necə yerində dura bilər" dedim. Deyirlər ki, peyğəmbərlər hikmət əhlidirlər, ancaq xalqın məsləhəti zərurətinə görə belə deyiblər. Həzrət Əlinin (ə) buyurduğu kimi, əgər iş sənin de- diyin kimidirsə, həmişə xilas olarıq, deməkdir. O barədə insanlar acizdir. O mövzunu danışmaqdan qaçmaq və bu mövzunu kəsib atmaq lazım gəlir. Bu, Quranda buyurulduğu kimi, ("Yadda saxla! Qiyamət günü) elə bir gündür ki, Yer başqa bir yerlə, göylər də başqa göylərlə əvəz olunacaq və onlar bir olan qadir Allahın hüzurunda duracaqlar!" (İbrahim surəsi, 48) və buna bənzər ayələrdə və "Göyü kitab səhifəsi kimi büküb qatlayacağımız günü yadınıza salın," (əl-Ənbiya surəsi, 104) anlamındakı ayə- də də bildirilmişdir. İndi hər görünən yer üzünü ortadan qaldırar və göyləri bir araya toplayarsa, o zaman nə olacaq? Nəhayət, bunlar olacaqsa, o alimlər nəyi hesab edəcəklər. Bunların əhəmiyyəti də yoxdur.

Fəxrəddin Razi filosof idi. Yaxud onlardan sayılardı. Xarəzm Şah ilə aralarında bir görüş oldu. Fəxrəddin sözə başladı: "Bütün elm budaqlarını sərfnəzər etdim, gəlib-keçənlərlə indiki yazanların bütün kitablarına bax- dım. Əflatunun (Platon-R.M.) vaxtından bu günə qədər məqbul sayılan

hər əsərin mənim nəzərimdə şübhəli olan cəhətlərini araşdırdım. Hər bi- rini də açıq-aydın incəliklə oxuyaraq beynimə həkk etdim. Daha əvvəl yaşayanların dəftərlərini alt-üst elədim. Hər birinin qabiliyyətini öyrəndim, zəmanəmizin alimlərini də meydana çıxardım".

"Hər birinin elm dərəcəsini anladım", dedikdən sonra filan fəndə, filanıncı fəndə, deyə sayıb-sadaladı. Sonra işi elə bir məqama gətirdim ki, "məndə heç bir vəhm qalmasın" dedi.

Fəxri Razi sarayın irəli gələn əmirlərindəndi. Onu pisləmək üçün de-

yirdilər ki, səndə o elmlərdən başqa bir bilgi də var, amma bilirik ki, sən kafirsən! Qorxaraq qaçan bir qələbəlik gördüm. Bir az da gedəndən sonra qorxutmağa başladılar. Onlar qorxurdular ki, qorxulu bir əjdaha ortaya çıxıb aləmi bir loxma kimi udmasın. Amma əminəm, ondan ötrü heç qorxum yoxdur. Bir az da irəlilədim. Böyük geniş bir dəmir qapı gördüm, onun qarşısında bir qapı da vardı ki, təsvirə sığmayacaq şəkildə geniş, lakin qapalı idi. (M.232) Üstündə açar asılmışdı. Bəlkə beş yüz batman ağırlığında idi. O, yeddibaşlı əjdaha buradaydı. "Qəti bu qapıya yaxınlaşma"! dedi Mənim əzm və igidlik damarım tutdu, qapıya zərbə vurub, qıfılı qırdım, içəri girdim. Bir böcək gördüm, ayağımın altına salıb əzdim onu. Allah bilər…

Görəsən, bu gün nədən onun bütün sözləri böcək üstündədir. Onun bütün kitabları, əsərləri həmişə böcəkdir. "Əlif" hər kəs bilir ki, "Əlif"-dir. Onu başqa hərflərlə tamamlamağa ehtiyac yoxdur. Amma başqa bilinməyən hərfləri açıqlamaq lazımdır. "Be" hərfi ilə bərabər bütün əbcəd hərflərini izah etmək istəyər. Başqaları bunu dərk edə bilməz. Qurana da təfsir gərəkdir.

Əlif" hərfi müstəqildir. Allah kəlməsinin başında gəlir. "Be" hərfi kön- lündə onun sevgisini daşıyar. Onun ayağına baş qoyub. İndi sən insaf elə! Belə bir həyata kimin gücü çatar? Birinə könül xoşluğu göstərdimmi, məndən ürkür, düşmən kimi bayıra atır.

Misra:

Nəfsinə ziyan verənin kimə faydası olar?

Nəhayət, bunu uzaqlaşdırmaq lazımdır. Bunun misalı budur: Şahlardan biri gözəl bir ərəb atına minib, yoldan keçərkən itlər hər tərəfdən hürməyə başlayar. Bundan şaha nə ziyan var? Bəlkə faydası var. Təbrizə erkən çatar, işinə daha tez yetişər. O köpəklər gəbərib gedərlər. Şah da onlara qarşı duyduğu mərhəmətə görə deyər ki, mənə sizin hürməyinizin

faydası oldu. Mənim işimi tezləşdirdiniz. Ancaq mən öz mənfəətimdən vaz keçdim, yeməyə daha tez yetişdim.

Rəhman və Rəhim olan Allahın adıyla başlayıram. Allah adıyla de ki, Odur, Odur.

İndi mənə lazım olan bu Həşrin, yəni qiyamət günündə toplanmanın necə olacağını başa salmaqdır. Bu tən, bu cəsəd tən olduğu müddətdə nə faydası var? Hər kim ölərsə, onun qiyaməti qopmuş demək. O, Allah ilə birlikdə ölümsüzdür. Bunlar da doğularlar.

Günəş bütün aləmi işıqlandırar. Ağzından içəri girən o işıqla mənim

nəğmələrimdən bayıra nur fışqırır. Qara hərflər parıldayır.

Nəhayət, bu günəş gecələr də parlamaqdadır. Yerlərin, göylərin üzü onunla ıışqlanır. Günəşin üzü Mövlanaya tərəfdir, çünki Mövlananın da üzü günəşə baxır.

"Bizim uğrumuzda cihad edənləri öz yollarımıza qovuşduracağıq. Şübhəsiz ki, Allah yaxşı əməllər edənlərlədir!" (əl-Ənkəbut surəsi, 69) anla- mındakı ayə tərtib baxımından məqlub, yəni çevrilmiş, döndərilmişdir. Mənim üçün bəy qonaqlığı burada qurulmuşdur. Çağrılmamış qonaq la- zım deyil.

Sultan Mahmud Qəznəvi Ayaza, "burada otur"", dedi. Ayazdan heç etiraz gözlənilərmi? Şah istəyirdi ki, Ayaz hər hansı bir vəziyyətdə ona eti- raz etsin. Görəsən, necə etiraz edəcək, bunu öyrənmək istəyirdi. Şah dedi ki, mənim kimi minlərlə insan, başını bir altun üçün kəsdirənlər ibrət alsınlar deyə, edər bunu. Necə ki, qəzvinli əmniyyət əmiri idi və anasını öldürdü. Zındıqlar anlasın ki, o heç çəkinmədən bu işi görər. Musiqiçilərdən birinin səsi pis idi. Bir nəfər ona, "sən öz səsini eşitmirsənmi?" dedi. Musiqiçi, "indi eşitdiyin mənim malımdır, qonaqlıq sahibinin malı deyil, bu, başqa yerdəndir", dedi. Fikirləşmirsənmi ki, mənim bu evə yol tapmağım, öz qadınıma qovuşmağım kimi, Cəbraildən gələn bir səy üzündəndir. Mənə yaxşı baxasan deyə, mənə elə yaxın oldun ki, qarşımda elə hörmətlə ot- ururdun ki, eynilə bir övladın atasının qarşısında oturması kimi. Ona bir parça çörək verim deyə, mənə üz tutmuş bir övladdır sanki. Bu qüvvəti heç görmürsənmi? Bu kəli necə yola gətirim ki, çaşıb qalsın! Mən bir məqsədin ardınca gedərəm, hər kəs tərəfindən bəyənilərəm. Necə ki, Həzrət Peyğəmbər (s) şahidlik məsələsində buyurdu ki: Bir şahid də lazımdır, hadisədə iki nəfərin şahidlik etməyi gərəkdir. Sonra Zülyədeyn deyə tanınan səhabə Əbu Məhəmməd Əmr Bir Əbdin şahidliyini iki nə- fərin yerinə qəbul etdi. Əmr, "bu hadisəyə mən şahidəm", dedi. Buna görə hökm verildi. Ara sakitləşdikdən sonra Həzrəti Peyğəmbər (s) on-

dan soruşdu: "Mən bilirəm ki, sən bu işə hazır deyildin. Necə şahidlik etdin. Əmr, "ey Allahın Rəsulu", dedi, "bizim bilmədyiymiz qeyb aləminin bu qədər xəbərlərini, əzəl və axirət haqqında verdiyin bilgiləri qəbul et- dik, bunlara şahidlik etdik. Bu nədir ki, onu əsirgəyək?" Bu sözlər əsl danışanlarla eyni deyil. Çünki sözün xalisi ürəkdən gələn sözdür. Bütün həqiqi sözlər ürəkdən gələr.

Ta bəsdir gəl! Bizim işlərimiz var. Niyə qaçırsan məndən? Ayağına bir kəndir vurmalıyam ki, qaçmayasan! Tənə də yol yoxdur. Bir falçı şaha dedi ki, adın nədir, gəl sənin falına baxım. Şah qəzəbləndi, get burdan ey qadın dəllalı! "Atanın adı nədir", deyən kimi, ona iltifatsız dav-

ranmaq gərəkdir ki, buraya gəlsin", dedi. Sən nə qədər irəlidə gedərsən, arxadan gələn az olar. Gözəl uşaqlar belə edərlər. Müəllimləri də həmişə onlara "bəli" deyər.

Misra:

O şirin ləblərinlə məni abırsız edən sənsən!

Sən incəsən, bizim bir çox sözlərimizə tab gətirə bilməzsən! Mənim ağzım unla doludur, bayıra püskürərəm. Sən zəiflədin, məndə də elə bir güc var ki, bir dərinin içində dayanıqlı və dirənişliyəm. Düşmən onun önündə nə qədər qüvvətli olsa, ancaq məni incidər. Sən həmişə inciyirsən, zəif düşürsən!

Məni min dəfə incitsələr belə, daha qüvvətli olmaqdan, daha uca və güclü olmaqdan başqa bir təsir eləməz. Mən cəhənnəmə də, cənnətə də, bazara da gedə bilərəm. Amma sən incəsən, gedə bilməzsən!

Hər elmi, ərəbcə və ya hansı dildən olsun, farscaya çevirərəm. Danış ki, danışasan! Farsca odur, ərəbcə də budur. Onun təbiətinə, arzusuna görə danışıram. Ərəbcə odur ki, yüksək səviyyəli ərəbcə olsun. Düz danışılsın, adamı yuxulatmasın. Sənin yuxun oyanıqlıq kimdir, amma yenə də yatma. Necə olar? Bəy oyaq olsun, uşaq yatsın! Elə olsun ki, sənin yuxun həmişə oyaqlıq və ayıqlıq olsun!

Bir bıçağın xatirinə yeddi bıçağı satdım. Bu bıçaq fəryad etdi, "məni də burax, hamısını satdın", dedi. Sənin vəziyyətin buna bənzəyər: Həzrət Məhəmməd (s) əgər heç kimi islama dəvət etməsəydi, daha qazanclı çıxacaqdı. Ondan bir möcüzə istəyərdilərmi? Əgər biz Şəmsəddinə "müsəlman ol" deməsəydik, bizə heç düşmən olmaz, bəlkə də hörmət edərdi. Hər meyvənin yetişmişi onun nübarının dadını verməz. Əvvəl gilas və ərik yetişər, sonra da qarpız, üzüm gələr.

Necə ki, Həzrət Məhəmməd (s) ilə ondan əvvəl gələn nəbilərin şə- riəti hökmsüz qaldı.

O, can belə olsa, ondan çəkin, ona, "can ol", deyib dur! Can odur ki, ondan rahatlıq doğar. Ondan üzüntü və iztirab doğmaz. Bunu deyəndə ürəyim ağrıyır. Necə ki, bir nəfər, "sən demirsənmi ki, qəlbim sıxılır", demişdi. Əgər onlardan olsaydın, yüz parçanı yerli-yerinə gətirər, için-için yanardın. O zaman ağrı ağrı üstünə gələrdi, sonra dayanılmaz hala gələn bir şeyin üstünə daha hansı yükü ata bilərsən. Onda bir ağrı yüz dəfə artar. "Biz Allahın qəzavü-qədərinə razı olduq", dedi və həqiqətən razı oldu.

Allah Şüayib Peyğəmbəri (ə) gözləri kor yaratmışdı. Şüayib ona razı

oldu. Əziz qulların üzlərini görə bilmirdi. Amma məna aləmini görürdü. Bu zahirdə xoş olar. Bir şey əlinə çatmayanda, ona da razı olurdu. Amma razı olmaq ona deyərlər ki, insan ağlını yoxluq sıxıntısı ilə məşğul eləməsin. Əyyub Peyğəmbər (ə) bədəninə yara salmış o qurdlara razı olmuşdu, könlünü onlara vermişdi. Düşünmürdü ki, bu əzab nə qədər sürəcək? Yaxud, "ya Rəbb, bu iztirabın nə vaxta qədər davam edəcəyini mənə bildir", demirdi. Dərmansız bir xəstəliyə tutulan hər kəsin əlacı budur: Mən yeyim, sən yemə! Amma hər zaman "sən yemə" deməyin kişiliyə sığmaz. Məni neçə dəfə sınadın. "Son dərəcə möhkəm pəhriz saxla", deyə bilərəm, amma son dərəcə necə olur? O son dərəcə nə ilə izah edilir? Görürsən ki, bu, çox zərər verir. Öz iztirabından bəhs edərkən, "artıq yediyin o gündən bəri, mənim rahatlığım pozuldu", deyirsən! Nə Səmada, nə danışmaqda rahatlıq qalmadı. Sözdə-söhbətdə, xülasə, hər şeydə narahatlıq göründü. Gərək qeyb aləmindən bir çarə gəlsin. "Bəli" dedi, "qeybə iman edərik, biz mömin qullardanıq, sona qədər inancımızı qoruyarıq." Hər şey qeybdən meydana gələr, yoxdan var olar. Bütün doğuluşlar qeyb aləmindən gəlir. Malik xeyli pul sərf elədi, özünə "fəta", yaxud "əxi" desinlər deyə anasını dərviş eləmişdi. Mən bilirəm ki, o nə fətadır (igid), nə də əxi. Olduqca təmiz ürəkli və yaxşı adamdır, amma onun başında bir sevda var. Yəni istəyir ki, mən onun anasını ziyarətə gedim. Tanış-biliş qadınlar, nemət haqqını unutmayan dostlar əl-ayağa düşüb, başıma dolansınlar, "sənə nə bişirim" desinlər. "Mən də hər nə olursa-olsun", deyim.

Həmədanlı Eynülqüzatdan bir neçə söz danışdılar. Bu adam "olan bir şeyi dedim, dilim-ağzım qurusun, kaş olmayaydı" söylədiyi üçün dolu yağıb. İbn Abbasdan da buna bənzər sözlər danışırlar. Halbuki, Həzrət Mustafa (s) bunlardan başqa cür danışırdı. Onlar Həzrət Mustafanın

(s) sirrinə yetişmədilər və yetişə bilməzlər də. İsa (ə) da, Musa (ə) da o sirri qavraya bilmədikləri üçün "Allahım, bizi Məhəmməd ümmətindən elə!" - deyə yalvarmışdılar. Onların buna can atmaları, həmişə Həzrəti Məhəmmədin (s) məqamını istədikləri üçündür. Amma bu olmaz. Quranda "(Əməllərinizi) yazan və (Allah dərgahında) çox hörmətli olan mələklər vardır," (əl-İnfitar surəsi, 11) buyurulmuşdur. Yaxşı bir iş görərkən sağ tərəfindəki mələk, sol tərəfindəki mələyin əmri ilə yazdırar. Çünki sol tərəfindəki mələk düşüncəni, niyyəti meydana gətirər, yazar. Yeddi yüz qat, hətta sonsuz savabı belə yazar. Bunlar hər biri yenə Quranda "Kim Rəbbi ilə qarşılaşacağına ümid bəsləyirsə, yaxşı iş görsün və Rəbbinə etdiyi ibadətə heç kəsi şərik qoşmasın!" (əl-Kəhf surəsi, 110) mənasını verən ayədə işarə olunan tək Allah odur. Onun varlığının o birinə faydası yoxdur. "Allah nuru ilə istədiyinə hidayət yolunu göstərər"

buyurulması da buna dəlildir. Qurandakı vədlər və cəzalar başqaları üçün ayrılmışdır. Qəhhar olan Allah, həm də bağışlayandır.

Dedi ki, nə üçün namaz qılmırsan? "Allah əmr etdiyi üçün", dedi. Harada buyurdu bunu? "Sərxoş ikən namaza yaxınlaşmayın" (ən-Nisa surəsi, 43) buyurulmadımı? "Onu sən oxu", dedi. Bir ayə möminlərin halı haqqındadır, onlar üçün endirilmişdir. Ondan sonra bir ayə də kafirlər üçündür. Amma o eşq aləmində həmişə lütf var, heç qəhr və cəza yoxdur. Biz çoxdan bəri qəhrdən kənara çıxdıq. Amma o bura yaxındır, cəhənnəm bu tərəfdədir. Cəhənnəmdən keçərsən, o biri tərəf cənnət yoludur, sonsuz, ucsuz-bucaqsız, lütf və səadət aləmidir.

Bir çəkməçi vardı. Həzrət Peyğəmbər (s) üçün gözəl bir ayaqqabı tikdi. Həzrət Peyğəmbərin (s) xoşuna gəldi, "gözəl tikmisən" buyurdu. Usta susmadı, "bundan daha yaxşısını tikərəm, ya Rəsulullah! Tikməyi bacara bilərəm." Peyğəmbər buyurdu: "Onda onu kim üçün saxlayırsan? Bu daha yaxşı başmağı kimə tikəcəksən? İndi ki, mənim üçün tikmədin, kimin üçün tikmək istəyirsən?"

Həzrət Məhəmməd (s) qırx yaşına qədər dəvətlə məşğul olmadı. Sonra düz iyirmi üç il xalqı İslama dəvət etdi. Bu qədər işlər oldu. Bəli, nə qədər olsa, bu müddət az idi. Allah ilə birlikdə keçən hər gün, bilirsən ki, ölümsüz və sonsuzdur. Mən bu dadsız əriştə plovundan yesəm, bu nemət həmişə Onun səxavətindəndir. Ya Rəbb! Onu barmaqla göstərim, gör! Barmaq budur, o deyil, budur, budur.

Bir siçan dəvənin noxtasından yapışdı. Onu çəkməyə başladı. Dəvə üzüyola və sadəlövhlüyü ucbatından siçanın arxasınca yeridi. Necə ki, "Mömin də üzüyola dəvələr kimi səbrlidir" buyurulmuşdur. Dəvənin bu

üzüyolalığını onun yumşaq xasiyyətli və sadəlövh olmasına, bəziləri də onun bütün heyvanlardan daha uzunboylu olmasına rəğmən ağıl dərəcəsinin aşağı olması ilə yozarlar. Bunun sirri başqadır. Siçan dəvəni su kənarına qədər gətirdi. O cəld hərəkətli, iri cüssəli heyvan aciz qala bilməzdi. Siçandan soruşdu:" İndi burada nə üçün dayandırdın? Buradan nə üçün keçmirsən? Sən mənim kimilərin noxtasından yapışmağı sənə yaraşmadığını bilmədinmi? İndi necə yapışmısansa, noxtadan yeri görüm! Siçan, "su çox dərindir", dedi. Ayağını suya basan dəvə "gəl- gəl" dedi. "Sudan keçmək asandır, heç dizdən də deyil." Siçan, "amma dizdən dizə fərq var", dedi.

İndi sən də tövbə et ki, bir daha belə üzlülük etməyəsən! Mənim sərmayəmin üstünə çıx otur! Mənim səmərimdə sənin kimi yüz minlərcə siçanın ağırlığının nə dəyəri var? Bir dəqiqədə suyu keçərik. Gəldim ətəyindən yapışdım, kənara çəkildik. Deyirsən ki, neçə belə ucaboylu alçaqlardan bizim üçün bir uzunboylu, uca yaradılışlı biri çıxmaz, çıxa bil-

məz, nədən bəllidir bu? Şübhəsiz, danışmaq lazımdır, amma bunlardan danışmağa lüzüm yoxdur. Bunun sözünü danışmağa dəyməz, ancaq təslim etmək gərəkdir, qurtardı getdi. “Söz sözü açar”, deyərlər. İndi ki, Haqq razı oldu, sultan üzünü sənə tərəf çevirdi, artıq bağbanı əldə etdikdən sonra bağ sənin oldu deməli. Hansı ağacdan istəyirsən meyvə dər! Madam ki, bu saat sən danışırsan, heç kimsə danışmaz. Deyə bilməz ki, mən doğru danışmıram. Sən ağıllı insanları dinlə. Sənin buraya gəlməyin bizim üçün çox xeyirli oldu. Heyf ki, ömür vəfa etmir. Cahan altunlarla dolu olmalıdır ki, onu sənin vüslatın şərəfinə ayaqlarının altına səpim. Bizim canlı Allahımız var, ölü “allahları” neyləyirik? O bənzərsiz Allahın mənası eyni mənadır. Allahın vədi pozulmaz. Ancaq o yalançı “allahlar” məhv olub gedər. Allah daim əzmlə davranır.

Biri soruşdu: “İblis kimdir?” O biri, “sənsən”, dedi. “Çünki mən Alla- ham, mənim əksim də sənsən, başqa kim olacaq? Toylar, nikahlar bir cür deyil. Bu da nəfsin büsatıdır.

Şeir:

Dostların ayrılığından ah çəkmək, sabah vidalaşmasından fəğan yaraşır. Bu iki bədbəxtliyə uğramaqdansa, ölüm min qat daha xoşdur.

Burada işi düzəltmək lazımdır. Yaxşı bir iş gördün, cənnətdə açıq- aydın bir məqam hazırladın özünə, öz yerini gördün, o zaman keçdi.

Bir dindarın əlindəki bir axça başqa birinin əlindəki yüz min dinardan daha yaxşıdır. Dinsizi atəşin üstünə atıb, cəhənnəmə apararlar. Mənim

ipim uzun, geniş və incə deyilsə belə, hər kəs onu görə bilər. “Sən kimsən”, deyirdim ona. “Qarşında bir qəpik dəyərində halva var”, dedim, heybətlə baxdım. Ustad və kamil bir insan idi, heç vecinə almadı, “özün bilərsən” dedi. “Məni Allaha tapşır, o günahları gizlədəndir və ən gözəl güvən yeridir.”

Bu, Seyyidin sözüdür: Seyid Bürhanəddin Hakim Sənayinin həm müridi, həm də şeyxi oldu. Seyid deyirdi ki, loxmanı başının arxasından götürən kimsə, sanki sinirini qoparar. Allah quluna inayət edərsə, bir xristian uşağını belə onun yolunda müsəlman edər. Bu söz öz gözəlliyi ilə söylənməyə dəyər. Həm də demək lazımdır ki, mənim nəzərim ona toxunarsa, müsəlman olar.

Kürklü xirqə ilə çarığı unutma! Onun arxasınca getməyin nə mənası var? Qorxu harada qalar? Rast gəldiyin hər şeyi yemə ki, sonda “əgər onu yeməsəydim, daha yaxşı olardı, yaxud kaş heç yeməyəydim”, deməyəsən. Əvvəlcə qumaşı ölç, sonra kəs. Quranda “Yuxunuzu da istirahət

etdik. Biz gecəni örtük etdik. Gündüzü isə dolanışıq vaxtı etdik," (ən-Nəbə surəsi, 9.10.11) buyurulmuşdur. "Yuxunuzu rahatlıq, gecənizi örtük etdik" buyurulması ayıqlıq halına işarədir. "Gündüzü dolanışıq vaxtı etdik" buyurulması da xırda balıqları yeyib dolanan böyük balığın halına şükr etməsi kimidir. Dənizdə sular arasında bir aydınlıq göründü, gəmiçidən soruşdum, heç bir səs çıxmadı. Bir gün yenə o aydınlıqda gedirdik, başqa bir parıltı da göründü. Ondan sonra gəmiçi dərhal səcdəyə döşəndi. "Bu şükran səcdəsidir," dedi. Əgər söyləsəydim, ürəyin partlayardı. Gözünün birini bir balığa, o birini o biri balığa dikmişdi. Əgər bir an gə- midə yuxulasaydım, o biri balığı görməyəcəkdim. Balıq hər zaman də- nizdə çaşqın bir vəziyyətdədir. Amma dəniz də o balığa çaşıb qalıb. Mənim içimdə o böyüklük və genişlik necə olar? Məndə nə var deyə, çaşmaqdadır.

Əlimdə zəif bir çıraq tuturdum. İt hürdü, onun qorxusundan evə qaçdım. O evdən başqa bir evə, sonra da böyük bir təndirin içinə sığındım. "Hey, anam, anam! Silahımı gətir", dedim. "Ana qılıncımı və xəncərimi gətir, bayıra çıx, məhəllənin başında hürən o iti, "ham-ham" sənsən, sənin anan-atandır, de. Əgər igidsən, təndirin başına gəl! Xəncərlə sənin beynini dağıdım!"

Bir şərabçı şərab satırdı. Bir nəfər soruşdu: Sən şərabı satırsan, amma, görəsən, əvəzində nə alacaqsan? Məsciddən geri qalan kimsə "lahəvla" məscidinə gedər. İnsan əgər "lahəvla"nın nə demək olduğunu bilərsə, yəni qüvvət və qüdrətin Allahdan olduğunu anlayarsa, onun

cümə namazı boşa getməz. Meyxanədə belə "lahəvla" çəkmək, Kəbədə "lahəvla"sız qalmaqdan daha xeyirlidir. Amma məsciddəki "lahəvla"nı nə bilim.

Bir qadın bu sevdada idi. Bir neçə cibgir ağlayıb-sızlyaıb ona ya- xınlaşdı. "Xanım", dedilər, "bu xəzinə məsələsini ancaq sənin sayəndə bacara bilərik. Yoxsa o dəyərli xəzinədən faydalanmağa bizim gücümüz yetməz." Onlar gecikmişdilər. Biri dedi ki, xanım sarığını versin ona, bir xəbər gətirsin. O biri cibgir, "o gecikər", dedi. Siz bu qatırı qulunuza verin, mən onu və yoldaşlarımı çağırım. Bir şərtlə ki, filankəsin başına and içəcəksən, bu məsələni heç kimə deməyəcəksiniz.

Bir kar dəyirmandan gəlirdi. Dəyirmana tərəf gedən bir nəfərlə rastlaşdı. Öz-özünə, "bu adam məndən hər halda, hardan gəlirsən deyə soruşacaq", dedi. Salam verməyi belə unutdu. Əvvəl bu şəkildə yanlış düşüncə başında bir az sərsəmlədi. "Hardan gəlirsən", soruşacaqlarını düşündüyü üçün, "dəyirmandan gəlirəm", deyərəm - deyə düşündü. "Nə qədər un üyütdün", soruşarlarsa, "bir tay", deyərəm. Halbuki, həqiqətən kişi deyirdi ki, arvadının niyyəti puça çıxırmı? Belinə qədər işa-

rə edirdi. Nəhayət, kişi bu yolçunun kar olduğunu görəndə, ilk sözü başa düşmədiyini sezdi. Ondan sonra ağlına gələn hər şeydən danışdı. Amma əgər doğru cavab versəydi, əvvəl dediyi söz xoşuna gəlməzdi. Amma o kardı, hər şeyi başa düşə bilməzdi.

Quranda "Orada (o cənnətlərdə) gözlərini (yalnız ərlərinə) dikmiş, bundan əvvəl heç bir ins-cins toxunmamış hurilər vardır" (ər-Rəhman surəsi, 56) buyurulmuşdur. Bunun mənası nədir? "Hələ o cənnətlər ki, Allah aləmidir", soruşdum. Ona görə müqayisə et. Dedim ki, insanoğlu və cin tayfası ona yetişməmişdir. Yəni, bu içkilər bu aləmdə də bizim əlimizə keçməzmi? Hər kəsin mərtəbəsinə görə zəncəfildən, şəlalədən, kafur və təmiz şərabdan payı varmı? "Verdikləri sözə əməl edənlər, qorxunc mənzərəsi aşkar olan o gündən qorxanlar" anlamındakı ayə nədir? Bu, hər kəs haqqındadırmı? Bəziləri bunun Həzrət Əli (ə) haqqında olduğunu söyləyərlər. Ayənin enməsinə səbəb özlüyündə anlaşılır. Olsun ki, bunlar da bir səbəb söyləsinlər. Amma çox soyuq və yersiz olar. Öz düşüncələri ilə doğru yola gəlsinlər. Bu xirqəmin qolunu öpdü, onun o üç gecəlik Səmada bir neçə gün sürəcək işləri tamam oldu. Dükandan ət gətirən o yəhudinin yeddi arxa dönəni tacir idi. Amma o yenə də yəhudidir ki, yəhudi.

İbn Məsuda Həzrət Peyğəmbər (s) Quranın sirlərindən bəzi şeylər açıqlayardı. Onun bildirdiyinə görə, filan ayənin mənasını Peyğəmbər

əshabələrinə açıq söyləyərdi, ikinci mənasını da mənim qulağıma pıçıl- dayardı. "Bunları sizə deməsəydim, boynumu vurardınız", dedi. Səhabə- lər o zaman o sözləri küfr sayardılar.

"De: "Mən də sizin kimi ancaq bir insanam. Mənə vəhy olunur ki, sizin tanrınız yalnız bir olan Allahdır." (əl-Kəhf surəsi, 110) anlamındakı ayənin enməsinə səbəb nədir?

Siz də bilirsiniz ki, Həzrət Əli (ə) ayın onuncu gününə qədər Həzrət Peyğəmbər (s) kimi ət yeməzdi. Həzrət Peyğəmbər (s) Əlinin (ə) üzünə baxanda onu əməlli-başlı zəifləmiş gördü. "Sən mənə baxma", dedi, "mən sizin hər hansı biriniz kimi deyiləm." Buna görə ayə gəldi: "De: "Mən də sizin kimi ancaq bir insanam." Amma aradakı fərq bu qədər bir şeydir ki, o da mənə vəhy gəlir. Yəni mən açıq-aşkar bir iş görərəm, amma heç kim bilməz. Onların arasında gördüyüm o işdən, görürsünüz ki, ağızlarından heç bir xəbər çıxmaz. Gərək mən istəmiş olam. Peyğəmbərə bənzəyən və bərabər olanlar nə üçün olsun, onun bənzəri olarmı heç? Nə üçün, bu da sənin bənzərin olsun. Nəhayət, lazımdır ki, hər kəs öz işi ilə məşğul olsun. Mən də niyyət etdim, bundan daha yaxşı bir iş varsa, din və dünya qazancı üçün o işlə məşğul olum, əlimə keçəni burada xərcləyim.

Hakim Sənayi əcəli gələn zaman dilinin altında bir şey pıçıldayırdı. Qulaq verdilər. Ağzından bu sözlər eşidilirdi:

Şeir:

Söylədiyim şeylərin hamısından vaz keçdim, peşman oldum, Çünki sözdə məna, mənada söz qalmadı.

Çünki sən Allah yolunda bir qarış yürüsən, O sənə on addım ya- xınlaşar, zəhmətsiz və minnətsiz yeriyərsən. O, misal üçündür. Məqsəd Allahın müqəddəs sözündəki mənadır. Yoxsa qarış, addım kimi ölçülərin nə mənası var? Göz kağıza baxar və xüsusilə öz yazdığı şeyi bəyənməz. Ağ kağıza baxanda çaşıram. Yoxsa mən səni sevənlərdənəm. Onun nə yeri var. "Mənə filan şəhərə get", - deyə əmr edərsən, "istəsəm gedərəm, istəməsəm getmərəm." O, qeyb və gizli aləmdən keşişlər də xəbər verər. Onlar da həmişə deyiblər ki, bütün yollardan və gedişlərdən Həzrət Məhəmmədin (s) yolu ən yaxşısıdır. İnsaflı olanlar insaf edərlər. Çünki onla- rın dünyagörüşlərində və gedişlərində Həzrət Məhəmmədin (s) yolu kimi aydınlıq yoxdur.

Qadına yaraşan ən yaxşı iş evinin bir bucağında ipini əyirməsidir. Dərvişə yaraşan da dərvişlik və səssizlikdir.

Şeir:

Əncir satanlar üçün ən gözəl şey nədir, bilirsənmi?
Əncir satmaqdır, əncir satmaq, qardaşım!

Səid Müseyyibin Hekayəsi

Səid Müseyyib Bağdad müdərrislərindəndi. Gözəllikdə, şirinlikdə tayı-bərabəri olmayan bir qızı vardı ki, səsi-sorağı xəlifəyə qədər gedib çatmışdı. Xəlifə bu qızla evlənmək üçün zülm və cəfadan başqa hər cür planlar və tələlər qurdu, amma heç cür onu əldə edə bilmədi. Səidin bir şagirdi də var idi. Tələbələr arasında ən utancaq və təmizürəkliliyi ilə seçilirdi. Mədrəsədə sıraların ən gerisində oturardı. Bu şagirdin bir dərviş təbiətli anası vardı. Bir gün böyük ustadın gözü bu şagirdə sa- taşdı. Dərs vaxtı qurtarandan sonra onu sakitcə yanına çağırdı. Hal-əh- valını soruşduqdan sonra, "gözəl qızımı sənə verib, sonra da səni özümə vəkil seçəcəyəm", dedi. Şagird müəlliminin bu təklifini anasına danışdı. Anası da bu xəbərdən çox təşvişə düşdü, bunda bir uğursuzluq sezdi. Fikirləşdi ki, yəqin oğulunun başına hava gəlib. "Bala", dedi, "bunu rö- yadamı gördün? Görəsən, nə oldu sənə, indi mən nə edim? Pulum da yoxdur ki, səni həkimə aparım." Oğlan cavab verdi: "Ana, bu nə yuxu, nə

xəyal, nə də sayıqlamadır. Həqiqətən belə oldu. Ertəsi gün anası daha da pisləşdi. Məhəllə qadınları ilə məsləhətləşməyə başladı. “Bu oğlan başımızı yeyəcək, barı siz onu qorxudun, bu sevdadan vaz keçsin. Bir daha belə şeylər gözləməsin. Əgər başqaları eşitsə, onun dəli olduğunu zənn edər, haqqında şahidlik edər ki, övladımın başına hava gəlib.”

Ertəsi gün dərsə gedəndə ustad onu yenə çağırdı. Çox iltifat göstərdi. Bundan sonra zavallı şagird gözlərini ovuşdurub öz-özünə deyinməyə başladı: “Görəsən, bu bir xəyal və ya röyadırmı? Necə ki, anam və qonşu arvadlar hamısı birdən, “sən düşünmədən-daşınmadan boş-boş danışmağa başladın, qara sevda səni ağuşuna aldı”, deyirlər. Sonra yenidən ətrafına baxdı. Hər şey yerli-yerində idi. Mədrəsə, müəllimi və özü heç dəyişməmişdi. “Xeyr”, dedi, “Allaha and olsun, bu, xəyal deyil, qara sevda və dəlilikdən isə danışmağa dəyməz.” Təkrar evinə getdi, olubkeçəni anasına danışdı. Bu dəfə anası və qonşu qadınlar yenə oğlanın eşqə düşdüyünü iddia etdilər. “O həm öz başını, həm də bizim başımızı yeyəcək”, dedilər. Nəticədə oğlan nə dedisə, onlar heç birinə inanmadılar. Toy günü gəlib çatanda oğlan gözəl libaslar geyinib evə gəldi. Anasına da qızıl və gümüş hədiyyələr gətirmişdi. Anası hələ şübhəli idi. Hələ şübhəsi keçməmişdi ki, qızı gecə evinə gətirdilər. Qonşu qadınlar, ana

çaşqın-çaşqın baxırdılar. Qızı yaxından tanıyan qadınlardan bir çoxu qızın yanına getdi. Onda elə bir dəyişiklik gördülər ki, “aman, ya Rəbb”, dedilər, “bu necə olar?” Qız onlara cavab verdi ki, “burda çaşılası nə var? O, elm və fəzilət əhlidir, biz də eləyik. Amma bəlkə o, bizdən daha üstündür. Çünki biz dünya adamıyıq, onun isə dünyada gözü yoxdur. Bu halda, bizdən daha yetkin, bizdən daha şərəflidir. Biz də dünyanı tərk etməliyik ki, ancaq onun kimi olaq”, dedi.

Xoca Əhmədin gözü bir dərvişə sataşdı. Alnında bir işarət görürdü. “Atan sənə bir gün ağlamır”, dedi. Dərviş, “xeyr”, dedi, “onun heç bir şeyi yoxdur. Mən sənə min dinar verim, al götür, oğlumu da sənə yoldaş edim”, dedi. Dərviş evinə gedib, hadisəni evdəkilərə danışdı. Xoca kəramət göstərmişdi. Çünki Xoca Əhmədin oğlu yox idi. Atası dedi ki, “heç vaxt ondan ümidini kəsmə. Onun altunu da var, libası da. Amma zəma- nənin əli onu gizləmişdir. Mən əhvalatı bilirəm.”

“Allahu Əkbər”” nə deməkdir? Yəni ən kiçik Allah kim olur ki, onu himməti ilə özünə çəksin? “Güc qalibindir” deməyəsən! Bizim hekayəmiz onların söylədikləridir. Ey sultan, qalx! Əgər gəlsən, gedərik, xərci də məndən olsun. Yaxud məni unudan şəxsə yetişək. Mən haradayam? Məndən xəbəri yoxdur. Əgər məni görsən, salam söylə! Bilirəm, amma yenə xoşlanıram, baxaq görək nə olacaq? Bunlar dərvişlərin xoşlandığı şeylərdir. Dərvişlərin qulları da məndən xoşlanır. “Dünya axirətin kör-

pü- südür" sözünü biz özümüz deyirik. Bir nəfər lazımdır ki, məni güldürsün. Bunu anladım. Yenidən xəzinənin açarını əlinə verdim. Amma sən önünə pərdə çəkirsən. Həm də özün öz nəfsinə pərdə olursan. Özündən uydur- duğun və özünə pərdə elədiyin xəyallar əskik deyil. Buna görə xəyala dalıb, onu başqa xəyallarla qarışdırırsan. Onların səni sevməməyindən qəti qəm yemə! Onların səndən uzaqlaşmaq istəməsi eynilə yəhudilərin istəklərinə görə hərəkət etməyən müsəlman uşaqlarından diksinməsinə bənzəyər. Sənin məsciddən çıxarkən Quran qoltuğunda, "Allahdan baş- qa Allah yoxdur", deyə pıçıldadığını, bir neçə hərf dediyini görürəm. "Bu nədir", deyirlər, "içindən sənə bir səda gəlirmi?" Mənada nə üçün zahirin- dən yaxşıdır. Belə bir xəzinədən öz fikrinlə uzaqlaşmaq lazım deyil. Öz bədənlərinə zülm edənlər Allahın xas qullarıdır. Bəli, onlar əzab çəkərlər, böyük eşq dərdinə düşmüşlərdir. Fəqət bu başqalarının işi deyil. Beləcə, onların adları yad edilir, görəsən, işin sonucu necə olar?

Yusuf Peyğəmbərin (ə) kiçik qardaşı Bünyaminin adı oğru kimi çıxsaydı, nə olardı? Dərviş Bəyazid Bistaminin türbəsi başında deyirdi ki, onun bir pərdəsi qalmışdı, o pərdə içində dünyadan köçüb getdi.

Yanındakı altunu nə qədər inkar etsən, "mən bir şey deyiləm, ondan daha yoxdurmu, gətir", deyər. "Əvvəlcə səndə ondan var idi, gətir. Yanında gəzdirdiyin altunu inkar edirsən." O, "mən bir şey deyiləm", dedi. "Ondan, o yoxdan gətir! Əvvəlcə ondan səndə vardı, ondan gətir", dedi. "Bəli", dedi, "var yoxluğu istəyərmi?" "Mən də ağlayıram", dedi. Bir nəfər də olmalıdır ki, məni güldürsün. İndi sərxoş olacaqsan ki, ayılasan. Ah və fəğan uşaqların işidir, onlara yaraşır. Dedi ki, "yol sənin getdiyin yoldur. Mənim getdiyim bu yolda nə qədər yol yoldaşım var. Amma o da buradan deyil."

İndi onlar nəyə yarayar? Dinə yaramazlar, dünyaya yaramazlar. Soyuq və donuq şeylər, icazə ver, bir qəlbimi ovudum, sənin yanında onlar gərəkdir. Yaxud onlara sən yaraşarsan!

Siz bizimsiniz, biz də sizin. Haradandır bu söz? Allaha and içərəm ki, nə onlar bizimdir, nə də biz onlardanıq. Onun da saqqalı var, bizim də. Ya Rəbb! Sənə dua edirik. "Ey Allahım, könlümün istədiyini ver", - deyə yalvarar. Mənim qəlbim hər şeyi istəməz. Bir dərviş dedi, "mən Əbu Abdullah Məhəmməd Mustafadan (s) bunu öyrəndim ki, Əbubəkir (r.a) onu bilməz." O, bəlkə Həzrəti Mustafadan (s) öyrənməmiş və xəbər verməmişdir. Məndən bunu öyrən ki, yeməyin qarşısında səbr edəsən, pəhriz saxlayasan. İlk işin budur. Bu, nədir, zəiflikdirmi?

"Sultan Allahın kölgəsidir" sözü Əbul Həsən Hərrakinin nəzərində doğru deyil. Dənizə düşüb və üzmək bilməsən, boğulub ölərsən. Başına su tökərlər. Biri oxunu uzağa atar, kərəm sahibi olar. Quranda "Məgər

Rəbbinin kölgəsni necə uzatdığını görmürsənmi?" (əl-Furqan surəsi, 45) anlamındakı ayəni xatırlayıb üzünü arxana çevir. Arxanda nə görəcəksən. Həzrət Əbubəkir (r.a) arxandan səslənəcək: Ey çaşmışların rəhbəri! Bir tərəfdən cavab gələr: Əgər Məhəmməd (s) yaradılmasaydı, o qədər kölgə qalacaqdı ki, onun kölgəsini ərşə götürəcəkdilər. Yəni onunla savaşa girişən kəs divanədir. Necə savaşa bilər? Yeddibaşlı əjdaha onun varlığının kölgəsidir. Bu, iftiradır, bunun başqa mənası var. O elə arıqdır ki, köksünün hər tükündən tər damlaları axır. "Kaş ki, onun köksündə tük olaydım" sözü öyünmək baxımından deyil. Biri min istək və yalvarış ilə bir tikə rahatlıq istəyər. "Ya Rəbb, işimi asanlaşdır", deyər. O birini buraxmazlar ki, bayıra çıxsın. Başına şərab tökərlər. Biri ağlar, bir damla yaş çıxarmaz gözündən. O birini buraxmazlar ki, çaydan bayıra çıxsın.

Bilmirəm namazda nə oxuyum. Görəsən, "Fatihəsiz namaz olmaz"

əmrinə əməl edimmi? O biri başqa hava çalır. İlahi söyləyər, rəqs edər.

"Gördüm ki, bir süfrə gətirirlər", deyər. Əgər başqalarının evinə aparılarsa, sizə nə?

Bağlansan, nə taparsan? Ucalıqlar çəkilən əməyin əvəzində əldə edilir. Yüksək məqamlara yetişmək istəyənlərin gecələr ayıq-sayıq yatmağı gərəkdir. Yəni istədiyi kimi yatmazlar. Kaş ki, zahirən yataydıq. İstiliyi torpağa bu mərtəbədə verdi. Nə uca qüdrətdir! Mən nəfsim üçün necə to- parlansam, razıyam. Sizə yenə deyirəm, madam ki, bilirsən, başqa sözə nə lüzum var?

Sizə lazımdırsa, təni də tərk edək. Sənin tapdığın dostlara daş belə tab gətirməz. Uşaqlar "Musa təyin etdiyi vaxtda gəldikdə, Rəbb onunla danışdı" (əl-Əraf surəsi, 143) anlamındakı ayəni oxuyarlar. Halbuki, Allah bütün günü Musa (ə) ilə bərabərdi. Günəş beləcə hər tərəfə baxar, bir zərrə qeyb olmaz. Ondan bir fəryad qopar, çünki atəşdən qaçmaz. Bu təqdirdə o məqam pərvanənin seyranıdır. Palançı palançılığını unutmaz, ancaq o sənətlə məşğul olar. Zərli baftalı libası hardan anlayar?

Üç qız bir yerdə oturub danışırdılar. Hər biri atasının işindən söz açmışdı. Biri deyirdi ki, mənim atam Sultanın qatırına çul tikir, palançıdır o. Bunların gördükləri və danışdıqları bu kimi şeylərdir. Həzrət Peyğəmbərin (s) o ucalığı, qüdrəti ilə bərabər, bir fərli evi belə yox idi. Halbuki, ona iki yüz deyil, dörd yüz otaq yaraşırdı. İsaya (ə) inanan xristianlar onu çox yoxsul bir Allah elçisi kimi tanıyırlar. Fəryada gücüm çatmır. Çünki bu səs neydən çıxar. Bu gün Səməndərin oda aşiq olması heç çaşılası şey deil. Hər zaman hər bir varlıq bir şeyə aşiqdir. Eşqdən üz çevirəkmi, qüvvətli dayanağın var. Haqq yolunun ulu öndəri sizsiniz! Sənət

sizindir!

Bir zavallını Həzrət Məhəmmədin (s) hüzuruna gətirdilər. "Bu adam namaz qılmaz", dedilər. "Bəli", dedi həmin adam. Heç bir iş görə bilmirəm. Ancaq Allahı və Onun peyğəmbərini sevirəm. Onların dostluğu məni yolda qoymaz."

Filankəs mənə necə inanar? "Əgər Mövlana Cəlaləddin", desəm, "bəli, pis deyil", deyər. Heç şübhə yox ki, təməl onlardır. O birilər onların sözlərini təqlid edərlər. "Bir işimiz yoxdur", deyirik. Budur, bir iş çıxdı, o birilər bunların sözlərini anladırlar, bunlar da onlardan gələn sözlərə çıxarmazlarsa, qapılar təkrar açılar. Əgər eşidirsə, eşitdiyini ya danışıb dinləməz, yaxud dinləyib danışmaz.

Bir qələndər zərli bir papaq və libas geyinib yol gedirdi. O paltarının altında da bir yamaqlı xirqə gizlətmişdi. Dostlara yetişsin deyə tez-tez yeriyirdi. Getdiyi yerdə nə bir, nə də yüzlərcə yamaqlı xirqənin sözü olmaz. Bu saat alim bir insan deyirdi ki, "biçarə, həcci röyada gördün,

həcc qafiləsinin sarvanını görmədinmi?" İlk öncə, ilk həmlədə üç gün yol gedirlər. Sonra bir çölün sonuna gəlirlər. Carçılar çığıraralar ki, hər kəs başının çarəsini qılsın. Bu yolda ata uşaqlarına baxa bilməz, uşaq atasını görməz. Qiyamət dəqiq qopmuşdur. Minlərlə insanı oradan geri qaytararlar. Çünki "sənin ilk qonaq qarşıladığın yer buradırmı", deyərlər. İyirmi beş gün bu minvalla getmək lazımdır. Carçının bu sözündən kişilərin kişilyi artar. Can nə olar? Mal ilə oynayan kəs nəfsindən daha yaxşı bir şeymi gördü? Çünki onun bir telinin dəyəri yüz min altundan daha üstündür. Ağıla və ağıl sahiblərinə deyirəm ki, boş ver o dəliləri, mal ucbatından canlarını yelə verirlər. Onlar nəfsdən daha dəyərli bir şeymi gördülər ki, fəda etdilər, sonra candan qiymətli nə gördülər?

Quranda "Biz sizi bir az qorxu, bir az aclıq, bir az da mal, can və məhsul qıtlığı ilə imtahan edərik. (Ya Rəsulum! Belə imtahanlara) səbr edənlərə müjdə ver!" (əl-Bəqərə surəsi, 155) buyurulmuşdur. Bu da bir imtahandır. Müjdələ, bax ki, onların nəzərləri sənin səbrinə çevrilmişdirhalından məmnunsanmı deyə. Çölləri keçmək başqadır. Həccin zövqünə yetişmək də başqadır. Namazı çağırmağı da gizli işarətlə edirik. Arifə bir işarə bəsdir.

Qüdrət aşağı enmək deyil. Kəbənin qapısına qədər getməyək. Onu düşünmək belə lazım deyil. Olmaya ki, düşüncə çaşqınlığı ilə aşağı yuvarlanasan. Bu sənə yuxu gətirər. Dəvədən yıxılarsan. Həcci anmaqla da məşğul olma! Çünki başını qaşımağa belə vaxtın yoxdur! Buna imkan tapa bilməzsən. Heç olar ki, at ilxısı geri dönərkən baş qaşımağa vaxt olsun. O uşaq yolda qalar. "Gəl" deməsinə imkan qalmaz. "Əgər o sözlərlə məşğul olaq" deyərsə, karvan gedər. Ona deyərəm, amma təkrar unu-

dar. Bir titrəmə, bir malyariya başından əllərinə qədər yayılar. "Doğrudur", dedi. Əvvəldən demək lazımdır ki, doğrudur, doğrudur. Bunu sonradan söyləmək yalandır. Allahı dərk edən hələ Allah aləminə yetişməmişsə, kənardan nə deyərsən de, amma içindən əlini ağzına qapa. Dil yarası acıqlıdır. Allah hər kamalı anlayar. Cəbrailin qan bahasını hikmət xəzi- nəsindən ödəyər. Onlar içdikləri zaman daha çox ayılarlar. Mey içərlər, məst olarlar. Bunlar ağıllı, ayıq sərxoşlardır. Ayaqlarının altında öl. O oy- uncaqların hər biri üçün, "bu nə gözəl, maraqlı oyuncaqdır", deyirdi. Pər- dənin arxasına get.

Əbu Səid bir icmaya rast gəldi. Tam yeddi gün onların halından heyrətdə qaldı. İkinci həftə çaşqın və özündən keçmiş bir halda arxalarınca düşdü. Ona dedilər ki, nəyin ardınca düşürsən? Həmişə onlara bağlanmısan? İçlərindən biri onun üçün yeməyə bir şey gətirmələrini istədi. O

an bir hünər göstərdi, əlüstü yemək gəldi. Əbu Səid sonra padşahın hü- zuruna yollandı. Ona dedi ki, bir yer hazırlayın, bu icmanın yemək bi- şirmək cəhətindən bir çətinliyi yoxdur. Hazır tapdıqları ilə ehtiyaclarını ödəyərlər. Təkyə loxma dərdindən uzaq olmayan təkyə adamları üçün deyil, ancaq belə bir icma üçün açılmalıdır.

Qatır dəvəyə dedi ki, "necə olur, sən lap az öndə gedirsən. Mən isə çox vaxt karvanın başındayam." Dəvə cavab verdi: "Birinci səbəb budur ki, mən uca himmətliyəm, başım havadadır. Yüksək bir başım, aydın bir gözüm var. Yoxuşun başından baxınca, sonuna qədər görə bilirəm. Başa düşürəm ki, harası düzənlik, harası təpəlik, harası xarab yoldur.

Bir neçə insan var ki, "Allah röyada görünə bilər", deyər. Bir çoxu da Onun nə röyada, nə də oyaq ikən görüləcəyini söylər. Bunlar təqlidçilərdir. Ən çox həqiqəti axtaranlar ən çox təqlidçilərdir.

Bir zümrə var ki, könül təqlidçisidir, bir zümrə səfa təqlidçisi, bir tayfa da Mustafa (s) təqlidçisidir. Bir zümrə də Allah təqlidçisidir. Allahdan söz açarlar. Bir icma da həm Onu təqlid etməz, həm də Ondan söz nəql etməz. Ancaq özlərindən danışarlar. Quran da: "(Ya Rəsulum! Quranda buyurulduğu kimi, sizə çox az elm verilmişdir, söyləyən yəhudilərə) de: "Əgər Rəbbimin sözlərini yazmaq üçün dərya mürəkkəb olsaydı və bir o qədər də ona əlavə etsəydik, yenə də Rəbbimin sözləri tükənmədən öncə onlar tükənərdi!" (əl-Kəhf surəsi, 109) buyurur. "Rəbbimin sözləri" deyə söyləyən odur. Deyirlər ki, O, yəni Allaha işarə edən əvəzlik iki qisimdir. Biri doğrudan-doğruya Ona, yəni Allaha, o biri də Onun həqiqətinə işa- rədir. Bir başqası da "Allah özü üçün "O" əvəzliyini istifadə edir ki, bu onun üçün sayğı ifadəsidir, beləcə, söz daha şirin və lətif olur," dedi. "Qaibi anmaq, ondan uzaqlaşmaq, hazır olanı anmaq da ürkməkdir," deyərlər. Zikr edən bir kimsə iki halın kənarında deyil. Ya

hazırdır, ya qaibdir. Qaib qeybət edir, hazır isə vəhşət, ürkəklik göstərir, deyilə bilər. Onun yanında çox zikr etmək, eynilə sultanın yanında olan xas qulunun, "sultan belə elədi, sultan belə söylədi", deyib durmağına bənzəyər. Bu, bir növ ədəbsizlik olar, xoşa gəlməz. Qeybət isə böyük günahlardandır. Dörd böyük günah - qeybət, böhtan, qan tökmək və zülmdür. Qarşı tərəf haqqını bağışlamadıqca, bu günahları edən kəs əzabdan qurtulmaz. Gərək sultan ona yardım etsin. Allah qarpız göndərdi. İndi bizim qismətimiz armud deyil. Armud boğaza ilişər, halbuki qarpızın dadı xoşdur.

"Şah getdi", dedilər. Divanə oldum. Başmaqsız bayıra atıldım. "Müjdə", dedilər, "indi geri dönür." "Şahmı gəlir", dedim. "Bəli," dedilər. Yeni- dən canlandım, özümə gəldim. Ey Adəm oğlu! İndi yanına gəlim, bir şey

oxuyum ki, yolçuları da ümidsizliyə uğradım, dedim. Bayıra çıxdım, elə özümdən keçmiş bir halda idim ki, qabağıa qaçdım. "Haradaydın ki, gəl- mirdin," dedim. Görəsən, necə edim ki, yanına gəlim? Bir abdal sənə ye- tişməzmi? Mən bu nəfsin əlindən acizəm, sənə necə yaxınlaşım? Ona elə şeylər söylədim ki, əgər o zaman yanımda olsaydın, başıma bir yumruq vurardın. Elə bir yumruq vur ki, bu divara vursan deşərdi. Zavallı mən, kim bilir nə hala gələrdim! Əgər qüvvətli, bazburutlu bir cavan olsaydı, o zaman heç bir şey edə bilməz, ancaq ədəblə ayağına döşənərdi.

Deyək ki, mənim də tanıdıqlarım, qardaşlarım var, gedək danışaq. Əgər, get, deyərlərsə, işin iç üzünə baxaram. Məni qurtararlarmı, yoxsa qurtarmazlar? Əgər onların xatirləri mənimlə bərabərdirsə, mən də birdəfəlik oraya qədər getmək üzündən həlak olaram. Amma, nəhayət, öz istəyimlə o məqsədə yetişdiyimə baxmaz, bu işin sonunun haraya yetəcəyini soruşsam, məni uğursuz qapıçının oğlu fərz et.

Zavallı qapıçı, "görəsən nə olacaq," deyə o qapıda oturmuşdur. Halbuki, indi yürümək zamanıdır. Çünki o tərəfdən bu varlığa doğru "hər an ayrılıq var," deyə çağırırlar. Hər ləhzə, gəl-get, deyirlər. O tərəf eyni rəng- də, eyni şəkildədir. Haqq aləmi xoş bir aləmdir.

Biri dedi ki, bizə söz dedirtməzlər. O deyər ki, Allah ərş üzərindədir. Bu deyir ki, o məkandan kənardır. Artıq biz də çaşdıq. Harda ki, "yaşa, ömrün uzun olsun, vaxtın xoş keçsin" sözləri var, belə danışmağı ayıb sayarlar.

Bir zaman din alimi idim. Safilərin fiqhi olan "Tənbih" adlı kitabı və başqa fiqh kitablarını da oxumuşdum. Amma indi onlardan heç biri xatirimə gəlmir. Ancaq beləcə arxasınca getsəm, başını qaldırar, qarşıma çıxar. Əgər məndə nağıl dinləmək arzusu yoxsa, get, deyər. Barı, sən gəl.

Dostlarla bir yerdə olmaq gənclik çağlarından daha şirindir.

And içmək üçün ərəb dilində üç hərf var: Vav”,” Be”, Te” hərfləri. Bəziləri, vallah, billah, tallahi deyərlər. İşin iç üzü belədir. Bəli. Onun arınmış və uca mənliyi, O Allah-təalanın pak və təmiz zatı haqqı üçün o kimsələr də o mədrəsədə o cəhəti öyrəndilər. “Mərifət öyrənək, filan mədrəsəyə gedək,” dedilər. O dövrü yaxşı dəyərləndirmək gərəkdir. Bu icma içərisində həmişə bundan danışarlar. “Filan yeri tutaq, tez məhşur olaq,” deyərlər. Elmi dünya neməti uğrunda nə üçün öyrənməliyik?

Mənim kim olduğumu, cövhərimin nə olduğunu, nə üçün gəldiyimi, haraya gedəcəyimi, əslimin haradan olduğunu öyrətməyən bir təhsil nəyə yarayar? Əgər bu mənalar bardaqdakı su kimidirsə, mən bardaqsız su axtarıram. Ərəb dilindəki mənalar ərəb örtüyünə bürünmüşdür. İstəyirəm

ki, bunları yaxşı anlamaq üçün sıxıntılara qatlaşım. Məqsəd ərəbcə öyrənməkdən başqa bir şey deyil.

Misra:
Kəbədə, bütxanədə məqsədim sənsən!

Mənim bütxanədən məqsədim sənin yanağının xəyalı və camalındır. Bu şeirin kəlmələri istədiyim o mənaları vermək baxımından könlümə yar deyilsə, əlbəttə, bar olacaqdır. İndi hara gedək? Özümüzü harada xilas edək. Bir ayranın içinə düşmüşük. O necə ayrandır ki, ucu-bucağı yoxdur. Onu dövrəyə alan bir kasa da yoxdur. Ta ki, ayrandan bir kənara çıxaq. Yaxud bal içindəyik. Qanadımızı çırpdıqca daha çox yapışırıq.

Əbu Nəcib Sührəverdiyə dedilər ki, indi ki, sən Allahı görə bilmirsən, bu sənə müyəssər olmur, barı çiləni pozub bayrıa çıx. Hər tərəfi dolaş. Ola bilər ki, O səni görər, Onun nəzərinə yetişərsən, çətin işlərin asanlaşar. Kor Bədrəddinin kürəkəni Şəhabəddinin yanında sənə böyüklük yetişməz, deyirdi.

Cəlaləddinin vəzində deyilən bu söz çox doğrudur. Allahın sözünü, Onun dilini Onun qulu necə bilər? Allah qulu ol ki, Allahın dilini və sözünü anlaya biləsən. “Allah olasan,” demirəm sənə! Küfr söyləmirəm.

Canlı varlıqlar, cansız şeylər, fələk boşluğunun gözəlliyi, bunlar insanda da var. İnsanlarda olan xassələr isə bunlarda yoxdur.

Aləmlərin Rəbbi Sənsən, həqiqət budur! Necə ki, Allah, “Göylərə və yerlərə sığmadım, amma mömin bir qulumun könlünə sığdım’’ (Səhih hədis) buyurmuşdur. Əhməddən Əhədə qədər açıq-aşkar “Mim”dən artıq bir şey yoxdur. Bu “Mim” isə mənanın pərdəsidir.

Misra:

Sən aradan qalxan o "Mim"i cahan fərz et!

Adəm oğlu nə xoşbəxtdir! Yeddi iqlimə, bütün varlıqlara dəyər. Hələ Adəm oğullarından Məhəmməd ümməti olanlar nə xoşbəxtdir. Məhəmmədin (s) gözü Məhəmməd (s) deyilmi? Məhəmmədin (s) gözü aydın ki, sən ona ümmət oldun. Ona ümmət olanda Haqq Peyğəmbəri səninlə iftixar edər, əlindən tutar, Musaya (ə), İsaya (ə) göstərərək öyünər. "Bu adam mənim ümmətimdir", deyər. Həzrət Peyğəmbər (s) ərş üzərində, ərş sakinlərinə göstərərək, "baxın, görün," deyər. Bir ara qəfildən bir Sütun gözünə sataşar, sonra görünməz olar. Qeyb olar. Tərtib əhli ərənlər

getmək haqqında düşünərlər və o zamanı qoruyarlar. Onun ətrafında toplanaraq birlikdə yürümək istəyərlər.

Mən elə şəxsə salam vermək istəyərəm ki, onu uzaqdan salamla- yanların həm salamını alsın, həm də səcdə etsin. Nəhayət, ondan nə çıxar ki, ona ümid bağlayacaqsan, sənin nəyinə yarayar? O bir neçə insana bax ki, sənin kimi iyirmi dörd nəfəri saxlamağa yetişər. Ancaq yaxınlıq etmək arzusu olsun. İndi işə və vəziyyətə bax ki, o, salamın ya- rısını belə verməz.

Hələ uşaq idim. Yetkinlik yaşına çatmamışdım. Bir eşq üzündən otuz- qırx gün bir şey yemək istəmirdim. Biri yanımda yeməkdən söz açsa, o saat əl atıb başımı tutardım. Yemək zamanı mənə bir loxma uzatsalar alardım, amma onu da yeməyib gizlədərdim. Bu eşq halıyla səmada ikən o coşğun dost məni yaxaladı. Bir quş balası kimi məni gəzdirdi. Üç gün yemək yeməmiş bir yeniyetmə əlinə keçən yemək parçasını necə qapıb-parçalayrsa, mən də onun əlində elə olmuşdum. Məni gəzdirdi. İki gözüm iki qan çanağı kimi idi. "Hələ xamdır", - deyə bir səs gəldi. "Onu öz otağına ötür ki, öz-özünə yansın," dedi.

Bu gün, ayıbdır demək, meyxanədən bir pis qadın gətirsən, o eşq ilə çox qıvraq və hərəkətli rəqslər etsə, yeddi göy və yer üzü və bunların sakinləri rəqsə gələrlər. Bunların həqiqi rəqsə başladığı saatda şərq tərəfi mömin və Məhəmmədi olaraq rəqs etməyə başlayarsa, əgər Məhəmməd qərbdə olsa, o da sevinclə rəqsə başlayar.

Bir dəvə bir qarışqa ilə yoldaş olmuşdu. Bir su kənarına gəldilər. Qarışqa o saat ayağını geri çəkdi. Dəvə soruşdu: "Nə oldu sənə?" Qarışqa cavab verdi: "Su var." Dəvə ayağını suya saldı. "Gəl, gəl," dedi, "asan keçmək olar suyu. Su heç dizdən yuxarı da qalxmır." Qarışqa, amma, dedi, dizdən dizə fərq var, sənin üçün dizə qədər olan su mənim başımdan aşar.

Ustadsız qalsam inancım başqalaşar. O sağlam imanım başqa bir şey olar. Ruhuna minlərcə rəhmət olsun, mənim mürşidim budur. Ətrafında cəmləşirlər. Mən özüm üçün fəryad etmirəm, sizin üçün ağlayıram. İndi o ölünün əlamətlərini say ki, onu ağlayım.

Bir Səma aləmində idi. Çalğıçılar xoş səsli və gözəl üzlü, təmiz ür- əkli dərvişlər idi. Amma könüldə heç yer tutmurdu bunlar. Şeyx dedi ki, başmaqlarınızı yaxşı yoxlayın. Yad adamın başmağı sizinkilərə qarışma- sın. Ağıl evin yolunu çıxarar, amma evin içində yol çıxmaz. Ona da ağıl pərdədir, könül pərdədir. Bu qədər xoşumuza gələn pərdələr də kilsələr- də və bütxanələrdə tapılır.

Musa (ə) bir dərvişin əlinə iki bardaq verdi, tez su gətir, dedi. Sonra əlinə bir çörək parçası uzatdı. İkinci gün dərviş Musaya (ə) yalvararaq: "Ya Musa! dedi, Allah "Mənim qatımda söz dəyişdirilməz" və sonra (qulunun dilindən) "Ey Rəbbimiz! Əlbəttə, Sən Öz vədinə xilaf çıxmazsan!" (Ali- İmran surəsi, 194) buyurmuşdur. Musa (ə) dərvişə, sənə qonaq gələcəyəm, dedi. Dərviş özünü itirərək, ey niyaz əhli olmayan ulu peyğəmbər! Bu necə olar, dedi və əlavə etdi: Ey Musa, tez heyrətə düşmə. Musa (ə) soruşdu: Cüz ilə cüzi və küll ilə külli arasında nə fərq var? Dərviş, "bəli," dedi. Musa (ə) yenə soruşdu: "Nə fərq var, bu fərq hansıdır?" Güldü və "xoşdur," dedi.

Misra:
Ey düyünləri çözmə yolunda ölən qəhrəman!

İnsan bir məqsəd üçün yaradıldı ki, haradan gəldiyini və haraya gedəcəyini bilsin. Daxili və zahiri duyğuları da bunun üçün verildi. Çünki bu duyğular bu yola lazım olan araşdırmanı edə bilmək üçün lazım olan araşdırıcıdır, amma başqa bir işdə istifadə edirlər. Həyatı nəşəli olmasa, insan özünə güvənməz. Önündən, sonundan xəbəri olmaz. Elm ilə məşğul olmaq dünya işlərinin ən yaxşısıdır. Zəmanə onu da aparar. O, uzaqlaşmağa yol açar. Ən yaxşı öyüd verənlər son günlərində bunu deyiblər: Dünyada əlimizdə qalan son nəsibimiz cəfa və günahdır. Bu, bütün cahana qarşı verilmiş bir öyüddür ki, o zaman məcburiyyət zamanı deyil. Yaxud sözü bir az açıqlayaraq deyərlər ki, ruhlarımız bədənlərimizdən ürkməkdədir. Çünki dünyamızın qazancı zəhmət və günahdır. Dünya cavab verdi və dedi ki, bəli, burada güvənlik qazanıla bilinməz, güvənlik yolu buradan çıxmaz. Dedi ki, sözü özündən uzaq söyləmək, başqalarına öyüd vermək öz nəfsini unutmaqdır. Bunun ayrılıqdan başqa nə faydası var?

Amma nə üçün gedib üzr istəyirsən, nəhayət, "getdiyimə peşman ol-

dum," deyirsən? Biz də eləyik, sən də, ayrılırıq. Sonra özümüzü tərbiyə bəhsinə gələk. Burada sonda peşman olacaqsan, daha əvvəl olmalısan. Çünki mən iddia etsəm və desəm ki, bu birləşmə növbəsindəki bir ovuc torpaq özgələrlə tapdığın altundan daha yaxşıdır, sən bu birləşmənin dəyərini bilməzsən. Şübhəsiz, səni tərbiyə etmək lazımdır. Bu birliyi sən kimin əlində görürsən. Bu çoxalma mövzusunda səninlə bütün heyvanlar ortaqdır. Əgər sənin, sadəcə, belə bir çoxalıb-artma gücün varsa, onlardan fərqin yoxdur.

Necə ki, Həzrət Məhəmməd (s) ilə ondan əvvəl gələn nəbilərin şə- riəti hökmsüz qaldı.

O, can belə olsa, ondan çəkin, ona, "can ol", deyib dur! Can odur ki, ondan rahatlıq doğar. Ondan üzüntü və iztirab doğmaz. Bunu deyəndə ürəyim ağrıyır. Necə ki, bir nəfər, "sən demirsənmi ki, qəlbim sıxılır", demişdi. Əgər onlardan olsaydın, yüz parçanı yerli-yerinə gətirər, için-için yanardın. O zaman ağrı ağrı üstünə gələrdi, sonra dayanılmaz hala gələn bir şeyin üstünə daha hansı yükü ata bilərsən. Onda bir ağrı yüz dəfə artar. "Biz Allahın qəzavü-qədərinə razı olduq", dedi və həqiqətən razı oldu.

Allah Şüayib Peyğəmbəri (ə) gözləri kor yaratmışdı. Şüayib ona razı oldu. Əziz qulların üzlərini görə bilmirdi. Amma məna aləmini görürdü. Bu zahirdə xoş olar. Bir şey əlinə çatmayanda, ona da razı olurdu. Amma razı olmaq ona deyərlər ki, insan ağlını yoxluq sıxıntısı ilə məşğul eləməsin. Əyyub Peyğəmbər (ə) bədəninə yara salmış o qurdlara razı olmuşdu, könlünü onlara vermişdi. Düşünmürdü ki, bu əzab nə qədər sürəcək? Yaxud, "ya Rəbb, bu iztirabın nə vaxta qədər davam edəcəyini mənə bildir", demirdi. Dərmansız bir xəstəliyə tutulan hər kəsin əlacı budur: Mən yeyim, sən yemə! Amma hər zaman "sən yemə" deməyin kişiliyə sığmaz. Məni neçə dəfə sınadın. "Son dərəcə möhkəm pəhriz saxla", deyə bilərəm, amma son dərəcə necə olur? O son dərəcə nə ilə izah edilir? Görürsən ki, bu, çox zərər verir. Öz iztirabından bəhs edərkən, "artıq yediyin o gündən bəri, mənim rahatlığım pozuldu", deyirsən! Nə Səmada, nə danışmaqda rahatlıq qalmadı. Sözdə-söhbətdə, xülasə, hər şeydə narahatlıq göründü. Gərək qeyb aləmindən bir çarə gəlsin. "Bəli" dedi, "qeybə iman edərik, biz mömin qullardanıq, sona qədər inancımızı qoruyarıq." Hər şey qeybdən meydana gələr, yoxdan var olar. Bütün doğuluşlar qeyb aləmindən gəlir. Malik xeyli pul sərf elədi, özünə "fəta", yaxud "əxi" desinlər deyə anasını dərviş eləmişdi. Mən bilirəm ki, o nə fətadır (igid), nə də əxi. Olduqca təmiz ürəkli və yaxşı adamdır, amma onun başında bir sevda var. Yəni istəyir ki, mən onun anasını ziyarətə

gedim. Tanış-biliş qadınlar, nemət haqqını unutmayan dostlar əl-ayağa düşüb, başıma dolansınlar, "sənə nə bişirim" desinlər. "Mən də hər nə olursa-olsun", deyim.

Həmədanlı Eynülqüzatdan bir neçə söz danışdılar. Bu adam "olan bir şeyi dedim, dilim-ağzım qurusun, kaş olmayaydı" söylədiyi üçün dolu yağıb. İbn Abbasdan da buna bənzər sözlər danışırlar. Halbuki, Həzrət Mustafa (s) bunlardan başqa cür danışırdı. Onlar Həzrət Mustafanın

(s) sirrinə yetişmədilər və yetişə bilməzlər də. İsa (ə) da, Musa (ə) da o sirri qavraya bilmədikləri üçün "Allahım, bizi Məhəmməd ümmətindən elə!" - deyə yalvarmışdılar. Onların buna can atmaları, həmişə Həzrəti Məhəmmədin (s) məqamını istədikləri üçündür. Amma bu olmaz. Quranda "(Əməllərinizi) yazan və (Allah dərgahında) çox hörmətli olan mələklər vardır," (əl-İnfitar surəsi, 11) buyurulmuşdur. Yaxşı bir iş görərkən sağ tərəfindəki mələk, sol tərəfindəki mələyin əmri ilə yazdırar. Çünki sol tərəfindəki mələk düşüncəni, niyyəti meydana gətirər, yazar. Yeddi yüz qat, hətta sonsuz savabı belə yazar. Bunlar hər biri yenə Quranda "Kim Rəbbi ilə qarşılaşacağına ümid bəsləyirsə, yaxşı iş görsün və Rəbbinə etdiyi ibadətə heç kəsi şərik qoşmasın!" (əl-Kəhf surəsi, 110) mənasını verən ayədə işarə olunan tək Allah odur. Onun varlığının o birinə faydası yoxdur. "Allah nuru ilə istədiyinə hidayət yolunu göstərər" buyurulması da buna dəlildir. Qurandakı vədlər və cəzalar başqaları üçün ayrılmışdır. Qəhhar olan Allah, həm də bağışlayandır.

Dedi ki, nə üçün namaz qılmırsan? "Allah əmr etdiyi üçün", dedi. Harada buyurdu bunu? "Sərxoş ikən namaza yaxınlaşmayın" (ən-Nisa surəsi, 43) buyurulmadımı? "Onu sən oxu", dedi. Bir ayə möminlərin halı haqqındadır, onlar üçün endirilmişdir. Ondan sonra bir ayə də kafirlər üçündür. Amma o eşq aləmində həmişə lütf var, heç qəhr və cəza yoxdur. Biz çoxdan bəri qəhrdən kənara çıxdıq. Amma o bura yaxındır, cəhənnəm bu tərəfdədir. Cəhənnəmdən keçərsən, o biri tərəf cənnət yoludur, sonsuz, ucsuz-bucaqsız, lütf və səadət aləmidir.

Bir çəkməçi vardı. Həzrət Peyğəmbər (s) üçün gözəl bir ayaqqabı tikdi. Həzrət Peyğəmbərin (s) xoşuna gəldi, "gözəl tikmisən" buyurdu. Usta susmadı, "bundan daha yaxşısını tikərəm, ya Rəsulullah! Tikməyi bacara bilərəm." Peyğəmbər buyurdu: "Onda onu kim üçün saxlayırsan? Bu daha yaxşı başmağı kimə tikəcəksən? İndi ki, mənim üçün tikmədin, kimin üçün tikmək istəyirsən?"

Həzrət Məhəmməd (s) qırx yaşına qədər dəvətlə məşğul olmadı. Sonra düz iyirmi üç il xalqı İslama dəvət etdi. Bu qədər işlər oldu. Bəli, nə qədər olsa, bu müddət az idi. Allah ilə birlikdə keçən hər gün, bilirsən ki, ölümsüz və sonsuzdur. Mən bu dadsız əriştə plovundan yesəm, bu nemət

həmişə Onun səxavətindəndir. Ya Rəbb! Onu barmaqla göstərim, gör! Barmaq budur, o deyil, budur, budur.

Bir siçan dəvənin noxtasından yapışdı. Onu çəkməyə başladı. Dəvə üzüyola və sadəlövhlüyü ucbatından siçanın arxasınca yeridi. Necə ki, "Mömin də üzüyola dəvələr kimi səbrlidir" buyurulmuşdur. Dəvənin bu

üzüyolalığını onun yumşaq xasiyyətli və sadəlövh olmasına, bəziləri də onun bütün heyvanlardan daha uzunboylu olmasına rəğmən ağıl dərəcəsinin aşağı olması ilə yozarlar. Bunun sirri başqadır. Siçan dəvəni su kənarına qədər gətirdi. O cəld hərəkətli, iri cüssəli heyvan aciz qala bilməzdi. Siçandan soruşdu:" İndi burada nə üçün dayandırdın? Buradan nə üçün keçmirsən? Sən mənim kimilərin noxtasından yapışmağı sənə yaraşmadığını bilmədinmi? İndi necə yapışmısansa, noxtadan yeri görüm! Siçan, "su çox dərindir", dedi. Ayağını suya basan dəvə "gəl- gəl" dedi. "Sudan keçmək asandır, heç dizdən də deyil." Siçan, "amma dizdən dizə fərq var", dedi.

İndi sən də tövbə et ki, bir daha belə üzlülük etməyəsən! Mənim sərmayəmin üstünə çıx otur! Mənim səmərimdə sənin kimi yüz minlərcə siçanın ağırlığının nə dəyəri var? Bir dəqiqədə suyu keçərik. Gəldim ətəyindən yapışdım, kənara çəkildik. Deyirsən ki, neçə belə ucaboylu alçaqlardan bizim üçün bir uzunboylu, uca yaradılışlı biri çıxmaz, çıxa bilməz, nədən bəllidir bu? Şübhəsiz, danışmaq lazımdır, amma bunlardan danışmağa lüzüm yoxdur. Bunun sözünü danışmağa dəyməz, ancaq təslim etmək gərəkdir, qurtardı getdi. "Söz sözü açar", deyərlər. İndi ki, Haqq razı oldu, sultan üzünü sənə tərəf çevirdi, artıq bağbanı əldə etdikdən sonra bağ sənin oldu deməli. Hansı ağacdan istəyirsən meyvə dər! Madam ki, bu saat sən danışırsan, heç kimsə danışmaz. Deyə bilməz ki, mən doğru danışmıram. Sən ağıllı insanları dinlə. Sənin buraya gəlməyin bizim üçün çox xeyirli oldu. Heyf ki, ömür vəfa etmir. Cahan altunlarla dolu olmalıdır ki, onu sənin vüslatın şərəfinə ayaqlarının altına səpim. Bizim canlı Allahımız var, ölü "allahları" neyləyirik? O bənzərsiz Allahın mənası eyni mənadır. Allahın vədi pozulmaz. Ancaq o yalançı "allahlar" məhv olub gedər. Allah daim əzmlə davranır.

Biri soruşdu: "İblis kimdir?" O biri, "sənsən", dedi. "Çünki mən Alla- ham, mənim əksim də sənsən, başqa kim olacaq? Toylar, nikahlar bir cür deyil. Bu da nəfsin büsatıdır.

Şeir:

Dostların ayrılığından ah çəkmək, sabah vidalaşmasından fəğan yaraşır. Bu iki bədbəxtliyə uğramaqdansa, ölüm min qat daha xoşdur.

Burada işi düzəltmək lazımdır. Yaxşı bir iş gördün, cənnətdə açıq- aydın bir məqam hazırladın özünə, öz yerini gördün, o zaman keçdi.

Bir dindarın əlindəki bir axça başqa birinin əlindəki yüz min dinardan daha yaxşıdır. Dinsizi atəşin üstünə atıb, cəhənnəmə apararlar. Mənim

ipim uzun, geniş və incə deyilsə belə, hər kəs onu görə bilər. "Sən kimsən", deyirdim ona. "Qarşında bir qəpik dəyərində halva var", dedim, heybətlə baxdım. Ustad və kamil bir insan idi, heç vecinə almadı, "özün bilərsən" dedi. "Məni Allaha tapşır, o günahları gizlədəndir və ən gözəl güvən yeridir."

Bu, Seyyidin sözüdür: Seyid Bürhanəddin Hakim Sənayinin həm müridi, həm də şeyxi oldu. Seyid deyirdi ki, loxmanı başının arxasından götürən kimsə, sanki sinirini qoparar. Allah quluna inayət edərsə, bir xristian uşağını belə onun yolunda müsəlman edər. Bu söz öz gözəlliyi ilə söylənməyə dəyər. Həm də demək lazımdır ki, mənim nəzərim ona toxunarsa, müsəlman olar.

Kürklü xirqə ilə çarığı unutma! Onun arxasınca getməyin nə mənası var? Qorxu harada qalar? Rast gəldiyin hər şeyi yemə ki, sonda "əgər onu yeməsəydim, daha yaxşı olardı, yaxud kaş heç yeməyəydim", deməyəsən. Əvvəlcə qumaşı ölç, sonra kəs. Quranda "Yuxunuzu da istirahət etdik. Biz gecəni örtük etdik. Gündüzü isə dolanışıq vaxtı etdik," (ən-Nəbə surəsi, 9.10.11) buyurulmuşdur. "Yuxunuzu rahatlıq, gecənizi örtük etdik" buyurulması ayıqlıq halına işarədir. "Gündüzü dolanışıq vaxtı etdik" buyurulması da xırda balıqları yeyib dolanan böyük balığın halına şükr etməsi kimidir. Dənizdə sular arasında bir aydınlıq göründü, gəmiçidən soruşdum, heç bir səs çıxmadı. Bir gün yenə o aydınlıqda gedirdik, başqa bir parıltı da göründü. Ondan sonra gəmiçi dərhal səcdəyə döşəndi. "Bu şükran səcdəsidir," dedi. Əgər söyləsəydim, ürəyin partlayardı. Gözünün birini bir balığa, o birini o biri balığa dikmişdi. Əgər bir an gə- midə yuxulasaydım, o biri balığı görməyəcəkdim. Balıq hər zaman də- nizdə çaşqın bir vəziyyətdədir. Amma dəniz də o balığa çaşıb qalıb. Mənim içimdə o böyüklük və genişlik necə olar? Məndə nə var deyə, çaşmaqdadır.

Əlimdə zəif bir çıraq tuturdum. İt hürdü, onun qorxusundan evə qaçdım. O evdən başqa bir evə, sonra da böyük bir təndirin içinə sığındım. "Hey, anam, anam! Silahımı gətir", dedim. "Ana qılıncımı və xəncərimi gətir, bayıra çıx, məhəllənin başında hürən o iti, "ham-ham" sənsən, sənin anan-atandır, de. Əgər igidsən, təndirin başına gəl! Xəncərlə sənin beynini dağıdım!"

Bir şərabçı şərab satırdı. Bir nəfər soruşdu: Sən şərabı satırsan, am-

ma, görəsən, əvəzində nə alacaqsan? Məsciddən geri qalan kimsə "lahəvla" məscidinə gedər. İnsan əgər "lahəvla"nın nə demək olduğunu bilərsə, yəni qüvvət və qüdrətin Allahdan olduğunu anlayarsa, onun

cümə namazı boşa getməz. Meyxanədə belə "lahəvla" çəkmək, Kəbədə "lahəvla"sız qalmaqdan daha xeyirlidir. Amma məsciddəki "lahəvla"nı nə bilim.

Bir qadın bu sevdada idi. Bir neçə cibgir ağlayıb-sızlyaıb ona ya- xınlaşdı. "Xanım", dedilər, "bu xəzinə məsələsini ancaq sənin sayəndə bacara bilərik. Yoxsa o dəyərli xəzinədən faydalanmağa bizim gücümüz yetməz." Onlar gecikmişdilər. Biri dedi ki, xanım sarığını versin ona, bir xəbər gətirsin. O biri cibgir, "o gecikər", dedi. Siz bu qatırı qulunuza verin, mən onu və yoldaşlarımı çağırım. Bir şərtlə ki, filankəsin başına and içəcəksən, bu məsələni heç kimə deməyəcəksiniz.

Bir kar dəyirmandan gəlirdi. Dəyirmana tərəf gedən bir nəfərlə rastlaşdı. Öz-özünə, "bu adam məndən hər halda, hardan gəlirsən deyə soruşacaq", dedi. Salam verməyi belə unutdu. Əvvəl bu şəkildə yanlış düşüncə başında bir az sərsəmlədi. "Hardan gəlirsən", soruşacaqlarını düşündüyü üçün, "dəyirmandan gəlirəm", deyərəm - deyə düşündü. "Nə qədər un üyütdün", soruşarlarsa, "bir tay", deyərəm. Halbuki, həqiqətən kişi deyirdi ki, arvadının niyyəti puça çıxırmı? Belinə qədər işarə edirdi. Nəhayət, kişi bu yolçunun kar olduğunu görəndə, ilk sözü başa düşmədiyini sezdi. Ondan sonra ağlına gələn hər şeydən danışdı. Amma əgər doğru cavab versəydi, əvvəl dediyi söz xoşuna gəlməzdi. Amma o kardı, hər şeyi başa düşə bilməzdi.

Quranda "Orada (o cənnətlərdə) gözlərini (yalnız ərlərinə) dikmiş, bundan əvvəl heç bir ins-cins toxunmamış hurilər vardır" (ər-Rəhman surəsi, 56) buyurulmuşdur. Bunun mənası nədir? "Hələ o cənnətlər ki, Allah aləmidir", soruşdum. Ona görə müqayisə et. Dedim ki, insanoğlu və cin tayfası ona yetişməmişdir. Yəni, bu içkilər bu aləmdə də bizim əlimizə keçməzmi? Hər kəsin mərtəbəsinə görə zəncəfildən, şəlalədən, kafur və təmiz şərabdan payı varmı? "Verdikləri sözə əməl edənlər, qorxunc mənzərəsi aşkar olan o gündən qorxanlar" anlamındakı ayə nədir? Bu, hər kəs haqqındadırmı? Bəziləri bunun Həzrət Əli (ə) haqqında olduğunu söyləyərlər. Ayənin enməsinə səbəb özlüyündə anlaşılır. Olsun ki, bunlar da bir səbəb söyləsinlər. Amma çox soyuq və yersiz olar. Öz düşüncələri ilə doğru yola gəlsinlər. Bu xirqəmin qolunu öpdü, onun o üç gecəlik Səmada bir neçə gün sürəcək işləri tamam oldu. Dükandan ət gətirən o yəhudinin yeddi arxa dönəni tacir idi. Amma o yenə də yəhudidir ki, yəhudi.

İbn Məsuda Həzrət Peyğəmbər (s) Quranın sirlərindən bəzi şeylər

açıqlayardı. Onun bildirdiyinə görə, filan ayənin mənasını Peyğəmbər

əshabələrinə açıq söyləyərdi, ikinci mənasını da mənim qulağıma pıçıl- dayardı. "Bunları sizə deməsəydim, boynumu vurardınız", dedi. Səhabə- lər o zaman o sözləri küfr sayardılar.

"De: "Mən də sizin kimi ancaq bir insanam. Mənə vəhy olunur ki, sizin tanrınız yalnız bir olan Allahdır." (əl-Kəhf surəsi, 110) anlamındakı ayənin enməsinə səbəb nədir?

Siz də bilirsiniz ki, Həzrət Əli (ə) ayın onuncu gününə qədər Həzrət Peyğəmbər (s) kimi ət yeməzdi. Həzrət Peyğəmbər (s) Əlinin (ə) üzünə baxanda onu əməlli-başlı zəifləmiş gördü. "Sən mənə baxma", dedi, "mən sizin hər hansı biriniz kimi deyiləm." Buna görə ayə gəldi: "De: "Mən də sizin kimi ancaq bir insanam." Amma aradakı fərq bu qədər bir şeydir ki, o da mənə vəhy gəlir. Yəni mən açıq-aşkar bir iş görərəm, amma heç kim bilməz. Onların arasında gördüyüm o işdən, görürsünüz ki, ağızlarından heç bir xəbər çıxmaz. Gərək mən istəmiş olam. Peyğəmbərə bənzəyən və bərabər olanlar nə üçün olsun, onun bənzəri olarmı heç? Nə üçün, bu da sənin bənzərin olsun. Nəhayət, lazımdır ki, hər kəs öz işi ilə məşğul olsun. Mən də niyyət etdim, bundan daha yaxşı bir iş varsa, din və dünya qazancı üçün o işlə məşğul olum, əlimə keçəni burada xərcləyim.

Hakim Sənayi əcəli gələn zaman dilinin altında bir şey pıçıldayırdı. Qulaq verdilər. Ağzından bu sözlər eşidilirdi:

Şeir:

Söylədiyim şeylərin hamısından vaz keçdim, peşman oldum, Çünki sözdə məna, mənada söz qalmadı.

Çünki sən Allah yolunda bir qarış yürüsən, O sənə on addım ya- xınlaşar, zəhmətsiz və minnətsiz yeriyərsən. O, misal üçündür. Məqsəd Allahın müqəddəs sözündəki mənadır. Yoxsa qarış, addım kimi ölçülərin nə mənası var? Göz kağıza baxar və xüsusilə öz yazdığı şeyi bəyənməz. Ağ kağıza baxanda çaşıram. Yoxsa mən səni sevənlərdənəm. Onun nə yeri var. "Mənə filan şəhərə get", - deyə əmr edərsən, "istəsəm gedərəm, istəməsəm getmərəm." O, qeyb və gizli aləmdən keşişlər də xəbər verər. Onlar da həmişə deyiblər ki, bütün yollardan və gedişlərdən Həzrət Məhəmmədin (s) yolu ən yaxşısıdır. İnsaflı olanlar insaf edərlər. Çünki onla- rın dünyagörüşlərində və gedişlərində Həzrət Məhəmmədin (s) yolu kimi aydınlıq yoxdur.

Qadına yaraşan ən yaxşı iş evinin bir bucağında ipini əyirməsidir. Dərvişə yaraşan da dərvişlik və səssizlikdir.

Şeir:

Əncir satanlar üçün ən gözəl şey nədir, bilirsənmi?
Əncir satmaqdır, əncir satmaq, qardaşım!

Səid Müseyyibin Hekayəsi

Səid Müseyyib Bağdad müdərrislərindəndi. Gözəllikdə, şirinlikdə tayı-bərabəri olmayan bir qızı vardı ki, səsi-sorağı xəlifəyə qədər gedib çatmışdı. Xəlifə bu qızla evlənmək üçün zülm və cəfadan başqa hər cür planlar və tələlər qurdu, amma heç cür onu əldə edə bilmədi. Səidin bir şagirdi də var idi. Tələbələr arasında ən utancaq və təmizürəkliliyi ilə seçilirdi. Mədrəsədə sıraların ən gerisində oturardı. Bu şagirdin bir dərviş təbiətli anası vardı. Bir gün böyük ustadın gözü bu şagirdə sa- taşdı. Dərs vaxtı qurtarandan sonra onu sakitcə yanına çağırdı. Hal-əh- valını soruşduqdan sonra, "gözəl qızımı sənə verib, sonra da səni özümə vəkil seçəcəyəm", dedi. Şagird müəlliminin bu təklifini anasına danışdı. Anası da bu xəbərdən çox təşvişə düşdü, bunda bir uğursuzluq sezdi. Fikirləşdi ki, yəqin oğulunun başına hava gəlib. "Bala", dedi, "bunu rö- yadamı gördün? Görəsən, nə oldu sənə, indi mən nə edim? Pulum da yoxdur ki, səni həkimə aparım." Oğlan cavab verdi: "Ana, bu nə yuxu, nə xəyal, nə də sayıqlamadır. Həqiqətən belə oldu. Ertəsi gün anası daha da pisləşdi. Məhəllə qadınları ilə məsləhətləşməyə başladı. "Bu oğlan başımızı yeyəcək, barı siz onu qorxudun, bu sevdadan vaz keçsin. Bir daha belə şeylər gözləməsin. Əgər başqaları eşitsə, onun dəli olduğunu zənn edər, haqqında şahidlik edər ki, övladımın başına hava gəlib."

Ertəsi gün dərsə gedəndə ustad onu yenə çağırdı. Çox iltifat göstərdi. Bundan sonra zavallı şagird gözlərini ovuşdurub öz-özünə deyinməyə başladı: "Görəsən, bu bir xəyal və ya röyadırmı? Necə ki, anam və qonşu arvadlar hamısı birdən, "sən düşünmədən-daşınmadan boş-boş danışmağa başladın, qara sevda səni ağuşuna aldı", deyirlər. Sonra yenidən ətrafına baxdı. Hər şey yerli-yerində idi. Mədrəsə, müəllimi və özü heç dəyişməmişdi. "Xeyr", dedi, "Allaha and olsun, bu, xəyal deyil, qara sevda və dəlilikdən isə danışmağa dəyməz." Təkrar evinə getdi, olub-keçəni anasına danışdı. Bu dəfə anası və qonşu qadınlar yenə oğlanın eşqə düşdüyünü iddia etdilər. "O həm öz başını, həm də bizim başımızı yeyəcək", dedilər. Nəticədə oğlan nə dedisə, onlar heç birinə inanmadılar.

Toy günü gəlib çatanda oğlan gözəl libaslar geyinib evə gəldi. Anasına da qızıl və gümüş hədiyyələr gətirmişdi. Anası hələ şübhəli idi. Hələ şübhəsi keçməmişdi ki, qızı gecə evinə gətirdilər. Qonşu qadınlar, ana

çaşqın-çaşqın baxırdılar. Qızı yaxından tanıyan qadınlardan bir çoxu qızın yanına getdi. Onda elə bir dəyişiklik gördülər ki, "aman, ya Rəbb", dedilər, "bu necə olar?" Qız onlara cavab verdi ki, "burda çaşılası nə var? O, elm və fəzilət əhlidir, biz də eləyik. Amma bəlkə o, bizdən daha üstündür. Çünki biz dünya adamıyıq, onun isə dünyada gözü yoxdur. Bu halda, bizdən daha yetkin, bizdən daha şərəflidir. Biz də dünyanı tərk etməliyik ki, ancaq onun kimi olaq", dedi.

Xoca Əhmədin gözü bir dərvişə sataşdı. Alnında bir işarət görürdü. "Atan sənə bir gün ağlamır", dedi. Dərviş, "xeyr", dedi, "onun heç bir şeyi yoxdur. Mən sənə min dinar verim, al götür, oğlumu da sənə yoldaş edim", dedi. Dərviş evinə gedib, hadisəni evdəkilərə danışdı. Xoca kəramət göstərmişdi. Çünki Xoca Əhmədin oğlu yox idi. Atası dedi ki, "heç vaxt ondan ümidini kəsmə. Onun altunu da var, libası da. Amma zəma- nənin əli onu gizləmişdir. Mən əhvalatı bilirəm."

"Allahu Əkbər"" nə deməkdir? Yəni ən kiçik Allah kim olur ki, onu himməti ilə özünə çəksin? "Güc qalibindir'' deməyəsən! Bizim hekayəmiz onların söylədikləridir. Ey sultan, qalx! Əgər gəlsən, gedərik, xərci də məndən olsun. Yaxud məni unudan şəxsə yetişək. Mən haradayam? Məndən xəbəri yoxdur. Əgər məni görsən, salam söylə! Bilirəm, amma yenə xoşlanıram, baxaq görək nə olacaq? Bunlar dərvişlərin xoşlandığı şeylərdir. Dərvişlərin qulları da məndən xoşlanır. "Dünya axirətin körpü- südür" sözünü biz özümüz deyirik. Bir nəfər lazımdır ki, məni güldürsün. Bunu anladım. Yenidən xəzinənin açarını əlinə verdim. Amma sən önünə pərdə çəkirsən. Həm də özün öz nəfsinə pərdə olursan. Özündən uydur- duğun və özünə pərdə elədiyin xəyallar əskik deyil. Buna görə xəyala dalıb, onu başqa xəyallarla qarışdırırsan. Onların səni sevməməyindən qəti qəm yemə! Onların səndən uzaqlaşmaq istəməsi eynilə yəhudilərin istəklərinə görə hərəkət etməyən müsəlman uşaqlarından diksinməsinə bənzəyər. Sənin məsciddən çıxarkən Quran qoltuğunda, "Allahdan baş- qa Allah yoxdur'', deyə pıçıldadığını, bir neçə hərf dediyini görürəm. "Bu nədir", deyirlər, "içindən sənə bir səda gəlirmi?" Mənada nə üçün zahirin- dən yaxşıdır. Belə bir xəzinədən öz fikrinlə uzaqlaşmaq lazım deyil. Öz bədənlərinə zülm edənlər Allahın xas qullarıdır. Bəli, onlar əzab çəkərlər, böyük eşq dərdinə düşmüşlərdir. Fəqət bu başqalarının işi deyil. Beləcə, onların adları yad edilir, görəsən, işin sonucu necə olar?

Yusuf Peyğəmbərin (ə) kiçik qardaşı Bünyaminin adı oğru kimi çıxsaydı, nə olardı? Dərviş Bəyazid Bistaminin türbəsi başında deyirdi ki,

onun bir pərdəsi qalmışdı, o pərdə içində dünyadan köçüb getdi.

Yanındakı altunu nə qədər inkar etsən, "mən bir şey deyiləm, ondan daha yoxdurmu, gətir", deyər. "Əvvəlcə səndə ondan var idi, gətir. Yanında gəzdirdiyin altunu inkar edirsən." O, "mən bir şey deyiləm", dedi. "Ondan, o yoxdan gətir! Əvvəlcə ondan səndə vardı, ondan gətir", dedi. "Bəli", dedi, "var yoxluğu istəyərmi?" "Mən də ağlayıram", dedi. Bir nəfər də olmalıdır ki, məni güldürsün. İndi sərxoş olacaqsan ki, ayılasan. Ah və fəğan uşaqların işidir, onlara yaraşır. Dedi ki, "yol sənin getdiyin yoldur. Mənim getdiyim bu yolda nə qədər yol yoldaşım var. Amma o da buradan deyil."

İndi onlar nəyə yarayar? Dinə yaramazlar, dünyaya yaramazlar. Soyuq və donuq şeylər, icazə ver, bir qəlbimi ovudum, sənin yanında onlar gərəkdir. Yaxud onlara sən yaraşarsan!

Siz bizimsiniz, biz də sizin. Haradandır bu söz? Allaha and içərəm ki, nə onlar bizimdir, nə də biz onlardanıq. Onun da saqqalı var, bizim də. Ya Rəbb! Sənə dua edirik. "Ey Allahım, könlümün istədiyini ver", - deyə yalvarar. Mənim qəlbim hər şeyi istəməz. Bir dərviş dedi, "mən Əbu Abdullah Məhəmməd Mustafadan (s) bunu öyrəndim ki, Əbubəkir (r.a) onu bilməz." O, bəlkə Həzrəti Mustafadan (s) öyrənməmiş və xəbər verməmişdir. Məndən bunu öyrən ki, yeməyin qarşısında səbr edəsən, pəhriz saxlayasan. İlk işin budur. Bu, nədir, zəiflikdirmi?

"Sultan Allahın kölgəsidir'' sözü Əbul Həsən Hərrakinin nəzərində doğru deyil. Dənizə düşüb və üzmək bilməsən, boğulub ölərsən. Başına su tökərlər. Biri oxunu uzağa atar, kərəm sahibi olar. Quranda "Məgər Rəbbinin kölgəsni necə uzatdığını görmürsənmi?'' (əl-Furqan surəsi, 45) anlamındakı ayəni xatırlayıb üzünü arxana çevir. Arxanda nə görəcəksən. Həzrət Əbubəkir (r.a) arxandan səslənəcək: Ey çaşmışların rəhbəri! Bir tərəfdən cavab gələr: Əgər Məhəmməd (s) yaradılmasaydı, o qədər kölgə qalacaqdı ki, onun kölgəsini ərşə götürəcəkdilər. Yəni onunla savaşa girişən kəs divanədir. Necə savaşa bilər? Yeddibaşlı əjdaha onun varlığının kölgəsidir. Bu, iftiradır, bunun başqa mənası var. O elə arıqdır ki, köksünün hər tükündən tər damlaları axır. "Kaş ki, onun köksündə tük olaydım" sözü öyünmək baxımından deyil. Biri min istək və yalvarış ilə bir tikə rahatlıq istəyər. "Ya Rəbb, işimi asanlaşdır", deyər. O birini buraxmazlar ki, bayıra çıxsın. Başına şərab tökərlər. Biri ağlar, bir damla yaş çıxarmaz gözündən. O birini buraxmazlar ki, çaydan bayıra çıxsın.

Bilmirəm namazda nə oxuyum. Görəsən, "Fatihəsiz namaz olmaz''
əmrinə əməl edimmi? O biri başqa hava çalır. İlahi söyləyər, rəqs edər.

"Gördüm ki, bir süfrə gətirirlər", deyər. Əgər başqalarının evinə aparılarsa, sizə nə?

Bağlansan, nə taparsan? Ucalıqlar çəkilən əməyin əvəzində əldə edilir. Yüksək məqamlara yetişmək istəyənlərin gecələr ayıq-sayıq yatmağı gərəkdir. Yəni istədiyi kimi yatmazlar. Kaş ki, zahirən yataydıq. İstiliyi torpağa bu mərtəbədə verdi. Nə uca qüdrətdir! Mən nəfsim üçün necə to- parlansam, razıyam. Sizə yenə deyirəm, madam ki, bilirsən, başqa sözə nə lüzum var?

Sizə lazımdırsa, təni də tərk edək. Sənin tapdığın dostlara daş belə tab gətirməz. Uşaqlar "Musa təyin etdiyi vaxtda gəldikdə, Rəbb onunla danışdı" (əl-Əraf surəsi, 143) anlamındakı ayəni oxuyarlar. Halbuki, Allah bütün günü Musa (ə) ilə bərabərdi. Günəş beləcə hər tərəfə baxar, bir zərrə qeyb olmaz. Ondan bir fəryad qopar, çünki atəşdən qaçmaz. Bu təqdirdə o məqam pərvanənin seyranıdır. Palançı palançılığını unutmaz, ancaq o sənətlə məşğul olar. Zərli baftalı libası hardan anlayar?

Üç qız bir yerdə oturub danışırdılar. Hər biri atasının işindən söz açmışdı. Biri deyirdi ki, mənim atam Sultanın qatırına çul tikir, palançıdır o. Bunların gördükləri və danışdıqları bu kimi şeylərdir. Həzrət Peyğəmbərin (s) o ucalığı, qüdrəti ilə bərabər, bir fərli evi belə yox idi. Halbuki, ona iki yüz deyil, dörd yüz otaq yaraşırdı. İsaya (ə) inanan xristianlar onu çox yoxsul bir Allah elçisi kimi tanıyırlar. Fəryada gücüm çatmır. Çünki bu səs neydən çıxar. Bu gün Səməndərin oda aşiq olması heç çaşılası şey deil. Hər zaman hər bir varlıq bir şeyə aşiqdir. Eşqdən üz çevirəkmi, qüvvətli dayanağın var. Haqq yolunun ulu öndəri sizsiniz! Sənət sizindir!

Bir zavallını Həzrət Məhəmmədin (s) hüzuruna gətirdilər. "Bu adam namaz qılmaz", dedilər. "Bəli", dedi həmin adam. Heç bir iş görə bilmirəm. Ancaq Allahı və Onun peyğəmbərini sevirəm. Onların dostluğu məni yolda qoymaz."

Filankəs mənə necə inanar? "Əgər Mövlana Cəlaləddin", desəm, "bəli, pis deyil", deyər. Heç şübhə yox ki, təməl onlardır. O birilər onların sözlərini təqlid edərlər. "Bir işimiz yoxdur", deyirik. Budur, bir iş çıxdı, o birilər bunların sözlərini anladırlar, bunlar da onlardan gələn sözlərə çıxarmazlarsa, qapılar təkrar açılar. Əgər eşidirsə, eşitdiyini ya danışıb dinləməz, yaxud dinləyib danışmaz.

Bir qələndər zərli bir papaq və libas geyinib yol gedirdi. O paltarının altında da bir yamaqlı xirqə gizlətmişdi. Dostlara yetişsin deyə tez-tez yeriyirdi. Getdiyi yerdə nə bir, nə də yüzlərcə yamaqlı xirqənin sözü olmaz. Bu saat alim bir insan deyirdi ki, "biçarə, həcci röyada gördün,

həcc qafiləsinin sarvanını görmədinmi?" İlk öncə, ilk həmlədə üç gün yol gedirlər. Sonra bir çölün sonuna gəlirlər. Carçılar çığıraralar ki, hər kəs başının çarəsini qılsın. Bu yolda ata uşaqlarına baxa bilməz, uşaq atasını görməz. Qiyamət dəqiq qopmuşdur. Minlərlə insanı oradan geri qaytararlar. Çünki "sənin ilk qonaq qarşıladığın yer buradırmı", deyərlər. İyirmi beş gün bu minvalla getmək lazımdır. Carçının bu sözündən kişilərin kişilyi artar. Can nə olar? Mal ilə oynayan kəs nəfsindən daha yaxşı bir şeymi gördü? Çünki onun bir telinin dəyəri yüz min altundan daha üstündür. Ağıla və ağıl sahiblərinə deyirəm ki, boş ver o dəliləri, mal ucbatından canlarını yelə verirlər. Onlar nəfsdən daha dəyərli bir şeymi gördülər ki, fəda etdilər, sonra candan qiymətli nə gördülər?

Quranda "Biz sizi bir az qorxu, bir az aclıq, bir az da mal, can və məhsul qıtlığı ilə imtahan edərik. (Ya Rəsulum! Belə imtahanlara) səbr edənlərə müjdə ver!" (əl-Bəqərə surəsi, 155) buyurulmuşdur. Bu da bir imtahandır. Müjdələ, bax ki, onların nəzərləri sənin səbrinə çevrilmişdir-halından məmnunsanmı deyə. Çölləri keçmək başqadır. Həccin zövqünə yetişmək də başqadır. Namazı çağırmağı da gizli işarətlə edirik. Arifə bir işarə bəsdir.

Qüdrət aşağı enmək deyil. Kəbənin qapısına qədər getməyək. Onu düşünmək belə lazım deyil. Olmaya ki, düşüncə çaşqınlığı ilə aşağı yuvarlanasan. Bu sənə yuxu gətirər. Dəvədən yıxılarsan. Həcci anmaqla da məşğul olma! Çünki başını qaşımağa belə vaxtın yoxdur! Buna imkan tapa bilməzsən. Heç olar ki, at ilxısı geri dönərkən baş qaşımağa vaxt olsun. O uşaq yolda qalar. "Gəl" deməsinə imkan qalmaz. "Əgər o sözlərlə məşğul olaq" deyərsə, karvan gedər. Ona deyərəm, amma təkrar unudar. Bir titrəmə, bir malyariya başından əllərinə qədər yayılar. "Doğrudur", dedi. Əvvəldən demək lazımdır ki, doğrudur, doğrudur. Bunu sonradan söyləmək yalandır. Allahı dərk edən hələ Allah aləminə yetişməmişsə, kənardan nə deyərsən de, amma içindən əlini ağzına qapa. Dil yarası acıqlıdır. Allah hər kamalı anlayar. Cəbrailin qan bahasını hikmət xəzi- nəsindən ödəyər. Onlar içdikləri zaman daha çox ayılarlar. Mey içərlər, məst olarlar. Bunlar ağıllı, ayıq sərxoşlardır. Ayaqlarının altında öl. O oy- uncaqların hər biri üçün, "bu nə gözəl, maraqlı oyuncaqdır", deyirdi. Pər- dənin arxasına get.

Əbu Səid bir icmaya rast gəldi. Tam yeddi gün onların halından heyrətdə qaldı. İkinci həftə çaşqın və özündən keçmiş bir halda arxalarınca düşdü. Ona dedilər ki, nəyin ardınca düşürsən? Həmişə onlara bağlanmısan? İçlərindən biri onun üçün yeməyə bir şey gətirmələrini istədi. O

an bir hünər göstərdi, əlüstü yemək gəldi. Əbu Səid sonra padşahın hü- zuruna yollandı. Ona dedi ki, bir yer hazırlayın, bu icmanın yemək

bi- şirmək cəhətindən bir çətinliyi yoxdur. Hazır tapdıqları ilə ehtiyaclarını ödəyərlər. Təkyə loxma dərdindən uzaq olmayan təkyə adamları üçün deyil, ancaq belə bir icma üçün açılmalıdır.

Qatır dəvəyə dedi ki, "necə olur, sən lap az öndə gedirsən. Mən isə çox vaxt karvanın başındayam." Dəvə cavab verdi: "Birinci səbəb budur ki, mən uca himmətliyəm, başım havadadır. Yüksək bir başım, aydın bir gözüm var. Yoxuşun başından baxınca, sonuna qədər görə bilirəm. Başa düşürəm ki, harası düzənlik, harası təpəlik, harası xarab yoldur.

Bir neçə insan var ki, "Allah röyada görünə bilər", deyər. Bir çoxu da Onun nə röyada, nə də oyaq ikən görüləcəyini söylər. Bunlar təqlidçilərdir. Ən çox həqiqəti axtaranlar ən çox təqlidçilərdir.

Bir zümrə var ki, könül təqlidçisidir, bir zümrə səfa təqlidçisi, bir tayfa da Mustafa (s) təqlidçisidir. Bir zümrə də Allah təqlidçisidir. Allahdan söz açarlar. Bir icma da həm Onu təqlid etməz, həm də Ondan söz nəql etməz. Ancaq özlərindən danışarlar. Quran da: "(Ya Rəsulum! Quranda buyurulduğu kimi, sizə çox az elm verilmişdir, söyləyən yəhudilərə) de: "Əgər Rəbbimin sözlərini yazmaq üçün dərya mürəkkəb olsaydı və bir o qədər də ona əlavə etsəydik, yenə də Rəbbimin sözləri tükənmədən öncə onlar tükənərdi!" (əl-Kəhf surəsi, 109) buyurur. "Rəbbimin sözləri" deyə söyləyən odur. Deyirlər ki, O, yəni Allaha işarə edən əvəzlik iki qisimdir. Biri doğrudan-doğruya Ona, yəni Allaha, o biri də Onun həqiqətinə işa- rədir. Bir başqası da "Allah özü üçün "O" əvəzliyini istifadə edir ki, bu onun üçün saygı ifadəsidir, beləcə, söz daha şirin və lətif olur," dedi. "Qaibi anmaq, ondan uzaqlaşmaq, hazır olanı anmaq da ürkməkdir," deyərlər. Zikr edən bir kimsə iki halın kənarında deyil. Ya hazırdır, ya qaibdir. Qaib qeybət edir, hazır isə vəhşət, ürkəklik göstərir, deyilə bilər. Onun yanında çox zikr etmək, eynilə sultanın yanında olan xas qulunun, "sultan belə elədi, sultan belə söylədi", deyib durmağına bənzəyər. Bu, bir növ ədəbsizlik olar, xoşa gəlməz. Qeybət isə böyük günahlardandır. Dörd böyük günah - qeybət, böhtan, qan tökmək və zülmdür. Qarşı tərəf haqqını bağışlamadıqca, bu günahları edən kəs əzabdan qurtulmaz. Gərək sultan ona yardım etsin. Allah qarpız göndərdi. İndi bizim qismətimiz armud deyil. Armud boğaza ilişər, halbuki qarpızın dadı xoşdur.

"Şah getdi", dedilər. Divanə oldum. Başmaqsız bayıra atıldım. "Müjdə", dedilər, "indi geri dönür." "Şahmı gəlir", dedim. "Bəli," dedilər. Yeni- dən canlandım, özümə gəldim. Ey Adəm oğlu! İndi yanına gəlim, bir şey

oxuyum ki, yolçuları da ümidsizliyə uğradım, dedim. Bayıra çıxdım, elə özümdən keçmiş bir halda idim ki, qabağıa qaçdım. "Haradaydın ki,

gəl- mirdin," dedim. Görəsən, necə edim ki, yanına gəlim? Bir abdal sənə ye- tişməzmi? Mən bu nəfsin əlindən acizəm, sənə necə yaxınlaşım? Ona elə şeylər söylədim ki, əgər o zaman yanımda olsaydın, başıma bir yumruq vurardın. Elə bir yumruq vur ki, bu divara vursan deşərdi. Zavallı mən, kim bilir nə hala gələrdim! Əgər qüvvətli, bazburutlu bir cavan olsaydı, o zaman heç bir şey edə bilməz, ancaq ədəblə ayağına döşənərdi.

Deyək ki, mənim də tanıdıqlarım, qardaşlarım var, gedək danışaq. Əgər, get, deyərlərsə, işin iç üzünə baxaram. Məni qurtararlarmı, yoxsa qurtarmazlar? Əgər onların xatirləri mənimlə bərabərdirsə, mən də birdəfəlik oraya qədər getmək üzündən həlak olaram. Amma, nəhayət, öz istəyimlə o məqsədə yetişdiyimə baxmaz, bu işin sonunun haraya yetəcəyini soruşsam, məni uğursuz qapıçının oğlu fərz et.

Zavallı qapıçı, "görəsən nə olacaq," deyə o qapıda oturmuşdur. Halbuki, indi yürümək zamanıdır. Çünki o tərəfdən bu varlığa doğru "hər an ayrılıq var," deyə çağırırlar. Hər ləhzə, gəl-get, deyirlər. O tərəf eyni rəng- də, eyni şəkildədir. Haqq aləmi xoş bir aləmdir.

Biri dedi ki, bizə söz dedirtməzlər. O deyər ki, Allah ərş üzərindədir. Bu deyir ki, o məkandan kənardır. Artıq biz də çaşdıq. Harda ki, "yaşa, ömrün uzun olsun, vaxtın xoş keçsin" sözləri var, belə danışmağı ayıb sayarlar.

Bir zaman din alimi idim. Safilərin fiqhi olan "Tənbih" adlı kitabı və başqa fiqh kitablarını da oxumuşdum. Amma indi onlardan heç biri xatirimə gəlmir. Ancaq beləcə arxasınca getsəm, başını qaldırar, qarşıma çıxar. Əgər məndə nağıl dinləmək arzusu yoxsa, get, deyər. Barı, sən gəl. Dostlarla bir yerdə olmaq gənclik çağlarından daha şirindir.

And içmək üçün ərəb dilində üç hərf var: Vav"," Be", Te" hərfləri. Bəziləri, vallah, billah, tallahi deyərlər. İşin iç üzü belədir. Bəli. Onun arınmış və uca mənliyi, O Allah-təalanın pak və təmiz zatı haqqı üçün o kimsələr də o mədrəsədə o cəhəti öyrəndilər. "Mərifət öyrənək, filan mədrəsəyə gedək," dedilər. O dövrü yaxşı dəyərləndirmək gərəkdir. Bu icma içərisində həmişə bundan danışarlar. "Filan yeri tutaq, tez məhşur olaq," deyərlər. Elmi dünya neməti uğrunda nə üçün öyrənməliyik?

Mənim kim olduğumu, cövhərimin nə olduğunu, nə üçün gəldiyimi, haraya gedəcəyimi, əslimin haradan olduğunu öyrətməyən bir təhsil nəyə yarayar? Əgər bu mənalar bardaqdakı su kimidirsə, mən bardaqsız su axtarıram. Ərəb dilindəki mənalar ərəb örtüyünə bürünmüşdür. İstəyirəm

ki, bunları yaxşı anlamaq üçün sıxıntılara qatlaşım. Məqsəd ərəbcə öyrənməkdən başqa bir şey deyil.

Allah sevgisi gecikməz. İki dəfə doğulmamış məxluq mələkut* üzərinə çıxmaz. Dedi ki, bunu şeyx söyləmədi. Bu, təsdiq edilməmiş sözdür. Cavab verdim: "Biz hələ nəql edilmiş sözdən bəhs etdik. Təsdiqlənməsə də, təsdiqlənsə də fərqi yoxdur."

Mələk Allahına dedi ki: Ya Rəbb! Məni bir şeylə imtahana çəkmə, mən sənə ikiqat qulluq edərəm. Mənə nəfsimin xoşuna gedəcək şey təklif etmə, çünki təklifdə ürkəklik var, ağırdır. Allah buyurdu ki, sənə lap az təklif yüklədilməsi sənin üçün təklifsiz olan milyonlarca ibadətdən xeyirlidir. Dilənçinin istəyinə görə verəcəyin axça öz arzunla verdiyin axçadan xeyirlidir. Quranda "Allahı layiqincə qiymətləndirmədilər" (əl-Ənam surəsi, 91) və "Məhrum oldular," (əl-Ənam surəsi, 44) sözü də dünya nemətlərinə işarədir. Yenə ayədəki "məhrum olmadılar" ifadəsində də onları əbədi həyata yaxınlaşdıran hikmət vardır. Onlar bir dirhəm taparlarsa, rahat olar, sevinər, özlərini itirər və yeri öpərlər. Sıxıntıdan qurtararlar. Gəlin! Bizim işimiz həmişə doğrudur. Bütün işlərimiz, hətta yeyib-içməyimiz belə aramızda danışmaq yolu ilə olar. Yeməkdə belə aramızda ayrılıq yoxdur. Talib üçün dedi ki, nəfsimdən taətdən, qulluqdan suallar soruşdum, cavab vermədi. Bizə vəd verdilər, lakin bizi unutdular. Mətlub dedi ki, qırmızı və bəyaz suyu nəfsindən istə, yaxud parçaları ilə nəsilləri islah edən Buxarı ara ki, qulluq ondadır. Çünki o erkək bir əsildən doğulmuşdur. Necə ki, Allah-təala, "Nə mənim düşmənimi, nə də özünüzün düşmənini dost tutun!" (əl-Mumtəhinə surəsi, 1) buyurdu.

Yer tərpənməsi öküzün ayaqlarından olsaydı, bütün yer üzünü titrədərdi. Halbuki, bir şəhər alt-üst olarkən, o biri salamat qalır. Haqqın sözünü dinlə. Qüdrət Allahın əlindədir. Quranın "Oxu!" xitabındakı işarət bir işıqdır, asanlıqla saçasan deyə. Yəni, ey ədəbsiz uşaq, ibrət götür və ey qocalmış insan, uşaqlıq etmə! Ey Haqqı arayan kişi! Axtarmaq yolunun şərtlərini tanı! Quranda "Yer özünə məxsus bir şiddətlə lərzəyə gəlib titrəyəcəyi zaman," (əz-Zilzal surəsi, 1) buyuruldu. Əgər bir tikə də qımıldatsalar, bilrsənmi nə olar? Maddənin çirkinliyi xilafına gözlə görünməyə lətif bir qüdrət olar. Bu, gözəl cavabdır. Görəsən, sənin neçə evin var? Heç çarə yoxdur ki, öncə qorxu gələr, sonra da zövq və könül xoşluğu başlayar. İndi ki, belə olur, bundan sonra hər kim bu təklifin artmasından zövq alarsa, təklif də artar. Sənin işini düzəldərlər, amma bizimkini sonraya saxlayarlar. Onlar qismətlərinə düşəni alarlar. O, "mən ondan betər bir haldayam," deyir. Mən də deyirəm ki, indi ki, sənə belə xəbər verdilər, mənə nə üçün içəridə söyləmədin? O, şəriət başçısıdır. Gərəkdir ki, şəriət hökmləri tərəfinə qulaq versin! Yoxsa bilsə ki,

daş kimi bir üzü var, o, necə müsəlman olar? O şəxsin ki, bir sirri

və həqiqəti var, Allahı təqdis edərək, belə bir mənanı necə inkar edər? İndi o bizə bu cəfanı göstərərkən imkan vermir ki, bir söz deyim. İztirab insanları yaxşılığa necə istedadlı edər? Əgər iztirab olmasa, mənlik ona pərdə olardı. İndi lazımdır ki, dərdsiz bir şəxs daim belə iztirab çəksin, bəlalardan qurtarsın. Həzrət Məhəmməd (s) "Genişlədən şəxs genişlik tapar" buyurmuşdur. Ona bağlanmayan bir insan münkir olmaz, kafir olmaz, bəs nə olar? Xristian və yəhudi olar. Burada qüvvət olduğunu nə bilsin! Mövlana buradadır, gəl bir kənara çəkilək. Bunu görməyi çox arzu edirdik. Bir öyüd bilməz, amma o biri cəhət nə olar. Bu da ruhun qidası və əməlin salamatlığı üçündür.

İndi dərvişin sözünü deyirəm: İstər çərşənbə axşamı eşitmiş olaq, istər cümə günü. Hər ikisi də ola bilər. Bu Zəhra ilə o hər ikisi düşmənliyə başlamışdı. Bilmirəm ki, məqsədləri nədir? Əgər desəm, işi açdığım üçün dünya-aləm məni saqqalımdan asar. Şübhəsiz, aradan min il keçsə, bu söz ancaq mənim istədiyim şəxslərə söylənə bilər.

Bir neçə şəxs Həzrət Peyğəmbərə (s) vəhy katibi, yəni ilahi əmrləri yazan oldu, bir neçə nəfər də vəhyin endiyi yer, yəni onun həmsöhbəti oldular.

Çalış ki, hər ikisi də sən olasan! Yəni vəhyin həmsöhbəti, həm də qəlbə gələn vəhyin katibi olasan. Hərflər arasında "Əlif" və "Nun" tapılmayan şeyin keyfiyyətlərini söyləyə bilmərəm. "Vav", "Kaf" və "Te" olmadığı zaman da beləcə "Əlif"dən bir işıq görünür. Yerə yıxıldığın vaxt nə üçün məhrum qalasan! Nə üçün onun təvili özünü buraya atmaq olmasın? Ayədə "İbrahim məqamına daxil olan şəxs əmin-amanlıqdadır" (Ali-İmran surəsi, 97) buyurulub. Ləhavərli Şeyx Şərəf bunu inkar etmişdi. Bu barədə mənimlə qovğaya çıxmışdı. Gözəllik çağında ikən, gözünü öpüm sənin, dedim, bir şaftalı vermədin! Mən Lut Peyğəmbərin (ə) o əxlaqsız, cinsi qarışıq ümmətindən deyiləm ki! O tük sanki onun gözün- dən kənara sıçramışdır, deyək. Mən görmürəm, nə edim. Göz yerinə gözyaşı və iztirab görürəm. Lut Peyğəmbərə o cəhətdən Lut deyərlər ki, o cinsi qarışıq deyildi. Peyğəmbər idi. Deyək ki, söylədiymiz övliyanın sirləri yetərli deyildi. İndi nəbilərinkinə başlayaq. Biri dedi ki, bir iyrənc İsanın (ə) yolunu kəsmişdi. Peyğəmbərlər üçün bu nə iftiradır! Guya, "üzünü gördükcə iyrənirəm", demişdir. İndi Allah səbəb saldı, səni se- virəm! O iyrənmə düşmənlikdən deyildi. Ancaq bu, qələndər və mələn- dərin bir-birinə qarışmış olmasındandır. Təvil mənə dedi ki, mən tez ara- dan çıxdım. Ona bu gün "Allah adamı belə danışar", dedim və əlavə etdim: Ona bir şillə vursam, əlini namazdan çəkər. Qoluna vursam,

əlini namazdan endirər. Artıq bayıra çıxdın. O qadın, o pislik, "mən özümü kar və kor etdim", deyirdi. Nə kar və kor edirsən, nə olar? Sözü çevirəndə mənə söyməyə başladı: "Topaldır, tutsam, bayıra ataram", dedi. Bir saat oturdum. "Baxaq, topalammı, məni necə tutub bayıra atar",

- deyə gözlədim. Amma gəlmədi. Bu, "qancıq təbiətli insanın, görəsən, qadınlarla nə işi var", dedim. Dedi ki, ondan heç kim böyük günah qa- zanır, deyə şikayət etmədi. Buyurdu ki, bütün kafirlərdə və tatarlarda bir şəxs halından şikayət edirmi, yoxsa etmirmi deyə, sınamaq adəti var. Mömin üçün bunun o biri yanında başqa bir şey olmaz. Çünki bunların arasına düşmüşdür. Onlarda o qədər düşüncə yoxdur ki, mənim evimdə bir süfrə açsınlar və o süfrədə hər şey, qurumuş üzüm, su küpü və hər tərəfdə yüzlərcə nemət tapıb versinlər. Bu, dadlı baldır. "Sənə bir hekayə danışım", demədimmi? İndi əlinlə saqqalını yolursan. Mən Mövlanadan vaz keçdim. Çünki o, eşq ilə yanıb-tutuşur, deyirsən. Bir kimsəni, heç olmazsa, qırx gün evdə saxlamaq lazımdır ki, orada bir xəyal görsün. O istər insan oğlu olsun, istər başqa birisi. Bu işlə Məhəmməd (s) dininin nə əlaqəsi var? Mərifət davası güdən bu insanlar hansı mərifətdən danışırlar. Onların zənninə görə, mərifət saydıqları şeydə ya xristian, yaxud yəhudi olurlar. Kafir olan nəsrani İsanın (ə) vaxtında yaşayıb və ölən kimsə deyil. Kafir olan yəhudilər də Musa Peyğəmbərin (ə) çağında ölənlərdən başqalarıdır.

Yuxu gəlmədiyi vaxtlar ən gözəl vaxtdır. Mən danışım, yaxud ya- zasan deyə, qabağına qoyduğum yazını yuxun gələnə qədər yazasan! Nəhayət, ona deyirəm ki, mənim istədiyim insan sən idin, başqalarından mənə nə var? Hər nə söylədimsə, bundan sonra qələmə alacağam. Mosula qədər bir yolçuluq edəcəyəm. Oraları görmədim. Təbrizə gedəcəyəm. Orada filan minbərdə vəz edirdim, bu camaatı görür və onların xəlvətində olurdum. Ondan sonra Bağdada, sonra Şama gedəcəyəm. İndi sən pul yığmaq sevdasında deyilsən. Mənim getməyimə də razı olmursan. Mən iki ildən az qalmaram oralarda. Sonra geri dönərəm. İki ildən əskik deyil bu yolçuluq. Bir neçə gün baş ağrımızı çəkərsən, çünki şairin dediyi kimi:

Misra:
Ömrümüzün dəftərindən bir yarpaq qalmışdır.

Əvvəlcə ona zarafat etdim: Nə üçün taxtanı oxumursan? Uşaq kimi üzr istədi. "Onun əldə edilməsi asan deyil, bir adam tutum, onlara baxsın", dedim. Ancaq deyirsən ki, bunlar bizim işimizdə çox tamahkarlıq göstərir,

bu olmazsa, dərimizi üzər. İndi tamah salmaz, ondan əfv diləyərsən, hər gün günahını bağışlayar. Cinsi qarışığın qardaşına aid hekayədə sözü keçən qoduğu satmaq lazımdır.

O biri qardaşının bir eşşəyi vardı. Həmişə, "ayağım ağrıyır, bu eşşək mənim yükümü çəkər", deyirdi. Görürsən ki, aşkar olan o nifaq əmin-amanlıqdan gəlir. İndi Əmiri Dadın (Ədliyyə əmirinin) bu dəvətdə məqsədi mən idim. O, bir dərvişi göndərdi və ona "Şəmsəddini də çağır" demədi. Mən ötən gün o qocanı yolda gördüm. Saqqalını öpdüm. Duydum ki, səni sevmişəm, ancaq bir saygımdan sevgimi açıqlaya bilmərəm. Olar ki, çatışmayan bir şey edərəm, aramızdakı məhəbbət əskilər, deyə dü- şünürdüm. Ancaq sizin düşüncəniz içdən və zahirdən elə deyil. O dedi ki, keçən sübh namazında qəlbimdən keçdi Ədliyyə əmirini öpüm. "Öküzlərini al", deyəm. Öz yaslı yuvamıza gedəm. Mən hər şeydən əl çəkmiş kimiyəm. Mənim xasiyyətimi bilənlər zahirdə və batində üzüntü duymazlar. Hər kəs bir meyvənin dalınca gedir. "Mən sənin duaçınam, mənə də ver", deyir. Bəli, dedi, ayağını ayağının üzərinə aşırmısan, tam taraz gəlirsən. Eşşəksənmi sən? "Bəli", dedim, "çox eşşəklər gəldi-getdi". Nəhayət, düz gəlirsən, amma məni də çirkaba atırsan. Məni eşit, taraz gəlirəm, amma səni dükana atıram. Bu həmişə sakitlik üçündür. "Üzülmə", dedim. Əgər çox yemək yeyərsəm, rahat olmaram. Dünən gecə o qədər yedim ki, nafilə namazını qılarkən ayağım ağrıdı. Bir qismini də oturaraq qıldım.

Əgər bu şahmat oyunu onun başını qatarsa, yetişər. Yeməkdən-içməkdən başqa bir işi olmayan kimsə ertəsi günü daim hamama gedər, yuyunar, birillik günahını yuyuar. Dedi ki, elə isə sabah mən də hamama gedim. "Bu acizi də yanında apar," dedim.

# ÜÇÜNCÜ FƏSİL

## Hu!

Peyğəmbərimiz (s) buyurdu ki, “qardaşlarımla görüşəcəyim günün həsrətini çəkirəm.”

Əshabələri, ya Rəsulullah, o qardaşlar bizlərikmi, dedilər.

- Xeyr.

- Yoxsa, nəbilərdir?

- “Xeyr,” buyurdu. Məndən sonra gələcək insanlardır onlar.

Bunlar yuxulu-yuxulu bir qədər suallar verdilər, sonra təkrar yuxuya getdilər. O sözlər oyanıqlığın əks-sədası idi. Necə olar, o qədər əks- səda gəlsin, ondan ayılmasınlar və başqa əks-sədalar verməsinlər. Bu, qabiliyyətlərinin çatışmazlığındandır. Bütün cahan əhli bir tərəfə keçsin, mən o biri tərəfə keçim. Hər nə çətinlikləri varsa, məndən soruşsunlar. Hamısına cavab verim və heç qaçmayım. Sözdən, danışmaqdan üz çevirmərəm. Budaqdan-budağa sıçramaram.

Zeynəddin Tusi on-on beş günlüyə Şeyxi ziyarətə gəlmişdi. Ondan xəlvətdə bəzi şeylər soruşdu. Nəhayət, onu xəlvətdən bayıra çıxardılar, yola saldılar. Bir gün bir nəfərlə danışırdıq, “Zeynəddin mənim müridim idi, dəli oldu,” dedi. Mən çox çalışırdım ki, bu miridlər kimi başımı aşağı salım. Nəticədə həqiqət belədir. Mən onun kimi müridi hardan tapım ki, Allah mənim müridimdir. Çünki onun mübarək adlarından biri də Müriddir. Çünki hər müridin bir muradı, istəyi var.

Mənə bu zahir bilgiləri və tez anlamaq qüdrəti lazımdır ki, bunların köməyi ilə, “yazıqdır, bu mənim elmimi onlara söyləmək gərək deyil,” de- yək. Onların elmləri onların olsun. Onları bu dəyərsiz elmləri ilə məşğul etmək lazımdır. Tanrı heç kimin bədənində iki ürək yaratmadı (hər kəsdə bir qəlb yaratdı). Bizim hər nəyimiz varsa, həmişə onundur. Bu, hər iki söz də bir anlamdadır.

Haqq, Allah-təala əsla “Ənəlhəqq”, yəni “mən Haqqam” deməz Allah, hər zaman “Məni təbrik edin, Məni təbrik edin!” də deməz. Çünki bunlar heyrət və təəccüb ifadə edən sözlərdir. Haqq, necə olar ki, heyrət və

təəccüb bəyan edər? Əgər quluna aid bir elmə görə, təəccüb ifadə edən Sübhan kəlməsini istifadə edərsə, doğru ola bilər.

Rubi Məskun, yəni yerin dörddə biri xalqın üzərində məskun olduğu

hissəsidir. Yerdə qalan dörddə üçü günəşin istisində yanar, orada xalq yurd sala bilməz. Bu dörddə bir hissədə yerləşənlər məndən nə qədər çətin məsələlər soruşsalar, qarşılığını nəğd alarlar. Onlar üçün lap çətin görünən suallara qarşı cavab içində cavab, qeyd içində qeyd, şərh içində şərh yazmışlar. Mənim sözümdə isə bunların hər birinə on cür cavab var. O, gözəlliyi və o nazlı ədası ilə heç bir kitabda yazılı deyil. Necə ki, Mövlana mənə, "səninlə tanış olandan sonra bu kitablar nəzərimdə çox mənasız göründü," buyurdu.

Bir ərşin kölgəsi altında yeddi zümrə var. Hərçənd, qiyamət günündə bütün yaradılmışlar özünü itirər, qorxu içərisində qalar, gördükləri bir çox qorxunc mənzərədən vahiməyə düşmüş bir halda qızmar günəş işığında yanarlar. Bir başqa dəstə də qan-tər içində bezikmişdir. Yuxarıda sözü gedən yeddi zümrə hər şeydən amanda qalar. Bu yeddi zümrədən birisi yalançılardır. Amma belə bir yalan olmalıdır: "Biri sənin yanına gələr, bir az əvvəl filankəslə bir yerdə idim. İndi onun yanından gəlirəm. Çox üzgün idi. Səndən danışıb utanaraq deyirdi ki, necə oldu ki, mən onun haqqında tərbiyəsizlik etdim? Ağlım başımdan çıxmışdı, heç özümdə deyildim. Elədiklərimin fərqinə varmırdım, peşman oldum." O şəxs ki, həm bu adamın yanına gəlib, həm də o birinin yanına gedib aralarını düzəltmək istəyər, xeyirxahlığın iki mislini eləyər, atəşi söndürənə qədər çabalayıb- çalışar. Bax, o fitnə atəşini söndürmək mübarək bir işdir, istər yalanla, istər doğru sözlə olsun! Atəşi söndür, istər çirkli, istər xəndək suyu ilə, istərsə də təmiz su ilə. Bu millət isə əksini eləyir. Qovğa salmaq üçün yalan danışır. Bizim insanlar kimiləri harada var? Əgər arada Mövlana olmasyadı, bizimlə onlar arasında (bölüşə bilməyəcəyimiz) nə vardı?

Budur, bu səbəblə bir tək dost gözü görürəm. Amma yüz düşmən gözünü də görmək məcburiyyətində qalıram və şübhəsiz ki, görürəm.

Ötən gün xəyalını önümə gətirdim, onunla mübahisəyə başladım. "Nə üçün bunların əvəzini açıq-aşkar və olduğu kimi vermirsən," dedim. Xəyalın mənə bu cavabı verdi: Onlardan utanıram, istəmirəm ki, incisinlər. Mən də bunu əvəz verdim. Deyərkən mübahisə uzandı. Demədiyim nə qaldı ki! Xeyr, dediklərim nə idi ki! Sanki heç danışmadıq. Yəni irfanı olmayan insanların sözləri ilə müqayisədə hər şeyi danışdıq. Amma öz deyəcəklərimizə görə heç bir şey söyləmədik.

Həzrət Peyğəmbər (s) belə buyurdu: "Bir şəxs qırx gün sübh tezdən Allaha canı-könüldən qulluq etsə, onun qəlbindən dilinə doğru hikmət çeşmələri axmağa başlayar.

Peyğəmbərimiz (s) bu sözü öz əshabələri arasında açıqlayarkən, dostlarından biri qırx gün öz-özünə ibadətlə məşğul oldu. Sonra Həzrət Pey-

ğəmbərə (s) şikayət etdi. "Ya Rəsulullah," dedi, "filan dosta elə bir hal gəldi ki, gözü, sözü, rəngi dəyişdi." Siz isə bu halı bəyan edərkən yuxarıda xatırladığımız hədisi buyurmuşdunuz. Mən gedib qırx gün əlimdən gələn qədər çalışdım. Necə ki, Quranda, "Allah hər kəsi yalnız qüvvəsi yetdiyi qədər yükləyər," (əl-Bəqərə surəsi, 286) buyurulmuşdur. Sənin sözündə əsla yalan olmaz. Həzrət Peyğəmbər (s) belə buyurdu: "Mən, canı könüldən qulluq edərsə," dedim.

Canı könüldən qulluq etməyin şərti bunu ancaq Allah üçün eləməkdir. Yoxsa, başqa əməllər və həvəslər uğrunda qulluq etmək deyil.

Sən başqa bir dostundan eşitdiyin qəribə danışmaq tərzinin səndə də görünməsini istədin, bu istəyin yerinə gəldi.

Bizə inanan bir dəstəyə dedim ki, Allah sizi çox bəxtiyar yaratmışdır. Çünki belə insanlar sizin içinizə düşmüş, siz də onlarla birlikdə olmağın dəyərini anlamışsınız. Bəxtiyar yaradılmış olanların yolları aydın olar, ay işığı qapılarına düşər.

Şeir:

Mən eşqin yolunda bir qayda qoyuram ki, Bixəbər olanlar bu yola ayaq basmasınlar.

Duyğusuzların yoldaşlığı çox zərərlidir, haramdır. Elmsizlərin yoldaşlığı büsbütün haramdır. Yedikləri də haramdır. Haram yemək ki, bilgisizlikdən irəli gələr, o loxma mənim boğazımdan keçməz. Onun yeməyini yesəm, sanki bir mancanaq daşı gələr, içi ta tavana qədər şüşələr və alətlərlə dolu bir sirkəçi dükanına çarpar, hər şeyi parçalayar.

Bir qüdsi hədisdə Allah-təala, "Hər günahın bağışlanar, ancaq Məndən üz çevirənin günahı əfv olunmaz," buyurmuşdur.

Əvvəlcə "Əlif" nədir, onu söylə. Sonra "Bey"ə gəlsəm, iş uzanar. Bu gün bizim üçün uzun, qısa hər zaman birdir. Uzun olmuşuq nə çıxar, qısa olsaq nə çıxacaq? Uzun və qısa cismin, maddənin sifətidir. Sifət və məkan sonradan yaradılmışdır. Əvvəl, axır, ön və son Allahdan göründü. Allahsız nə əvvəl var idi, nə də son. Nə zahir, nə batin, yəni nə aşkar var idi, nə də gizli.

Misra:

Ey insanlar, bu hadisələr yurdundan çəkinin!

Bu, söz deyil, tənbehdir. Söz üstünə söz söyləmək dəvətdir. O biri aləmə çağırmaqdır. Dedi ki, bir aləm var, oraya yüyürün. Bu namaz ilə məşğul olarsan, namaz gedər, bu əzm ilə məşğul olarsan əzm gedər. Sə-

nin dostluğundan nə qədər sevinirəm ki, Allah mənə belə bir yoldaş verdi. Mənim bu könlümü sənə versinlər, mənim üçün nə o cahan, nə bu cahan. Mənə görə yerin dibi ilə göy üzü birdir. Alçaq, yüksək deyilən bir fərq yoxdur.

Həzrət Məhəmməd (s) buyurdu ki, "Məni Yunusdan (ə) üstün bilməyin." Çünki o dənizin dibində, balığın qarnında meracda idi. Mən isə yeddi qat göylərin üzərinə meraca çıxdım. Bu səbəbdən əsla məni ondan üstün görməyin! Haqqı tapmağı məkanın yüksəkliyində və ya alçaqlığında ax- tarmaq, haqqı məkana bağlı sanmaqdır. Quranda, "Orada libasları da ipəkdən olacaqdır!" (Həcc surəsi, 23) buyurulmuşdur. Mən də burada ipək geyinmişəm. Sən ipəyin lətafətindən məni görə bilmirsən. Bu incə dəri sanki ipək oldu. Bu ipək dəriylə müqayisədə ipəyin yumşaqlıqda nə dəyəri olar? Haradan haraya gedirik?

Quranda, "Bu gün pak nemətlər sizə halal edilmişdir," (əl-Maidə surəsi,

5) buyuruldu. Bu can sənin qəlbində kamilliyə yetişdi, deməkdir.

Şeir:

Mərd və mərd xasiyyətli ol!

Yoxsa, min cür bəlaya düçar olarsan.

Məni tanıyırsan, məni görürsən, o üzüntüləri nə üçün xatırlayırsan? Əgər xoş olmaq mənim əlimdə isə, nə üçün özünü üzürsən? Mənimlə bərabərsənsə, nə üçün özünlə məşğulsan! Mənim dostumsansa, nə üçün özün özünə dost olursan? İllər keçər, ancaq birisiylə dost olar və rahatlığa qovuşarıq.

Şeir:

İllər gərəkdir ki, günəş altında bir daş

Ya Bədəxşanda yaqut, yaxud Yəməndə əqiq olsun; Aylar gərəkdir ki, bir pambıq çiyidi torpaq altında Cücərib ya bir çılpağa libas, ya bir şəhidə kəfən olsun.

Məni görürsənsə, nə üçün özünə baxırsan? Məni xatırlayırsan, öz nəfsini nə üçün anırsan? Öyüd, nəsihət özünü xatırlamaq deməkdir, varlığını anmaqdır. Bir yerdə ki, rahatlıq var, Allah var, öyüd, söz harda qa-

lar?

Bir neçə gün birlikdə olmuş yeddi sufi dost vardı. Bunların yeməyə-içməyə ehtiyacları var idi, amma aralarındakı söhbətin ləzzətindən heç cür yerlərindən qalxıb yeməyə gedə bilmirdilər. Bir vəzir bunların halını xəbər aldı. Uzaqdan gələrək, üzünü yerə qoydu, belə dedi: Ürəyiniz nə istəyir, nə arzu edirsiniz? İçərilərindən biri, "get," dedi, "bizə bəs edəcək yemək hazırla. Evi boşalt, böyükdən-kiçiyə heç kim olmasın orda. Özün də evindən çıx. Heç kim qapını döyməsin." Vəzir onlar deyən kimi elədi. "Bunlar yeddi nəfərdirlər," dedi, "mən ehtiyatdan iyirmi nəfərlik bir süfrə açım. Evin adamlarını da qohum-əqrabanın yanına göndərim. Hamıya tapşırdı ki, heç kim bu gün evin ətrafında dolaşmasın. Kasaları doldurdu, çörəyi süfrəyə qoydu, onları evə çağırdı, yerbəyer elədi. "Artıq icazə verin, bu gecə səhərə qədər sizdən ayrılıram," dedi. Qapını bağladı və bayıra çıxdı. Onlara evi tərk etmiş kimi görünərək, yuxarıdakı bir otağa çəkildi. Gizlicə dəlikdən bunların necə yemək yediklərini seyr elədi. Bir-bir kasaları qabaqlarına çəkib yeməyə başladılar. Kasalar boşalanda ikincisini qabaqlarına çəkirdilər. Qəfildən içərilərindən biri süfrədən yuvarlanıb yıxıldı. Allahın rəhmətinə qovuşdu. Hər şey əslinə dönər qaydasına görə, "Dön Rəbbinə!" (əl-Fəcr surəsi, 28) əmrini eşitdi. O, əslində düzgünlük məqamında idi. Həm orada, həm də burada o rəngsiz pərdənin arxasında qalmışdı. O pərdə sayəsində onu burada gördülər. Yerdə qalan altı nəfər yeməklərinə davam etdilər. Bir saat da keçdi. O biri yoldaşı da əvvəlkinin arxasınca getdi. Belə yeddinci dərvişə qədər hamısı getdi. İçlərində təkcə bir nəfər qaldı. Ev sahibinin səbri tükənmişdi. Aşağı endi, qapını açdı. Guya bayırdan gəlirmiş kimi göstərdi özünü və soruşdu: "Necə oldu, şeyxim? Yeməklər sizə bəs elədimi? Doyunca yeyə bildinizmi?" Şeyx, "xeyr," dedi.

Vəzir soruşdu və Şeyx belə cavab verdi: Əgər yetərincə yemək olsaydı, mən sağ qalmazdım. İstək əbədi qaldıqca yemək yetərli dərəcədə sayılmaz.

Qarnı tamamilə doymuş adamın cavabı ancaq iç qapının heç bir tərəfindən bir sual və əvəz gəlməməsidir. Sual və qarşılıqlı istəklər davam etdikcə orada başqa suallar, başqa cavablar tapıldıqca yetərlilik olmaz. Bunun dəlili də içində bir şübhə olması və bunun cavaba möhtac olmasıdır.

Bir gün Şeyx Həmid küfr və iman mövzusunu izah edirdi. Mən ona baxırdım və görürdüm ki, bundan sonra hələ yüz il də iman və küfr bəhsindən bir qoxu almayacaqdır. Əgər bunu dərk etsəydi, dərvişlərin hüzurunda danışdığı o hikmət və ədəb məsələlərində öz düşüncələrini gizlədər və deyərdi ki, görürəm, mənim sözlərimdən bir nəticə hasil ol- mur. O bi-

rilərin sözlərinə necə növbə gəlsin? O zaman onun bu sözü o birindən daha yaxşı və kamil olardı.

Necə ki, sufi, əgər səndən daha yaxşı başqa birisini tapsayıdım, sən məndən, mən də səndən qurtulmuş olardıq. Yoxsa "sən əldəsən" deyər və çörəyini də xirqəsinin altında gizlədər. Necə ki, "Yolunu, pulunu, gedişini gizli tut", deyərlər. Həzrət Peyğəmbər (s) də "Hər kim sirrini gizləyərsə, işinə sahib çıxar," buyurmuşdur. Bəli, bir qul vardır ki, "bunu nə üçün gizlədim," deyər. Mövlana, Şəmsəddin Təbrizinin sirrini açıqlayan, "işinə sahib olar," demişdi. Ancaq o qul hardadır, "ey sevgili, görmədiyin kəsə nə cəfa edirsən," deyə bilsin!

Bəzi filosoflar mələkləri nəbilərdən daha üstün tutarlar. Həzrət Mustafanı (s) və nəbiləri xalq ilə məşğul olduqları üçün üstün görməzlər. Mələklər peyğəmbərlərə yardım edərək üzlərini dünyaya çevirərlər. On- ları xalqa nəsihət verməyə göndərirlər ki, bu Haqdan uzaqlaşmaq və ya onu unutmaq demək deyildir. Amma bizə anlatdıqları peyğəmbər möcüzələrindən ağlımız dərk edənləri qəbul edirik. Ağla sığmayan şəkildə deyilənləri isə qəbul etmirik. Çünki ağıl Allahın höccətidir. Allahın höccə- tində isə xarablıq olmaz.

Deyək ki, möcüzə sizin ağlınızın görə bilməyəcyi bir şeydir. Ağıl isə Allahın insanda bir höccətidir. Onu yerində işlətməsən, səni yanıldar. Buna görədir ki, ağıllar yetmiş iki millətə görə dəyişkəndir. Bir-birini yanılt- maqdadır. Məsələn, iki nəfərdən soruşsanız, ikidə iki neçə edər. Hər ikisi də "bir" deyər, eyni cavabı verər. Aralarında bu cəhətdən ayrılıq yoxdur. Çünki bu sadə hesab sualını düşünmək asandır. Amma yeddidə yeddi və ya on yeddidə on yeddi, deyə soruşsanız, o, iki ağıllının cavabları dəyişə bilər. Çünki bu daha çətin, aldadıcı bir sualdır. Əgər bir az ehtiyatlı davranıb, ağılı yerində istifadə etməzlərsə, doğru cavabı verə bilməzlər. Necə ki, aynanı bir kərə əyri tutdunmu, orada yüz minlərcə düzgün ayna olsa, artıq ondakı görüntünü düzəldə bilməzsən. Quranda, "Biz (Quranı) sənə haqq olaraq, özündən əvvəlki kitabları təsdiq edən və onu qoruyan olaraq endirdik," (əl-Maidə surəsi, 48)  buyurulmuşdur.

Nurlar Həmişə Bir-Birinin Dostudur

Deyək ki, yüz nəfər günəş altında durmuş, uzaqdan bir nəfər də onlara tərəf baxaraq gəlir. Dəf çalır və rəqs edir. Bu yüz nəfər arasında heç bir fikir ayrılığı olmaz. (Hamısı onu eyni vəziyyətdə görər). Amma qaranlıq bir gecədə və ya sisli və buludlu bir havada qaval səsi gəlsə, eşidənlər arasında yüz cür fikir ayrılığı müəyyənləşər. Biri, "bu gələn əsgərdir, o biri "sünnət toyudur," deyər. Xülasə, hər biri bir fikir irəli sürər. Nəticədə, filosoflar da peyğəmbərləri xalq ilə məşğul olduqlarından və peyğəmbərlik məqamının şərəfini qoruduqları üçün mələklərdən nöqsan

görərlər. Ancaq bu xüsusda nəbilər heç bir zaman yollarını azmazlar. Lakin təcrid və xəlvət mərtəbəsində qalarlar. Peyğəmbərlərin qadın almasını da bir növ əskiklik və uyğunsuzluq sayarlar. Nə qədər, o hal qüvvətdəndir desən də, o biri deyər ki, bunu da söyləyərlər ki, danışan şəxs xoş sözlü olmalıdır. Sinəsində hər an yeni-yeni hikmət qaynaqları fışqırmalıdır. Bir başqası "məclisdə gözəl nəsihətlər verib, nitq etmədikcə məclis qızışmaz," deyər. Başqa biri də heç bir an boş dayanmaz, həmişə coşqunluqla, yeni-yeni ilhamlarla əli heç bir işə dəyməz, ancaq yatmaq və oturmaqla vaxt keçirər. Deyərlər ki, su tökərkən Allahın adını söyləmək (Bismillah) lazım deyil. Allahın lətif qulları var. Nəhayət, ərlik qüvvətindən Tur dağı parça-parça oldu. Bu gün o şey ki, ondan bütün aləm bir şey əldə edər və o şeydən hər şey meydana gələr. Bu gün gördüyün və tanıdığın hər lətif ki, bu lətif ondan var olmuş və meydana gəlmişdir. Bundan daha lətif və bundan daha yaxşıdır. Deyərlər ki, Allahdan bir nişan var ki, gülək. Sən inayət və rəhmətdə kimdən daha üstünsən? Allah dedi ki: "Hər kim Mənim Allahlığımı çox xatırlayarsa, ya dildən anar, ya candan."

Bəyazid Bistami hansı şəhərə getsə, əvvəlcə o şəhərin qəbristanlığını ziyarət edər, orada dolaşmaq istəyərdi. Necə ki, biri İbn Abbasdan soruşdu: Ey Peyğəmbərin əmisi oğlu! Ürəyim bir az gəzib-dolaşmaq istədiyi vaxt haralara gedək? İbn Abbas buyurdu: "Gündüzlər qəbristanlıqları gəz, gecələr də göyüzünü seyr et."

Bəyazid qəbristanlıqdaydı. Orada palçığa batmış insan başlarına rast gəldi. Könlümə bir ilham gəldi. Əlinə götür o insan kəlləsini və diq- qətlə bax, əmri gəldi. Bəzi qulaqlara baxdı. Palçıqla tıxanmışdı, bəzi qu- laq deşikləri də o biri qulağa qədər açıq idi. Bəziləri isə boğaza qədər tıxalı idi. "Ya Rəbb," dedi, "xalq bunların hamısını eyni görər, halbuki Sən mənə başqa halda göstərdin! İndi nə üçün o torpaqlar mənə ayrı sifətdə göründü?

Bəyazidə belə ilham olundu: "Qulağında heç deşiyi olmayan başlar bizim sözümüzü eşitməyənlərdir. Bir qulağından o biri qulağına qədər dəlik olanların isə sözlərimiz bir qulağından girib, o biri qulağından çıxanlardır. Amma qulağından boğazına qədər deşik olanlar sözümüzü qəbul etmiş başlardır. O bilər ki, bir könül əhli bir insanın ölümünü istəyər. Ancaq məqsədsiz olaraq cisminin ölməsini deyil, ruhunun ölməsini arzulayar. Biri dedi ki, o dərvişi ziyarətə nə üçün getmədin? Allahın, "Xəstə oldum, məni görməyə gəlmədin," xitabını eşitmədinmi? O biri cavab verdi: "Ürəyim yuxadır, içimdən gəlmədi."

Allah Peyğəmbəri (s) bütün incə və pak qəlbi ilə Allah dərvişlərinin sa- lamını müqəddəs sayardı. Onlarla birlikdə oturar, sözlərinə qulaq

asardı. Dərvişin qədrini bilməyənlər bir bəhanə uydurarlar. Əgər ona dəyər verməsək, bir fitnə olar. Bir günahkar üçün, üzü qara olmasın, deyərlər.

Günahsız, əməli saleh bir insanı bayıra atarlar. Şübhəsiz, yaxşıyam, şübhəsiz, qüsursuzam, üzüm ağ, alnım açıqdır, deyər. Əslini qurtarar, amma canını qüvvətləndirmək üçün özünü alçaldar. Halbuki, o əsla əziz olmayacaq. Qoyun başını iki yüz min altun dəyərində görər, amma yatdığı ağılın qapısını görməz. Çünki onu arxada qoymuşdur. Əsil odur. Sevincdən qurtular, qəmə tapınarlar. Bu varlıq ki, onunla məğrurlanmaq bütöv qəm və kədərdir! Sən bu saat qəmlisən, amma "qəmli deyiləm," deyirsən! Dedi ki, biz şad olmayanların qəmini istəyirik. Qəmin başqa bir budağı yoxdur. O, belədir. Halbuki, sevinc saf və lətif su kimidir, hər yerə dağılar. Açılmaq üzrə olan bir çiçəyin açılmasına əngəl olmaz, insan oğlunun bildiyi şey, "Allahdan başqa Allah yoxdur," sözüdür. Onun taqəti buna yetər. Adəm oğlu nə bilər ki! Bir zülf və xal görəndə bir təşbeh düzəldər, yoxsa zülf hardadır, xal harda. Şair belə deyir:

Şeir:

Zülfünü cəhənnəmdəkilər əlləriylə qamarlayar, Cənnət gözəllərinin xallarından mən utanıram.

Cəhənnəmdə zülf nəyə yarayar? Gərəkdir ki, Allah yolunda çözülsün. Göz və qulaq açılsın. Allah ərənləri ilə birləşsin, özünə tapınmaqdan qur- tarsın. Çünki Allaha tapınmaq özünə tapınmaqdan vaz keçmək demək- dir. Nəhayət, dində pirlik mərtəbəylədir. Ona görə daha hərarətli olmaq gərəkdir.

Bir divanə vardı, qeybdən xəbər verərdi. Təcrübə üçün onu evə salıb, qapısını kilidləyərdilər. Amma sonra bayırda tapardılar. Bir gün atam mən- dən üz çevirmişdi, camaatla danışırdı. Divanə hiddətlə atamın üstünə

cumdu, yumruqlarını qaldıraraq, "yoxsa bu uşaqdan danışırsan," dedi və məni göstərərək, "salamat qal," söylədi. Hörmətlə uzaqlaşdı mənim yanımdan. Əsla zərlə oynamadım, çox çətinliyə də qatlanmadım. Ancaq təbiətimə görə, əlim bir iş tutmurdu. Harda bir vəz və söhbət varsa, oraya gedirdim. Çünki o iş üçün dünyaya gəlmişdim. Eynilə İsa Peyğəmbər (ə) kimi. İsa Peyğəmbər süd əmdiyi ilk gündən danışmağa başladı, amma başqa cür danışmadı. zərifliklə danışdığı öz istəyi ilə deyildi. Atıcısı olmadan yayından çıxan ox kimi. Anasının döşündən yapışdı.

Çünki ilk südün dadını o daddı. Necə ki, Quranda Həzrəti Musa (ə) haqqında, "Biz Musanın anasına: "Onu əmizdir!.." deyə bildirdik. Bundan qabaq Biz ona (Musaya) süd analarını qadağan etmişdik," (əl-Qəsəs surəsi, 7/12) mə- nasındakı ayələr məlumdur. Lakin anası ölən bir uşağı məhəllədəki bir köpəyə əmizdirərdilər. Uşaq bu köpəyin südünü əmər, fəqət onun xasiy- yətini də götürər.

Beyt:
Süddən uşağa keçən bir xasiyyət
Can ilə birlikdə cəsəddən gəlmişdir.

İnsanoğlu südü anasının sinəsindən əmər, heyvan balaları da ana- larının ayaqlarının arasından. Arada süddən qorxanlar da var ki, bunlar əvvəlcə söylədiyim kimi, anası ölmüş olanlardır. Halbuki, əksinə olaraq, anası ölənlərin, anası ölməmiş özləri ölmüşlərdir. Ana, "südüm qurudu," deyər. Lakin həqiqətdə bunun əksini söyləyər. Südü qurumamışdır, qurumuş olan ancaq südün qəlibidir, istibdaddan və qabiliyyətdən irəli gəlməkdədir. Bir quş balasını qaranlıq bir quyuya belə atsanız, vaxtı gələndə ötüb-oxuyar, çünki o vaxtını bilər. Bizim quyuduan çıxardığımız, öyrədib-yetişdirdiyimz şəxslər var ki, yedikləri mütləq halaldır. Yəni əl əməyi və alın təridir. Necə ki, "Əlinin əməyi və alnının təri ilə dolan," buyurulmuşdur. Yəni ruh qidası ye, deməkdir. Onlar Quran və hədislərin mənalarını nə bilərlər? Quran onlara yüz cür niqab bağlayar. Quranda, "Ona yalnız pak olanlar toxuna bilər" (əl-Vaqiə surəsi, 79) buyurulmuşdur. Ancaq bəziləri Quranın o gözəl üzünün duvağını necə açarlar? Mütabiət* mövzusunu şərh eləmirəm. Bilmir, öz-öünə deyinir, görəsən, bu mütabiət nədir ki? Mütabiət qarşısında durub, önünə düşüb, amma o bunu görə bilmir.

Musa Peyğəmbər (ə) nəbi idi. Rəsul ilə mərtəbəsi uca olan peyğəmbər arasındakı fərqi soruşmuram. Zahiri elmlərin aldanmış olduqları o fərqdən başqa bir şeyi, mütabiət sözünü söyləyirəm. Özlərini itirirlər,

xəyalları haralara gedir. (M.269) Mütabiət evinin qapısna gəldi, amma tanıya bilmədi.

Musa (ə), su gətirsin deyə, bir dərvişin əlinə su bardağı vermişdi. Musa (ə) Mülaqata* getdi, amma mütabiəti görə bilmədi. Məhəmməd (s) mütabiəti tanıdı. O, dərvişi görəndə iltifata layiq bildi, ona səmimi sözlər söylədi: Aclığın varmı? Səfa tapırsanmı? Aynanı təmizləyərək, dostların üzünə tutursanmı ki, özlərini görsünlər. Fəqət ayna kirli və his-pasla ör- tülmüş olarsa, dostların qarşısına tutsan, nə çıxar?

Uyğun vaxt dyeil. Yoxsa Allaha yaxşı borc vermə bəhsini təfsir edər

və sizə gözəl borcun nə demək olduğunu izah edərdim.

Necə ki, sən də insafa gəlib deyərsən ki, bu sözü minbərdən da- nışmaq yersiz olar. Çünki bu halal ruzi yeyənlərin sözüdür. Deyirəm ki, bunda iki məna vardır. Biri açıqdır, o biri mənası, yəni yeyilməsi asandır. Yaxud "yeyənin yolu aydındır," deməkdir.

Dalğıc dedi ki, mən çox çalışdım, amma sənin qismətinə bu çıxdı! Bəzirgan, inci taciri, əgər mənə bir şey qalmadısa, geyindiyim bu libasları al, dedi. Libasını əynindən çıxarıb, ona verdi və əlavə etdi: "Bir daha gəl!" Dalğıc, indi ki, bu mənim niyyətimin pozuqluğundan oldu, mən də indi niyyətimi düzəltdim. "Əgər bu adamların niyyətləri pozuq deyilsə, mən də aldığım malları geri qaytarım" deyə öz-özünə belə bir niyyətdə bulundu. Onun bu həqiqi qərarı doğru çıxdı. Çünki o dənizin dibini tanıyırdı. Orada inci vardı. Bunu əgər özün ələ keçirə bilərsən, kefini çək. Başqaları üçün taparsan, əlini onun boynuna uzat! Amma başqa birini tapa bilməzsən, əlini öz boynuna sal! Necə ki, bir sufi hər gün paltarının qolunda bir tərə- vəz gizlədərdi. Üzünü ona çevirərək, "ey tərəvəz", deyərdi, "əgər başqa bir şey tapsam, sən azad olarsan, yoxsa əlimdəsən."

Şeyxi qəmli gördüyün zaman belə ona bağlan! Daim ondan yapış ki, səni dadlı və yetkin bir meyvə kimi yetişdirsin. Çünki sənin kamilləşməyin və bəslənməyin o buludun bərəkətindəndir. Yaxşı insan var, amma elmsizdir. Yaxşı bir adam "təvəkkül etdim" deyər, amma elmi yoxdur ki, təvəkkülün yeri haranın olduğunu anlaya bilsin.

Nəhayət, mütabiət odur ki, dəvəni dizindən bağla, sonra Allaha təvəkkül et, məqamı nak uyğun olsun.

Həqiqi bir Allah adamının əlinə verdiyin bir axça başqalarına verəcəyin yüz axçadan daha məqbuldur. Çünki o bir axça xeyir yoluna gedər. "Allaha borc verin," buyurulmadımı? "Haqqın əli vardır," deyirlər. "Sədəqə məhrumun əlinə yetişmədən əvvəl Allaha yetişər." Üzlərini Allah ərlərinin xidmətinə çevirənlərin əllərindəki bir axça beləcə dəyər qazanar. Çünki o

da bunu belə bir xeyirə sərf edəcəkdir. Xeyir Allah quludur. Xeyir Allahdır. Allaha and içirəm ki, xeyir söyləyər: "Aləm külliyat ilədir, cüziyat ilə deyil. Necə ki, hissələr aləm olmadığı kimi, toplum varlıqlar da aləm deyil. Çünki tamdan bütün hissələri çıxarsanız, tam yerində qalmaz.

"Öncə yoldaş, sonra yol", deyərlər. Bu yol üçün necə yoldaşlar lazımdır? Bütün bu aləm pərdələr və niqablardır. Adəm oğlu dünyaya ayaq basınca ərşi kürs, yeddi qat göylər, göy üzü və öz qəlibi onun niqabı oldu. Heyvani ruh, heyvani niqab, müqəddəs niqab, beləcə niqab niqab içində, pərdə pərdə içində ta mərifətin olduğu yerə qədər gizlənmiş-

dir. Arif də sevgilisinə nisbətdə həm pərdədir, həm deyildir.

O necə sevgilidir ki, arif onun önündə düşkündür? Filan şeyx çilədə idi. “Arif kimdir, sevən kimdir,” deyə düşüncəyə dalmışdı. Özünü geniş bir çöldə gəzərkən gördü. Suyu və çamuru olmayan bir çöldür. O biri tərəfdən başqa bir şeyxin gəldiyini gördü. Şeyxə yaxınlaşdığı zaman soruşdu: “Sevilən kimdir? Sevən kimdir? Şeyx bu cavabı verdi: “Sevən o biri tərəfdən gəlir, sevilən də bu tərəfə gedir. Ayın aşağı endiyini gördü. Bir məscidin kənarında oturdu. Bir qapı açıldı. “Kim gələcək,” deyə gözlədi. O şeyx gələrək bir küncdə oturdu. Özündə qəribə bir hal müəyyənləşdi. Onlar bu halın onun çilənin bayırındakı halı olduğunu sandılar. Çilədə olanda bu halın nəyə varacağını düşündülər. Ona bir vəcd halı gəlmişdi. Necə ki, hər zaman da bu hal görünməkdə idi. Şeyx bu halın nə olduğunu anladı və gülümsədi.

Üzünü yuduğun vaxt, şübhə yox ki, yuyan Allahdır. Buyurur ki, dəstəmaz üstündən dəstəmaz almaq, nur üstünə nurdur. Dəstəmaz sənsən, dəstəmaz üstündən dəstəmaz yenə sənsən!

Həsən və Hüseyn əshabələrin arxasınca gedirdilər. Yolda Həzrət Peyğəmbər (s) və hamısı bir çeşmənin başında birləşdilər. Dəstəmazları su ilə təzələndi. Həzrət Peyğəmbər (s) bunlardan soruşdu ki, dəstəmaz nə ilə təkrarlanar? “Ya Rəsulullah,” dedilər, “səndən eşitdik ki, dəstəmaz üstündən dəstəmaz nur üstünə nurdur, buyurdun. O zaman sən dəstəmaz alırdın və vəcd halında idin! Allah səni xoşbəxt eləsin, bu tövsiyəni mühafizə et. Bir kimsə sənə bir söz nəql edərsə, o sözdə cəfa və ürkü varsa, onu söyləyənə yönəlt və əgər deyərsə ki, bu, bir məsləhət və şərin aparılması üçün söylənmişdir. İstər bir hiddət zamanında, bir haqqın yerinə gətirilməsi üçün söylənmiş olsun. Hətta bunun bir neçə misli də artıq sözlər söylənmiş olsun! Sevgili min bir sevgidən və məhəbbətdən sonra tək bir günah ilə gəlsə, ona necə yardım edilməz? Onda bu tövsi- yəni qorumaqdan da sənə fayda gələr. Birinci fayda budur: Bunu xəbər verən insan söz aparmaqdan vaz keçər. İkinci fayda budur: O, söz söyləyənə də yetişər. Söylənməmiş söz də ortada qalmaz.

Həqiqətən, bir söz deyilmədikcə, necə eşidilər. Söyləyən bunu demişsə, sonradan xəcalət çəkər. “Kaş deməyəydim,” deyər. Əgər demişsə, peyğəmbərlə də onu daha çox sevərlər. Çünki onlar bunu eşitsəydilər, xoşlarına gələrdi.

Bu sözləri və öyüdləri korlar üçün söyləyirəm. Çünki onlar qaranlıqda yarımcan bir halda gəzərlər. Ancaq əllərində bir əsa olarsa, çala-çuxura yıxılmazlar, belləri qırılmaz. Zəif görənlərə bu öyüdləri vermək lazım deyil. Çünki onlar yenə də necə olsa görürlər. Bu gün hər kim bir şəxsdən səni incidəcək bir şey nəql edərsə, sən o nəql edən insandan in-

ci! Çünki ona qarşı qəzəb və incimə göstərsən, fayda qazanarsan. Bil ki, onlardan öyrənmək də böyük bir pərdədir, insan onunla alçalar. Guya bir quyuya və ya bir xəndəyə düşmüş kimi olar. O zaman sonunda onun-bunun çanağını yalamaqla məşğul olduğuna peşman olar. Baqi və əbədi olan qidadan məhrum qalar. Sözün və səsin sonu kasaddır demişdim. Dünən bir nəfər gəldi. Məndən ona bəzi şeylər demişdilər. Üstümə cumdu, "mə- nim haqqımda nə üçün belə danışmısan, mən bu qədər böyüklərə xidmət etdim, hamısı məni bəyənmişlər, heç biri ayrılmağıma razı olmamışdır," dedi.

"Sualı ədəbli soruş ki, sənə lazım olan cavabı verim"," dedim. "Daha ədəbli danışa bilmək üçün bir saat oturmalıyam ki, nəfsim sakitləşsin," deyincə, mən "iki saat gözlə ki, nəfsin sakitləşsin," cavabını verdim. Bir saat oturdu və həmin sözə başladı: "Hər kəs yanında xətir-hörmətim var və yaxşı tanınmışam. Hər kəs məni yaxşı insan kimi yada salırdı. Sənin yanında nə üçün belə pis vəziyyətə düşdüm." Sonra əlavə etdi: "İndi sən mənə nə ad verəcəksən?"

Ona dedim ki, əgər müsəlman olarsan, sənə müsəlman deyərəm. Yoxsa kafir, mürtəd və daha alçaldıcı sözlər deyərəm.

Bu gün əgər nəfsinə uymadan söz söyləyirsən, söylə, yoxsa sənə
başqa cür cavab verməràm!

Sübhənallah! Hər şey insan oğluna fədadır, insan oğlu da öz nəfsinə! Allah, "Heç şübhəsiz, səmaları şərəfli yaratdıq,'' yaxud "Şübhəsiz, ərşi şərəfli xəlq etdik,'' buyurdumu? Ərşə çıxsan, heç bir faydası yoxdur. Ərşin ucasına çıxsan da, yerin yeddi qatına girsən də faydası yoxdur. Könül qapısını açıq saxlamaq lazımdır. Bütün nəbilərin, vəlilərin və ərənlərin can atdıqları bunun üçündür, bunu axtarırlar. Bütün aləm bir nəfərin əlindədir. O, özünü tanıdığı üçün hər şeyi də tanıyar. "Qövmümü hidayətə yetişdir.

Çünki onlar bilməzlər,'' yolundakı istək, "mənim parçalarımı doğru yola yönəlt," deməkdir. Onlar kafir oldular. Amma yenə onun parçası idilər. Əgər parçası olmasaydılar, ayrı və sərbəst olardılar. O zaman küll necə olardı? Yuxarıda, "aləm külliyyat ilədir, cüziyyat ilə deyildir," deyirdik. "Külliyyat" deyəndə hansı parça bayırda qalar?

Lüt bir dərviş yol ilə gedirdi. Acanda nə qədər məcbur etsələr də heç kimdən bir loxma yemək almırdı. O hala belə tab gətirirdi. Bir könül sahibi bunun səbəbini soruşdu. O inkar edirdi. Üzünü ona çevirdi. "Bəli"," dedi, "gəl, sınadın, iztirab çəkən olduğumu anla"."

Şeir:

Ayda onun üzündən bir əsər qaldı

O mələk xasiyyətlidən Ayda bir iz qaldı Xeyr, xeyr, hardan hara, Ay kim olar? Can onun qulu oldu və yalnız qaldı.

Ay dünən gecə yastığının üstünə düşmüşdü

Qısqanclıqdan əlimi-ayağımı yerə vuraraq çırpınmağa başladım. Ay kimdir ki, səninlə bir yerdə otursun?

Sən cahanı dolanmış, barmaqla göstərilən bir gözəlsən!

Allah adamları bütün ömür boyu bir dəfə üzr diləyərlər, buna görə də bir dəfə peşmanlıq duyarlar. Bir nəfər ağlayırdı: "Qardaşımı tatarlar öldürdü, nə bilikli kişi idi o!" Ona belə dedim: "Əgər səndə də elmdən əsər varsa, onu tatarlar qılınc zərbəsi ilə əbədi olaraq dirildiblər." Vaizlər o həyatı nə bilsinlər? Minbərə çıxıb, bağırmağa başlayarlar. "Dünya mömi- nin zindanıdır," deyərlər. Biri zindandan qaçıbsa, ona ağlamaq gərəkdir. "Yazıq, nə üçün buradan qaçdı," deyə halına acıyarlar onun. Zindana ta- tarlar dəlik açdılar. Əgər o başqa səbəbdən qaçıbsa, bir yerdən başqa bir yerə köçmüşdür. Halbuki, sən "o qazmanı o zindanın divarına nə üçün vurdular," deyə ağlayırsan! "O daşa nə üçün vurdular," deyirsən! Onların halına acımaq lazım deyil. O gözəl mərmər bəlkə onun ayağına vurulmuş bir buxov idi. O da kənara düşdü. Sən isə fəryad edirsən. Başına-gözünə döyüb, "nə üçün buxovu açdılar," deyirsən. Yaxud içinə salındığın qəfəsi qırsalar, nə üçün qəfəsi parçalasınlar ki, bu quş canını qurtarsın, deyə sızlayırsan. Yaxud da bir çibanı deşirlər, içindəki çirklər kənara çıxsın deyə. Sən o an fəryada başlayırsan: "O çibanı nə üçün deşsinlər, içində çirk salmış o pisliklər nə üçün bayıra çıxsın?"

kamilin xidmətində olun," anlamına da gələr. "Kəndlini də qonaq edin,"

deyə buyurulmuşdur. Xalq mədən kimidir. Altun mədəninə bənzəyər.

Deyirlər ki, Həzrət Həmzə ilə Əbdürrəhman uzun bir yolçuluğa çıxmışdılar. Yer üzərindəki qəribə şeyləri görməyi və gəzməyi arzu edirdilər. Lakin getdikləri yerdə bir dəstə qarışqa peyda oldu. Hər biri, Allah qorusun, bir neçə fil qədər qorxunc idi. Bunların adəti də savaş zamanında hər kəsə qarşıdan hücum etməməkdi. Əvvəlcə Həmzə yerindən sıçrayıb qalxdı, qarışqalara bir ox atdı. Sonra başqa bir aslan gəldi. Ona da ox atdı. Beləcə, on dənəsini vurdu. Sonra geriyə qayıdıb gəmiyə sığındı. Daha sonra da Əbdürrəhman həyatını qurtarmağa çalışdı. Oxunu yaya qoydu, iki qarışqa onun üstünə hücum etdi. Amma oxu bir şeyə yaramadı. Həm- zə çığırdı, "geri qaç," dedi. Bu sənin işin deyil. Əbdürrəhman da qaçaraq gəmiyə sığındı. Quruda qəribə bir cərgə düzüldü qarış-

qalardan. Amma bu yolçuluğun əhəmiyyətli tərəfi onların dəniz yolçuluğu idi.

Misra:

Uzun papağım var, gecələr uzun danışıram.

Bir dərviş bir dükan sahibindən sədəqə istədi. Dükançı onu yola salmaq üçün "hazır bir şey yoxdur," dedi. Mən də dükançıya, "bu dərviş əz- izdir, çınki ona bir şey vermədin," dedim. "Allah qismət etməyib," cavabını verdi. Təkrar dükançıya, "Allah qismət etmişdi, amma sən əngəl oldun," dedim. Gözümlə gördüyüm bir şeyi necə təsdiqləyim. Əgər sən əlini bu dağarcığa salsaydın, dağarcığın başı əlini sıxıb və yaralamış olsaydı, mən də gözümlə görsəydim, "bəli," deyərdim, Allah istəmədi.

Ey görünməyən lütflər sahibi. Görünməyən lütf odur ki, günah edərkən verilər, yoxsa gizli ibadətdə lütf olmaz.

İki nəfər bir gəmini tuturlar, yaxud savaşırlar, bunların hansı məğlub olsa, haqq onun tərəfindədir. Qalib gələnin tərəfində deyil. Çünki Allahtəala səhih hədisdə, "Mən qəlbi qırıqların yanındayam" buyurmuşdur.

Bir icma var ki, onların yanında söyüş, həqarət lap asandır. Pis söyüşlər, həqarətlər onlara görə, bütün işlərini sabaha saxladığın üçündür. Yəni bu günə nə oldu ki, sən bunu günlərdən saymadın! "Bu günün nə günahı vardı ki, hesabdan kənar qaldı," deyərlər.

Şeir:

Hanı o andlar, hanı o verilən sözlər? Aşkarda ağır tərpəndin, amma tez qaçdın! Eşqinlə məni dustaqlar kimi bağlamışdın, Anladım ki, ancaq mən sənə aşiqəm,

Sən sevgini mənə əmanət qoyursan!

İndi yol üstündə oturub məzlum qiyafəsinə girəcəm, Səninlə dava edəcəm, mənə zülm etdiyin üçün!

Olsun ki, bu ayrılıqdan qurtulub sənə yetişdiyim zaman halıma acıyarsan. Yaxud məni necə bəlaya saldığını açıq-aydın anlayrsan!

Zaman-zaman arzuladığın şey bu gün əlinə keçdi. And harada qaldı? Yəni danışdığımız sözlərin axırı nə oldu? Sözlərimiz beləcə keçib-getdi. Sən böyük adamsan, Quranı təfsir edirsən. Tam alim olan hər insan da böyük adamdır. Amma Allahdan tamamilə boşanmış və öz mənliyi ilə dolmuşdur.

Deyək ki, bu saat Rum müsəlman oldu. Allah qoxusunu aldı, qəlbini o ətirlə doldurdu. Yüz min peyğəmbər onun könlünü boşalda bilməz.

Bəzən elə ağlamaq var ki, Allaha pərdə olar, qulu Allahdan uzaqlaşdırar. "İndi açıq danış, danışdığımız məsələ haqqında nə elədin"," dedi.

Ona dedim, sözlərin mənası nədir ki, danışırsan? Onlar necə cavab verirlər? Qulağım ağır eşidir, gəl qulağıma de!

Şeir:

Döst sözə başlayınca qulağımı kar etdim,
Onun sözlərinin şirinliyindən aslanlar ova çıxar, Mənim üçün bunda bir çətinlik yoxdur, amma, Onun sözlərini xatırlamaq istəyirəm.

Belə buyurublar: Mələklər Allaha yalvardılar, filan mömin qulun sənə bu qədər yalvarar, ağlayaraq yardım istəyər. Sən özgələrin belə duasını qəbul edərsən! Onun istəyini də qəbul etsən nə olar? Allah-təala buyurdu: Məni qulumla baş-başa buraxın! Siz Məndən daha mərhəmətli deyilsiniz. Mən onu sevirəm və onun səsindən xoşum gəlir.

Bəzi bəndələrin dualarının ən gec qəbul edilməsi məhəbbət və sevgi yönündəndir. Bir zaman olar ki, tərifləmək və bəyənmək qula zəhmət və hicab olar. Söz yenidən geri sıçrayar. Bir vaxt olar ki, əgər bəyənməzsə, istəyər ki, onu parça-parça etsin, sonra yenə bir an olar ki, ağlamaq ona xoş gələr. Halbuki, başqa bir saatda ağlamaqdan da inciyər, gülməkdən də.

Xocəndli Şəmsəddin ailəsinə görə ağlayırdı. Biz də ona ağlayırdıq. Ailəsinə görə nə ağlayır? Biri Allahına qovuşdu deyə, ona ağlyaır, amma o, özünə ağlamır. O öz halını bilsəydi, özü üçün ağlayardı. Bəlkə bütün ailə üzvlərini çağırar, qohum-əqrabasını toplayar, için-için ağlayardı.

Haqda dəyişmə yoxdur, amma dəyişmə səndədir. Necə ki, çörəyi bəzən sevər və axtararsan, bəzən də ondan bezər, üz çevirərsən. Bir dost ilə söhbətə başın qarışar, sənə çox sevimli görünər. Hesab edərsən ki, sevgilin odur. Bir saat sonra duyğuların başqadır, o dosta düşmənlik göstərərsən. Əgər sən əvvəlki o dürüst hal üzərində qalsaydın, daim istənilən və sevilən adam olardın. O, hala "yetkinlik" deyilər. Görəsən, bu yetkinlikdən nə anlaşılır. Bax bu yetkinliyi açıq-aydın görmək deməkdir.

Quranda, "Bu dünyada kor olan axirətdə də kor olar," (əl-İsra surəsi, 72) buyurulmuşdur. Nəhayət, bu kor olan insan Haqqı dünya gözü ilə açıq- aşkar görə bilməyəcək bir halda qalacaqdır. Amma necə olar ki, "Qəlbin Rəbbimi görüncəyə qədər", deyə öyünə bilər?

Yetkinləşən şəxs yetkinliyini dərk etməz. Aksaraya gedər, amma Aksaraya yetdiyini bilməz. Amma oraya yetişincəyə qədər də həmişə qorxu və yalvarış içindədir. "Görəsən, yetişəcəyəmmi, yoxsa, yetişə bil- məyəcəyəm," deyə şübhədə qalar. Onlar deyərlər ki, görmədiymiz şeyin arxa-

sınca düşmərəm. Halbuki, o görməyən şey də deyər ki, onlar ar- xamca qaçıb yorulmadıqca, özümü göstərmərəm. Hal belə olunca, onlar öncə öz sözlərini söyləmədən, o iş olmaz.

Əgər təqlid etmək lazım olarsa, barı Quranı təqlid etsinlər. Necə ki, bir filosof belə deyir: Bir həkim var idi. Dünyanın dörd yanında tayı-bəra- bəri yox idi. Tibb elmi üzrə bilgilərdə çox irəli getmişdi. Elə kölələri vardı ki, telinin hər biri yüzlərcə insan dəyərində idi. Amma özünün çox çirkin bir qiyafəsi və çox iyrənc çöhrəsi vardı. O dərəcə ki, lap az şəhərdə onun tayı çirkin surətli insan görülmüşdür. Üzü-gözü bir-birinə qarışmış, ağzı- burnu, gözləri sanki aydın deyildi. Bu həkim çarəsiz bir dərdə tutuldu. An- caq insan çirki ilə oynayır, onu paltar-palaza bulaşdırırdı. Bir çox həkim yanında oturmuşdu, bir-birlərinə baxır, danışmaq belə istəmirdilər. Xəs- tənin başa düşməməsi üçün bu çirkin hərəkətlərindən bəhs etmək istə- mirdilər. Halbuki, xəstə həkim hamısının ustadı idi. Bu sükutun səbəbini anladı. Onlara, "bəli," dedi, "bilirəm ki, filan şeyi yemək lazımdır." Onu yemək lazımdır, amma zavallı xəstə bunu çox sevər.

"Bir saat düşüncəyə dalmaq altmış il ibadətdən xeyirlidir,'' buyurulmuşdur. O düşüncəyə dalmaqda məqsəd həqiqi bir dərvişin yanında olmaqdır ki, o ibadətdə bir saxtalıq olmasın. Şübhəsiz, o ibadət dinclik iç- ində edilən ibadətdən daha üstün sayılar.

Namazın qəzası var, amma dincliyin qəzası yoxdur. Bəzi fəqir dərvişlər namazı tərk edərlər. Qəlb dincliyi olmadan namaz olmaz. Necə ki, "Fatihə oxunmadan namaz qılınmaz", buyurulmuşdur. Onlara görə, Fatihə o dinclikdir. Bir dinclik ki, Cəbrail belə gəlsə, göz yaşını içinə axıdaraq, onu Rəbbi, "gəl," deyə çağırmadıqca, "xeyr," deyər. Əgər bir bar- maq daha yaxınlaşsam, "yanaram," deyər.

Mənim dostlar haqqındakı düşüncəm dürüstdür. Gözümlə görmədiyim şeyə belə, o düşüncəyə xilaf hərəkət edə bilmərəm. Kafirlərin haqqında belə pis düşünülməz. Deyirəm ki, sonda onların da müsəlman olmayacağını kim iddia edə bilər?

Həzrət Ömər (r.a) qırx il bütlərə ibadət etdi. İstədiyini bütdən istədi. Bütə əl açıb, "ey büt," deyə çağırdı. Fəqət Allah ona, "ey Ömər," deyə cavab verdi.

Həzrət Məhəmmədin (s) məclisinə bir yoxsul gəldi. Varlı bir adam da məğrurlanaraq, ətəyini fəqirin ətəyi üzərinə açdı. Həzrət Peyğəmbər (s) hirslənərək, ona gözünü ağartdı. Varlı, "ey Allahın Rəsulu," dedi, "mən ma- lımın yarısını ona verim, məni bundan ayır." Həzrət Məhəmməddən (s) bir xəbər belə verə bilmədim. Qüreyşi və başqaları yüz min il keçsə, yenə maraqsız və zövqsüzdürlər. Onlarda bir zövq və bir məna tapılmaz.

Misra:
Öz nəfsinə tapınanlara bir qurtum su belə verməzlər.
Məclisdə bizim sözlərimizi dinləyən bir uşaq vardı. Hələ çox kiçik idi. Amma hər gün ata-anasından qaçırdı. Bizim pərəstişkarlarımızın arasına qatılmışdı. Deyirdi ki, mənim sizə xidmət edə bilməyim üçün daim yanınızda olmağım gərəkdir. Halbuki, ata-anası ağlayıb-sızlayır, o da "mən bu halı öyrənib onu tərk edərəm" deyə qorxurdu. Bu iş beləcə davam edib gedirdi. Uşaq bütün gün başını dizimə qoyub otururdu. Ata-anası bu halına görə ona etiraz edə bilmirdilər. Bir arada qapıya qulaq verdim. Qapının arasından bu beyti eşitdim:

Beyt:
Sənin yanında aşkar qanadlanıb uçarlar, Gözlərindən ürəkləri qan saçar.
Mən sənin qapında torpaq kimi oturmuşam, Amma başqaları rüzgar kimi gəlib keçərlər.

Ona "nə söyləyirsən, əzizim," dedim, "onu bir də söylə." "Xeyr," dedi, danışmadı. On səkkiz yaşında öldü. Onun təbiətindəki dərin istedadı, zəkanı, lətafəti və qüdrəti necə təsvir edim.
İslamda sədr* termini qəlbdən daha geniş bir məna daşıyar. Onun mənası daha genişdir. Amma başqa bir mənası ilə köks, vəsvəsə verən şeytanın dayanacağıdır. Halbuki, qəlb, yəni könül elə deyil. Necə ki, Allah Şeytan üçün "insanın qəlbində vəsvəsə verən", deyə buyurmadı. "Köks- lərdə vəsvəsə verən", dedi. İndi İslamın o köksü hardadır, könlü harda!
Suyun dərinliyi ağzı və burnu keçmədikcə, insan üçün təhlükəsiz olar. Ağız və burun suyun üstündə olduqca, insan öz-özünə yürüyər və yaşayar. Amma su içində tamamilə batarsa, ağız və burun suyun səviy- yəsindən aşağıda qalar və boğular. O zaman ona, "ölüb," deyərlər. Hər ikisi də doğrudur. Onda bu müvəqqəti dirilik getdi, amma əbədi həyat başladı.
Məhşur Allah dostlarının bəzi səbəbdən bəzi sözləri deməsi ayıbdır. "Mən haqqam", deyərək, Həzrət Peyğəmbərə (s) bağlanmaqdan geri qalmaları, bu sözlərin xalqın ağzına düşməsi lazım deyil. Bu sözləri söyləyənləri itlər belə olsa, ya öldürərlər, ya tövbə etdirərlər.
Həzrət Peyğəmbər (s) Meracdan gəlmişdi. Hər kəs qəlbindən ke- çən bir düşüncəni ondan soruşurdu. Biri Allahı görmək, o biri Cənnəti tərif

etməsini istəyirdi. Həzrət Fatimə (s.ə), "mən onu bilmərəm, mən qorxuram, cəhənnəm necədir, ondan danış," dedi. Yəni xanım Fatimənin (s.ə) məqsədi özünü qüsürlü göstərməkdi. Həzrət Süleymandan (ə) ədəb öyrənmişdi. "Hüdhüdü niyə görmürəm?" (ən-Nəml surəsi, 20) dedi. Quşda qüsur görmədi, qüsuru öz nəfsində tapdı. Necə ki, "Sənə ye- tişən hər bir yaxşılıq Allahdandır, sənə üz verən hər bir pislik isə öz nəfsindəndir," (ən-Nisa surəsi, 79) mənasındakı ayədə buyurulduğu kimi Həzrət Fatimənin (s.a) inancı da belə idi. "De: "Hamısı Allahdandır" (ən-Nisa surəsi, 78) hikməti lazımınca bir şeyi pisləyərkən yuxarıda söylədiyimiz, "o sənin nəfsindəndir," məqamına diqqət etmək gərəkdir. Dostlar bilsəydilər biz onlar haqqında nələr düşünürük, necə var-dövlət istəyirik onlara! Önümüzə can atardılar. Təmiz bir vicdan nə düşünər? Şeytandan, vəsvəsədən arınmış olan bir qəlbə əsla şeytan girə bilməz. O qəlbdə daim mələk oturar. Necə ki, Allah, "Mən qəlbi rəhmətimə məkan qıldım," buyurmuşdur. Siz kərəm edib bayıra çıxın. Nəhayət, qəlblər üç yerə bölünər. Bir şeytan yuvası olan qəlblərdir ki, içinə mələk də girə bilər. Bəzən mələklər kənara çıxar, şeytan girər, bəzən də mələk girər, şeytanı qovar. İkinci qəlb də yalnız mələklər yuvasıdır. Oraya şeytan girə

bilməz. Bu, Lövhi-məhfuzda yazılmış yazıların təsiridir. Bir zümrə də heç Lövhi-məhfuzdan gözlərini ayırmaz. O, daim gözlərinin qabağındadır. Bu, eynilə ona bənzəyər: Bir süfrə açılar, ipək-ibrişimlərdən ötrü. Altun boşqablar və mücövhər işləməli qablar var. Amma ortada yeməkdən əsər yoxdur. Kaş ki, o boşqablar və qab-qacaq taxtadan olaydı, amma içinə yemək qoyulaydı.

"Məgər Rəbbinin kölgəni necə uzatdığını görmürsənmi?" (əl-Furqan surəsi, 45) anlamındakı ayənin mənası nədir?

Ağıllı insan lazımdır ki, bir dəfə peşman olsun, ömründə bir kərə tövbə etsin. Bu, birdəfəlik tövbə və peşmanlıq da ona çox xəcalət versin. Hər şeyi özündən görsün. Musa, İsa, İbrahim, Nuh, Həvva, Asya, Xızır, İlyas, Firon, Nəmrud və başqaları da səndəndir. Sən sonsuz bir aləmsən, Yerlərin, göylərin nə yeri var? Allah buyurmadımı: "Göylərim və yerlərim Məni əhatə edə bilməz. Mən bəlkə mömin bir qulumun qəlbinə sığaram." Yəni Məni səmalarda tapa bilməzsən. Ərş üzərində də tapmaq olmaz! Hardadır Allahı xalqa bənzədən o yolunu azmış ki, ay Pir Baba, vay Allah, deyə fəryada gəlsin. Necə ki, bir vaiz, "Allahı altı yöndə hesab etməyin, O nə ərş üstündə, nə də kürsü üstündədir, Allaha bənzər bir şey yoxdur," deyincə təşbihçi yerindən sıçradı. Üst-başını cıraraq fəryada başladı. "Ya Rəbb," dedi, "cahandan qeyb olursanmı? Pirimizi cahandan kənara atdığın kimi gizlənirsənmi?"

Bütün quşlar Simurğu (Hüma quşu) görməyə getdilər. Yolları üstün-

də yeddi dəniz vardı. Bəziləri yolda soyuqdan öldü. Bəziləri də dənizin vahiməsindən töküldülər. Bütün bu quş dəstəsindən iki quş qalmışdı. Bunlar məğrurlanaraq dedilər ki, bütün yoldaşlarımız qırıldı, ancaq biz Simurğa yetişə bildik. Amma Simurğu görəndə dimdiklərindən iki damla qan süzüldü və can verdilər.

Bu Simurğ Qaf dağında qərar tutub. Amma onun o tərəfdən haraya uçacağını Allah bilər. Bütün bu quşlar Qaf dağına yetişə bilmək üçün can verərlər. Ömrü boyu və ancaq bir gün hal mərtəbəsini bulan insan hal əhli olduğunu sanar, canı başqalaşar. Deyərlər ki, Dəccal qoyun-keçi, nə taparsa, öldürər, quşları parçalayar, tükünü yolar, qanadını qırar. Haqqın həqiqi qulları və Məhəmmədin (s) izində olanlar möcüzəni andıran hal- larına görə məğrur olmazlar. Bunlar təqlidçidirlər. Amma bu iqtida edən möminlərin qoruyucusu Allah inayətidir. Zaman-zaman o inayətin əsəri örtülə və gizli qalaraq canana yetişər. O təqlid elə bir qüvvət tapar ki, o xəbəri bu Dəccalın min qat qüvvətli dünyagörüşü belə verə bilməz. Bu gün daim hal üzərə olanlar heç bir zaman ondan xilas ola bilməzlər. Nə

yeyib-içərkən, nə yatarkən, nə də bulaqdan su daşıyarkən o hal ondan ayrılmaz. Onunla birlikdə davam edər. Onun halı necə olar?

Biri dedi ki, "bu səma ilə elm adamlarının adını batırdın!" Cavab verdim: "Bilmirsənmi ki, yaxşı ilə pis, kafirlə müsəlman arasındakı fərq ancaq onlara, yəni səma edənlərə aşkar olar. Deyirdi ki, "sən Allaha oynayaraq yetişirsənmi?" Dedim ki, sən də rəqs elə, Allaha yetiş. İki addım sonra yetişərsən!

Bir gün məzə söyləyirdim. Quranda "Bu, Şeytan əməlindəndir,'' (əl-Qəsəs surəsi, 15) anlamındakı ayənin təfsirini izah edərkən dedim, Allah Rəsulu buyurur ki, "Şeytan Adəm oğullarının sinirlərində, qan damarla- rında dolaşar.'' Amma bu şeytan türkmən papağı kimi deyil ki, tanımaq mümkün olsun. Qibtiyə* şillə vurarkən Musaya (s) gələn qəzəb şeytan idi.

Cəlali Verkamı sıxışdırdım. "Bu şeytan nədir,'' dedim. Mənim söylədiyimdən başqa qibtini öldürməkdəki səbəb nə idi? "Söylədiyin doğrudur, sən də mənim dediyim bu şeytan surətini qəbul və etiraf et. Mən ona ağla uyğun deyirəm. Sənin söylədiyin şeyləri hər kəs bir-birinə deyib. Hər kəs axırda hər kəsdir. Sən deyirsən ki, dinin sağlamlığı ilə bağlı bütün elmlər Həzrət Məhəmmədin (s) bildiyi şeylərdir. Məhəmmədə (s) də hər kəs deyirsən: O daim bunun gözəl olduğunu söyləyərdi. Ancaq hər şeyi yerinə görə hər kəsə vermişdilər.

Musa Peyğəmbər (ə) deyirdi ki: "Ya Rəbbim! Firon edəcəyim dəvətə uymazsa, nə faydası olar?'' Allah, "sən vəzifəni yerinə yetir,'' buyur-

du.

Allahın elə qulları var ki, onların söhbətlərini öz aralarında ancaq özləri dinləyər və başa düşərlər. Söhbət etdiyim o dostları sizin də görməyiniz gərəklidir. Bizdən biri abdal qiyafəsindədir. Deyir ki, “mənə, qancıq deyə dil uzadırlar. Halbuki, mən qancıq deyiləm, ancaq bu rəqqasə qadınla oturub-durmaq həqiqətən mənə yaraşmaz. Amma mənim üçün onunla bir yerdə olmaq xoşdur. O da məndən məmnundur. Hələ mənə elə qulluq edər ki, heç soruşma! Hərçənd mənimlə yatağa girməz, amma mənə yağlı yeməklər bişirər, mən də yeyə bilmərəm. Mənə, nə üçün yemirsən, deyir. “Utanıram, deyərəm.” Məqsədim, dərvişlər arasında danışmaq və bunu izah etməkdir: Əgər “istəyim yoxdur,” desəm, bu, dərvişlərə çatmaz, “burada yeməkdən utanıram,” desəm, “etdiyin abdallıqdan utanmırsan, xörək yeməkdən utanırsan,” deyərlər. O qadın da deyir ki, onun yoldaşları var, onlarla yemək istəyir. Bu gün onun kim olduğunu söyləmədim. Yüz abdala qulluq etməlisən ki, o bir abdala yetişə biləsən. Onun canına qurban olsun. Ona canı-könüldən bağlılıqda, onu qorumaqda göstərdiyin dərin əlaqə ilə o qəlbən bağlılığın, verdiyin sədəqənin zövqündən belə

xəbəri olmadı. Yəni son dərəcə məşğul olmağın üzündən, “kaş ki, daha yaxşı olsaydı, bundan daha çox olsaydı,” deyə gileylənməyə başladın.

Bəyazid Bistami neçə dəfə Həccə piyada getdi. Yetmiş dəfə Həccə getmişdi. Bir gün zəvvarların yolda susuzluqdan əziyyət çəkdiyini gördü. Hardasa susuzluqdan ölürdülər zəvvarlar. Zəvvarların toplandığı quyunun başında bir köpək gördü. Heyvan niskilli bir halda ona baxırdı. Bəyazidə ilham gəldi. Bu köpəyə su çatar deyir və çığırırdı: Bir Həccin savabına bir bardaq suyu kim satar? Heç kim bu çağırışa cavab vermədi. Sonra yenə artırdı. Piyada gedilmiş beş Həcc, altı, yeddi deyərkən yetmiş Həcc savabına qədər artırdılar. O, “mən verərəm,” deyə səsləndi. Bəyazidin xatirindən belə keçdi. Nə xoşbəxtəm ki, bir köpək üçün aldığım bir bardaq su ilə yetmiş piyada Həcc savabını satın aldım. Suyu o saat bir qaba töküb, itin qabağına qoydu. Köpək üzünü çevirdi. Bəyazid üzü üstə döşənərək tövbə etdi. Ona ilahi bir səs gəldi: “Allah üçün elədiyin bir işə görə hələ nə qədər bunu elədim, onu elədim, deyəcəksən? Görürsən ki, bir köpək belə bunu qəbul etmir.” Bundan sonra Bəyazid, “ya Rəbb,” dedi, “tövbə etdim.” Bundan belə bir daha yanlış düşüncəyə qapılmaram. Bunun ardınca köpək dərhal başını çanağa salıb, suyu içməyə başladı.

Şeir:

Sən elə dilbərsən ki,
Yüz cürə şəfaət istəklərim, Yüz cürə yalvarışlarımla,
Bir dəfə ayağından öpüm, deyirəm, yaxına buraxmırsan.

Əvhadüddin Kirmaniyə oxşayan bir xəyalpərəst əvvəlcə yolunu elmdən sapqınlıq tərəfə çevirir. Ondan sonrası elmdir, elmdən sonra da doğru və çox yaxşı xəyalət gəlir. Daha sonra da gözünü açmaq, oyanıq davranmaq istəyər. Həqiqi iqtida edən, böyüklük arzusu ilə bir gedişi və bir yolu ortadan qaldırmaq istəyən şəxsdən daha yaxşıdır. Mən bir kor gördüm ki, əlini gözüaçıq birinin çiyninə qoyar, ta Aksaraya qədər gedərdi. Başqa bir kor da gördüm ki, o da bir gözü görən bir nəfərin arxasınca gedər. Amma özündə görən göz yoxdur. Rəhbərsiz yola çıxmış şəxs ölümə gedər. O həm yoxluq içərisində ömür sürər, həm də yoxluq içində can verər. Yaxud aclıqdan və susuzluqdan əlinə keçən hər bir ovu yeyər.

Bu avam deyilən dəstə beş vaxt namaz qılar ki, əzabdan qurtulsunlar. Heyf onlara ki, Həzrəti Peyğəmbərə (s) bağlanmaqdan özlərini uzaqlaşdırırlar!

Bir bədəvi ərəb Peyğəmbərdən (s) soruşdu: “Ey Allah Rəsulu! Allahın

əmri nədir?”

- Beş vaxt namazdır.
- Bəs oruc?
- Otuz gündür, fitrəsi də var.

Ərəb yenidən soruşdu:

- Mənə bunlardan başqa bir təklif varmı?
- “Xeyr,” buyurdu Peyğəmbər.
- Elə isə mən bundan artıq bir iş eləməyim,- dedi və bayıra çıxdı.

Ərəb bayıra çıxdıqdan sonra Həzrəti Peyğəmbər (s) buyurdu ki, o, bunları eləməklə özünü xilas edər. Bunlar da deyərlər ki, nə yaxşıdır. Elə isə biz də bu qədərlə kifayətlənək. Mütabiətin, yəni Peyğəmbərin (s) izində yürüməkdən vaz keçərlər.

Gözaçıqlığı, doğulandan gözü Günəşin qaynağına açılmış və onun işığına alışmış olmaq deməkdir.

Deyərlər ki, sən Aydan söz aç, meteroitdən danış. Necə söyləyə bi- lərəm? Günəşin aləmdə bir ay olub-olmadığından xəbəri yoxdur. Ay da belə bir zavallılıq içərisindədir. Planetlər də. Bu Ayı hər kəs görər. Ona baxarlar, amma Günəş ilə Ay arasında işıq cəhətindən heç bir bərabərlik yoxdur. Çünki heç kim Günəşə baxa bilməz, gözlərin buna gücü yetməz.

Səməndər qəribə bir məxluqdur. Atəşdə yanmaz. Amma suda boğular. Qurbağa dənizdə boğulmaz və sudan ona bir ziyan gəlməz. Amma atəşdə yanar. Nə odun yandıra biləcəyi, nə də suyun boğa biləcəyi heyvan tapılmayan bir məxluqdur.

Quranda "Bil ki, Allahdan başqa heç bir tanrı yoxdur," (Muhəmməd su- rəsi, 19) buyurulmuşdur. Bu ayəyə "bil" xitabı ilə gəlmiş bir əmrdir. Yəni elmi tövsiyə edər. Yenə eyni ayədə "Günahından tövbə et," müraciəti də bu fani varlıqdan qurtulmaq üçün ayrı bir əmrdir. Sonradan var olan bu vücud, necə olar ki, başlanğıcı olmayan aləmi görə bilər? Sənin cismin hələ dünənkidir. Ruhunu da bir neçə gün əvvəl yaradılmış fərz et. Bunu yüz min il saysan, yenə azdır.

Ömər (r.a) bir gün Həzrət Məhəmmədin (s) məscidinə gəldi. Peyğəmbər (s) bir nəfərlə ağır-ağır danışırdı. Ömər bu vəziyyətdə Peyğəmbərin (s) yanına getməyə cəsarət edə bilmədi. Öz-özünə dedi ki, madam, mən bu söhbətə məhrəm deyiləm, yaxınlaşmayım. Həzrət Peyğəmbər

(s) onun nə düşündüyünü anladı. "Bunu mənə (hər şeyi) bilən, (hər şeydən) agah olan (Allah) xəbər verdi." (ət-Təhrim surəsi, 3) Peyğəmbər (s) Ömərdən soruşdu: "Ya Ömər, o adamla danışdığımız sözləri eşidib, anladınmı?" Ömər, "xeyr," dedi. "Ey Allahın Rəsulu! Ancaq mübarək dodaqlarınızın tərpəndiyini gördüm." Həzrət Peyğəmbər (s), "hələ çox görmüsən, hərflərin ağızdan çıxmasının vəziyyətinə görə, nə danışdığımızı təxmin edə bilərsən," dedi. Ömər üzü üstə qapandı. "Mən hər kimi sevdimsə, çox cəfasını çəkdim," dedi. Vəfa elə bir şeydir ki, onu beş yaşındakı uşağa göstərsəniz, inanar və sizi sevər, amma sizə cəfa da verər. Öz cinsimdən birini istəyirəm, onu qiblə edim, üzümü ona çevirim. Özümdən keçmiş olum. Söylədiyim bu sözdən sən nə anlayarsan? "Özümdən keçim," dedim. İndi özümə qiblə etdiyim o adam sözlərimi anlayan və dərk edən şəxsdir.

Gələk o çox çətin və dərk olunması çətin olan Peyğəmbər (s) sözünə. Onun mənasını və nə demək istədiyini göstərək. Nümunə olaraq onun bir sözünü misal gətirək. Mənasını, yazılışını, tələffüzünü araşdıraq. Problem deyil, "yox" anlamına gələn «La» sözü üçün izah olmaz. Çünki mütləq inkar şəkilçisidir. Lakin "Ma" hərfi həm inkar ədatıdır, həm də təsdiq ədatı, həm də başqa mənalarda işlənə bilər. Ancaq mən bu in- cəlikləri düşünsəm, onların qaçdığını görürəm. Görürsən ki, Allah elçisi olan Həzrət Məhəmməd (s) ilə söhbət etmək istədiyim zaman bu söz incəliklərinə diqqət edər. Amma sənin dostluq meydanına ayaq basdıqdan sonra çox hörmətsiz və cəsur oldum. Heç bunları düşünmədim. "Bu sözdən nə məna çıxar, deyə ehtiyatlı danışım," demədim. Yaxud bu işdə bu məqamı xatirimə gətirmədim. "La" (olmaz) demək ehtiyata və dostluğa

yaraşmaz, çünki əzab verər. Ya tamamilə alim olmalı, yaxud da dəxli olmayan bir kəndli kimi olmalısan. Yoxsa, sənin atəşindən tüstü çıxar. Söndür, istəmirəm! Ya tamam yanar, ya tamam sönər. Amma sizə görədir. Yoxsa işgəncəyə görə deyil.

Hələ gənclik çağındayam. Abdalın biri zındıq olduğunu eşitmiş, təcili anasının başını kəsib. “Analıq haqqı harda qaldı,” deyə soruşanlara bu cavabı verib: “Mülhidlər,* zındıqlar bilsinlər ki, onlardan qorxum yoxdur.” Bunu eşidən bir mülhid, o məndən daha mülhid imiş, deyib. Mən əsla bunu eləmədim. Ayrılıq dəmi gəldi, dediyim zaman bunu söz olaraq söylədim, yoxsa həqiqət deyil. Bunu istəsəm də, eləyə bilmərəm. Gedə bilmərəm, xeyr, bununla qürurlanmağa dəyməz.

Şeir:

Hafizəm pozulduğundan huşsuzluğa yaxındım,

Mənə günahları tərk etmək vəhy olundu, dedi. (Yəni varlığı tərk etmək) Elm Allahdan bir vergidir,

Allah vergisi isə asilərə verilməz.

“Necə ki, hifz, yəni qorumaq, saxlamağı tərk etməkdir,” dedi. “Allah vergisindən istəyin,” buyurulmuşdur. Bu vergidə artım var. Yəni elm baxımından bütün artımlara razı olma. Sufidən hansı artıqlığı istəyirəm. Ariflikdə artım, hər qarşısına gələn şeydə artım, o an artım.

Deyirlər ki, aləmdə nə varsa, Adəmdə də var. Bu yeddi fələk insanda hansıdır? Bu ulduzlar, günəş, ay insanın harasındadır?

Mən Qazı Şəmsəddindən bu səbəbdən ayrıldım. Mənə istədiyimi öyrətmədi. Mən Allaha qarşı utancaqlıq göstərmərəm, O səni necə yaratdı, elə də qoruyar. Qul var ki, şeytana uymaz, o bu işə görə xəcalət çəkməz. O zaman şeytan da, “bu adam kiminlə məşğuldur,” - deyə gülməz. “Filankəs iblis ilə belə elədi, necə adamdır o, necə adamdır ki, şeytan ilə daim savaşdadır,” deyərək bu adamla öyünərlər. Bax, bu, nəfsin inanc və etimad mərtəbəsində olması, yəni Mütmainnə bağıdır. “C” bağı, Əmmarə, yəni əmredici nəfs, “H” bağı da Ləvvamə (qınayan) bağıdır.

Sən belə deyirsən, amma o nə deyir. Yaxud o belə söyləyir, sən nə söyləyirsən? Aləmin qədimliyindən, başlanğıcı olmamasından sənə nə var? Sən öz qiymətini bil ki, qədimsən, yoxsa hadis. Sənə verilən bu qədər ömrü öz halını araşdırmağa sərf et. Aləmin qədimliyi, yeniliyi mövzusunda ömrünə niyə sərf edirsən?

Allahı tanıma bəhsi dərindir. Ey axmaq, dərin sənsən! Dərin olan bir şey varsa, o sənsən! Sən necə dostsan ki, damarlarının içinə qədər girən

sevgilinin sirrini əl içi kimi aydın tanımırsan! Sən necə Allah qulusan ki, Onun sirlərini və iç üzünü bilmirsən! Səninlə danışdığım zaman bu sözləri sənin şeyxinlə danışmadım. Onu qəhr içində buraxıb getdim. Amma o, "mən şeyxəm," deyir. Mövlana da başqa bir şey söyləyir. "Şeyximizsən, gözümsən," deyərək ondan ayrılır ki, bir daha onları çağırdığımız zaman gəlməsinlər.

Hərçənd, ürəkli Yusuf sağ olsaydı, sənin yüyənini daşıyardı. Hadisələrin yozumunu necə bilmirsən? Bilirsən, amma bilməməzlikdən gəlirsən. Yolda uğurlar var, "o tərəfdə işıq yoxdur, sənin üçün qorxuram," dedi. Bu halda məni necə tanıyırsan? Elə bir meşəyə girdim ki, oraya aslanlar belə girə bilməz. Külək ağacları tərpədir, bir səs cingildəyirdi yarpaqların xışıltısından. Bir dəliqanlı getdi, sonra gəldi və mənə, "yazıq

olarsan," dedi. Onu heç vecimə almadım və baxmadım belə. Məni qorxutsun deyə, bir neçə dəfə çağırdı. Yenə vecimə almadım. Əlində elə bir baltası vardı ki, daşa vursa, parçalayardı. Bundan sonra bir kərə, "heyf sənə," dedi. Əvvəlcə yenidən ona tərəf getdim. Əlimdə hələ heç bir silahım yoxdu. Arxası üstə yerə yıxıldı. əliylə işarə edirdi. "Get," deyirdi, "mənim səninlə işim yoxdur."

O kamil mürşid müridinə deyirdi ki, zikr edərkən onu ta göbəkdən gətir. Xeyr, dedim, zikri göbəkdən deyil, canın içindən gətirmək lazımdır. Bu sözümdən özünü itirdi. Hər kimə üzümü döndərsəm, üzünü bütün cahandan çevirər. Ona üzümü göstərim, amma dəlil üzü göstərməyim. Necə ki, "həqiqi möminin nişanı nədir," deyə soruşanlara, Həzrət Peyğəmbər (s), "bu aldadıcı dünyadan xoşlanmamasıdır," buyurmuşdur. Bizdə cövhər var. Hər kimin üzünü o təfərə çevirsək, bütün dostlarına və sevdiklərinə yad olar. Başqa bir incəlik də var, bu nə nəbilik, nə də Rəsulluq və mərifət məqamına bənzəyər. Mən nə deyim! Allahın gizli vəliləri deyərlər ki, biz nə üçün özümüzü aşkara çıxaraq, nə söyləyək. Biz kimik ki? Dedi ki, başını Həzrət Məhəmmədin (s) yaxasından çıxar ki, sənə bağlanım, əmrinə boyun əyim! Yoxsa, indi bağlanmağın nə mənası var? Mövlana oturmuşdu. Müəllimin biri "namaz vaxtıdır," deyə səsləndi. Mövlana öz aləminə dalmışdı. Biz qalxıb axşam namazına durduq. Bir neçə dəfə baxdım gördüm ki, imam və bütün camaat arxamızı qibləyə çevirmişik. Namazı bitirməyə məşğul olduq. Qiblədən üz çevirmiş halda sazəndələrin arasına gəldim. Ağlıma belə bir fikir gəldi: Bunlar nə qəribə insandırlar ki, əzəldən, əbədidən doğulmuş bir günəşdən xəbərsizdirlər. Əzəli və əbədi nədir ki! Bunların hər ikisi də sənin sifətindir. Bunlar ki, dünən meydana gəlib. Zamanın başına "əzəl" dedilər, quyruğuna "əbədi" adını qoydular. Əzəl nədir, əbədi nə?

Bir Günəş doğdu, bütün aləmi nur bürüdü. Ayın, Günəşin sözü olar-

mı? Bu xalqın o Ay, Günəş qaranlığında bundan heç xəbəri yoxdur.

Həzrət Məhəmmədə (s) (əstəğfürullah) sehrbaz dedilər. Halbuki, Allah adının xatırlandığı hər yerdə sehr pozular. Bir yerdə ki, içərisi başdan-başa nur ilə doludur. Sehr orada necə qərar tuta bilər? Yağış yağmağa başladığı zaman qaçar. Bu qədər həyat yağmuru və canlılıq ik- siri, həyat verən sular ondan yağıb, ondan fışqırarkən, sehr onda necə yer tapar? Ona görə buyurmuşdu, şeyxin həqiqi olmadığının əlaməti budur ki, onunla səhradan, oyundan qayıdarsan, heç bu macəradan və bu oyundan bir şey izah etməz və ondan xəbərsizdir. Dedi ki, mən qarşımda oynamağını istədiyim o oyun üçün bir şey söyləmirəm. Mənə

gəlincə, mən üzünə gülər, ona "Allah həyatınızı sizə mübarək eləsin," deyib keçərəm. O daim "onların macərasından bir başqasını danışım" deyə düşünər. Mənə belə şeylər lazım deyil. Özümə macəra söyləyib, sənə nə edim. O ki, yüz il sonra da sənin yanına gələcəkdir. Allah sənə ömür versin.

Hər kəsə söyləyirəm, Məhəmməd ümmətindən olanlar belə olmalıdır, Məhəmməd (s) belədir. Nəhayət, daşa tapınanlara, "bunlar pisdir," deyir- sən. Çünki üzlərini bir daşa və ya divardakı rəsmə çevirərlər. Sən də üzünü divara çevirərsən. Bu halda Həzrəti Məhəmmədin (s) söylədiyi bu məqamı sən anlamırsan: "Kəbə aləmin içindədir." Bütün bəşəriyyət üzünü ona tutar. Amma əgər bu qibləni aradan qaldırsan, hər kəs ancaq bir-birinin könlünə səcdə edər. Yəni onun səcdəsi bunun qəlbinə, bunun da səcdəsi onun könlünə olar.

Bilmirsən ki, danışmaq mövzusu etdiyim hər sözü incələyib, düzəldərəm. Danışan qüvvətlidir, cılızlıq ona yaraşmaz. Mən əsla yazmağa adət edə bilmədim. Çünki yazmadığım şeylər məndə qalır və hər an məndə başqa cür üz göstərir. Söz bəhanədir. Haqq duvağı çözmüş, camalını göstərmişdir. Haqq sözləri dəryasının coşqunluğundan bir "Əlif" nəqş olundu. Fərman gəldi: Ey Ruhani Cəbrail! İlahi lövhədən bu müqəddəs sözü oxu. Hələ sözümü tamamlamamışdım ki, Şahab qaçdı. "Artıq sənin üzünə baxmağa tab gətirə bilmədim," dedi və getdi. "Nə oldu?" dedim. Qaçır və qaçarkən qəribə şeylər deyirdi. Şahab nə qədər söyüş söysə də, ruhani və safi idi. Özü ruh olmuş, qida ondan uzaqlaşmışdı. Bir gün də bir məqamı başa salırdım. Bəzi açıqlamaları söyləyirdim. Mənanın ona gizli qalmasını istəmirdim.

O, "cüzi aləmindən hissələri bilməz, külli aləmi bilər," deyirsən. "Bu külli aləmində nəyi nəzərdə tutursan," dedi. Mən küllidən, bütündən danışdım, heç bir parça bilmirəm ki, o küllün zahirində olsun. Bəli, "cüzi," yəni hissə deyildiyi vaxt "küll," yəni bütün, yaxud bütöv bunun içində yox- dur. Əsla ağac olmayan bir yerə bağ deyilməz. O zaman ora bağ ol-

maz, dağ olar.

Şahab dedi ki, “elədirsə, o, cüzi şeyləri bilməz dediyimiz zaman eyib söz söyləmiş olmuruqmu?” Məsələn, mənim qarnımda uyuyan bir üzüm giləsi var. Mən o üzümü bilməsəm, onu bilmək və bilməmək mənə nə nöqsan verər? İndi mən hind dilini bilmirəm. Bu acizliyimdən deyil, amma əbəbcəyə nə olub ki! Əgər hindli onu eşitsə, “bu çox gözəl bir dildir,” deyər. Farscaya nə olub ki, bu qədər gözəlliyi və şirinliyi ilə bərabər, bu dildəki sözlər ərəbcədə yoxdur. Bizim önümüzdə bir şəxs bir dəfəyə mü-

səlman ola bilməz. Müsəlman olar, sonra kafir olar, təkrar müsəlman olar. Hər dəfə hər şeydən kənara çıxar. Kamlləşənə qədər belə davam edər.

Dedim ki, bu gecə ona söz verdiyim üçün xristianı ziyarətə gedəcəyəm. “Biz müsəlmanıq, o kafirdir” dedilər, “bizim yanımıza gəl!” Dedim ki, o gizlidən müsəlmandır. Çünki təslim məqamındadır. Halbuki, sizdə təslim yoxdur. Müsəlmanlıq isə təslimdir. Dedilər ki, sən gəl, təslim söhbət ilə olar. Mənim yönümdən heç bir pərdə və hicab yoxdur. Bismillah, təcrübə edin!

O biri, “Biz, Adəm övladını şərəfli və hörmətli elədik, onları suda və quruda (gəmilərə, heyvanlara və başqa nəqliyyat vasitələrinə) mindirib sahib etdik, özlərinə (cürbəcür nemətlərdən) təmiz ruzi verdik və onları yaratdığımız məxluqatın çoxundan xeyli üstün etdik” (əl-İsra surəsi, 70) anlamındakı ayələrdən danışmaq istədi. “Sus,” dedim, “bu ayədən qismət yoxdur,” sözü ağzımdan çıxdı. Quru harada, sən hardasan? Soruşmaq istədim, məndən sən nə soruşacaqsan? Nəyə etiraz edəcəksən? “Mən mürid saxlamaram,” dedim. Mənə çox israr etdilər, “sənə mürid olaq, bizə xirqə ver,” dedilər. Qaçdım, arxamca düşdülər. Gətirdiklərini süfrəmə tök- dülər. Faydası olmadı, oradan uzaqlaşdım. Mən özümə bir şeyx tapım ki, onunla mübahisə edim. Yoxsa hər şeyxi kamil sayan müridləri istəmirəm.

O gün bir məclisdə o şeyx ilə cəngləşdim. Onu söyüb-yamanladım, səsini çıxarmadı. Başını yardım, yenə susdu. Başqa biri yuvarlanıb, üzünü yerə sürtərək mənə tərəf gəlirdi. Ona “yanlışdır, yanlışdır,” dedilər. Nəha- yət, məzlum filankəsdir ki, bu qədər səbr etdi, dözdü. “Məni buraxın,” dedi, “mən yanlış hərəkət etmirəm.” Həqiqətdə məzlum budur. Onun bu coşğun danışmasına görə fəryad qopardılar. O başını yardığım şeyx irəli yüyürdü, gülümsəyir, yuvarlanır və nərə çəkirdi. İndi bu halın əməl ilə, riyazat, pəhriz ilə nə əlaqəsi var? Hər kim bu halı riyazatdan bilərsə, məqsəddən daha çox uzaqlaşar. Bu yolda atılacaq addımın hansı addım olduğunu bilə bilməz.

“Nəfsini tanıyan mütləq Rəbbini də tanıyar”,” buyurulmuşdur. Adı Əmmarə, yəni əmredici olan o nəfs məndə Mutmainə durumuna gəldikdən sonra nə qəm! Bütün aləmdən qorxusu yoxdur onun.

Şeir:

Deyirsən ki, göz yaşların nə üçün gül rənginə boyandı? İndi ki, soruşdun, nədən olduğunu dosdoğru deyim sənə Sevdanın qanlı yaşı könlümə tökülür, sonra,

Başımda coşqunlaşaraq gözlərimdən aşıb-daşır.

Misra:

Ey vücuduna qulluq edən qafil!

Onun xidmətində nə vaxtacan duracaqsan?

Deyirlər ki, bu misra Əbuləlai Məarrinindir. O qədər də deyil. Onun sözü güclü şəxsiyyətlərin söylədikləri sözlərdən deyil. Necə ki, Həkim Sənai buyurmuşdur:

Beyt:

İrfanım elə bir mərtəbəyə yüksəldi ki, Elmsiz olduğumu indi anladım.

Onun bu sözündən bir şey qoxusu gəlir, çünki ona bir şey göstərdilər. O da mənim əvvəldən axıra qədər söylədiyim bir şey olmadığını bildi. Haqqın çöhrəsi onu axtaranlar üçün insanlıq işığıdır. Bax bunlar gələrlər, gələrlər, yalnız özlərini görərlər, “nə olar”, - deyə maraq edərlər. Özlərinə baxarlar, bir quldan baxarlar.

Musa (ə) o işıq içində bayılıb yıxıldı. Biri, “biz Səni tanıya bilmədik,” dedi. Yəni “nəfsimi tanımadım,” deməkdir. “Sənə qulluq edə bilmədim,” yəni “nəfsimə qulluq edə bilmədim” anlamındadır.

Birinin əlinə bir dəfinənin sirri keçmişdi. “Filan qəbristanlıqdan kənara çıxıb arxanı filan böyük qübbəyə çevirəcəksən, üzünü şərqə dön- dərəcəksən, oxu yaya qoyub atacaqsan, oxun düşdüyü yerdə bir xəzinə gizlədilib,” deyilirdi. O kişi gedib oxu atdı, nə qədər axtardısa xəzinə tapa bilmədi. Bu xəbəri padşaha çatdırdılar. Nə qədər uzağa ox ata bilən oxçu- lar varsa, topladılar. Oxlarını sınadılar. Fəqət yenə bir şey çıxmadı. Pad- şahın yanına qayıtdıqdan sonra ona bir ilham gəldi. “Biz yayı çək deyə əmr vermədik,” dedi. O da gülərək oxu yaya qoydu, ox o saat qarşısına düşdü. İnayət yetişincə, iki addım sonra məqsədinə qovuşa bilərsən.

Diləndçinin o sevinci bu il aclıqdan öləcəyi haqqında bir şikayəti olmamasındadır. Zarafat deyil, bu il yüz dinar tapar, sevinər, amma o nazlı şahzadə ki, var-dövlət içində doğulmuşdur, ehtişam içində böyümüşdür, fəqirin bu sevincinə o gülər. Dünya əhlinin halı və şöhrət arxasınca dü- şənlərin aqibəti buna bənzəyər. Rüstəm ağ divə demişdi ki, bədənimi dağ başında basdır, sümüklərim ucalıqda qalsın ki, ünümü eşidənlər həqarət gözü ilə baxmasınlar.

Biri hafizlərin ətrafında oturarkən qəfildən vəcdə gəldi. Halbuki, bu adam şeir və pis işlərlə tanınmış bir insandı. Ailəsi və başqaları onun əlindən qan ağlayırdı. Zəncirini tərpətdilər, candan və cahandan keçdi, fəryada başladı. “Ey əhli-əyalım,” dedi, “mənim artıq insanlarla alış-verişim qalmadı. Əlinizi-ətəyinizi məndən çəkin. Ailəsi dedi ki, “biz sənin bu qədər zəhmətini çəkdik, bir gün belə bu saata qovuşmaq ümidi ilə

gözlədik. Ağır vaxtlarında sənə yaxın idik. İndi səndən necə ayrılaq?” Kişi dedi ki, artıq mənə həcc ziyarəti görünür. Bu sevdanın təzyiqi altında heç səbrim qalmadı. Təcili yola çıxmalıyam. Hərçənd, əvvəlcə istədiyi yerinə yetmədi. Səhraya üz tutub, bir karvana qatılmışdı. Kişi yolda bir qanlı ishala tutuldu. Tez-tez dəvədən enir, təharət edirdi. Nəhayət, bu arada karvan keçib getdi. Xəstə özünə gələndə karvanı getmiş gördü. O an yerindən sıçrayıb qalxdı, can qorxusu ilə yoluna davam etdi. Qaçarkən bir tikan ayağına batdı, yerindən qalxa bilmədi bundan sonra. Ağlamağa, yalvarmağa başladı. “Ey dost,” deyirdi, “əlimdən yapış.” “Artıq mənim üçün həcc ümidindən danışmağa belə taqətim qalmadı. Bunu sənə danışmağa nə lüzum var!” Kişi qorxu və iztirab içində bir saat özündən gedir, bir saat da yalvarmağa vaxt keçirirdi. Gecə yaxınlaşanda ümidsizlikdən, yalvarmaqdan da təaqəti qalmamışdı. Ümidsizlik getdikcə artırdı, qaranlıq üstünə çökmüşdü. Bu arada qarşıdan çölün qatı pərdəsi arasından bir nəfər göründü. “Bu ya Xızır olacaq, ya da İlyas Peyğəmbər,” deyə fikirləşdi. Ona yaxınlaşanda bir anda arxasınca qaçmağa başladı. Öz-özünə deyirdi ki, bu yeriş insan yerişinə bənzəməz. Bəlkə də Allaha yaxın mələklərdən biridir. “Ey Ulu Allahım,” dedi, “bu yetkin qul hörmətinə bu ümidsizlik saatında əlimdən tutursan!” Xülasə, gələn adam əliylə za- vallının ayaqlarını ovuşdurdu, sağaltdı, onu sapsağlam karvana yetişdirdi. Kişi o anda iki əlini o xilaskarın ətəyinə vurdu. Deyirdi, “Allaha and içirəm ki, səni seçilmiş insanlardan qılmış, bu ucalığı və qüdrəti sənə vermişdir. Sən kimsən?” O, ətəyini çəkdi və “məni burax,” dedi. Nəhayət, bu cavabı verdi: “Mən vaizlərin kürsüdə, imamların mehrabda, uşaqların kitabda oxuduqları və Allahın, “Qiyamət gününə qədər lənətim üzərinə olsun” dediyi kimsəyəm - Şeytan.” Bax belə bir şəxsə, həqiqi inanc gözləyənlərə də belə qəribə cilvələr, əcaib

hallar görünə bilər, xalqa da beləcə yayılar. İnanan bir şəxs hər hansı bir şəxs haqqında, “atadan-babadan bəri Allah sevgisinin nuru ilə yetişmişdir,” deyə güman edərsə, “Adəm hələ su ilə torpaq arasında ikən mən Peyğəmbər idim” buyuran Həzrət Məhəmməd (s) haqqında bəsləsin.

Bəyazid Bistami həccə getdiyi zamanlarda daim tənha getmək is- təyərdi. Münasib olmayan bir şəxs ilə yol yoldaşı olmaq istəməzdi. Bir gün ondan daha əvvəl yola çıxmış bir yolçu ilə rastlaşdı. Ona baxanda yerişi xoşuna gəldi. Öz-özünə, “görəsən, bu adamla yoldaşlıq edimmi,” deyə düşündü. Heç olmazsa, tənha yola çıxmaq adətini tərk edərəm. Çünki çox yaxşı bir adama oxşayır. Bu mərifətli yoldaşla haqqın rizası üçün dost olaram. Sonra görərəm ki, elə bir insanın yoldaşlığı təkbaşına yolçuluq etməkdən daha yaxşı olacaq. Beləcə, “hansı tərəfi seçim,” deyə,

öz-özünə fikrə gedərkən, baxdı ki, o kişi üzünü geri çevirdi. Əvvəlcə “bax gör, mən səni dostluğa qəbul edirəmmi,” dedi və başını aşağı salıb yoluna davam elədi. Qəlbindən keçən gizli düşüncələri anlayan o şəxs tələsik oradan uzaqlaşdı.

Xarəzmşaha dedilər ki, xalq çörəyin bahalığından, qıtlıqdan şikayət edir. “Nə üçün”, dedi. Bir arpa çörəyi iki axçaya satılır. “Bu qədər pul kimdə var,” dedilər.” İki axça nədir ki,” dedi.” İki axça bu qədər pul eləyir,” dedilər.

Şah cavab verdi: “Bu nə simiclikdir, utanmır bunlar?”

Ona görə “ucuzdu, ona görə bir acın qarnını doyurmaq üçün sənin bütün mülkünü verərik,” demək çox ağır gələcəkdi. O bundan qorxurdu, bir dəfə bütün qarınları doyursam, bu qədər mülkü haradan tapım. “Uzun ömür lazımdır ki, bir daha qazanım,” deyirdi.

İndi din mövzusunda da belə olar. Bir sifət, bir məqam xalqa qorxu verər. Amma ona görə asandır hər şey. Onun yayını səmalar belə çəkə bilməz. Necə ki, Quranda “Biz əmanəti göylərə, yerə və dağlara təklif etdik. Onlar ona yüklənməkdən qorxub çəkindilər. Ona insan yükləndi,” (əl-Əhzab surəsi, 72) buyurulmuşdur. Bu ilahi işarəyə görə, yerlər və göylər belə, “bu əmanəti daşımaq bizim işimiz deyil,” dedilər. Çünki onların gözləri müvəffəqiyyət qazanmaqda deyil. Bunlar desələr ki, əgər yay sərt isə onu biz necə əlimizə ala bilərik. Bizim ardımızda biri var ki, bunu ancaq o çəkə bilər. Bax o dünyagörüşü və Haqqa söykənmək qüvvəti ancaq Həzrət Məhəmmədə (s) və ona bağlananlardan ola bilər.

İndi bu insan Məhəmmədin (s) və ya İsanın (ə) sifətini başa salır. Yaxud müdriklərdən birinin vəsflərindən bəhs edir. Onların halından, sirlərindən söz açırdı. Birinə coşğunluq gəldi, kaş ki, dedi, onu görəydik. O biri, “ay axmaq,” dedi, onların vəsflərindən bəhs edən bu zatı nə üçün görmürsən? Bəlkə də bu, odur, amma üzünü örtmüşdür.”

İbrahim Peyğəmbər (ə) üzünü elə bir şeyə çevirmişdi ki, Haqq yolu deyildi. Amma bizim ilk dünyagörüşümüz onu necə keçə bilər? Hər kimin sifəti ilk dəfə gözümüzə sataşsa, o bir şey söyləməsə belə, biz cəfa baxımından öz-özümüzə, “o nəyə yarayar,” deyərik. Üzünü riza yönünə çevirsə də, hələ riza mərtəbəsinə yetişməmişdir. Üzünü Allaha çevirsə də, hələ Allahın cazibəsinə yetişməmişdir. Amma üzü o tərəfə çevirməklə yetişmək eyni şeydir. Xalqa qarşı yavaş-yavaş özgələş! Çünki Haqqın xalq ilə heç bir yoldaşlığı və əlaqəsi yoxdur. Bilmirəm, onlardan nə əldə edə bilər? Bir şəxsi nədən qurtarar və ya nəyə yaxınlaşdıra bilər? Nəhayət, sən peyğəmbərlərin yolunu tutub, onların izi ilə gedirsən. Peyğəmbərlər

xalq ilə lap az oturub-durarlar, onlar Haqq ilə məşğul oldular. Hərçənd, görünüşdə xalq onların çevrəsində toplanmışdı.

Peyğəmbər sözlərinin təfsiri, izahları var. Olur ki, “get,” deyərlər, amma o “get,” işarəsi həqiqətdə, “getmə,” mənasındadır. Əgər biri din adamına “əlicik” desə, bu küfrdür. O halda “dərvişcik” deyənlər haqqında nə deyəsən! Bunlar, “Yoxsulluğum mənim qürurumdur,” sözündəki hik- mətin ətrini duymayanlardır. Yoxsa necə olar ki, “fəqircik,” “dərvişcik” deyə onları kiçildərlər. Nə küfrdür bu! Sonra cəhənnəmin, “Keç, ey mö- min! Şübhəsiz, sənin nurun mənim atəşimi söndürəcək,” deməsi nə qə- dər ibrətamizdir.

Əbu Əli Sina yarım filosofdur. Tam filosof Əflatundur, (Platon nəzərdə tutulur-R.M.) eşq davası aparar. Bu, nəql olunmuş sözlərdəndir. Gərəkdir ki, öndərliyindən vaz keçəsən!

Uşaqlıqda bir kitabdan bir hekayə oxumuşdum. Bir şeyx can verərkən çox iztirab çəkirdi. Müridləri, ona inananlar ətrafına yığışmışdılar. İstə- yirdilər ki, kəlmeyi-şəhadətini desin. “Allahdan başqa Allah yoxdur,” söy- ləsin. Şeyx üzünü onlardan o tərəfə çevirir, onlar o tərəfə gedəndə bu tərəfə dönürdü. Ətrafındakılar israr etdikcə, yalvardıqca, “xeyr,” deyirdi, “söyləmirəm.” Müridlər arasında fəryad və fəğan yüksəlir, ah çəkirdilər. İndi bu saat şəhadət gətirmək lazımdır, bu nə işdir başımıza gəldi? Bu nə qaranlıq məqamıdır, halımız necə olacaq? Allaha yalvararaq ağlaşdılar. Şeyx özünə gəldi və soruşdu: “Nə olub sizə, bu nə haldır?” Müridlər mə- sələni anlatdılar. Şeyx, “mənim bundan xəbərim yoxdur,” dedi. Amma yanıma şeytan gəlmişdi. Əlində bir qab buz kimi su tutub, dörd yanımı dolaşır və soruşurdu: “Susuzsanmı?” “Bəli,” dedim. O halda “Allaha şərik qoş ki, suyu sənə verim,” dedi. Mən də ondan üz çevirdim. O, bu tərəfə gəldi və yenə eyni şeyi dedi, üzümü yenə ondan çevirdim.

Şeir:

Gündüzləri sənin üzündən gözlərimdən incilər saçılar. Gecələri səhərə qədər gözlərim səmalarda dolaşar. "Qanımı tökərsən" deyə gözləmirəm bəlkə, "Dönərsənmi", - deyə o ümidlə gözləyirəm.

Bu da doğrudur, amma Allah qullarının, xas qulların vaxtı gələn zaman şeytan onların ətrafında dolaşmağa necə cəsarət edə bilər? Mələk belə onların ətrafında ehtiyatla dolaşar. Necə ki, Həzrət Ömər (r.a) şeytanın bir gözünə vuraraq kor etdi, deyirlər. Bu aşkar görünməz, amma buradakı məna başqadır. Onların bildikləri bir sirr var. Hərçənd şeytan

cismi olan bir varlıq deyil. Necə ki, hədisdə, "Şeytan Adəm ovladlarının damarlarında dolaşar," buyurulmuşdur.

Bir gün Şeytan Həzrət Ömərin (r.a) yanına gəldi. "Ya Ömər," dedi, "gəl, sənə qəribə bir şey göstərim." Onu məscidə apardı. "Ya Ömər! Bu qapının yarığından bax," dedi. Ömər baxdı. "Nə gördün," dedi. Bir nəfər namaz qılır, başqa biri məscidin küncündə yatırdı. Ayağını çəkdi və dedi ki, "ya Ömər, səni Həzrət Məhəmmədə (s) iman gətirməklə əziz edən və səni məndən qurtaran Allah haqqı üçün, əgər Ondan qorxmasam, Onu düşünməsəm, bu namaz qılan adama elə bir şey eləyərəm ki, onu ac köpək un dağarcığına eləməz!"

Bu şeytanı heç bir şey yandırmaz, ancaq Allah dostlarının eşq atəşi yandırar. Neçəsi bir çox riyazatlar eləyər, onu bağlayamazlar. Bəlkə daha da güclənər o. Çünki o, şəhvət atəşindən yaradılmışdır. Necə ki, cəhənnəm, "nurun atəşimi söndürdü," - deyə fəryad edər. Deyər ki, mən bir ağcaqanadın mənim üzümdən əzilməsini və inciməsini istəmərəm. Halbuki, o həm Allahı, həm də onun qullarını incidər.

Hələ bizim danışmağa gücümüz çatmır, kaş dinləməyi bacaraydıq. Tam olaraq söyləmək, tam dinləmək gərəkdir. Könüllərdə sevgi var, dillərdə sevgi var, qulaqlarda sevgi var. Azacıq bir işıq varsa, şükr edərsən, artar. Şükr etmək hal dili ilə olarsa, "Allahım bizə əşyanı olduğu kimi göstər," deyər. Və cavab gələr: "Əgər (Mənə) şükür etsəniz, sizə (olan nemətimi) artıracağam. Yox, əgər nankorluq etsəniz, (unutmayın ki,) Mənim əzabım, həqiqətən, şiddətlidir!" (İbrahim surəsi, 7)

Mən gəlmişdim, "sənə bəslədiyim son dərəcə sevgimə görə başqa bir vaxt gizlicə şeyxin yanına gedək," deyəcəkdim. Sən də bu şeiri söy- ləyirdin:

Başqaları ilə içki məclisinə, bağ səfasına getsəm belə Heç kimsənin sevgisini könlümdə saxlaya bilmərəm. Bəli, günəşdən ayrı düşən insan

Günəşin əvəzinə qarşısında şam yandırar.

Öz-özümə dedim ki, “o, gecədir, Günəş batdı,” deyir. Mən görürəm ki, Günəş batmayıb, Günəş yerində durur. Bir nəfər başqasından soruşdu: “Filankəs kamil insandırmı?” “Atası çox fəzilətli, yetkin bir insandır,” dedi. “Amma mən atasını soruşmuram, özünü soruşuram.” Adam yenə bu cavabı verdi: “Atası çox kamil insandı.” “Eşitmirsənmi, nə deyirəm,” de- yincə, “sən eşitmrsən,” dedi. “Mən sənin sözünü eşitdim, eşitməsəydim, nə soruşduğunu bilməzdim,” dedi.

Rübai:

Gəl! Yenə gəl ki, olduğundan daha irəli gedəsən! Bu günə qədər olmadınsa, indi olasan!

Savaş zamanında bir can və cahan deyərdin. Sülh zamanında bax ki, necə olursan?

Vaizin qarşısında öyüd vermək, xanədanın qabağında mahnı oxumaq olmaz. Gərəkdir ki, tutarlı sübut olsun. Ona, “bu pərdə qəribədir, amma sənə açılmamışdır,” deyilsə, dinləyər. Üzünü bizə çevirərsən, könül açıqlığı səni gözləyir! Açılan hər pərdədən görünən işıqlar sizin tə- rəfinizdən gələr. Hansı çətinliyi görərsən, öz nöqsanından bilməli, “bu çətinlik məndəndir,” deməlisən!

Allah bəndəsinə onun müqabilində dəyər verər. Qul nə edərsə, Allah da elə edər. Bununla bərabər, bütün gözəl və xoşa gələn şeylər səni gözləyər.

Biri dünya sevgisindən danışırdı. Halbuki, özü də eyni sevgidə idi. Dünya sevgisi dünyanın içindədir. Əgər bu uşağı mənə versələr, onu elə yetişdirərəm ki, artıq heç bir şey istəməz. Görənlər, “bu, mələkdir, bu, insan oğlu deyil,” desinlər. O məndən badam istəsə, üzünə bir şillə çəkərəm. “Acsansa, yemək istə, yoxsa, boş-boş danışma,” deyərəm. Pi- şik bir yeri batıranda necə nəcisi ona göstərib, sonra üzünə sürtərlərsə, mən də elə edərəm.

İnsanın qidası çörəkdir. Hərdən ətli şorba da olar. Üst tərəfi oyuncaqdır. Kiçik yaşında ikən səni qüssədən qurtarım ki, böyüyəndə zəmanənin oyununun nə olduğunu başa düşəsən. Onu beləcə qısa vaxt içərisində yetişdirərəm. Çox qəribə bir insan olar. Ölənə qədər xəstə olmaz. Əmirsiz ağzına bir loxma qoymaz, barmağımı salıb ağzından çıxardaram yoxsa. Çünki belə olmazsa, böyüyəndə öz bildiyi  kimi hərəkət edər. Öyüd kar eləməz. Gərək ya onu öldürəsən və ya ölənə qədər döyəsən onu. Bax bu, qəti tövsiyədə məqsədim ancaq nəfsin tərbiyəsidir. O, başını hardan qaldırsa, artıq qəzəblənib bir şey edə bilməz.

Bir kişi torpağı qazırdı. Başqa biri gəldi, “bu salamat torpağı nə üçün xarab edirsən,” - deyə etiraz elədi. O, qurmaqla yıxmağın nə olduğunu bilmirdi. Torpağı xarab eləməsən, üz-gözünü yırtmasan, onda xarab

olar. O qazıb-tökmək torpaq üçün abadlıqdır. Yoxsa əkin bitməz. Yolçu dəri- sindən tər süzülənə qədər üzüm yeyər. Başqa bir şey yeyərsə, çətinliyə düşər. Onun tərlə bayıra çıxması çətin olar. Tibb budur. Hikmət və elm sahibi olan Allahın dərgahından imdad olmasaydı, övliyaların işi necə

olardı? İşləri bəlkə qırx ildən bir də düz gətirməzdi. Yaşadıqlarından iyir- mi dəfə artıq ömür sürsələr belə, yenə yetməzdi.

Başqa peyğəmbərlərin min ildə əldə edə bilmədiklərini Həzrət Məhəmməd (s) ən qısa zamanda əldə etdi. Allah-təalanın dərgahından ona qüdrət verildi.

Bayıra çıxaq, bu bığları qırxdıraq. Döyüşə getməyəcəyik ki, kafirlər bığlarımızdan qorxsunlar. Amma içimizdəki kafirlərin hər birinə bu bığımın tükləri qədər qılınc çəksən, yenə qorxmazlar. Fəqət mənimki elə deyil. Mənim nəfsimin işi əzəldən sona çatmışdır.

Biri məndən soruşdu: "İnsanların ən pisi təkbaşına yeyəndir," fikrindəki sirrin mənası nədir? Dedim, bu mənanı xalqa başa salmaq çox çətindir. Quranda adı çəkilən "səcdə edənlər", görəsən, kimlərdir? Əvvəllər gəlib-keçmiş peyğəmbərlər deyil. Bunlar Uca Peyğəmbərimizin (s) əshabələri və onlara bağlananlar da deyil. Hətta dörd yüz övliya da deyil.

İçimdə bir müjdə var, mənə lap qəribə gəlir. Bu şəxslər ki, o müjdəni almadan sevinc içindədirlər, hər birinin başına qızıldan tac qoysalar belə, gərək razı olmasınlar. "Biz bunu nə edəcəyik," desinlər. Bizə o, qəlb par- laqlığı, könül səfası gərəkdir. "Kaş ki, hər nəyimiz varsa, alsınlar, ancaq həqiqətən bizim olanı bizə versinlər," desinlər.

Uşaqlıqda mənə, "həmişə qəmlisən," deyirdilər. Sənə paltar lazımdır, yoxsa pulun yoxdur? Dedim, kaş əynimdəki libasımı da çıxaraydılar. Bir sufi belə demişdi: "Mədəmi üç yerə böldüm. Üçdə ikisini yemək, üçdə birini nəfəs üçün ayırdım." Başqa bir sufi də, "mən mədəmi ikiyə böldüm, yarısı yemək, yarısı da su üçündür, nəfəs lətif və xəfif şeydir," demişdi. Üçüncü biri də belə deyib: "Mən qarnımı yeməklə dolduraram, o, lətifdir, üstə qalar. Nəfəs də istər bunun üstündə qalsın, istər qalmasın."

İndi bunlar bir-bir sirr söyləyərlər. Biz isə içimizi sevgi ilə dolduraq, qoy başqa bir şeyimiz olmasın. Gör nə incə bir şeydir. O, öz yerini özü düzəldər, əgər ona can lazım olsa, gələr, istəyərsə gedər. Görəsən, bunlar bu Allah sevgisi yolunda nələr bilirlər? Allah ki, səmaları yaratdı, yeri yaratdı, bu aləmi meydana çıxardı. Onun sevgisini, Onunla danışır və Onu dinləyirmiş kimi, asan güman edirlər. Bu, bulaq suyudur ki, gətirib içib qurtarasan.

Əyyub Peyğəmbər (ə) bədənini yeyən qurdların ona verdiyi işgəncəyə

səbr edirdi ki, onun sayəsində dövlətə yetişdi. Deyirlər ki, iki yüz min qurd və böcək onun bədəninə darışmışdı. Mən özüm saymamışam deyə, onların sayını da bilmirəm. Elə bil bunlar sayıblar, ona görə belə

danışırlar! Qurdlardan biri yerə düşən kimi elə bil götürüb təzədən yerinə qoyurmuşlar. Günəş işığında bədəninin bir tərəfindən baxanda o biri tə- rəfi görünürmüş.

Bir məşhur həkim vardı. Bu aləmi bilər və tanıyardı, amma o biri aləm- dən xəbəri olmadığı üçün ondan söz açmazdı. "Əgər ölməsəm," deyərdi, "məni bir qarnına qoysunlar ki, arxasından bu cahanı seyr edim." Amma ölmək mənə daha xoş gələr. Necə ki, quldurun biri oğlunu sıxıntılı gördü. Oğlundan üzüntüsünün səbəbini soruşdu, bu cavabı aldı: "Bir dəliqanlını öldürdüm. Belində bir kəmər gördüm. İçi dolu altun sandım onu. Sən demə, bir dənə pul varmış. Atası yerindən qalxıb oğluna üç möhkəm şillə vurar. Oğlunu öldürmək istəyər. "Ey qancıq övlad," deyər. "O, özü ölmək istəsəydi, onu bir qızıla belə öldürməzdim."

Dənizçilər də gəminin yükü ağır olanda baxarlar ki, bir pəzəvəng adam var. Çiyinləri ilə vurub dənizə atarlar. "Bu, nədir," deyə aşağıdan bir səs gələndə, "heç", deyərlər, "suya bir parça şərab düşdü." Bildiyiniz bü- tün şeyləri söyləməyin. İsanın (ə) sifətini söyləyin. Həzrət Məhəmmədin (s) sifətini söyləyin. Siz həmişə bildiklərinizi danışırsınız. Qul gərəkdir ki, Allahı görsün. Görsün ki, necə olar, nə cür eşq oyunları oynayar. Sanki göylərin və yerin Allahı sevişər, Onu görər. Bu halda biz nə iş görək? İxlas pərdəsi arxasından bir işıq parladı, divarda əks olundu.

Qəlbə düşən işıq başqadır, divara düşən isə başqa. Haqqın nəfəsi görünür, əlbəttə, səcdəyə qapanar. Bıçaq elə kəskinlik göstərər ki, hind qılıncı belə ona çata bilməz. Üzündən saçılan o niyaz və ixlas işığı məni doyura bilmirdi. Ona baxarkən neçə əngəl girirdi araya. Anladım ki, bu, o birilərin tərəfindədir, onun tərəfində deyil. Nəhayət, o maneələr aradan qalxdı. Aradan xeyli vaxt keçdi. Bax insanlar belə bir zamanda ayrılıb getməyin nələrin qeyb edəcəyinə səbəb olacağını bilməz. "Allah onlara əzab vermədi, sən də onlarla birlikdəsən" hikməti lazımınca bu qədər əzab və ayrılıq içində olanda, Allah necə səninlə birlikdə olar?

Gərək zahirdə surətin səninlə nifaq eləsin. Yoxsa bu könül qaranlığı əzabların ən betəridir.

İsfahanda çörəyi dəmir mıxlara satarlar. Ağıllı olan dükançılar, "çörəyi ye, mıxı da ayaqqabına vur," deyərlər. Zır dəlilər də "mıxı alnına çaxmalı, çörəyi də tabutla dəyişmək lazımdır," deyərlər. "Tabutu nə edəcəyik," deyənlərə, "bir gün ölməyəcəksiniz, lazım olar," cavabını verərlər. Çox danışarlar, çünki orada çörək bahadır.

Allah-təala, "Bizim uğrumuzda cihad edənləri öz yollarımıza qovuş-

duracağıq”, (əl-Ənkəbut surəsi, 69) buyurmuşdur. Bu ayəni istərsən əvvəldən

axıra qədər oxu, istər axırdan əvvələ oxu. Necə oxuyursan oxu. Yəni “yollarımızı onlara göstərdiyimiz möminlər, bizim yolumuzda cihad edənlərdir,” şəklində də oxuya bilərsən. Nəticə aydındır. Məqsəd Allah yolunda cihaddır. Yoxsa bu yolda savaşanlar, gərək, bizim rəhbərliyimiz olmadan getsinlər. O zaman bizim onlara yol göstərməyimiz necə olar? Deyirlər ki, Peyğəmbərin (s) dilindən deyilməmiş, Allahın özünün buyurduğu, “Bizim yolumuzda cihad edənlər,” deyilməsində məqsəd bədənimizin görünüşdəki savaşı və xidmətidir. “Onları yollarımıza qovuş- dururıq,” buyurulmasında məqsəd də ruhlarımızın və ya həqiqi inancımızın yollarıdır. Biri müntəzəm oruc tutar. Bazar, çərşənbə və ara günlərdə ac qalar. Nəfsin çiyninə min ki, “oruc tuturam,” deyə biləsən. Nəfsinə şiddətli davran ki, onu günün birində müsəlman edəsən! Peyğəmbər (s), “Xalq ilə onun düşüncəsinə uyğun danışın,” buyurmuşdur. Sizin ağlınızın sə- viyyəsinə görə deməyib.

Biri soruşdu: Peyğəmbərlik nədir? Peyğəmbərliyin iç üzü nədir? Peyğəmbərlik qapısı necə qapandı? Yoxsa insan oğulları qalmadımı? Bir başqası “hər şeyi sərbəst və mübah saymaq necə olur,” dedi. Bax, “xalq ilə onun düşüncəsinə uyğun danışın”, - deyə buyurulmasının yeri buradır. Şeyx Məhəmmədin söhbəti zamanı, “filankəs xəta elədi, filankəs səhv elədi,” kimi sözlər çox işlənərdi. Bir ara onun da xəta elədiyini gördüm. Zaman-zaman bunu ona izah edirdim. Başını aşağı salar və deyərdi ki, oğlum, sən qüvvətlə dağı qamçılayırsan, dağı. Mənim bunda heç bir başqa məqsədim, istəyim yoxdur. Amma hər dəfə bu sözlər yüz min dəfə təkrarlanardı. Bəzən elə bir hal içində olurdu ki, onun danışdığı vaxt mən o məqamda necə dura bildiyini özünə başa salırdım. Məsələn, bir gün bu mövzunu danışırdıq. Deyirdik ki, Peyğəmbər sözü olan hədisin Quranda da oxşarı olarsa, o hədis həqiqi hədis sayılar. O, bir hədis danışıb və soruşurdu: “Bunun oxşarı Quranın harasındadır?” O zaman mən ona qəribə bir hal gəldiyini görürdüm. Onu içində olduğu o ayrılıq aləmindən cəm aləminə, yəni birlik məqamına gətirmək istəyirdim. Suallarına münasib sözlərlə cavab verirdim. “Buyurduğunuz bu hədis səhih hədisdir, ya səhih deyil, burada ixtilaf var,” deyirdim. “Alimlər tək bir insan kimidir”, mənasını verən hədisə bənzəyən ayələrin Quranın harasında olduğunu soruşanda dərhal cavab verər, “Həqiqətən, möminlər qardaşdırlar,” (əl-Hucurat surəsi, 10) və bundan başqa “(Ey insanlar!) Sizi (yoxdan) yaratmaq və (qiyamət günü) diriltmək (Allah üçün) ancaq bir nəfəri yaratmaq və diriltmək kimidir,” (Loğman surəsi, 28) mənalarını verən ayələrdən nümunələr söyləyər, sonra yenə öz aləminə dalardı.

Bilirdi ki, mənim məqsədim sual soruşmaq deyildi. Mənim məqsədim nə idi?

Mənə, ey oğul, deyirdi, qamçını qüvvətli vurursan. Daim "oğul" deyə mü- raciət edərdi və gülərdi. Yəni burada "oğul" xitabının nə yeri var", demək istəyərdi.

Həzrət Peyğəmbərdən (s) daim, "iman nədir," deyə soruşardılar. O da soruşanın səviyyəsinə görə cavab verərdi ki, ona layiq bir cavab olsun. Bir dəfə "Müsəlman, əlindən və dilindən müsəlmanların amanda olduğu şəxslərdir" buyurur. Başqa bir vaxt, "Namazını qılan, zəkatını verən şəxsdir", cavabını verərdi. Biz də bir çarə tapaq, çarəsiz deyilik.

Aləmin çarəsini biz tapaq. Bir "Əlif"in nə olduğunu bilsən, bütün Quranı bilirsən, demək. "Göyləri əlimizlə yaratdıq," ayəsinə nəzər salaq. "Bu, Qədimdir, başlanğıcı yoxdur," deyilməz. Hər şey Onun dərgahında məhv olar, təkrar yaradılar, ta ki, Allahlığına açıq şahid olsun. "Günəşi gördüyün zaman onu şahid tut" və yenə Quranda "Biz səni bütün insanlara müjdə verən, qorxudan bir peyğəmbər olaraq göndərdik." (Səbə surəsi, 28) buyurulmuşdur.

Bütün bu inancımla, bağlılığımla bərabər Qazı Şəmsəddinə dedim ki, "gedim bir iş tapım." "İndi ki, mənə dərs demirsən, başqa yerə gedim. Mən bir şey düşündüm," dedi. Soruşdum, "nədir?" "Bir iş görməyimmi?" "Sənin əlindən iş görmək gəlirmi," dedi və əlavə etdi: "Bu qədər dalğınlıq və bu dərəcə incəliklə mənim işim mollaların nəzərində heyrətlə qarşılanır. Hələ "bu kişiyə baxın, bu məqam və səltənət içində necə çalışır," deyərlər. Öz-özümə, "ah," dedim, "mənə iş xüsusunda comərdlik göstərirsən." Amma ziyana salırsan! Səhər ona yaxın gəlmişdi, amma geri döndü. Amma bütün tiyançıların bəhs etdiyi səhər deyil. Bütün sirlərdən ancaq bir "Əlif"dən başqa bir şey açıqlanmadı. Başqa nə söylədilərsə, o "Əlif"in açıqlanması barədə söylədilər. O "Əlif" də hələ anlaşılmadı.

Şeir:

Ey düyünlər çözmə sevdasında olan ölü!
Qovuşma zamanı doğulmamış, ayrılıqdan ölmüş zavallı
Ey dəniz sahilində susuz uyuyan qafil;
Ey xəzinənin başında dilənçilikdən ölən miskin!

Bilirəm ki, yaxşı deyil, amma mane olmağa gücüm çatmır. Bu necə sözdür? Bilirəm ki, bu dəniz qərq edər adamı. Özümü içinə atım? Ya-

xud bu atəş yandırıcıdır, yaxud bu yüz arşın dərinliyində bir quyudur, yaxud bu, bir ilan yuvasıdır, bu, öldürücü zəhərdir, ya da bu, təhlükəli bir səhradır! Bildiyim halda necə gedərəm? Bilirsən, getmə, bilmirsən, bu

necə bilgi olar? Buna necə ağıl və ya elm deyilə bilər? Bu qədər öyüdü, sözü həmişə sənə söylədim.

Bunları əgər şəhərdə əhaliyə söyləsəydim, mənə yüz min dəfə iltifat göstərər, böyük bir qismi mənə mürid olardı. Bir zümrə də bir-birinin saçını yolaraq dava salardılar. Əziz canlarını, sevimli mallarını bağışlayardılar. Halbuki, səndə heç bir iz qoymadı, sanki daş və ya ondan daha möhkəm dedikləri qəlbini yumşalda bilmədi. Bir yumşaq xasiyyətdən söz açarlar ki, o, həqiqətdə yumşaqlıq deyil. Ancaq o, bir eşşəklik sayılır. Yoxsa öyüd insanda iz buraxar.

Həzrət Məhəmmədlə (s) maraqlanmaqda sənin xasiyyətindən başqa bir xasiyyət ilə yaşamıram, qardaşlıq və yoldaşlıq baxımından hərəkət edirəm. Çünki onun üstündə biri də var; sonu olmayan Uca Allah.

Vaxt olar ki, Onun ucalıqlarını xatırlayaram. Bu sayğı və sevgi ba- xımındandır. Bu işdə bir şəxsi təmənnam da yoxdur. "O, Haqdır" sözü Həllacın "Mən Haqqam" sözündən çox daha yüksək bir deyimdir. Əgər dostluğumuzun ayağı havada olduğu o gündən bəri bu bilinmirdisə, bunun dəlili sənin gəvələnmiş sözlər danışmağındır. Əgər boş şey söylədinsə, mən razıyam. Mənə boş söz söylədiyini isbat etməyin mənim üçün xeyirin tamamilə özüdür. Allahın sirləri içərisində bir sirr olan qullar Allah üçün nə söyləyə bilərlər? Hər nə desələr, çirkin görünər. Allah danışmaz, amma Öz qüdrəti ilə bütün məxluqları danışdırar. Cansız məxluqu belə danışdırar. "Əgər yerində danışarsa, sözsüz və səssiz danışar," deyən olarsa, mən də deyərəm ki, başqa bir Allah lazımdır ki, onu dilə gətirsin. Halbuki, Allah-təala hər şeyi dilə gətirən və özü heç danışmayan uca qüdrət sahibidir.

"Allah əxlaqı ilə əxlaqlanın," yəni ilahi əxlaq ilə bəzənin buyurmuşdur. Allah əxlaqı ilə həm lütf, həm də qəhrdir. Tək bir çeşnisi yoxdur. Necə ki, möminlərin tərifində, "…kafirlərə qarşı sərt, bir-birinə isə mərhəmətlidirlər," (əl-Fəth surəsi, 29) buyurmuşdur.

Bir şeyx Bağdadda çiləyə çəkilmişdi. Bayram gecəsi gəldi, çilədən bir səs eşitdi. Başqa bir aləmdən gələn bu səs, "sənə İsa (ə) nəfəsi verdik, bayıra çıx, özünü xalqa göstər", deyirdi. Şeyx bir qədər fikrə getdi. Bu gələn səsdə məqsəd nə idi? Bir imtahandırmı bu? Nə istədiyimi sınamaq üçündürmü? İkinci dəfə daha vahiməli bir səs gəldi: "Vəsvəsədən vaz keç, bayıra çıx, xalqa qarış, sənə İsa (ə) nəfəsi verdik. Şeyx bir az ətrafı nəzərdən keçirdi, məqsədin nə olduğunu anlamaq üçün düşüncəyə daldı. Fəqət üçüncü dəfə daha sərt və kəskin səs ətrafı bürüdü: "Tez içəridən

çıx, dayanmadan hərəkətə keç!” Bayram günü idi. Bağdadın

qələbəliyində yeriməyə başladı. Quş şəklində şəkər halvası satan bir şirniyyatçıya rast gəldi. “Quş şəkəri,” deyə qışqırırdı. “Bu halvanın bir dadına baxım,” dedi. Onu çağırdı. Bunu seyr edən xalq, “görəsən, Şeyx nə edəcək”, deyə heyrətlə baxırdı. Çünki Şeyx halvadan uzaqda idi. Quş şəklində düzəldilmiş halvanı boşqabdan götürüb, əlinin içinə qoydu, onu üfürdü. Quranda buyurulduğu, “Sizin üçün palçıqdan quşa bənzər bir surət düzəldib ona üfürərəm, o da Allahın iznilə quş olar,” (Ali-İmran surəsi, 49) ayəsindəki kimi quşda bir tərpəniş əmələ gəldi, dərhal əti, dərisi və qanadı oldu və uçmağa başladı. Xalq o quşlardan bir neçəsinin də uçduğunu seyr elədi. Şeyx xalqın bu qələbəliyindən, qa- bağında səcdə edənlərin, pərəstişkarların göstərdiyi hörmət və sevgidən sıxılmışdı. Üzünü səhraya tərəf çevirib getməyə başladı. Lakin xalq ardınca düşmüşdü. Nə qədər, “gəlməyin, bizim işimiz xəlvət yaşamaqdır,” dedisə, yenə arxasınca gəlməyə davam etdilər. Səhrada uzun müddət yol getdi. “Ya Rəbb,” deyirdi, “bu nə kəramat idi ki, məni həbs elədi, acizləşdim?” O zaman bir ilham gəldi ona, “xalqa elə bir hərəkət göstər ki, geri dönsün,” deyə düşündü. Şeyx qarnından bir yel buraxdı. Xalq bir- birinə dəydi. Hamısı birdən onun münkirinə dönüb, geri qayıtdılar. Tək bir kişi qalmışdı, o getmirdi. Şeyx ondan nə üçün o biri yoldaşları kimi geri dönmədiyini soruşmaq istədi. Onun çöhrəsindəki parlaqlıqdan və inancındakı aydınlıqdan Şeyxə xəcalət hissi gəldi. Lakin yenə də səbəbini soruşmaq istədi. Kişi bu cavabı verdi: “Mən əvvəl o yel ilə gəlmədim ki, yenə eyni yel ilə gedəm. O yel bu yeldən daha yaxşıdır, məncə. Çünki bu yel ilə mübarək zatınız rahatlığa qovuşdu. Halbuki, o yeldən zəhmət və iztirab duydunuz.”

Elə dostlar var ki, bir söz ilə dostlarını iztirabdan qurtararlar. Dostun vəziyyətini onun haqqında pis xəyallara düşənlərə anlatmaq həm dostlarına rahatlıq gətirər, həm də onlar özləri rahatlıq taparlar. Bir başqası da bir-iki boşboğazlığı əsirgəyər, dostunu sözü ilə boğmaq istəyər. Nəhayət, bu sözün keçmirmi? Bax ki, bu söz daha kamil bir sözdür, yoxsa o biri? Bu daha tamamlanmış sözdür, yoxsa o biri? Əgər bu söz daha kamil və daha yetkin isə, o biri bir şey deyil. Bu sözün qarşısında görüləcək iş ancaq onu bayıra atmaq və bununla özünü doldurmaqdır. Var-dövlət də bundadır. Öz sözünü həmişə irəli sürmə ki, daha yetkin olan sözləri uzaqlaşdırmasın! O qəbahətli sözü anmaq bu kamil sözün xatırlanmasına əngəl olar. Bundan, yəni yaxşı sözdən dəm vur, ondan, pis sözdən dəm vurma! Sizin əlamətinizi söyləyən və sizə yetişdirilən sözlərdən danışmaram. Sən bunu da demişdin ki, O ucalığı ilə bizim məzəmizi dinləməkdə və eşitməkdədir. Sizə yaraşan indi susmaqdır. Ola

bilər ki, təkrar bir yol tapa bilərsiniz. “O yol toz-dumanla doludur,” dedi. Başqa biri də o tozdan keçər, amma hələ də əyri danışmaqdan, o barədə hələ də dəm vurmaqdan vaz keçməmişdir. Dedim ki, indi bizim boşbo- ğazlığımız var. Vəz etmə zamanı gəldiyi vaxt bizə xəbər verin, içimizi təmiz tutaq.

Yenidən sözə başladı: Əlaəddin Xonci filan şeyxdən belə nəql etdi və dedi ki, bizim Haqq yolunu aradığımız vaxtlar idi. Bir dərvişin xidmətini görürdüm. O danışdıqca, mən də dodağımı qımıldadırdım. Dedim ki, elə bir vaxt olar, o dərviş yüksələr, elmdə, vərdişdə kamilləşər. Amma on- dan soruşmaq lazımdır, mən danışanda o danışmazmı? O zaman mən məhrum olaram. Deyək ki, kamilləşməyib, niyə susduraq onu? Eşit- mişəm ki, “danışmaq can yıxmaq, dinləmək isə can bəsləməkdir,” dedi. Sözə təkrar başladı: “Öz-özümə dedim ki, yüz günün içərisində yaxşı vəziyyətə gətirdiyimiz, düzəltdiyimiz şeyləri o bir ləhzədə alt-üst edir. Əlavə etdim ki, bizim də elə bir yüyənimiz var ki, onu çəkməyə heç kimin qüdrəti və cəsarəti yoxdur. Ancaq Allah Rəsulu olan Həzrət Məhəmməd (s) çəkər onu. O da hesab və ölçü ilə hərəkət edər. Dərvişlik qürur başıma vurub sərtləşdiyim zaman ipimi əsla çəkməz. Necə ki, “sufi libasını cırdı,” deyildiyi zaman məclisdəkilərdən biri soruşub: “Allah kitabında libası cırmaq varmı?“

Sufi bu cavabı verib: Allah kitabında ayaqlara və boyuna məsh çəkmək varmı? Müdriklər həmişə cəbr tərəfə gedərlər. Amma ariflərin yolu başqa yoldur. Cəbr inancından kənarda bir xoş məqam var. Allah sənə qədər verib, sən niyə özünə cəbr edirsən?

Allah sənə qüdrət sahibi deyir, sənə qədər verir. Çünki əmr “be mərfun və nəhy əz münkərin gərəyi,” vədin və qorxutmanın zərurəti, peyğəmbərlər göndərmək, bunlar hamısı qədərə inanmağı dəstəkləyən şeylərdir.

Cəbr haqqında bir neçə ayə var, amma azdır. O qul yönündən gələr, qul da lap tez Haqq tərəfə getməkdədir.

Bu ayənin mənası nədir? “Rəhman ərşi yaradıb hökmü altına almışdır” (Taha surəsi, 5).

Bir padşahın üç oğlu vardı. Övladları əhəmiyyətli bir iş üçün səfərə çıxmağa hazırlaşırdılar. Ataları onlara bir neçə gün, bəlkə də üst-üstə on dəfə nəsihət verdi: Yol kənarında filan qala var. Belə bir qaladır. Oraya yetişəndə “Allah-Allah” deyərək keçin, əsla o qalaya girməyin! Padşah bu nəsihəti verməsəydi, bəlkə də o qalaya tərəf baxmaq üçün heç bir maraq və həyəcan oyanmayacaq, onun yanından keçib gedəcəkdilər.

Lakin bu israrlı tövsiyələrdən sonra onlarda gizli bir maraq və həyə-

can oyandı. Görəsən, bu qalada nə var ki, atamız bizi bu qədər israrla oraya girməkdən çəkindirir. İnsan qadağan olunmuş şeyə can atar, deyiblər.

Qalaya girdikləri vaxt bir divar gördülər. Üzərində bu məmləkətin pad- şahının qızının şəkli vardı. Görər-görməz aşiq oldular. Gedib atasından qızı istədilər. Padşah əmr verdi: "Bunları aparıb içi kəsilmiş başlarla dolu olan xəndəyi göstərin. Böyük oğul, "mən gedim oradan nişan gətirim," deyə iddia elədi, amma aciz düşdü, onu da öldürdülər. Ortancıl da beləcə qurban getdi. Növbə kiçik qardaşa gəlmişdi. O da eyni sevdada idi. Qızın atası, "əgər başqalarından ibrət almadınsa, öz qardaşlarının aqibətindən ibrət al," dedi. Oğlan belə cavab verdi:

Şeir:

Aşiqdə səbr yetərli deyil, Səbr fəryada yetişmir.
Səbrli olmaq şirin bir yetkinlikdir, amma
Könül heç kimin fərmanı altına girmir.

Oğlan qızı istəməkdə israrlı olduğunu göstərdi. Qızın dayısı oğlanın qəlbən sevdiyini anlayınca, ona kömək etmək qərarına gəldi. Oğlana qızıldan bir öküz heykəli düzəltməyi, içinə girib gizlənməyini tövsiyə elədi. Bu öküz hiylə ilə qızın olduğu yerə aparıldı. Gecələr camaat yatandan sonra yeni sevgililərin eşq işıqları ilə dağılan gecə yuxularının yerinə eşq ləzzətinin vaxtı başlayırdı. Şahzadə gecə öküz heykəlindən bayıra çıxır, şamlar yanır, şərablar süzülür, qızın pərişan zülfləri sevgi şərabı ilə islanırdı. Gün çıxanda bəzi nişanələr görünürdü, amma ortada heç nə yox idi.

Oğlan bu vüsalın nişanəsi kimi qızın bilərziyini götürdü. Atasına, "qızdan nişan gətirdim", - deyə göstərəcəkdi. Xalq onda heç bir nişan və əlamət görmədən həqiqi və səmimi sevgisinə vurulmuş, ona daxilən bağlanmışdı. Aralarında, "əgər padşah ona qəsd edərsə, mane olaq, biz də padşahı qətlə yetirək," deyirdilər. Çünki çox sevimli bir gəncdi. Bu işdən xəbər tutan şahzadə, "buna lüzum yoxdur," dedi. "Mən həqiqətən nişanı göstərsəm, əslində padşah ölər, siz də ayağından tutub bayıra atarsınız."

Padşahın yanına girəndə, "hardadır nişan," dedi. Şahzadə cavab verdi: "Gətirmişəm. Amma sən, vəzir və mən xəlvətə çəkilək. Sənə elə bir nişan göstərim ki, ağlın başından çıxsın."

Xəlvətə çəkildilər. Şahzadə qızdan aldığı yaylığı, üzük və başqa ərma-

ğanları ortalığa qoydu. (Bu hekayə "Məsnəvi"nin altıncı cildində sonu yazılmamış "Qala və üç Şahzadə" hekayəsi ilə eynidir. Mövlananın ömrünün son günlərində məcazına ariz olan xəstəliklərə görə, özü demişkən "söz dəvəsi bir daha qalxmamaq üçün çökmüş, artıq hekayə də bu səbəbdən yarımçıq qalmışdır." Şəmsin qısa bir xülasəsini verdiyi hekayə belə tamamlanmışdır - Tərcüməçidən).

Şeir:

Qəm sənin lütfün ilə sevinc içində qalar, Ömür sənin iltifatınla sonsuzluğu qazanar.

Eşq hər nə qədər zamanın bəlasıdırsa, xoşdur.

Bu şərab baş ağrılarıyla doludur, amma yenə də xoşdur. Eşq ilə yaşamaq çox çətin bir işdir, amma,

Sənin kimi bir dilbər ilə könül alıb-vermək lap şirindir.

Bir şeyx gördüm, ətrafına çaşqın və dalğın baxmırdı. Məni və başqalarını heyərtlə süzürdü. Başını aşağı salır, bir az sonra dal-dala səcdə edir, daha yonra yerində yuvarlanır, başmağını başına vururdu. Ona dedim ki, "tamaşa ancaq Ayı tamam görənlərə yaraşar." Ondan bir parçanı gör- mək hərçənd sənə heyrət verdi, amma bütöv görünməyin zövqü kimi ola bilməz. Sağ qaldığın müddətdə əcəl carçısı gəlmədən öncə çalış. Eşidirsən, bu carçı nə deyir? Minarənin başından belə çağırır: "Birini şəhərdən kənara atırlar. Tez bayıra atın, əgər atmasanız, şəhər əhalisi evlərini tərk edib qaçacaq."

Musa Peyğəmbər (ə) o uca mərtəbəsi ilə Xızır Peyğəmbərdən (ə), onun yoldaşlığından öz sifətini kamilləşdirmək üçün yardım diləyirdi. Ta ki, bununla başqa bir gözəllik də əldə eləsin. Tövbə edirdi. Gərək dər- viş bütün ömrü boyu bir kərə tövbə etsin və etdiyinə peşman olsun ki, "nə üçün bu xəta mənim yoluma çıxdı," deyə üzülsün. İçimizdəki hesab soran qüvvət kənara çıxmalıdır. Mənə pərdə olacaq bir şeyin qarşıma çıxmaması üçün özümü necə qoruyum? O xəyalları içimdən atmalıyam, amma daha artığı gələr, məni məşğul edər. Özümü müdafiəyə, öz işimlə məşğul olmağa imkan tapa bilmərəm.

Pişik əlimdən əti qapdıqdan sonra lap onu yaxalamağa çalış, o saat ət yeməkdən vaz keçərəm. Bir gün bir məhəllədən keçirdim, musiqi səsi eşitdim. Bir dərviş deyirdi, "o bir səma" deyə israr edirdi. İş çox incə bir vəziyyətə girmişdi. Saz çalınırdı. Qəfildən ağzımdan bu sözlər çıxdı: nə

gör, nə eşit. O anda elə elədim, onlardan bir tərəfə çəkildim. Bu incə bir işdir, başqalarının yanında kəramət və möcüzədir.

Əvvəllər fəqihlərlə* oturub-durmaz, dərvişlərlə yoldaşlıq edərdim.

“Din alimləri dərvişliyə yaddır,” deyərdim. Amma dərvişliyin nə olduğunu anla- dıqdan sonra onların haralarda oturduğunu gördükdən sonra dərvişliyə meylim qalmadı. Fəqihləri bu dərvişlərdən üstün tuturdum. Çünki fəqihlər bir dəfə zəhmət və məşəqqət çəkənlərdir. Bunlar isə, “mən dərvişəm” deyə, qürurlanarlar. Dərvişlik isə hardadır?

Bütün peyğəmbərlər dərvişlik eşqi ilə yanıb-yaxılıblar. Musa Peyğəmbər (ə) də, “Ya Rəbb, məni Məhəmməd ümmətindən qıl,” deyə fəryad etmişdir.

Məhəmməd ümməti olanlara görə, hər qissənin, lətifə və hekayənin bir əsası və məqamı var. Hekayə və lətifə bu məqam üçün danışılır. Yoxsa müdriklər can sıxıntısını aradan qaldırmaq üçün hekayə yolu ilə danışan deyillər ki, məqsədlərini o hekayədə göstərsinlər. Bununla bə- rabər, “susan salamat olar” deyərlər. Böyüklərin yanında susmaq daha yaxşıdır.

Beyt:

Gənc dəliqanlının aynada gördüyü şeyləri, Təcrübəli Pir bişmiş kərpicdə görər.

Birisiylə danışmağın mənası belə olmalıdır: Sənin gözünün önündə və könlündə sanki bir pərdə var. “Mən də onu qaldırım,” düşüncəsi ilə danışmaq lazımdır və məclisdə diləyin olmalıdır.

Qoca qarıların adətlərini mənimsəyin! Çünki onlara görə, hamısından əvvəl Fəxri Razi və onun kimi yüzlərcəsi lazımdır ki, onlardan bir şey istəyən qadınların baş örtüyünü düzəltsin, onları tərifləyib danışsın. Amma o baş örtüyü də hayıf olar.

Şeyx Əbu Mənsurun çox yaraşıqlı bir qızı vardı. Bir dəliqanlının könlü ona düşmüşdü. Şeyxin bundan xəbəri yoxdu. Halbuki, şeyxlərin könlü yalnız zahiri duyğular yolu ilə xəbər almaz, bəlkə vəhy və ilham yolu ilə də xəbər alar. Necə ki, “And olsun ki, öz Rəbbinin ən böyük qüdrət ni- şanələrindən bir qismini gördü” (ən-Nəcm surəsi, 18) anlamındakı ayədə də belə işarə edilmişdir.

Şeir:

Fələyin bütün hallarını bilirlər,
Onlar ki, həqiqəti axtaran və yol göstərən ərənlərdir

Fəqət gözəl xasiyyətlərinə görə kimsənin pərdəsini cırmazlar. Sanki zəmanənin gedişini onlar müəyyənləşdirir.

Allah əxlaqı ilə bəzənin: “Şübhəsiz ki, sən böyük bir əxlaq üzərində-

sən!" (Nun və ya əl-Qələm surəsi, 4)

Beyt:

Keçinmə zamanı xalq ilə ol, onlarla xoş keçin! Allahın yumşaq əxlaqına bağlan, çirkin şeyləri at!

Aşiq olan o gənc eşq atəşi içində Şeyxin yanına gəldi. "Mən mürid olacağam," dedi. Şeyx də qəbul etdi. Onu öz yaxınları və etibar elədiyi insanların arasına göndərdi. Gizlicə deyirdi ki, bu dəliqanlıda həm qiymətli bir cövhər var, həm də böyük bir utancaqlıq. Mən iki halını da bilməkdəyəm. Bunu sizə də göstərəcəyəm. Cavanı içəriyə, xəlvətə çağırmalarını əmr etdi. Onu gizli bir yerdən müşahidə etməyə başladılar. Bir gecə bir nəfər həmin gəncə hücum etdi. Cavan on hücum edəni öldürdü. O an bayıra çıxmaq istədi. Qaçmaq fikri var idi. Şeyx dərvişləri oyandırdı, onlara belə dedi: "O mürid bu hərəkəti eləyib, qaçmaq istəyir, biz onun yolunu kəsmişik, qapını tapa bilməz. O, indi hər tərəfi divar zənn edir. Qorxuram, dəhşətdən ürəyi partlasın. Gedin, ona deyin ki, Şeyx səni çağırır, elədiklərini də bilir." Necə ki: "Bunu mənə hər şeyi bilən və hər şeydən agah olan Allah xəbər verdi!" (ət-Təhrim surəsi, 3) buyurulmuşdur.

Dərvişlər gəldilər, qapını açdılar, otağı qan içində gördülər. Amma heç cür hay-küy salmağa cəsarət edə bilmədilər. Çünki Şeyxin işarətindən qorxmuşdular. Gənci Şeyxin yanına gətirdilər. Şeyx gülərək nəşəli-nəşəli irəli gəldi, qolundan tutub, öz xirqəsini onun çiyninə saldı, gətirib yanında oturtdu. Ona, "sənin üçün, əslində, bu tək pərdə qalmışdı ki, bu məqama yetişəsən," dedi.

Hər insanda bir mənlik var. İnsan sonunun haraya gedəcəyini əvvəlcədən görsəydi, heç mənlik davası edərdimi? Mütləq çəkinirdi bu işdən. Amma əvvəldən sonunu görə bilmədi. Bax peyğəmbərlərin Sultanı və sonuncusu olan Həzrəti Məhəmmədin (s) üstünlüyü buradadır. Aşiq mənliyini sevmək sevdasından özünü xilas edərsə, sevilən və istənilən sevgili də mənlik sevdasından vaz keçər.

Şeir:

Hər nə deyərlərsə, onun iç üzü budur. Təkəbbür artıq ölmüşdür. Dirilik də budur.

Ərəbcə şeir:

Fəqət qəlbim ağladı, ağlamaqdan elə coşdu ki,

O da ağladı, ona dedim ki, üstünlük ilk hərəkət edəndədir. Əgər indi

ağlayacağıma, uşaqlıq və gənclik çağlarımda ağlasaydım. Sədinin başına and olsun, bu peşmanlıqdan öncə nəfsimi müali

cə elədim.

Üstunluk ilk tərpənənindir, sözündə ilk hərəkət edənlə gecikənin mənası budur: Dilbər üçün ilk azuqəni hazırlayıb gizləyən ilk davranan deməkdir. Geciksə belə, yenə əvvəldən davranmış deməkdir. Barmağında üzüyünü çevirərkən Peyğəmbərə (s) belə xitab olundu: "Yoxsa sizi əbəs yerə yaratdığımızı … güman edirdiniz?" (əl-Muminun surəsi, 115) Məni bir yad adam yüz dəvə də vursa, heç bir şey deməərəm, amma o yeganə dilbərdən iynənin ucu qədər yaxalayım, o, rəhmət və şəfqətdir. Necə ki, Mənsur Həllacın vaqiəsində başqaları göydən buz yağdığından bəhs etmişdilər. Hal əhli olan bir nəfərdən nəql edilən bu hekayə isə daha maraqlıdır. Deyirlər ki, Həllacı asdıqları zaman şəriət başçılarının fərmanı belə idi: Həllac dar ağacına çəkiləndə Bağdad əhalisindən hər biri ona bir daş atacaqdır. Hər kəs bir neçə daş atmaqla bərabər, dostlarını da bu işə məcbur etdi. Çarəsiz qalan hər kəs bu işə qoşuldu. Arada daş yerinə bir gül dəstəsi də atılmışdı. Həllacdan dərin bir inilti eşidildi, fəryad qopardı. Bu halı seyr edənlərdən biri heyrətlə ondan soruşdu: "Nə üçün o daş yağışından heç səsini çıxarmadın, amma bir gül dəstəsi atılan kimi inildədin?" "Bilirsənmi, sevgilinin cəfası çox çətindir."

Bir nəfər neçə il idi ki, özünə bir mürşid axtarırdı. Kimin adını eşidirdi, yanına qaçırdı, amma heç birindən bir kar çıxmırdı. Bir gün başını bir kər- picin üstünə qoyub yuxuladı. Axtardığını yuxusunda görmüşdü. Oyanan kimi kərpici öpməyə başladı. Qoltuğunda gizldəib, hara gedirdisə, özü ilə aparırdı. O olmasa, namaz qılmaz, qonaqlığa getməzdi. Yasa, toya, hətta yatmağa da kərpiclə birlikdə gedərdi. Biri onu tərifləmək istəsə, de- yərdi ki, əvvəlcə bu kərpicimə, bu cövhərimə söylə! Yanına gələn onun əlini sıxmaq istəsə, "əvvəlcə əlini bu kərpicə sürt," deyərdi. "Bu nədir," deyənlərə, "ələ düşməz bir şeydir, ancaq yaxşı insanlarda tapılar, xe- yirsiz insanlarda tapılmaz, otuz il idi ki, bir şeyi itirmişdim, dünən gecə başımı bu kərpicin üstünə qoyanda, onu yenidən qazandım" deyirdi.

Şeir:

Ey sevgilim! Ey canım! Könlüm buna necə inanar ki, Sənə qovuşmağı əsla ummazdım!

Qəmdən uzaq idim, fələk bu halımı bəyənmədi, halbuki, Mənə səninlə keçməyən zaman daha xoşdu.

Nə qədər uzaqdır, nə qədər uzaq! Sənə sonsuz bir ömrümü versinlər? Mən görürəm ki, ölüm yabançılıqla dolu bir aləmdir. Bütün dostlarıma sonsuz ömür arzulayıram. Ondan başqa dua etmirəm. Hələ sənə

dua edirəm ki, həm içimizi, həm də çölümüzü bəslədin, yetişdirdin. Səndən bizə nə qədər fayda yetişdi. Amma mənim bu xəbərimə heyrət etdinsə, mən haqqın sifətiyəm, mənim sifətim də onun sifəti deməkdir. Mənim biliyim onun elmi və sifətidir. Deyirlər ki, Allahın yumşaq xasiyyəti və səbri var. Hər səbri yüz il, min il sürər.

Rübai:
Ey ay parçası, doğuldun və parladın,
Öz fələyinin çevrəsində dolanaraq gəzdin! Bilirsən ki, can ilə bərabərdin,
Qəfildən batdın və görünməz oldun.

Ərəbcə beyt:
Vəqiyə məni qorumamasından şikayət etdim,
O da günahları tərk edim deyə məni agah etdi.

Hər kəsin özünə görə bir günahı vardır. Birinin günahı sərxoşluq, yaramazlıqdır, onun halına uyğun gələr. O birinin günahı da Allahdan uzaq qalmaqdır. Bir qəzəb var ki, zaman-zaman tapdalanar, bəzən də gizlənər. Onun işi gizli qalmaqdır. Amma canlı olan bir məxluq günah etməkdən necə özünü qoruyar? Çünki bura onun yeri olduğunu bilməkdir.

Misra:
Nəhayət, pişik dəliklərin başından ayrılmaz.

Bir cavan Qurani-Kərimi öyrənmək istəyirdi. Çox zəhmət çəkmişdi. Quranı əzbərləmişdi. Amma hələ bir arzusu qalırdı. “Ən yaxşı Quran öy- rədən kimdir,” deyə soruşar və Allaha yalvararaq, Quran bilimcisi və Allah adamı olan xas qullardan bir müəllimlə tanış olmasını arzulayırdı. Qə- fildən Bağdadda bir müəllimin sorağını aldı və dərhal yanına getdi. Əz- bərlədiyi hər ayəni təkrar soruşar, sonra “elə oxu, belə oxu,” deyə düzəliş verirdi. Quran öyrənən baxdı ki, ömrünü boş yerə sərf edib, işə yenidən

başlamaq lazımdır. Tələbə müəllimə bir şərt qoydu: “Mənim atamın adəti hər səhifə üçün bir qızıl verməkdir.” Müəllim razılaşdı. Müəllim Quranın sirlərini öyrədir, o da qızılları əliaçıqlıqla verirdi. Amma bir gün veriləcək qızıl qalmadı. O arada bir qoca kişi ilə rastlaşdı. Üzüntüsünün səbəbini soruşdu o qoca. Əhvalatı danışanda qoca güldü. Onu

evinə apardı, qonaq saxladı. Kişi canının sıxıntısından yemək yemirdi. Qoca, “sənin müəllimin mənim oğlumdur,” dedi, “sənin verdiyin qızıllar da bu xalının al- tındadır. Oğlumun qızıla ehtiyacı yoxdur.” Həzrət Peyğəmbər (s), “Quranı gözəl səs və ahəng ilə oxumayan bizdən deyil,” buyurmuşdur. “Bizim altunumuz Qurandır, mülkümüz, qüvvətimiz və varlığımız Qurandır. Biz Quranı belə öyrənmədik ki, ondan başqa bir şeyə möhtac olaq. Bu ancaq səni sınamaq üçündür. Bax bütün pulların burdadır, al” dedi və oradan ayrıldı.

Əgər o xatirəni özündən uzaqlaşdırmamış olsaydın, öyüdə möhtac olmazdın və zahirdə səndən körpüdən keçməz bir eşşək sıpasını istəmə- yimizə belə lüzum qalmazdı. Onu sürərsən, kölgədən qaçar, körpünün üstündə ayaqları titrəyər, gərəkdir ki, bir az yük daşısın. Onu burada sınayın. Əgər körpüdən keçərsə, yaxşıdır, yoxsa o an geri dönmək lazımdır. Çünki o, bir ara səni yolun yarısına qədər aparar, amma yoldaşları körpünü keçdikləri halda, o keçməz. Geri dönməyə imkan yox, irəli getməyə imkan yox. Bax onu burada sınaqdan çıxar ki, başa düşəsən. Necə ki, Quranda “Allah onların imanını çox gözəl bilir,” (əl-Mumtəhinə surəsi, 10) buyurulmuşdur.

Şeyx heyva yeyər. “Ay şeyxim, vay müridim”,” deyərdi. Amma o sənin müridin deyil, sən onun müridisən. O sənə Yasin oxuyar. Sən ona, “nə edim,” deyirsən! O təslim damarı yoxa çıxdı, amma qızıl damarı yerində durur. Sən qeyb olursan, qızıl damarına “qeyb” deyirsən. Torpaq var ki, içindən qızıl çıxararlar, amma o yetim incinin ocağı, mədəni bəlli deyil. Dərin ehtimala görə su içindədir.

Bir bəzirgan bütün malını xərclədi, əlli dəfə yaşadığı diyardan uzaqlara səfərə çıxdı. O biri bəzirganlar da onun pulu ilə ətrafı dolaşar, ticarət edərdilər. Ancaq başqasının pulu ilə ticarət edənlərə, “filankəsin süfrəsi səfərdədir,” deyərlər. Bunlar pullarını dalğıclara yedizdirərlər, bir yetim inci çıxarmaq ümidi ilə durmadan pul xərcləyər. Dalğıclar da batıb- çıxmaqdan çarəsiz qalarlar, sədəfləri bayıra çıxararlar, ancaq içindən bir şey çıxara bilməzlər.

Beyt:

Mənə sənin əqiq kimi dodağın gərəkdir, şəkərin nə faydası var? Mənə sənin camalın lazımdır, qəmərin nə yeri var?

Dalğıc, nəhayət, işin sonuna baxar, “heç olmazsa, ayağımda bir başmaq qaldı,” deyər. Hələ bir daha da suya baş vur, olsun ki, o yüz minlərcə pula dəyən sədəfi tapa bilərsən.

Xəzinədən baş çıxarmayan, yalnız onun adını eşidən və görən şəxs üçün xəzinə ancaq bir ərmağandır. Xatirə gəlməyən bir şeyi eləməmək və ya gecikdirmək nədir? Gecikmə, ancaq eşşəyin körpüdən keçmədiyi za-

man olar. O zaman onu qovarsan!

Deyrlər ki, ayaqyolunda Allahın adını zikr etmək olmaz. Yavaşdan belə olsa, Quran oxumaq yaraşmaz. Amma bu gün özümdən ayıra bilmə- diyim çirkinləri nə edim? Şah bu atdan aşağı enmək istəmir, əsgərlərini toplayıb, şeytan onu qabağına salıb, köməkçi kimi istifadə edir. Şah isə, "o həqiqətən Allahdır"," deyir. Çünki şeytan Allah qiyafəsində də görünər ki, özünü qəbul etdirsin.

O adama dedim ki, "şeytan necə Allah qyiafəsinə girə bilər." Onun kitabından yüz Bəyazidin künyəsi* oxunar. Qolunu bayıra çıxarsa, yüz Əbusəid (Əbülxeyr) tökülər. Onda həm ruhani, həm də cismani qüdrət var. Şəhvət haradan gəlir? Ancaq bir kimsənin üzünü qapayan bu zümrənin zehnini qarışdırar və deyər ki, özünü göstər ki, xatirindən bu düşüncələr çıxsın. İndi bunların xidmətini ancaq anasından və atasından görənlər yerinə yetirə bilərlər.

Beyt:
Ana və ata övladlarını incitməzlər, amma
Ağıl və ruh övliyalardadır.

Şeir:

Ey səhər rüzgarı, əlindən gəlirsə, bir gecəlik onun qapısından keç! Könlün istəyərsə, məndən onun tərəfinə bir salam apar. Könlümü orada görsən, de ki, vüslət sənə haram olsun!

Mən beləcə səndən uzaqda, sən isə həmişə onunla diz-dizəsən.

Əgər oraya yetişə bilərsən, ahəstə get, yavaş yeri! Ta ki, pərişan zülfləri dağılıb bir-birinə qarışmasın!

Rübai:
Yel əsdi, gül yarpaqları mey tiryəklərinin başlarına saçıldı. Yar gəldi, meylər dostların qədəhlərinə boşaldı.

O sünbül (saçlarla) gül yanaqlar nəşəlilərin nəşəsini qaçırdı. O məst nərgiz (mavi gözlər) ayıqların qanını tökdü.

Rübai:
Eşq bizim ölçümüzə görə başımızda deyil
İşin qəribəsi bizim yükümüz miniyimizin yükündən daha ağır, Dilbərimizin camalı, gözəlliyindən söz açılarkən,

Biz ona layiq deyilik, o da bizim tayımız deyil.

Rübai:
Könül arasam, sənin səmtində görürəm, Can istəsəm, pərişan saçlarında taparam. Çox susuz qalıb su içsəm,
Piyalədə xəyalını görərəm.

Rübai:
Bundan daha pərişan könül halı olarmı?
Yaxud bundan daha başsız, sonsuz bir hadisə varmı? Aləmdə hansı möhnətə düşmüş zavallı var ki,
Bundan daha başı gicəlmiş, bundan daha çaşqın olsun.

Beyt:
Ey cahanın canı, ölmək nə xoşdur,
Hələ qılınc səndən, gərdan da məndən olarsa!
Aləmin gözəlliklərinə dəyər veriblər. Ey sevgili dilbər, görəsən, bu xoşa gəlməyən çirkinin dəyəri nədir?

Şeir:

Deyirsən ki, mənim məxmurluğumdan yüzlərcə küp parçalanar, Görəsən, bir qoxu almadınmı ki, bu dərəcə sərxoş oldun?

Rübai:
Ey könül, get sonunu düşünənlərdən ol! Yabançılıq aləmində yəqinlərdən ol!
Səhər rüzgarına minib dolaşmaq istərsən, Dərvişlərin miniyinə ayaq torpağı ol!
"Göylər və yerlər Məni əhatə edə bilmədi. Amma Mən bir mömin qulu- mun könlünə sığdım'', anlamındakı səhih hədis çoxlarına məlumdur.
Bir ara, "filankəs küfr danışır, xalqı yoldan çıxarır," dedilər. Bir neçə dəfə bunu təkrar elədilər. Xəlifə baş verənlərə əhəmiyyət vermədi. Bu dəfə də "bu adam bir lağlağı dəstə ilə dost olmuş, bunları yoldan çıxarıb" dedilər. "Bu sənin haqqında yaxşı xəbərlər yayılmasına əngəl olar, sənin hakimiyyətin dövründə açıq-aşkar küfr söylənilməsi yolverilməz-

dir. Di- nimizə xələl gəlir," deyə xəlifəyə israr etdilər. Xəlifə həmin kişini saraya çağırtdırdı. Üzünə baxıb, "bunu Dəclə çayına atın," dedi. Əlinə-ayağına qandal vurdular. Aparılarkən xəlifədən soruşdu: "Mənə bu cəzanı nədən rəva gördün?" Xəlifə xalqın məsləhətini üstün tutduğunu, əhalinin sa- lamatlığı üçün onu suya atdıracağını dedi. Həmin kişi, "o halda mənim məsləhətim üçün, mənim salamatlığım naminə xalqı suya at," dedi. "Sə- nin yanında mənim o qədər etibarım yoxdurmu?" Bu sözdən xəlifənin canına qorxu düşdü, kişiyə ürəyi yandı. Dedi ki, "bundan sonra mənim yanımda o nə desə, elə edəcəyəm. "Allah ərş üzərinə hakim olmuşdur'' anlamındakı ayəni şərh edən gərək "Nəfsini tanıyan Rəbbini də tanıyar,'' məqamını da anlatsın. Bu sözdə gizli bir xəzinə vardır. Açıqlanıb heç bir anlaşılmayan tərəfi qalmasın. Çünki nəfsi ilə alış-verişi olan şəxs nə özünü, nə başqalarını düzəldə bilər. "Sən səsini ucaltsan da, ucaltmasan da, heç bir fərqi yoxdur. Çünki Allah sirri də, sirdən daha gizli olanı da bilir,'' (Taha surəsi, 7) buyurulmuşdur. Nəfsin yeri ancaq ayaq altıdır.

Məhəmməddə (s) Əhədi (Tək olan Allahı) tapa bilərsən, Əhəddə Məhəmmədi (s) tapa bilməzsən! Sufi evdən bayıra çıxır. Xirqəsinin qoluna bir tikə çörək qoyur. Üzünü o çörəyə tutaraq deyir: "Ey çörək, əgər başqa bir şey tapa bilsən, əlimdən qurtararsan, yoxsa elə əlimdəsən!"

Onlar həmişə Əhədə bağlananlardır, biz də Məhəmmədə (s) bağ- lananlarıq. İstər Kəbənin zirvəsinə qaldırsınlar, "xeyr," deyərik. Məhəmmədə (s) bağlanmaq daha doğrudur. Bu, Kəbənin damında namaz qılmaqdan daha üstündür.

Gizli mənlik hissləri onları zəncirləyib. Bir şeyxə dedim ki, Allah səni cəhənnəmə atsın! "Keşkə", dedi, "o zaman məndəki nurun cəhənnəm atəşi ilə nə hala düşdüyünü, cəhənnəmin də mənim nurumla necə qaraldığını görərdim."

Haqqında danışılan Şahzadələrin hekayəsində də belə oldu. Öküz heykəlini gördülər, amma içindəki Şahzadəni görə bilmədilər. Yoxsa kim bilir, onu necə öldürərdilər.

Məhkəmədə düşmən tərəfin günahını açıq söyləməsi səksən şahid dinləməkdən daha yaxşıdır. "De: "Şahidlik baxımından nə daha böyükdür? Mənimlə sizin aranızda Allah şahiddir,'' (əl-Ənam surəsi, 19) sözlərin- dəki hikmətə baxaq:

Quranı təfsir edirik. Deyirlər ki, heç bir müsəlman tanımadığı şəxsə "bu, zındıqdır" deyərmi? Öz məktublarını oxumazlar, "filankəs kafir oldu," deyərlər. Bəli, kafir idi, mömin oldu.

Zeynəddin Sədaqa dedi ki, başımızı əyək, rahatlığa varaq. Bir qarış məsafə üçün yoldan qaldın. Bundan o yana kimsəsiz çöllərdir. Bir qarış yoldan, Aksaraydan Konyaya gəlirsən. O bir qarış yoldan geri qaldın!

Üst tərəfi yoxluq çölüdür. Ancaq yolu axtar, soruş, “yol budurmu,” deyə araşdır. Diqqət et ki, o çaşdırıcılar oğru olmasınlar. Sən nəzər əhli ol, doğrunu əyridən ayır! Çünki yol arada bir neçə qola ayrılır. Bir bu yoldan gələr, o biri o yoldan gedər, sən doğru yol tərəfini qoru. Orada adil bir Sultan var, kimsə kimsəyə zülm etməz. Səhih hədisdə “Lailahə iləllah inancı mənim qalamdır. Hər kim mənim qalama sığınarsa, salamat olar,” buyurulmadımı? Hər kim bu tövhid qalasına, bu “Lailahə iləllah” hasarına girərsə, bir şey söyləməz. Amma hər kim ancaq bu qalanın adını söyləyib keçərsə, o bir şeylər izah etmək istəyər. Qalanın adını söyləmək çox asandır. Mənim dilimlə, “mən qalaya girdim və ya Şama getdim,” deyərsən, bir anda səmaları və yerləri dolaşarsan. Ərşə, Kürsə yüksələrsən.

Həzrət Məhəmməd (s) “Daxilən və canı-könüldən Lailahə İləllah deyən mömin Cənnətə girər” buyurur. İndi sən otur və söylə:

O, birdir deyirsən. Sən kimsən? Sən altı mindən artıqsan! Sən bir ol! Yoxsa Onun birliyindən sənə nə? Sən yüz min zərrəsən ki, hər zərrəndə bir həvəs, hər zərrəndə bir xəyal daşıyırsan. Nəhayət, könüldən, ağıl ilə daxilən bağlı olan cənnətə girər. Bunu edə bildisə, Cənnətə girər, yolundakı vədə hacət yoxdur. Bunu edə bildisə, Cənnətin tam özüdür o.

“Bunu kimin yanında söylədi,” deyərlərsə, gərək bir az kərəm etsinlər. Xalq daha istedadlı olsun. Bununla bərabər vaizin öyüdlərini o qədər təkrarlama ki, xalqı laqeyd eləməyəsən. İşləri ya aydın sözlərlə danışarsan, yaxud yeddi rəngli xirqə ilə! Təhqiq əhli olan insanlara fəryad

yaraşar. Bunu bilmək lazımdır. Yeddi rəngə boyanmış, səcdəyə getmiş insanlar görürsən. “Ey şeyx, sənə rəngdən sıyrıl, vaz keç,” dedilər. Əvvəl təkyədə də dərk edən olmurlar.

İndi bayıra çıxaq, buraxmazlar. Bir kərə dərgahın, təkyən var, de- dilər, amma o qızılquşun yeri ya qəfəsdir, yaxud qəfəsdən qaçmışdır. Qəfəs dəmirdən olmalıdır ki, quş uçduğu zaman huylamayasan. Burada huylamağın nə mənası var? Yəni quş uçduqdan sonra “gəl-gəl” demək nəyə yarayar?

Bir icma var ki, “buyurun hər kəs başını dizləri arasına qoysun,” deyərlər. Bundan bir müddət sonra biri başına qaldırar, “Ərşin, Kürsün ucalıqlarını seyr etdim,” deyər. Başqa biri deyər, “mənim nəzərim Ərşi də, Kürsü də keçdi, fəzadan sonsuz boşluqlara daldım.” Başqa biri də, “mən yer altındakı öküzün çiynini, dənizdə balığı seyr edirəm. Hətta bu öküzü, balığı qoruyan mələkləri görürəm,” deyir. Mən hər görünüşdə öz acizliyimdən, zavallılığımdan başqa bir şey görə bilmirəm. Mən iki ayağımdan asılmış bir quş kimiyəm. Bəli, asılmışam, amma dilbərin tələsində asılıyam. İndi kimə, “xoş gəldin,” deyim? Mən əslində bunu istəyir-

dim. Mən iy istəmirəm, iki cür mədən istəyirəm! Qızıl və gümüş mədəni, bəlkə də mədəndən də, məkandan da qurtulmaq yolunu axtarıram ki, ondan başqası mənim işimə yaramaz. Necə ki, başqalarına yoxsulluq yaraşmaz, onlara var-dövlət yaraşar. Ancaq insanı haqqa aparan da yoxsulluqdur. Haqdan başqasından qaçıran yenə yoxsulluqdur. Yəni bir yoxsulluq da var ki, insanı Haqdan qaçırar, xalqa aparar.

Beyt:
Güldən deyil, tikandan xoşlananlara
Minbər yaraşmaz, dar ağacı yaraşar.

Şeir:

Ey dilbərim, bax bu canımdan lap az şey qaldı
Bu gün bir az da dərdimi çək! Ancaq bir şəfəq vaxtı qaldı
Gözəl yanağının rəngindən, fidan kimi boyundan sanki. Gül tər içində qaldı, ay da sıxıntı içində…

Artıq qızılım-gümüşüm qalmadı, bizdən nə apara bilərsən? Eşqimdən xatirə ancaq qapında bir qızıl boşqab qaldı. Könlümlə dava etdin, amma yolunda canımı fəda etdim. Bundan daha böyük söz olarmı?

Üzərimizdə haqqın qaldı.
Bu bir neçə gün də barı bizim zəhmətimizi çək! Çünki ömrümüzün dəftərindən tək bir yarpaq qaldı!

Şəhərimizdə xətir-hörməti olan bir zahid vardı. Bir gün çöllərə doğru yollandı. Qəflətən bir kəndə gəlib yetişdi. Zahid və müridləri çox yorulmuş və acmışdılar. Kəndlilər tez evlərinə qaçıb, onlara yemək tədarükünə başladılar. Kəndin axundu da gəldi. Zahidin qabağına qaymaq və çörək qoydu. Çox ac olduqlarından iştahla və şirin-şirin yedilər. Gecə yarısından sonra gələn kəndlilər kabab bişirdilər, süfrələri döşədilər. Lakin zahid, “iştahım qalmadı, nə edim,” dedi. “Köpəklərə verin. Yeyə bildiyinizi yeyin, yemədiklərinizi də itlərin qabağına tökün. Qoy yesinlər bunu, sabaha saxlamaq olmaz,” deyən kimi kəndlilər şeyxin məclisindən çıxdılar. “Bu adam bizi nə vaxta qədər aldadacaq,” deyərək, gah nazlanaraq, gah da inkar yolunu tutaraq, ondan üz çevirdilər. Şeyx onlarda bir dəyişiklik görərsə, bunu öz tərəfinə çəkər. Çünki şeyxin rəhmət və şəfqəti sonsuz rəhmətə bitişikdir. Əgər şeyxin onlara qarşı meyli qalmazsa, bu dəfə onlar Şeyxə etibar etməyə başlayarlar. O da “iş belədir,” deyib gedər. O, kobud təbiətli deyil, hər hansı səbəbdən önə keçsin. Bəlkə an-

caq Haqqın işarəti ilə irəli atılar. O kəs xoşbəxtdir ki, bir səbəb və məqsədlə bir şeyxə bağlanmışdır. Çünki bir zaman olar ki, qəfildən bağlantı artıq əvəz gözləmədən olar. O zaman özlərindən də, səbəbdən də vaz keçər və belə deyərlər.

Rübai:
Biz heç bir hesaba sığmarıq.
İşimiz çox, amma ney kimi içimiz boşdur
Yaxşı baxar və özümüzə gəlsək,
O zaman anlaşılar ki, biz həm bizdən əskik, həm də bizik.

Axmağın biri daim qarı yığar, gətirib suyun içində saxlayardı. Əgər qalarsa, ondan bu cəhəti soruşacaqdı: "sən nə üçün bizə bənzəmirsən?" "Hər ikimiz eyni əsildənik. Yəni sən cisimsən, mən ruham, yaxud mən cisim, sən də ruhsan, demədin! Başqa biri, "mən deyim," söylədi. Allah Peyğəmbərinə (s) nə üçün "De: "Mən tək və şəriki olmayan Allaham" demədi, belə vəhy endirdi: "De: "O Allah birdir (heç bir şəriki yoxdur)" (əl- İxlas surəsi, 1). "Çünki" dedi, amma, bu çünki kəlməsi pəltək idi. "Saməd" içi boş, qarınsız deməkdir. Qarnı boş olan olmayana dəlalət edər ki, o da Saməd - Allah-təaladır. Bu onun tayıdır, o da bunun tayıdır. Necə ki, özü saydan olmayan Əhəd də bu sayların dəlilidir. Yəni saysızlıq da

sayın dəlilidir… İndi yenidən "Nəfsini tanıyan Rəbbini də tanıyar," sözünə

gələk. Nəfsdə şübhə vardır, buna batmışdır.

Qoca qarıların adətini qoruyun! Yəni "ey sən, hər şey sənsən," deyir. İndi ki, "hər şey" deyir, qoca qarı da bu "hər şey" dərkinə girər. Bu halda bu sözü söyləmək "Ənəlhəqq" deməkdən daha yaxşıdır. Haqqa çatmış olsan da, Haqqın həqiqətinə, iç üzünə yetişə bilməzsən. Əgər haqqın həqiqətindən xəbəri olsaydı, "Ənəlhəqq" deməzdin. Yəni mürşidimiz və əlimizdən tutan rəhbərimiz deyir ki, "qoca qarıların adətini qoruyun" sözünü bir qoca qarıdan öyrən. Başqa bir dəlil də Allahın varlığı haqqında onların, sadəcə, "Allah vardır" demələridir. Yaxşı bir məsləhətçilik edirsən, amma o birinin də əlində uzun bir ney var, iş o tərəfdədəir. Bənövşə açmadıqca, ətri ətrafa yayılmaz. Bənövşələr öldükdən sonra çayın kənarında şərab içməyin nə ləzzəti var!

Şeir:

Sənin gözəlliyin bəla, bizi tələsinə salan bir danədir.

O elə bir şamdır ki, həmişə bizim pərvanəmizi yandırar. Ey dildar, sənin zülfünün zəncirini ona görə sevirəm ki, O bizim divanə könlümüzün ayağına yaraşır.

Tozlar çəkiləndən sonra altındakı atdırmı, eşşəkdirmi, görəcəksən.

Bir şeyx dedi ki, "yüz nəfər xas müridim var ki, acından ölsəm, heç biri mənə bir tikə çörək verməz. Halbuki, bizimkilər belə deyil, tamam əksinədir." Şeyxə dedim ki, "yüz müridim var deyirsən, kaş bir müridin olaydı" və əlavə etdim: "Onunla qaynayıb-qarış, bir yerdə ol!"

Qazı Bahəddinin yanına gəlib dedilər ki, "filan dərviş sənin arxandan filan hərəkəti elədi, o, miskindir," dedi. Qazı qəzəbləndi. Naiblərindən biri dedi ki, "gedim o dərvişi görüm." Dərvişin yanına gəlib soruşdu: "Nə üçün Qazını pisləmisən?" "Bunu hardan çıxardın, nə danışmışam ki," dedi. "O, miskindir," demisən! O, miskinlərin vəziyyəti ilə məşğul olur. Həzrət Mustafa (s) Allaha belə yalvarardı: "Ya Rəbbim! Məni miskin olaraq yaşat, miskin olaraq öldür və məni miskinlər arasında məhşərə gətir!"

Bir gün səhabələr Həzrət Peyğəmbərin (s) yanına gəldilər. "Burada bir nəfər var, nə kafirlərə yanaşır, nə də müsəlmanlarla qaynayıb-qarışır. Namaz qıldığını görürük. Oyunla və lazımsız işlərlə məşğul olduğuna da rast gəlməmişik. Onda divanələrə xas hərəkət də yoxdur. Ağıllıların qismətini axtarmaq baxımından cidd-cəhdi də müşahidə olunmur!..

Başqa bir dəstə yenə ondan danışmağa başladı. Peyğəmbərimiz (s) onun halına acıdı. Buyurdu ki, indi onun yanına gedin, mənim salamımı söyləyin və deyin ki, peyğəmbər üzünü görməyi çox arzulayır. Onu buraya çağırmayın, çox incitməməyə çalışın! Kişinin yanına gəldilər. Əvvəlcə salam verməyə cəsarət etmədilər. Bir az sonra onlara cəsarət gəldi. Ona iltifat göstərərək, Həzrət Peyğəmbərin (s) salamını çatdırdılar. Onun sevgisini yetirdilər, onu görməyi arzuladığını açıqladılar. O isə susurdu. Həzrət Peyğəmbərə (s) zəhmət verməmələrini xahiş etdi. Bir saatdan sonra kişinin Həzrət Peyğəmbəri (s) ziyarətə gəldiyini gördülər. Kişi məclisdə səssizcə oturmuşdu. O susur, Həzrət Peyğəmbər (s) də danışmırdı. Həzrət Peyğəmbər (s) yerindən qalxdı. Kişinin gəlişindən məm- nun olduğunu söylədi. Ona "Sənin üzərinə bir işıq saçıldı," buyurdu.

Bizim mədrəsəmiz budur. Bu ətdən düzəlmiş dörd divarın müdərrisi böyükdür. Kim olduğunu söyləmərəm. Onun məbədi də könüldür. Necə ki, bəzi Allah dostları "Qəlbim mənə Rəbbimdən xəbər verdi" deyiblər.

Bəyazid Bistami həccə tez-tez gedirdi. Getdiyi şəhərdə əvvəlcə ora-

dakı şeyxləri ziyarət etməyi, sonra da başqa işlərlə məşğul olmağa adət eləmişdi. Bəsrədə bir dərvişin yanına getdi. Dərviş ondan soruşdu: "Ey Bəyazid, haraya gedirsən?" Bəyazid cavab verdi: "Məkkəyə, Allahın evini ziyarətə gedirəm."

- Yanında nə qədər xərcliyin var?
- İki yüz dirhəm.
- Elə isə qalx, yeddi dəfə mənim dövrəmdə dolan. O pulları mənə ver!

Bəyazid yerindən sıçradı, pul kisəsini qurşağından çıxarıb Şeyxin qabağına qoydu. Dərviş yenə soruşdu:

- Ey Bəyazid, haraya gedirsən? Gedəcəyin yer Allahın evidir, amma mənim bu könlüm də Allah evidir. Allah-təala həm o evin, həm də bu evin sahibidir. O evi yaradandan sonra orada heç oturmayıb. Amma bu ev qurulduqdan sonra heç bir zaman buradan ayrılmamışdır.

Tövbə edən və həccə getməyə qərar verən bir kişi ailəsinə də dua elədi. Halbuki, onun tövbəsi daim incitdiyi arvadının Allaha yalvarışının xeyirli bir nəticəsi olmuşdu. Çünki qadın səhər erkən elə bir ah çəkdi ki, hardasa evin tavanını yandıracaqdı. O gecə kişi bir yuxu gördü. O an yerindən sıçrayıb qalxdı, ağlamağa başladı, günahlarından tövbə elədi. Həyat yoldaşına, "artıq mən ailə həyatından vaz keçdim, üzümü həccin yoluna çevirirəm. Həccə getməyi düşünürəm, amma səni belə ayağı bağlı tərk eləmək də əlimdən gəlmir," dedi. Qadın bu cavabı verdi: "Bir-birimizə yad olduğumuz zaman birlikdə yaşayırdıq. İndi tam bir-birimizi tanıyıb

anlaşdıqdan sonra ayrılığın nə mənası var? Mən də həccə gedirəm." Çöldə kişinin ayağına bir tikən batdı, yaralandı. Karvan isə getmişdi. O, ümidsiz halda inləyərkən uzaqdan bir yolçunun gəldiyini gördü. "Bu gələn Xızırın (ə) hörmətinə, Ya Rəbbim, məni xilas elə," deyə yalvardı. Qarşıdan gələn yolçu ayağından yapışaraq onu karvana yetişdirdi. Kişi bu xilaskardan soruşdu: "Allaha and verirəm, söylə sən kimsən? Bütün bu işlər sənin mərdanə davaranışının əsəridir." O adam səsini çıxarmadı və qızardı, sonra belə dedi: "Niyə belə maraqlanırsan? Bəladan qurtardın və istəyinə qovuşdun!" Həcc yolçusu dedi: "Allah haqqı, kim olduğunu deməsən yaxanı buraxan deyiləm!" Xilaskar cavab verdi: "Mənə İblis deyirlər, hamının, Allah lənət eləsin, deyə qarğış etdiklər iblis."

Bax İblisə iman gətirən, ona güvənən şəxs muradına yetdi. Allah Rəsuluna imansızlıqla baxanlar da bu halın əksinə olaraq, Əbucəhl kimi düşkünlük və pərişanlıq içində yollarından azdılar.

Allah səkkiz tərəfi də görür. Heç kimin Ondan gizlənməyə gücü çatmaz. Uşaqlar bir-birnə Cüneyd Bağdadini göstərərək, "budur bütün gecə

Allah yolunda oyaq qalan adamdır," deyirdilər. Cüneyd bunu eşidincə,

"onlarının zəndində yanılmamasına görə səy göstərim," dedi. Əvvəllər hər gün gecə yarısına qədər oyaq qalırdısa, o gecədən sonra səhərə qədər oyaq qalmağa elədi. Bu gün imanlı insanların inancı, bərəkəti, o şəxsə təsirini göstərər. Allah dostları özlərini gizləmək yolunu axtararlar, Allah isə min cür yolla özünü göstərmək istəyər.

Oyanıqlıq əvvəlcə Cüneydin canı kimi idi. Sonradan dedilər ki, "sən çox zəifsən, gecələr rahat yatmağa vərdiş elə!"

Əvvəlcə daim çalışmaq lazımdır. Bir mürid gəlib Şeyxə dedi ki, "Rind- lər kimi gəldik." Şeyx belə cavab verdi: "Allah buyursa, sizi və bizi rindlik məqamına yetişdirər.Onların içində bir şey olmadığ üçün belə rahat danışırlar. Bəxtəvər insan odur ki, gözünü, könlünü birlikdə bağışlayar. Bədbəxt o kəsdir ki, gözlərin verər, könlünü verməz. Sıxıntı və qələbəlik çoxalanda könül pəncərəsi açılar. Qəsd etmədən bir qapını döyər, qapı açılar. İndi bax ki, irəlidə yoxuş olmasın! İstəsən də, istəməsən də pəncə- rə açılanda hər gecəni görərsən. Amma qapalı olanda keçənlərin səsini eşidib bir zövq duyarsan. Amma haraya gedərlər? Şairin dediyi kimi:

Tozlar yatanda altındakı atdırmı, eşşəkdirmi görəcəksən. Bu tozlar neçə dəfə çəkildi, yatdı.

Gördük ki, altımızdakı ərəb atıdır.
Bu dünya evi insan bədəninin bir misalıdır.
İnsan bədəni də başqa bir aləmin misalıdır.

Keçəl keçələ deyib ki, mənə dərman tap. O biri keçəl də bu cavabı verib: "Əgər məndə dərman olsaydı, öz başıma çəkərdim."

Ey Allahım, "belə elə, yaxud belə eləmə", deyərlər. Halbuki, belə demək lazımdır: "Ey Uca Sultanım! O bardağı al, buraya qoy. Padşahlara "Xeyr, olmaz" demək yaraşar. Çünki o "bunu elə, bunu eləmə" deyə əmr edər.

Həzrət Peyğəmbər (s), "mənim əlimdə nə var, mən ancaq Allah elçisiyəm," buyurdu. Allah da ona: "Şübhəsiz ki, sən istədiklərini doğru yola yönəldə bilməzsən. Amma Allah dilədiyini doğru yola salar." (əl-Qəsəs surəsi,

56) dedi. Hər kəsə "görəcəksən," deyilir. Bunu hər kəsə söyləmək necə doğru olar? Anadan kor doğulmuş bir kəsə "görəcəksən," demək düzgün olmaz. Ancaq yetər ki, özündə varlığından bir az nəsə qalmış olsun. Üst tərəfi həmişə ruh olmuşdur. Yəni qalx, bu gün bu varlıq tozundan silkin! Sən it xislətliləri tam olaraq tanımırsan. Kişiləri də tanımırsan.

Fironun sehrbazlığı kimi, sənə də kişilik qüdrəti bağışlanmışdır. Qancıqlıq səndən uzaqlaşmışdır. İndi ki, kişini tanıyırsan, bil ki, belə xətalı görən hər kəs kişiliyə layiq deyil. Arını görürsənmi, istədiyi yerə qonar. Qəssab neçə dəfə onu ətin üstündən qovdusa, yenə gəlib ətə qondu. Üçüncü dəfə başına bir zərbə endirdi, başını bədənindən ayırdı, arı yerə yuvarlanıb çırpınmağa başladı. Qəssab, "mən sənə demədimmi, hər yerə qonma," deyə donquldandı. O bal arısı insanla bərabər Allahın "Bütün meyvələrdən ye!" (ən-Nəhl surəsi, 69) xitabını eşitmişdir. Şübhəsiz, hər nə yesə, Allah- təalanın buyurduğu kimi, "Qarınlarından insanlar üçün şəfa olan müxtəlif rəngli bal çıxar" (həmin ayədə). Necə ki, yenə Allah-təala səhih hədisdə "Göylərim və yerlərim məni əhatə edə bilmədi, amma Mən bir mömin qulumun qəlbinə sığdım," buyurmuşdur. Burada, "Allahın "qəlb, könül" dediyi bir ət parçasıdır," deyən qafil insan kafirdən daha yolunu azmış, İsa Peyğəmbərə (ə) "Allahın oğlu" deyən nəsranidən, xristiandan daha betərdir. Yeməkdən qorxduğun, görməkdən çəkindiyin şeyləri yemə və eləmə! Adəm oğlunun üzünün qaralığı ucbatından, sözdən ibarət olan mən də hərflərlə birləşdiyim üçün üzüqara oldum.

Bu gün məni daha nə vaxta qədər üzüqara buraxacaqsan. Mayası olan hər kəsin mayasını Allah Rəsulu inkişaf etdirər, yola gətirər. Amma maya olmayandan sonra nəyi yola gətirsin?

Gördüm ki, bütün şəhər əhalisi onun ətrafında dövrə vurub dolanır. Kəraməti arasında bir nur gördüm ki, heç bir dillə təsvir və tövsif oluna bilməz. Yuxarı baxdım, evin tavanını görə bilmədim - atam, o anda mənə, "ah, ey oğul," dedi. Gözlərindən iki bulaq kimi qanlı yaşlar töküldü. O hal içində başqa bir şey demək istədi, amma ağzı kilidləndi. Dodaqları uçuqladı, oradan getdi. Onun evində bişən aşa çuvallarla duz sərf olunardı. Amma bu cür var-dövlətə rəğmən zənbil satar, quru torpaq üstündə oturardı. "Ya Rəbb," deyərdi, "mən yoxsulam və yox- sullarla oturub-duraram, iş o işdir, amma hər kəs bu cinsdən olsaydı! Mən söyləyim, "mən beləyəm," deyə mənlik davasına qalxan insanlar beyinsiz şəxslərdir. Bu pisləmələrdə, kəskin sözlərdə məqsədim budur ki, o sərtlik və kobudluq onların içlərindən, zahirlərindən çıxıb onlara bir ziyan toxunmasın. "Daim inciyən və heç vaxt incitməyən biri varsa, o da ancaq eşşəkdir," deyərlər. Onda əzaba qatlanma və dözümlülük son qətrədədir. Mənim üçün də inciməyin heç mənası yoxdur. Çünki varlığım qalmayıb. İncimək varlıqdan olar. Mənim bədənim isə xoş duyğularla doludur. Nə üçün zahiri sıxıntıları özümə mal edim. Əvəz çıxmaq, söyüb- saymaq, qınamaq kimi duyğuları atar, içimdən qovaram. Həzrət Pey- ğəmbər (s) savaşdan dönənlərə "Artıq kiçik cihaddan döndük, bö-

yük cihada başladıq,'' buyurmuşdur.

Üç oğlu olan padşah onlara filan qalanın yanıdan keçməyin, deyə öyüd vermişdi. Əgər o öyüdü verməsəydi, onların oraya getmək yadlarına da düşməyəcəkdi. Şahzadələr getdilər. Orada təsvir edilməsi imkansız olan bir gözəlin şəklini gördülər. "Altında filan padşahın qızıdır" deyə adı yazılmışdı. Biri gəldi, ondan qızı istədi. Padşah, "mənim qızım yoxdur," dedi. "Hər kim onu istəyib, ondan bir əlamət söyləməzsə, boynunu vurduraram." İki şahzadə bu yolda başlarını verdilər. Qızı istəyənlərin başları xəndyə atılmış, bu xəndək tamamilə dolmuşdu. İki şahzadənin də başı eyni xəndəyə atıldı, o birilərinə qarışdı.

Bütün bu hekayələrlə kefinizi pozmayım. Yoxsa bu məqam ilə bağ- lı ayələr də var. Bunların açıqlamasında və Peyğəmbər kəlamının an- ladılmasında, hələ qızıl öküzün heykəli, mürəbbiyə ilə qız və nişan göstərmək kimi lətifələrdə bu anlamdakı ayədə buyurulan "Şübhəsiz ki, sən istədiklərini doğru yola yönəldə bilməzsən. Amma Allah dilədiyini doğru yola salar.'' (əl-Qəsəs surəsi, 56) mənasında olan xitabda da işarə vardır. O, bir bəhanə tapır və istəmir? "Halbuki göylərin və yerin xəzinələri Allaha məxsusdur, amma münafiqlər anlamazlar.'' (ət-Təğabün surəsi, 7) anlamındakı ayəyə görə də o, müsəlmandır. Nəhayət, ən düşkün biri varsa, o da mənəm. Mənə demişdilər ki, yetmiş yaşındakı bir kafir əlinə bir bardaq su verər, özünü xilas edər.

Biri, "o, mömin deyil"," dedi. Münafiqlərin başçısı o idi. Könlündə elə

bir şey vardı ki, açıqlaya bilmədi, onun əksini meydana qoydu və əlavə

etdi: "Araşdırmaq dindir.'' Mən," xeyr," dedim, "bu, bir fəlsəfədir," dedim. "Bu barədə nə deyirsən," deyə soruşarlarsa, "araşdırma müsəlmanlıq deyil, müsəlmanlıq örtməkdir," deyərəm.

Allaha and içərəm ki, o, Allahı tanıyan şəxsdir. Yoxsa üstündə lütf dəryasını necə dalğalandırardı? Rast gəldiyi hər kəsi Allah qulları ilə birlikdə düşünən, "Allahım, qövmümü doğru yola yönəlt!'' deyən Pey- ğəmbərin yalvarması ancaq Allaha bağlanmaqdır.

Mənə Allah Elçisi Həzrət Peyğəmbərin (s) kitabı fayda verməz. Mənə əvvəlcə Allahın öz kitabı (qəlb) lazımdır. Yoxsa min kitab oxusam da, yenə qaranlıqda qalaram. Allah dostlarının sirlərini bilənlər onların kitablarını oxuyarlar. Hər kəs bir xəyala düşərək, o sözlərin sahiblərini günahlandırar. Amma heç kim özünü günahlandırmaz. Deməzlər ki, bu küfr söz və yanlış anlamaq o sözdə yoxdur. O bəlkə bizim elmsizliyimdən və xəyalpərəstliyimizdəndir. Mən Lövhü Məhfuza qədər baxdım, gördüm ki, bir qələbəlik yığışdı. Orada gördüm ki, filankəs münkir olub,

bir- birlərindən pəhləvi dilində şeir yazırlar. Bu mənzərə heç xoşa gələrmi? Bilsək ki, "xoşluq" deyilən söz dostlar məclisindəndir. Bir-birlərinin yanındaləngər vurub gəzər, üzlərini göstərərlər. O zaman bir-bir aralarında bir sevgi müəyyənləşməyə başlayar. Eşq gələndə onların parlaqlığı qalmaz. Bir şeyi bal içində saxlayarsan, təzə və tər qalar. Hava bal ilə bu cisim arasına girə bilməz ki, onu poza bilsin.

Şamda Heratlı Şəhabəddin riyazətdən o qədər yanıb-yaxılmışdı ki, sanki bütün peyğəmbərlərə göz vurardı. Deyirlər ki, mələklər qısqanclığından onun üzünü xalqa tərəf çevirər, xalq ilə başını qatmaq istəyərdi. Bu Şəhabəddin ilə heç kim xəlvətə girməyin yolunu tapa bilməzdi. Cəbrail belə, "mənə əziyyətdir," deyərdi. Bir gün də "mənim varlığım belə mənə əziyyətdir," demişdi.

Bütün bu yaslı halı ilə mənə, "sən də gəl," dedi. Çünki sən könlümün rahatlığısan! Mən də, indi ki, məni belə tərifləyir, ona bir sual verim, dedim və bunu söylədim: "Bu söz mənə ikilik gətirir." Bir saat başını aşağı saldı, o zaman içəridən iki yüz yerdən yüz min söz qapısının açıldığını, yenidən bağlandığını izah etməyə başladı. Bu sözün izahından sona qədər danışdı və dedi ki, "beləcə onlara ikilik gələn bir zümrə var ki, qüvvətli olar."

Amma bunlar lap az olan şəxslərdir. Mən də öz-özümə dedim ki, "səndən o sayları lap az olanları soruşum, buradan başla." Mənə cahanı dolaşdıran o tərəfi heç istəmirəm, soruşmaram. Axır ki, mənim soruşdu- ğuma gəldik, bu baxımdan da deyiləcək sözü yoxdu.

Mənə, "Quranı təfsir elə"," dedilər. "Bizim təfsirimiz bildiyiniz kimidir"," dedim. Nə Məhəmmədən (s), nə də Allahdan söz açarıq. Burada mən də özümü inkar edirəm. Ona deyirəm ki, sən münkirlərdənsən! "et, özünü xilas et. Bizə nə üçün başağrısı verirsən? "Xeyr," deyir, "getmərəm." Beləcə qalacağam. Bunu inkar edən mənim nəfsimdir, necə olar ki, sözümü başa düşməz?

Bir xəttat üç xətt çəkərdi. Birini yalnız özü oxuyar, başqaları oxuya bilməzdi. O birini həm özü oxuyardı, həm də başqaları. Üç- üncünü nə özü oxuyardı, nə də başqaları. Sözü danışan mənəm, amma bunu nə mən bilirəm, nə də başqaları!

Bəzi ayələri təfsir eləmirlər. Yəni lazım bilmirlər. Əsl gərəkli olan şey sənin özünü xilas etməyindir. Nə üçün xilas edirsən? Yəni bu, asandır, amma əsl işin çətin tərəfi də odur.

Qatır dəvəyə dedi ki, "sən lap az başa keçirsən, yəni öndə gedirsən, bu necə olur?"

Dəvə cavab verdi: "Əvvəla, mənim belimdə daha çox yük olur. Bu yükün ağırlığı imkan verməz ki, mən irəlidə gedim. Sonra bədənimin bö-

yüklüyü, boyumun ucalığı, gözümün itiliyi sayəsində yoxuşun başından baxıb, enişin sonuna qədər alçaq, hündür olan hər yeri görürəm. Ən əsası da odur ki, mən halal süd əmmişəm. Sən haramzadasan, yəni bicsən! Qatır bicliyini mənimsədi, haramzadalığı qalmadı. Onun bicliyi inkarında idi. Çünki haramzadalıq ayırlmaz bir sifət deyil.

Bir nəfər başqa biri ilə dava eləmişdi. Ondan şahid istədilər. İddiaçı on sufini birdən gətirdi. Qazı, "bir şahid də gətir," dedi. İddiaçı qazıya cavab verdi ki, ayədə, "Öz adamlarınızdan iki kişini şahid tutun," (əl-Bəqərə surəsi,

282) buyurulmuşdur. Mən on şahidi birdən gətirdim. Qazı dedi: "Bu on kişi bir şahid deməkdir. Bunlardan yüz min nəfər gətirsən, yenə bir sayılar."

Deyirlər ki, iki dost illərlə bir yerdə yaşadı. Bir gün bir şeyxin yanına getdilər. Şeyx soruşdu: "Neçə ildir dostluq edirsiniz?" "Bir neçə ildir," dedilər. Şeyx yenidən soruşdu: "Bu vaxta qədər aranızda heç bir müba- hisə olmadımı?" "Xeyr," dedilər, "həmişə mehriban yaşadıq." Şeyx belə dedi: "Bilin ki, siz nifaq içində yaşayırsınız. Hər halda, aranızda bir hadisə olub ki, birinizin qəlbinə toxunub və ya onu bəyənməyib." "Bəli," dedilər. Şeyx dedi ki, "bax o bəyənməməzliyi qorxudan dilə gətirmədiniz." Dostlar yenə, "bəli," dedilər. Şeyxin dediklərini təsdiq elədilər.

Bu hekayəni danışmaqda məqsədim yenə hekayə işidir. Ancaq sıxıntılarını aradan qaldırmaq üçün hekayənin zahiri mənasına baxmamalı, bəlkə hekayənin surətində elmsizliyi aradan qaldırmaq lazımdır. Mən hər

kəsi iynələyib incidən deyiləm. Əgər qəzəblənib qaçarsa, çox vaxt mən özüm qaçaram. Allah mənə on dəfə salam verər, birinə cavab verəm, ya verməyəm. Onuncu dəfədən sonra salamını alaram. Özümü karlığa vuraram. Qəzəblənmək lazım gələrsə, qəzəblənərik. Xalq üçün çox xoşa gələn şeylər - arzular, dünya gözəllikləri mənim üçün çox çirkin və iyrənc şeylərdir. Ancaq bir şəxsin istəyi və xoşbəxtliyi üçün olarsa, başımı aşağı salar, hər şeyə dözərəm. Çünki o mal sevgilinin və hər kəsin qibləsidir. Belə dəyərlənər. Mən belə bir yoldaşla necə yarışa bilərəm? Bu gün istədiklərimizdən biri budur: Əgər sizi bir yerə çağırsalar, deyin ki, "yanımda mürşidim, rəhbərim olmadan gedə bilmərəm. Əvvəlcə onu əldə edin, o zaman biz hazırıq." "Əgər mürşid o tərəfdədir," desələr, "qəbul etmərəm," deyin! Bu, bir tələdir. O bir yerə getməz. Əgər desələr ki, "o buradan keçirdi, keçərkən onu orada bir bağa apardıq, o zaman bağın qarşısına qədər gedərsiniz, içəriyə girməzsiniz." "İçəridə yatıb" desələr, deyərsiniz, "eşitmədik ki, görək, sonra gələk. Yoxsa boş yerə

vaxt itirmiş olarsınız. “

Vəzir bir nəfərə dedi ki, “min qızılı al, bu eşitdiyin şeyi heç kimə söyləmə!” Kişi min qızılı alar və belə bağırar: “Bilin ki, vəzirin buraxdığı bu yeli mən çıxardım.”

Mənim bir baxışım bütün varlıqları qavrayıb. Hesab edərsən ki, bütün varlıqlar onundur. Necə deyərsən ki, əsl olan mənadır. Əsl surətdir. Tərsinə də olar. Bəzi vaxtlarda məqsəd məna da olar. O xatirəyə ziyan verər, cavaba qadağa qoysaq, Allahın sözü dəyişikdir.

Beyt:

Ey sevgiləri sevgilər qoparan gözəl! Ey varlığı Allahı incidən sevgili!

Bu da eləcə üzü örtülüdür. Necə ki, “Örtmək imandandır” buyuruldu. Bəli, heç bir şəxs yoxdur ki, onunla üzünü qapamadan nəfəs ala bilə- sən.

Sultan Mahmudun daxili aləmi həmişə Ayazla doludur. Ayazın içi də həmişə Sultan Mahmuddur. Hər ikisi bir isimdir ki, iki görünmüşdü. Söz ancaq onların daxili aləmini görə bilməkdir. Dedi ki, görmək, sözü əvəz edər. “Bəli,” dedim, “Mürid, yəni diləyən Odur.” Murad (istənilən) də bu- dur. Murad əsas və xalisdir. Dedi ki, “səninlə bir yerdə olmağın faydası yoxdur, məni rüsvay etdin.” Amma nə batildən qurtardın, nə də zahirdən. Başqa bir mümkün olan şeyi soruşmaq yoxdur. Allah Peyğəmbərinə (s) belə nəsihət verir: “De ki, Allahım, elmimi artır!” Mənim könlüm üçün bu

elmi öyrənmə! Ağıl buraya necə sığar? Burada ağıl kafirdir, ağıllı kafirdir. Filosoflar ağıl hökmündədirlər. Ağıl necə küfr olar?

O köpəklər Şəhabəddinə açıq-aşkar kafir deyirdilər. Şahab necə kafir ola bilər? Əgər bu, bir nurdursa, Günəşin qarşısında (Şəmsin hüzurunda) Şahab kafir olar, örtünər, özünü göstərməz. Amma yanına gələndə də bədrlənmiş Ay kimi olar.

Söylədiklərimi anla! Çatışmayan tərəfini düşünüb qəzəblənirəm. Mənim qəzəbli zamanımda nə üçün tapılmırsan? Qəzəbli vaxtımda nə üçün gəlmirsən? Mən dua əhli, həqiqi dostlara qarşı çox alçaq könül- lüyəm. Amma başqalarına qarşı da çox qürurlu və təkəbbürlü davra- nıram. On dəfə Mövlana Cəlaləddin məni axtarar, mən ona ya bir dəfə iltifat edərəm, ya heç etmərəm. Nə üçün insanlar ayrı-ayrıdırlar? Ayrılıq ikiliyə düşməkdəndir. O ancaq meyxanələrdə olar. O lap aşağı həddə olan eşşəklərdə olar. İnsan övladının eşşəklərlə nə əlaqəsi var? Nəha- yət, arada fərq olmamalıdır ki, o razı olsun. Könlü xoş olsun. Bu iş isə əsla qədərə uyğun olmaz. Onların bütün sözləri Cüneyddən və ya Bə- yaziddəndir. Siz də Cüneyddən və Bəyaziddən danışırsınız. Amma onla- rın söz-

ləri, danışmağı insan qəlbini üşüdür. Bizim sözlərimizdən soyuq görünür. Necə ki, şəkəri yeməyən şəxsə doşabın dadı tamsız gəlməz. Kaş ki, üzümün doşabı dadlı olaydı.

İndi ömrü boyu o mədrəsə müəllimi bu məqamda qalmışdır. O "hovuz, yüz faiz murdar oldu," deyər. Səninlə mənim aramda bir şey qeyb oldu. Gizli sədəqə ona verilər. Elə bir qəzəb lazımdır ki, o biri qəzəbi məğlub eləsin. Bir gün özbaşıma yola çıxmışdım, səhər tezdən sübh namazına qədər yolu azıb getmişdim. Beləcə, üç gün keçmişdi. Bir dağın zirvəsindən soyuq bir bulaq axırdı. O biri tərəfdə bir kənd görünürdü. Artıq ölümü gözə alaraq yuxarıdan aşağı enməyə başladım. Bir dəstə kəndli, "görəsən, heyvandımı, yoxsa başqa bir şeydirmi," deyə mənə tərəf baxmırdılar. Olduqca rahat bir enişdən aşağı yuvarlanmışdım. Kəndə gələndə camaat gəlib ayağıma döşəndi. Mənə heyran olduqlarını nümayiş etdirib, "görən bu pəridirmi, yoxsa Xızırdırmı (ə), necə məxluqdur ki, elə bir yerdən salamat qurtardı," dedilər.

Quranda, "De: "O Allah birdir (heç bir şəriki yoxdur)'' (İxlas surəsi, 1) kimə işarədir? "De: "Mən bir olan Allaham'' desəydi, o dərəcə hərarətli olmazdı.

Bu hala görə, "Nə xoşbəxtəm, şanım nə ucadır'' sözü necə soyuq olar. Bu sözdə heç ikiüzlülük yoxdur. Könlünü hələ təmizləmədinsə, zaman-zaman belə danışmaq yaraşar. Bu Cəlalın hekayəsinə bənzəyər.

Bir gün o, yersiz bir xəyala düşmüşdü: "Rum ölkəsinə gedim, Sultandan bir at istəyim''. Bir az gözlədəndən sonra onun gəldiyini xəbər verirlər. Bir gün deyirdi ki, padşahın axurundan necə atlar gəlib keçdi. Amma hələ biri mənim evimə yetişmədi. Rum ölkəsinə necə gedə bilər? Oranı tanımaz ki, özünə dəyər verməyib, bizi dəyərləndirmək, bizim Allahımızı ucaltmaqdır. Dedi ki, biz öz qullarımızı və qızılquşlarımızı sizin işləriniz üçün bu tələyə saldıq. Sultana aid olan qızılquşun nişanələrini yaxşı tanı.

Üveys Qarani Həzrət Peyğəmbərin (s) hüzuruna yetişə bilmədi. Peyğəmbərin sağlığında sudan, torpaqdan ayrılmadı. Amma aralarında pərdələr qalxmışdı. Onun məşğuliyyəti anasına yardım etmək idi. O işi də yenə Allahın və Peyğəmbərinin işarətinə bağlanaraq görürdü. Ömərlə bəzi dostlarının onun halından xəbərləri var idi. Demişdi ki, əgər məndən sonra gələrsə, onun əlaməti belədir. Məndən ona salam söyləyin, lakin onunla çox danışmayın. Peyğəmbər (s) dünyadan köçdükdən sonra Üveysin anası öldü. Üveys Həzrət Məhəmmədin (s) türbəsini ziyarət elədi. Səhabələrdən bir qismi onun əhvalına dair bəzi suallar soruşdu. O da cavab verdi, məşğuliyyətini söylədi. Bunlar dedilər ki, "ana, ata nə deməkdir?" İnsan Allah peyğəmbərinin qatına yetişməkdə necə olar ki,

qüsur göstərsin? Biz və dostlarımız bütün yaxınlarımızı Həzrət Məhəmmədin (s) sevgisi uğrunda öldürməyi, ağcaqanad öldürməkdən daha asan hesab edərək, Üveys nə qədər peyğəmbəri sağlığında ziyarət edə bilməməyinin səbəbini Həzrət Məhəmmədin (s) işarəti ilə olduğunu, nəfsinin havası ilə olmadığını söylədisə, başa sala bilmədi. Onlar elə Üveysi günahlandırmağa başladılar, sözü uzatdılar. Üveys axırda üzünü onlara tutub, dedi: "Siz nə vaxtdan Həzrət Mustafa (s) ilə oturub-durur- sunuz?" Hər biri ayrı-ayrı "bu qədər ildən bəridir" deyə cavab verdi: "o günlərin hər biri min ildən daha qiymətlidir." Bunu necə hesablayaq.

Şeir:

Özünü bir an üçün dilbər ilə baş-başa bulursan,
Bir ömür boyu qismətini ancaq o an içində alırsan! O dəqiqəni qəti əldən çıxarmamağa çalış!
Çünki belə bir anı bir daha lap az taparsan.
Üveys dedi ki, "indi sizdən soruşuram, Həzrət Mustafanın (s) əlaməti nə idi?" Bir neçəsi "boyu belə idi, üz-gözü belə idi," deyə izah etməyə başladılar.

Üveys, "onları soruşmuram," dedi. "Belə alçaq könüllü, comərd, gecə-gündüz ibadət edərdi," dedilər. Quranın "Gecə - az bir hissəsi is- tisna olmaqla, - qalxıb namaz qıl! (əl-Muzzəmmil surəsi, 2)" hökmünə görə namaz qılardı," dedilər. "Bunları da soruşmuram" dedi. Bəziləri də, "elmi belə, möcüzəsi belə idi," dedi. "Bunları da soruşmuram," dedi Qarani.
Əgər səhabələrin böyükləri orada olsaydı, o əsla bu sualları soruşmayacaqdı. Çünki onlar da onun əlamətini görürdülər. Bu əlaməti eşitmək, gözlə görmək kimi deyil.

Şeir:

Üzümü zamanın altun kimi görüb soruşma!
Bu göz yaşını nar dənələri kimi görüb, soruşma! Evin içində nələr olduğunu məndən soruşma, Dərgahın qapısında qan görüb, səbəbin araşdırma!
Səhabələr bu sualların cavabını verməkdə aciz qalıb, "biz bu əla-

mətlərdən başqasını bilmirik, indi sən söylə," dedilər.

Üveys cavab vermək üçün ağzını açan kimi, on yeddi nəfər üzü üstə yıxıldı. Bayılıb özlərindən getdilər. O birilərini də ağlamaq tutdu. Bir söz de- məyə imkanları qalmadı. Əslində, heç kimdə dinləyəcək hal qalmamışdı.

Bir neçə sufi mənə Ərzincan yolunda yoldaş olmuşdu. Bunlar məni özlərinə başçı seçdilər. "Sənin buyruğun olmadıqca, nə bir evdə qonaq qalacağıq, nə də səndən iznsiz süfrə açacağıq," - dedilər. "Hətta sənin əmrin olmadıqca, bir-birimizdən incisək belə, heç bir şey deməyəcəyik." Bir neçə gün keçmişdi. Yeməyə bir şey tapa bilmədilər. Qarpız mövsümü idi. Uzaqdakı bostandan bir kişi əli ilə işarə edərək çağırırdı. Allaha and verərək, "dərvişlər buraya gəlsinlər,"- deyirdi. "Bunlara tələsməyin," - dedim. "Biz acıq,"- dedilər. "Sən də acsansa, gecikmə!" Kəramət inkar olunmaz. Onlara dedim ki, "bostan qaçmır, o indi əlimizdədir." Necə ki, sufinin biri üzünü çörəyə tuturaq, "əgər səndən daha yaxşısını tapsam, əlimdən qurtararsan, tapa bilməsəm, əlimdəsən," demişdi.

Əlimi qulağıma yaxınlaşdıraraq, guya "pis eşidirəm," - deyə işarə elədim. O kişi bir az da yaxınlaşdı və israr elədi. Kişiyə dedim ki, "bir şərtlə gə- lərik. Sən nə yeyirsən, dərvişlərə də ondan verəcəksən." Ayaqlarıma dö- şəndi. Çünki o bunu yuxusunda görmüş və vaxtını gözləyirmiş. Dərvişlər üçün qarpız toplamışdı. Ona dedim ki, "qəti surətdə sən yaxşısını yeyib, pislərini dərvişlərə verməyəsən." Bir nərə çəkib yerə yıxıldı. Dərvişləri üç gün qonaq saxladı. Qoçlar kəsdi. "Onun qisməti budur," - dedim.

Ərzincana yetişəndə dostlardan ayrı düşdüm. Məni bu yerdə tanımadıqları üçün günlərimiz xoş keçirdi. Oyunlar çıxarır, zarafatlaşırdıq. Məni tanıdıqdan sonra ətrafıma yığışdılar, toy-bayram etdilər.

Üç gün iş axtarmağa getdim. Məni heç kim çağırmadı. Çünki lap arıqlamışdım. Hər kəsi götürdülər. Mən orada oturub-qalmışdım.

Yolda böyük bir adamın gözü mənə sataşdı. Qulluqçusunu göndə- rərək burada nə üçün gözlədiyimi soruşdu. "Sən yolun darğasısanmı," dedim, "əgər şəhəri və yolu satın almısansa, mənə xəbər ver."

Kişi mənə mehribanlıq göstərdi, məni evinə apardı. Gözəl bir yer göstərdi, yemək gətirdi, qarşımda bardaş qurub ədəblə oturdu. Yemək yedikdən sonra, mənə "bu şəhərdə nə qədər qalsan, hər gün gəl qarnını doyur," dedi. Bax onun bu sözü o evə getməyimə əngəl oldu. Bir gün məni gördü və dedi ki, "məni bu çətin vəziyyətdən qurtar!" Dostluq heç zaman birtərəfli olmaz. "Könüldən könülə pəncərə var," deyərlər. Mən öz qəlbimin yandığını bilirəm. Məni nə üçün belə pərdə arxasında qoyub tərk edirsən? "Heç demirsən ki, bu, necədir?" "Bəli," dedim. Mənim bir

adətim var, hər kimi sevsəm, əvvəlcə ona çox kəskin davranaram, o vaxta qədər ki, hər şeyimlə ona bağlanım. Çünki yaxşılıq elə bir şeydir ki, beş yaşında bir uşağa qarşı bunu eləsən, o sənin övladın olar. Ancaq igid odur ki, mürşidinin necə səbrli olduğunu görər və onunla başına gələcək hər bəlaya qatlanar. Sonradan üz verəcək var-dövləti gözləyir. Onun haraya yetişəcəyini düşünüb, üzünü o tərəfə çevirər. Qəhrəman olar, ölümdən qorxmaz, nəticədə heç ölməz də. Bəlkə ölümsüzlükdə ölümsüzlüyə, bəlkə min ölümsüzlüyə yetişər.

Orada birini gördüm, barmağını qaldırdı. "Min dəfə də müsəlman olsan," dedim, "yenə səndə o küfrdən bir şey artıq qalar." Yoxsa nə üçün o fərsiz baxışlarınla həmişə mənə baxırsan? Orada bir şeyx vardı. Mənə öyüd verməyə başladı. Xalq ilə onların səviyyəsinə görə danış! Sonra onların zövqlərinə, dostluqlarına görə nazlan! Çünki mənə öyüd verdin, səndə verəcəyim cavabı qavrayacaq beyin görmürəm.

Bir icma ruh aləmində başqa bir zövq tapdı. Aşağı endilər, məskunlaşdılar, ilahi aləmdən söz açdılar. Amma eynilə o ruh aləmini ilahi aləm hesab edənlər də var. Bunlara ilahi bir ilham, yaxud könülləri cəlb edəcək bir hal gələr, ya da onun əlindən tutaraq ilahi aləmə çəkən bir adam var ki, ona bağlanarlar. Burada hərçənd başqa bir incəlik var. "Bu aləmə nə üçün endik," deyə soruşa bilərsiniz. Həllac Mənsura hələ ruh tamamilə üzünü göstərməmişdi. Yoxsa necə olar ki, "Ənəlhəqq" deyə bilərdi? Haqq haradadır, mən harada? Bu "mən" nədir? Bu nə sözdür? Əgər ruh

aləminə dalmış olsaydı, orada söz necə yer tapardı. "Əlif" haraya sığar, "Nun" haraya sığardı?

Biri, "Allah birdir," dedi. O biri, "sənə nə," dedi. Çünki sən ayırılıq aləmindənsən, yüz minlərlə zərrədən ibarətsən. Hər zərrədə dağınıq, qarmaqarışıq, donuq aləmlər var. Bunlarda Onun başlanğıcı olmayan varlığı gizlidir. Sənə nə var bundan? Çünki sən yoxsan.

"Yoxsulluq mənim qürurumdur" deyən uca bir insandır, aləmə sığmaz. Yoxsulluq nədir ki, onunla öyünsün. Bəli, o Haqq işığının önündə yoxsuldur, çarəsizdir. Onun köksü Haqq işığı önündə zəifdir. Həmişə yanar və deyər, "kaş ki, yüz köksüm də olaydı, hər gün bu nur içində yanıb- tutuşaydı, təkrar təzələnəydi." Yanıb-yaxılmağın rahatlığını ancaq o bilər. Zövqünü ancaq o çəkər.

Allah-təala "Əgər Biz bu Quranı bir dağa nazil etsəydik, sən onu Allahın qorxusundan əyilib parça-parça olduğunu görərdin," (əl-Həşr surəsi,

21) Onu dağın üzərinə belə qoysalar, daşımağa gücü yetməzdi.

O nur əks olunur. Dərvişin azuqəsi yoxsulluqdur. Yoxsulluq da Al-

lah yolunda dərvişlikdir. Dərvişliyin xirqə ilə nə əlaqəsi var ki, hər il doqquz yüz min axça dərviş hücrələrində yatanlar üçün xərclənir. Hər gün on erkək kəsilir. Hələ havayıdan gələn gəlirlərin sayı-hesabı yoxdur.

Həzrət Məhəmməd (s) "Mənim Allah ilə elə bir anım olur ki, aramıza nə bir məxluq, nə də ən yaxın bir mələk girə bilməz," buyurur. Allahına yetişir.

Bu şeyxlərdən soruşdum: "Mənim Allah ilə elə bir anım olur ki," sözü ilə işarə edilən hal davamlı olurmu? Bu axmaq şeyxlər, "xeyr," dedilər. Davamlı olmaz. Dedim ki, "bir dərviş Həzrət Peyğəmbərə (s) dua edirdi və deyirdi ki, Allah sənə daim topluluq versin." Həzrət Peyğəmbər (s) buyurdu ki, "bu duanı mənə etmə!" Mən dua edərkən, "Allahım, topluluğu ondan qaldır, Allahı, ona dağınıqlıq ver," deyə yalvar! Mən topluluq içində aciz qaldım. Allah-təala "Yoxsa sizi əbəs yerə yaratdığımızı və hüzurumuza qaytarılmayacağınızı güman edirdiniz?" (əl-Muminun surəsi,

115) buyurur. Deyirlər, bəzi fənalıq var ki, nəticəsi yaxşılıqdır. Yəni mən yüz ordunu yağmaladım, üzümü sənə çevirdim, sən başqa bir yerdə məşğulsan. Sənə sayğı göstərirlər, mənə göstərmirlər. Mən üzümü daim sənə çevirmişəm. Mənim bütün varlığım sənin bütün varlığınla oldu. Onnu qarşılığı olaraq mənim varlığımda sənin varlığın yaşayır.

Biri qapının önündə içəri girmək üçün həmişə ağlayıb-sızlayar. "Girə bilməzsən, sənə izn yoxdur," deyərlər. O biri də bir saat bayıra çıxmaq üçün sızlayar, "xeyr," deyərlər. Bu necə olar?

İndi hər kəs öz halını başa salar. "Allah kəlamının mənasını söyləyirik," deyərlər. Hələ bir hədisdə, "Allah ruhları tənlərdən əvvəl yaratdı," buyurulmuşdur. Bu necə olar? Yüz minlərlə ili göz önünə gətirər ki, yaradılan varlıqlardan bir-bir pərdədir. Hadisə, yəni sonradan meydana gələnə, əlbəttə, dəstəmaz almaq lazımlı olar. Dəstəmazı pozan şeylərdən arınmalıdır ki, namaza və Allah mərtəbəsinə yol tapsın. Bilmirəm ki, sonradan yaradılan bir şey Allahın sözünü necə qavraya bilər? Ancaq lazımdır ki, gizli-gizli Haqq yolunda yürüsün, ruhu yox olana qədər, müvəqqəti varlığı qalmayana qədər bu yolda irəliləsin. Necə ki, o hikmət əzəli olan zat, donuq və çatışmayan olmaqla bərabər belə demişdir: Məhəmməd (s) hərçənd orada idi, varlıqdan hər nə varsa, həmişə orada idi. Haqdan başqa hər şey orada idi. Amma yoxluğa və fanilik ölkəsinə getdi. Bəli, hər şey yox olar. Deyilə bilər ki, "o gələr, salam olsun sənə, səni yalnız tapdım," deyər.

Hər kəs bir şeylə başını qatar. O üzdən razı və məmnudur. Kimi ruh ilə maraqlanar, öz ruhu ilə məşğul olar. Başqaları isə ağlı, nəfsi ilə alış-verişdədir. Səni kimsəsiz bilirik, bütün dostlar öz sevdalarının ardınca düşüb gedib, səni tək buraxıblar. Mən dostları olmayan bir dostam. On-

lar arasında gedənlərdən bu məqam məşhur oldu: “...Bəndəsinə (Məhəmmədə) vəhy etdiyini bildirdi” (ən-Nəcm surəsi, 10). Nəcm surəsinin əvvəlindən bu onuncu ayəyə qədər zahirə çıxdı, hər nə qədər zahirə çıxmasa belə.

Bir nəfər, “nə üçün vəhy etdi, deyir,” deyə soruşdu. Dedi ki, “nə dedisə, dedi.” Ruhu gələr, soruşar ki, o sənə söylədikləri nə idi. Həzrət Peyğəmbər (s) ona, “nə danışdıqsa, danışdıq,” deyər. Ağıl da beləcə gəlib soruşar, o da eyni cavabı alar. İndi onun alnında bir sətir yazı yazılmışdır.

Biri, “malımı qarət etdilər,” deyə şikayət edirdi. Dedim ki, “bu, baqqala şagirdlik edən hindli kölənin əhvalatına bənzəyər”. Baqqal hər müştərinin kasasından bal, yaxud yağ oğurlayar, müştəri getdikdən sonra da şagirdindən gizləyərmiş. Şagirdi qəlbində qəzəblənər, lakin bir şey deməzmiş. Bir gün böyük bir tulumun ağzı açıq qalmışdı. İçindəki bal da yerə tökülmüşdü. Bunu fürsət bilən hindli kölə, “bəli,” dedi, “qram-qram topladın, indi tulum-tulum boşalt! Özgəyə quyu qazan bir gün özü düşər. Yamanlıq eləmə, yamanlıq görərsən!”

Biri dedi ki, “filankəsin cənazə namazına gedək.” O sırada sufinin ondan çəkinən yeri yoxdur. Onu Allah mühakimə eləsin, dedin. Həqiqətdə cənazə namazı onu Allahın bağışlaması deməkdir. Əsl budur. O əsl kökü

bilməyib budaqlarla məşğul olanlar, əlbəttə, tərsinə və yanlış söyləyərlər. Yenə bir hekayə var: “Biri balıqdan danışar. Onun böyüklüyünü, iriliyni izah edirmiş. Başqa biri, “sus,” deyib, “sən balığın necə olduğunu hardan bilirsən?” O biri, “mən bilmirəmmi, bu qədər dəniz səyahətlərində oldum,” deyib. “Yaxşı, o halda, balığın əlamətlərini söylə, necədir?” Gopçu o saat yalana başlayır: “Dəvə kimi iki ayağı var.” Kişi baxıb ona gülür: “Mən sənin ancaq balığı tanımadığını sanırdım, heç demə, sən dəvəni də ta- nımırmışsan!”

Təbiət əhli deyil, könül əhli olmaq lazımdır. Könül axtar, təbiətə baxma! Könlün yeri hardadır? Könül gizlənmişdir.

O, Allah adamıdır. Qısqanclıqdan ona könül əhli deyərlər. Bir ara Haqqın parlaq işığı könlündə əks olunarsa, qəlbin sevincidir. O işıq bir anda qeyb olar, ancaq könül könül olmaq üçün çox vaxt belə olar. Yanar, çox zaman könül qırılar, aradan qalxar, Allah qalar.

Davud Peyğəmbər (ə) də bu məqama işarə elədi. Davud (ə) Allahdan soruşdu: “Səni harada axtarım?” Buyurdu ki, “Məni göylərim və yerlərim əhatə edə bilməz, amma bir mömin qulumun qəlbinə sığaram,” Bir də, “Mən, Mənim yolumda qəlbləri qırılmış olanlarla bərabərəm,” buyurmuşdur. Qəlbləri qırılanlara könül sahibi deyirsən. Çünki ona könül

qırıqlığı gərəkdir. Haqqa yetişəndə Haqqın nurundan onun ucalığının nurunu görərsən. "Onları (Övliyaları) Məndən başqası tanımaz," buyurulmuşdur.

Bir dərviş dedi ki, "mənə əksi lazımdır." Hər peyğəmbərin bir möcüzəsi var. Həqiqi Allah qulu olan Yusuf Peyğəmbərə (ə) yuxu yozmaq qabiliyyəti verilmişdi. Amma Məhəmməd (s) ümməti üçün lazımdır ki, sözləri təfsir etmək elmi kifayət qədər olsun. "Özünü mənə göstər" istəyi, bilindi ki, Məhəmməd (s) ümmətinə yaraşan bir istəkdir. Buna görə Musa (ə) "Ya Rəbbim, məni Məhəmməd ümmətindən qıl!" deyə yalvarır. "Özünü mənə göstər," sözündən də yenə, "məni Məhəmməd ümmətindən qıl," deyə yalvardığı anlaşılır. Çünki Musa (ə) gördü ki, bir insanın parlaq işığı dağın üzərinə enəndə dağ kiçildi. Mənim işim deyil, "Məni Məhəmməd ümmətindən qıl," deyə yenidən yalvardı. Ona, bir neçə gün "get Xızırla (ə) görüş," deyildi. Xızır (ə) da "Ya Rəbb, məni Məhəmməd ümmətindən qıl," deyə yalvarırdı. Musa (ə) ilə Xızırı (ə) əhatə edən başqa bir nur da var. İsaya (ə) baxarsan, o nurun içində özünü itirmiş taparsan.

Məhəmməd (s) elə bir nurdur ki, bütün nurların ən parlağı, ən üstünü- dür. Gör ki, o çilədə və o zikr aləmində heç Məhəmmədə (s) bağlanmaq haqqında bir işarə varmı? Bəli, Musaya (ə) "qırx gecə" deyə bir işarə

verildi. Məhəmmədə (s) bağlanmaq cəhəti harada qaldı ki, Musa (s) onu

diləməmiş olsun! Bəlkə, "Ya Rəbb, məni onun atının tərkinə yapışanlar- dan eylə!" deyə yalvarar.

Mövlananın öyüd məclisində bir ara gözəl bir şey oldu. Mənsurun vəz məclisində o qədər kəramət ilə birlikdə qəzəb yer tapa bilməzdi. Necə ki, bir gün o Mənsur deyər ki, əgər quru bir ağaca, "yeri," desə, onu yeridər. Bu zaman taxta minbər yerindən tərpənir və iki yerə bölünür. Mənsur deyir, "ey minbər, mən sənə demirəm, sən yerində dur!"

Öyüd məclisləri onları xatırlamaqla qızışar, şirinləşər. Amma onların hallarından xəbərləri olduğu üçün deyil, ancaq adları çəkildiyi üçün məclis qızışıb-coşar. Mən onlara belə deyirəm: "Elm Haqq tərəfindən verilər, öz-özünə gəlməz."

Bir nəfər şəkər kimi şirin bir iş görmüşdü. Göydən şəkər yağırmış… Oradakı insafa bax ki, necə düşünüb. Bütün bu üstün keyfiyyətləri ilə birlikdə şeyxin yanında piyada gəzirdi. Müxtəif fənlər üzrə yetişdirdiyi

yüzlərlə tələbəsi, seçilmiş bir icma onu qınamaqda idi. Onlara dedi ki, "məxluqatı yaradan Allaha and olsun, siz əgər onu dərk edə bilsəydiniz, atının yüyənini mənim əlimdən qapardınız. Bir-birinizin məqam və mənsəblərini qapmaq üçün necə qısqanclıq göstərirsinizsə, onu da mənə beləcə qısqanardanız." Pak iman ilə mürşidini evə gətirənə qədər atının başını çəkdi. Yolda neçə dəfə ona ürəkdən inanmış, həm də inkar etmişdir. Çünki şeyx belə "lap gənc olan uşağa qarşı nədən bu qədər könül açıqlığı ilə iltifat göstərsin," deyə şübhələnirdi. Sonra yenə öz- özünə, "ona nə ziyan gələr ki, padzəhr* ocağıdır," deyir. Fəth surəsində buyurduğu kimi, "Allah ...əvvəlki və sonrakı günahlarını bağışlayacaq" (əl-Fəth surəsi, 2) kimsələrdən zərər gəlməz. "Hələ Allah onların günahlarını yaxşılığa çevirərsə," mənasında olan ayə ilə müjdələnmiş olanlar nə xoşbəxtdirlər.

Beyt:
Dağ ilanlarla dolu olsa da qorxma! Çünki orada tiryək daşları var.
Şeyx ona nəvazişlə baxan kimi içində parlaq düşüncələr göründü. Sonra yenə kölgəyə daldı, qaranlıq xəyallar baş qaldırdı.
Deyək ki, onların dayanacağı oradır. Sanki xalqı yoldan çıxarmaq,
şübhə və düşüncələrə sürükləmək bir kişi işidirmi?

Şeyx onu görən kimi salam verdi, soruşdu ki, "bizi yad etmək baxımından nə düşünürsən?" Yenə unudursanmı? Səni təsdiq və inkar etməkdən necə xilas olum, deyə şübhələnirsənmi? Allah gecəni və gündüzü dəyişdirər.

Neçə dəfə gündüzün işığı qaranlığın dənizində boğular, neçə dəfə də qaranlığın dəryası nurun alovunda yanar. Qurani-Kərimdə, "İnsanlar (möminlər) yalnız: "İman gətirdik!" demələri ilə onlardan əl çəkilib imtahan olunmayacaqlarını sanırlar?" (əl-Ənkəbut surəsi, 2) buyurulmuşdur. Aləmdə nə var ki, bir imtahandan keçmədən qəbul olunar, yaxud imtahansız geri qayıdar? Amma Allah istəyərsə, sonunda iş düzələr, doğru yolu tutarsan, o zaman kim olduğunu da anlayarsan! Övliya övliya olduğunu bilməzmi? İstər kamil insan olsun, istər hələ təkamül yolunda olsun, insan Aksaraya yetişəndə, necə olar ki, varlığını bilməsin?

Xocəndi deyir ki, ailəmin düşdüyü dərdləri görəndə öz dərdim yadımdan çıxdı. Şamlı Şahab Hərivə məşhur bir nəsildən idi. Dedi ki, "məncə, bilirsiniz, nəyə bənzəyir? Artıq bir insanın belinə ağır bir yük qoyarlar, onu zorla palçığa sürükləyər, yaxud uca bir dağa tərəf qalxmağa məcbur edərlər. Min bir çətinlik içində dırmaşmağa çalışarkən, bir nəfər gəlib çiynindəki çuvalın ipini kəsər, yerə atar şələni. Bax o adam birdən- birə

necə yüngülləşər, necə yükdən azad olar və canı rahatlanarsa, ölüm də insanı eləcə rahatlığa qovuşdurar."

İndi onun halı eyninlə o şəxsin halına bənzəyər ki, ulu bir ocağın kölələri olduqlarına inanarlarsa, bir gün əcəl gələndə ocağın sahiblərinin yasını saxlayarlar. Allah qulu olan o ailənin işığının içində onları alçaldar və qısqanclıq gözüylə baxarlar.

Nə üçün Allaha yalvarmırsan? Gecə yarısı qalx, ikililik aləmindən keç, üzünü yerə qoy, gözündən iki damla yaş axıt. Allahım, peyğəmbərləri, övliyaları sən istəməsəydin, hamısı qapı cəftəsi kimi bayırda qalardı. İndi mənə filan kəramətli insanı göstərdin, gözümü onunla aydınlat. Həzrət Peyğəmbər (s), "Məni görənlər xoşbəxtdirlər, çünki məni görənləri mən də görürəm" buyurmadımı?

Həzrət Peyğəmbər (s) əvvəllər xalqdan çox ehtiyat edər, ən çox Haqq ilə dostluq eləyərdi. Yaxşıdan-pisdən çəkinərdi. "Birdən xalqın ona olan ifrat sevgisi bir an və ya bir saat üçün pərdə olar," deyə düşünərdi. Tam kamillik dövrünə yetişəndə, ona qarşı səksən min aləmin sayğısı və sevgisi ilə iki nəfərin sevgisinin fərqi olmadı. Buyurdu ki, "məni xalqa satın." Yəni, ey dostlarım, məni xalqa satın ki, özüm özümə satışa gəlmərəm. Həzrət Mustafa (s) belə buyurubsa, nə ziyanı var. Bax gör,

Haqq nə deyir? "Məni yüz dəfə satın" deyə səslənmirmi? Bir səhih hədisdə "Qullarımın könüllərində Mənim nemətlərimi və verdiklərimi xatırlamaqları xoşuma gələr. Çünki könüllər onlara nemət bağışlayanın sevgisini daşıyar. Onlara yamanlıq edənlərə qarşı kin bəsləyərlər," buyurulmuşdur. Əmr edən nəfs, "özünü sat," deyər. O, qızıl-gümüş ardınca düşüb. Mən pul dalınca düşməmişəm, mən o işin dalınca düşmüşəm ki, eşşək körpüdən keçsin. Onlar böyük kişilər olublar - şeyx olublar, mən onlara nə edim? Yalvarımmı?

Ac qalmış, susamış birini axtarıram. Pak və təmiz su fitrətində yaxşılıq və comərdliyi ilə susamış insan axtarar. Nəfs qadın təbiətlidir. "Onlarla danışın, amma düşüncələrinin ziddinə hərəkət edin," buyurulmuşdur. Ey Allah elçisi! "Onlarla danışın," buyurursan. Hələ cəmiyyətin mənfəəti və sevinci olan bir işdə nə eləyək?

Əgər kişisənsə, gəl gedib, onlarla danışıq aparaq. Orada qadınlar da var, necə edək? Buyurur ki, "onlarla danışın, amma nə desələr əksinə hərəkət edin." Bir söz danışırdı, "xoş sözdür," dedim. Amma Allah kəlamı deyil. Gözəl sözdür, amma Allah gözəllərindən deyil. Bizi hər kim bir müsəlmanla bir yerdə görərsə, müsəlman olar. Bir zındıqla görən də, zındıq olar. Həm də elə zındıq olar ki, Mazandaran zındıqlarını ona kölə və xidmətçi etmək yaraşar. Elə bir insan əgər bir vərəq oxuyarsa, zındıq

olar. Əgər hər iki vərəqi oxuyarsa, müsəlman olar. Həm də elə bir həqiqi dost olar ki, deyilməsi mümkün deyil.

Mənə yüz min dirhəm xərcləsən, yenə sözümə sayğı göstərmək qədər dəyəri olmaz. Əgər özünə hörmətin varsa, gəl. Sayğısızlıq edəcəksənsə, get. Artıq sayğısızlıqdan vaz keç. "Əgər bizə hörmətin varsa, bizdən eşitdiyin şeyləri bizim icazəmiz olmadan nə üçün söyləyirsən," deyə soruşdum.

Dedi ki, "sənin küpən nə qədər sızsa belə, suyu təmiz saxlayar." Bunu da dedi: "Mən bu yolda çox daban döymüşəm. Bir kişini bir çox yerlərdə gəzdirsələr də, iyirmi fərsəx meydan içində, şəhərin yaxınlığında belə dolaşdırsalar da, şəhərin içinə girməyə qoymasalar, təzədən gəzdirsələr nə çıxar," dedim. Mən Haqqı axtarmaq yolunda bir çox böyük-kiçiklərlə oturub- durdum. "Ya rahatlıq dalınca düşmüşdün, ya da söz toplamaq sevdasında idin," dedim.

Özümü bir bağda gördüm. Özümdən keçmiş bir vəziyyətdə idim. Mənə bir atəş gəldi, yüksək bir səs eşitdim. Yenidən qışqıraraq özümə gəldim. Başmaqlarımı geymək istədim, gözümə başqa bir şey göründü, yenə özümdən getdim. Bütün evlərin üstündə gəzirdim, göydən bir qapı açıldı. Yerdən göyə qədər uzanan dirəklər gördüm. Anladım ki, o dirəklər mömin qulların ibadətləridir. Sonra Mövlananı bir minbərin üstündə gördüm. Yanına

havadan iki nəfər gəldi. Qıvrım saçları, nur saçan iri gözləri vardı. Əllərində üst-üstə yığılmış, içərisi ləl-cəvahirətlə dolu sinilər gətirdilər. Mövlananın qarşısına qoydular. Bir saxsı küpə vardı, yerə çırpsan da sınmaz. Burda heyrət ediləsi bir şey də yoxdur. Bu qabları qayalara çırpsan belə qırılmazdı! Amma narın qumun üstünə düşüb qırıldı. Heyrət etdim. Əgər onlara "bir ölü üçün verin," desən, məzardan məzara qaçarlar. "Dirilər üçün verin" desən, tiyandan tiyana gizlənərlər.

Məndən soruşdular: "Yol kəsənlərdən soyub gətirdikləri mal halaldır- mı? Mənim üçün halal olan bir mal ilə bu mal arasında nə fərq var? Quruda və suda yaşayan qurbağa deyil ki, diksinəm. Saxsı qab deyil ki, murdar olar, yaxud qırılar deyə qorxam. Bax bu ərköyünlüyü eləmək başqalarına yaraşmaz. Deyək ki, bir qızılquş gəldi, bir qala divarının üzərinə qondu. Birisi ona atmaq üçün əlinə bir daş aldı, lakin quş da uçub getdi. Amma o divarın üstündə bir eşşək olsaydı, mən bir daş götürüb onu oradan qovmaq üçün atardım. Ya boynu sınar, ya da palçığa yıxılardı. Bir də o insana bax ki, iman nuru üzündən axır, ikiüzlülük əsla ona yaraşmaz. O nur elə bir nurdur ki, heç bir sınaq ilə qaralmamış, sönməmişdir. O biri nurlarla bu nur arasındakı fərq budur: O nur bir təcrübə ilə qaralıb-sönər, bu sönməz.

Mənə dost görünən bir nəfər vardı. Müridlik davasında idi. Bir gün gəldi, "mənim bir canım var, bilmirəm, sənin qəlbində yaşayırmı," dedi. Mən də onu sınamaq üçün belə dedim: "sənin pulun var, mənə gözəl bir qadın tap. Üç yüz istəsə, sən dörd yüz ver." Adam yerində dondu. Ona bir həqiqət açıldı. Özünə lap yaxın sandığı adamın nə qədər uzaq olduğunu anladı.

Müəllimlik edirdim. Bir uşaq gətirdilər yanıma. Gözləri dəyirman xoruzu kimi qaynayırdı. Salam verdi. "Müəzzinlik edirəm, gözəl səsim var," dedi. Ata-anası ilə danışıb razılaşdırdım ki, bir gün qolu sınmış yanlarına qayıtsa, inciməsinlər məndən. Dərsə başladıq. Uşaq əvvəlcə şagirdlərdən birini çağırıb, zarafat eləmək istədi. Bir şey çıxmadı. Heç kimin onunla maraqlanmaq istəmədiyini görüb, "bunlar nə əcəb insandırlar," deyib mı- zıldanmağa başladı. Xəlvətcə birinin saçından çəkər, o birinə bir çimdik atar, uşaqlar da onun oturduğu yerə yaxın oturmaq istəməzdilər. İş belə vəziyyətə çatana qədər özümü xəbərsiz kimi göstərərdim. Arada, "nə olub," deyirdim, "niyə səs salmısınız?"

Bir az keçdi. Əvvəlcə onun üstünə qışqırdım, ürəyi düşdü. Bir azdan sonra yerindən sıçradı. "Artıq mən gedim," deyə bir gün icazə aldı. İkinci gün yenə gəldi. Ondan dərsini oxuyub-oxumadığını soruşdum. Kitabı

qabağına qoyub oxutdurdum. Gördüm kitabın vərəqi cırılıb. Qulağının dibindən bir şillə çəkdim. Yerə yıxıldı. İkinci gün şilləni vurandan sonra saçlarını da yolmağa başladım. Əllərini qanatdım, ayaqlarını falaqqaya saldım. Aramızda Xoca Rəis deyilən bir nəfər vardı. Gizlicə onu çağırdım. Uşağa kömək etməsini bildirdim ona. Uşaq Xoca Rəisin ona kömək etməsinə heyrət edirdi. Çünki onun üstünə qışqırıb, nə üçün gəldiyini soruşdum. O da, "heç, sizi görməyə gəldim," deyə cavab verdi. O danışıdıqca uşaq gizlicə udqunur, ona işarə edirdi ki, kömək eləsin. Xoca Rəis, "mən burdayam, qorxma," deyə giclicə işarə edir, o da, "mənə kömək elə," deyə yalvarırdı. Bir az sonra ayaqlarını açmaq üçün icazə istədi. Mən susurdum. Nəhayət, uşağın ayağını açdılar, bir hambalın belində evinə apardılar. Sabahısı sübh namazında idim. Anası-atası gəldi. "Ayağın düşüb, sənin xəcalətindən necə çıxacağıq," deyə dua edirdilər. Bir həftədən sonra oğlan yanımıza gəldi. Aralıda bir yerdə oturdu. Gizlicə qorxaq baxışlarla ətrafı süzürdü. Onu çağırdım, "yerində otur," dedim. Bu dəfə tərbiyəli bir şəkildə kitabını açdı, dərsini oxumağa başladı. Hər kəsdən daha tərbiyəli olmuşdu artıq. Bir neçə gün sonra yenə yadından çıxdı. Bayırda aşıq-aşıq oynadığını dedilər. İçəridə uşaqları döymək üçün deyil, amma qorxutmaq üçün bir çomaq vardı. Çomağı əlimə aldım. Arxası mənə tərəf aşığını atırdı. Qabağa gəlib salam verdim. Qorxudan yerə yıxıldı, əlləri titrədi. "Qalx," deyirdim, "qalx gedək."

Gəldi, kitabının yanına apardım. Sonra çomağı suya qoydum. Onun ayağını falaqqaya saldırdım. Döyməyə başladım. Əllərim şişmişdi. Evlərinə apardılar. Bu dəfə bir ay dərsə gələ bilmədi. Bir aydan sonra bayıra çıxdı. Anası hara getdiyini soruşdu. "Müəllimin yanına gedirəm," dedi. Anası, "amma necə gedəcəksən," deyəndə, "o mənim müəllimimdir, onun yerini kim verər? Mən ölənə qədər ondan ayrılmaram. Mənim nə olacağımı, hansı dar ağacında öləcəyimi Allah bilirdi. O məni yola gətirdi. "Məni məktəbə aparın," deyə ata-anasına yalvarırdı. Ata-anası və qonşuları onun bu halına görə dua edirdilər. Qısa bir vaxt ərzində Quranı öyrətdim, gözəl bir avazla azan oxuyardı. Bundan sonra daha gəlmədi. Artıq işini tapmışdı."

Allahın pərdə arxasında gizlədiyi qullar var. Onlarla sirlərdən danışar, gizli hikmətlər öyrədər.

Şeyx Əvhadüddin Kirmani məni Səma məclisinə apardı. Çox iltifat göstərdi. Sonra məni öz hücrəsinə dəvət etdi. "Bir gün," dedi, "nə olar, bi- zimlə qal!" Dedim ki, "bu, bir şərtlə olar. Açıq-aşkar bir yerdə oturarıq, sən müridlərinin gözü qabağında içki isərsən, amma mən içmərəm, mən bu işə qarışmaram." "Sən nə üçün içməzsən," dedi. Dedim ki, "sən bəxtiyar

bir fasiq olarsan, mən isə bəxtsiz bir günahkar." "Bunu eləyə bilmərəm," dedi. Bundan sonra bircə söz dedim. Üç dəfə əlini başına apardı, "Allah," dedi.

Kəlam alimi Əsədüddin bir gün, "Siz harda olsanız, O sizinlədir," (əl-Hədid surəsi, 4) anlamındakı Allah kəlamını təfsir edirdi. Elminin və fəzilətinin artıq olmasına baxmayaraq, camaatın qarşısında ondan bir şey soruşdum, məndən incidi. Bir gün yenidən soruşdum: "O sizinlədir," deyirsən. "Allah sizinlədir," demək necə olur?

Mənə bu cavabı verdi: Sənin bu sualı verməkdə məqsədin nədir? Allah mülayimlik və mərhəmət tərəfində ikən, sərtlik yönündə də elədir. Uçuruma gedirsən, diqqət et.

"Bu sualda məqsədin nədir," demək münasib deyil. Bunun mənası nədir, sən qulaq as! Bir şübhəyə salmısan özünü, özünə zəhmət verməyə alışmısan Allah kəlamına bu mənanı necə verirsən. "O sizinlə bərabərdir," amma Allah qul ilə necə bərabər olar? "Bəli," dedi, Allah qul ilə elm ba- xımından bərabərdir. Dedim ki, elm zatdan ayrı deyil, hətta heç bir sifət zatdan ayrı ola bilməz. "Yenə köhnə bayatı çağırırsan," dedi. Bayatı niyə olur bu söz? Bəlkə təzəliyindən ölür. Xalq, "kəlam alimi budur," deyir.

Bir şey başqa bir şeyin səbəbi olub və onu meydana gətirmişdir, ondan məhrumdur. Bu, kişiliyi olmayan cavanla dərzinin nağılına bənzə-

yir. Nə xalqın, nə də yaxınlarının bu vəziyyətdən xəbərləri yoxdur. Onun saqqalı, bığı ilə öyünürdülər.

Beyt:
Ərliyi saqqal və bığının yalançı şahididir. Onu ana tükü ilə bəzəmək daha yaxşı olar.

Yuxarıda sözü gedən cavan minlərcə gənc qızın arasından seçdiyi gözəl bir dilbərlə evləndi. Toy-düyün elədi. Amma gəlinə yaxınlaşa bilmədi. Çox çətin bir vəziyyətə düşdü. Bundan xəbər tutan uşaqlıq yoldaşı - dərzi gəldi, məsələni ona danışdı, "mənim ən yaxın dostum sənsən," dedi. Halım bu vəziyyətdədir. "Bu gecə su yolu ilə mənim yanıma gəlib, paltarlarımı geyinərsən, məni bu baş ağrısından qurtarrasan. Lakin xəlvətə girəndə heç danışmazsan ki, qız işi başa düşməsin. Yatanda adət olduğu üçün işıqları da söndürərsən." Dərzi razılaşdı. Dərzi xəlvətcə işığı söndürüb yatağa uzandı. Qızcığaz onu zavallı əri hesab elədi. Dərzi qıza yaxınlaşıb, onu altına saldı, fəryad səsləri yüksəldi. Əsl əri isə qapının arxasında idi. Öz-özünə danışırdı orda: "Ay fahişə, ağlın mənə gedib ki, ciyərimi dağlayasan? Ona da dərzi deyərlər, dəmiri də deşib, dəlik-dəlik edər."

Şihabəddin Sührəverdi Hələb sultanının yanıda çox dəyərli və kamil bir insan kimi tanınmışdı. Qısqandılar, Sultana dedilər ki, "ey Məlik, filankəsə məktub yaz, onu mancanağa qoyub ataq."

Məktub oxunanda sarığı aşağı düşdü. Başını kəsdilər. Amma Sul- tan əmri icra olunan kimi peşman oldu. Düşmənlərin tələ qurduğu ay- dın oldu. Məlikin ləqəbinə Məliki Zahir deyərdilər. Qatillərə əmr elədi, məzlum Şihabəddinin qanını it kimi yalasınlar. Aralarından iki nəfəri də fəsad törətdikləri üçün edam etdirdi. Bir neçə nəfəri də kənara göndərib bazarda satdırdı. Xəlvətcə qırx dinara satın aldılar.

Gözəl bir kitab beş axçaya satılar. Çünki hər kəs kitabı dərk eləməz. Bu Şihabəddin istəyirdi ki, fitnə və fəsada səbəb olan, əllərin, ayaqların kəsilməsinə yol açan qızıl və gümüş pulları aradan qaldırsın, alış-verişi başqa bir şeylə elətdirsin, xalqı Məhəmməd (s) dininə iman gətirməkdən vaz keçirsin. "Əgər o, Məhəmmədin (s) ardınca gedirdimi," deyə məndən xəbər alsalar, "xeyr, getmirdi," deyərəm.

O Şihabəddinin elmi ağlından üstün idi. Gərək ağıl elmdən üstün olsun, hakim olsun.

Onda ağlın dayanacağı olan beyin zəifləmişdi. Necə ki, bir ara kefini qaldırmaq üçün məst edən şərabdan içmək istəyərdi. Bir az artığı isə işə yaramırdı. Damağı son dərəcə kökəlmiş olduğundan ağıl zəifləyərdi. Ona görə də yuxarda adı çəkilən o kəlam alimi Əsədüddindən daha zəif

sayılırdı. O zaman bu kəlam alimi Əsədüddin onu pisləmişdi. O insafsız bu məqamda bizdəndir. Məna baxımından da sənin olduğu kimi. Sən biz olanda Allah-təalanın "Həqiqətən, Biz onu (Quranı) Qədr gecəsi nazil etdik," (əl-Qədr surəsi, 1) anlamındakı ayədə də eyni vəchlə ifadə olunur. Siz mənim sözlərimin içinə daldınız, bunu heç kim dərk edə bilməz. Dərk edə bilsəydilər, hamısı mürid olardı. Söz onlardan da keçərdi. Sözü çox uzatsaq, onun bir tərəfi yalan olar.

Allahı görsən, məndən salam de. Dost çox yaxşıdır, özünü onda yox edərsən, onun varlığında yürüyərsən. O qalmazsa, sən də qalmazsan. Hər şey varlıq meydanına gəlməkdə Haqdan bir müjdədir, bir bəxşişdir.

Bir yolçu yol gedərkən qarşıdan gələn yüngülcə silahlanmış bir atlı gördü. Öz-özünə dedi ki, "bu adam mənə qəsd eləməmiş, mən onun işini bitirim." Atlı yolçuya yaxınlaşanda, "mənə elə pis nəzərlə baxma," dedi, "çünki mən mücadilə etməkdə fərasətsizəm." Yolçu ona cavab verdi: "Gözəl danışırsan, mən də can qorxusundan sənə hücum eləməyi fikirlə-

şirdim. İndi gəl əl verək bir-birimizə." Bu gün din aləmində də belədir. Bu papağı daşımaq istəyirsən, əvvəldən başına qoymalısan ki, bu ər mey- danından mərdliklə başını çıxara biləsən, yoxsa yolda qalarsan. Bəxtəvər odur ki, əcəl qılıncından həm başını, həm də papağını qoruyar.

Ey qazılar, müdərrislər, şeyxlər! O, zəif Allah dostuna qarşı könül alçaqlığı gözləməyənlər yararlanarlar. Bəlkə bilmirdik, amma bu yolu elm- siz necə getmək olar?

"Allah cahili Özünə dost etmədi." Bəlkə bizimlə məşğulsunuz? "Xeyr,"dedi, qonşu ilə məşğuluq. Qonşu kimdir? "Sənin qonşun ancaq mənəm." Burada dava boş sözdür. Kafirləri bu cəhətə görə sevərəm ki, dostluq iddiasına düşməzlər. "Açıq-aşkar bir kafirik, düşmənik," deyərlər. İndi sənə dostluğu öyrədim: "Dostluqda yalnızlıq haramdır, yasaqdır, cə- zanı vacib edir. Dost odur ki, şəfqət baxımından gözlərindən atəş saçar. Ya Rəbb, onları günahdan qurtar. Məni və bütün müsəlmanları birlikdə bağışla," deyə yalvarar.

Bu gün sən də şeyxi meyxanada gördüyün halda, "mən bu işin sirrini bilmərəm, ancaq o və onun Allahı bilər," deyəcək qədər dözümlülük varsa, onu Allaha yalvararkən gördüyüm zaman, "bunu tanıyaram, bir kərə bu ildə onu eyni münacatda, eyni Kəbədə, eyni cənnətdə görəcək qədər qüdrət yoxdur." Heç olmazsa, bu qədər təmiz düşünmək də çox yaxşı olar.

Biri deyirdi ki, Məhəmməd (s) bizim pərdədarımızdır*. Dedim ki, özündə gördüyün şeyi Məhəmməddə (s) nə üçün görmürsən? Hər kəs öz-özünün pərdəçisidir. Dedi, o yerdə ki, mərifət həqiqəti var, dəvət ha- ra-

yadır? "Elə", "eləmə" müraciəti harada qalar? Dedim ki, nəhayət, o onun üçündür və bu başqa cür həddən artıq bir fəzilətdir. Etdiyin bu inkardan vaz keç, bu yiyələnməni tərk et ki, dəvətin tamamilə özüdür. Həm dəvət edirsən, həm də dəvət etməməlidir, deyirsən!

Bu Cəbriyəçilər nə edərlər? Qüvvətli adam bilməz ki, bütün varlıq Allahındır. Bir uşaqdan soruşarsan: Bizi kimi yaratdı? "Haqq yaratdı," deyər. "Ortada bir döndərən olmadan bu çarx dönərmi," deyərsən. "Nə söyləyirsən?" deyər. "Divanəsənmi?"

"Lap yaxşı, bizi yaradan, var və yox edən daha güclü, daha qüvvətlidir, yoxsa biz?" Sənə bu cavabı verər: "Əgər o bizdən daha qüvvətli olmasaydı, bizi həm var, həm yox etməyə kimin gücü çata bilərdi?" Daim ən uca qüdrət odur ki, bu qalib və uca varlığı görə bilsin. Gözünü açsın, pərdəsiz, təqlidsiz yaradıcıya tamaşa etsin. Allahı görsün.

üçün səbəbdir." Fəqət onun üçün bir səbəb yaradılmadı. Onun heç bir səbəbi yoxdur. O Şəmsin (Günəşin) üzü qara olar, amma bu Şəmsin üzü qaralmaz. Çünki bu hidayət günəşi Haqqın ucalığından nur almışdır. O günəş isə elə bir məqamdadır ki, o məqam ancaq "And olsun günəşə və onun işığına," (əş-Şəms surəsi, 1) anlamındakı ayə ilə işarə edilən məqamdır.

Yaxşı insan dərd ortağı olar. Yaxşı insan qəlbə yaxın, gözəl bir insan olar. Lakin Şeyx Məhəmməd bu yola uyğun gəlməz.

Mən səni o halətdə və o məqamda gördüm. O haldan imtina etsin deyə nə qədər çabaladım. "Görəsən, o özgəlik məqamında nə üçün oturmuşdur," deyə qəlbim həmişə səninlə idi. "Nə üçün o dar və maraqsız mənzildədir," deyirdim. İstəyirdim ki, mənim sənə qarşı duyduğum şəfqətin nə dərəcədə olduğunu biləsən. Salam olsun sənə! Bayramın mübarək olsun! Bizim salamımız bir qaladır. Onun içinə girərsən, bütün dərdlərdən amanda olarsan.

Şeir:

Hər kim Allah inayətinin qalasına girərsə, Hörümçək onun qarşısına pərdə çəkər.

Aləmə təkbaşına gəldin. Bütün cahanla top oynaya bilməzsən. Bütün bu insanlar arasında topunu meydandan kənara çıxararsan!

Dedi ki, bəzi aşiqlər dəbdəbəli və səltənətli olurlar. Məşuqlar və sevgililər isə durğundurlar. Dedim ki, bu dəbdəbə və səltənət, toy-düyün buna bənzəyər: Biri səni qoz yeyəsən deyə bağa dəvət edər, ağaca çıxar, ağacı döyməyə başlayar və sənə, "buyur, öz əlinlə ye," deyər. Qonağın

əli və dodaqları qozun boyası ilə qaralar. Başqa biri isə müsafiri bağa aparar, rahat bir yerdə oturdar. Uşaqlarına tapşırar ki, ağacdan qoz dərib, təmizləsinlər, qabığını soysunlar, sındırıb ləpəsini qonağın qabağına qoysunlar. Uşaqlar da o şəkildə təmizlənmiş qoz gətirərlər, qonağın qarşısına qoyub, "buyur," deyərlər. Müsafir soruşar: "Bu necə qozdur ki, heç əlim qaralmadı. Mən bunu yeyə bilmərəm. Bunun nə olduğun Allah bilir. Bu, qoza oxşamır. Mən beləsini heç vaxt görmədim!" Şair deyir ki:

Kimsə eşq sirrinə yetişmədi, Yetişən də çaşqına döndü.

Şeyx İbrahim Xəyyamın sözünə etiraz etdi. Eşq sirrinə yetişən nə üçün özünü itirsin, yetişməyənlərdə isə çaşqınlıq olar. "Bəli," dedim. Xəyyam öz halının keyfiyyətindən söz açır. O, özünü itirmiş və pərişan idi. Bir zaman qəbahəti fələyə yük edər, bir gün zəmanəyə, bir gün bəxtinə, bir gün də Allaha çatar. Bir dəfə "Allah yoxdur" deyər, münkirlik edər, başqa bir vaxt isə isbat edər. Danışarkən bəzən qaranlıq, vahiməyə düşüb dolaşıq sözlər danışar. Halbuki, imanlı insan özünü itirmiş və pərişan fikirli deyil. Mömin Allah hüzurunda niqabını atmış, pərdədən yapışmış şəxsdir. Nə istədiyini və nə dilədiyini bilər, qulluq edər. Onu bütün aydınlığı ilə görməkdən, şərqdən qərbə qədər bir ləzzət hiss edər.

Zındıq isə daim mənfi düşünər, "xeyr," deyər. "Mən" sözü ilə danışar. Mənliyində heç şübhəsi yoxdur. Çünki "açıq-aşkar görürəm, yeyirəm, dadıram, bunda nə şübhəm ola bilər," deyər. Nə üçün, "bəli," deyim? Bunu siz istədiyiniz kimi söyləyin. Mən buna ancaq gülərəm.

Bir anlığa meyxanaya girək, oradakı biçarələri görək. Allahın yaratdığı o zavalı qadınları ziyarət edək. İstər yaxşı, istər də pis olsunlar, onların halına baxaq. Mənim işimə kimsə tab gətirə bilməz. Onu ancaq mən edərəm. Təqlidçiyə bu işdə bizə uymaq gərək deyil. Doğru sözdür: Təqlid əhlinə üzüyolalıq yaraşmaz.

Oğlundan çox şikayət edirdi. Dilimin ucuna gəldi, "sonu yaxşı olar," dedim. Uşaqdır, uşaqlığındandır bu elədiyi şeylər. Yoxsa əslində bilərək etməyib bunları. Necə ki, qora ilə dəyməmiş ərik acı və turşdur. Bu keyfiyyətlər qoranın hələ təzəliyindən və əriyin kallığındadır. Əslindən deyil. Amma əslində turş olan qora da var ki, daş kimi kal qalar, heç şirinləşməz. Ancaq lazımdır ki, qoraya həmişə günəşin şüaları dəysin.

Allahın elə bəndələri var ki, heç kim onların çəkdiyi cəfaya tab gə- tirə bilməz. Hər zaman onların doldurduğu qədəhdən içənlər bir daha özlərinə gələ bilməzlər. Başqaları sərxoş olar, bayıra qaçarlar, amma o küpün qırağında oturar.

Bir nəfər gəlib, "mənə yemək yeməyin qaydalarını öyrət, çünki mənə

bu iş lap çətin gəlir, narahatlıq verir," deyir. Cavab verdim, "yemək elə ye- yilməlidir ki, sən onu incidəsən, amma o səni incitməsin." "Elə ye ki, sən ağırlığını ona yükləyəsən. Yoxsa o ağırlığını sənə yükləməsin!"

Dedi ki, indi bir yerdə yeyək. Mən, "ye," demərəm, məndə o dostluq yoxdur. O dostluq ancaq Allahdan gələr ki, "bu dərdləri Mən verdim, sən çək, bunu yenə Mən düzəldərəm," deyər.

Allah mənə elm vermişdir. Əgər mən bu igidliyi eləyə bilməsəm, o zavallı mədə bir gün, bir gecə sıxıntı çəkər, mən də onun iztirabını

çəkmiş olaram. Mövlananın xalqa xitab yoluyla söylədikləri mənə aid deyil. Mən onun mənimlə olan əlaqəsini bilirəm. Əgər qaşını əyərsə, anlayaram ki, mənə aid deyil. Çünki Mövlanaın mənimlə olan əlaqəsini açıq-aşkar görür və bilirəm ki, onun üzünü turşutması başqalarının işi üçündür. Mən necə nəşəli ola bilərəm? Bütün aləm qəmli olsa belə, məni heç maraqlandırmaz. Amma qəmli vaxtlarımda da istəmərəm ki, heç kimin qəmi mənə bulaşsın.

Allah Allahdır

Yaradılmış olan kimsə Allah ola bilməz. İstər Məhəmməd (s) olsun, istər başqası.

Biri gəldi, "üzrlü say, bu gün bir şey bişirə bilmədik," dedi. Cavab verdim: Mən sənin bişirdiyin şeyləri nə edim? Gərək sən bişəsən! "Necə bişim," dedi. "Sən necə müridsən ki, işarədən anlamırsan," dedim. Cavab verdi ki, əgər anlamaq deyilən şey, dəyişik olmasaydı, işarə və ibarə- lərdə islam alimləri uyğunsuzluğa düşməzdilər. Mən soruşdum ki, islam alimləri arasında necə uyğunsuzluq ola bilər? O iki cür dünyagörüş və o təəssüb sənin işindir. Əbu Hənifə əgər Şafiini görsəydi, boynunu qucaqlayıb, gözlərindən öpərdi. Allah qulları Allahdan ayrı necə düşə bilər- lər? Bu ayrılıq necə mümkün olar? Sən ayrılıq görürsən, qurban ol ki, uzaqlıqdan qurtarasan.

Sözü keçən bu qurban hekayəsində "necə qurtarım," dedi. "Qurban ol ki, qurtarasan" dedim. Namazda "Allahu Əkbər" demək qurban, yəni Allaha yaxınlaşmaq üçündür. Bu sözlə, ibadətə başlayan qul özündən keçər. Əgər səndə təkəbbür və qürurlanmaq hissləri varsa, "Allah" deməlisən, Ona yaxınlaşmağı diləməlisən!

İndi daha nə vaxta qədər bütü qoltuğunda gəzdirərək namaza gedəcəksən? "Allahu Əkbər" deyirsən. Amma münafiqlər, ikiüzlülər kimi bütün qoltuğunda durur.

Zaman-zaman Şeyx Məhəmməd səcdə edər, rükuya gedərdi. "Mən şəriət ərlərinin quluyam," deyərdi. Amma onlara bağlanmazdı. Mən on-

dan çox faydalandım. Amma sizdən faydalandığım kimi deyil. Bu ona bənzəməz. Ancaq oğullarınız sizi heç dərk etməzlər. Qəribədir, bəlkə özlərini də dərk edə bilməzlər. Siz oralarda deyilsiniz ki, oğula olanlarla, olmayanları göstərəsiniz. Bir çoxu çalışar ki, özündən bir şey göstərə bilsin. O biri yüz hiyləgərliklə özünü gizləməyə çalışar. Özümü nə zaman aşkara çıxarmaq istəsəm, zəhmətim artar. Tanışlar, yadlar ətrafıma toplaşar. Mən bunu eləyə bilmərəm. Çünki mənə həyat lazımdır.

Dedi ki, filankəs sənə əsla yaxın deyil. Dedim ki, onun mənə yaxın olmadığını sən nə bilirsən? Sən ondan daha kamil olmalısan ki, bunu anlayasan! Çünki o "elə olmalıdır, belə olmalıdır," deyə tənqid edir. Halbuki, təslim məqamında "belə olmalı, belə olmamalıdır" kimi sözlər necə yer tapar? Ona bu cavabı verdim: Etdiyin bu etirazlardan sonra onun "elə olmalı, belə olmamalıdır," dediyindən danışmaq yersizdir. Necə ki, hindlinin biri namazda danışar, yanında namaz qılan başqa bir hindli bunu eşidəndə, "sus," deyər, "namazda danışmazlar."

Bir nəfər qazıya şikayət edər. Dava elədiyi tərəfin şahidi yoxdur. Ona "sən and içəcəksən," deyərlər. Cavab verər: Vallah-billah, and içmərəm.

İndi ki, etiraz etmək lazım deyil, doğrusunu Allah bilir. Dedim ki, sənin mənim qarşımda danışmağın buna bənzəyər. Sən bilmirsən, mən də sənə öyrədirəm. İndi bu şeyx ilə mürid arasında yaxşı düşməz. Müridin yolu bu deyil. Eyni zamanda, etiraz gələndə azadlıq əldən gedər, edəcəyi işi azad şəkildə seçmək asanlığı qalmaz. Halbuki, mənə lazımdır ki, sərbəst davranım, lazım gələrsə, gedim, lazım gələndə oturum, yatım, xülasə, öz iradəmlə hərəkət edim. Amma sən mənimlə birlikdə olsan, iradə qalmaz. Mənim getməyim vacib olanda sən gedərsən. Yaxud sənin getməyin zəruri olanda mən gedərəm. Ya xidmətçi olaram, yaxud özümə xidmət edən ağa vəziyyətində qalaram. Hər iki halda da o iradə və ixtiyar ortadan qalxmış olar.

Şeir:

Nə kimsənin qulu, nə ağası olar,
İnsaf et ki, dərvişin xoş bir aləmi vardır.

Fəqir (həqiqi yoxsul) malı olmayan, özü də kimsəyə mal olmayan insandır. Kiçik yaşdan fəqirliyə vərdiş etmək lazımdır. Təzə budağın atəşə atılmadan düzəldilməsi asandır. Köhnələndə iş çətinləşər. Hələ yeni ikən ayağı başmağa uyğunlaşdırmaq gərəkdir. Ayaq başmağın içinə yer-

ləşincə, qurusa da inciməz.

Dedi ki, bilərək və bilməyərəkdən kimsəni incitmək və ya soyuqluq göstərmək fəqirin işi deyil. Mən də dedim ki, əgər onu bir sınaqdan keçirməzsən, özünün kim olduğunu anlaya bilməz. Bir iddə görərsən, bəzi inandıqları var. Fədakarlıqlar göstərər. Bir az sınamağa başladınmı, onların inanclarının sənin yanında necə çılpaq olduğunu görərsən. Sən onları belə çıl-çılpaq görənə qədər mən sınamağa davam edərəm.

Sevgi davasında olan kimsədən hərdən bir az pul istə! Ağlı yerindən oynayar, canı gedər, başını aşağı salar.

Çoxlarını sınadım, məni lap az görənlər o an qınamağa başladılar. "Bu adam bütün gün özünə inananları özündən soyutmuşdur," dedilər.

Dedim ki, "o eləmədi." Bu Allahın onun haqqındakı sevgisindəndir. Allah-təala xalqın məni tanımasını istəmir. Xalq haqqında səhih hədisdə buyurulduğu kimi, "Mənim dostlarım qübbələrim altındadırlar, onları Məndən başqaları tanımazlar,'' anlamındakı hikmət yetərincə onların alınlarını damğalamışdır. Onları kim görə bilər? Onlar Allah qatındadırlar. Sən də Allah nəzərinə gəl ki, onları görəsən! Xalq Haqqı necə anlaya bilər? Necə görə bilər? Onun nəzərində olan bu şəxsi də xoşa gələn hər şey kimi xoş qarşılayarlar. Hər kəsin öz halı var. Vaizin minbər üstündə, hafizin mindər** üstündə, dinləyənlərin, müridin, şeyxin ayrı-ayrı halları oduğu kimi, mürşidin də bir halı, aşiqin bir halı, məşuqun öz halı var.

Allahdan Başqa Tanrı Yoxdur

Bu nə sapqınlıq və korluqdur ki, kor olduğunu bilməz. Mən onlardan deyiləm, amma onlardan xəbərim var. Bir iddə də var ki, gözləri görər və gördüklərini də bilərlər. Onları da özləri bilər.

Misra:

Ey dildar, görmədiyin şeydən nə dəm vurursan?

Nəhayət, "mən sənin atanam, sən də mənim oğlumsan," dedi. "Nə üçün bivaxt yatırsan ki, məni oğul görür, özünə də ata bilirsən," dedim.

Məhəmməd (s) Olan Yerdə Adəm (ə) Nə Deyə Bilər?

Ağlın ayağı topaldır, ondan bir şey gəlməz. Amma onu da qismətsiz buraxmaq olmaz. O, hadis, sonradan yaradılmış bir varlıqdır. Hadis,

evin qapısına gələr, amma içəriyə girməyə gücü çatmaz. Bir lövhə üzərində bir "Əlif" yazıldı. Ona istər "lövhə üzərində yazıldı," deyək, istər "yer üzərində, istərsə yer və göylərin oratsında yazılsın." Hər şey ondan nur almışdır.

Deyərlər ki, haradır özünü görmə, harada o dünyagörüş? Madam ki, görürsən, haradadır o?

Nəsuh* Tövbəsi

Quranda, "Ey iman gətirənlər! Allaha Nəsuh tövbəsi ilə tövbə edin," (ət-Təhrim surəsi, 8) buyurulmuşdur. Bəziləri nəsuh sözünün təfsirində "nəfsə dönməyən şey" deyiblər. Bu, gözəl bir deyimdir. Bəziləri də "Nəsuh üzü gözəl qadın üzünə bənzəyən bir kişiymiş, amma igid bir kişiymiş, kişidən heç bir çatışmayan tərəfi yoxmuş," deyərlər. Qadınlar hamamında  kisə- çilik edərmiş. Düz otuz il bu işdə işləyib. Bir gün sultanın qızı hamama gəlir, qulağındakı böyük yaqut sırğa yoxa çıxır. Xəbər tutanda bunun ha- mamda qaldığnı başa düşürlər. Çavuşlara əmr edərlər ki, tez hamama gedib bütün dəlik-deşikləri axtarsınlap. Çavuşlar hamamını qübbəsindən tutmuş içinə qədər hər yeri axtarırlar.

Şeir:

Hər işin bir vaxtı gəlmədikcə
Sənə dostun dostluğu fayda verməz.

Nəsuh xəlvətə girər və qorxudan titrəməyə başlayar. "İndi axtarış növbəsi mənə gələcək," deyə sızıldayır, səcdəyə qapanır, Allaha söz verir ki, əgər bu dəfə özümü xilas edə bilsəm, bundan sonra bütün ömrüm boyu belə iş görmərəm. "Allahım, bundan sonra bir daha qadın kisəçiliyi etməyəcəyəm, sənin Allahlığına sığınaraq söz verirəm. Əgər bu yükü mənim çiynimdən qaldırsan, bundan belə Nəsuh qulun bir daha bu günahı etməz," deyir.

Nəsuh, bu yalvarış halında ikən içəridən bir səs gəldi. "Hər kəsi axtar- dıq, təkcə Nəsuh qaldı, onun üst-başını axtarın." Ağlı başınlan çıxmışdı. Sirrini Allaha tapşırdı. Bu zaman bir səs də gəldi, "sırğa tapıldı," dedilər. Axtaranlar bir "Lahəvla" çəkdi. "Nəsuhun haqqında pis düşüncələrə düş- dük," dedilər. "Barı gəlsin əliylə Sultanın qızını oxşasın, qız da onun ox- şamasını istəyir." Nəsuhu çağırdılar. Nəsuh bu cavabı verdi: "Mənim əlim bu gün işləmir, yolda əzildi."

Peyğəmbərin (s) əshabələri tövbə edər, yenə pozardılar. Peyğəmbər (s) buyurdu ki, Nəsuh tövbəsi ilə tövbə edin ki, tövbə otuz il yaşayar, heç

geri dönməz. Kərəm dənizi dalğalanmaqdadır, ondan hər nə istəyərsən, onu verər.

Hər kəs bir şeyə tapınar. Kimi gözəl, kimi pul, kimi mövqe düşkünüdür. Ətrafdakılara qarşı, "bax mənimAllahım budur," deyər. İbrahim Peyğəmbər (ə) kimi, "mən qərq olan şeyləri sevmərəm," deməzlər. Halbuki, İbrahim (ə), "mən qərq olan şeyləri sevmərəm," dedi. Harada o İbrahim (ə) kimi

yaradılmış insan ki, hal diliylə bu sözü deyə bilsin? Bunun sirri başqa bir fələyə aiddir. Çünki ruhlar aləmində də fələklər, günəşlər, aylar var. Bu xəyallardan keçən kimsə bilər ki, bunların da bir yaradıcısı var. Amma vəfaları yoxdur. Xəyal aləmindən ayrıldım, təcəlla nuru görünər və deyər ki, "Mən, həqiqətən, batildən haqqa tapınaraq (dönərək) üzümü göyləri və yeri yaradana çevirdim" (əl-Ənam surəsi, 79). Sonra "Xəstələndiyim zaman mənə yalnız O, şəfa verir" (əş-Şuəra surəsi, 80) ayəsində xəstəliyi özünə aid edir.

Bu öyrətmək üçündür. Quranda Adəm Peyğəmbərin (ə) dilindən "Ey Rəbbimiz! Biz özümüzə zülm etdik" (əl-Əraf surəsi, 23) buyurulmuşdur. Yəni "mən xəstəyəm, mənim sağlamlığım ancaq Ondandır," deyir. Özünü aradan çıxarır ki, bu, mənlikdən təmizlənmək deməkdir. Özünü aradan çıxaranda da Onu isbat etmiş oldu. Məndə elə bir güc var ki, öz qəmimi onlara yükləmək istəmərəm. Çünki məndəki qəm onlara yüklənincə, dayana bilməzlər. Özlərini o qəm quyusuna atarlar, iblis deyər ki, "oğru- nun özü məhəllədə oğru var," deyə çığırar, məhəllə camaatı da onunla birlikdə, "oğru var, oğru var," deyə fəryad edər.

Beyt:

Bu yolda yüz min dənə Adəm üzlü iblis var. Hər insan üzünü qəti insan sanma.

İnsan üzlü şeytanlar bunlardır, onların halı sənin halına bənzəməz, gedişləri də sənin gedişindən fərqlidir. Bu xristian yüz gün üst-üstə söz danışar, heç üzülmərəm. Üzülənləri də yandıraram. Çünki düzəltmək yandırmaqla olar. Oraları uçuraram. Çünki yenidən qurmaq ancaq uçurmaqla mümkündür. Bir çox alimlərdən söz açar, öz işini düzəltməyi heç bilməz. Bir iş görər, elə hesab edər ki, qurmağın yolu öz işidir. Dilək yanlışdır, amma "Ey Allahım, mənə cənnət qoxusunu ver," deyə dua edər. Bu dua düzgündür. Amma çirkabını təmizləyərkən deyil, ancaq üzünü yuyarkən oxunar.

"Nəfsini tanıyan Allahını da tanıyır," buyuruldu. Nə üçün ağlını

tanıyan, yaxud ruhunu tanıyan deyilmədi?

Dedim ki, nəfs hər şeyi əhatə etmişdir. Nəfs bir şeyin varlığıdır. Sən mənim nəfsimdəkini tanıyırsan, amma mən sənin nəfsindəkini tanımaram.

Bu müsəlmanlardan sıxıntı duymuşdum. Məni acından öldürürdülər. Onlar lomba-lomba udur, öz kefləri üçün yeyirdilər. Amma Allah dostları acdı! Öz kefim üçün yüz dirhəm xərclər, saz aləminə gedərəm, amma

Allah yolunda on quruş verməröm. Bu halda qulluq, Allah sevgisi harda qalar? Sən elə bir insansan ki, öz-özünə ağlayırsan! O qorxulu röyadan ümidsizliyə düşmüsən! Mən də elə bir adamam ki, o qorxulardan əlini tutaraq səni qurtardım. Dedilər ki, bu gün Xətib çox xəstədir. “Bəli,” dedim. Bütün xalqı sağlıq yoluna çağırdı, qəbul etmədilər, o da xəstə oldu. Çünki xoşbəxtlik ona yar olmadı.

Bir padşahın iki oğlu vardı. Biri ağıllı, xeyirxah, o biri isə axmaq, pis xasiyyətli, qadın təbiətli idi. Padşah onu cəsur bir kişi kimi yetişdirmək üçün igid, çevik, Rüstəm kimi bir pəhləvan axtarırdı ki, oğluna dost və yoldaş olsun. Bu dostu gecə-gündüz ona mərdlik hekayələri danışar, igidlik nümunələri göstərər, silah tutmağı, igidlik qaydalarını öyrədərdi. Bir nəfər tam iki ay gecə-gündüz döyüş hekayələri və qəhrəmanlıq nağılları danışıdı, amma heç faydası olmadı. O, oyuncaqların yanına qaçır, qız uşaqları kimi oynayırdı. “Bu gün padşah gəlir,” dedilər. “Oğlunun nələr öyrəndiyini görmək istəyir.” Padşah görür ki, oğlu dostu ilə bir oyuna başı qarışıb. Başlarında ləçək, oyuncaqlar qarşılarında. Müəllim dostu da padşah oğlunun təsiri altında sarığını açıb atıb oyuncaqlara qurşanıb. Padşah, “müəllim hardadır,” deyə sağa-sola baxarkən müəllim ləçəyin altından başını qaldırıb, zərif qadın səsi ilə, “müəllim mənəm,” deyə bildi. Padşah soruşdu: “Bu nə haldır?” Müəllim bu cavabı verdi: “Ey qibleyi- aləm, bu iki ay içində nə qədər çalışdımsa, onu özümə uyğunlaşdıra bilmədim. Bu işi bacara bilmədim. Nəhayət, mən onun rənginə uydum.” Amma müəllim kişidir, onun qadına bənzəməyində nə ziyan var? Səadət insana yar olanda iş padşahla vəzirin hekayəsinə dönər.

Bir gün padşah vəzirini yanına çağırıb deyir ki, oğlumun böyük bir alim olmasını isətyirəm. Xalqa öyüd versin, onu oyandırsın. Mən də onun kürsüsünün ucunda oturub onun söhbətlərinə qulaq asım. Onu hanısı ustadın yanına göndərim ki, oğlumu bir alim kimi yetişdirsin? Filankəsəmi, yoxsa bəhmankəsmi? Vəzir bu cavabı verir: Bu iş din alimlərinin işi deyil. Sən yaşlısan, onu qısa bir zaman içində bu qədər tez yetişdirməyi bacarmazlar ki, sən də kürsüsünün qarşısında oturub, söhbətlərini, öyüdlərini dinləyəsən. Hərçənd, onu filan palançının yanına göndərmək

lazımdır. Padşah, madam ki, "sən onu tanıyırsan, barı bir iş gör," dedi. Vəzir qalxıb palançının yanına gəldi. Ona ehtiram göstərib, sakitcə yanında oturdu. Palançı soruşdu: "Necəsən? Yenə eyibləri düşünürsənmi?" Vəzir, "nə edim," dedi, "sizin böyüklüyünüzə güvənərək gəldim, Allah rizası üçün diləyimi qəbul et!" Palançı, "işin çətin tərəfi bunun Allah rizası üçün olmasıdır," dedi. "Bir az sonra görəcəksiniz," deyə söz verdi. Vəzir işi padşaha izah elədi. Padşahın kefi duruldu.

Taxtından aşağı endi, palançını ziyarətə getdi. Oğlunu ona tapşırdı. Uşaq iki il palançının yanında qaldı. İki il sonra dedi ki, "oğlum, sabah kürsüyə çıx, öyüdə başla!" Atasına da xəbər göndərildi. Padşah narahatlıq içində oğlunu sınamağa getdi.

Şəhərə bir vəlvələ düşdü. Xalq heyrətlə yüyürdü, altı min alim uşağın kürsüsünün ətrafına toplandı. Uşaq yeddi yüz peyğəmbər hədisi danışdı. Dediyi hər hədisi alimlərdən soruşdu: "Bu peyğəmbər kəlamıdırmı?" Alimlər təsdiq elədi. Uşaq dedi ki, "siz bu qədər elm öyrənmisiniz, amma kor kimi əməl etməmisiniz. Bu dediklərimin hamısı mənim sözlərim idi."

Beyt:
Allah vergisindən pay alanlar yad görünərlər, amma
Onların canı ilahi sirlərin lövhəsidir.

Sufi dedi ki, bir gün ənbəri başmağı önünə qoydum. Qəfildən barmağım ayağına dəydi. Elə bildim ki, qızarmış dəmir kimi indicə oddan çıxıb, indi o atəş yandıracaq. Vəsvəsələrlə, xəyallarla keçinənləri, xəyala tapınanları yandırıb-yaxar.

Biri dünya adamlarından şikayətlənirdi. Allah dostlarının nəzərində dünya oyuncaqdır, yalançıdır, amma uşaqlar üçün oyuncaq deyil, həqiqi bir aləmdir. Yaşamaq da bir borcdur. Bu gün əgər oyuna və zarafata baş- lasan, dünya ilə oynama! Əgər ona dönsən, ye, iç, əylən ki, onun dadı- ləzzəti ağlamaq deyil, gülməkdir.

Dünya həm xəzinə, həm də ilandır. Bir dəstə xəzinə ilə oynayar, başqaları da ilanla. Amma ilanla oynayanlar onun dişləməsinə dözməlidir, çünki ya quyruğu ilə vurar, ya başı ilə. Quyruğu ilə vurarsa, yatmamalı, bir az sonra başı ilə vurar. Ancaq bu ilandan imtina edənlər onun sevgisi ilə öyünməzlər. Ağıl mürşidinin ardınca gedərlər. Ağıl mürşidi ilanların nəzərində zümrüd sayılar. (Zümrüd ilandan müdafiə olunmaq üçün bir silahdır. Saçdığı işıqdan ilanın gözü kor olar- Tərcüməçidən)

Əjdaha qiyafəli ilan ağıl mürşidinin karvanın qabağında getdiyini görəndə zəifləyər. Düşkün, tənbəl bir vəziyyətə düşər. O, su içində bir tim-

saha dönər. Ağlın ayaqları altında bir körpü kimi olar, zəhəri şirinləşər, tikanı gül olar. Çünki ağıl mahir bir ox atandır. O, kirişini, yayını qulağına qədər çəkə bilər. Məxluqatın zəbunu olan bu cahanın ağlını tərk et! Bu cahanın ağlı yayı çəkər, amma qulağına qədər möhkəm tuta bilməz. Yay- kirişini ağızdan xilas edərsən, nə işə yarayar. Ancaq qulaqdan ata bilsən, vurarsan. Bu isə cahana aid nəticəsiz söz ağızdan çıxar.

Beyt:
Bir söz ki, düşüncə baxımından söylənməmişdir, Yazmağa da, danışmağa da dəyməz.

Düşüncə nə olar? Əvvəlcə baxmalıdır ki, onlar bizdən əvvəl var idilərmi? Bu işə, bu sözə şükr etdilər, faydalandılarmı? Yoxsa əksini elə- dilər? Sonra yenə baxmaq lazımdır ki, bunun sonu nə olacaq? İnsan qarşısına-arxasına baxmalıdır ki, hər iki tərəfində də bir divar, bir əngəl olmasın. Dünya sevgisində bir boşluq tapılmasın. Çünki, "Sənin əşyaya bəslədiyin sevgi səni kor və kar bir vəziyyətə salar," deyiblər.

Dünya sevgisi din sevgisindən üstün olanda, korluq, karlıq meydana gələr. Belə insanlar tövbə etsinlər və oyansınlar. Dünyaya qarşı o azacıq sevgi onun xeyrinə olar. Amma çevrəsi çox daralar. Bu çox vaxt yaxşı dostlarla söhbət sayəsində əldə edilər. Yaxşı dostlar da yaxşı xasiyyətli və pis düşüncələrdən uzaq olmalıdırlar.

Bir sənət öyrənməlisən ki, dolanışıq qura biləsən. Nə düşkünlük çəkirsən? Hər kim sənə dostunun arxasınca danışar, onu pisləyərsə, is- tər batindən desin, istər zahirdən, "dostun səni qısqanır," desə belə, bil ki, qısqanc odur. Qısqanclıqdan coşar, kükrəyər. Necə ki, biri məndən soruş- du: "İblis kimdir?" Dedim ki, "mən bu saat İdrislik (ə) içinə dalmışam. Sən də əgər iblis deyilsən, nə üçün İdrisliyə qərq olmursan? Əgər İdrisdən səndə bir əlamət varsa, iblisdən nə qorxun olar?"

"Cəbrail kimdir," deyə soruşursan, deyirəm ki, "bu sualın eynilə namaz qılan bir imamın səcdə yerinə baxmayıb, sağa-sola boylanmısnı görən adamın, bu imamın namazı dürüstdürmü," deyə soruşmasına bənzəyər. Mən deyirəm ki, "hər ikisinin də namazı qüsurlu olar." "Amma mən imamın namazını soruşmuram," dedi. Bunların hər ikisi bir olarmı?

Dedim ki, "biri imamdır, hər tərəfə baxar, namazda Allah hüzurunda olduğunun fərqində deyil, o biri ona iqtida edən şəxsdir ki, imamın gözü- nün hara baxdığına nəzarət edər. Şübhəsiz, o özünü görə bilməz."

Hər kim sənə, "filankəs səni təriflədi," deyərsə, ona de ki, "məni tərif- ləyən sənsən! Onu bəhanə edirsən!" Hər kim sənə, "filankəs səni söydü," deyərsə, ona da deyərsən ki, "məni söyən sənsən, onu bəhanə edirsən." "Səni söyən sənin söyülməyini sənə xəbər verəndir," deyərlər. "Bu sözü o söyləməmişdir, bəlkə də başqa mənada söyləmişdir," deyərsən. O

adam gəlib, “filankəs sənin haqqında qısqanc dedi,” söyləyərsə, de ki, “qıs- qanclığın iki mənası var. Biri insanı cənnətə aparan qısqanclıqdır. Xeyr, bu başqalarından geri qalmamaq üçün göstərilən qısqanclıqdır. Mən nə üçün fəzilətdə ondan geri qalım,” deyər. Allah dostlarına qarşı düşmənlik

hissi bəsləyənlər elə hesab edirlər ki, onlara yamanlıq eləyirlər. Bu yan- lışdır, bəlkə yaxşılıq edərlər. Onların qəlbini özlərindən soyudurlar. Çünki onlar aləmin qəmini çəkərlər. Bir kimsəyə qarşı bu sevgi bir yük kimidir ki, bu, Qaf dağını onun boynuna və çiyinlərinə yüklətmək, onu daha da ağırlaşdırmaq deməkdir. Yəni bir şey eləyərlər ki, sevgiləri daha da artar, o, onların daha çox dərdinə şərik olar. O zaman öz sevgilərini və düşün- cələrini unudarlar, bax bu onların canlarına rahatlıq gətirər.

Bir alimin bir gün yuxudan qalxdı. Əşya, kitab, hər nəyi varsa, atdı. İnləyir, ağlayır və belə deyirdi: “Ömrümüzü qazılardan ayrı yaşamaq, on- lardan qaçmaqla tükəndirdik. Allah kitabını geriyə atdıq. Allah-təala biz- dən ömrümüzü nələrlə tükəndirdiyimizi soruşanda nə cavab verəcəyik? Gözümüzlə nə gördüyümüzü, qulağımızla nə eşitdiyimizi, qəlbimizin nə kimi düşüncələr keçirdiyini soruşacaqlar…

Alimin burada, “Allah kitabı” deməkdə məqsədi Quran deyil. Yol gös- tərən adam, yəni Mürşiddir, Allah kitabı, ayə, surədir. O ayənin içində ayələr var. Bu açıq Quranda, bu açıq kitabda nələr yoxdur… Bu məsələ bizə bir neçə dəfə Bağdadda qazılıq edən yəhudini xatırlatdı. Yəhudi xəzinələr qazandı, yer altında gizli mağaralar düzəltdirdi. Silahlı igid in- sanlar tapıb pusqu qurdu. Xəlifəni taxtından salacaq, Bağdadı mühasirə- yə alacaqdı. Hekayə uzundur:

Xəlifə yəhudinin hiyləsindən xəbər tutdu. Onu həbs etdirdi. Qazılıq məsələsi, din alimliyi və Quran elə bir hala gətirilmişdi ki, bir yəhudi Bağ- dad qazısı olmuşdu. Halbuki, o içindən bir yəhudi və bir məxluqdur. İndi başa düşdük ki, səni xilas edəcək kəs ancaq Allah quludur. Yoxsa o ye- mək və azuqə fayda verməz. (Qaranlıqda gəzən yolunu azar.)

Qədr gecəsini gecələr arasında gizlədikləri kimi, Allah dostlarını da iddiaçılar arasında gizləyiblər. Bunların gizlənməsi məyusluqdan deyil. Bəlkə çox aydın və parlaq olduqları üçün gizlənmişlər. Necə ki, günəş yarasa üçün gizlidir. Yarasa günəşin düz qabağına çıxar, amma ondan heç bir şey anlamaz. Dünya sevgisi pərdəsi onu lal və kar etmişdir. Çünki dünya sevgisi canlı və qüdrətli olduğu vaxtlarda dünyanı cəlb edən bir cazibədir. Amma əldən bir şey gəlməzsə, ancaq sevgilinin xəyalını çəkər. Sevgilinin xəyalı da sonda xoşa gəlməyən bir pərdə olar. Necə ki, Allah-

təala, “Biz Quranı Qədr gecəsi nazil etdik” (əl-Qədr surəsi, 1) buyurmuşdur. Bu surə neçə ayədir?

Onun on dördüncü gecəsi min aydan daha parlaqdır. Bu aylar arasında bu gecə çox aydın olduğu üçün gizlənmişdir, bir gün meydana çıxsın və bu ayədə işarə olunan, “…Allaha itaət barəsində etdiyim təqsir-

lərə görə vay halıma! Həqiqətən, mən (Allahın hökmlərinə, Qurana, Pey- ğəmbərə və möminlərə) istehza edirdim!” (əz-Zumər surəsi, 56) anlamındakı peşmanlıq fəryadı yüksəldiyi zaman özünü göstərsin. O nə yönsüz bir yön, nə tərəfsiz bir tərəfdir. Vaxtı gəlməyəndən sonra nə edər? Ancaq məni tanımayanların elədiklərini edər. Amma mən məmnunam, necə məmnun olmayım ki, indiyə qədər hər kim məni inkara cəhd elədisə, o an ardınca Allaha yaxın yüz min mələk məni təsdiqləmişdir. Yenə mənə heç kimsə cəfada bulunmadı və ya məni pisləmədi ki, Allah o an ardınca yüz min cür oxşamaları ilə mənə o cəfaların əvəzini vermiş olmasın. Məni tanımayanlar məni inkar etmədikcə yüz minlərcə həqiqi canlarla Allah mələkləri də mənə görünməz, qarşımda təzim etməzlər. Bu mənada Peyğəmbər (s) kəlamı mənə çox qəribə gələr. “Dünya möminlərə zindandır,” buyurulub. Amma mən heç zindan görmədim. Həmişə məmnunluq, ucalıq və var-dövlət gördüm. Bu kafir əlimə su töksə, Allah qatında elədiyi iş bəyənilmiş və günahları bağışlanmış olar. Amma o xoş- bəxt, mən özümü boş yerə xor və məyus gördüm. Görəsən, nə üçün elə- dim bunu? Neçə vaxt özümü tanıya bilmədim, amma yenə də o ucalığı, o yüksəkliyi özümdə tapdım. Bu ayaqyoluna düşmüş ləl-cəvahiratdən xilas olduğumu sanmışdım. Xeyr, elə deyil. İndi məmnunluqla deyirəm ki, xoşuna gəlsin. Əlini uzat ki, əl tutaq! Bir müsəlman qardaşla əl tutarkən zümzümə etdikcə, günahlar tökülər. İndi tez-tez qımıldanmaq lazımdır. Ey müsəlmanlar, qımıldanın ki, biz də qımıldanaq. Gərək ki, xalq arasında dediyim sözü səksənmədən sənin üçün söyləyirəm kimi biləsən. Sənin üçün dediyim sözü də özün üçün söylədiyimi sanmayasan! Bax bu anlayış imanın gücündəndir. “Əgər onu demək lazım deyil” deyə, qorxursansa, bil ki, “səndə qaranlıq düşüncə ilə dərk etmək hissləri bir-birinə qarışmışdır. Bu isə səni dostdan ayırmaq istəyən bir şeytan şəridir. Bu səni çağıran bir qulyabanidir. Səni dostdan ayırıb, doğru yoldan çəkindirir.”

O şeytanın səsi tanıdığın şəxslərin səsi kimidir. Deyək ki, sizə məndən, mənə sizdən nə gətirə bilərlər? Bununla bərabər, heç etibar etməməlidir. “Əfv edilmiş şəxs ilə yemək yeyən, şübhəsiz ki, bağışlanmışdır.” Burada yeməyi məqsəd etmək və ya azuqə yemək deyil, o biri cahanın ruzisini yeməkdir. Pisliyə əmr edən nəfsi məğlub edən şəxs bu həyatda da şəhid və qazi olar. Çünki hər kim bağışlanmış bir şəxslə o ruzidən yeyər-

sə, Allah da onu əfv edər. Yoxsa minlərlə insan, minlərcə yəhudi Həzrət Məhəmmədlə (s) yemək yedi. Allah tərəfindən onlar əfv edilmiş deyillər. Onların inanclarına görə, Həzrət Məhəmməd (s) Allah tərəfindən bağışlanmış deyildi. Bizə görə, Həzrət Məhəmmədin (s) əfv edilməsinə inanmaq, bir yerdə yedikləri o mənəvi qidanı eyni kasadan yeməklə

düzgün sayılır, bax ona inanmağın əvəzi budur. Sağlam inancın əlaməti budur. (Fəth surəsində Həzrət Məhəmmədin (s) keçmiş və gələcək günahlarının bağışlanmış olduğu müjdələnmişdir. Bu məqama işarə edilir -Tərcüməçidən.)

"Rəhman (Varlıqları qoruyan Allah) ərşə hakim oldu" ayəsinin təfsirə görə mənası bundan başqa nə ola bilər? Zahiri mənasını da deyiblər: Ərş üstünə qurulmaq, onu əmri altına almaq deməkdir. Necə ki, Bişr qılınc vurmadan, qan tökmədən İraqı əmri altına aldı. Bunun kimi nümunələrdən kəlmənin bu mənada istifadə olunduğu məlum olur. Quranın bu işarətinə inanırıq. Necəliyini, nə cürlüyünü araşdırmadan Allahın ərş üzərində fər- man verdiyi inancına olduğu kimi tapınırıq.

Bu sözdən nə başa düşülür? Bu ayədə, təfsirdə nə deyilib? Buna işin yalnız zahiri üzünü bilənlərdən özgələri nə məna veriblər? Heç şübhə yox ki, bu da Allahın Kitabında "Məgər (müşriklər) ətraflarındakı (başqa şəhərlərdəki) adamlar qamarlanıb götürüldüyü (əsir alındığı, öldürüldüyü, qarət edildiyi) halda, (içərisində yaşadıqları Məkkəni) onlar üçün müqəddəs, qorxusuz-xətərsiz bir yer etdiyimizi görmürlərmi? İndi batiləmi inanırlar? Allahın nemətlərini danırlar?" (əl-Ənkəbut surəsi, 67) anlamındakı ayədə işarə olunan məqamlardandır. Qəlb evinin xaricində vəsvəsə verən şeytanlar, qorxular, təhlükələr var.

Necə ki, "O Şeytan ki, insanların ürəklərinə vəsvəsə salır," (ən-Nas surəsi, 5) buyurulmuşdur.

O, atəş içinə atılan İbrahimin (ə) misalında olduğu kimi, Haqqın tərbiyəsi altında, qüdrətin son mərtəbəsindədir. Necə ki, Musa Peyğəmbər (s) də düşmən əlində böyüdü.

Biri dedi ki, "dünyada yaşamaq axirətə getməkdən daha yaxşıdır." Soruşdum, "nə üçün?" "Çünki," dedi, "dünyada yaşayan bir icmanı oyandırır, Allahın lütfü ilə könül xoşluğu tapır." Bəli, amma Peyğəmbər (s) Allahın lütfünü, onun xalqı xəbərdar etməsini bilmirdi ki, "ən yaxın dost" deyə buyurdu. Dedi ki, "bazarda elə oturmusan ki, sanki bazarı yan- dıracaqsan!" Nəhayət, "ey elmsiz adam," dedim, "eyni yanğın içində ya- nırsan, amma yanmaq ona deyərlər ki, səndən heç bir əsər qalmasın." Allah dostlarında bir qüdrət var ki, müəyyən atəş içinə düşərlər, amma yanmazlar. Onlar gizlənmiş insanlardır."

Kərim Əli mənim üçün xəvaricilərdəndir. Əliyə (ə) "düşməndir," de-

yir- miş. Əlaəddin də deyib ki, “mən ona belə cavab verdim: O igid cüssəli, Əliyə (ə) düşmən olan şəxs belə olarmı?

Kərim comərddir. Amma ancaq bir şeyini qələndərlərdən əsirgəməz. Mən onun üçün öz dostlarımla dava elədim. “Bu onun haqqında iftiradır,” dedim. Qısqanclıqdan yalan danışırlar. Başını aşağı saldı. “Ədəbsizlik etdimsə, başmağını çıxar, başıma yüz başmaq vur,” dedi. İndi onu ya- nıma alım, öz istəyi ilə yüz başmaq vurum başına. Bir tək belə nöqsan buraxmaram.

Qitə:

Bir ölkə sənin üçün sıxıntı bəhsi, bir icma həmişə sənə baxmaqda.

Bu, dövlət işidir, bu gün kimin əlinə keçər. Özgə din, tanıdığın bir tək olsa,

Dostun bəla oxu, sən bax, o tanıdığın əlindən dəyər.

Bir dəstə tələbəm vardı. Onlara sevgi və nəsihət vermək yolu ilə ağır sözlər deyirdim. O zaman biz onun uşaqlarıyıq. O sizi söymür, amma bəlkə də sevdalıdır, deyirdilər. Mənim də onlara bəslədiyim sevgi azalırdı. Çox böyük bir ehtimalla Allahın xas qulları onlardır. Çünki kəramətləri gizlidir. Hər kəsə görünməzlər, necə ki, onlar da gizlənmişdilər. Bəzi şeylər var ki, söyləyə bilmərəm. Bunların üçdə birini danışsam, işi böyüdər, “filankəs həmişə lütfdür,” deyərlər. Hesab edərlər ki, kamal mərtəbəsi həmişə lütf halında olmaqdır. Halbuki, iş elə deyil. Həmişə lütfdən ibarət olan şəxsin çatışmazlığı var. Hətta haqqında “təmiz lütfdür” demək yaraşmaz. Çünki ondakı qəhr sifətini aradan qaldırmış olarsan. Bəlkə həm lütf lazımdır, həm qəhr. Bax bu sifətlər tam yerli-yerində olmalıdır. Elmsizlər üçün qəhr də, lütf də lazımdır. Ancaq yersiz olmamalıdır.

Filankəs deyib ki, düşmənlərə qarşı qəhr, dostlara qarşı lütf həmi- şə var. Amma hər kəs dostunu, düşmənini tanıya bilməz. Əgər hər in- san dostunu tanıya bilsəydi, Allah-təala “Nə Mənim düşmənimi, nə də özünüzün düşmənini dost (vəli) tutun! Onlar (kafirlər) sizə gələn haq- qı (Quranı, Məhəmməd əleyhissəlamı) inkar etdikləri halda, siz onlar- la dostluq edirsiniz (mehribanlıq göstərirsiniz)” (əl-Mumtəhinə surəsi, 1), və bundan başqa “Şübhəsiz ki, zövcələrinizdən və övladlarınızdan sizə düşmən olanlar vardır” (ət-Təğabün surəsi, 14), həmçinin, “Bəli, siz o kim- sələrsiniz ki, onları sevirsiniz, onlar isə sizləri sevməzlər” (Ali-İmran surəsi,

119) buyurmazdı. (Bu adları çəkilən ayələr Məkkədən Mədinəyə hic-

rət edərkən mücahidlərə mane olmaq istəyən ailələri ilə İslamın ilk çağla- rında ikiüzlülərin şübhəli durumları və xəyanətləri baxımından nazil ol-

muş, Peyğəmbərin (s) diqqətli olması üçün nazil olunmuşdur. Şəms buna işarə etmək istəyir -Tərcüməçidən.)

Necə ki, Həzrət Peyğəmbər (s) belə buyurmuşdur: "Dostunu ifratçılıqdan uzaq sev. Bir gün ona kin bəsləyəcəyini hesaba al! Düşmənlə də çox kinli və sərt davranma. Olar ki, günün birində dost olarsınız!" Yenə Allah-təala Peyğəmbərinə (s) "(Ey möminlər!) Ola bilsin ki, Allah sizinlə düşmənçilik etdiyiniz kimsələr (Məkkə müşrikləri) arasında (onları islam dininə gətirməklə) dostluq (məhəbbət) yaratsın," (əl-Mumtəhinə surəsi, 7) buyurmuşdur.

Şeir:

Dost ilə düşməni ayırmaq yolunu bilsəydin, Həyatı iki kərə yaşamış olardın.

Dost görünən düşmənlər çoxdur. Sənə dərd ortağı olacaq dost yaraşır.

İkinci dəfə yaşamaq o şəxsə yaraşar ki, ilk mənliyindən qurtula, ikinci mənliyni tapa bilməmişdir. Ancaq ikinci həyatı tapan şəxs, "Mömin olub yaxşı işlər görən (Allaha itaət edən) kişi və qadına (dünyada və axirətdə) xoş həyat nəsib edəcək və etdikləri ən yaxış əməllərə görə mükafatlarını verəcəyik." (ən-Nəhl surəsi, 97) yolundakı vəd ilə müjdələnmişdir. O, Allah nuru ilə görər, dostunu-düşmənini tanıyar. Qəhr qəhr yerində, lütfü də lütf yerində olar. Onun qəhri də lütfünə yaraşar. Həqiqətdə hər ikisi təkrarla- nar, amma igid lazımdır ki, belə bir ümməti yola gətirmək üçün Həzrət Məhəmməd (s) və Həzrət Əli (ə) kimi qılınc çala bilsin.

Bir gün Həzrət Məhəmməd (s) əshabələrdən bir-bir soruşdu. "Təmayülləri sülhəmi, yoxsa savaşamı, yəni sülh yolu ilə lütfə, yoxsa savaş yoluyla qəhrəmi yönəlmişdir" deyə sınamaq istədi. Çünki sülh istəyi ya pis düşüncədən, can sevgisindən, canını xilas etmək arzusundan irəli gələr, yaxud da yaxşılıq sevgisindən, kərəm, səbr və cəfaya qatlanmaq kimi insanlıq və qəhrəmanlıq duyğularından qaynaqlanar.

Əbubəkirin (r.a) təmayülünü anladı ki, o qılınc vurmağın tərəfdarı de- yil. Mərhəmət və mülayimlik baxımından hər birində Həzrət Məhəmmədə (s) oxşar xasiyyəti vardı. Onlardan ayrı-ayrı soruşdu: Əgər

məndən sonra xəlifə olsanız, nə edərsiniz?

Ömərdən (r.a) soruşanda, "mən ədalət göstərərəm," dedi. "İnsafı ancaq bunda taparam." "Doğru söyləyirsən," Peyğəmbər (s) buyurdu, "əslində səndən ədalət yağır."

Həzrət Ömər (r.a) bir zina günahının cəzasını vermək üçün oğlunu dəyənəklə öldürdü. Ümmət arasında pozğunluq olmasın deyə bu qətiyyəti göstərmişdi. Sonra Həzrət Məhəmmədə (s) düşmənlik etdiyi üçün öz atasını öldürdü. Əbubəkirdən soruşdu, "sən nə edərsən?" "Mənim əlimdən gələrsə, hər kəsdən gizlənər, kimsəyə görünmədən öz aləmimdə qalmaq istərəm." Həzrət Peyğəmbər (s), "doğru deyirsən," buyurdu. Bu təmayül səndə açıq-aşkar görünməkdədir. O Böyük Alim (Böyük Alim deyərkən Şəms Mövlananın böyük oğlu Sultan Vələdi nəzərdə tutur. Atasının göstərişi ilə Şəmsi ikinci dəfə Konyaya gətirərkən atının yüyənini çəkmiş, özü piyada yerimişdi. (Hicri, 645-ci il, Məhərrəm ayı, Milad, 1247-ci il) - Tərcüməçidən.) Bu qədər elm və kamilliyi ilə bərabər Şeyxin atının yüyənindən tutub atın qabağınca gedirdi. Yolda hər an başında şübhələr dolaşır, zaman-zaman şeyxə olan inancı pozulurdu, öz-özünə, "filan şeyx gəlib salam verdi, onu heç vecinə almadı, halbuki, arxasınca başqa bir dəliqanlı gəldi, salam verdi, onun salamını aldı" düşündü. Dəliqanlıya çox alçaq könüllülük və iltifat göstərdi. "Necə inanım bu adama," deyə düşünərkən təkrar tövbə edər, özünə gələr, yüyəndən yapışardı. Beləcə bir saat müsəlman, bir saat kafir olaraq şeyxin evinin qapısına qədər yüyən əlində gəldi. İkinci günü də beləcə öz-özünə "lahəvla" oxuyaraq şeyxin ziyarətinə getdi və bu baxımdan şeytanın gözünü kor elədi.

Şeyxin evinin qapısına gələndə gördü ki, valinin gənc oğlu ilə şahmat oynayır, inamı yenə sarsıldı.

Bir gecə Həzrət Mustafanı (s) yuxusunda gördü. İstədi qaçıb onun ziyarətinə getsin. Həzrət Peyğəmbər (s) üzünü yana çevirdi. Bunu görəndə fəryada başladı. "Ey Allah Rəsulu," dedi, "məndən üz çevirmə!" Həzrət Peyğəmbər (s) buyurdu ki, "bizi nə qədər inkar edəcəksən? Bizi nə vaxta qədər təsdiq etməyəcəksən?" "Ey Allah Elçisi," dedi, "səni inkar etdimmi?" "Amma sən dostumu inkar edirsən," buyurdu. Üzü üstə yıxıldı, ağladı, tövbə etdi. Həzrət Peyğəmbər (s) onun ətəyinə bir ovuc kişmiş və xurma qoydu. Bu halda yuxudan oyandı.

Qaçıb gəldiyi zaman Şeyxin hələ oğlanla şahmat oynadığını gördü. Ətəyində kişmiş vardı. Yenidən inamı sarsıldı, o an geri dönmək istədi. Şeyx uca səslə çağıraraq, "daha nə vaxta qədər," dedi. "Barı, Allah Peyğəmbərindən utan!" Bu dəfə qaçaraq Şeyxin ayaqlarına yıxıldı. Şeyx, "o tabaqları gətirin," deyə çağırdı. Gördü ki, o kişmişlə xurma qabın için-

dədir, ancaq bir ovuc kişmişin yeri boşdur. Şeyx ona, "o bir ovuc kişmişi bu qaba qoy ki, Həzrət Mustafa (s) onu bu qabdan götürmüşdü."

Bu saatda bir icma Padşahın yanına gedərək (bizim haqqımızda) "mübahçıdır*, hər şeyi xoş görən adamdır, onun dini və halı necədir bilinməz," deyərlər. Bir həftə isti bir yerə gedər, gecə-gündüz orada qalar. Bir ayağını gənc bir oğlanın, o biri ayağını valinin oğlunun yanına uzadar. Qarşılarında manqal, kabab çəkərlər. Bir şaftalı bir oğlandan, bir şaftalı da o birindən alar. Başqa nə qaldı ki?

Atabəy gəldi, hamamın pəncərəsindən baxdı, gördü. Tez-tələsik geri dönmək istədi. Şeyx çağırdı: Ey Türk oğlu, yaxşı bax sonra get! Ayağını uşağın yanından qaldırdı, atəş dolu tiyana soxdu. Atabəy baş-gözünə döyə-döyə ordan uzaqlaşdı. Daha nələr demədilər ki, minbərə çıxar, onun oxuduğu tovhid bu mənadakı şeirdən ibarətdir:

Şeir:

O dilbər məclisimizin gözəlliyi və bəzəyidir,
İndi məclisimizdə yoxdur, bilmirəm haralardadır? O ucaboylu sərvdir, şux qaməti vardır.
Onun boyunu görmədən bizim qiyamətimiz qopmasın.

Bu misraları söylədi və dedi ki, o dəliqanlı gəlmədikcə, xütbə oxumayacağam. Vali əmr elədi, "uşağı buraya gətirin," dedi. Hamamda başına kül tökmüşdü. Həmən başına su tökdü və bayıra çıxdı, vəz məclisində hazır oldu. Minbərin dibində oturdu. O zaman danışmağa başladı. O gün dedi ki, sənə bir göz ağrısı bir səfa vermişdir. Bir dəfə daha söz almaq və susdurmaq istədim, amma içim lap yandı.

Dedim ki, indi təkrar heyrətlə görürəm ki, zövq sahibi olan şəxsə zövq üz göstərəndə söz bağlamaq istəməz. Şübhəsiz, söz sırası məndə qaldı. Tez qalxdım, mən də bir başqasını tapdım ki, heç bir şeyi başa düşmür. Onunla çox danışdım. Özünü itirdi, büdrədi. İndi dost ilə, dildar ilə birlikdə ikən necə səbr edə bilərəm. Özgələrlə birlikdə olmağa necə səbr edim? Əvvəl sənə çox sevgim vardı. Ancaq görürdüm ki, o vaxt sözün başlanğıcında bu işarələri dərk edə biləcək kamillikdə deyildim. Bunları o zaman desəydim, tab gətirə bilməzdim! O zaman və bu saatda ağzımızı qapamışdıq. Çünki o zamanlar səndə bu hal yox idi ki, bunları söyləyə bilim.

Əli, mənim haqqımda camaatın, bidətçi dediyini söyləyirdi. "Bidətçi dedikləri doğrudur," dedim. Çünki bir ara namazda onların zahiri dün-

ya- görüşünə görə ağır davranırdım. Buna görə belə söyləyirlər…

**SON**

# LÜĞƏT

1. Caiz - icrasına yol verilən, rüsxətli, icazə verilmiş, mümkün ola bilən

2. Çilə - Dərvişlərin xəlvətə çəkilməsi, çilə qırx gün sürür, Musanın (s) qırx gün çiləyə çəkilməsi ilə məşhur olub. Sözün etimologiyası da qırx anlamına gəlir

3. Əbrar - doğruçu adam, nəcib adam, müqəddəs adam

4. Fəqih - fiqh alimi

5. Fəqir - fağır, yoxsul, ehtiyacı olan. Təsəvvüfdə isə Həqiqətə gedən yolun dördüncü mərhələsi kimi təsnif olunur. Halın əsas şərti könüllü şəkildə məhrumiyyətlərə düçar olmaq, maddi nemətlərdən uzaqlaşmaqdır - Rəsul Mirhəşimli, Allah dostları. Bakı. "Qanun"-2005.

6. Fəllah - əkinçi, kəndli

7. Fəsahət - gözəl və aydın danışma qabilliyəti

8. Fərsəx - (əsli farsca "fərsəng"dən) ağac (uzunluq ölçüsü)

9. Fütüvvət - gənclik, cavanlıq, comərdlik, səxavət, əliaçıqlıq, igidlik, mərdlik

10. Ğüfran, qüfran - bağışlama, əfv, mərhəmət

11. Hadis - yeni zühur edən, yeni meydana çıxan, baş verən, üz verən

12. Həcamətçi - keçmişdə xüsusi alətin vasitəsi ilə qanalma əməliyyatı aparan şəxs

13. Həşr - toplama, bir yerə yığma, qiyamət günü

14. Həvaü həvəs - Həvəs, şəhvət, ehtiras

15. Himmət - çalışmaq bacarığı, yüksək fikir sahibi olmaq, düşüncə

16. Höccət - sənəd, dəlil, sübut

17. Hüma - cənnət quşu, dövlət quşu (xəyali bir quş); məc. uğurluluq, xoşbəxtlik, səadət mənasında işlədilir

18. Xirqə - dərvişlərin geydikləri yun paltar

19. İqbal - burada; bəxt, tale. İşi yaxşı gətirmə, birinə üz çevirib baxma, irəli çıxma, yapışma, yaxınlaşma, qəbul, görüş,təsvib, bir şeyə maraq, həvəs

20. İstiğraq - batma, qərq olma, bir şeyin içinə dalma, bir şey ilə məşğul olma, ifrat dərəcəsinə varma

21. Kibir - təkəbbür, lovğalıq

22. Künyə - ərəb dilində, "əbu", "ibn", "ümm" sözləri ilə başlanan lə-

qəb (məs.: İbni-Xəldun, Əbulqasim, Ümmi-Hüssam və s.)
23. Qal - söz, danışıq
24. Qəziyyə - hökm
25. Qibti - qədim misirli
26. Ləntərani - Quranda bir ayədən; "Məni görə bilməzsən" mənasında işlədilən ifadə
27. Məcaz - (burda) eyhamlı söz, ifadə
28. Məcusi - Zərduşt dinində olan, atəşpərəst
29. Məqlub - çıxarılmış, çevirilmiş, kökündən qoparılmış
30. Mələkut - mələklər aləmi
31. Mətlub - istənilən, tələb edilən, arzu olunan
32. Məğfirət - bağışlanma, əfv edilmə, günahların bağışlanması
33. Mərufi - məlum olan, bilinən
34. Məzkur - zikr edilən, Allahın adlarından biri.
35. Mənsux - qüvvədən düşmüş, ləğv edilmiş, ləğv olunmuş
36. Mindər - döşək
37. Mübah - İzn verilmiş, mümkün ola bilən, şəriətə görə, haram və məkruh olmayan şey
38. Mücahidə - çalışma, səy etmə-lüğət üçün
39. Müdərris - dərs verən
40. Müənnəs - zərifədilmiş
41. Mülaqat - görüş, görüşmə, birləşmə, qovuşma
42. Mühal - (məhal kimi də yazılır bəzən) mümkün ola bilməyən, qeyri-mümkün, çətin
43. Mülhid - Allaha, dinə inanmayan, dinsiz
44. Mütabiət - tabelik, tabe olma (burada Peyğəmbərə tabe olmaq mənasında işlədilib)

Lüğət / 381

45. Mütəkkəbir - Allahın adıdır
46. Nasix - ləğv edən, bir hökmü gücdən salan
47. Nədim - həmsöhbət, keçmişdə böyük bir şəxsi gülməli sözlər və lətifələrlə əyləndirən adam
48. Nəfsi-Əmmarə - yetərincə pisliklər diqtə edən nəfs
49. Nəfsi-Mütmainnə - nəfsin yeddi mərtəbəsindən biridir. İmanda, xeyir işləməkdə heç bir şübhəsi qalmayan nəfs deməkdir
50. Nəfsi-Ləvvamə - Bu da nəfsin mərhələsidir. Pisliklər etdiyinə gö-
rə
sahibini qınayan nəfs
51. Nəsuh - səmimi, ürəkdən, təmiz qəlblə
52. Padzəhr - zəhər qarşılığı, zəhərin təsirini məhv edən şey

53. Pərdədar - sarayda içəri girənlər üçün pərdəni qaldıran qapıçı
54. Riyazət - zahidlik, nəfsini öldürmə, dünyanın hər cür rahatlıq və ləzzətlərindən əl çəkib məhrumiyyətlərlə yaşama. məc. çətinlik, işgəncə, əzab
55. Salik - bir yol ilə gedən. Bir yolu təqib edən, bir təriqətə mənsub olan
56. Sədr - döş, sinə
57. Seyr - gəzmək, seyr etmək, yerimək
58. Süluk - getmək, yola girmək
59. Talib - tələb edən, istəyən, arzulayan
60. Təhqiq - həqiqəti axtarıb meydana çıxarma, təhqiq etmə, yoxlama
61. Təkbir - Namaz qılanda "Allahu Əkbər" demək
62.Təqdis - müqəddəs sayma, əziz tutma
63. Tələvvün - rəng dəyişdirmə, rəngdən-rəngə girmə, dəyişiklik
64. Tənzih - Paklaşdırma, təmizləndirmə, məc. mənəvi təmizlik, əxlaqı saflıq (Təsəvvüfdə, Allahı nöqsan sifətlərdən kənar bilmək, anlamına gəlir - R.M.)
65. Təmayül - bir tərəfə əyilmə, meyl etmə
66. Təsərrüf - yiyələnmə, zəbt etmə, ələ keçirmə, qənaətlə işlətmə, israf etməmə
67. Təsviyə - bir məsələni həll edib qurtarma
68. Təşbih - bənzətmə, tutuşdurma, oxşatma
69. Təvatür - ağızdan-ağıza yayılma (xəbər), rəvayət, arasıkəsilməzlik, fasiləsizlik
70. Təvəccöh - üz çevirmə, bir şeyə (adama) tərəf dönmə, rəğbət, meyl, hüsn-rəğbət
71. Təvil - təfsir, izah etmə, şərh etmə
72. Tovhid - Bir neçə şeyi birləşdirmə, Allahın birliyinə inanma
73. Tovsif - xüsuyyətlərini söyləmə, tanıtma
74. Tulum - nəfəsli musiqi aləti, keçi dərisindən hazırlanır
75. Vüslət - qovuşma
76. Zünnar - xristianların riyazət əlaməti olmaq üzrə, altdan bədənlərinə sarıdıqları sərt qurşaq

# KİTABDA ADLARI KEÇƏNLƏR

Abdullah bin Abbas - Həzrət Peyğəmbərin (s) əmisi oğludur. Qüreyş qəbiləsinin ən tanınmış alimlərindədir. Qurani-Kərimi ilk dəfə təfsir edən və Peyğəmbərdən (s) bir çox hədis nəql edən şəxsdir. 688-ci ildə dünyasını dəyişmişdir.

Abdullah bin Məsud - Peyğəmbər (s) səhabəsidir. İslamı ilk qəbul edənlərdəndir. Quranı ilk dəfə Məkkədə əhalinin sıx toplaşdığı bir yerdə uca səslə oxuyan da o olmuşdur. Həm Həbəşistana, həm də Mədinəyə hicrət edən müsəlmanlardandır. İbn Məsud Ömərin (r.a) xəlifəliyi dövründə Küfədə vali olmuş, Osmanın (r.a) xəlifəlik dövrünə qədər bu vəzifədə qalmışdır. Osman (r.a) hakimiyyəti dövründə xalqa yalnız Zeyd bin Sabitin tərtib etdiyi Quran nüsxələrini oxumağı əmr etmişdi. Lakin Abdullah bin Məsud bunu qəbul etmədi. "Mənim oxuma tərzim Zeydin kitabından və oxumasından daha düzgündür", deyib etiraz etmişdir. Hic- rətin 32-ci ilində dünyasını dəyişmişdir.

Ayaz - Sultan Mahmud Qəznəvinin sadiq köləsidir. Ədəbi, zəkası, Sultana hədsiz sədaqəti ilə tanınmış, bu xüsusiyyəti ilə onun rəğbətini qa- zanmışdır. Sultanın yanında vəzirlərdən daha üstün bir məqam qazanmış olan Ayaz, eyni zamanda çox xoşxasiyyətli imiş. "Mahmud və Ayaz" hekayəti klassik şairlərin dəfələrlə müraciət etdiyi mövzu olmuşdur.

Baba Kamal - Türküstanın Çənd şəhərindəndir. Böyük təsəvvüfçü alim Şeyx Nəcməddin Kübradan və xəlifələrindən olan Məcduddin Bağdadidən dərs alan tanınmış Allah dostlarındadır. Şəmsin də yetişməsində onun rolu olduğunu qeyd edən alimlər var.

Bəhaəddin Vələd - Mövlana Cəlaləddin Ruminin atası və Hüseyn Xatibinin oğludur. Bəlx şəhərində anadan olub, hicri 627-ci (1230) ildə oradan Konyaya köçmüşdür. Yüksək biliyi və kamillik dərəcəsinə görə oz zəmanəsində "Sultanul-üləma" adını almışdır. Bir müddət Larəndə (Tür- kiyənin Qaraman şəhəridir) müvəqqəti olaraq məskunlaşmış Bəhaəddin Vələd Səlcuq hökmdarı Əlaəddin Keyqubadın israrlı dəvətilə ailəsi ilə bir-

likdə Konyaya köçmüş, ömrünün son günlərini burada xalqa nəsihətlər

verərək, ilahi elmi öyrədərək tamamlamışdır. Mövlana türbəsində oğlu ilə yanaşı uyuyan böyük arifin "Məarif" adlı əhəmiyyətli bir təsəvvüf əsəri də var.

Bəyazid Bistami - Bəyazid, yaxud Əbu Yəzid Tayfur İmam Cəfəri Sadiqdən (ə) dərs almış övliyadır. İslam sufiləri arasında ən üstün mə- qama yetişənlərədn biri kimi tanınır. Mənəvi halları zamanı "Cübbəmin altında Allahdan başqası yoxdur", deyib vəcdə gələr, ayıldıqda isə tövbə edərdi.

Bədiuddin - Mövlananın müasiri və dostlarındadır. Səlcuq sultanlığında mühüm dövlət vəzifələrində çalışmışdır.

Bəhlul Danəndə (Divanə) - Abbasilər xəlifəsi Harun ər-Rəşidin zamanında yaşamışdır. Kufəlidir. Xalq arasında ağıllı dəli kimi tanınmışdır. Onun üçün bəzən ona Bəhlul Divanə də deyirlər. Mənqibələrdə onun çox qəribə xasiyyətində, ibrətli sözlərində söz açılır, nəsihətlərindən bəhs edilir. 799-cu ildə vəfat etdiyi bildirilir.

Cəlaləddin Rumi - Mövlana Cəlaləddin Rumi 1207-ci ildə Bəlxdə doğulub. "Mövlana" din və elm adamlarına hörmətlə verilən ad olub "bizim ağa" deməkdi. "Cəlaləddin" adıdı və "dinin cəlalı" deməkdi. Atası Bəhaəddin Vələd dövrünün tanınmış din adamı idi.

Ona fəxri "Alimlər Sultanı" adı verilmişdi. Qədim bir məsəldə "Alimlər Türküstanda doğulur, Bağdadda parlayır" deyilirdi. Cəlaləddin Ruminin taleyinə də belə yazılıbmış. Və qisməti ona bütün dövrlərin və zamanların ən böyük sufi alimlərindən olan Fəriddədin Əttar, İbn əl-Ərəbi, Şəms Təbrizi ilə görüşüb kamilləşmək imkanı verdi.

Cuha (yaxud Cuhı) - Ərəblərin Molla Nəsrəddini. Baməzə sözləri və lətifələri ilə məşhur olan kufəli bir qələndərdir.

Cüneyd Bağdadi - Seyyidül-taifə, yəni sufi tayfasının seyidi, deyə tanınan böyük Allah dostu və mütəsəvvifdir. Otuz dəfə Bağdaddan pi- yada Kəbəyə getdiyi haqqında məlumatlar var. İpək və şüşə ticarəti ilə məşğul olan bu zahid vaxtını boş yerə keçirməmiş, dünya və axirət işləri ilə bərabər məşğul olmuşdur. Ondan sonra gələn sufilər Cüneydin adını hər zaman hörmətlə yad etmişlər. 910-cu ildə vəfat etmişdir.

Davudi Tai - Böyük sufilərdən Marufi-Kəhrinin mürşidi və Həbib Əcəminin mürididir. Nəqşibəndi təriqətinin nümayəndələrindən sayılır.

Əbu Mənsur - Tus şəhərindədir. Şafilik cərəyanının tanınmış alim- lərindən və Allah dostlarındadır. Hicri 571-ci ildə Təbrizdə vəfat etdiyi bildirilir.

Əbubəkr Nəssac - Buxaralıdır. Xalçaçı kimi də tanınır. Öz dövründə sufilər arasında etibar və hörmət sahibi olmuşdur.

Əbu Hənifə (Numan bin Sabit) - Əhli Sünnətin 4 böyük İmaminin birincisi olan İmam-i Əzəm Əbu Hənifə, Hicri 80 (Miladi 699) Küfədə (Bəzi tarixcilərə qörə Kabulda) anadan olmuşdur. Ən böyük imam mə-

nasinda “əl-İmam əl-Əzəm” ləqəbi ilə bilinən, Əbu Hənifə künyəsi ilə Məşhur əl- Numan bin Sabit bin Numan Zuta əl-Mərzuban ət-Teymi ət-Kufi Böyük Müştəhid və Fiqh Elmində Hənəfi məzhəbinin imam və alimidir. İmam Məhəmməd Baqir (ə) və İmam Cəfəri Sadiqdən (ə) dərs almışdır. Müəl- limlərinə ehtiramla bu sözləri demişdir: “Mən xoşbəxt insanam ki, İmam Cəfəri Sadiq (ə) kimi müəlimim var.”

Elmdə dərinləşən imam, İslamın əsas prinsiplərindən olan “nəhy əz münkər” olaraq, Zamanında Əhli-Beytə zülm etdikləri üçün Əməviləri tən- qid edirdi, Abbasilər dövründə də zülmün davam etdiyini görən Əbu Hə- nifə, Abbasi iqtidarını da tənqid eləməyə başladı. Zalımlar tərəfindən ona təklif edilən qazilik məqamını rədd etdi. Onların zülmünə ortaq olmadı. Hakimiyyətə qarşı çıxdığı üçün Xəlifə tərəfindən həbs edilib dəfələrlə şallaqlandı və bütün bu işkəncələrin nəticəsində inşə Allah şəhid olaraq dünyasını dəyişdi. Çünki, Allah Rəsulu (s) buyurur: “Cihadın ən üstünü zalım sultana haqq sözü deməkdir”.

Əlaəddin Çələbi - Mövlananın ikinci oğludur. Şəmsəddin Təbrizi ilə arasında ziddiyyətlərin olduğu üçün atasını çox üzmüşdür. Gənc yaşda ölümü Mövlananı çox sarsıtmışdır. Klassik elmlərlə məşğul olan müdərris olmuşdur.

Əlaəddin Keyqubad - Səcuq sultanlarındanıdr. Sultanul-üləmanı Larəndədən (Qaraman) Konyaya dəvət edib, sarayının gül baxçasında yurd verən, alimlərə və Allah dostlarına qarşı hörmətlə davranan bir sultandr. Hakimyyəti dövrü Səlcuqlu dövlətinin ən parlaq çağıdır. Konyada, Qayseridə, Sivasda, Alaniyada tikilən möhtəşəm binaların, ölməz əsərlə- rin bir çoxu onun səltənəti zamanından qalma yadigarlardır.

Əhməd Fəqih - Mövlana Cəlaləddin və Kirmanlı Əvhadüddinin müasiridir. Mənəvi mərtəbəsi çox yüksək olan bu sufi Təbrizdə doğulmuş, sonradan Konyaya köçmüşdür. Əvhadüddin, Əhməd Fəqihdən söz açar- kən bunları deyərdi: “O, Allah dostlarındadır. Əhmədin iki cür halı var:

sərxoşluq, ayıqlıq.” Amma sərxoşluq halı onda daha sürəkli idi. Konya- dakı türbəsi bu gün də ziyarət olunur.

Əttar (Fəridəddin) - Hicri-qəməri 513-cü ildə Nişapurda anadan olub. Əzcazçılıq, həkimlik etməklə dövran sürürdü. Bir hadisə ilə təsəvvüfə yol alıb. Bu böyük mütəsəvvüf Mövlanaya ilham verən ilk insan olub. Möv- lana Əttar haqqında belə deyir: “Əttar ruh idi, Sənayi də onun iki gözü. Biz Sənayi ilə Əttarın arxasınca gəlmişik.” Əttar, “Məntiqüt -teyr”, “Pənc- namə”, “İlahinamə”, “Səadətnamə”, “Müsibətnamə”, Təzkiratül-övliya” və b. əsərləri ilə tanınır.

Firon - Britaniya Ensiklopediyasına görə, “Firon” kəlməsi yeni çar-

lıq dövründən etibarən (18-ci xanədanlıqdan başlayır; m.ö. 1539-

1292-ci illər) 22-ci xanədanlığa qədər (m.ö. 945-730-ci illər) hörmət mə- nasında işlədilib, sonralar da bu söz çarın ünvanına çevrilib, əvvəllər isə bu xitabdan heç vaxt işlədilməyib. Bu mövzuda başqa bir məlumat isə Amerika Akademik Ensiklopediyasında (Academic American Encyclopedia) qeyd edilmişdir. Həmin ensiklopediyada "Firon" ləqəbinin yeni çarlıq dövründən etibarən istifadə edilməyə başladığı bildirilir.

Göründüyü kimi, "Firon" kəlməsindən müəyyən bir tarixdən sonra istifadə olunmağa başlanıb. Dolayısı ilə Quranda bu fərqin tam olaraq qeyd edilməsi - Hz.Yusif (ə) dövründəki hökmdardan həmişə "kral, çar, hökmdar" olaraq bəhs edildiyi halda Hz.Musanın (ə) dövründəki hökmdarın hər dəfə "Firon" adlandırılması - Quranın Allahın sözü olmasını sübut edən başqa bir dəlildir.

"(Ya Rəsulum!) Keçmişin xəbərlərinin (olub keçənlərin) bir qismini sənə belə nəql edirik. Sənə Öz dərgahımızdan (insanların düşünüb daşınması, ibrət alması üçün) Quran da vermişik! Hər kəs ondan üz döndərsə, şübhəsiz ki, qiyamət günü ağır bir günaha yüklənəcəkdir" (Taha surəsi, ayə 99-100).

Əhdi Ətiqdə Hz.İbrahimlə (ə) Hz.Yusif (ə) dövründəki Misir hökmdarından Firon olaraq bəhs edilir. Halbuki Firon hər iki peyğəmbərdən sonra işlədiləcəkdi. Quranda Hz.Yusif (ə) dövründəki Misir idarəçisindən bəhs edilərkən "hökmdar, çar, kral, sultan" mənalarına gələn ərəb dilində "əl-məlik" kəlməsi işlədilir:

"Hökmdar: "Onu mənim yanıma gətirin!" dedi..." (Yusif surəsi, ayə 50).

Hz.Musa (ə) dövründəki Misirin idarəçisindən isə "Firon" kəlməsi ilə bəhs edilir. Quranda bildirilən bu fərqə nə Qədim və Yeni Əhddə, nə də yəhudi tarixçilərinin əsərlərində rast gəlmək olar. Onlar ancaq "Firon" ifadəsi işlədirlər. Həqiqətdə də Misir tarixində "Firon" ifadəsinin işlədilməsi

ancaq sonrakı dövrlərə aiddir. "Firon" xitabı ilk dəfə bizim eradan əvvəl XIV əsrdə IV Amenhotepin dövründən etibarən işlədilməyə başlanmışdır. Hz.Yusif (ə) isə bu tarixdən ən azı 200 il əvvəl yaşayıb.

İbn Sina- Abdullah İbn Sina və ya Əbu Əli Hüseyn ibn Abdullah ibn Həsən ibn Əli ibn Sina (latınlaşdırılmış adı Avisenna; 980 - 1037) - bəşəriyyətin ən böyük təbiblərindən biri.

Buxara yaxınlığında dünyaya göz açmış, qısa ömründə böyük titullar qazanmışdır: Hüdcətül-Haqq (həqiqət carçısı); Şeyx-ur-Rəis (Şeyxlərin böyüyü), Harami bozorq (dahi təbib), Şərəf-ül-Mülk (ölkənin ən şərəfli insanı) və s.

Çox kiçik yaşlarından qeyri-adi istedadı ilə seçilən İbn Sina 10 yaşında sərbəst Quran oxuyur, ərəb klassiklərinin əsərlərini əzbər bilirdi. On altı yaşa qədər hüquq və fəlsəfə ilə maraqlansa da sonralar təbabətə meyl göstərir və dünya şöhrətli təbib olur.

17 yaşlı İbn Sina hökmdarı müalicə edir. Hökmdar bu qeyri-adi oğlanı çox bəyənir və öz sarayının kitabxanasını ona həvalə edir. Böyük kitabxana İbn Sina üçün çox qiymətli tapıntı olur. Özbaşına mütaliələr və gözəl müşahidə və düşünmə qabliyyəti onun dahi həkim kimi məşhurlaşmasına səbəb olur.

18 yaşında İbn Sina artıq həkim kimi çox dövlət adamlarını, şəxsiyyətləri müalicə edərək daha da şöhrətlənir. O, çox qızğın həyat keçirir. İslamı və fəlsəfəni gözəl bilən alimin çoxlu düşmənləri də var idi. Buna görə də tez-tez bu şəhərdən o şəhərə köçmək məcburiyyətində qalırdı. Son illərini İsfahanda və Həmədanda yaşamışdır. Həmədanda hökmdar onu saray həkimi, sonra isə vəzir təyin etmişdir. İbn Sina vəzir kimi də böyük hörmət qazanmışdır. Onun tibb ensiklopediyası (4 cildlik), müxtəlif fəlsəfi kitabları, astronomiya və metafizikaya aid əsərləri bütün dünyada məşhurdur.

5 cildlik "Təbabət elminin qanunu" XII yüzil-likdə latın dilinə tərcümə olunur və bütün Avropa tibb məktəblərində uzun müddət yeganə tibb dərs- liyi kimi tədris olunur. Bu kitabda insan anatomiyasından tutmuş bir çox xəstəliklər, səbəbləri, müalicə və profilaktikası, həmçinin, daxili xəstəliklər, göz və dəri, uşaq xəstəlikləri, cərrahi metodlar, müxtəlif məsləhətlər və s. verilmişdir. Xəstəliklərin etimologiyasına aid biliklərin,insanın naturasına, həyat tərzinə uyğun xəstəliklərə yoluxması hallarının özünəməxsus şə- kildə izahatı, onun tibb aləmində bu günədək tətbiq olunması İbn Sinanın təbabətə verdiyi ən böyük töhfələrdəndir. O yazırdı ki,insan öz sağlamlı- ğını qorumaq üçün müxtəlif faktorlara uyğunlaşmalıdır:

- Qidaya;
- Geyimə;
- Burun vasitəsilə düzgün nəfəs almağa;
- Bədən quruluşunu həmişə düzgün formada saxlamağa;
- Xasiyyətini tarazlamağa;
- Bədənini «lazımsız tullantılardan» təmizləməyə;
- Fiziki və əqli aktivliyə. Onunbuxarakteristikasıgünümüzəqədərgəlibçatmış,özəhəmiyyətini

heç də itirməmişdir. İbn Sina tibb aləmində ilk psixodiaqnostik olmuşdur.

Nəbzə görə xəstənin müayinəsi onun qeyri-adi istedadından xə-

bər verir. İnsanda vegetativ dəyişikliklərə uyğun insan beyninin vəziyyəti, psixoloji durumu ona bir çox şeyi xəbər verirdi. Sanki sonralar onun bu elmi nailiyyətindən istifadə edərək müxtəlif eksperimentlər aparılmış və

«yalan detektoru» kimi aparatlar kəşf olunmuşdur.

İbn Sina ömrünün son illərində mədə sancılarından əziyyət çəkirdi. Şagirdi onun resepti ilə dərmanı düzgün hazırlamır və 58 yaşlı böyük alim mədə xorasının deşilməsindən dünyasını dəyişir. 1037-ci il 18 iyunda Həmədanda dəfn edilir. 1954-cü ildə onun mavzoleyi açılır.

Fəlsəfə, riyaziyyat, astronomiya, fizika, kimya, tibb və musiqi kimi bilik və bacarığının müxtəlif sahələrində seçilən İbn Sina, riyaziyyat elmində riyazi terminlərin tərifi; astronomiya sahəsində isə həssas müşahidələrin aparılması mövzuları ilə maraqlanmışdır.

Astrologiya və kimyaya etibar etməyib Dəyişilmə nəzəriyyəsinin doğru olub- olmadığını apardığı təcrübələrlə tədqiq etmiş və doğru olma- dığını isbat etmişdir. İbn Sinaya görə, hər element yalnız özünə xas keyfiyyətlərə malikdir və beləliklə, daha dəyərsiz metallardan qızıl və gümüş kimi daha dəyərli metalların əldə edilməsi mümkün deyil.

İbn Sina, mexanika ilə də maraqlanmış və bəzi cəhətlərdən Aristotelin hərəkət anlayışını tənqid etmişdir. Aristotel, cismi hərəkət etdirən qüvvə ilə cisim arasındakı toxunma yox olduqda, cismin hərəkətini davam et- dirməsini təmin edən amilin şərait, yəni hava olduğunu bildirir və havaya, biri cismə müqavimət digəri isə cismi daşıma olmaq kimi bir-birinə uzaq olan iki vəzifəni yükləyirdi.

İbn Sina, bu zidd durumu sezmiş, apardığı müşahidələr nəticəsində hava ilə küləyin güclərini müqayisə etmiş və Aristotelin haqlı ola bilməsi üçün havanın şiddətinin küləyin şiddətindən daha çox olması nəticəsini çıxarmışdır. Ancaq bir ağacın yaxınından ötüb keçən bir ox, ağaca dəy-

mədiyi müddətcə, ağacda və yarpaqlarında ən xırda bir tərpənmə mey- dana gətirmədiyi halda, külək, ağacları silkələməkdə və hətta kökündən qopara bilməkdədir. Elə isə havanın şiddəti cisimləri daşımaq üçün kifa- yət deyil.

İbn Sina, hər şeydən öncə həkimdir və bu sahədəki tədqiqatları ilə məşhurdur. Tibblə əlaqəli bir çox əsər qələmə almışdır; bunlar arasında xüsusilə ürək-damar sistemi ilə əlaqəli olanlar diqqətə layiqdir. Ancaq İbn Sina dedikdə, onun adı ilə bütünləşmiş və Qərb ölkələrində 16-cı əsrin və Şərq ölkələrində isə 19-cu əsrin əvvəllərinə qədər oxunmuş və istifadə edilmiş “əl-Qanun fit-Tibb” adlı əsəri yadımıza düşür.

Beş kitabdan ibarət bu ensiklopedik əsərin birinci kitabı, anatomiya

və qoruyucu həkimlik; ikinci kitabı adi dərmanlar; üçüncü kitabı patologiya; dördüncü kitabı dərmanlar və cərrahi metodlarla müalicə; beşinci kitabı isə müxtəlif dərman tərkibləri ilə əlaqəli təfsilatlı məlumatlar verilmişdir.

İbn Sinanın bu əsəri araşdırıldıqda, mövzuları sistematik bir formada tədqiq edildiyi nəzərə çarpır. Tarixdə ilk dəfə tibb və cərrahiyyəni iki ayrı qayda-qanun kimi qiymətləndirən İbn Sina, cərrahi müalicənin düzgün aparılması üçün anatomiyanın vacibliyini xüsusi vurğulamışdır. Həyat təhlükəsi çox yuxarı olduğu üçün dəbdə olmayan cərrahi müalicə ilə əla- qəli nümunələr vermiş və əməliyyatlarda istifadə etmək üçün bəzi alətlər təklif etmişdir.

Göz ilə də maraqlanmış İbn Sina, dövrünün seçilən fiziklərindən İbn Heysem kimi, Göz-Şüa Nəzəriyyəsini müdafiə etmiş və üst göz qapağının xaricə çıxması, davamlı ağ rəngə və ya qara baxmaqdan meydana gələn qar korluğu kimi daha öncə bəhs edilməyən xəstəliklər haqqında da təf- silatlı izahlar vermişdir.

İdris (ə) - Məlum olduğu kimi, İdrisin (ə) əsl-nəsəbi dörd vasitə ilə Şeysə (ə) yetişir. Onun adı ibri dilində adı Xunux, ərəbcədə isə Uxnux kimi tələffüz olunur. Bəzi nəql olunanlara görə Yunan hikmət alimləri onun adını Hirmisül-haramisə, ya həkim Hirmis qoymuşlar. Hirmis ərəbcə olub, yunanca isə İrmis Merkuri ulduzu mənasınadır. Bəziləri isə yunancasının Tirmis olmasını yazırlar.

Onun anadan olduğu şəhəri bəziləri Babul, bəziləri isə qədim Misirin paytaxtı Mənəf şəhərinin olduğunu qeyd edirlər.

Nübüvvət mənsəbi Əbul-bəşər Adəm (ə) və onun övladı Şeysdən (ə) sonra bütün xüsusiyyətlər, İsmi-əzəm və vəsiyyətnamə ilə ona yetişdi.

Onun rəvayətlərdə İdris (ə) adlandırılması onun həddən artıq dərs və kitabla məşğul olmasıdır. Tarix və rəvayətlərə görə, ilk yazı yazan, paltar tikən və dərzilik öyrədən şəxs İdris (ə) idi. Ondan qabaq insanlar özlərini heyvan dəriləri ilə örtürdülər. O, bir çox elmlərin- nücüm, (münəccimlik), hesab (cəbr), həndəsə, heyət (astronomiya) və s. elmlərin mənşəyi və ilk müəllimi kimi hesab olunur. Əbdül Vəhhab Nəccarın "Qisəsülənbiya" kitabında onun Misirə gəlməsi, orada məskunlaşması və camaatı haq- qa, əmr be mərufa, nəhy əz münkərə dəvət etməsi yazılır. Əlavə edir ki, o dövrün camaatı yetmiş iki dildə danışırdılar və Allah-taala bütün bunları ona öyrətdi. İdris (ə) də siyasət, şəhər idarəetmə və ölkə qayda- qanunlarını camaata öyrətdi. Həmçinin şəhərsalma yollarını da onlara öyrətdi. Bunun nəticəsində yer kürrəsində 188 şəhər salındı və onların ən kiçiyi Rəha şəhəri idi.

İsa (ə) - (ivritcə Yeşua) - xristianlıqda Məsiha, Nazaretli, İnsan oğlu,

pravoslavlıqda Xilaskar və s. adlanır. İslamda peyğəmbərlərdən biridir.

İsanın yerdəkı həyatı və onun meracı əksərən kanonik və apokrifik incillər verirlər. Onun doğulması Həzrət Cəbrail (ə) vasitəsilə Həzrət Mər- yəmə (ə) qabaqcadan xəbər verilir. Məsiha padşahı kimi Davud (ə) süla- ləsinin varisi olan İsa (ə) Beytləhmdə doğulur.

İslam dinində İsa peyğəmbər (ə) Allahın elçisi olub və Allah tərəfindən müqədəs ruhla gücləndirilib.

Quranda Məryəm oğlu İsa haqqında

"Onlar həm də küfr etdiklərinə və Məryəmə böyük bir böhtan dediklərinə görə, bir də: «Həqiqətən, biz Allahın elçisi Məryəm oğlu İsa Məsihi öldürdük!»- dediklərinə görə lənətə düçar edildilər. Halbuki onu nə öldürdülər, nə də çarmıxa çəkdilər. Onlara ancaq İsanın bənzəri göstərildi. Şübhəsiz ki, bunda ixtilaf edənlər onun barəsində şəkk-şübhə içindədirlər. Bu haqda onların, zənnə uymaqdan başqa heç bir məlumatı yoxdur. Onlar onu öldürdüklərinə yəqinliklə əmin deyillər" (Nisa surəsi, ayə

156-157). Bu surədə «Onlar» yəhudilərə aiddir.

Qəzali - Əbu Hamid Məhəmməd ibn Məhəmməd əl-Qəzali. 1058-ci ildə İranın Tus şəhərində anadan olmuşdur. Bağdadın Nizamiyyə mədrəsəsində qanunşünaslıqdan dərs demiş, əşəri kəlamının inkişafına kömək etmişdir. Bir sıra əsərlərində müsəlman filosofları, Şərq aristo- telizminin nümayəndələri (əl-Fərabi, İbn Sina və başqaları) ilə dünyanın əbədiliyi, səbəbiyyət nəzəriyyəsi və başqa bu kimi problemlər barəsində mübahisə açmışdır. Filosofların baxışlarını şərh etməklə əslində onların müsəlman dünyasında yayılmasına kömək etmişdir. Özünün əsas əsəri

olan «Dini elmlərin dirçəldilməsi» kitabında dini-fəlsəfi və etik doktrina işləyib hazırlamış, bu doktrinada sünni ənənəçiliyi ehkamlarını sufilik idealları ilə birləşdirmişdir (məsələn, şəriətin yol verdiyi mərasimləri sufi ayinləri ilə tamamlamışdır).

Əl-Qəzali insanın iradə azadlığı və alın yazısı məsələsini nəzərdən keçirərkən «mənimsəmə» (kəsb) konsepsiyasını inkişaf etdirir. Həmin konsepsiyaya görə, insan bir növ Allahın ona təklif etdiyi yaxşı və özünün istədiyi yanlış hərəkətləri (götür-qoy edib) seçməkdə azaddır və buna görə də öz hərəkətlərinin Allah tərəfindən irəlicədən müəyyən edilməsinə baxmayaraq, onlar üçün məsuliyyət daşıyır. Əl-Qəzali müsəlman təfək- kürünün inkişafına, habelə orta əsr Avropa fəlsəfəsinə böyük təsir gös- tərmişdir. Onu adətən hüccət ül-islam (İslamın dəlili) adlandırırlar.

Ömər Xəyyam - Qiyasəddin Əbu əl-Fəth Ömər ibn İbrahim Xəyyam Nişapuri və ya sadəcə Ömər Xəyyam (1048 - 1131) - dahi İran şairi, riyaziyyatçı, astronom və filosofu. Xorasan vilayətinin Nişapur şəhərində

anadan olmuşdur. Gənc yaşlarında doğma şəhəri Nişapuru tərk edir və Səmərqənddə yaşayır. 1074-cü ildə İsfahana rəsədxanaya rəhbərlik etmək üçün dəvət alır. 1092-ci ildə ona hamilik edən səlcuq şahı Məlik şahın və vəziri Nizam-əl Mülkün vəfatından sonra İsfahanı tərk etməli olur.

Xəyyam bir müddət Mərvdə Məlik şahın varislərindən birinin sarayında işləyir, amma ona çox arzuladığı yeni rəsədxana açmaq qismət olmur.

Şərqdə və Qərbdə özünün müdriklik, yumor və satira dolu, bəzən də bir qədər qaba səslənən rübailəri ilə məşhurdur. Şərqdə uzun müddət yaddaşlardan silinən Xəyyam rübailəri Avropaya Edvard Fitsjeraldın tər- cümələri ilə qədəm qoyur və görünməmiş uğur əldə edir.

Ömər Xəyyam həm də bütün dövrlərin ən böyük riyaziyatçılarından biri olmuşdur. «Riyazi problermlərin nümayişinə dair» traktatı ilə riyaziyyat elminin inkişafına misilsiz töhfələr vermişdir. Bu əsərində Xəyyam üçdərəcəli tənliklərin həllini ilk dəfə həndəsi yolla - hiperbola ilə dairənin kəsişməsindən almışdır. Onun Günəş sisteminin heliosentrik nəzəriyyə- sini Kopernikdən çox-çox əvvəl irəli sürməsi də bildirilir.

Mühyiddin İbn əl-Ərəbi - İslam düşüncəsinin batini yönünü fəlsəfi baxımdan izah edən ilk sufi və mütəfəkkir olan İbn Ərəbi 1165-ci il avqust ayının 7 - də (hicri 560 - cı il Ramazan ayının 27 - si) İspaniyanın Mursiya əyalətində anadan olub. Təhsilini İslam mədəniyyətinin mərkəzlərindən hesab edilən Sevilyada tamamlayan İbn Ərəbi 1198 - ci ildə şərqə üz tut- muş və bir daha boya - başa çatdığı yerlərə geri qayıtmamışdır.

İbn Ərəbi ilk mühüm dayanacağı olan Məkkədə ən məşhur əsəri olan “Fütuhat əl-Məkkiyyə”ni yazmağa başlamış və kitabı Suriyada tamamlamışdır. İbn Ərəbi 560 fəsildən ibarət olan bu məşhur əsərində bütün batini İslam elmlərini özünün anladığı və təcrübədən keçirdiyi formada araşdırmışdır. Digər tərəfdən, kitab məşhur sufi alimin daxili dünyası ilə bağlı əhəmiyyətli məlumatları ehtiva etdiyindən şəxsi ensiklopediya mahiyyətindədir. Misirdən Anadoluya - Konyaya keçən İbn Ərəbi burada Sədrəddin Konyəvi ilə qarşılaşdıqdan bir müddət sonra onun anası ilə evlənmişdir. İbn Ərəbi uzun səyahətlərdən sonra Suriyada məskunlaşmış və 1240 - cı ildə burada vəfat etmişdir.

Sədi Şirazi- (əsl adı Müslihiddin Müşrif ibn Abdulla) - orta əsrlər fars ədəbiyyatının, qəzəl janrının ən görkəmli nümayəndələrindən biri. Sədinin əsərləri dünya ədəbiyyatında həm keyfiyyəti, həm də daşıdığı dərin ictimai-sosial əhəmiyyətinə görə yüksək qiymətləndirilir. Şirazda doğulan Sədi gənc yaşlarında ərəb ədəbiyyatını və İslam biliklərini öyrənmək

üçün Bağdada köçür. Monqol istilalarından sonra, Sədi səfərə çıxmaq qərarına gəlir və ömrünün böyük qismini İraqı, Anadolunu, Suriyanı, Mi- siri, həmçinin Mərkəzi Asiyanı və Hindistanı gəzməyə, orada yaşayan insanların həyat tərzi ilə tanış olmağa həsr edir. Doğma Şirazına ahıl yaşlarında qayıdır.

Sədinin ən məşhur əsərləri «Bustan» (1257) və «Gülüstan»dır (1258).

«Bustan» lirik janrda yazılmış islami nəsihətlərdən, dini baxımdan ədliyyə, təvazökarlıq, bərabərlik kimi keyfiyyətlərin tərifindən ibarətdir. Bundan savayı, əsər dərviş mədəniyyəti haqqında məlumat verir. «Gülüstan» epik formada təqdim edilmiş əhvalatlardan, lətifələrdən, hikmətli sözlərdən, məsləhətlərdən və qısa şeirlərdən ibarətdir. Hər iki əsər 1654-cü ildə alman dilinə tərcümə edilərək ilk dəfə avropalılara təqdim edilib.

Sultan Mahmud Qəznəvi- Səbutəkin öləndən sonra oğlu Sultan Mahmud Qəznəvi (998-1030) hakimiyyətə gəldi. Tarixdə ilk dəfə "sultan" titulu Mahmuda verilmişdir. Samanilər dövləti 999-cu ildə dağıldı, onun ərazisi Qəznəvi və Qaraxanlı dövlətləri arasında bölüşdürüldü. Nəticədə keçmiş Samani torpaqları olan Xorasan, Xarəzm, Sistan və indiki Əfqanıstan Qəznəvi dövlətinə qatıldı.

Mahmud Qəznəvi 1002-1026-cı illərdə 17 dəfə Hindistana hücum etmişdi. Onun şimal və şimal-şərq torpaqlarını, yəni Kəşmir, Pəncab, Qucarat vilayətlərini Qəznəvi dövlətinə qatmış, Hindistandan çoxlu qənimət əldə etmişdi. Mahmud hakimiyyətini Qərbi İranda yaymaq məqsədilə

1029-cu ildə Rey, Həmədan və İsfahan əyalətlərini, az sonra Gur əyalətini

tutdu. Sultan Mahmudun hakimiyyətinin son dövründə Qəznəvi dövləti Hindistandan Xarəzmə və Xəzər sahili torpaqlara qədər ərazini əhatə edirdi.

Qəznəvi dövləti feodal monarxiyası idi. Dövləti sultan idarə edirdi. Sultan Mahmud mərkəzi hakimiyyəti möhkəmləndirirdi, bu məqsədlə mülki əsilzadə, qulamlardan ibarət hərbi əyanlara, türklərdən ibarət hərbi əyanlara arxalanırdı. Sultan Mahmudun ordusunda yüksək hərbi intizam var idi. Ordunun əsasını türk əsilli qulamlar (qvardiya) təşkil edirdi. Qəz- nəvi ordusunda "qazilər" deyilən könüllü döyüşçülər iştirak edirdi. Sultan Mahmud Qəznə şəhərinin inkişafına kömək edirdi.

Şihabəddin Sührəvərdi - Şihabəddin Əbülfütuh Yəhya Həbəş oğlu Sührəvərdi - böyük filosof, işraqilik fəlsəfəsinin banisi, tanınmış şair Şərqin ən böyük filosoflarından biri, işraqilik (əl-işraq-nurlandırma) fəlsəfəsinin banisi. V.Qordlevskinin yazdığına kimi, o, mənşəcə Azərbaycan

türklərindəndir və səlcuq sultanı Qılıc Arslanın və onun oğlanları Nəsir-əd-Din və Qiyas-əd-Di-nin sevimlisi olmuşdur. Tədqiqatçının fikrincə, Şi- habəddin öz əsərini Qılıc -Arslana ithaf etmişdir, o, həm də ritual sufi rəqslərinin həvəskarı olmuşdur.

Ş.Sührəvərdi mütləq biliyin mənbəyini maddi aləmdən kənarda axtarırdı. Onun fikrincə, "İşraq fəlsəfəsi" kitabını intuisiyanın köməyilə də- rindən anlamaq mümkündür. İşraqilik fəlsəfəsinə görə, hissi və əqli idrak vasitəsilə maddi aləmin şeyləri və hadisələri haqqında müəyyən bilik əldə edilir, intuitiv idrak isə insana işıqlar aləminin sirlərini açır, mütləq həqiqəti aşkar edir.

Azərbaycanın qədim Zəncan şəhəri yaxınlığında Sührəvərd qəsəbəsində 1154 - cü ildə anadan olmuşdur. Filosofunun tam adı Şihabəddin Əbülfütuh Yəhya ibn Həbəş ibn Əmirək Sührəvərdidir. Sührəvərdi (əs-Sührəvərdi) nisbəsi Sührəvərdə mənsubluğu bildirir. Mənbələrdə göstərilir ki, Sührəvərd Zəncan şəhəri yaxınlığında kiçik yerdir, Zəncan isə Güney Azərbaycanın Cibal (əl-Cibal - Dağlar) nahiyəsidir. Şihabəddin filosofun ləqəbidir. Şəmsəddin Şəhrəzuri ləqəbi Şihab əl-millə və-l-haqq və-d-din (Millətin, haqqın və dinin axan ulduzu, meteor) şəklində yazaraq izahat verir. Filosofun künyəsi Əbülfütuh «Qələbələr atası» mənasını verir.

Tusi (Nəsrəddin) - Məhəmməd Nəsrəddin Tusi Həsən oğlu (17.2.1201, Həmədan, bəzi mənbələrə görə Tus şəhəri, 25.6.1274, Bağdad) - Azərbaycan ensiklopediyaçı alimi, dövlət xadimi. «Tusi» ləqəbi təhsil aldığı Tus şəhərinin adındandır. İlk müəllimi atası, sonrakı müəllimləri isə Bəhmənyar və İbn Sina məktəbinə mənsub alimlər olmuşdur. Nəs-

rəddin Tusinin təsis etdiyi Marağa Astronomiya Rəsədxanası qısa müd- dətdə astronomiya cihazlarına və zəngin kitabxanaya malik böyük elmi mərkəzə çevrilmiş, bir çox məşhur riyaziyyatçı və astronomlar buraya cəlb edilmişdir. Onun rəhbərliyi ilə elmin müxtəlif sahələrinə aid bir sıra qiymətli əsərlər yaradılmışdır.

«Zici Elxani» əsərində planetlərin geosentrik orbitinin əsas elementləri verilmiş, onların sutkalıq orta hərəkəti öz dövrünə və hətta 17-ci əsr astronomiya müşahidələrinə nisbətən daha dəqiq təyin edilmişdir. Tusinin rəhbərliyi ilə yerin fırlanma oxunun illik presessiyasının qiyməti

51» 4 tapılmışdır (müasir qiyməti 51»2). «Zici Elxani» əsərində çoxlu riyazi, astronomik və coğrafi cədvəllər də verilir. Ən mühümləri sinus və tangensin altmışlıq say sistemində 3 rəqəmli triqonometriya cədvəlləri,

13-cü əsrdə məşhur olan 256 şəhərint coğrafi koordinatları cədvəlidir. Kolumbun müəllimi Toskanelli bu cədvəldən istifadə etmişdir. Cədvəl

Londonda (1652) və Oksfordda (1652) ərəb və latın dillərində çap edilmişdir. Tusinin «Təhriri-Öqlidis» (Evklidin şərhi) əsəri həndəsənin inkişafına təkan vermiş, Romada ərəb (1594) və latın (17-ci əsr) dillərin- də nəşr olunmuş, A. Lecandarın, ingilis riyaziyyatçısı J. Vallisin və italyan alimi J. Sakkerinin işlərinə böyuk təsir östərmişdir. Nəsrəddin Tusi bu əsərdə və «Həndəsənin əsasları»nda Evklidin 5-ci postulatı haqqında öz nəzəriyyəsini vermiş 56 üçbucağın daxili bucaqlarının cəmi arasında əlaqəni tapmışdır.

Arximedin «Kürə və silindr» və «Dairənin kvadratlanması» əsərlərindəki nisbətlər nəzəriyyəsini Tusi inkişaf etdirmişdir. Tusinin ədəd anlayışı müasir təsəvvürə uyğun gəlir və o, bu sahədə Avropa riyaziyyatçılarını 400 il qabaqlamışdır. Onun «Şəklül-qita» (Tam dörd tərəfli traktat) əsəri müstəvi və sferik triqonometriyadan bəhs edir. O, əsərdə Menelay teoremini, müasir triqonometriyanın əsas teorem və düstürlarını vermiş, sferik üçbucağın üç bucağına görə tərəflərini təyin etmişdir. Əsər 1891-ci ildə İstanbulda ərəb və fransız dillərində nəşr olunmuşdur. «Cələul-he- sab» («Taxta və qum vasitəsilə hesablama») əsərində müsbət ədəddən istənilən dərəcədə kökalma qaydası, binominal hədlərin on iki dərəcəli həddədək əmsalları verilir.

«Təhrir ül- Məcəsti» əsəri «Almagest»in işlənmiş variantı, «Təzkireyi- Nəsiriyyə» isə Tusinin orijinal əsəridir. Hər iki əsər Ptolomeyin geosentrik sistemi daxilində planetlərin hərəkət nəzəriyyəsinə və onun təshihinə aiddir. Nəsrəddin Tusi hesaba aid əsərində tam ədəddən ixtiyari dərə- cədən kökalma əməlini 4V2441 40626 kökünün nümunəsi kimi izah et-

miş (riyaziyyat tarixində ilk dəfə), ədəd üçbucağını əmələ gətirən bino- mial əmsalları və onlar arasında qanunauyğunluqları göstərmiş, Nyuton binomunu sözlə ifadə etmişdir. Nəsrəddin Tusi fizikaya dair əsərlərində təbiətdə maddənin saxlanması və çevrilməsi haqqında ilk fikir söy- ləmişdir. Nəsrəddin Tusi 13-cü əsrin 30-cu illərində Quzistana gəlmiş və yerli ismaililərin başçısı Nasirin təklifi ilə 1236-cı ildə tərbiyə, əxlaq və pedaqogikaya aid «Əxlaqi-Nasiri» (Nasirin əxlaqa aid kitabı) əsərini yaz- mışdır. Quzistanda Tusi həbs olunub Ələmut qalasında salınmış, monqol sərkərdəsi Hülaku xan bu qalanı aldıqdan sonra Tusini azad edib, özünə məsləhətçi təyin etmiş və bu zaman Nəsrəddin Tusi minlərlə günahsız alim və bacarıqlı şəxsləri monqol qılıncından xilas edə bilmişdir. Hülaki xanın vəfatından sonra (1265) isə Tusi onun oğlu Abaqa xanın vəziri ol- muşdur.

Nəsrəddin Tusinin fəlsəfi görüşləri Bəhmənyarın təsiri ilə formalaşmışdır. «İbn Sinanın fəlsəfəsi və məntiqinə şərhlər», «Səhifələrində ər-

Razinin qeydləri» («Şərh ul-İşarət»), «Teologiya və metafizikaya dair risalə» («Təcrid əl-kənan»), «Əxlaqi-Nasiri», «Alicənab insanların xarakterləri və keyfiyyətləri» («Övsafül-əşrəf») və b. əsərlərində İbn Sinanın fəlsəfi görüşlərini şərh etmişdir. Tusi Ayın və Günəşin tutulmasını, işığın sınmasını, göy qurşağının yaranmasını izah etmişdir.

Tusi Bağdada səfəri zamanı vəfat etmişdir. Qəbrinin üzərində «Elmin köməkçisi, elm ölkəsinin şahıbi, Dövr anası belə oğul hələ doğmamışdır yazılmışdır».

***Kitabdakı adı keçən şəxslər haqqında məlumatların toplanmasında <http://az.wikipedia.org/> internet səhifəsindən də istifadə olunub.***

Makalat (Konuşmalar) Şems-i
Tebrizi Çeviri: Mehmed Nuri
Gençosman Ataç yayınları
İstanbul 2009

**Tiraj: 1000**

**Kitab “N Print” Studiya məətbəsində çap olunub.**

**“Konstitusiya” Araşdırmalar Fondu**
**AZ 1001, Bakı şəh. M.Əfəndiyev 7/24**
**E-mail: kafondu@yandex.ru**